İ

İbuprofen (*ibuprofenum*) – fenil propin törəməsi olan qeyri-steroid iltihabəleyhinə preparat

İdeator avtomatizm – xəstəyə elə gəlir ki, kənar şəxslər onun beyninə fikir yeridir, onu izləyir, zəhərləməyə və xətər yetirməyə cəh edirlər

İdeator-affektiv dissosiasiya – *bax:* affektiv dissosiasiya

İden-Hyubinet üsulu (R. Eden, alm. cərrahı; S. Hybinette, isveç cərrahı) – *bax:* Eden-Hyubinet üsulu

İdentifikasiya (lat. *indentifico* oxşatmaq, eyniləşdirmək) – müəyyənləşdirmə, eyniləşdirmə

İdeomotor hərəkət – həkim fikrinin törətdiyi əzələ hərəkəti

İdeor – psixiatriyada: fikir, təsəvvür

İdiopatik (*idiopathicus*) – birincili, sərbəst və səbəbsiz əmələ gələn

İdiopatik akrosianoz (*acrocyanosis idiopathica*) – xırda arteriyaların spazmı nəticəsində cinsi yetişkənlik dövründə qız uşaqlarında müşahidə olunan davamlı akrosianoz

İdiopatik çoxsaylı hemorragik sarkoma (*sarcoma idiopathicum multiplex haemorrhagicum)* – əsas etibarı ilə dəridə yerləşən qan damarlarının genişlənməsi, endotel qatının şişkinləşməsi və çox saylı müxtəlif formalı boşluqların əmələ gəlməsi ilə gedən naməlum etiologiyalı xəstəlik

İdiopatik fibrozlaşan alveolit – ağciyər toxumasında iltihab və fibrozlaşma ilə nəticələnən, tənəffüs çatışmazlığı ilə gedən, etiologiyası məlum olmayan xəstəlik

İdiopatik hiperbilirubinemiya – *bax:* Jilber-Meylenqraxt sindromu

İdiopatik hipoqammaqlobulinemiya (*hypogammaglobulinaemia idiopathica*; sin. hipoqammaqlobulinemiyanın Barandun növü) – qanda qamma-qlobulinlərin konsentrasiyasının azalması ilə xarakterizə olunan xəstəlik; dəri və ağciyərlərin xroniki zədələnməsi, hepato- və splenomeqaliya ilə təzahür edir

İdiopatik xronik blokada – *bax:* Leneqr xəstəliyi

İdiopatik lipoidoz (*lipoidosis idiopthica*) – dəri və selikli qişalarda kstantomatozun olması, hepatomeqaliya, lipemiya, hiperxolesterinemiya ilə xarakterizə olunan xəstəlik

İdiopatik lipoidtezaurismoz – *bax:* idiopatik lipoidoz

İdiopatik miokardit (*myocarditis idiopathica*) – ürək çatmamazlığı, ritm və keçiricilik pozğunluğu, ürəkdaxili tromblaşma və böyük qan dövranı arteriyalarının embolizasiyası ilə xarakterizə olunan naməlum etiologiyalı miokardit

İdiopatik ödem – köklüyə və vegetativ pozğunluğa meyilli cavan qadınlarda günün sonuna yaxın topuqlar və baldırlar nahiyəsində yaranan ödem

İdiopatik perikardit (*pericarditis idiopathica*) – kəskin perikarditin inkişafı ilə xarakterizə olunan naməlum etiologiyalı (ehtimala görə virus etiologiyalı) xəstəlik

İdiopatik urialoz – *bax:* idiopatik lipoidoz

İdiopatik yuvenil artrit – xroniki proqressivləşən gedişli, heterogen xəstəliklər qrupu

İdiopatiya (yun. *idios* özününkü, *pathos* xəstəlik) – simptomatik və ya simpatik xəstəliklərdən fərqli ola-

raq, digər xəstəliklərdən asılı olmayan, öz-özünə inkişaf edən müstəqil xəstəlik

İdiot (yun. *idiotes* cahil, avam) – oliqofreniyanın ən ağır dərəcəsi; intellekt və nitqin olmaması, xəstə yalnız müxtəlif səslər çıxarmaqla ünsiyyət yaratmağa çalışır

İdiotizm – *bax:* idiot

İdiosinkraziya (*idio-* + yun. *synkrasis* qarışma) – orqanizmin qida və dərman maddələrinə qarşı həssaslığının yüksəlməsi

İdman təbabəti – tibbin fiziki tərbiyənin və idmanın insan orqanizminə, sağlamlığının möhkəmləndirilməsinə, iş qabiliyyətinin artırılmasına və uzunömürlülüyə təsirini öyrənən sahəsi

İdman ürəyi – uzun müddət idmanla məşğul olan şəxslərdə, əvvəl sol, sonra isə sağ mədəciyin hipertrofiyası, dilatasiyası, yığılma qabiliyyətinin artması və sakitlik halında bradikardiya ilə xarakterizə olunan ürək

İdrak – *bax:* intellekt

İerofobiya (yun. *hieros* müqəddəs + *fobiya*) – ziyaretgah ve ruhanilerden qorxu

İersinioz (*yersiniosis*) – *Yersinia enterocolitica*-nın səbəb olduğu kəskin infeksion xəstəlik; qızdırma, intoksikasiya, qastroenterit və ya enterokolt əlamətləri ilə, mezenterium limfa düyünlərinin zədələnməsi ilə xarakterizə olunur

İflic *(*yun *paralysis*; *paralyo* açmaq, zəiflətmək*)* – müvafiq əzələnin innervasiyasının pozulması zamanı iradi hərəkətlərin tam olmamasından ibarət hərəki funksiyaların pozulması

Atonik iflic – *bax:* periferik iflic

Biləyin «yuxu» iflici – dərin yuxu zamanı mil sinirinin sıxılması nəticəsində meydana çıxan biləyin iflici (məs., alkoqolizm zamanı)

Eklamptik iflic *(p. eclamptica)* – eklampsiya zamanı meydana çıxan beyin ödemi və qansızması nəticəsində təzahür edən iflic

Funksional iflic *(p. functionalis)* – sinir sisteminin morfoloji dəyişikliyi olmadan təzahür edən iflic (məs., isterik iflic)

Gecə iflici – yuxuda ətrafların keyləşməsi

Gözün hərəki iflici *(p. oculomotoria)* – gözün hərəki sinirinin zədələnməsi nəticəsində meydana çıxan ptoz; gözün xaricə və aşağı yerdəyişməsi, bəbəyin genəlməsi və akkomodasiyanın pozulmasından ibarət iflic

İsterik iflic *(p. hysterica)* – isteriya tutması zamanı obyektiv əlamətlər olmadan meydana çıxan iflic

İşemik iflic *(p. ischaemica)* – sinir sistemində qan dövranının pozulması nəticəsində meydana çıxan iflic

Kokain iflici *(p. cocainica)* – kokainlə zəhərlənmə zamanı sinir-əzələ sinapsında ötürücülüyün pozulması nəticəsində meydana çıxan periferik iflic

Qabıq iflici *(p. cordicalis)* – baş beyin qabığının zədələnməsi zamanı, əsasən monoplegiya şəklində təzahür edən mərkəzi iflic

Qalxan iflic *(p. ascendens)* – ayaqdan başlayaraq sürətlə gövdə, əl, boyun, üz, dil, udlaq və qırtlaq əzələlərinə yayılan periferik iflic (yoluxucu xəstəliklər zamanı təsadüf olunur)

Qoltuqağacı iflici – qoltuqağacın-

dan istifadə zamanı bazu kələfinin sıxılması nəticəsində meydana çıxan əlin periferik iflici

Mərkəzi iflic *(p. centralis)* – beyin yarımkürələri qabığının hərəki neyronlarının, onlardan çıxan qabıq-onurğa beyni, qabıq-nüvə liflərinin zədələnməsi zamanı əzələ tonusu, vətər reflekslərinin yüksəlməsi, patoloji reflekslər və sinkineziyalar, dəri reflekslərinin itməsi ilə təzahür edən iflic

Mimik iflic *(p. mimetica)* – üz sinirinin zədələnməsi zamanı üzün assimetriyası və amimiya ilə təzahür edən periferik iflic

Periferik iflic *(p. peripherica)* – onurğa beyninin ön buynuzlarının, ön köklərinin və onurğa sinirlərinin, həmçinin kəllənin hərəki sinirlərinin zədələnməsi zamanı meydana çıxan, əzələlərin atoniyası və atrofiyası, arefleksiya ilə təzahür edən iflic

Piramidal iflic *(p. pyramidalis)* – *bax:* mərkəzi iflic

Səhər iflici *(p. matunia)* – paralitik formalı polimielit zamanı yuxu vaxtı meydana çıxan və yuxudan durduqda aşkar edilən bir və ya bir neçə ətrafın periferik iflici

Spastik iflic *(p. spastica)* – *bax:* mərkəzi iflic

Süst iflic – *bax:* periferik iflic

Tənəffüs mərkəzinin iflici – uzunsov beyində tənəffüs mərkəzinin zədələnməsi nəticəsində meydana çıxan tənəffüs əzələlərinin iflici

Üzvi iflic *(p. organica)* – sinir sisteminin morfoloji dəyişikliyi nəticəsində meydana çıxan iflic

İfrazat – bədənin ifraz etdiyi maddələr

İxnoqrafiya *(*yun. *ichnos* iz + *grapho* yazmaq*)* – boya ilə örtülmüş metal zolağın üstünə qoyulmuş kağız üzərində yeridikdə alınmış ayaq izlərinə əsasən, yerişin və ayaq formasının təyini üsulu

İxorotoraks *(ichorothorax)* – *bax:* çüruntülü plevrit

İxoroz *(ichorosus)* – toxumaların pis qaz iyinin əmələ gəlməsi ilə xarakterizə olunan çüruntülü parçalanması

İxti – *(*ixtio-, yun. *ichthys* balıq*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "balığa aid", "balıq qabığına aid" mənasını verir

İxtiizm *(ichthyismus)* – *bax:* botulizm

İxtio – *bax:* ixti

İxtiol *(ichthyolum)* – üzvi kükürd tərkibli antiseptik maddə

İxtiosarkotoksizim *(ichthyosarcotoxismus)* – *bax:* ixtiotoksikoz

İxtiotoksikoz *(ichthyotoxicosis)* – zəhərli göbələklərin istifadəsindən yaranan qida zəhərlənməsi

İxtioz *(ichthyosis)* – ətrafların açıcı səthində və gövdədə bozumtul rəngli pulcuqların əmələ gəlməsi və dərinin kəskin quruması ilə xarakterizə olunan dəri xəstəliyi

Ağ ixtioz *(i. alba)* – pulcuqların ağ rəngdə olması ilə fərqlənən ixtioz forması

Anadangəlmə ixtioz *(i. congenita)* – bətndaxili inkişaf zamanı meydana çıxan və yenidoğulmuşlarda aşkar edilən irsi ixtioz

Birtərəfli ixtioz – bu növ ixtioz bədənin bir tərəfində lokallaşmış olur; böyrəklərin kistoz zədələnməsi və sümüklərin çoxsaylı deformasiyaları müşahidə olunur

Bullyoz ixtioz *(i. bullosa)* – qabarcıqların əmələ gəlməsi ilə xarakterizə olunan adi ixtiozun bir növü

Buynuzşəkilli ixtioz *(i. cornealis)*

– sıx, buynuzşəkilli pulcuqların formalaşması ilə xarakterizə olunan adi ixtiozun bir növü

Dolanan linear ixtioz *(i. linearis circumflexa)* – halqaşəkilli və ya çoxbucaqlı eritema sahələri və bu sahələrin ətrafında lövhəcikşəkilli qabıqlanma ilə xarakterizə olunan irsi ixtiozabənzər eritrodermiya

Dölün ixtiozu *(i. fetus)* – dəri səthi boyunca çoxsaylı pulcuqlardan ibarət və dərin çatları olan qalın zirehin (qının) formalaşması ilə xarakterizə olunan anadangəlmə ixtiozun forması

Epidermolitik ixtioz – nadir anadangəlmə xəstəlikdir, onun üçün eritrodermiya, bullyoz səpgilər, hiperkeratotik xətvari dəyişikliklər səciyyəvidir; dəri büküşlərində, dirsək, dizaltı çüxurlarda ziyilli törəmələr əmələ gələ bilər

Follikulyar ixtioz *(i. follicularis)* – *bax:* Darye xəstəliyi

İlanabənzər ixtioz *(i. serpentina)* – bir-birinə bitişik, kirli-boz rəngli qalın pulcuqların olması ilə fərqlənən adi ixtiozun növü

İynəli ixtioz – sivri tikanlar və iynələr şəklində ziyilli buynuz qatların olması ilə xarakterizə olunan irsi ixtioz; autosom-dominant yolla ötürülür

Kəpəyəbənzər ixtioz *(i. furfuracea)* – *bax:* sadə ixtioz

Qara ixtioz (*i. niqricans*) – dəriyə sıx yapışmış pulcuqların qəhvəyi-qara rəngi ilə fərqlənən adi ixtiozun bir növü

Qazanılmış ixtioz *(i. acquisita)* – orta və ya yaşlı şəxslərdə əsasən endokrin pozğunluqlar, intoksikasiya və s. nəticəsində yaranan ixtioz

Lamellyar ixtioz – anadangəlmə xəstəlikdir, eritrodermiya, qatlı hiperkeratoz, eksropion, fotofobiya ilə səciyyələnir; xəstəlik zamanı yenidoğulmuşun dərisi adətən kolloidi xatırladan lövhə ilə örtülmüşdür, vaxt keçdikcə nazik təbəqə iri kobud pulcuqlara çevrilir ki, onlar bədənin hamısını, dəri büküşlərini (ovuclar və dabanlar daxil olmaqla) örtür

Lixenoid ixtioz (*i. lichenoidea*) – kiçik lixenləri xatırladan qabıqlanmalarla xarakterizə olunan adi ixtiozun bir növü

Məhdud linear ixtioz (*i. linearis circumscripta*) – *bax:* dolanan linear ixtioz

Parıldayan ixtioz *(i. nitida)* – əsasən ətraflarda yerləşən pulcuqların şəffaflığı ilə xarakterizə olunan adi ixtiozun bir növü

Pitiriaziform ixtioz *(i. pityriasiformis)* – *bax:* sadə ixtioz

Sadə ixtioz *(i. simplex)* – kiçikölçülü (0.5 sm-ə qədər) və dəriyə yalnız mərkəzi hissəsi ilə yapışan bozumtul pulcuqların formalaşması ilə xarakterizə olunan adi ixtiozun bir növü

Skutulyar ixtioz (*i. scutularis*; lat. *scutulum* zireh, qın) – *bax:* ilanabənzər ixtioz

İxtisaslaşdırılmış cərrahi tibbi yardım – cərrahi və reanimasiya tədbirləri, ümumi cərrahlar və reanimotoloqlar tərəfindən həyata keçirilir, səhra müalicə müəssisələrində həyata keçirilir

İxtisaslaşdırılmış cərrahi yardım – *bax:* ixtisaslaşdırılmış cərrahi tibbi yardım

İxtisaslaşdırılmış tibbi yardım – mütəxəssis həkimlər xüsusi təyinatlı müalicə müəssisələrində xüsusi

müalicə diaqnostik cihazların, alətlərin və avadanlıqların vasitəsilə göstərilir

İxtisaslaşmış tibbi yardım briqadası – mülki müdafiə xidmətində tərkibinə ixtisaslaşmış həkimlərin daxil olduğu və həmin ixtisas üzrə tam tibbi avadanlıqla təchiz olunmuş tibbi xidmət göstərən briqada

İki rolda transvestizm – hər iki cinsin rolunda görünməyə meyllilik (əks cinsə məxsus geyimdən istifadə etməyə meyllilik)

İkibuynuzlu uşaqlıq (*uterus bicornis*) – inkişaf anomaliyası: uşaqlığın boşluğu (cismi) ikiyə bölünmüşdür

İkikameralı ürək – *bax:* hemikardiya

İkiqat qlükoza yükü testi – mədəaltı vəzin inkretor funksiyasını təyin etmək üçün 90 dəqiqə intervalla daxilə 2 dəfə qlükoza verməklə hər yarım saatdan bir qanda qlükozanın miqdarının təyin edilməsi

İkiləşmiş uşaqlıq *(uterus septus duplex)* – inkişaf anomaliyası: uşaqlıq cismi və ya uşaqlıq boynu nahiyəsində arakəsmə ilə ikiyə bölünmüş uşaqlıq

İkili uşaqlıq *(uterus duplex)* – inkişaf anomaliyası: arakəsmə ilə ikiyə bölünmüş və hər iki sahənin uşaqlıq yolunun müvafiq sahəsi ilə birləşməsi

İkinci qrup əlillik dərəcəsi – əmək qabiliyyətini itirmiş, lakin başqasının qulluğuna ehtiyacı olmayan şəxslərin aid olduğu qrup

İkinci qurşaq-məhdudlaşdırıcı – birinci qurşağa bitişir, bu ərazinin sərhədləri şəraitdən asılı olaraq sanitar orqanlar tərəfindən təyin edilir

İkinci təbil pərdəsi (*membrana tympani secundaria*) – ilbiz pəncərəsini örtən nazik birləşdirici toxuma lövhəciyi

İkinci tip hiperlipidemiya – beta-lipoproteidlərin yaranmasının artması və qan dövranından kənarlaşdırılmasının azalması nəticəsində inkişaf edən, dominant yolla ötürülən irsi hiperlipidemiya

İkincili ağciyər hipertenziyası – ağciyər arteriyasında təzyiqin sakitlik halında 20 mm c.süt., gərginlik halında 30 mm c.süt.-na qalxması

İkincili leykoderma (*leucoderma secundarium*) – *bax:* psevdoleykoderma

İkincili səpgi elementi – birincili səpgi elementinin evolyusiyası nəticəsində formalaşan səpgi elementlərinin ümumi adı

İkincili spiral səhifə – ilbizin spiral kanalı divarının səthində, sümük spiral səhifənin əks tərəfində, onun aşağı hissəsindəki birinci qıvrımında yerləşən sümük spiral səhifə

İkitərəfli kəskin kök sindromu – aşağı ətraflarda ikitərəfli, qalxan asimmetrik ağrı, aralıqda hissiyyatın enməsi, sidik ifrazının ləngiməsi, defekasiyanı saxlaya bilməməsi ilə gedən sindrom

İkitərəfli simmetrik periuretral fibroz – *bax:* Ormond xəstəliyi

İqnipunktura (*ignipunctura*; lat. *ignis* alov + *pungo, punctum* sancmaq) – *bax:* moksa

İlbiz *(cochlea)* – daxili qulağın sümük labirintinin bir hissəsi; 2½ dəfə öz oxunun başına burulmuş spiral sümük kanal

İlbiz axacağı *(ductus cochlea)* – gicgah sümüyünün piramidasında yerləşən, ilbizin perilimfatik sahəsini subaraxnoidal nahiyə ilə birləşdirən kanal

İlbiz ehtiyatı – eşitmə zəifliyi olan şəxslərdə sümük və hava keçiricilliyinin fərqi ilə təyin olunan ilbizin funksional yararlıq dərəcəsi

İlbiz kanalcığı *(canalis cochlea)* – *bax:* ilbiz axacağı

İlbiz kanalcığının xarici aperturası (*apertura externa canaliculi cochleae*) – daxili qulağın ilbiz kanalcığının gicgah sümüyü piramidasının arxa kənarında, vidaci çuxur və yuxu kanalı dəliyindən medial yerləşən xarici dəliyi

İlbiz pəncərəsi (*fenestra cochleae*) – orta qulağın təbil boşluğunun medial divarında yerləşən, ikincili təbil pərdəsi ilə örtülmüş dəliyi

İlbizin boylama ox kanalı *(canalis longitidinales modioli)* – ilbizin oxunda yerləşən, içərisində dəhliz-ilbiz sinirinin ilbiz hissəsinin lifləri olan kanal

İlbizin mikrofon effekti – səsin təsirindən daxili qulağın ilbizində elektrik potensiallarının yaranma fenomeni

İlbizin spiral kanalı – gicgah sümüyünün piramidasında spiral formasında əyilmiş sümük kanal

İleit *(ileitis)* – çənbər bağırsağın iltihabı

İleosekal sindrom *(syndromum ileocaecale)* – nəcisin köpüklü, turş iyli, tərkibində çox miqdarda həll olmuş və olmamış hüceyrələrin, nişasta dənəciklərinin olması

İleostaz *(ileostasis)* – bağırsaq möhtəviyyatının çənbər bağırsaqda yığılaraq ləngiməsi

İleostomiya *(ileostomia)* – çənbər bağırsağa xarici fistulun qoyulması cərrahi əməliyyatı

İleus (lat.; yun. *eileos* bağırsağın keçməməzliyi) – bağırsaq keçməməzliyinin forması

İlizarov aparatı (Q. A. İlizarov, 1921-1992, sov. ortopedi) – sümüklərin sınıqları zamanı gips immobilizasiyası aparılmadan, oynağın hərəkət funksiyasının saxlanılmasına imkan verən və əməliyyatdan sonra repozisiyanın (sümük fraqmentlərinin yaxınlaşdırılması) həyata keçirilməsinə şərait yaradan ortopedik aparat

İlkin düyün (*nodus primitivus*; sin. Henzen düyünü) – ilkin zolağın baş hissəsində yerləşən hüceyrələrdən ibarət qabarcıq

İlkin tibbi vərəqə – yaralıya ilk həkim yardımı göstərilərkən doldurulur, müalicənin sonunadək xəstənin yanında olur

İllüziyalar (*illusiones*; lat. *illusio* səhv, yanılma) – real obyekt və qıcıqların yanlış qavranılması

Affektiv illüziya (*i. affectivae*) – qorxu və həyəcan fonunda meydana çıxan illüziyalar

Lipmannın intellektual illüziyaları – *bax:* Lipmann fenomeni

Pareydolik (funksional) illüziyalar (*i. pareidolicae*; *para-* + yun. *eidolon* təsvir, şəkil) – funksional illüziyalar nəticəsində təxəyyüldə, məsələn, mürəkkəb xalça naxışları, ləkə, qəhvə izlərinə əsasən şəkil və hadisələr canlanır; təxəyyülü güclü olan insanlarda funksional illüziyalar daha tez-tez və sürətlə yarana bilir, onlar müəyyən fiqurlara və ya hansısa bir mənzərə şəklinə baxaraq orada müxtəlif obraz və predmetləri görə bilərlər

Verbal illüziyalar (*i. verbales*) – ayrı-ayrı söz və ifadələrdən ibarət səs illüziyaları; ətrafdakı insanların

söhbətlərinin təhrif olunmuş şəkildə qəbulunun nəticəsində yaranır

İltihabəleyhinə vasitələr *(antiphlogistica)* – iltihabi reaksiyanı azaltmaq üçün istifadə olunan vasitələr (məs., salisilatlar, qlükokortikosteroidlər)

İmalə (*clysma;* yun. *klysma*) – müaynə və mualicə məqsədilə yoğu bağırsağa müxtəlif mayelərin vurulması

Damcı imaləsi − damcı-damcı böyük miqdarda izotonik məhlulların yeridilməsi ilə icra olunan dərman və ya qida imaləsi; qan və ya maye itkisini doldurmaq üçün istifadə edirlər

Dərman imaləsi (c. medicamentosum) − dərman maddələrini per-oral vermək mümkün olmadıqda, yaxud əks-göstəriş olduqda, onların məhlulunun düz bağırsaqdan yeridilməsi

Diaqnostik imalə (c. diagnosticum) – bağırsağa daxil olan mayenin həcminin qiymətləndirilməsi yolu ilə bağırsaq keşməməzliyinin diaqnostikası üçün tətbiq olunur

Hipertonik imalə (sin. duzlu imalə) − kiçik həcmdə hipertonik məhlulun yeridilməsi ilə icra olunan imalə, peristaltikanı artırmadan, bağırsaqları yumşaldır

Xloralhidrat imaləsi − qıcolmalar və oyanıcıllıqlar zamanı tətbiq olunur

Qidalandırıcı imalə (c. nutritivum) – qidalandırıcı vasitələr damcı vasitəsilə xəstənin düz bağırsağından içəriyə yeridilir

Nişasta imaləsi − peristaltikanı azaltmaq üçün və kəskin kolitlərdə yumşaldıcı və bürüyücü vasitə kimi istifadə edilir

Sifon imaləsi – siqmoid bağırsağa zond vasitəsilə böyük həcmdə maye yeridilir və dərhal həmin zondla geri şıxarılır, prosedur suyu dəyişməklə 10-15 dəfə təkrar olunur; bağırsaq keçməməzliyində, habelə, zəhərli maddələrlə zəhərləndikdə bağırsaqlardan qıcqırma, çürümə məhsullarını çıxarmaq, bağırsaqları yumaq üçün istifadə edilir

Təmizləyici imalə − *böyük həcmdə suyun yeridilməsi ilə icra olunan müalicəvi imalə;* qəbizlikdə bağırsağın aşağı şöbələrini təmizləmək üçün, mədəni, bağırsaqları, böyrəkləri rengenoloji müayinəyə hazırladıqda, operasiyalardan, dərman imalələrindən qabaq və s. hallarda qoyulur

İməkləmə fenomeni – *bax:* Bauer refleksi

İmidazol – müxtəlif ferment, vitamin, alkaloid və aminturşuların tərkibinə daxil olan üzvi birləşmə (imidazolun bir qrup törəmələri dərman vasitəsi kimi istifadə olunur)

İmifos *(imiphosum)* – etilenim törəməsi olan, şiş əleyhinə təsir göstərən kimyəvi terapevtik dərman maddəsi

İmizin (*imizinum*) – müxtəlif etiologiyalı depressiv vəziyyətlərdə tədbiq olunan antidepressant (məs., asteno-depressiv vəziyyət, endogen depressiya, involision-klimakterik depressiya, alkahol depressiyası və s.)

İmmobilizasiya *(immobilisatio)* – bədənin bir və bir neçə hissəsinin hərəkətsizliyinin təmin olunması (zədələnmələr və bəzi xəstəliklər zamanı)

İmmoblizəedici vakuum xərəyi – üzərində uzandırılmış şəxsin bədən konturlarını alan xərək

İmmun *(*lat. *immunis* azad*)* – immuniteti olan və ya immunitet yaradan

İmmun cavab – orqanizmin antigen qıcıqlandırıcısına cavab reaksiyası; immunitetin yaranması ilə müşahidə olunur

İmmun klirens – antigen-antitel komplekslərinin böyrəklərdə filtrasiyası

İmmunitet (lat. *immunitas* azad olmaq, bir şeydən xilas olmaq) – orqanizmin müxtəlif mənşəli zəhərlərə və xəstəliklərə müqaviməti

İmmunizasiya (*immunisatio*) – immunitet yaratma, müəyyən infeksion törədiciyə qarşı spesifik immun cavabın yaranması

İmmunodefisit halı – *bax:* immunoloji çatışmazlıq

İmmunodepressantlar – *bax:* immunodepressiv vasitələr

İmmunodepressiv hal (*immuno-* + lat. *depressio* yatırılma) – xarici mühitin təsiri altında orqanizmin immun sisteminin daimi və ya müvəqqəti zəifləməsi

İmmunodepressiv vasitələr – autoimmun xəstəliklər, şişlər və transplantasiya zamanı orqanizmin immunoloji reaksiyasını ləngitmək üçün istifadə olunan dərman maddələri (məs., qlükokortikoidlər, sitostatiklər və s.)

İmmunodiaqnostika – immunoloji göstəricilər əsasında xəstəliyə diaqnozun qoyulması

İmmunogen *(immunogen)* – immun cavab nəticəsində immunitet yaratmaq qabiliyyətinə malik olan antigen

İmmunogenez *(immunogenesis)* – immunitetin formalaşma prosesi

İmmunoqlobulinlər – canlının anticisim funksiyasını yerinə yetirən qlobulinləri

İmmunoqlobulin A (İgA) – molekulyar çəkisi 170 000 olan, qan zərdabında, müxtəlif ifrazatlarda (moloziva, ağız suyu, göz yaşı), həzm və tənəffüs yollarının sekretor məhsullarında təsadüf olunan immunoqlobulin (mielom xəstəliyinin bəzi növlərində immunoqlobulin A-nın miqdarı həddən artıq yüksək olur)

İmmunoqlobulin D (İgD) – molekulyar çəkisi 180 000 olan, aşağı konsentrasiyada sağlam insanların qan zərdabında, yüksək konsentrasiyada isə mielom xəstəliyinin bəzi növlərində təsadüf olunan immunoqlobulin

İmmunoqlobulin E (İgE) – molekulyar çəkisi 190 000 olan, orqanizmin toxumaları ilə yaxın quruluşa malik immunoqlobulin (reaginlər immunoqlobulin E-ə aiddir)

İmmunoqlobulin G (İgG) – molekulyar çəkisi 150 000 olan, insanın qan zərdabının immunoqlobulinlərinin əsasını təşkil edən immunoqlobulin

İmmunoqlobulin M (İgM) – molekulyar çəkisi 900 000 olan, qan zərdabında təsadüf olunan immunoqlobulin (Valdenstrem xəstəliyi zamanı kəskin artması təsadüf olunur)

İmmunoqlobulinlərin allotipləri (*allo-* + yun. *types* nümunə, tip) – genetik determinəedilmiş antigen xüsusiyyətləri ilə fərqlənən immunoqlobulin qrupları

İmmunologiya (*immuno-* + yun. *logos* elm) – immunitet haqqında elm; orqanizmin quruluş və funksional vahidliyinin, həmçinin bioloji fərdiliyinin saxlanmasında rol oynayan mühafizə reaksiyasından bəhs edir

İmmunoloji areaktivlik – antigen sti-

mulyasiyasına cavab olaraq immunitetin olmaması

İmmunoloji çatışmazlıq (sin. immunoparez) – immun sistemin bir və ya bir neçə komponentinin və ya onunla əlaqəli qeyri-spesifik faktorların olmaması nəticəsində immun cavabın olmaması və ya zəifləməsi

İmmunoloji iflic – immun cavabın tam olmaması ilə xarakterizə olunan immunoloji çatışmazlığın forması

İmmunoloji reaksiya – *bax:* immun cavab

İmmunoloji uyğunsuzluq (*incompatibilitas immunologica) – bax:* toxuma uyğunsuzluğu

İmmunoparez – *bax:* immunoloji çatışmazlıq

İmmunoprofilaktika – immunitetin yaradılması ilə infeksion xəstəliklərin qarşısının alınması

İmmunosuppressorlar (*immuno-* + lat. *supprimo, suppressum* yatırtmaq, sakitləşdirmək) – *bax:* immunodepressiv vasitələr

İmmunoterapiya – immun sistemə bərpaedici, tənzimləyici, müvəqqəti əvəzləyici və ya funksiyasını zəifləmə tətbiq göstərməklə müalicə üsulu

İmmunotransfuziya *(immunotransfusio)* – xəstəyə eyni xəstəliklə (yoluxucu, yanıq) xəstələnmiş insan qanının və ya aktiv immunlaşmış donor qanının köçürülməsi ilə passiv immunizasiya üsulu

İmpedans – dəyişən cərəyan axınına müqavimət

İmpedans akustik – səs vibrasiyalarının yayılmasına akustik sistem tərəfindən göstərilən müqavimət; tibdə akustik impedans eşitmə və nitq orqanlarının akustik xüsusiyyətləri öyrənilərkən nəzərə alınır

İmpedans mexaniki – mühitin mexaniki rəqslərin yayılmasına göstərdiyi müqavimət; tibbi-bioloji tədqiqatlarda vibrasiyanın orqanizmə təsirinin öyrənilməsində tətbiq olunur

İmperativ (lat. *imperativus* amiranə) – mütləq əmrə tabeli

İmpetiqo (*impetigo*; lat *impeto* hücum etmək, yaralamaq) – səthi piodermiya; xəstəliyi stafilokokk və streptokokk mikrobları törədir, dəri üzərində yastı qabarcıqlar (möhtəviyyatı şəffaf və ya bulanıq) əmələ gəlir və sonra qurumuş qabarcıqların yerində qabıqlar əmələ gəlir

İmplantasiya *(implantatio*; lat. *planto, plantatum* əkmək*)* – embriologiyada: embrionun uşaqlığa yerləşdirilməsi; insanda implantasiya yumurtanın mayalanmasından 6-7 gün sonra baş verir; cərrahiyyədə: 1) orqanizmə yad olan süni materialdan hazırlanmış implantantın köçürülmə əməliyyatı; 2) bir çox plastik cərrahi əməliyyatların ümumi adı (qığırdağın, sümüyün köçürülməsi, anatomozların qoyulması və s.)

Koxlear implantasiya – cərrahi əməliyyat: karlığı olan şəxslərdə eşitməni bərpa etmək məqsədilə ilbizin daxilinə implant elektrodların yerləşdirilməsi

Sidik axarının Mirotvortsev üsulu ilə implantasiyası (S. R. Mirotvortsev, 1878-1949, sov. cərrahı) – cərrahi əməliyyat: sidik axarı ilə yoğun bağırsaq arasında anastomozun qoyulması

Sidik axarının Nesbit üsulu ilə implantasiyası (R. M. Nesbit, amer. cərrah və uroloq) – *bax:* sidik axarının Mirotvortsev üsulu

İmplantat *(implantatum)* – orqanizmə yad olan süni materialdan hazırlan-

mış transplantat (plastmas, metal və s.)

İmpotensiya (*impotentia*; lat. zəiflik, bacarıqsızlıq) – cinsi zəiflik

İmpreqnasiya (frans. *impregnation*, lat. *impraegno, impraegnatum* doldurmaq) – histologiyada: histoloji müayinə obyektlərinin metal duzları ilə hopdurulması yolu ilə bir sıra toxuma strukturlarının aşkar edilməsi üsulu

Gümüşlə impreqnasiya – *bax:* gümüşləmə metodu

Qızılla impreqnasiya – *bax:* qızıllama metodu

İmpuls stimulyatoru – *bax:* elektroimpulsator

İmpulsiv həvəs – qəflətən, heç bir səbəb olmadan həvəsə gəlməyə can atmaq

İmpulsiv – tez coşan, tez hirslənən

İmpulslarla bağlı olan ürək stimulyasiyası – birinci impulsun xəstənin ürəyinin ritm aparıcısından, ikinci impulsun isə elektrokardiostimulyatordan alındığı sinxron ürək stimulyasiyası

İnaktivasiya (lat. *activus* təsirli, aktiv) – 1) bioloji aktiv maddənin və ya agentin öz aktivliyini tam və ya qismən itirməsi; 2) texnika, geyim, silah və binalardan, o cümlədən ətraf mühitdən radioaktiv maddələrin kənar edilməsi və zərərsizləşdirilməsi

İnaq (ing. *croup*, şotl. *croup* qarıldamaq) – iltihab nəticəsində qırtlağın daralması; səsin tutulması ("hürən" öskürək) və çətin nəfəsalma (boğulma) ilə müşayiət olunur

Difteriya inağı – tənəffüs yollarının difteriyası zamanı inkişaf edir, ərpin əmələ gəlməsi və ağır gedişlə xarakterizə olunur

Həqiqi inaq – qırtlağın difteriyası; qırtlağın və traxeyanın selikli qişasında iltihabi proses müşahidə olunur, kəsik-kəsik quru öskürək, boğuq və zəifləyən səs, küylü tənəffüs özünü büruzə verir

Qızılca inağı – qızılca zamanı inkişaf edən inaq

Qripli inaq – qripin ağırlaşması kimi, əsasən xəstəliyin ilk günlərində, inkişaf edən inaq

Skarlatin inağı – iltihabi-nekrotik proses qırtlağın selikli qişasına yayıldığı zaman ağır septiki skarlatinanın ağırlaşması kimi inkişaf edən inaq

İnaq sindromu – kiçikyaşlı uşaqlarda tənəffüs yollarının stenozu nəticəsində xırıltılı səs, nəfəsalma və ya nəfəsvermə zamanı fitəbənzər səsin meydana gəlməsi və "hürən" öskürək

İncik siniri sindromu *(syndromum nervi peronei)* – incik sinirinin zədələnmələri zamanı ayağın sallanması, bükülməsi və uzaqlaşdırılmasının mümkün olmaması, baldır əzələlərinin atrofiyasının birgə təzahürü

İncontinentia urinae – *bax:* enurez

İncontinentiya albi – *bax:* enkoprez

İndikator (lat. *indicator* göstərici) – 1) bir şeyin vəziyyətini, mövcud olub-olmadığını yoxlamağa imkan verən cihaz, qurğu, element; 2) müəyyən kimyəvi birləşmələrin təsiri ilə rəngini dəyişən və ya çox asan nəzərə çarpan xüsusiyyətlər kəsb edən reaktivlər

İndikator borusu – havada olan zəhərləyici maddələri indikasiya etmək üçün vasitə; tərkibindən zəhərlənmiş hava keçəndə spesifik rəng reaksiyası verən şüşə silindrik qurğu

İndikator heyvan – epidemioloji nəzarət üçün nəzərdə tutulan heyvan

İndiqokarmin *(indigocarminum)* – böyrəyin funksional vəziyyətini öyrənmək üçün diaqnostik vasitə

İndometasin (*indometacinum*) – qeyri-steroid iltihab əlehinə preparat

İnduksion dövr – *bax:* latent dövr

İnduksiya *(*lat. *inductio* giriş, *)* – sinir mərkəzlərinin oyanıqlığının dəyişməsi ilə xarakterizə olunan funksional qarşılıqlı təsir

İnduksiyaedilmiş sayıqlama pozuntusu – xəstələrdən birinin həqiqi psixoz keçirdiyi halda digərinin onun təsirinə düşməsi

İnduktoterm – xəstənin bədən temperaturunu yüksəltmək üçün elektrik cihazı

İnduktotermiya (yun. *therme* istilik) – xəstənin bədəninin müəyyən sahələrinə yüksəktezlikli dəyişən maqnit sahəsi ilə təsir etməkdən ibarət elektroterapiya üsulu

İnduktotermoforez – *bax:* elektroforezinduktotermiya

İnert (lat. *iners, inertis* fəaliyyətsiz, passiv, süst) – 1) fəaliyyətsiz, neytral; 2) psixiatriyada: bir psixi haldan digərinə keçidin çətin olması, ləngiməsi

İnfantil amneziya (*amnesia infantilis*) – 3-4 yaşlarına qədər olan hadisələrin unudulması

İnfantil proqressiv iflic *(paralysis progressiva infantilis)* – erkən uşaq yaşlarında ağıl kəmliyi, paralitik tutmalar, görmə sinirinin atrofiyası və anadangəlmə sifilisin digər əlamətləri ilə xarakterizə olunan proqressiv iflic

İnfantil uşaqlıq *(uterus infantilis)* – ölçüləri kiçik (3-5,5 sm), boyun nahiyədə konusşəkilli quruluşu olan və həddən artıq antifleksiya vəziyyətli uşaqlığın olmamasından ibarət inkişaf anomaliyası

İnfantilizm *(infantilismus*; lat. *infantilis* uşaq, körpə*)* – uşaq və ya yeniyetmə yaşlarına məxsus xüsusiyyətlərin qalmasından ibarət fiziki və psixi inkişafın ləngiməsi ilə xarakterizə olunan patoloji hal

İnfarkt *(infarctus)* – qan dövranının pozulması nəticəsində toxumalarda yaranan nekroz

İnfarktdan sonrakı sindrom *(syndromum postinfarcticum)* – infarktdan sonrakı gecikmiş ağırlaşmaların ümumi adı (məs., Dressler sindromu, çiyin kələfi sindromu, ön döş qəfəsi sindromu)

İnfarktönü vəziyyət – miokard infarktından əvvəl baş verən və sakitlik stenokardiya tutmalarının tezləşməsi, davametmə müddəti və gücünün artması, nitroqliserinin qəbulu ilə azalmayan ağrıların olması ilə xarakterizə olunan patoloji vəziyyət

İnfeksion allergiya *(allergia infectiosa)* – hər hansı bir yoluxucu xəstəlik törədicisinə və ya onun fəaliyyət məhsullarına qarşı allergiya

İnfeksion antigenemiya – qanda yoluxucu xəstəlik törədicisinin antigenlərinin aşkar edilməsi

İnfeksion hospital – yoluxucu xəstəlikləri müalicə və izoliyasiya etmək üçün ixtisaslaşmış hospital

İnfeksion qastroenterit (*gastroenteritis infectiosa*) – yoluxucu xəstəliklər zamanı törədicinin təsirindən yaranan qastroenterit; proses adətən yoğun bağırsağa da yayılır

İnfeksion qeyri-spesifik artrit – *bax:* revmatoidli artrit

İnfeksion mononukleoz *(mononucleosis infectiosa)* – əsnəyin, limfatik

düyünlərin, qaraciyərin və dalağın zədələnməsi ilə gedən, xarakterik qızdırma və hemoqramda dəyişiklikləri olan naməlum etiologiyalı kəskin infeksion xəstəlik; burun-udlaq vasitəsilə orqanizmə daxil olur və qana keçir

İnfeksion proses – patogen agentin orqanizmə daxil olması nəticəsində orqanizmdə gedən morfoloji, biokimyəvi və digər dəyişikliklərin məcmusu

İnfeksionist – yoluxucu xəstəliklərin profilaktika və müalicəsi üzrə xüsusi hazırlıq keçmiş həkim-mütəxəssis

İnfeksiya *(infectio)* – patogen mikroorqanizmin digər canlı orqanizminə daxil olması və bunun nəticəsində yoluxmuş orqanizmdə gedən cavab proseslər

Abortiv infeksiya (*i. abortiva*) – xəstəliyin qısa kəskin dövrü və patoloji halların tez aradan qalxması ilə fərqlənən infeksiya

Autogen infeksiya (*i. autogena*) – *bax:* autoinfeksiya

Bağırsaq infeksiyaları – törədiciləri əsasən bağırsaqda lokallaşan infeksion xəstəliklərdir, fekal-oral yolla ötürülür; qarın yatalağı, dizenteriya, vəba, botulizm və s. aiddir

Ekzogen infeksiyalar (*i. exogena*) – törədiciləri ətraf mühit amillərindən daxil olan infeksiyalar

Endogen infeksiya (*i. endogena*) – *bax:* autoinfeksiya

Gizli infeksiya (*i. latens*) – *bax:* latent infeksiya

Hospitaldaxili infeksiya – stasionarda olan xəstənin əsas xəstəliyinə infeksion xəstəliklərin yoluxması

Xroniki infeksiya (*i. chronica*) – uzun müddətli gedişə malik infeksiya; xəstəliyin əlamətləri bir qədər zəiflədikdən sonra yenidən kəskinləşir və ya sağalmadan bir müddət sonra əlamətlər təkrar olunur. ***Xüsusi təhlükəli infeksiyalar*** – tez yayılan, ağır gedişə malik, yüksək letallıqla xarakterizə olunan yoluxucu xəstəliklər; karantin infeksiyaları, təbii çiçək, vəba, taun, tulyaremiya, hemorragik qızdırma, qarayara

Kontakt infeksiya – bilavasitə yoluxma

Latent infeksiya (*i. latens*; sin. gizli infeksiya) – kliniki təzahürləri olmadan törədicisinin uzun müddət orqanizmdə qalması ilə xarakterizə olunan infeksiya

Meninqokokk infeksiyası (*i. meningococciea*) – meninqokokk tərəfindən törədilən kəskin yoluxucu xəstəlik

Tənəffüs infeksiyaları – törədiciləri əsasən tənəffüs yollarının selikli qişasında lokallaşan infeksion xəstəliklərdir, hava-damcı, hava-toz yolu ilə yayılır; qrip, qızılca, skarlatina, göy öskürək və s. aiddir

Virus infeksiyaları (*i. virales*) – viruslar tərəfindən törədilən infeksion xəstəliklər

İnfeksiya daşıyıcısı – orqanizmində patogen mikroorqanizmlər daşıyan, lakin klinik əlamətləri təzahür etməyən canlı

İnfeksiya törədicisi – canlı orqanizmə daxil olduqda infeksion prosesin əmələ gəlməsinə səbəb olan mikroorqanizmlərin ümumi adı

İnfekt (*infectum*; lat. *inficio, infectum* yoluxdurmaq) – *bax:* infeksiya törədicisi

İnfektartrit – *bax:* revmatoid artrit

İnfestasiya (lat. *infestare* hücum etmək) – insan və ya heyvan orqaniz-

minin parazitlərlə (həşərat, gənə və s.) yoluxması

İnfiltrat *(infiltratus)* – toxumanın adi vəziyyətində ona xarakterik olmayan hüceyrə elementlərinin toplanması hesabına, həcminin və sıxlığının artması; bu termin bəzən hər hansı bir maddənin toxumaya yeridilməsi zamanı da işlənə bilər, məs., yerli keyləşdirmə

İnfundir aparat – bitki dəmləmələri və cövhərləri hazırlamaq üçün farforlu su hamamı aparatı

İnfuzor dizenteriya – *bax:* balantidiaz

İngilis duzu – $MgSO_4$, işlədici dərman

İngilis vəziyyəti – *bax:* sol laterarekumbetn pozisiya

İngitril *(ingitrilum)* – proteoliazanın ingibitoru

İnhalyasion aparat – *bax:* aerozol inhalyatoru

İnhalyasion narkoz aparatı – *bax:* narkoz aparatı

İnhalyasiya *(inhalatio)* – dərman və bioloji aktiv maddələrin profilaktika və müalicə məqsədilə orqanizmə nəfəs alınan hava axını ilə daxil edilməsi üsulu

İnhalyator *(inhalator)* – profilaktika və müalicə məqsədilə tənəffüs yoluna aerozol və buxar şəklində dərman maddələri daxil etmək üçün aparat

İnhibitor *(inhibitorum)* – fizioloji və fiziki-kimyəvi prosesləri ləngidən və ya dayandıran maddələrin ümumi adı

İnkapsulyasiya (*incapsulatio*) – ətrafında fibroz qişanın (kapsulun) formalaşdırılması yolu ilə yad cismin və ya iltihab ocağının məhdudlaşdırılması prosesi

İnkarserasiya *(incarceratio)* – *bax:* boğulma (2)

İnkişaf aktivatoru – hər hansı orqan və ya toxumanın embrional inkişafını stimullaşdıran maddə (insanda inkişaf aktivatoru somatotrop hormondur)

Distansion inkişaf aktivatoru – təsiri sintez edildiyi toxuma ilə məhdudlaşmayan inkişaf aktivatoru

Lokal inkişaf aktivatoru – təsiri sintez edildiyi toxuma ilə məhdudlaşan inkişaf aktivatoru

İnkişaf qüsuru – orqan və ya toxumanın quruluş və ya funksiyasının kobud dəyişikliyindən ibarət inkişaf anomaliyası

İnkişafın bakterial faktoru – heterotrof bakteriyaların həyat fəaliyyəti üçün lazım olan maddələrin ümumi adı

İnkogerensiya (lat. *incohaerens, incohaerentis* əlaqəsiz, mənasız) – kobud, əlaqəsiz fikirlər, qrammatik cəhətdən mənasız söz yığını

İnkretor (lat. *incretorius*) – daxili sekresiyaya aid olan

İnkubasiya dövrü (lat. *incubo, incubatum* yatmaq, dincəlmək) – tibdə: insanın yoluxucu xəstəliklərə yoluxması ilə ilkin əlamətlərin meydana çıxmasına qədər olan dövr

İnkurabel (*incurabilitas*; lat. *incurabilis* sağalmaz) – müalicə oluna bilməyən; xəstənin elə bir vəziyyətidir ki, ümumi pozğunluqlar və ya yerli patoloji prosesin xüsusiyyətləri sağlamlığın tam bərpa edilməsini və ya xəstənin həyatının xilas edilməsini istisna edir

İnnervasiya (*innervatio*) – orqanların və bədənin hissələrinin sinirlərlə təchiz edilməsi

İnokulyasion hepatit (*hepatitis inoculationis*) – *bax:* zərdab hepatiti

İnoperabel – əməliyyat oluna bilməyən

İnotrop təsir *(inotropos)* – əzələ yığılmasının gücünü dəyişən hər hansı bir faktorun təsiri

İnozit – askorbin turşusunun təsirini gücləndirən vitaminəbənzər maddə

İnsan ekologiyası – ekologiyanın insan orqanizminin təbiətlə qarşılıqlı təsirini öyrənən bölməsi

İnsayt – xəstənin öz qeyri-düzgün hərəkətlərini başa düşə bilməməsi, özü ilə bacara bilməməsi

İnsektisidlər (*insecticida*; lat. *insecta* həşərat) – zərərli həşəratları məhv edən maddə

İnsest (lat. *incestus* cinayətkar, günahkar) – yaxın qohumlarla cinsi əlaqə

İnsomniya (*in-* + lat. *somnus* yuxu) – yuxusuzluq

İnstinktiv hərəkət – düşünülmədən müəyyən məqsədə çatmaq üçün edilən hərəkət

İnstinktiv təsir – daxili amillərlə qeyri-iradi hərəkət

İnsufflyasiya *(*lat. *insufflatio* üfürmə*)* – 1) tozşəkilli dərman maddələrinin qulağa, yuxarı tənəffüs yollarına, yara səthinə tozüfürən vasitəsi ilə yeridilməsi; 2) bədən boşluğuna diaqnostik və ya müalicə məqsədilə qazın yeridilməsi

İnsulin (*insulinum*) – qlükozanın qandan qaraciyər və əzələ kimi toxumalara keçməsini tənzimləyən zülal hormonu; orqanizmdə karbohidrat, zülal və lipid mübadiləsinə müxtəlif fermentlərin aktivliyini dəyişmək yolu ilə təsir göstərir

İnsulin-histamin sınağı – *bax:* Babkin sınağı

İnsulinoma (*insulinoma*) – epizodik hipoqlikemiya zamanı baş ağrısı, ürəkbulanma, qusma, taxikardiya, həyəcan, ümumi zəiflik, huşun itməsi və epileptik tutmalarla xarakterizə olunan hal

İnsulinoterapiya *(insulinotheratia)* – 1) insulindən istifadə etməklə aparılan müalicə üsulu; 2) psixiatriyada: ruhi xəstəni komatoz və ya subkomatoz hala salan yüksəkdozalı insulin yeritməklə müalicə üsulu

İnsuloma (*insuloma*) – mədəaltı vəzin adacıq toxumasının adenoması

İnsulosit (*insulocytus*; hist. *insulae pancreaticae* pankreatik adacıqlar + *cytus* hüceyrə) – pankreatik adacıqların (Langerqans adacıqların) hüceyrələrinin ümumi adı

Asidofil insulosit (*i. acidophilus*) – sitoplazmasında asidofil qranulalar aşkar edilən insulositlər (qlükoqon ifraz edir)

Bazofil insulositlər (*i. basophilus*) – sitoplazmasında bazofil qranulalar aşkar edilən insulositlər (insulin ifraz edir)

Definitiv insulosit (*i. definitus*) – tərkibində bir qədər suda həll olan qranulalar aşkar edilən az diferensiasiya olunmuş insulositlər (asidofil insulositlərə çevrilmə qabiliyyətinə malikdir)

İnsult *(insultus)* – qan dövranının kəskin pozulması nəticəsində baş və ya onurğa beynində davamlı zədələnmə simptomlarından ibarət patoloji vəziyyət

Apoplektik insult (*i.apoplecticus*) – *bax:* hemorragik insult

Embolik insult (*i. embolicus*) – beyin damarının emboll tıxanması nəticəsində əmələ gələn insult

Hemorragik insult (*i. haemorrhagicus*) – beyin qan dövranının kəskin pozulması nəticəsində beyinə parenximatoz qansızma

İşemik insult (*i.ischaemicus*) – qan təchizatının çatışmazlığı nəticəsində beynin ocaqlı zədələnməsindən əmələ gələn insult

Trombotik insult (*i. thromboticus*) – beyin damarının trombla tıxanması nəticisində əmələ gələn insult

İnsulyar nahiyə – *bax:* körpü nahiyəsi

İntakt (lat. *intactus* toxunulmamış) – hər hansı bir prosesə cəlb olunmamış, zədələnməmiş

İnteqrasiya (lat. *integratio* bərpa edilmə, birləşmə; *integer* tam) – biologiyada: orqanizmdə quruluş və funksiyanın vəhdəti, uyğunlaşması və nizamlanması prosesi; canlı sistemin bütün inkişaf səviyyələri üçün xarakterikdir

İnteqrasiya patologiyası – *bax:* Rapoportun inteqrasiya patologiyası

İntellekt (lat. *intellectus* anlama, dərk etmə) – düşünmə və bununla bilik qazanma qabiliyyətini əks etdirir; düşünmək üçün əqli bacarıq, qərar vermə, abstrakt düşünmə, material mənimsəmə qabiliyyəti

İntellekt əmsalı – intellektin səviyyəsini sınaq vasitəsilə təyin edən göstərici; psixometrik yaşı təqvim yaşına bölüb yüzə vurmaqla tapılır

İnterferon *(interferonum)* – orqanizmdə və hüceyrə kulturalarında sintez olunan, virusların reproduksiyasını, həmçinin digər hüceyrədaxili parazitlərin (riketsiya, malyariya plazmodiumları və s.) çoxalmasının qarşısını alan aşağı molekullu zülal

İnterkurrent (*intercurrens, intercurrentis*) – təsadüfi, hər hansı bir proses və xəstəlik zamanı meydana çıxan, onun gedişini çətinləşdirən

İntermissiya *(intermissio)* – iki psixoz tutması arasındakı psixi fəaliyyətin tam bərpa olunduğu dövr

İnteroreseptorlar (lat. *interior* daxili) – daxili orqanlardan qıcıqları qəbul edən reseptorlar

İnterpozisiya *(interpositio)* – sınıqlar və ya çıxıqlar zamanı əsas sümük fraqmentlərinin və oynaq səthlərinin arasına digər toxumaların daxil olması (oynaq kapsulu qalıqları, vətər, əzələ, sümük qəlpəsi, sümüküstlüyü və s.)

İnterpretasiya – izah etmək, söhbət aparmaq

İnterstisial tonzillit (*tonsillitis interstitialis*) – *bax:* xroniki sklerotik tonzillit

İnterstisiya (*interstitium*; lat. aralıq) – *bax:* interstisial toxuma

İntertriginoz diabetid *(diabetidum intertriginosum*; lat. *intertrigo, intertriginis* sıyrıntı, qıcıqlanma*)* – *bax:* diabetik bişməcə

İntestopan *(intestopanum)* – oksixinolin törəməsi olan antibakterial maddə

İntihar *(suicidium)* – özünü həyatdan şüurlu surətdə məhrumetmə; qəsdən özünün ölümünə səbəb olan hərəkət

İntima (lat. *intimus* daxili) – qan damarının daxili qişası

İntimektomiya (*intimectomia*) – *bax:* endarterektomiya

İntoksikasiya *(intoxicatio*; *in-* + yun. *toxikon* zəhər; sin. zəhərlənmə*)* – endogen və ya ekzogen mənşəli toksiki maddələrin orqanizmə təsirindən əmələ gələn patoloji hal

İntradermal (*intradermalis*) – dəridaxili, dərinin içində lokallaşan

İntrakranial (*intracranialis*) – kəllədaxili

İntrakutan (*intracutaneus*) – *bax:* intradermal

İntraliqamentarial – bağ təbəqələri arasında yerləşən, bağarası

İntralüminal – mənfəz (damar, boru) daxilində yerləşən

İntramedulyar (*intramedullaris*) – onurğa beynində (uzunsov beyninində) yerləşən

İntramural (*intramuralis*) – divardaxili, boşluqlu orqanın divarında yerləşən

İntramural sinir kələfi (*plexus nervorum intramuralis*) – boşluğu olan orqanların divarında yerləşən sinir kələfi

İntramuskulyar (*intramuscularis*) – əzələdaxili, əzələdə lokallaşmış

İntrapsixi ataksiya (*ataxia intrapsychica*; sin. Stranskinin intrapsixi ataksiyası) – psixi proseslərin parçalanması və onların mimiki və nitq təzahürlərinin pozulması

İntraserebral (*intracerebralis*) – beyindaxili, kəllədaxili

İntraserebral hipertenziya – beyindaxili təzyiq, kəllədaxili təzyiq

İntravaskulyar (*intravascularis*) – damardaxili, qan və ya limfa damarında lokallaşan

İntravertlik (*intraversio* daxilə yönəlmə) – iztirab və digər hisslərini öz daxilində yaşamağa meyllilik

İntroduktor (lat. *introduco, introductum* daxil etmək) – *bax:* intubator

İntubasiya *(intubatio)* – 1) tənəffüsü və tənəffüs yolunun keçiriciliyini təmin etmək, narkoz və ya ağciyərlərin süni ventilyasiyası məqsədilə borunun qırtlaq, traxeya və ya bronxlara yeridilməsi; 2) diaqnostik və ya müalicə məqsədilə bağırsağa borunun yeridilməsi

İntubasiya borusu – tənəffüs yollarının hava keçiriciliyinin yaxşılaşdırılması, bərpası, inhalyasion narkozun icrası üçün qırtlağa, traxeya və bronxlara yeridilən, rezin və ya plastik kütlədən hazırlanmış xüsusi boru

İntubator (*in-* + lat. *tuba* boru; sin. introduktor) – intubasiya zamanı borunu yeritmək üçün alət

İnvaginasiya (*invaginatio*; lat. *vagina* qişa) – 1) embriologiyada: hər hansı bir formalaşma prosesində nüvənin membranın onun daxilinə doğru qatlanaraq getdikcə dərinləşir və nüvəni iki yerə bölür; 2) bir bağırsaq ilgəyinin digərinin daxilinə keçməsi, nəticədə bağırsaq keçməzliyi yaranır

İnvazivlik *(invasinium*; lat. *invasio* hücum*)* – mikroorqanizmlərin hüceyrə, toxuma və humoral müdafiə baryerlərini keçərək canlı orqanizmə daxil olub, orada çoxalması qabiliyyəti

İnvaziya (lat. *invasio* hücum, soxulma) – canlı orqanizmə parazitlərin (ibtidailət, helmintlər, buğumayaqlıların) daxil olması

İnversiya (lat. *inversio* çevrilmə, yer dəyişdirmə) – genetikada: xromosomdaxili dəyişilmələr – xromosomların kiçik və ya böyük sahələrinin 180^0 çevrilməsi nəticəsində genlərin bir xətt boyunca düzülməsi

İnvolyusion dövr – orqanizmin və onun ayrı-ayrı üzvlərinin fizioloji xassələrinin geriyə inkişafı, qocalma əlamətlərinin meydana çıxması

İnvolyusion katatoniya – gecikmiş, yaşlı şəxslərdə rast gəlinən katatoniya sindromu

İnyeksion lipoqranulema – yağ tərkibli dərman maddələrinin inyeksiya yerində yaranan lipoqranuloma

İnvolyusiya (lat. *involutio* əyrilik, buruq, yığılma) – əks inkişaf; ayrı-ay-

rı orqanların morfoloji və fizioloji xarakteristikalarının ontogenez və ya filogenezdə reduksiyası və ya sadələşdirilməsi

İnyeksiya (*injectio*) – şpris vasitəsilə orqanizmə mayenin yeridilməsi

İnyeksiya suyunun alınması üçün səhra qurğusu – səhra şəraitində inyeksiya üçün istifadə olunan suyun alınmasında istifadə olunan qurğu

İnyeksiya üçün aloe ekstraktı *(extractum aloes pro injectionibus)* – biogen stimulyator və regenerasiya proseslərini sürətləndirən maddə; göz xəstəlikləri, bronxial astma, mədə və onikibarmaq bağırsağın xora xəstəlikləri zamanı tətbiq olunur

İnyeksiya üçün cift ekstraktı *(extractum placentae pro injectionibus)* – biogen stimulyator və regenerasiya proseslərini sürətləndirən maddə; göz xəstəlikləri, mialgiya, artrit, radikulit, qadın cinsiyyət orqanlarının iltihabı xəstəlikləri zamanı tətbiq olunur

İofobiya (*iophobia*; yun. *ios* zəhər + *fobiya*) – zəhərdən, təsadüfi zəhərlənmədən qorxma

İonlaşdırıcı şüalanmanın zəifləmə əmsalı – ionlaşdırıcı şüaların qoruyucu qatdan keçərkən intensivliyinin nisbətən dəyişmə xüsusiyyəti

İonoforez (sin. elektroforez) – derman maddəsinin və ya kosmetik vasitənin elektrik cərəyanı vasitəsilə yeridilməsi; bu maddələr elektrik sahəsinin təsiri ilə dəriyə nüfuz edərək depo əmələ gətirir, limfa vasitəsilə dərindəki toxumalara keçərək müalicəvi təsir göstərir

İonoqalvanizasiya – *bax:* dərman elektroforezi

İonoterapiya (köh., sin. elektroforez) – ionlarla müalicə, müalicəvi ionizasiya, dərman elektroforezi

İontoforez (köh., sin. elektroforez) – *bax:* dərman elektroforezi

İpoxondrik sindrom *(syndromum hypochondriacum)* – ağır, sağalmayan xəstəliyə tutulduğunu təkid etmək; ipoxondrik sindrom paranoid xarakterli ola bilər, nevrozlarla yanaşı, şizofreniya və digər psixozlar zamanı da rast gələ bilər

İpoxondriya (*hypochondria*) – *bax:* ipoxondrik sindrom

İprit – qonur rəngli və sarımsaq iyi verən yağlı maye halında olan zəhərləyici maddə; iprit damcıları dərinin səthinə düşən yerlərdə əvvəlcə qızarma müşahidə edilir, sonra suluqlar əmələ gəlir, 12 gündən sonra deşilərək irinli xoralara çevrilir; iprit buxarları tənəffüs yollarını, xüsusən gözləri ağır zəhərləyir, zədələnmə yerlərində ağrı hiss edilir, gözlər irinləyir

İradi hərəkət – qabaqcadan düşünülmüş məqsədyönlü hərəkət

İradi pozuntu – yaşamaq stimulunun olmamasından ibarət iradi fəaliyyətin pozuntusu

İran tozu – İran çobanyastığının tozu

İrasek-Sulser-Uilson sindromu (A. Jirasek, 1880-1960, Çexoslovakiya cərrahı; W. W. Zuelzer, amer. pediatr; J. L. Wilson, amer. pediatr) – *bax:* yoğun bağırsağın anadangəlmə seqmentar aqanqliozu

İremofobiya (sin. silensofobiya) – sakitlikdən qorxma

İridektomiya (*iridectomia*) – cərrahi əməliyyat: gözün qüzehli qişasının bir hissəsinin kənar edilməsi

İridizasiya – qlaukoma zamanı müxtəlif rəngli dairələr görmə

İridodiaqnostika – gözün qüzehli qişasında səciyyəvi dəyişikliklərə əsasən orqanizmdəki xəstəliklərin diaqnostikası

İridodonez (*iridodonesis*) – gözün kəskin hərəkətləri zamanı qüzehli qişanın titrəməsi; afakiya, göz büllurunun burxulması zamanı müşahidə olunur

İridoplegiya (*iridoplegia*) – qüzehli qişa əzələlərinin (bəbək sfinkterinin) iflici, bəbəyin hərəkətsizliyi

İridosele *(iridocele)* – buynuz qişanın defektindən güzehli qişanın bir hissəsinin qabarması

İridosiklit (*iridocyclitis*) – gözün torlu qişasının və siliar (kirpikli) cisminin iltihabı

İridosikloxorioidit (*iridocyclochorioiditis*) – *bax:* uveit

İridotomiya (*iridotomia*) – cərrahi əməliyyat: gözün qüzehli qişasının kəsilməsi

İrin *(pus)* – sarımtıl-yaşıl rəngli, zülallarla zəngin mayedən, parçalanmış leykositlərdən, iltihablanmış toxumanın ölmüş hüceyrələrindən və patogen mikroorqanizmlərdən ibarət bulanıq ekssudat

İrin cisimcikləri – irinli ekssudatın parçalanmış leykositləri

İrincik – *bax:* pustula

İrinləmə (*suppuratio*) – iltihab ocağında irinin əmələ gəlməsi

İrinli örtük *(capsula purulenta)* – xroniki absesin ətrafında formalaşan, qranulyasion toxuma və fibroz liflərdən təşkil olunan qat

İrinlik – *bax:* abses

İrradiasiya (lat. *irradio* işıqlandırmaq) – tibdə: oyanmanın yayılması, ağrı hissinin zədələnmiş nahiyə və ya orqandan kənara yayılması

İrriqasiya *(*lat. *irrigatio* suvarılma*)* – tibdə: dəri səthinin, bədən boşluqlarının və boşluqlu orqanların su və ya digər məhlul şırnağı ilə uzunmüddətli isladılmasından ibarət müalicəvi prosedur

İrriqator *(*lat. *irrigo, irrigatum* suvarmaq*)* – boşluq və kanalların isladılması, yuyulması üçün xüsusi alət (adətən düz bağırsaq və uşaqlıq yolunun yuyulması üçün istifadə olunur)

İrriqoskopiya (lat. *irrigo* suvarmaq + yun. *skopeo* baxmaq, müaynə etmək) – yoğun bağırsağın kontrast maddə ilə rentgenoloji müayinəsi

İrritasiya (*irritatio*) – qıcıqlanma, oyanma

İrsi ağciyər-böyrək sindromu *(syndromum pulmonorenale hereditarium)* – ağciyər qanaxmaları, hematuriya və proteinuriya ilə böyrəklərin diffuz zədələnməsi ilə xarakterizə olunan irsi xəstəlik

İrsi angionevrotik ödem (*oedema angioneuroticum*) – irsi meylli xəstələrdə müxtəlif lokalizasiyalı ağrısız, hiperemiyasız, 48-72 saat ərzində keçib-gedən ödem

İrsi hemorragik teleangiektoziya (*teIcangiectasia hereditaria haemorrhagica*) – *bax:* Randyu-Veber-Osler xəstəliyi

İrsi methemoqlobinemiya *(methaemoglobinaemia hereditaria)* – qanda methemoqlobinin (oksidləşmiş hemoqlobin) artması və sianozla müşayiət olunan xəstəlik

İrsi nevral amiotrofiya (*amyotrophia hereditaria neuralis*) – periferik ifliclər, baldır və ayağın amiotrofiyası, tədricən amiotrofiyanın yuxarı ətrafın distal nahiyələrinə yayılması, hissiyyatın periferik tip üzrə pozulması və trofik pozğunluqlarla

xarakterizə olunan irsi xəstəlik; autosom-dominant yolla ötürülür

İrsi onixoartroz (*onychoarthrosis hereditaria*) – *bax:* Terner-Kizer sindromu

İrsi sensor retikulyar nevropatiya (sin. Giks xəstəliyi) – onurğa beyni arxa sinir köklərinin zədələnməsi ilə xarakterizə olunan və böyük ayaq barmaqları nahiyəsində hissiyyatın azalması, ayaqlarda trofiki pozğunluqların olması, ağrı və eşitmənin zəifləməsi ilə təzahür edən irsi xəstəlik

İrsi simmetrik akrodisxromatoz *(acrodyschromatosis symmetrica hereditaria)* – *bax:* retikulyar akropiqmentasiya

İrsi sklerozlaşan poykilodermiya *(poikilodermia hereditaria sclerosans)* – generalizə olunmuş poykilodermiya, ovuc və ayaqaltı nahiyənin dərisinin qalınlaşması ilə xarakterizə olunan irsi xəstəlik; autosom-resessiv tip üzrə ötürülür

İrsi spinal amiotrofiya (*amyotrophia hereditaria neuralis*) – onurğa beyninin ön buynuzlarının hərəki hüceyrələrinin degenerativ dəyişikliyi nəticəsində inkişaf edən, həyatın ilk illərində meydana çıxan periferik iflic və ətrafların, gövdənin amiotrofiyası ilə təzahür edən irsi xəstəlik

İruksol *(irucsol)* – yaraların fermentativ təmizlənməsi üçün tətbiq olunan məlhəm

İrvinq kapsulu – *bax:* qasıqüstü kapsula

İrvin-Qass sindromu (S.R. Irvine, 1906-1999, amer. oftalmoloq; D.M. Gass, 1928-2005, kanadalı oftalmoloq) – torlu qişa kapillyarlarının keçiriciliyinin artması səbəbindən sarı ləkənin kistoz ödemi

İsenko-Kuşinq xəstəliyi (N.M. İsenko, 1889-1954, sov. nevropatoloqu; H. W. Cushing, 1869-1939, amer. neyrocərrah) – neyroendokrin xəstəlik olub hipotalamusdan kortikotropin-rilizinq hormonunun və ya hipofizin ön payının hormonunun ifraz olunmasının təsirindən kortizolun yüksək sekresiyası kimi izah olunur, böyrəküstü vəzin şişi və ya hiperplaziyası, hiperproduksiyası və ya kortikosteroidlərin ekzogen artıqlığı nəticəsində kotizolun yüksək sekresiyası ilə səciyyələnir (piylənmə, ayabənzər üz, arterial təzyiqin enməsi, cinsi funksiyaların aşağı düşməsi, əzələ zəifliyi və osteoparoz)

İsenko-Kuşinq sindromu (N.M. İsenko, H. W. Cushing) – depressiya, yuxunun pozulması, eyforiya, hipomanyakal halla xarakterizə olunan sindrom

İsenkonun panasteniya sindromu (N. M. İsenko, 1889-1954, sov. nevropatoloqu) – vegetativ epilepsiya zamanı ümumi əzələ zəifliyi tutması

İshal (*diarrhoea*; sin. diareya) – tez-tez baş verən bağırsaq boşalması və xaric olan kütlənin duru, formasız olmasıdır

Axilik ishal *(d. achylica)* – mədə axalaziyası nəticəsində meydana çıxan ishal

Alimentar ishal *(d. alimentaria)* – balanslaşmamış, qeyri-rasional və ya keyfiyyətsiz qida ilə qidalanma nəticəsində meydana çıxan ishal

Allergik ishal *(d. allergica)* – qida və ya dərman allergenlərinə qarşı reaksiya nəticəsində meydana çıxan ishal

Avitaminoz ishal *(d. avitaminosa)* – bəzi vitaminlərin çatışmazlığı nə-

ticəsində baş verən ishal (məs., B qrup, PP vitaminləri və s.)

Distrofik ishal *(d. dystrophica)* – ağır xəstəliklər zamanı kifayət qədər qidalanmama və üzülmə nəticəsində meydana çıxan ishal

Enteral ishal *(d. enteralis)* – nazik bağırsağın zədələnməsi nəticəsində meydana çıxan ishal

Hemorragik ishal *(d. haemorrhagica)* – xüsusi müayinə aparmadan adi gözlə tərkibində qan olduğu aşkar olunan ishal

Hiperkinetik ishal *(d. hyperkinetica)* – bağırsaq perestaltikasının güclənməsi nəticəsində meydana çıxan ishal

Hipermotorik ishal *(d. hypermotoria) – bax:* hiperkinetik ishal

Hipersekretor ishal *(d. hypersecretoria)* – bağırsaq mənfəzinə ekssudasiyanın artması nəticəsində baş verən ishal

İleal ishal *(d. ilealis)* – nazik bağırsağın aşağı hissəsinin zədələnməsi nəticəsində meydana çıxan enteral ishal

Qanlı ishal *(d. sanguinea) – bax:* hemorragik ishal

Qastrogen ishal *(d. gastrogena)* – mədənin funksional pozğunluğu nəticəsində meydana çıxan ishal

Medikamentoz ishal *(d. medicamentosa)* – dərman maddələrinin toksiki və ya əlavə təsirləri nəticəsində meydana çıxan ishal

Nevrogen ishal *(d. neurogena)* – mərkəzi və ya periferik sinir sisteminin fəaliyyətinin pozulması nəticəsində meydana çıxan ishal

Pankreatik ishal *(d. pancreatica)* – mədəaltı vəzin xarici sekretor funksiyasının pozulması nəticəsində meydana çıxan ishal

Uremik ishal *(d. uraemica)* – uremiya zamanı bağırsağın funksiyasının kompensator güclənməsi nəticəsində meydana çıxan ishal

Yağlı ishal *(d. steatorrhoea) – bax:* steatoreya

Yeyunal ishal *(d. jejunalis)* – nazik bağırsağın yuxarı hissəsinin zədələnməsi nəticəsində meydana çıxan enteral ishal

İsitqac (*calefactor*) – iltihab proseslərinin sorulması, bədəni qızdırmaq və ağrını kəsmək üçün içinə isti su tökülüb bədənin ağrıyan yerinə qoyulan rezin qovuq

Elektrik isitqac – metallaşdırılmış materialdan hazırlanmış, hər iki tərəfdən asbest örtüklə örtülmüş, elektrik cərəyanı ilə işləyən və qızdırma dərəcəsi reostatla tənzim olunan isitqac

Elektrotermik isitqac – *bax:* elektrik isitqac

Kimyəvi isitqac – istiliyin əmələ gəlməsi ekzotermik kimyəvi reaksiyalar (məs., metal tozların su ilə oksidləşməsi) vasitəsi ilə əldə edilən isitqac növü

İsitmə-qidalanma məntəqəsi – hərbi qulluqçunun qış vaxtı xidməti yolunda müvəqqəti isinmə, dincəlmə və qidalanması üçün tikili

İsterik alaqaranlıq hal – tam amneziya ilə nəticələnən, psixi travmalardan sonra meydana çıxan düşüncə pozuntusu sindromu

İsterik amavroz (*amaurosis hysterica*) – *bax:* isterik ambliopiya

İsterik fantaziyalar *(pseudologia phantastica)* – diqqətlərini cəlb etmək məqsədilə isterik xəstələrə elan olunan həqiqətə uyğun olmayan məzmunlu uydurmalar

İsterik xarakter – yüksək affektiv du-

rumla müşahidə edilən, əhavl-ruhiyyənin daimi olmayan isterik xüsusiyyətli olması

İsterik sindrom *(syndromum hystericum)* – isteriya zamanı meydana çıxan müxtəlif hərəki, hissi, vegetativ və psixi pozğunluqların ümumi adı

İsterik yumaq *(globus hystericus)* – isterik tutmanın başlanğıcında yaranan spazmatik hal, xəstəyə elə gəlir ki, boğazında "şarabənzər" əşya gəzir

İsteriya (*hysteria*) – nevrozun bir forması olub, emosional reaksiyalar, qıcolma tutmaları, hissiyyat pozuntuları ilə təzahür edir, nümayişedici xarakter daşıyır, xəstə ətrafdakıların diqqətini özünə çəkmək və ona necə ağır olduğunu bildirmək istəyir

İsteriya formalı pozuntu – hərəki, sensor və vegetativ pozuntularla xarakterizə olunan patoloji vəziyyət

İsteriya qövsü *(arcus hystericus)* – ümumi tonik çəngolmalar zamanı baş verir, xəstənin dabanı və başı yerə dirənərək bədəni qövs şəklini alır

İsti bürümə – əvvəlcədən qaynar mayedə isladılmış mələfə ilə bürümə

İstiqamətli təsirə malik immunoqlobulinlər – müəyyən yoluxucu xəstəlik keçirmiş insanın qan zərdabının immunoqlobulinləri əsasında hazırlanmış dərman vasitələrinin ümumi adı; yoluxucu xəstəliklərin profilaktika və müalicəsi zamanı istifadə olunurlar

İstiqamətli təsirə malik qammaqlobulinlər – *bax:* istiqamətli təsirə malik immunoqlobulinlər

İstivurma – bədən hərarətinin həddindən artıq qızması nəticəsində yaranan kəskin patoloji hal; bədən hərarətinin yüksəlməsi, kəskin tər ifrazı, nəbzin sürətlənməsi, baş ağrısı, ürəkbulanma və qusma, özündən getmə ilə xarakterizə olunur; həddindən artıq qızma nəticəsində istilik mübadiləsi prosesinin güclənməsi ilə istilikvermə (istiliyin bir cisimdən başqasına keçməsi) azalır və yaxud çətinləşir, bu da həyat fəaliyyəti funksiyasının pozulmasına gətirib çıxarır;

İstmik kanal (anat. *isthmus uteri* uşaqlıq boynu) – *bax:* uşaqlıq boynu kanalı

İsveçrə tipli immunoparez – *bax:* limfopenik aqammaqlobulinemiya

İş- *(*yun. *ischo* ləngitmək, mane olmaq*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub "ləngimə", "çatışmazlıq", "maneə" mənasını verir

İş qabiliyyəti – orqan və ya bütövlükdə orqanizmin təyin olunmuş rejimdə aktiv fəaliyyət qabiliyyəti

İşemik kontraktura (*contractura ischaemica*) – *bax:* Folkmanın işemik kontrakturası

İşemiya *(ischaemia)* – arteriyalarla gələn qanın azalması və ya tamamilə kəsilməsi ilə əlaqədar olaraq toxuma və orqanlara qan təchizatının azalması

İşə qaçış – psixogen reaksiyanın bir forması olub, xəstənin düşdüyü situasiyadan işə, professional fəaliyyətə həddən artıq meylliliyi nəticəsində çıxması, vəziyyətinin yüngülləşməsi

İşıq aclığı – *bax:* günəş çatışmazlığı

İşıq oftalmokoaqulyatoru – *bax:* oftalmokoaqulyator

İşıqla müalicə – *bax:* fototerapiya

İşıqlan**dırma** – şüa enerjisindən istifadə etməklə insanın görməsi üçün

normal işıqlanma şəraitinin yaradılması

Diffuz işıqlandırma – *bax:* yayılmış işıqla işıqlandırma

İstiqamətləndirilmiş işıqlandırma – xüsusi olaraq iş sahəsinə yönəlmiş işıqlandırma

Kombinə olunmuş işıqlandırma – eyni zamanda yerli və ümumi süni işıqlandırmadan istifadə olunması

Qarışıq işıqlandırma – təbii və süni işıq mənbələrindən istifadə etməklə işıqlandırma

Lokal işıqlandırma – işıq şüalarının paylanmasının iş yeri nəzərə alınmaqla aparılması

Müştərək işıqlandırma – *bax:* qarışıq işıqlandırma

Süni işıqlandırma – süni işıq mənbələrinin köməyi ilə işıqlandırma

Təbii işıqlandırma – birbaşa, yayılmış və ya əks olunmuş günəş şüaları ilə işıqlandırma

Ümumi işıqlandırma – tavanda yerləşdirilmiş işıqlandırıcı vasitəsi ilə işıqlandırma

Yayılmış işıqla işıqlandırma – işçi sahənin və ya obyektin hər hansı bir istiqamətini seçmədən bütün nahiyələrinin işıqlandırılması

Yerli işıqlandırma – lazım olan sahənin daşınan və ya quraşdırılmış işıqla bilavasitə yaxın məsafədən işıqlandırılması

İşıqsaçan aviasiya bombası – köməkçi təyinatlı aviasiya bombalarına aid olub, ərazini işıqlandırmaq üçün istifadə olunan bombalar

İşi- *(*işio-; yun. *ischion* çanaq-bud oynağı, omba, oturaq*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "oturaq sümüyə, oturaq sinirə aid olan" mənasını verir

İşias (*ischias*; yun. *ischion* oturaq, omba) – oturaq sinirin iltihabı

İşio – *bax:* işi-

İşiopaq (*ischiopagus*) – aralıq nahiyəsində bitişmiş əkizlər

İşlədici vasitələr *(laxantia)* – bağırsaq peristaltikasını artıran və onun boşalmasını sürətləndirən dərman vasitələri

İştah(a) *(appetentia)* – qida qəbulu ilə bağlı xoş hissiyyat, yemək istəyi, yemək arzusu

Seçici iştah – müəyyən qida növünə qarşı olan iştah

Təhrifedilmiş iştah – yeyilməyən maddələrə qarşı olan iştah

İşuriya (*ischuria*) – sidik kisəsinin boşalmasının mümkün olmamasıdır; bu vəziyyət ən çox sidikçıxarıcı kanalda mexaniki maneə olduqda (daş, şiş, çapıq və s.) baş verir

İt- *(*yun. *itis)* – iltihabi xəstəlikləri və ya prosesləri adlandırmaq üçün sözlərə əlavə olunan şəkilçi

İtar-Xoleva simptomu (J.M.G. Itard (1775-1838), frans. həkimi; E.R. Cholewa, 1856-?, alm. həkimi) – otoskleroz əlaməti: təbil pərdəsinin anesteziyası

İtburnu yağı *(oleum rosehip)* – tərkibində doymuş və doymamış yağ turşuları, karotinoidlər və tokoferol olan təbii preparat

İtdirsəyi (*hordeum*) – göz qapaqlarının kənarında, kirpiklərin tük kisəciyinin ətrafında yerləşən piy vəzilərində qızılı stafilokokların törətdiyi irinli iltihab

İterasiya *(iteratio)* – psixiatriyada: eyni hərəkəti, ağır hərəki aktı, sözü, ifadəni təkrar etməyə meylliliklə xarakterizə olunan patoloji oyanma

İtinerarium *(*köh., lat. *iter, itineris* yol,

üsul*)* – sidik kisəsindən daşı xaric etmək üçün alət

İtki, döyüş itkisi – fəaliyyət göstərən ordunun hərbi qulluqçularının döyüş zədələnməsi və ya xəstələnməsi nəticəsində sayının azalmasını bildirən anlayış

İto üsulu (T. Ito, yap. patoloqu) – natrium xloridin izotonik məhlulunun böyük miqdarda venadaxili yeridilməsi ilə obliterasiyaedici endarteriitin müalicə üsulu

İton agenti (M.D. Eaton, amer. bakterioloq) – *bax:* Mycoplasma pneumaniae

İvanova-Podobed simptomu (S.V. İvanova-Podobed, sov. rentgenoloqu) – qida borusunda yad cisimlərin aşkar edilməsinin rentgenoloji üsulu; bu üsul yad cisim olduğu səviyyədə barrium horrasının lənginəsinə əsaslanır

İynə (*acus, spina*) – tibdə: itiuclu nazik mil və ya borucuq şəklində olan deşici və ya deşici-kəsici alət; hər hansı bir xəstəliyə əks-təsir etmək və onun qarşısını almaq məqsədilə dərialtına dərman yeritmək üçün işlənir

İynə testi – zədələnməmiş dəri səthinə müayinə olunan allergen damcısı qoyulduqdan sonra, həmin damcıdan keçmək şərti ilə, epidermisin iynə ilə deşilməsi vasitəsilə aparılan dəri sınağı

İynəbatırma (*acupunctura*) – refleksoterapiya üsulu olub, müalicə məqsədilə dəridə yerləşən müəyyən nöqtələrə (aktiv nöqtələr) xüsusi iynələrin yeridilməsindən ibarətdir

İynətutan (*acutenaculum*) – tikişlərin qoyulması zamanı cərrahi iynələrin tutulmasında istifadə olunan tutqac

İzadrin (*isadrinum*) – əsasən yerli təsir göstərən adrenomimetik maddə

İzodaktiliya (*isodactylia*) – II və V əl barmaqlarının inkişaf anomaliyası: barmaqların eyni uzunluqda qısa və yoğun olması

İzogen (*isogenus*) – genetik cəhətdən eyni olan

İzoxorik (yun. *isos* eyni, bərabər, *chora* yer) – həcmi eyni olan

İzokoriya (*isocoria*) – sağ və sol göz bəbəklərinin eyni olması

İzoləolunmuş ultrafiltrasiya – ultrafiltrasiya yolu ilə orqanizmdən elektroitlərin və suyun xaric edilməsi

İzolofobiya (frans. *isolement* tənhalıq + *fobiya*) – həyatda tək qalmaqdan, təklikdən qorxma

İzolyator (frans. *isolateur*) – xəstəxanada yoluxucu xəstəliyi olan xəstələri və dəlilləri saxlamaq üçün xüsusi təcrid olunmuş otaq

İzometrik – ölçüləri eyni olan

İzoniazid *(isoniazidum)* – izonikotin turşusunun törəməsi olan vərəm əleyhinə preparat

İzonitrozin (*isonitrosinum*) – xolinesterazanın reaktivatoru

İzopiya (*isopentane*) – hər iki gözün görmə itiliyinin eyni olması

İzoterapiya – təsviri sənət üsullarından istifadə etməklə psixoterapevtik işin aparılması – art terapiyanın ən geniş tətbiq olunan növüdür; insanlar öz emosiyalarını, problemlərini, hətta yuxularını rəsmə köçürürlər

İzotermiya (*isothermal*; *izo* + yun. *therme* istilik) – bədən temperaturunun nisbi sabitliyi

İzotonik məhlul (*solutio isotonica*) – tibdə: osmos (osmotik) təzyiqi qan plazmasının osmos təzyiqi ilə eyni olan məhlul

İzotop mieloqrafiyası – *bax:* radioizotop mieloqrafiya

İzraels-Uilkinson xəstəliyi (M.C. Israels, ing. həkimi; J. F. Wilkinson, ing. hematoloqu) – *bax:* B_{12} və fol-defisitli axrestik anemiya

J

Jakku sindromu (S. Jaccoud, 1830-1913, frans. həkimi) – ankiloz, kontraktura və əzələdaxili fibrozla gedən revmatoid poliartrit; xəstəlik əsasən yeniyetmə və gənc yaşlarda başlayır

Jarkovski qanunu – onurğa beyninin aşağı oma seqmentlərinin yan ciyələrinin spinotalamik yolların zədələnməsi zamanı, aralıq nahiyəsində ağrı və temperatur hissiyyatının pozulması baş verir ki, bu da həmin hissi liflərin burada ağ maddə deyil, boz maddə tərkibində yerləşməsi ilə bağlıdır.

Jarqonofaziya (frans. *jargon* jarqon) – ətrafdakılara aydın olmayan dildə (afaziyada, şizofreniyada, proqressiv iflicdə) danışılan söz yığını

Jelatin infiltrasiyası – *bax:* jelatinəbənzər pnevmoniya

Jelino xəstəliyi (F. B. E. Gelineau, 1837-1906, frans. nevropatoloqu) – *bax:* narkolepsiya

Jerar-Marşan simptomu (Gerard-Marchant, 1850-1903, frans. cərrahı) – epidural hematomanın əlaməti: gicgah-təpə nahiyəsində ağrılı şişkinlik

Jerdinin dilaltı çuxuru (P. N. Gerdy, 1797-1856, frans. anatom və cərrahı) – *bax:* yuxu üçbucağı

Jilber simptomu (N. A. Gilbert, 1858-1927, frans. həkimi) – aclıq zamanı sutkalıq sidiyin artması və qida qəbulunun bərpasından sonra azalması (qaraciyər sirrozunun əlaməti)

Jilber sindromu (N. A. Gilbert) – *bax:* koli-bakterial sepsis

Jilber-Meylenqraxt sindromu (N. A. Gilbert, 1858-1927, frans. həkimi; E. Meulengracht, 1887-1976, danim. həkimi) – qlükuronoziltranferaza fermentinin aktivliyinin çatışmazlığı nəticəsində bilirubin mübadiləsinin pozulması, sarılıq və qanda dolayı bilirubinin miqdarının artması ilə gedən irsi xəstəlik

Jill de la Turett sindromu (G. Gilles de la Tourette, 1857-1904, frans. həkimi) – polimorf hiperkineziya, mioklonik hərəkətlərlə (üz, boyun, çiyin qurşağı əzələlərinin dartılması, tez-tez öskürmə və tüpürməklə dodaq və dilin qeyri-iradı hərəkətləri) təzahür edən xəstəlik; əsasən uşaqlarda müşahidə olunur

Jollinin miastenik reaksiyası (F. Jolly, 1844-1904, alm. nevropatoloqu) – *bax:* miastenik reaksiya

Jülien-Portman üsulu (Guillien; G. Portmann, frans. otorinolarinqoloqu) – antrum, təbil boşluğu, attik, çəkic, zindan və üzəngini müayinə etmək üçün gicgah sümüyünün transorbital proyeksiyada rentgen müayinəsi

Jyon sindromu (M. Jeune, frans. pediatrı) – döş qəfəsinin tam inkişaf etməməsi, ağciyərlərin hipoplaziyası və tənəffüs çatışmazlığı, polidaktiliya, torlu qişanın degenerasiyası, xroniki nefrit, böyrəyin və mədəaltı vəzin sistləri, çanaq sümüyünün deffektlərindən ibarət simptomokompleks

K

Kaban xəstəliyi (A. Cabanes, frans. həkimi) – inkişaf anomaliyası: amimiya ilə təzahür edən üz siniri nüvəsinin olmaması

Kadasil sindromu (Cadasil) – beyinin ağ maddəsinin infarktı nəticəsində demensiya, depressiya, psevdobulbar iflic, tetraplegiyadan ibarət simtomokompleks; kiçik damarların irsi xəstəliyi, onların zədələnməsi çoxsaylı qabıqaltı müxtəlif lokalizasiyalı infarktlara səbəb olur

Kadaverin *(*lat. *kadaver* meyit*)* – zülalların bakterial parçalanması zamanı (məs., yoğun bağırsaqda) əmələ gələn fermentativ məhsul

Kader qastrostomiyası (B. Kader, 1863-1937, polşa cərrahı) – cərrahi əməliyyat: rezin boru yeritməklə, mədənin qida qəbulu üçün süni fistulunun yaradılması

Kadmium sınağı (Cadmium, Cd) – qan zərdabının kolloid davamlılığını pozan faktor kimi kadmium sulfatın istifadə olunduğu koaqulyasiya sınağı

Kadusey *(caduceus)* – bəzi ölkələrdə (məs., ABŞ-da) tibbin simvolu olaraq istifadə olunan iki ilanın sarıldığı sehrli əsa, qədim Hermes (Merkuriy) tanrının atributu

Kaxeksiya (*cachexia*; yun. *kachexia*, *kakos* плохой + hexis состояние) – üzülmə, osteoporoz, gözlə görünən arıqlama, fiziki zəifləmə ilə xarakterizə orqanizmin həddindən artıq zəifləməsi, fizioloji və psixoloji vəziyyətin patoloji hala düşməsi

Alimentar kaxeksiya (c. alimentaria) – yetərsiz qidalanma nəticəsində inkişaf edən kaxeksiya

Xərçəng kaxeksiyası (c. cancerosa) – bədxassəli şişlər zamanı baş verən kaxeksiya

Suprarenal kaxeksiya (c. suprarenalis) – böyrəküstü vəz problemi ilə bağlı üzülmə

Şüa kaxeksiyası (*c.radialis*) – şüa xəstəliyinin xroniki mərhələsində inkişaf edən kaxeksiya

Yara kaxeksiyası (c. vulneralis) – *bax:* travmatik üzülmə

Kaxektik afta (*aphthae cachecticae*) – *bax:* Rigi xəstəliyi

Kain kompleksi – xasiyyət patologiyası olub qardaşın-qardaşa paxıllığı şəklində təzahür edir; bibliya personajı olan Adəm və Həvvanın oğlu Kainin adı ilə adlandırılmışdır, hansı ki, öz qardaşını öldürmüş, sonradan isə əməlindən peşman olmuşdur

Kakerqaziya (yun. *kakergasia* pis hərəkət) – *bax:* mererqaziya

Kakosmiya (cacosmia) – qoxu hissiyyatının pozulması, mövcud olmadığı halda pis qoxuları hiss etmək

Kakovski-Addiz sınağı (A.F. Kakovski, sov. həkimi; Th. Addis, 1881-1949, amer. həkimi) – sidikdə eritrositlərin, leykositlərin və silindrlərin kəmiyyət üsulu ilə təyini

Kala-azar (hindidə *kala-azar* "qara xəstəlik") – *bax:* hind visseral leyşmaniozu

Kalba əməliyyatı (O. Kalb, alm. cərrahı) – cərrahi əməliyyat: assit zamanı qarın boşluğundakı mayenin sorulmasını sürətləndirmək üçün parietal peritonun və bel əzələlərinin dərialtı toxumaya qədər kəsilməsi

Kalbaumanın stabil hallüsinasiyası (K. L. Kahlbaum, 1828-1899, alm. psixiatrı) – *bax:* statik hallüsinasiya

Kaldvell-Lyuk əməliyyatı (G.W. Cal-

dwell, amer. cərrahı; H.Luk, frans. cərrahı) – haymorit zamanı iltihab prosesini aradan qaldırmaq məqsədilə icra olunan radikal əməliyyat

Kaler xəstəliyi (O. Kahler, 1849-1893, Avstriyalı terapevt) – *bax:* mielom xəstəliyi

Kalifornium *(Californium, Cf)* – şüa terapiyasında istifadə olunan, atom nömrəsi 98 olan süni şəkildə alınmış radioaktiv kimyəvi element

Kaliginefobiya – *bax:* venustrafobiya

Kalikoektaziya (*calicectasis*) – böyrək kasalarının genəlməsi

Kalikotomiya *(calycotomia)* – cərrahi əməliyyat: böyrək kasasının açılması

Kaliper-pərgar – dərialtı piy büküşlərinin qalınlığını ölçmək üçün antropometrik alət

Kalisiviruslar *(calicivirus*) – insan üçün patogen olmayan, *Pikornaviruslar* ailəsindən olan virus

Kalitovski simptomu (Kalitowski) – *bax:* yüksək pəncə simptomu

Kalium asetat *(kalii acetas)* – osmotik təsirli diuretik

Kalium bromid (*kalii bromidum*) – mərkəzi sinir sisteminə təsir edən sakitləşdirici dərman vasitəsi

Kalium xlorid *(kalii chloridum)* – hipokalemiya, aritmiyalar, ürək qlikozidləri ilə zəhərlənmələr zamanı tətbiq olunan dərman vasitəsi

Kalium orotat *(kalii orotas)* – pirimidin törəməsi olub, metabolik proseslərə stimuləedici təsir göstərir

Kalium permanqanat *(kalii permanganas)* – oksidləşdirici təsirli antiseptik maddə

Kalk- (kals-; lat. *calx, calcis* əhəng*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "kalsium", "kalsium duzları", "kirəc" mənasını verir

Kalkanodiniya *(calcanodynia)* – pəncə, daban nahiyəsində ağrı

Kalkulyoz *(calculosus*; lat. *calculus* daş*)* – daşa (konkrementə) aid olan, daşın əmələ gəlməsilə xarakterizə olunan

Kalkuriya *(*köh. *calcuria) – bax:* kalsiuriya

Kallen simptomu (Th. S. Cullen, 1868-1953, amer. cərrahı; sin. Kuplen simptomu) – kəskin pankreatit və qarın boşluğuna qansızmalar zamanı göbək ətrafında dərinin məhdud sianozu

Kalman sindromu (F.J. Kallmann, 1897-1965, amer. psixiatrı) – qonadotropinlərin sekresiyasının çatışmazlığı nəticəsində hipoqonadizm və beynin qoxu nahiyəsinin ageneziyası nəticəsində anosmiya; beyində hipotalamusun fəaliyyət göstərməməsi nəticəsində orqanizmdə hormon disbalansının yaranması, bu səbəbdən orqanizm testosteron hormonu hasil etmir

Kalmette-Heren basili (A. L. Ch. Calmette, 1863-1933, frans. Mikrobioloq və gigiyenist; C. Guerin, 1872-1961, frans. bakterioloq) – vərəmin profilaktikasında istifadə olunan və aşağı virulentliyə malik vaksin ştammı

Kalmett-Volff-Eysner oftalmoreaksiyası (A. L. Ch. Calmette, 1863-1933, frans. mikrobioloq və gigiyenisti; A. Wolff-Eisner, 1877-1948, alm. həkimi) – vərəmin diaqnostikası zamanı qoyulan allergik sınaq, konyunktiva kisəsinə durulaşdırılmış tuberkulin tökdükdə yaranan reaksiyaya əsaslanır

Kalmettizasiya (köh.) – uşaqlarda vərəmə qarşı tətbiq olunan peroral vaksinasiya

Kalo üçbucağı (*trigonum Calloti*) – bu üçbucağın sağ tərəfini öd kisəsi axacağı, sol tərəfini qaraciyər axacağı, əsasını öd kisəsi arteriyası təşkil edir; öd kisəsinin çıxarılması əməliyyatında öd kisəsi arteriyasının bağlanılması zamanı cərrah ilk növbədə ümumi qaraciyər və öd kisəsi axacaqlarının bir-birilə birləşdiyi səviyyəni müəyyənləşdirir, sonra ümumi qaraciyər axacağı ilə yuxarıya qalxaraq, öd kisəsi arteriyasını tapır və bağlayır

Kalori- *(*lat. *calor* isti*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "isti, istiyə aid olan" mənasını verir

Kalorik sınaq – labirintin süni surətdə soyudulub və ya isidilməsi ilə aparılan vestibulyar sınaq

Kalorimetr (*kalori-* + yun. *metreo* ölçmək) – fiziki, kimyəvi və bioloji prosesin gedişində ayrılan enerjini ölçmək üçün cihaz

Kalorimetrik kamera – içərisində yerləşən insan və ya heyvandan ayrılan istiliyin miqdarını təyin etmək üçün təchiz olunmuş kamera

Kalorimetriya (lat. *calor* isti + yun. *metreo* ölçmək) – fiziki, kimyəvi və bioloji proseslərin gedişində ayrılan enerjinin miqdarını ölçmə üsullarının məcmusu; tibdə orqanizmdə enerji mübadiləsinin öyrənilməsində istifadə edilir

Kalorimetriya dolayı – orqanizmin enerji itirməsinin onun qaz mübadiləsinə əsasən təyini

Kalorimetriya düz – orqanizmin enerji itirməsinin bilavasitə onun itirdiyi istiliyə əsasən təyini

Kalorizasiya (lat. *calor* isti) – *bax:* kalorik sınaq

Kalp-de Verda əməliyyatı (O. S. Gulp, kanadalı uroloq; J. H. de Werd) – plastik əməliyyat: sidik axarının ləyənönü strikturasını böyrək ləyəninin ön divarından götürülmüş loskut vasitəsilə aradan götürülməsi

Kalsergenlər (*kals-* + yun. *ergon* hərəkət + *-genes* törədən) – orqanizmə daxil olduqda müəyyən orqan və toxumalarda kalsium duzlarının düşməsinə səbəb olan maddələr

Kalsiferol (sin. D vitamini) – orqanizmdə kalsium və fosfor mübadiləsini nizamlayır, onların mənimsənilməsinə və sümükdə toplanmasına səbəb olur; kalsiferolun çatışmazlığı raxit xəstəliyinə səbəb olur

Kalsifikasiya (kalsium + lat. *facio* etmək) – toxumalarda kalsium duzlarının yığılması

Kalsitonin (kalsium + yun. *tones* gərginlik, tonus) – qalxanabənzər vəzin zülal-peptid hormonudur, qanda kalsiumun səviyyəsinin azaldılmasına təsir göstərir

Kalsinoz (*calcinosis*) – müxtəlif patologiyalarla əlaqədar kalsium duzlarının toxumalara çökməsi

Aterosklerotik kalsinoz (c. *atherosclerotica*) – qan damarlarının aterosklerotik piləklərinin kalsinozu

Metastatik kalsinoz (c. metastatica) – hiperkalsiemiya zamanı əmələ gələn kalsinoz, kalsium duzlarının əsasən ağciyərlərə, mədənin selikli qişasına, miokarda, böyrək və arteriya divarlarına çökməsi ilə xarakterizə olunur

Məhdud kalsinoz – əl barmaqlarının (nadi hallarda ayaqların) dərisində kalsium duzlarının lövhəciklər şəklində çökməsi ilə xarakterizə olunan metabolik kalsinoz

Metabolik kalsinoz (c. metabolica) – maddələr mübadiləsinin pozulma-

sı nəticəsində və hətta qanda cüzi miqdarda kalsium duzları toplandıqda yaranan kalsinoz
Yerli kalsinoz (*c. localis*) – *bax:* məhdud kalsinoz

Kalsiuriya *(*kalsium + yun. *uron* sidik*)* – sidiklə kalsium duzlarının xaric olunması

Kalve xəstəliyi (J. C. Calve, 1875-1954, frans. cərrahı) – aşağı döş və ya yuxarı bel fəqərələrindən birinin cismində aseptik nekrozun inkişaf etməsi ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik

Kambalayabənzər əzələ (*musculus soleus*) – baldırın üçbaşlı əzələsinin başlarından biri olub, digər iki başın altında yerləşir; qamış sümüyü cisminin arxa səthində olan eyniadlı xəttdən, incik sümüyünün başından və cismindən başlayaraq baldır əzələsi ilə birləşir; kambalayabənzər əzələnin diz oynağı ilə əlaqəsi yoxdur; xarici görünüşü kambala balığını xatırlatdığından belə adlandırılmışdır

Kamerton (alm. *kammer* otaq, *ton* səs) – bərk cismə toxundurulduqda müəyyən yüksəklikdə səs çıxaran haçaşəkilli kiçik alət; tibdə eşitmə həssaslığını müayinə etmək üçün istifadə olunur

Kamfora *(camphora)* – tənəffüs və damar hərəki sisteminə qıcıqlandırıcı təsir göstərən analeptik vasitə (yerli istifadədə isə qıcıqlandırıcı və zəif antiseptik təsir göstərir)

Kampilobakterioz (*campylobacterosis*) – intoksiksiya, mədə-bağısaq pozğunluğu, artralgiya, bəzən sepsis əlamətləri, uşaqlarda bədənin susuzlaşması ilə gedən infeksion xəstəlikdir; törədicisi *Campylobacter fetus* qram-mənfi bakteriyasıdır

Kampimetr (lat. *campus visionis* baxış sahəsi + yun. *metreo* ölçmək) – görmə sahəsini müayinə etmək üçün cihaz, adətən 2x2 m ölçüdə qara lövhədən ibarət olur və üzərində həkim müxtəlif obyektləri hərəkət etdirməklə müayinəni aparır

Kampimetriya (lat. *campus visionis* baxış sahəsi + yun. *metreo* ölçmək) – görmə sahəsinin defektlərini təyin etmək üçün müayinə üsulu; müayinə olunan gözdən 1 m məsafədə yerləşən qara lövhə üzərində hərəkət etdirilən obyektlərin gözlə qavranılmasından ibarətdir; skotomanın müəyyən edilməsində istifadə olunur

Kampos üsulu (R. Campos) – histoloji kəsiklərdə sinir toxuması strukturlarının aşkar edilməsi üsulu

Kampotomiya *(campotomia*; anat. *campi Foreli* Forel sahələri + yun *tome* kəsik*)* – cərrahi əməliyyat: ekstrapiramid sistemin bəzi zədələnmələri zamanı baş beynin qabıqaltı strukturlarının dağıdılması

Kamptodaktiliya *(camptodactylia*; yun. *kampto* əymək + *daktylos* barmaq*)* – inkişaf anomaliyası: əlin V barmağının bükücü kontrakturası

Kamptokormiya *(camptocormia*; yun. *kampto* əymək + *kormos* bədən*)* – isteriya zamanı bədənin qeyri-təbii vəziyyətdə davamlı qalması (önə doğru əyilməsi və s.)

Kamurati-Engelmann xəstəliyi (M. Camurati, ital. həkim; G. Engelmann, 1876 ildə an. olub, avstriyalı cərrah) – əzələ həcminin azalması və oynaqlarda hərəkət məhdudiyyəti ilə müşayiət olunan bud, bazu və qamış sümüklərinin diafizlərinin hiperostozu ilə xarakterizə olunan irsi xəstəlik

Kanal doldurucu – diş kökü kanalının plomb materialı ilə doldurulması üçün alət

Kanalcıq sınağı (sin. göz yaşı-burun sınağı) – gözyaşı ötürücü yollarının keçiriciliyinin müayinə üsulu; konyunktiva kisəsinə kontrast mayenin yeridilməsindən sonra konyunktivanın normal rənginin bərpa olunma sürətinin qiymətləndirilməsindən ibarətdir

Kanalikulyar bartolinit (*bartholinitis canalicularis*) – *bax:* kanalikulit

Kanalikulit *(canaliculitis)* – 1) uşaqlıq yolunun dəhlizində yerləşən bartolin vəzinin iltihabı; 2) göz yaşı kanalının iltihabı

Kanalikulorinostomiya (*canaliculorhinostomia*; lat. *canaliculus lacrimalis* göz yaşı kanalı + yun. *rhis, rhinos* burun + *stoma* dəlik) – cərrahi əməliyyat: göz yaşı kanalı və burun boşluğu arasında anastomozun qoyulması

Kanamisin *(kanamycinum)* – aminoqlikozidlər qrupundan olan geniş-spektrli antibiotik, qram-müsbət və qram-mənfi mikroorqanizmlərə, həmçinin turşuyadavamlı bakteriyalara qarşı aktivdir

Kanavan xəstəliyi (M. M. Canavan, 1879-1953, amer. həkimi; sin. Kanavan-Van-Boqart-Bertran xəstəliyi) – adinamiya, qıcolmalar, hiperkinezlərlə təzahür edən irsi xəstəlikdir, N-asetilaspart (NAA) turşusunu parçalayan aspartoasilaza fermentinin çatışmazlığı səbəbindən yaranır; proqressiv əqli gerilik, boyun əzələlərinin atoniyası, makrosefaliya, görmə qabiliyyətinin proqressiv zəifləməsi və ətrafların spastik parezi ilə nəticələnir

Kanavan-Van-Boqart-Bertran xəstəliyi (M. M. Canavan, 1879-1953, amer. həkimi; L. Van Bogaert, belç. nevropatoloqu; I. G. Bertrand, 1893-1965, frans. həkimi) – *bax:* Kanavan xəstəliyi

Kandidamikidlər *(candidamykida)* – kandidozlu xəstələrdə papulyoz və ya vezikulyar elementli allergik səpgi

Kandidamikotik uretrit – sidik axarı kanalının mayayabənzər göbələklərlə törədilmiş iltihabı

Kandidamikoz (*candidamycosis*) – *bax:* kandidoz

Kandidoz *(candidosis)* – *Candida* cinsindən olan maya göbələklərinin törətdiyi mikoz

Ağciyərin kandidozu (*c. pulmonum*) – ağciyər toxumalarında qranulemaların əmələ gəlməsi və interstisial pnevmoniyanın inkişafı ilə xarakterizə olunan kandidoz

Dəri büküşlərinin kandidozu – *bax:* intertriginoz kandidoz

Dərinin kandidozu (*c. cutis*) – əsas etibarilə dərini zədələyən səthi kandidoz

Dırnaqların və dırnaq lövhələrinin kandidozu – bu növ səthi kandidozda dırnaq valı şişir, ödemləşir, yastığabənzər olur və ona təzyiq etdikdə altından irin çıxır

Generalizəolunmuş xroniki kandidoz (*c. generalisata chronica*) – dəridə ləkələr, papula və qabarcıqların əmələ gəlməsi, residivləşən pnevmoniya, epileptik tutmalarla xarakterizə olunan kandidoz; əsasən uşaq yaşlarında rast gəlinir

Generalizəolunmuş kandidoz (*c. generalisata*) – *bax:* kandidamikotik sepsis

Xroniki qranulematoz kandidoz (*c.*

granulomatosa chronica) – *bax:* generalizəolunmuş xroniki kandidoz

İntertriginoz kandidoz (*c. intertriginosa*) – dəri büküşlərində eroziyaların yaranması ilə gedən səthi kandidoz

Peşə kandidozu (*c. professionalis*) – peşə fəaliyyəti ilə əlaqədar olaraq inkişaf edən kandidoz

Selikli qişaların kandidozu (*c. mucosae*) – əsasən selikli qişaların (ağız boşluğunun, badamcıqların, uşaqlığın) zədələnməsi ilə gedən səthi kandidoz

Səthi kandidoz (*c. superficialis*) – daxili orqanları zədələmədən gedən kandidoz

Visseral kandidoz (*c. visceralis*) – daxili orqanların, əsasən tənəffüs yolları və həzm traktının zədələnməsi ilə gedən kandidoz

Kandidoz angina (*angina candidotica*; sin. göbələk anginası) – kandidoz zamanı ümumi intoksikasiyanın zəif simptomları, yüngül çıxarılan kəsmiyəbənzər ərplə örtülmüş damaq badamcıqlarının ödemi və hiperemiyası ilə xarakterizə olunan kəskin tonzillit

Kandinski-Klerambo sindromu (V.X. Kandinski, 1849-1889, rus psixiatrı; M. G. G. de Clerambault, 1873-1934, frans. psixiatrı; sin. psixi avtomatizm) – iradəyə tabe olmayan hərəkətlərlə təzahür edən psixi avtomatizm; psevdohallüsinasiya, mentizm, izləmə, fiziki hipnotik təsir, zəhərlənmə və s. sayıqlamalarla xarakterizə olunur; əsasən şizofreniya zamanı müşahidə olunur

Kan reaksiyası (R. L. Kahn, amer. mikrobioloq) – sifilisin serodiaqnostik müayinə üsulu

Kanner sindromu (L. Kanner, avstriyalı psixiatr) – kiçikyaşlı uşaqlarda ətrafdakı adamlarla ünsiyyət yarada bilməmə, ətrafda baş verən hadisələrə laqeyd münasibət, uca səsdən və hərəkət edən əşyalardan qorxu ilə təzahür edən uşaq autizminin bir forması

Kanserofobiya (lat. *cancer* xərçəng + *fobiya*) – xərçəng xəstəliyinə tutulmaq qorxusu

Kanserogen maddələr – *bax:* onkogen maddələr

Kanserogenez (*cancerogenesis*) – *bax:* onkogenez

Kanyula *(*frans. *canule)* – 1) diaqnostik, müalicə və müayinə məqsədilə bədənin müxtəlif nahiyələrinə və kanallarına yeridilən, küt ucu olan qısa borucuk; 2) boruşəkilli iynənin hər hansı bir digər vasitə ilə birləşdirilməsi üçün nəzərdə tutulan yoğun hissəsi

Damar kanyulası – venadaxili damcı infuziyaları üçün istifadə olunan düz və ya əyri kanyula; metal iynəyə taxılmış plastik kateter

Neyrocərrahi kanyula – beyin mədəciklərini və baş beynin kistoz boşluqlarını punksiya etmək üçün incə kanyula

Oftalmoloji kanyula – göz yaşı axarının və gözün ön kamerasının yuyulması üçün nazik metallik kanyula

Traxeotomik kanyula – *bax:* traxeotomik boru

Uroloji kanyula – sidik çıxarıcı kanalı yumaq üçün metallik və ya plastmas kanyula

Kanyula-troakar – beyin şişinə radioaktiv qranulaların yeridilməsi üçün troakar

Kanyula-ucluq – bir növ şprisin iynə-

sini digər növ şprisə, həmçinin iynə və ya kanyulanı elastik boruya birləşdirmək üçün boruşəkilli vasitə

Kanyulyasiya – boşluqlu və ya borulu orqanlara kanyulanın uzun müddətə yeridilməsi və fiksasiyası

Kaolinoz *(kaolinosis)* – kaolin tozunun nəfəslə udulması nəticəsində törənən pnevmokonioz

Kapdepon sindromu (B. Capdepont, 1867-1918, frans. stomatoloqu) – *bax:* Steynton-Kapdepont sindromu

Kapillyar *(vaz capillare)* – divarı endotelial hüceyrələrdən təşkil olunan ən nazik damar

Qan kapillyarı *(vas hemocapillare)* – arterial sistemin şaxələrinin son hissəsidir; qan kapillyarının divarı vasitəsilə qan və toxumalar arasında maddələr mübadiləsi baş verir

Limfatik kapillyar *(vas lymphocapillare)* – limfatik sistemin başlanğıc hissəsi olan, bir ucu qapalı kapillyar

Kapillyarların rezistentliyi – kapillyarların mexaniki təsir zamanı damar divarının tamlığını qoruya bilmə qabiliyyəti

Kapillyaroqrafiya (*kapillyar* + yun. *grapho* yazmaq, təsvir etmək) – insanın qan kapillyarlarının, xüsusi tərkiblərlə işıqlandırlmış dırnaq yatağı kapillyarlarının mikrofotoqrafiya edilməsindən ibarət müayinə üsulu

Kapillyaroqramma (*kapillyar* + yun. *gramma* yazı, təsvir) – qan kapillyarlarının kapillyaroqrafiya zamanı əldə olunmuş təsviri

Kapillyaroskop (*kapillyar* + yun. *skopeo* tədqiq etmək) – qan kapillyarlarının (əsasən dırnaq yatağının) vizual müayinəsi üçün mikroskop

Kapillyaroskopiya – dırnaq yatağı mikroskopiya edilməklə qan kapillyarlarının müayinə üsulu

Kapillyarotoksikoz (*capillarotoxicosis*) – *bax:* hemorragik vaskulit

Kapistrum *(capisturum)* – gicgahları, qulaqaltı və çənəaltı nahiyəni bir tərəfdən (*capisturum simplex*) və ya iki tərəfdən (*capisturum duplex*) əhatə edən, qulaqları açıq saxlayan yumşaq sarğı

Kapqr sindromu (J. M. J. Capgras, 1873-1950, frans. psixiatrı) – insanları, əşyaları, onu əhatə edən mühiti "yalandan tanımaq"; bu sindromu həm də «mənfi oxşar sayıqlaması» adlandırırlar, xəstə inanır ki, onun ətrafından kimisə və ya onun özünü oxşarı əvəz edib və inandırmağa çalışır ki, onun adından edilmiş bütün pis şeyləri onun oxşarı edib

Kaplan aparatı (A.V. Kaplan, 1904-2001, sov. travmatoloqu) – bud boynu sınıqlarının düzgün yerləşdirilməsi üçün aparat

Kaplan xəstəliyi (A. Caplan, ing. həkimi) – *bax:* Kaplan sindromu

Kaplan sindromu (A. Caplan, ing. həkimi) – silikoz və revmatoid artritdən əziyyət çəkən xəstələrdə ağciyərlərdə fokal kölgələrin formalaşması ilə xarakterizə olunur

Kaplan üsulu (A.V. Kaplan, 1904-2001, sov. travmatoloqu) – 1) nazik metallik ştiftdən istifadə etməklə yerinə yetirilən osteosintez üsulu; 2) körpücük sümüyünün çıxığı zamanı akromial-körpücük sümüyü oynağının bərkidilməsi üsulu; 3) sümük parçalarının çarpazlaşan və ya paralel millərlə təsbit edilməsi üsulu

Kaplan-Antonov lövhəsi (A.V. Kaplan; İ.İ. Antonov, rus travmatoloqu) – uzunborulu sümüklərin sınıqla-

rı zamanı icra olunan osteosintez əməliyyatında tətbiq olunan metallik fiksator

Kaplan-Bakıçarovun sümük tikişi (A.V. Kaplan, 1904-2001, sov. travmatoloqu; Y. P. Bakıçarov, sov. travmatoloqu) – bud sümüyünün sınıqları zamanı ikipərli mismarla həyata keçirilən osteosintez

Kapnoangioqrafiya (yun. *kapnos* tüstü + *angioqrafiya*) – *bax:* qaz angioqrafiyası

Kapossi əlaməti (Capozzi) – zirvə vurğusunun ürək nahiyəsində palpasiya ilə müəyyən edilən ikiləşməsi və ya üçləşməsi; His dəstəsi ayaqcığının blokadasının əlaməti

Kaposi angiomatozu (M. K. Kaposi, 1837-1902, mac. dermatoloqu) – *bax:* idiopatik çoxsaylı hemorragik sarkoma

Kaposi angioretikulyozu (M. K. Kaposi) – *bax:* idiopatik çoxsaylı hemorragik sarkoma

Kaposi-Yuliusbergin varioliform pustulyoz (M. K. Kaposi; F. Juliusberg, alm. dermatoloqu) – *bax:* varioliform pustulyoz

Kaposi-İrqanqın dərin qırmızı qurdeşənəyi (M. K. Kaposi, 1837-1902, macar dermatoloqu; S. Irgang, alm. dermatoloqu) – *bax:* dərin qırmızı qurdeşənəyi

Kaposi-Libman-Saks sindromu (M. K. Kaposi, 1837-1902, mac. dermatoloqu; E. Libman, 1872-1946, amer. həkimi; B. Sacks, amer. həkimi) – *bax:* qurdeşənəyi endokarditi

Kaposinin varioliform səpgisi (M. K. Kaposi) – *bax:* varioliform pustulyoz

Kappa (alm. *cappe)* – ortodontik müalicə zamanı dişlərə taxılan, oksidləşməyən metal və ya polimerdən hazırlanmış qapaq

Kappa faktoru – *bax:* faktor VII

Kappeler qastroenterostomiyası (O. Kappeler, 1841-1909, alm. cərrahı) – nazik bağırsağın mədəyə anastomozdankənar əlavə olaraq tikilməsi ilə icra olunan qastroenterostomiya

Kapsid (lat. *capsa* anbar, qab) – virionun zülal qişası

Kapsomer (lat. *capsa* anbar + yun. *meros* hissə) – kapsidin təşkil olunduğu zülal tərkibli struktur vahid

Kapsul *(capsula)* – 1) bəzi bakteriyaların sintez etdiyi, onların səthini örtən və faqositozun qarşısını alan qat; antigen xüsusiyyətlərə malikdir; 2) jelatin örtüyü və ya yüngül üst qabığı olan dərman, həb

Jelatinli kapsul *(c. jelatinosa)* – bəzi bərk və ya maye dərman vasitələri üçün jelatindən hazırlanmış kapsul

Nişanlanmış jelatinli kapsul – mədənin sekretor funksiyasını öyrənmək üçün tətbiq olunan və radiofarmaseftik preparatdan ibarət olan kapsul

Nişastalı kapsul *(c. amylacea)* – nişastadan hazırlanmış və qeyri-hiqroskopik tozları daxilə qəbul etmək üçün nəzərdə tutulmuş kapsul

Kapsulit (*capsulitis*) – *bax:* tenonit

Kapsulotom – oftalmoloji əməliyyatlarda istifadə olunan cərrahi alət, göz bülluru kapsulunun yarılması üçün

Kapsulotomiya (*capsulotomia*) – bülluru kapsulasının yarılması

Karakurt (*Latrodectus tiredecimguttatus*; türkcə *kara* qara + *kurt* həşərat) – *Theridiidae* ailəsindən olan zəhərli hörümçək növüdür, dişi nümayəndəsi sancdıqda insanda

ümumi intoksikasiya törədən sekret yeridir; əsasən Orta Asiyada rast gəlinir

Karantin *(*frans. *quarantaine*; ital. *quarantena*, "*quaranta giorni*" qırx gün*)* – yoluxucu xəstəliklərin müəyyən ərazidə yayılmasının və epidemik ocaqdan kənara çıxmasının qarşısının alınmasına yönəlmiş tibbi-sanitar və inzibati tədbirlər kompleksi

Karantin evi – XVIII əsrdə xəbərdarlıq yazəsə ilə qeyd olunan və çiçək xəstəliyinə tutulmuş xəstələrin saxlandığı ev

Karantinizasiya – *bax:* karantin

Karotinoidlər – yağda həll olan narıncı, sarı və ya qırmızı bioloji aktiv piqmentlərdir; orqanizmdə karotin mənimsənildikdə A vitamininə çevrilir

Karaven əməliyyatı (M. Caraven, frans. ortopedi) – cərrahi əməliyyat: körpücük sümüyünün akromial çıxıntısının çıxıqları zamanı ipək sapdan süni bağın yaradılması

Karaven-Qujero xəstəliyi (M. Caraven; H. E. Gougerot, 1881-1955, frans. dermatoloqu) – *bax:* hemisporioz

Karavey üsulu (W. T. Caraway) – qan zərdabında, sidikdə və ya duodenal möhtəviyyatda α-amilazanın aktivliyinin kolorimetrik təyini üsulu

Karbamazepin (*carbamazepinum*) – psixomotor epilepsiyalar, tutmalar və qarışıq tipli epilepsiyalar zamanı istifadə olunan preparat

Karbamid (sin. sidik cövhəri) – ammonyakın orqanizmdə zərərsizləşdirilməsi nəticəsində əmələ gələn maddə olub, zülal mübadiləsinin əsas son məhsulu hesab edilir; orqanizmdən sidiklə xaric edilən azotlu maddələrin 90%-ə qədərini karbamid təşkil edir

Karbidin (*carbidinum*) – indol törəməsi olan neyroleptik dərman vasitəsi

Karbohidrat – qlükoza, nişasta kimi mürəkkəb üzvi birləşmələrin ümumi adı; orqanizmin əsas qida maddələrindən biridir

Karboxolin (*carbocholinum*) – xolinomimetik təsir göstərən maddə

Karboksihemoqlobin – dəm qazı ilə zəhərlənmə zamanı orqanizmə daxil olan dəm qazı ilə hemoqlobinin birləşməsi; karboksihemoqlobin oksigenin hemoqlobin vasitəsilə üzv və toxumalara daşınmasının qarşısını alır

Karbolen – aktivləşmiş kömür

Karbunkul *(carbunculus*; lat. *carbo* kömür*)* – bir neçə yaxın tük follikulunun və piy vəzilərinin ətraf dəriyə və dəri altı birləşdirici toxumaya yayılan kəskin irinli-nekrotik iltihabı

Qarayara karbunkulu *(carbunculus anthracicus)* – dəriyə qarayara törədicisinin daxil olduğu yerdə əmələ gələn, kəskin ağrılı, geniş ödemli, ətraf toxumalarda səpgilər, qara rəngli nekroz ocağının olması, irinin olmaması ilə xarakterizə olunan karbunkul

Taun karbunkulu (*c. pestilentialis*) – dəriyə taun törədicisinin daxil olduğu yerdə əmələ gələn, kəskin ağrılı, geniş ödemli, nekrozlu, seroz-irinli ekssudatın olması ilə xarakterizə olunan karbunkul

Karbunkul bədxassəli *(*köh. *pustula maligna) – bax:* qarayara

Kardarelli simptomu (A. Cardarelli, 1831-1926, ital. həkimi) – xəstənin başının düz vəziyyətdə fiksasiyası zamanı qırtlağa basarkən və onu barmaqla sola itələdikdə köndələn

ritmik hərəkətlərlə müşayiət olunması

Kardarelli-Rigi xəstəliyi (A. Cardarelli, 1831-1926, ital. həkimi; A. Riga, 19-cu əsr ital. həkimi) – *bax:* Rigi xəstəliyi

Kardi –*(*kardio-; yun. *kardia* ürək*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "ürəyə aid", "kardial dəliyə aid" mənasını verir

Kardial dəlik *(ostium cardiacum*; sin. kardiya*)* – qida borusu boşluğu ilə mədəni birləşdirən dəlik

Kardial epilepsiya (*epilepsia cardialis*) – bəzi ürək xəstəlikləri zamanı böyük qıcolma tutmaları ilə təzahür edən epilepsiya

Kardialgik sindrom – ürək-damar sistemi xəstəlikləri zamanı xəstələrin əksəriyyətində rast gəlinən simptomlar toplusudur; ağrılar adətən ürəyin zirvə nahiyəsində olur, xəstələrin çoxunda ağrılar hətta körpücükaltı, parastenal, döş sümüyünün arxasında, ürəyin arxa proyeksiyasında, sol kürəkaltı və ya kürəkarası nahiyədə də hiss edilə bilər

Kardialgiya *(cardialgia)* – ürək nahiyəsində ürəkdən asılı olmayan ağrılar, məs., onurğa sütununun bel-boyun hissələrinin osteoxondrozu zamanı bu cür ağrılar əmələ gəlir; ağrılar sol qola, sol kürəyə irradiasiya edir

Psixogen kardialgiya – ürəyin üzvi və funksional dəyişikliyi olmadan vegetativ krizlər zamanı ürək nahiyəsində ağrı

Kardifon (*kardi-* + yun. *phone* səs) – ürək fəaliyyətini müşayiət edən mexaniki və ya elektrik hadisələrin səs hadisələrinə çevrilməsi üçün aparat

Kardioangioqramma (*kardio-* + yun. *angeion* damar + *gramma* yazı) – *bax:* angiokardioqramma

Kardioaortoqrafiya – ürəyin sol mədəciyinə kontrast maddə yeridildikdən sonra ürəyin və aortanın rentgenoqrafiyası

Kardioarterial interval – iri arteriyaların elestikliyinin təxmini göstəricisidir, ədədi olaraq zirvə vurğusunun başlanğıcı və iri arteriyalardan birinin nəbz dalğasının yüksəlməsinin başlanğıcı arasındakı vaxt aralığına bərabərdir

Kardiodilatator (*kardio-* + *dilatator*) – mədənin kardial dəliyini genişləndirmək üçün alət, ucunda hava (maye) doldurulan rezin balon olan zonddan ibarətdir

Kardiofobiya (*cardiophobia*; yun. *kardia* ürək, *phobos* qorxu) – ürək xəstəliyinə tutulma qorxusu (infarkt, hipertoniya xəstəliyi, ürəyin qəfləti dayanması və s.)

Kardiohemodinamoqrafiya (*kardio-* + yun. *haima* qan + *dinamoqrafiya*) – *bax:* dinamokardioqrafiya

Kardioinduktoqrafiya – ürək fəaliyyətinin ürəyin elektromaqnit sahəsində induksion cərəyanın dəyişikliyinə əsaslanan müayinə üsulu

Kardioinduktoqramma (*kardio-* + lat. *induce, inductum* yönəltmək + yun. *gramma* yazı) – ürəyin elektromaqnit sahəsində induksiya cərəyanının dəyişikliyini əks etdirən əyri

Kardiointervaloqrafiya – ürək fəaliyyətinin müayinə üsuludur, EKQ-də ardıcıl R-dişləri arasındakı intervalın qrafik qeydiyyatına əsaslanır

Kardiokinematoqrafiya – tac arteriyalara və ya ürək boşluğuna kontrast maddə yeridilməklə işləyən ürəyin elektron-optik dəyişdiricinin

ekranından rentgen görüntüsünün çəkilməsi

Kardiokinematoqramma (*kardio-* + yun. *kinema, kinematos* hərəkət + *gramma* yazı) – işləyən ürəyin elektron-optik dəyişdiricinin ekranından çəkilmiş rentgen görüntüsü olan kinoplyonka

Kardioklimatopatologiya – kardiologiya və tibbi klimatologiyanın ürək xəstəliklərinin başvermə səbəblərinin iqlim və meteoroloji amillərdən asılılığını öyrənən bölməsi

Kardiokompleks – ürək fəaliyyətinin pozğunluğu olan xəstələrin dianostika və müalicəsini təmin edən cihaz və alətlərin kompleksi

Kardioqraf (yun. *kardia* ürək, *grapho* yazıram) – ürəyin hər hansı bir funksiyasını qeydə alan cihazların ümumi adı

Kardioqrafiya – ürəyin hər hansı bir funksiyasında baş verən dəyişikliklərin kardioqraf vasitəsilə qrafik qeydə alınması

Kardiolipin – öküzün ürək əzələsinin təmiz spirtli ekstraktı; kardiolipin antigeninin tərkib hissəsidir

Kardioliz (*cardiolysis*) – cərrahi əməliyyat: yapışan perikardit zamanı perikard boşluğundakı bitişmələrin kəsilməsi

Kardiologiya (*kardio-* + yun. *logos* elm) – kliniki təbabətin ürək-damar sistemi xəstəliklərinin etiologiyası, patogenezi və klinik təzahürlərini, onların diaqnostika, müalicə və profilaktika üsulları ilə məşğul olan sahəsidir

Kardioloq – ürək-damar sistemi xəstəliklərinin diaqnostika, müalicə və profilaktikası üzrə ixtisaslaşmış həkim-mütəxəssis (terapevt)

Kardiomanometriya (*kardio-*+ manometriya) – ürək boşluqlarında təzyiqin ölçülməsi

Kardiomeqaliya (*cardiomegalia*) – ürəyin böyüməsi, ürəyin hipertrofiyası

Amiloid kardiomeqaliya (*c. amyloidea*) – ürək amiloidozunun təzahürü kimi inkişaf edən kardiomeqaliya

Hiperplastik idiopatik kardiomeqaliya *(c. idiopathica hyperplastica)* – miokard kütləsinin anadangəlmə artıq olması ilə təzahür edən kardiomeqaliya

Qlikogen kardiomeqaliya *(c. glycogena)* – qlikogenozlar zamanı miokardda qlikogenin toplanması nəticəsində inkişaf edən kardiomeqaliya

Kardiomiopatiya *(cardiomyopathia)* – miokardın birincili, qeyri-iltihabi zədələnmələrinin ümumi adı

Afrika kardiomiopatiyası – *bax:* restriktiv kardiomiopatiya

Ailəvi kardiomiopatiya *(c. familiaris)* – 10-20 yaşlarından ürək getmələri, fiziki yüklənmə zamanı təngnəfəslik, döş qəfəsində döyüntü hissi, mədəcikdaxili keçiriciliyin pozulması və aritmiya ilə təzahür edən ailəvi kardiomiopatiya

Durğun kardiomiopatiya *(c. congestiva)* – ürək çatışmazlığı əlamətləri ilə təzahür edən, ürək boşluğunun dilatasiyasının üstünlüyü ilə xarakterizə olunan kardiomiopatiya

Dilatasion kardiomiopatiya (*c. dilatatus*) – ürəyin yığılma qabiliyyətinin pozulması və boşluqlarında genişlənmə ilə gedən miopatiya

Hipertrofik kardiomiopatiya (c. hypertrophica diffusa) – sol mədəcik divarının qalınlaşması ilə xarakterizə olunan və ürək çatışmaz-

lığının inkişafı ilə gedən miokardın zədələnməsi

Kongestiv kardiomiopatiya *(c. congestiva) – bax:* miokardın idiopatik hipertrofiyası

Obliterasiyaedən kardiomiopatiya (c. obliterans) – divar tromblarının əmələ gəlməsi nəticəsində ürək boşluqlarının həcminin azalması ilə xarakterizə olunan kardiomiopatiya

Obstruktiv kardiomiopatiya *(c. obstructiva)* – aortal klapanın altında sirkulyar olaraq miokardın hipertrofiyalaşması nəticəsində sol mədəcik boşluğunun kəskin daralması ilə xarakterizə olunan kardiomiopatiya

Restriktiv kardiomiopatiya *(c. restrictiva)* – endokardın və miokardın zədələnməsi ilə müşayiət olunur; restriktiv kardiomiopatiya diastola zamanı mədəciklərin dolması, hər iki mədəciyin diastolik disfunksiyasının inkişafı və diastolik ürək çatışmazlığının proqressivləşməsi ilə nəticələnir

Kardiomiosit *(cardiomyocytus) – bax:* ürək miositi

Kardiomiotomiya (*cardiomyotomy*) – qida borusunun aşağı sfinkterində yerləşən əzələ liflərinin kəsilməsi

Kardiomonitor (*kardio-* + lat. *monitor* xəbərdaredici) – xəstənin ürək fəaliyyətini fasiləsiz müşahidə etməyə imkan verən cihaz

Kardiomonitor müşahidə – kardiomonitor vasitəsilə fasiləsiz olaraq bir neçə saat və ya gün ərzində xəstənin ürək fəaliyyətinin izlənməsi

Kardionevroz *(cardioneurosis)* – nevrozun bir forması olub, kardialgiya, ürəkdöyünmə və ürək nahiyəsində olan digər ağrılarla xarakterizə olunur

Kardiopatik amiloidoz – *bax:* ürək amiloidozu

Kardiopatiya (*cardiopathia*; *kardio-* + yun. *pathos* xəstəlik) – *bax:* kardiomiopatiya

Kardioperikardiopeksiya *(cardiopericardiopexiya*; *kardio-*+ anat. *pericardium* perikard + yun. *pexis)* – cərrahi əməliyyat: miokarda damar ayaqcıqlı perikard loskutunun tikilməsi; xroniki koronar çatışmazlıq zamanı miokardın qan dövranını yaxşılaşdırmaq məqsədilə yerinə yetirilir

Kardioplastika *(cardioplastica)* – qida borusu və mədədə kardial dəlik nahiyəsində aparılan plastik əməliyyatların ümumi adı

Kardioplegiya *(cardioplegia)* – ürək əməliyyatları zamanı tətbiq olunan ürək fəaliyyətinin medikamentoz dayandırılması

İşemik kardioplegiya – koronar qan dövranının kəsilməsi yolu ilə həyata keçirilən kardioplegiya

Kimyəvi kardioplegiya – ürəyin tac arteriyalarına farmakoloji preparatların yeridilməsi ilə həyata keçirilən kardioplegiya

Soyuq kardioplegiya – soyuq fizioloji məhlullarla aparılan kardioplegiya

Kardiopnevmoqrafiya – ürək boşluğuna zond vasitəsilə qaz qarışıqlarının yeridilməsindən sonra aparılan rentgenoloji müayinə

Kardiopnevmoqramma – boşluqları qazla kontrastlaşdırılmış ürəyin rentgenoqramması

Kardioportal müddət (*kardio-* + anat. *vena portae* qapı venası) – qanın ürəyin sol mədəciyindən qaraciyərə

hərəkətinin müddəti; qan dövarınına yeridilmiş radioaktiv indikatorların köməyi ilə müəyyən olunur; portal qan dövranını xarakterizə edən bu göstərici normada 23-29 saniyəyə bərabərdir

Kardiopulmonal çatışmazlıq *(insufficientia cardiopulmonalis) – bax:* ürək-ağciyər çatışmazlığı

Kardioseptopeksiya *(cardioseptopexia*; *pexis* bərkitmə, yapışdırma*)* – cərrahi əməliyyat: qulaqcıqlar və ya mədəciklərarası arakəsmədə qüsurun bağlanması

Kardioseptoplastika *(cardioseptoplastica)* – transplantatdan istifadə etməklə həyata keçirilən kardioseptopeksiya

Kardioseptorafiya *(cardioseptorrhaphia*; *kardio-* + lat. *septum* arakəsmə + yun. *rhaphe* tikiş*)* – qüsurun tikilməsilə həyata keçirilən kardioseptopeksiya

Kardioserebral sindrom *(syndromum cardioserebrale)* – ürək xəstəlikləri zamanı beyin qan dövranının pozulması nəticəsində baş beynin funksiyalarının pozulmalarının ümumi adı

Kardiosiqnalizator – ürək fəaliyyətini fasiləsiz olaraq qeydə alan, avtomatik analiz edən, hər hansı bir dəyişiklik olduqda işıq və səs siqnalı verən cihaz

Kardiosinxronizasiya (*kardio-* + yun. *synchronismos* eyni vaxtda olma) – ürək tsiklinin təyin olunmuş fazalarında diaqnostik və ya müalicə prosedurlarının həyata keçirilməsi

Kardiosinxronizator – müalicəvi və diaqnostik avadanlıqların işini ürəyin fazaları ilə uyğunlaşdırmaq üçün nəzərdə tutulmuş cihaz

Kardioskleroz *(cardiosclerosis)* – ürək əzələsində birləşdirici toxumanın inkişaf etməsi

Anadangəlmə kardioskleroz *(c. congenita) – bax:* subendokardial fibroelastoz

Aterosklerotik kardioskleroz *(c. atherosclerotica)* – ürəyin tac arteriyalarının aterosklerozu zamanı inkişaf edən kardioskleroz

Diffuz kardioskleroz *(c. diffusa)* – miokardın bərabər zədələnməsi ilə xarakterizə olunan kardioskleroz

Əvəzedici kardioskleroz *– bax:* işemik kardioskleroz

Hipoksik kardioskleroz *(c. hypoxica)* – sirkulyator hipoksiya fonunda inkişaf edən kardioskleroz

Xırdaocaqlı kardioskleroz *(c. microfocalis)* – kiçikölçülü çapıq toxumaları ilə xarakterizə olunan kardioskleroz

İnterstisial kardioskleroz *(c. interstitialis)* – miokardın əzələ arakəsmələrində yerləşən kardioskleroz

İriocaqlı kardioskleroz *(c. macrofocalis)* – əsasən postnekrotik olaraq inkişaf edən, iri çapıq toxumaları ilə xarakterizə olunan kardioskleroz

İşemik kardioskleroz *(c. ischaemica)* – miokardın hipoksiyası zamanı ləng inkişaf edən kardioskleroz

Keçid kardiosklerozu – ləng inkişaf edən diffuz birləçdirici toxumanın fonunda periodik olaraq iri infarktdan sonrakı fibroz ocaqlarının əmələ gəlməsi ilə xarakterizə olunan kardioskleroz

Qarışıq kardioskleroz *– bax:* keçid kardiosklerozu

Miokarditik kardioskleroz *(c. myocarditica)* – miokarditin nəticəsi olaraq inkişaf edən kardioskleroz

Ocaqlı kardioskleroz *(c. focalis)* –

miokardın məhdud sahəsində yerləşən kardioskleroz

Ocaqlı yayılmış kardioskleroz *(c. focalis disseminata)* – miokardın müxtəlif hissələrində çoxsaylı birləşdirici toxuma ocaqlarının əmələ gəlməsi ilə xarakterizə olunan kardioskleroz

Postmiokarditik kardioskleroz *(c. postmyocarditica) – bax:* miokarditik kardioskleroz

Postnekrotik kardioskleroz *(c. postnecrotica)* – miokard infarktı nəticəsində inkişaf edən iri və xırda ocaqlı kardioskleroz

Kardiospazm (*cardiospasmus*; sin. kardial axalaziya) – yemək borusunun mədəyə açılan yerində yəni mədənin kardial hissəsində yerləşmiş sfinkterin udma aktında açılmaması üzündən qidanın mədəyə keçməsinin çətinləşməsi, qida borusunda yığılıb qalması nəticəsində qida borusunun genişlənməsi

Kardiostimulyasiya (sin. ürəyin elektrik stimulyasiyası) – ürəyin elektrik impulsları vasitəsilə stimulyasiyası

Kardiostimulyator (sin. elektrokardiostimulyator) – bu cihaz vasitəsilə kardiostimulyasiya aparılır; ürək ritmlərinin ardıcıllığını və avtomatizmini tənzimləyir; cihaz iki hissədən ibarətdir: enerji mənbəyi və bilavasitə ürək əzələsinə yeridilən elektrodlardan

Kardiotaxoqraf (*kardio-* + yun. *tachos* sürət + *grapho* yazmaq) – ürək yığılmalarının tezliyini qrafik qeydə alan cihaz

Kardiotaxoqrafiya (*kardio-* + yun. *tachos* sürət + *grapho* yazmaq) – ürək yığılmalarının tezliyinin avtomatik qeydə alınması

Kardiotaxometr (*kardio-* + yun. *tachos* sürət + *metreo* ölçmək) – məlumatın rəqəmsal indikatorda əks olunması ilə ürək yığılmalarının tezliyini ölçmək üçün cihaz

Kardiotaxometriya (*kardio-* + yun. *tachos* sürət + *metreo* ölçmək) – ürək yığılmaları tezliyinin davamlı ölçülməsindən ibarət olan ürək fəaliyyətinin müayinəsi

Ani kardiotaxometriya – ürək yığılmalarının tezliyi elektrokardioqrammanın iki ardıcıl R dişciyinin əmələ gəlməsi arasındakı vaxt intervalı ilə qiymətləndirilir

İnteqrasiya edən kardiotaxometriya – müəyyən vaxt kəsiyində ürək yığılmalarının orta tezliyi qeydə alınır

Kardiotomiya *(cardiotomia*; yun. *kardia* ürək, *tome* kəsik*)* – 1) cərrahi əməliyyat: ürəyin yarılması; 2) cərrahi əməliyyat: kardiyanın qismən və ya tamamilə çıxarılması

Kardiotonik vasitələr *(cardiotonica)* – miokarda müsbət inotrop təsir göstərən, ürək əzələsini tonuslandıran dərman vasitələri (məs., ürək qlikozidləri)

Kardiovalen (*cardiovalenum*) – xroniki ürək çatışmazlığı zamanı tətbiq olunan ürək qlükozidi

Kardiovaskulyar (*cardiovascularis*) – ürək-damar, eyni zamanda həm ürəyə, həm damarlara aid olan

Kardiovaskulyar amiloidoz – *bax:* ürək amiloidozu

Kardioversiya *(cardioversio*; *kardio-* + lat. *verto, versum* döndərmək, çevirmək*)* – miokarda yüksək gərginlikli kondensatorun boşalması ilə təsir etməklə normal ürək ritminin bərpa edilməsi

Elektrik kardioversiya – taxiaritmiyanın qarşısının defibrilyator-

la alınması; əsasən kardioversiya döş qəfəsinə yerləşdirilmiş və ürək əzələsinə elektrik boşalmanı göndərən elektrodlar vasitəsilə icra olunur

Kardioverter (lat. *verto* döndərmək, çevirmək) – ürəyin defibrilyasiya üçün aparat

Kardiovolyumometriya – müəyyən proyeksiyalarda çəkilmiş rentgenoqrammalarda ürək kölgələrinin sahəsinin ölçülməsinə əsaslanan, ürəyin və ürək boşluqlarının həcminin təyin edilməsi üsulu

Kardit *(carditis)* – ürəyin hər hansı bir strukturunun iltihabı (endokardit, miokardit, endomiokardit, perikardit və s.)

Kardiya (*cardia*; yun. *kardia*) – *bax:* kardial dəlik

Kardiyanın limfatik həlqəsi *(anulus lymphaticus cardiae)* – sol mədə arteriyasının gedişi boyunca, kiçik əyriliyin yuxarı hissəsində, bəzən mədə divarında yerləşən mədənin kardial hissəsinin ətrafında zəncir formasında düzülmüş limfatik düyünlər

Kardiyanın Mikuliç üsulu ilə retroqrad genişləndirilməsi (J. F. Mikulicz-Radecki, 1850-1905, alm. cərrahı; sin. kardiyanın transqastral genişləndirilməsi) – kardiospazmla əlaqədar yerinə yetirilən cərrahi əməliyyat zamanı qastrotomiya icra olunur və mədədən barmaqlar və ya alət vasitəsilə kardiya genişləndirilir

Kardiyanın transqastral genişləndirilməsi – *bax:* kardiyanın Mikuliç üsulu ilə retroqrad genişləndirilməsi

Kardos qarışığı (E. Kardos) – histoloji boyaların qarışığı, limfositləri parlaq-qırmızı, neytrofilləri isə qonur-bənövşəyi rəngə boyayır

Karduççi-Olmer xəstəliyi (A. Carducci, ital həkimi; D. R. Olmer, 1877-1957, frans. patoloqu) – *bax:* Marsel qızdırması

Karell üsulu (F. Ya. Karell, 1806-1886, rus həkimi) – ürək və böyrək xəstələrinin gün ərzində 0,8-3 litr təzə sağılmış süd qəbul etməklə və yataq rejimini gözləməklə müalicə üsulu

Karfologiya *(carphologiya*; yun. *karphologia* parçaların toplanması*)* – şüurun dərin pozğunluqları zamanı yataqda olan xəstənin kiçik amplitudalı, çimdiklə mə, kiçik əşyaların toplanmasını xatırladan hərəkətlərlə təzahür edən hərəki narahatlığı

Karxart yarığı (R. Carhart, otorinolarinqoloq) – otoskleroz zamanı audioqramda sümük keçiriciliyi üzrə səslərin qəbulunun zəifləməsini göstərən enmə

Karxart sınağı (R. Carhart) – eşitmə analizatorunun zədələnmələrinin müayinə üsulu, 60 san. ərzində müayinə olunan şəxsə 2000 hs tezlikli səs tonunun verilməsindən ibarətdir; normada bütün bu vaxt ərzində səs duyulur

Kario- (yun. *karyon* nüvə) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "hüceyrənin nüvəsinə aid" mənasını verir

Kariokinez (*caryokinesis*; *kario*-+ yun. *kinesis* hərəkət; sin. mitoz) – hüceyrə nüvəsinin bölünməsidir, törəmə hüceyrələr arasında xromosomların bərabər paylanmasından ibarətdir

Karioqamiya (*kario*- + yun. *gamos* nigah) – ziqotun nüvəsinə cinsi hüceyrələrin nüvələrinin qovuşması

Kariolemma (*caryolemma*; *kario*-+

yun. *lemma* qişa) – iki lipoproteid zardan ibarət olan nüvə qişası

Kariolimfa (*caryolympha*; sin. karioplazma) – hüceyrə nüvəsinin duru əsas maddəsi, nüvə şirəsi; müxtəlif zülallardan, nuklein turşularından və zülalların sintezində iştirak edən fermentlərdən ibarətdir

Kariologiya (*kario-* + yun. *logos* elm) – sitologiyanın hüceyrə nüvəsinin quruluşunu və həyat fəaliyyətini öyrənən bölməsi

Karioplazma (*caryoplasma*; *kario-* + yun. *plasma* əmələ gəlmiş bir şey) – *bax:* kariolimfa

Karioreksis (*caryorrhexis*; *kario-* + yun. *rhexis* parçalanma) – hüceyrə nüvəsinin kiçik dənələrə parçalanması

Kariotip (*kario-* + yun. *typos* forma, nümunə) – verilmiş növ üçün xarakterik olan xromosom yığımı

Kariyes *(caries*, lat. çürümə*)* – sümük toxumasının məhdud nahiyədə dağılması

Karlıq (*surdieas*) – eşitmə qabiliyyətinin itirilməsi

Detonasion karlıq – partlayış zərbəsi və ya qüvvətli səs dalğasının təsirindən yaranan karlıq; təbil pərdəsinin zədələnməsi, orta və ya daxili qulağa qansızma nəticəsində baş verir

Gecikmiş karlıq – 5-7 yaşlarında eşitmə qabiliyyətlərini itirmiş, lakin müəyyən dərəcədə nitqi saxlanılmış uşaqlar

İlbiz karlığı (*s. cochlearis*) – *bax:* periferik karlıq

Konduktiv karlıq (*s. conductiva*) – səsötürücü aparatın hər hansı bir hissəsinin zədələnməsi nəticəsində yaranan karlıq

Kontuzion karlıq (*s. contusionis*) – *bax:* detonasion karlıq

Mərkəzi karlıq (*s. centralis*) – eşitmə analizatorunun ötürücü sinir yollarının və ya baş beyin qabığının eşitmə zonasının hüceyrələrinin zədələnməsi nəticəsində yaranan karlıq

Neyrosensor karlıq (*s. neurosensoria*) – səs qəbuledici aparatın hər hansı bir hissəsinin zədələnməsi nəticəsində yaranan karlıq

Periferik karlıq (*s. peripherica*) – daxili qulağın labirintinin zədələnməsi ilə bağlı olan perseptiv karlıq

Perseptiv karlıq (*s. perceptiva*) – *bax:* neyrosensor karlıq

Professional karlıq (*s. professionalis*) – zərərli istehsalat amillərinin, ilk növbədə küy və vibrasiyanın təsirindən yaranan karlıq

Proqressiv karlıq (*s. progrediens*) – eşitmənin geriyə dönməyən, tədricən artan şəkildə təzahür edən karlıq növü

Psixogen karlıq (*s. psychogena*) – psixi travma nəticəsində meydana çıxan və eşitmə orqanının obyektiv dəyişikliyi ilə müşayiət olunmayan müvəqqəti karlıq

Retrolabirint karlıq (*s. retrolabyrinthica*) – *bax:* mərkəzi karlıq

Karmin (*cochineal carmine*) – elmi adı E120 olan qırmızı rəngli piqment; qida sektorunda, kosmetika, dərman və sənayedə təbii rənglən-dirici kimi istifadə olunur

Karminomisin *(carminomycinum)* – şiş əleyhinə təsir göstərən antibiotik

Karnifikasiya (*carnificatio*; lat. caro*, carnis* ət + *facio* etmək) – ağciyər toxumasında patoloji dəyişikliklərin baş verməsi; gözlə baxdıqda bu nahiyələrdə havalılığını itirmiş ağ-

ciyər toxumasının yerində nisbətən bərkimiş və əti xatırladan toxuma görünür

Karolini fenomeni – *bax:* odonterizm

Karotid düyün sindromu – ümumi yuxu arteriyasının bifurkasiyasında yerləşən hiperhəssas karotid düyünlərin birinin və ya hər ikisinin stimulyasiyası nəticəsində qısa bayğınlıq hallarının baş verməsi

Karotid sinus *(sinus caroticus) – bax:* yuxu sinusu

Karotid sinus sindromu *(syndromum sinus carotici)* – yuxu qlomuslarının baroreseptorlarının qıcıqlanması nəticəsində bradikardiyanın arterial hipotenziya və özündən getməyə meylliliklə birgə təsadüf etməsi

Karotin (lat. *carota* kök) – empirik formulu C40 H56 olan karbohidrogen kimi təsvir olunan narıncı-sarı piqment; suda həll olmur, lakin üzvü məhlullarda həll olur; bütün bitkilərin xloroplastında və həmçinin xromoplastlarında olur, A vitamininə çevrilir

Karotin sarılığı – *bax:* dərinin aurantiazı

Karotinemiya (*carotinaemia*) – qanda karotinin miqdarının artması (250 mq%-dən çox olması) nəticəsində plazmanın rəngi sarı olur, dəri və selikli qişalarda sarı-narıncı piqmüntasiyalar yaranır; narıncı rəngli qidaların (yerkökü, narıngi, portağal və s.) çox miqdarda istifadəsindən qaynaqlanır

Karotinodermiya (*carotinodermia*) – *bax:* dərinin aurantiazı

Karotinoz (*carotinosis*) – *bax:* dərinin aurantiazı

Karotodiniya – yuxu arteriyalarının iltihabı, boyun nahiyəsində (bəzən gözə, aşağı çənəyə, qulaq nahiyəsinə yayılır) uzun müddət davam edən sızıldayan ağrılarla təzahür edir

Karotolin *(carotolinum)* – itburnudan alınan karotinoidlərin yağlı ekstraktı

Karpenter sindromu (G. Carpenter, 1859-1910, ing. pediatrı) – *bax:* akrosefalopolisindaktiliya II tip

Karreli damar tikişi (A. Carrel, 1873-1944, frans. cərrah) – bir-birindən eyni məsafədə qoyulmuş üç düyünlü tikişdən istifadə etməklə, damarların uc-uca birləşdirilməsi üçün qoyulan dairəvi davamlı tikiş

Karrion xəstəliyi (D. A. Carrion, 1850-1885, perulu ali tibb məktəbinin tələbəsi, özünü bartonellyoza yoluxdurmuş və ondan ölmüşdür) – *bax:* bartonellyoz

Karsin- *(*karsino-, yun. *karkinos* xərçəng (heyvan); *karkinos, karkinoma* xora, xərçəng*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "şiş hüceyrələrinə aid" mənasını verir

Karsinemiya *(carcinaemia)* – qanda xərçəng hüceyrələrinin olması

Karsinofobiya *(carcinophobia) – bax:* kanserofobiya

Karsinoid *(tumor carcinoides)* – neyroendokrin hüceyrələrdən inkişaf edən, hormonal aktiv potensial bədxassəli şişdir, ən çox mədə-bağırsaq traktında, ağciyərlərdə, bəzən isə yumurtalıqlarda rast gəlinir; mədə-bağırsaq traktında karsinoid şişlər daha çox soxulcanabənzər (appendikulyar) çıxıntı, nazik bağırsaqlar və düz bağırsaqda rast gəlinir; uzunmüddətli simptomsuz gedişə malikdir, klinik gedişinə görə xoşxassəli törəmələri xatırladır, lakin metastaz verməyə meyllidirlər

Karsinoid sindrom *(syndromum carcinoideum)* – karsinoid şişlərin qana çoxlu miqdarda serotonin ifraz etməsi nəticəsində formalaşır; epizodik olaraq qan axınının olması, sianoz, bağırsaq kolikası, ishal, ürək qapaqlarının zədələnməsi (nadir halda astma və artropatiya) ilə təzahür edir; bağırsaq karsinoidi zamanı şiş qaraciyərə metastaz verdikdən sonra bu sindrom meydana çıxır

Karsinoma (*carcinoma*; yun. *karkinoma* xora, xərçəng) – *bax:* xərçəng

Karsinomatoz *(carcinomatosis)* – orqanın xərçəng şişinin metastazları ilə geniş zədələnməsi

Karsinosarkoma (*carcinosarcoma*) – epitelial və birləşdirici toxuma elementlərindən ibarət olan bədxassəli şiş

Karş-Noygebauer sindromu (J. Carsch, H. Neugebauer) – katarakta, retinopatiya, nistaqmdan ibarət simptomokompleks

Kartagener sindromu (M. Kartagener, isveçrə terapevti) – nadir irsi xəstəlik olub, daxili orqanların transpozisiyası, xroniki bronxit, xroniki rino-sinusit, xroniki otit, kişi sonsuzluğu kimi klinik əlamətlərlə xarakterizə olunur

Kartagener triadası (M. Kartagener) – anadangəlmə irsi-ailəvi inkişaf anomaliyasıdır, üç daimi simptomlarla xarakterizə olunur: bronxoektaziya, daxili orqanların simmetrik olaraq yer dəyişdirməsi və burnun selikli qişasının polipozu

Karunkul *(carunculae*; lat. *caruncula* ət parşası*)* – qadınlarda sidik kanalının arxa divarında xarici dəliyin yanında xoşxassəli şişdir; uretranın selikli qişasının düşməsi və ona iltihabi prosesin qoşulması nəticəsində əmələ gəlir və asanlıqla zədələnərək qanaxma verir

Kasal yaxası (G. C. Casal; 1679-1759, isp. həkimi) – pellaqralı xəstələrdə boyun nahiyəsində aydın görünən qırmızı-qəhvəyi rəngli zolaq şəklində olan dəri atrofiyası

Kaskelo üsulu – sidikdə koproporfirinin kəmiyyətcə təyininin spektrofotometrik üsulu

Kaslın daxili faktoru (W. B. Castle, amer. fizioloq və hematoloqu) – *bax:* qastromukoproteid

Kaslın xarici faktoru (W. B. Castle) – *bax:* sianokobalamin

Kasoni sınağı (T. Casoni, 1880-1933, ital. həkimi) – exinokkokozun və alveokokkozun diaqnostikasında exinokokokk antigeni ilə qoyulan allergik dəridaxili sınaq; dəri altına sterilizə olmuş qoyun exnokokk qovuğunun mayesi yeridilir, dəri altında əmələ gəlmiş qovuqcuq 3-5 dəqiqə müddətində öz həcminə görə 5 dəfə artarsa, reaksiya müsbət hesab edilir (yəni exinokokk vardır)

Kasper Hauzer sindromu – insanlardan tam təcrid olunmuş vəziyyətdə böyümüş şəxslərdə ağır psixi pozuntular; sindrom XIX əsrdə Almaniyada yaşamış xəstənin adı ilə adlandırılmışdır

Kassier sindromu – əsasən soyuq havalarda gənc qadınlarda ətrafların simmetrik ödemi, dərinin göyümtül rəngdə olması, barmaqların hipesteziyası ilə təzahür edən naməlum etiologiyalı akrotroponevroz

Kassirskinin iynəsi (İ. A. Kassirski, 1898-1971, sov. terapevt və hematoloqu) – sümük iliyinin punksiyası üçün istifadə olunan qısa boruşəkilli iynə

Kassirskinin sümük iliyi iynəsi (İ.A. Kassirski) – *bax:* Kassirskinin iynəsi

Kast sindromu (A. Kast, 1856-1903, alm. terapevti) – daban və ya ayaq darağı sümüklərinin və barmaq falanqalarının xondromatozu, venoz hemangioma və flebolitlərdən ibarət simptomokompleks

Katalepsiya (*catalepsia*; yun. *katalepsia* tutulma) – xəstənin hərəkət və danışıq qabiliyyətini itirməklə hər hansı bir pozada "donaraq" uzun müddət o vəziyyətdə qalması; parkinsonizm, isteriya, şizofreniya zamanı müşahidə olunur; katalepsiya süni şəkildə hipnoz vəziyyətində də baş verə bilər

Katalitik zəhər – katalizatorun aktivliyini azaldan maddə

Katarakta (*cataracta*; yun. *katarrhaktes* aşağı düşən, şəlalə) – göz bəbəyinin arxasındakı büllurun görmə qabiliyyətinin zəifləməsinə və korluğa səbəb olan bulanıqlaşması ilə nəticələnən göz xəstəliyidir

Ağırlaşmış katarakta (c. complicata) – göz almasının iltihabi və distrofik proseslərdə, həmçinin qlaukoma, diabet, miopiya xəstəlikləri zamanı inkişaf edən katarakta

Anadangəlmə katarakta (*c. congenita*) – bəzi körpələrdə anadangəlmə və ya uşaq ikən göz büllurunun birtərəfli və ya ikitərəfli bulanması nəticəsində əmələ gəlir, bu əsasən ananın keçirdiyi infeksiya, hamiləlik dövründə qəbul etdiyi dərmanlar ilə bağlı, və ya heç bir əlaqəsi olmayan şəraitdə yarana bilər; irsiyyət də öz rolunu oynayır

Başlanğıc katarakta (c. incipiens) – qocalıq kataraktasının ilkin inkişaf mərhələsidir, bu zaman bulanma periferiyada yerləşdiyi üçün görmə itiliyi pozulmur, büllurun bulanması uzun müddət dəyişməz qalır, zaman keşdikcə bulanma yayılır və büllurun həcmi böyüyür, nəticədə görmə itiliyi kəskin azalır

Dermatogen katarakta (*c. dermatogena*) – bəzi dəri xəstəliklərində diffuz neyrodermit zamanı meydana çıxan katarakta

Diabetik (c. diabetica) – şəkərli diabetin ağırlaşması kimi inkişaf edən katarakta; hər iki gözün büllurunda bulanıqlığın sürətlə inkişaf etməsi ilə xarakterizə olunur

İfrat yetişmiş katarakta (c. hypermatura) – qocalıq kataraktasının son inkişaf mərhələsi; epitel hüceyrələrin çoxalması nəticəsində büllur kapsulunda parlaq ağ ləkələr, xolesteril və əhəng çöküntüləri əmələ gəlir; bəzən bulanmış maddə durularaq südəbənzər mayeyə çevrilir və bu zaman nüvə aşağı çökür

İkincili katarakta (c. secundaria) – kataraktanın ekstraksiyasından sonra inkişaf edən katarakta; büllurun arxa kapsulunun bulanması, gözdə olan iltihab,dərman qəbulu və ya xəstəlik nəticəsində əmələ gəlir

Qabıq kataraktası (c. corticalis) – büllurun bulanmasının ilkin əlamətlərinin büllur qabığının ekvatoru nahiyəsində meydana çıxması

Qocalıq kataraktası (c. senilis) – ahıl və qoca yaşlarda inkişaf edən qazanılmış proqressivləşən katarakta

Radiasion katarakta – şüa enerjisinin təsirindən yaranan katarakta

Süd kataraktası (c. lactea) – *bax:* Morqani kataraktası

Şişən katarakta (c. intumescens) – *bax:* yetişməmiş katarakta

Şüa kataraktası (c. radialis) – uzun müddət şüalanmadan sonra əmələ gələn katarakta, bulanmalar əsasən büllurun arxa qütbündə baş verir

Tac kataraktası (c. coronaria) – anadangəlmə katarakta növüdür, bu zaman büllurun periferiyası boyunca ağ, boz, göy rəngli damcışəkilli ləkələr müşahidə edilir, işıq düşdüyü zaman isə göz mavi rəngdə görünür

Travmatik katarakta *(c. traumatica)* – göz almasının küt və iti yaralanmaları nəticəsində yaranan katarakta

Yetişməmiş katarakta (*c. immatura, c. nondum matura*; sin. şişən katarakta) – qocalıq kataraktasının ilkin mərhələsidir, bulanma büllur qatının bir hissəsini əhatə edir, büllurun nəzərəçarpacaq dərəcədə şişməsi nəticəsində gözdaxili təzyiq artır

Yetişmiş katarakta (*c. matura*) – kataraktanın III mərhələsi, bulanmalar büllurun bütün qatlarını əhatə edir, büllurun su itirməsi səbəbindən həcmi azalır, bəbək nahiyəsi boz rəng alır, görmə itiliyi zəifləyir

Kataraktal Qrefe bıçağı (A. Graefe, 1828-1870, alm. oftalmoloqu) – gözün ön kamerasını açmaq üçün bıçaq; oftalmoloji əməliyyatlarda istifadə edilən, ülgücünün uzunluğu 1-3 mm arasında olan uzun skalpeldir

Kataraktanın ekstraksiyası *(extractio cataractae)* – cərrahi əməliyyat: katarakta zamanı büllurun xaric edilməsi

Kataraktanın dairəvi bəbəklə ekstraksiyası – katarakta zamanı dairəvi bəbəyin saxlanılması ilə periferik iridektomiya və büllurun ekstraksiyası

Kataraktanın ekstrakapsulyar ekstraksiyası *(e. cataractae extracapsularis)* – katarakta zamanı büllur kisəsinin açılması və onun yalnız ön hissəsinin xaric edilməsi ilə icra edilən kataraktanın ekstraksiyası

Kataraktanın intrakapsulyar ekstraksiyası *(e. cataractae intracapsularis)* – katarakta zamanı büllurun kapsula ilə birgə xaric edilməsi

Kataraktanın kombinəolunmuş ekstraksiyası *(e. cataractae combinata)* – tam iridektomiya ilə birgə icra olunan kataraktanın ekstraksiyası

Katarzis (yun. *katharsis* təmizlənmə, nədənsə azad olmaq, qurtulmaq) – təmizləmə, sakitləşmə kimi anlanılan psixoterapevtik üsul; bu zaman xəstəlik amilləri, həyəcanlar və s. yada düşür, xəstənin bu hisslərdən, mənfi fikir və emosiyalardan azad olması imkanı yaranır; katarzis üsulundan gümrahlaşma, təlqini gücləndirmək üçün və hipnoz zamanı istifadə olunur

Katatonik sindrom *(syndromum catatonicum)* – oyanma, stupor şəklində təzahür edən hərəki pozğunluğun üstünlüyü ilə baş verən və şizofreniya zamanı müşahidə olunan psixi pozğunluq

Kateter (yun. *katheter* boşluğun boşaldılması üçün cərrahi alət) – boşluqlu üzv və orqanlara, qan və ya limfa damarlarına diaqnostik müayinə və müalicə məqsədi ilə yeridilmək üçün plastik, rezin ya silikon, şüşədən hazırlanmış müxtəlif ölçülü boru

Kateterizasiya – boşluqlu orqan, qan və limfa damarlarına diaqnostik və ya müalicə məqsədilə kateterin yeridilməsi

Kaufman sindromu (E. Kaufmann, 1860-1931, alman patoloqu) – boyun və inkişafın bətindaxili və ya doğuşdan sonra ləngiməsi, zehni gerilik, mikrosefaliya, blefarofimoz, nistaqm, çəpgözlük, mikroqnatiya, damağın hündürdə yerləşməsi, lordoz, kontraktura və süst dəridən ibarət simptomokompleks

Kauzalgiya (*causalgia*; yun. *kausis* yandırma + *algos* ağrı) – periferik sinirlərin zədələnmə sahəsində yanmaşəkilli ağrıdır; bir neçə gün sonra ağrı ətraflardan bütün bədənə yayıla bilər

Kavasaki sindromu (T. Kawasaki, yapon pediatrı) – xırda və orta diametrli arteriya damarlarının iltihabı ilə xarakterizə olunan kəskin qızdırmalı sistem xəstəliyidir; konyunktivit, ekzantema, dərinin sonrakı soyulması ilə gedən ovucların və ayağın altının qızarması və şişkinləşməsi ilə təzahür edir; uşaqlarda ürək problemlərinə səbəb olan nadir xəstəlikdir

Kaverna *(caverna;* lat. mağara, boşluq*)* – toxumaların dağılması nəticəsində orqanda əmələ gələn boşluq; irinli və qanqrenoz qeyri-spesifik proseslərlə, vərəm, sifilis, pnevmokoniozlarla əlaqədar baş verə bilər

Açıq kaverna *(c. aperta)* – ətraf mühitlə təbii və ya patoloji proses nəticəsində əmələ gəlmiş kanal vasitəsilə əlaqədə olan kaverna

Ağciyər kavernası (c. pulmonis) – ağciyərdə əmələ gələn kaverna

Bronxogen kaverna (*c. bronchogena*) – *bax:* destruktiv bronxoektaz

Bronxoektatik kaverna (*c. bronchoectatica*) – *bax:* destruktiv bronxoektaz

Çürüntülü kaverna (*c. putrida*) – toxumanın çürüntülü dağılması nəticəsində əmələ gələn kaverna

Elastik kaverna (*c. elastica*) – özbaşına sorularaq çapıqlaşan kiçik ağciyər kavernası

Endobronxitik kaverna (*c. endobronchitica*) – *bax:* destruktiv bronxoektaz

Fibroz kaverna (*c. fibrosa*) – *bax:* xroniki kaverna

Həqiqi kaverna (*c. vera*) – *bax:* açıq kaverna

Xroniki kaverna (*c. chronica*) – divarları fibroz dəyişikliyə uğramış ağciyər kavernası

İrinli kaverna (*c. purulenta*) – toxumaların irinli iltihabı və formalaşmış absesin boşalması nəticəsində yaranan kaverna

Kəskin kaverna (*c. acuta*) – yeni yaranmış nekroz toxumasının yerində əmələ gələn, nazikdivarları olan ağciyər kavernası; tez keçir və asanlıqla sağalmaya məruz qalır

Qapalı kaverna (*c. obturata*) – xarici mühitlə əlaqəsi olmayan kaverna

Rigid kaverna (*c. rigida*) – *bax:* xroniki kaverna

Sekvestrləşən kaverna (*c. sequestrans*; lat. *sequestro* ayırmaq) – nekrozlaşmış toxumaların periferik sahələrinin əriməsi və mərkəzi hissələrin sekvestrlər şəklində hissələ ayrılması ilə xarakterizə olunan kaverna

Sümük kavernası (*c. osis*) – sümük toxumasında əmələ gələn kaverna

Yalançı kaverna – *bax:* psevdokaverna

Kavernit *(cavernitis*; anat. *corpus cavernosum* mağaralı cism*)* – cinsiyyət üzvünün mağaralı cismlərinin (kavernoz cisminin) iltihabı

Xroniki kavernit (*c. chronica*) –

lənggedişli və mağaralı cismlərdə lifli birləşdirici toxumanın əmələ gəlməsi ilə xarakterizə olunan kavernit, bu da ereksiya zamanı cinsiyyət üzvünün deformasiyasına səbəb olur

Kəskin kavernit (*c. acuta*) – ani başlayan, qızdırma, cinsiyyət üzvünün hiperemiyası, abseslərşmə əlamətləri ilə infiltratın əmələ gəlməsi ilə xarakterizə olunan kavernit

Kavernoqrafiya (*kaverna* + yun. *grapho* yazmaq) – punksiya vasitəsilə kontrast maddə daxil edildikdən sonra kavernanın rentgenoloji müayinəsi

Kavernoz sinus *(sinus cavernusus) – bax:* mağaralı sinus

Kavernozoqrafiya (anat. *corpus cavernosum* mağaralı cism + yun. grapho yazmaq) – cinsiyyət üzvünün və ya klitorun mağaralı cismlərinin və onlardan çıxan venaların kontrast maddə yeridildikdən sonra aparılan rentgenoqrafiyası

Kavinton (*cavinton*) – beyin-qan dövranını yaxşılaşdıran maddə

Kavoqrafiya (anat. *vena cava* boş vena + yun. *grapho* yazmaq, təsvir etmək) – boş venanın angioqrafiyası

Aşağı kavoqrafiya – aşağı boş venanın kavoqrafiyası

Yuxarı kavoqrafiya – yuxarı boş venanın kavoqrafiyası

Kayrofobiya (*cairophobia*; yun. *kairos* müəyyən vaxt, dövr + *fobiya*) – yeni vəziyyətlərdən, tanış olmayan yerlərdən, havanın kəskin dəyişikliyindən qorxmaq

Kayser-Meinhard metodikası (Kaiser-Meinhardt, 1914-2004, alm. otorinolarinqoloqu) – haymoritin müalicəsi zamanı dərman maddəsinin haymor boşluğuna yeridilməsi üsulu; haymor cibinin punksiyasız yuyulmasına imkan verir

Kayzer-Fleyşer həlqəsi (B. Kayser, 1869-1954, alm. oftalmoloqu; R. Fleischer, 1848-1909, alm. həkimi) – *bax:* buynuz qişa həlqəsi simptomu

Kayzerlinq mayesi (K. Kaiserling, 1869-1942, alm. patoloqu) – anatomik preparatları konservləşdirmək üçün tərkibində kalium nitrat, kalium asetat və formalin olan maye

Kayzerlinq üsulu (K. Kaiserling) – anatomik preparatların Kayzerlinq mayesində, daha sonra spirtdə işləndikdən sonra qliserin və kalium asetat məhlulunda saxlanılmasından ibarət konservləşdirilməsi üsulu

Kazabax-Merritt sindromu (H.H. Kasabach, amer. pediatrı; K.K. Merritt, amer. həkimi) – trombositopenik purpura, anemiya və iri hemangiomaların birgə təzahür etməsi ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik

Kazein *(*lat. *caseus* pendir*)* – südün tərkibinə daxil olan fosfoproteidlərin qarışığı; insan üçün əvəzolunmaz aminturşulardan ibarətdir

Kazeinogen – tərkibində insan üçün əvəzolunmaz aminturşuları olan və südün tərkibində kalsium duzu şəklində olan fosfoproteid

Kazem-Bek simptomu (A.N. Kazem-Bek, 1859-1919, sov. terapevti) – ürək çatışmazlığı əlamətləri olan anevrizmalar zamanı zəif dolğunluqlu nəbzin və ürək nahiyəsində güclənmiş pulsasiyanın olması

Kazeoz (*caseosis*; lat. *caseus* pendir) – kəsmiyə bənzər, pendirə bənzər

Kazmin distraktoru (A.İ. Kazmin) – onurğanın bel nahiyəsindəki əy-

riliklər zamanı icra olunan cərrahi əməliyyatlarda istifadə olunan metal qurğu; distraktor qalça sümüyü qanadı və əyriliyin daxili kənarında I bel fəqərəsinin köndələn çıxıntısı səviyyəsində yerləşdirilir

Kazmin əməliyyatı (A.İ. Kazmin) – skolioz zamanı icra olunan əməliyyat: skoliozun III-IV dərəcəsində onurğanın döş nahiyəsində fəqərə cisminin pazabənzər rezeksiyası, sümük transplantatları ilə korreksiya və fiksasiyası (arxa spondilodez)

Kazmin-Fişenko əməliyyatı (A.İ. Kazmin, sov. ortopedi; V.Ya. Fişenko, sov. ortopedi) – skolioz zamanı icra olunan cərrahi əməliyyat: əyriliyin qabarıq tərəfində fəqərəarası disklərin nüvələrinin enukleasiyası və onurğanın sümük-plastik fiksasiyası

Keçid sindromu – orqanik psixozun inkişafı zamanı huşun alaqaranlıqlaşmasına qədər və ya sonra meydana çıxan psixopatoloji (affektiv, sayıqlama və s.) sindromların ümumi adı

Kedani xəstəliyi (yap. *kedani* tüklü gənə; ке – tüklü, *danı* – gənə) – *bax:* tsutsuqamuşi

Kefalokranioklast (yun. *kranion* kəllə + *klastos* dağınıq, dağıdan; sin. baziotrib) – dölün perforasiyasından sonra xaric edilməsi üçün istifadə olunan dölparçalayıcı alət

Keldal kolbası (J. G. Ch. Kjeldahl, 1849-1900, danim. kimyaçısı) – Keldal üsulu ilə maddələrdə azotun müəyyən edilməsi üçün kolba

Keldal üsulu (J. G. Ch. Kjeldahl) – azotun miqdarının (məs., qanda) təyini üsulu, üzvi maddələrin sulfat turşusunda minerallaşması, azotun ammonium sulfata çevrilməsi, ammonyakın qələvinin təsirindən sıxışdırılıb çıxarılması və titr üçün istifadə edilən sulfat turşusu ilə birləşməsinə əsaslanır

Kelioskopiya (yun. *koilia* qarın boşluğu + *skopeo* baxmaq) – *bax:* abdominoskopiya

Keloid (*keloidum*; yun. *kele* kiçik şiş + *eidos* görünüş) – birləşdirici toxumanın həddindən artıq miqdarda əmələ gəlməsi, şişi xatırladır, məs., dermatofibromanı

Yalançı keloid (*k. Spurium*; sin. keloid çapığı) – dərinin lifli birləşdirici toxumasının kobud şişəbənzər inkişafı

Həqiqi keloid (*k. verum*) – dərinin zədələnməsi olmadan inkişaf edən keloid

Keloid akne (*acne keloidea*) – əsasən kişilərdə ənsə nahiyəsində yerləşən, keloid çapığın əmələ gəlməsi ilə nəticələnən xroniki residiv verən follikulit şəklində dərin stafilodermiya növüdür

Keloid çapığı *(cicatrix keloidea)* – *bax:* yalançı kelloid

Kenko xəstəliyi (Ch. E. Quinquaud, 1841-1894, frans. həkimi) – başın tüklü hissəsinin uzun sürən, özündən sonra çapıq qoyan stafilokokk mənşəli follikuliti

Kennon-Bard nəzəriyyəsi (W. B. Cannon, 1871-1945, amer. fizioloq; Ph. Bard, amer. fizioloq) – bu nəzəriyyəyə əsasən, emosiayalar MSS və xüsusilə talamusun spesifik reaksiyaları nəticəsində yaranır

Kennon sindromu (W. B. Cannon) – adrenalinin çox miqdarda ifrazı zamanı simpatik sinir sisteminin tonusunun qəfləti yüksəlməsi nəticəsində meydana çıxan arterial hipertoniya və hiperqlikemiya fo-

nunda güclü baş ağrıları, həyəcan, asfiksiya

Kenofobiya (*kenophobia*; yun. *kenos* boş) – boş meydanlardan, otaqlardan qorxma

Kenotoksin – yorğunluq toksini; orqanizm əzələ aktivliyi zamanı yorğunluq toksini yaradır, qan onu orqanizmə yayır və həm əzələnin özü, həm bütün bədən, xüsusilə də beyin yorğunluq hiss edir

Kerat- (kerato-; yun. *keras, keratos* buynuz) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "buynuz", "buynuz maddə", "buynuzlaşma", "buynuz qişaya aid" mənasını verir

Keratektomiya (*keratectomy*) – cərrahi əməliyyat: buynuz qişanın bir hissəsinin kəsilərək kənar edilməsi

Keratinizasiya (*keratinisatio*; yun. *keras, keratos* buynuz) – *bax:* buynuzlaşma

Keratinositlər (*keratinocyte*) – keratin sintez edən və dərinin epidermis təbəqəsini formalaşdıran hüceyrələr

Keratit (*keratitis*) – gözün buynuz qişasının iltihabı

Aspergilyoz keratit (*keratitis aspergilliana*) – Aspergillus göbələkləri tərəfindən törədilən keratit

İnterstistisial keratit (*k. interstitialis*) – *bax:* parenximatoz keratit

Neyroparalitik keratit (*k. neuroparalytica*) – üçlü sinirin zədələnməsi zamanı yaranan keratit

Parenximatoz keratit (*k. parenchymatosa*; sin. interstistisial keratit) – buynuz qişanın orta və dərin qatlarında qan damarlarının inkişaf etməsi və bulanıqlaşma ilə xarakterizə olunan keratit

Parenzimatoz sifilitik keratit (*k. parenchymatosa syphilitica*) – əsasən anadangəlmə gecikmiş sifilisdə müşahidə olunur

Səthi damarlı diffuz keratit (*k. superficialis diffusa vascularis*) – *bax:* Pannus

Keratoakantoma (*keratoacanthoma*) – tük follikullarından başlanğıc götürən xoşxassəli, spontan sağalan keratin və skvamoz hüceyrələrdən yaranmış, xarakterik kraterəbənzər görünüşlü şişi; bədənin hər yerində, hətta bəzən ovuc içində və ayaq altında da müşahidə olunur; 2 sm-dən kiçik ölçülərə malik olur, 2-8 ay müddətində öz-özünə atrofik, tüksüz bir çapıq qoyaraq sağalır; kişilərdə daha çox müşahidə olunur

Keratoatrofik nevus (*naevus keratoatrophicus*) – *bax:* porokeratoz

Keratodermiya (*keratodermia*) – bu növ keratozda buynuzlaşma sahələri əsasən ovucun içində və ayağın altında yerləşir

Keratoid – buynuzabənzər, buynuz qişaya oxşar

Keratokonus (*keratoconus*) – gözün distrofik xəstəliklərinə aiddir, buynuz qişanın dikləşərək zirvəsinin incəlməsi və konus şəklini alması ilə xarakterizə olunur; sürətlə artan miopiya və astiqmatizmlə səciyyələnir

Keratoqlobus (*ceratoglobus*) – anadangəlmə patologiyadır və gözün distrofik xəstəliklərinə aiddir; gözdaxili təzyiqin artması nəticəsində buynuz qişa şar şəklində önə doğru qabarır, diametri 13 mm və daha böyük olur; distrofik proses inkişaf etdikcə buynuz qişanın nazikləşməsi onun tam cırılması və görmə qabiliyyətinin itirilməsinə gətirib çıxara bilər

Keratolizis – dərinin buynuz qatının yumşalması, soyulması

Keratom – gözün ön seqment əməliyyatlarında buynuz qişanı kəsmək üçün istifadə olunan cərrahi alət

Keratoma (*keratoma*) – dərinin xoşxassəli törəməsi

Follikulyar keratoma (*k.folliculare*) – saç follikulu nahiyəsində olan keratoma

Senil keratoma (*k. senile*) – qocalıq zamanı dərinin buynuzlaşmasının artması; qəhvəyi rəngdə sərt pulcuqlarla örtülmüş pilək və ya düyün şəklində keratoma

Keratomalyasiya (*keratomalacia*) – əsasən südəmər uşuqlarda A hipovitaminozu zamanı rast gəlinən buynuz qişanın yumşalması

Keratometr – buynuz qişanın əyriliyini ölçmək üçün cihaz

Keratomikoz (*keratomycosis*) – mikozun formasıdır, bu zaman patogen göbələklər keratin maddəsilə ilə qidalanaraq, epidermisin buynuz qatını zədələyir

Keratopatiya (*keratopathia*) – gözün buynuz qişasının şəffaflığının pozulması ilə təzahür edən, distrofik xarakterli zədələnmələrin ümumi adı

Keratoplastika (*keratoplastica*) – plastik əməliyyat: pozulmuş buynuz qişanın transplantatla əvəz edilməsi

Keratoprotezləmə – bulanmış buynuz qişanın süni buynuz qişa ilə əvəz edilməsi

Keratotomiya (*keratotomia*) – buynuz qişada çərtmə, kəsik

Keratoz (*keratosis*) – epidermisin buynuz qatının qalınlaşması, buynuz qatının yaranması ilə xarakterizə olunan dəri və selikli qişanın qeyri-iltihab xarakterli xəstəliklər qrupunu birləşdirən kliniki anlayış

Bizəoxşar follikulyar keratoz (*k. follicularis spinulosa*) – *bax:* bizəoxşar lixen

Bizəoxşar keratoz (*k. spinulosa*) – *bax:* bizəoxşar lixen

Follikulyar keratoz (*k. follicularis*) – tüklü keratoz

Qocalıq keratozu (*k. senilis*) – yaşlı şəxslərdə əsasən bədənin açıq nahiyələrində düyüncüklərlə təzahür edən buynuz təbəqənin qalınlaşması

Müxtəlif formalı idiopatik keratoz (*k. idiopathica multiformis*) – *bax:* Simens sindromu

Nöqtəvi ovuc-ayaqaltı keratoz (*k. palmaris et plantaris punctata*) – simmetrik yerləşən və 2-10 mm ölçüdə olan çoxsaylı sarı-qəhvəyi rəngdə buynuzlaşma sahələri ilə xarakterizə olunan irsi keratoz

Ovuc-ayaqaltı keratozu (*k. palmaris et plantaris*) – irsi yolla keçən ovuc və ayaqaltının buynuz təbəqəsinin qalınlaşması

Seboreyalı keratoz (*k. Seborrhoicus*; sin. seboreyalı ziyil, senil ziyil, bazosellulyar papilloma) – əsasən, üz, boyun və döşdə, bəzən əl və qollarda müşahidə edilən açıq və ya tünd qəhvəyi rəngli papulyar törəmələr; etiologiyası məlum deyil, lakin autosom yolla irsi ötürülmə güman edilir; orta yaşlı və ya yaşlı şəxslərdə müşahidə edilir

Simensin çoxformalı keratozu – *bax:* Yadosson-Levandovski sindromu

Unna-Tost keratozu – *bax:* Unna-Tostun irsi keratodermiyası

Keraunofobiya (*keraunophobia*; yun. *keraunos* ildırım; sin. astrapofobi-

ya) – ildırım və şimşəkdən anormal dərəcədə qorxma

Kerer nöqtələri (F. Kehrer, alm. nevropatoloqu) – boyunun arxa nahiyəsində atlant (I boyun fəqərəsi) və II boyun fəqərəsi arasında böyük ənsə sinirlərinin çıxdığı yerlərə uyğun gələn dəri örtüyünün sahələri

Kerer simptomu (F. Kehrer) – beyin şişləri zamanı ənsə siniri nöqtəsinə (Kerer nöqtələri) basdıqda baş ağrısının güclənməsi və xəstənin başını qəflətən arxaya və yana hərəkət etdirməsi

Kerl-Urbax xəstəliyi (W. Keri, avstriyalı dermatoloq; E. Urbach, 1893-1946, amer. dermatoloq) – *bax:* ksantomatoz

Kerniq simptomu (V.M. Kerniq, 1840-1917, rus terapevti) – uremiya, sepsis və baş beyin travmaları zamanı beyin qişalarının qıcıqlanması nəticəsində bud-çanaq oynağı bükülü olduqda diz oynağının reflektor bükülməsi

Kerns-Seyr sindromu (KSS) – mitoxondrial irsi xəstəliklər qrupuna aid olan patologiyadır, mitoxondrilərin genetik, struktur və biokimyəvi defektləri, həm də nüvə DNT-sinin mutasiyası ilə əlaqədardır; xəstəliyin əsas əlamətləri 20 yaşdan əvvəl başlayır – göz qapaqlarının sallanması, gecə korluğu, qalxanabənzərətraf vəzin funksiyasının pozulması, ürəkdə blokada, əqli zəiflik, eşitmə zəifliyi, boy qısalığı, şəkərli diabet, onurğa-beyin mayesində zülalın miqdarının artması müşahidə olunur

Kesar kəsiyi (*sectio caesarea*; lat. *caesarea* hökmdar, imperator, *sectio* kəsik) – cərrahi əməliyyat: qarın boşluğuna müdaxilə edilərək, uşaqlığın yarılması ilə dölün xaric edilməsi

Kesson karlığı – kesson xəstəliyi zamanı ilbiz labirinti arteriyasının qaz emboliyası nəticəsində yaranan periferik karlıq

Ketamin (*ketaminum*) – ilk venadaxili anestetikdir ki, onun qan dövranı və tənəffüs sistemlərinə neqativ təsiri, demək olar ki, yox dərəcəsindədir

Ketqut *(* ing. *catgyt)* – cərrahi əməliyyatlar zamanı daxili tikişlərin qoyulmasında istifadə olunan, orqanizm tərəfindən sorulan və kiçik buynuzlu heyvanların (əsasən qoyunların) bağırsağından hazırlanan saplar

Ketotifen (*ketotifenum*) – histaminin azad olmasını ləngidən maddə

Keyləşdirmə (ağrısızlaşdırma) (*analgesia*) – təxirəsalınmaz tibbi yardımın əsas tərkib hissələrindən biridir; ağrı sindromunun götürülməsi

Keyləşdirmə yerli (*analgesia localis*) – *bax:* yerli anesteziya

Keyləşdirmə ümumi (*anaesthesia communis*) – *bax:* narkoz

Keytel sindromu (ing. Keutel syndrome) – nadir autosom-resessiv sindromdur; ağıreşitmə, qulaq seyvanlarında kirəcləşmə, orta qulağın iltihabı, bronxit, ağciyər arteriyasının periferik şaxələrinin stenozları, barmaqların distal falanqalarının qısalması ilə xarakterizə olunur

Kəfkirəbənzər ürək ritmi (sin. embriokardiya) – I və II ürək tonlarının yüksəkliyinin və tembrinin, sistola və diastolanın davametmə müddətinin eyni olması; paroksizmal taxikardiya və mədəciklərin yüksək tezliklə yığılması ilə birgə qulaqcıqların səyirməsi zamanı müşahidə olunur

Kələkötür burun – *bax:* rinofima

Kəllə *(cranium)* – başın skeleti

Bazeopetal kəllə *(c. basiopetalis)* – hündürlüyü az, arxa əsasının yaxşı inkişaf etməsi ilə xarakterizə olunan kəllə

Braxisefalik kəllə *(c. brachycephalicum)* – kəllə indeksi 81-i keçən enli kəllə

Çəp kəllə – kəllə sümüklərinin qeyri-bərabər bitişməsi nəticəsində assimetrik quruluşa malik kəllə

Dolixosefalik kəllə *(c. dolichocephalicum)* – kəllə indeksi 75-ə çatmayan uzunsov kəllə

Frontipetal kəllə *(c. frontipetale)* – əsasən alın nahiyəsi inkişaf etmiş kəllə

Klinosefalik kəllə *(c. clinocephalicum) – bax:* yəhərəbənzər kəllə

Kraniostenotik kəllə *(*yun. *kranion* kəllə + *stenotes* darlıq*)* – əksər kəllə tikişlərinin vaxtından əvvəl bitişməsi nəticəsində bərabər daralmış və həcmi kiçilmiş kəllə

Qayığabənzər kəllə *(c. scaphocephalicum)* – sagittal tikişin vaxtından əvvəl bitişməsi zamanı əmələ gələn uzunsov, ensiz kəllə

Metopik kəllə *(c. metopicum*; yun. *metopon* alın*)* – alın tikişi bitişməyən kəllə

Mezosefalik kəllə *(c. mesocephalicum)* – kəllə indeksi 76-81,9 olan kəllə

Oksipitopetal kəllə *(c. occipitopetale*; lat. *occiput, occipitis* ənsə + *peto* yönəlmək*)* – əsasən ənsə nahiyəsi inkişaf etmiş kəllə

Parietopetal kəllə *(c. parietopetale)* – hündürlüyü yüksək, arxa əsası zəif inkişaf etmiş kəllə

Skafosefalik kəllə *(c. scaphocephalicum*; yun. *skaphe* qayıq + *kephale* baş*) – bax:* qayığabənzər kəllə

Üz kəlləsi (c. viscerale) – kəllənin üzün sümük əsasını əmələ gətirən şöbəsi; çənə sümüyü, burun sümüyü, gözyaşı sümüyü, damaq sümüyü, əng sümüyü, dilaltı sümüyündən ibarətdir

Visseral kəllə *(c. viscerale) – bax:* üz kəlləsi

Yəhərəbənzər kəllə *(c. clinocephalicum)* – təpə (əmgək) nahiyəsində basıq olan uzunsov kəllə

Kəllə əsası *(basis cranii)* – alın, xəlbir, əsas, gicgah və ənsə sümüklərindən ibarət olan kəllənin aşağı hissəsi

Kəllə göstəricisi – *bax:* kəllə indeksi

Kəllə indeksi – kəllənin formasının antropoloji göstəricisi: kəllənin maksimal uzunluğunun maksimal eninə olan nisbəti vurulur 100.

Kəllədaxili təzyiq *(tensio intracranialis)* – baş beyinin mədəciklərində və onurga beyinin kanalında, həmçinin beyinlə kəllə sümükləri və onurğa beyni ilə onurğa sütunu arasında olan beyin mayesi – likvorun yaratdığı təzyiqdir; beyində likvor dövranına hər hansı maneçilik yaranarsa – obstruksiya, beyin şişi kista və s. beyin təzyiqi yüksəlir

Kəllənin arterial şırımları *(sulci arteriosi cranii)* – kəllə sümüyünün daxili səthində meningeal arteriyaların gedişinə uyğun gələn şırımlar

Kəllənin daxili əsası *(basis cranii interna)* – kəllə əsasının beyinə tərəf yönəlmiş səthi, nahamar və basıqdır; üç şöbəyə (çuxura) bölünür: ön, orta və arxa çuxurlar

Kəllənin xarici əsası *(basis cranii externa)* – kəllə əsasının aşağı səthi; üç şöbəyə bölünür: ön, orta və arxa şöbə

Kəllənin trefinasiyası *(trefinatio cranii)* – trefin vasitəsilə kiçik dairəvi dəlik əmələ gətirməklə icra olunan kəllənin trepanasiyası

Kənd yatalağı – *bax:* Tsutsuqamuşi

Kəpək (*pityriasis simplex capitis*) – 1) saç dibində baş dərisinin buynuz qatının gözlə görünən qopması; 2) buynuz lövhəciklərinin dəri səthindən tökülən hissəsi

Kəpəkşəkilli qabıqlanma *(defurfuratio)* – dərinin üst buynuz qatının kəpək formasında qoparaq xaric olması

Kəpənək fiquru – fəqərə sümüyünün anadangəlmə yarığının rentgenoloji əlaməti – rentgen şəklində kəpənəyin iki qanadına bənzər kölgənin olması

Kəpənək simptomu – qırmızı qurd eşənəyi üçün xarakter olan burnun üst hissəsində və yanaqlarda qırmızı səpgilərin olması, səpgilər birləşərək "kəpənək" formasını alır

Kəsik *(incisio)* – 1) cərrahi müdaxilə zamanı müəyyən anatomik nahiyəyə daxil olmaq və ya iltihab ocağının (abses və s.) açılması üçün dəri, selikli qişa və toxumanın kəsilməsi; 2) orqan və ya toxumadan morfoloji müayinə üçün hazırlanmış nazik toxuma lövhəsi

Kəskin alimentar mikotoksikoz (*mycotoxicosis alimentaria acuta*) – *bax:* alimentar-toksiki aleykiya

Kəskin alkoqol hallüsinozu – xroniki alkoqolizmdən əziyyət çəkən xəstələrdə axşam və gecə saatlarında meydana çıxan, qorxu, həyəcan və aqressiv hərəkətlərlə yanaşı meydana çıxan hallüsinasiyalar

Kəskin xoşxassəli limfoblastoz *(lymphoblastosis benigna acuta)* – *bax:* infeksion mononukleoz

Kəskin infeksion kapilyarotoksikoz (*capillarotoxicosis acuta infectiosa*) – *bax:* hemorragik Krım qızdırması

Kəskin irinli peridakriosistit – göz yaşı kisəsi və ətraf toxumaların kəskin fleqmanoz iltihabı

Kəskin qarın (*abdomen acutum*) – qarın boşluğunun çox vaxt təcili əməliyyat tələb edən qapalı zədələnmələri və kəskin cərrahi xəstəliklər nəticəsində meydana çıxan simptomları birləşdirən ümumi termin

Kəskin şizofreniyayabənzər psixotik pozuntu – şizofreniya əlamətləri ilə təzahür edən, təxminən bir aya qədər davam edən psixoz növü

Kəskin tonzillit (*tonsillitis acuta*) – anginanın xarakter simptomatikası ilə sürətlə inkişaf edən və onun əsas morfoloji əlaməti olan tonzillit

Kəskin uşaq spinal atrofik iflici (*paralysis infantilis spinalis atrophica acuta*) – *bax:* poliomielit

Kəskinləşmə *(exacerbatio)* – xroniki xəstəliyin gedişatının mövcud simptomların güclənməsi və ya yenilərinin əmələ gəlməsi ilə xarakterizə olunan mərhələsi

Kiari xəstəliyi (H. Chiari, 1851-1916, avstr. patoloqu) – tromboz nəticəsində qaraciyər damarlarının obliterasiyasının səbəb olduğu naməlum etiologiyalı xəstəlik

Kiari-Frommel sindromu (J. B. Chiari, 1817-1854, avstr. ginekoloq; R. J. Frommel, 1854-1912, alm. ginekoloqu) – hipotalamusun funksiyasının pozulması ilə əlaqəli klinik simptomatikanın – amenoreya, cinsiyyət orqanlarının atrofiyası və qalaktoreyanın formalaşması

Kiçik xoreya (*chorea minor*) – revmatik infeksiyanın nevroloji təzahürü

olub, gövdə və ətraflarda qeyri-iradi hərəkətlər, psixoemosional dəyişikliklərlə özünü göstərir

Kiçik Borovski cismcikləri *(leishmania varietas minor)* – antroponoz dəri leyşmaniozunun törədicisi

Kiçik döş əzələsi sindromu (*syndromum musculi pectoralis minoris*) – kiçik döş əzələsi nahiyəsində ağrı sindromu

Kiçik əlamətlər sindromu – mədə xərçəngi zamanı müşahidə olunan səbəbsiz zəiflik, əmək qabiliyyətinin aşağı düşməsi, yorğunluq, iştahanın enməsi ilə müşayiət olunan depressiya, arıqlama və mədə nahiyəsində narahatçılıq

Kiçik körpücüküstü çuxur *(fossa supraclavicularis minor)* – döş-körpücük-məməyəbənzər əzələnin döş və körpücük başcıqları arasında, körpücük sümüyünün üstündə yerləşən üçbucaqlı çuxur

Kiçik piylik *(omentum minus)* – peritonun qaraciyərin aşağı səthindən mədənin kiçik əyriliyi və onikibarmaq bağırsağa doğru gedən təbəqəsi

Kiçik sindrom *(syndromum parvum)* – psixiatriyada: bir əlamətlə (asteniya, depressiya, sayıqlama və s.) təzahür edən psixopatoloji pozğunluq

Kiçik Şarko isteriyası (köh.; J. M. Charcot, 1825-1893, frans. nevropatoloqu) – tiklər, tremor və ayrı-ayrı əzələlərin qıcolması şəklində olan pozğunluqlarla gedən isteriya

Kiçik tibb bacısı – stasionar tibb müəssisələrinin xəstələrə qulluq edən (paltarların dəyişdirilməsi, yedizdirilməsi və s.) kiçik tibb işçisi

Kiçik variola (*variola minor*) – *bax:* alastrim

Kiçikağızlılıq *(microstoma)* – inkişaf anomaliyası: əng və çənə çıxıntılarının bir-biri ilə çox bitişməsi nəticəsində ağız yarığının kiçik olması

Kifoskoliotik ürək *(cor kyphoscolioticum)* – kifoskoliozlu xəstələrdə döş qəfəsinin deformasiyası, ağciyərlərin sıxılması nəticəsində inkişaf edən ağciyər ürəyi

Kifoz (*kyphosis*; yun. *kyphosis* əyilmə, donqar; *kyphos* əyilmiş, beli bükülmüş) – onurğanın gözlə görülə bilinəcəq qədər önə doğru əyilməsi, qozbellik; onurğanın üst hissəsi xaricə doğru, alt hissəsi isə içəriyə doğru əyilir

Anadangəlmə kifoz (*k. congenita*) – ana bətnində qeyri-uyğun yerləşmə, fəqərə cismlərinin ön şöbələrinin inkişaf anomaliyasının səbəb olduğu kifoz

Raxitlik kifoz (*k. rhachitica*) – raxit xəstəliyinin fəsadı kimi qalıq olaraq inkişaf edən kifoz

Total kifoz (*k. totalis*) – tək dös qəfəsinin deyil, bütün onurğanın deformasiyası

Vərəm mənşəli kifoz (*k. tuberculosa*) – vərəm spondiliti zamanı fəqərə cismlərinin dağılması və kompressiyası nəticəsində inkişaf edən kifoz

Kilin xəstəliyi (E. Kylin; sin. Kilin sindromu, postparoksizmal üzülmə) – 15-16 yaşlı qızlarda müşahidə olunan və arıqlama, dərinin atrofiyası, şişkinlik, saçların tökülməsi, amenoreya ilə təzahür edən naməlum etiologiyalı xəstəlik

Killian əməliyyatı (G. Killian, 1860-1921, alm. otorinolarinqoloqu) – 1) burun çəpərinin əyriliyi zamanı aparılan cərrahi əməliyyat; əyrilik olan nahiyyənin selikli qişası üzərində kəsik aparılır, deformasiya olunmuş nahiyyə kəsib götürülür,

sonra tənzif tamponla selikli qişa sıxılaraq fiksə olunur; 2) xroniki frontit zamanı icra olunan cərrahi əməliyyat

Killian simptomu (G. Killian) – qida borusunun periezofagitlə ağırlaşan yad cismləri zamanı boyun nahiyəsində aşağıya irradiasiya edən kəskin ağrı, üzüyəbənzər qığırdaq nahiyəsində yumşaq toxumaların infiltrasiyası, üşütmə və bədən hərarətinin yüksəlməsi

Killian triadası (G. Killian) – qida borusunda yad cism olduqda üç simptomun birgə təzahürü: udqunma zamanı ağrının artması, boyun nahiyəsinin dəri və dərialtı toxumasının infiltrasiyası, titrəmə ilə müşayiət olunan bədən hərarətinin yüksəlməsi

Killian üçbucağı (G. Killian) – udlaq, qida borusu və udlağı daraldan aşağı əzələnin arasında üçbucaq formalı sahə; sahəsi 6-42 mm^2 olub birləşdirici toxuma ilə tutulmuşdur

Killianın asma larinqoskopiyası (G. Killian) – düz larinqoskopiya üsulu, bu zaman dilin kökünün şpatellə basılması arxası üstə uzanmış xəstənin sallanmış başının ağırlığı hesabına baş verir

Killianın vasitəli larinqoskopiyası (G. Killian) – larinqoskopiyanın bu üsulu zamanı müayinə olunan şəxs başını önə və aşağı əyərək dayanır, həkim isə oturur, yaxud dizləri üstdə durub üfüqü vəziyyətdə tutduğu güzgüyə aşağıdan yuxarıya doğru baxır; qırtlağın arxa divarını müayinə etmək üçün tətbiq olunur

Kimya aviasiya döyüş bombaları – zəhərləyici döyüş maddələri ilə təchiz edilir, canlı qüvvəni məhv etmək üçündür

Kimya əleyhinə fərdi paket – zəhərləyici maddələrlə zəhərlənmə zamanı özünə və qarşılıqlı yardım göstərmək üçün tibbi vəsaitlər dəsti; dərinin açıq səthinə və paltara düşmüş zəhərləyici maddələrin zərərsizləşdirilməsində istifadə olunur

Kimyaterapiya – kimyəvi dərman preparatları ilə müalicə

Kimyəvi silah – kütləvi qırğın silahı olub, zəhərləyici təsirə malik maddələrin toksik xassələrinə əsaslanır; tətbiq vasitələri – raketlər, mərmilər, minalar, aviasiya bombalarıdır

Kin- – 1) (kinezi-, kinezio-, kinemo-, kino-; yun. *kineo* hərəkət etdirmək, hərəkətə gətirmək) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "hərəkətə aid" mənasını verir; 2) (kino-; yun. *kyon, kynos* it) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "itə aid" mənasını verir

Kinantropiya (*kynanthropia*; *kin-*+ yun. *anthropos* insan) – özünü itə, pişiyə bənzətmə, onların hərəkətini edərək səslərini çıxartma

Kinbek xəstəliyi (R. Kienbock, 1871-1953, avstr. rentgenoloq) – müxtəlif travmalar nəticəsində insanın sümük toxumasının strukturunu dəyişməsi və nekroz toxuma ilə əvəz edilməsi nəticəsində əmələ gələn xəstəlik; xəstə sümük toxuması yerləşən nahiyədə ağrı hissi, ağırlıq hissi, gərginlik, zəiflik hiss edir

Kinemometr (yun. *kinema* hərəkət) – vətər reflekslərini yoxlayarkən əzələlərin yığılıb-boşalma dərəcəsini ölçmək üçün cihaz

Kinesteziometr (yun. *aisthesis* duyğu, hiss) – əzələ reaksiyasını müəyyən etmək üçün cihaz

Kinesteziya (kin- + yun. *aisthesis*

duyğu, hiss) – bədənimizin müxtəlif hissələrinin bir-birinə nəzərən mövqeyindən və hərəkətindən xəbərdar olmağımızı təmin edən və proprioreseptorlardan daxil olan siqnallara əsaslanan hissiyyat

Kinetokardioqrafiya – ürək fəaliyyətinin müayinəsi üsulu, ürək əzələsinin hərəkətinin çəkilməsi

Kinetositoz – kinetositlərin qanda miqdarının artması

Kineziologiya (yun. *kinezis* hərəkət, *loqos* elm) – əzələlərin bütün istiqamətlərdə mexaniki hərəkətlərini öyrənən elm

Kinezionevroz – əzələ tiki və spazmalarla xarakterizə olunan funksional sinir pozğunluğu

Kinoangiokardioqrafiya – *bax:* angiokardiokinoqrafiya

Kinoflüoroqrafiya – *bax:* rentgenokinematoqrafiya

Kinoflüoroskopiya – *bax:* rentgenokinematoqrafiya

Kinofobiya (*kynophobia*) – itlərdən, quduz itin dişləməsindən qorxmaq

Kinomometr – əl barmaqlarını və biləyin hərəkilik dərəcəsini ölçmək üçün cihaz

Kinorentgenoqrafiya – *bax:* rentgenokinematoqrafiya

Kirpiklər *(cilia)* – göz qapaqlarının ön kənarlarında bitən tükcüklər P SEP **Kirpik simptomu** – üz sinirinin parezi zamanı xəstə gözünü qıydıqda zədələnmiş tərəfdə kirpik çalmanın ləngiməsi nəticəsində assimetriyanın meydana gəlməsi

Kirpikli cism (*corpus ciliare*) –qüzehli qişanın arxasında yerləşən və tərkibində kirpikli əzələ olan gözün damarlı qişasının hissəsi

Kipşidze simptomu (S.N. Kipşidze, 1887-1953, sov. nevropatoloqu) – beyincik absesi zamanı gözü bağlanmış vəziyyətdə əllər önə uzadıldıqda V barmağın patologiya olan tərəfə yönəlməsi

Kisə çökəkliyi (*recessus sacculi*) – *bax:* sferik çökəklik

Kisəli ekzostoz (*exostosis bursata*) – xarici örtüyü üzərində selikli kisə əmələ gələn ekzostoz

Kisselbax zonası (*locus Kiesselbachi*; W. Kiesselbach, 1839-1902, alm. otorinolarinqoloqu) – burun arakəsməsinin ön hissəsində venoz kələflərin yerləşdiyi nahiyə; bu hissədə tez-tez baş verən qanaxmaların səbəbi venoz kələflərin və zəif inkişaf etmiş əzələ ünsürlərinə malik olan arteriolaların səthi yerləşməsidir

Kistadenoma (*cystadenoma*) – *bax:* sistadenoma

Kistoma (*cystoma*; sin. sistoma) – *bax:* sistoma

Kistoz göz (*oculus cysticus*) – *bax:* orbital sistli anoftalm

Kistoz odontoma (*odontoma cysticum*) – əsasən aşağı çənədə yerləşən, divarında və ya mənfəzində əhəngləşmiş mina, dentin, sement olan şist

Kişi cinsiyyət üzvünün kraurozu (*craurosis penis*) – cinsiyyət üzvü toxumalarının diffuz atrofiyası ilə xarakterizə olunan xəstəlik

Kitaxara sindromu (S. Kitahara, yap. oftalmoloqu, 20 əsr) – *bax:* mərkəzi seroz retinopatiya

Kitergik reaksiya – *bax:* ləngtipli allergik reaksiya

Kladotrixoz – *bax:* nokardioz

Klaustrofobiya (*claustrophobia*) – qapalı yerlərdən qorxmaq

Klavikula-kostal sindromu – körpü-

çük sümüyü və qabırğalar nahiyəsində səthi ağrı sindromu

Klaynfelter sindromu (H. F. Klinefelter, amer. endokrinoloq) – kəmağıllılıq, hipogenitializm, azoospermiya, ginekomastiya ilə təzahür edən, əlavə X xromosomunun olması nəticəsində meydana gələn irsi xəstəlik

Kleptofobiya (*cleptophobia*; yun. *klepto* oğurlamaq + *fobiya*) – oğrulardan qorxmaq

Kleptomaniya (yun. *klepto* oğurlamaq + *maniya*) – impulsiv oğurluq; ehtiyacı olmadığı, dərhal istifadə etməyəcəyi halda və satma düşüncəsi olmadan bir sıra əşyaları icazəsiz olaraq götürmək, onlara sahib olma şəklində bir impuls nəzarət pozğunluğu

Kleyn sindromu – *bax:* Kleyn-Vardenburq simptomu

Kleyn-Vardenburq simptomu (D. Klein, isveçrəli genetik və psixiatr; J. P. Waardenburg, hol. oftalmoloq) – karlıq, burun sümüklərinin hiperplaziyası, burun zirvəsinin hündürdə yerləşməsi, nazofrontal bucağın hamarlanması, qaşların medial hissəsinin ağarması və braxisefaliya

Klimaks (*climax*; yun. *klimax* pilləkən) – reproduktiv dövrdən yumurtalıqların funksiyasının aşağı düşməsi və menstruasiyanın dayanması ilə nəticələnən fizioloji hal

Klimakterik artrit (*arthritis climacterica*) – oynaqlarda klimaks dövründə meydana çıxan və ya inkişaf edən degenerativ proses

Klimakterik dövr (yun. *klimakter* pillə (pilləkən), dönüş dövrü; sin. klimaks) – qadın cinsi sistemi üzvlərinin geriyə inkişafı dövrü

Erkən klimakterik dövr – qadınlarda 45 yaşa qədər, kişilərdə isə 50 yaşa qədər inkişaf edən klimakterik dövr

Patoloji klimakterik dövr – endokrin, vegetative və psixi pozğunluqlarla (klimakterik sindrom) müşayiət olunan klimakterik dövr

Klimakterik sindrom *(syndromum climactericum)* – klimaks dövründə qadınlarda sinir-psixi, damar-vegetativ və mübadilə pozğunluqlarının meydana çıxması

Klimatoloji palata – *bax:* süni iqlim kamerası

Klinik angiologiya – daxili xəstəliklərin qan və limfa damarlarının xəstəliklərinin etiologiya, patogenez, diaqnostika, müalicə və proflaktikasını öyrənən bölməsi

Klinik nevrologiya – *bax:* nevropatologiya

Klinik ölüm *(mors clinicalis)* – ürək və tənəffüs fəaliyyəti dayandıqdan sonra mərkəzi sinir sisteminin yuxarı şöbələrinin geriyədönməyən dəyişikliyinin əmələ gəlməsinə qədər davam edən terminal vəziyyət; ürək dayandıqdan beyin qabığı ölənə qədər keçən vaxt

Klinik topometriya – diaqnostikanın fərdi topoqrafo-anatomik əlaqələrin, orqan və toxumaların patoloji dəyişiklikləri nəzərə alınmaqla, qrafik təsviri və ölçülmə üsullarına həsr olunmuş bölməsi,

Klinodaktiliya (*clinodactylia*; yun. *klino* əymək, bükmək + *daktyios* barmaq) – inkişaf anomaliyası nəticəsində barmaqların köndələn və ya əyri yerləşməsi

Klippel-Feyl xəstəliyi (M. Klippel, 1858-1942, frans. nevropatoloqu; A. Feil, frans. nevropatoloqu; sin. qısa boyun sindromu) – inkişaf anomaliyası: boyun və yuxarı döş

fəqərələrinin anadangəlmə sinostozu (bitişməsi)

Klippel-Trenon sindromu (M. Klippel, 1858-1942, frans. nevropatoloqu; P. Trenaunay, frans. həkimi) – aşağı ətrafların dərin magistral venalarının inkişaf anomaliyası: venaların keçiricilik qabiliyyətinin ətrafın hipertrofiyası, dərialtı venaların varikoz genişlənməsi və dəridə hemangiomalar və ya piqment ləkələrin olması ilə təzahür edən pozulması

Klitorun kavernoz cismi *(corpus cavernosum clitoridis)* – klitorun mağaralı cismi

Klitorun mağaralı cismi (*corpus cavernosum clitoridis*) – klitorun tərkibində olan və cinsi orqanı təşkil edən mağaralı cismə bənzər anatomik törəmə

Kloaka *(cloaca*; lat. çirkab üçün axar*)* – rüşeymin bağırsağının sonunda yerləşən, ifrazat və cinsiyyət axacaqlarının açıldığı genişlənmiş hissə

Klod sindromu – gözün hərəki sinirinin nüvəsi, qırmızı nüvə zədələndikdə baş verir; zədə tərəfdə ptoz, çəpgözlük, midriaz, əks tərəfdə isə - intension tremor və xoreoform hiperkinez yaranır.

Klofelin (*clophelinum*) – imidazol törəməsi olan antihipertenziv maddə

Klofibrat *(clofibratum)* – lipid mübadiləsini tənzim edən vasitə; aterosklerozun müalicəsində tətbiq edilir

Klonazepam (*clonazepamum***)** – benzodiazepin törəməsi olan qıcolma əleyhinə preparat

Klonorxoz (*clonorchosis*) – *Clonorchis Sinensis* tərəfindən törədilən, əsasən mədəaltı vəz, qaraciyər və öd kisəsini zədələyən helmintoz; xəstəlik ən çox Çində, Koreyada, Yaponiyada yayilmışdır

Klonus (*clonus*; yun. *klonos* qarışıq hərəkət) – əzələlərdə sürətli sıxılma və boşalma ilə təzahür edən anormal sinir-əzələ fəaliyyəti; piramida yollarının zədələnməsi zamanı müşahidə olunur

Ümumi klonus – müxtəlif əzələlərin eyni vaxtda ritmik yığılması

Klopamid (*clopamidum*) – "yumaqcıq" diuretiki

Klostridial qastroenterit (*gastroenteritis clostridialis*) – *Clostridium perfringes*-in törətdiyi yoluxucu xəstəlik; qısa inkubasion dövrü olan, kəskin başlayan və qızdırmalı qastroenteritlə xarakterizə olunur

Klotrimazol *(clotrimazolum)* – göbələk əleyhinə təsir göstərən preparat

«Kloun maskası» simptomu – üz siniri iflici zamanı ağlayarkən üzün zədələnmiş tərəfində dəri qızarmasının olmaması

Klounizm – psixiyatriyada: özünü səfeh, gülünc aparmaq; təlxəklik edən belə adamlar heyvan səsi çıxarmaq, sifətini eybəcər vəziyyətə salmaq və digər bu kimi hərəkətlər etməkdən sanki zövq alırlar

Klozapin (*clozapinum*) – neyroleptik dərman vasitəsi

Kluston iflici (Th.S. Clouston, 1840-1915, ing. psixiatrı) – *bax:* infantil proqressiv iflic

Kneypin soyuq su müailcəsi metodu (Sebastyan Kneyp, alm. keşiş, 19-cu əsr) – su ilə müalicə üsulu: yaş ot, qar üzərində ayaqyalın gəzmə, su vannalarının qəbul edilməsi

Koaqulo- (lat. *coagulo* laxtalanmaya səbəb olmaq) – mürəkkəb sözlərin

tərkib hissəsi olub, "laxtalanmaya aid olan" mənasını verir

Koaquloqramma (*koaqulo-* + yun. *gramma* qrafik təsvir, yazı) – qanın laxtalanma sisteminin göstəricilərini müəyyən etməyə imkan verən laborator analiz

Koaqulyasiya (lat. *coagulatio* laxtalanma) – qan plazmasında həll olmuş fibrinogen zülalının həll olmayan fibrin zülalına çevrilməsi

Koamid *(coamidum)* – qanəmələ gəlmənin stimulyatoru, orqanizm tərəfindən dəmirin mənimsənilməsini təmin edən kobalt tərkibli preparat

Kobamamid *(cobamamidum)* – B_{12} vitamininin kofermenti

"Kobra başı" simptomu – ekskretor uroqrafiya zamanı sidik axarının son hissəsinin kobra başını xatırladan oval genişlənməsi; sidik axarı axalaziyasının əlaməti, bəzən ureterosele zamanı rast gəlinir

Kobrak üsulu (F. Kobrak, 1880-1930, alm. otorinolarinqoloqu) – xarici qulaq keçəcəyinə az miqdarda soyuq su tökməklə aparılan kalorik sınaq

Kodein (*codeinum*) – narkotik təsirli analgetik

Kodein fosfat (*codeinum phosphas*) – narkotik təsirli analgetik

Kodman şişi (E.A. Codman, 1869-1940, amer. cərrah) – *bax:* xondroblastoma

Kodman üçbucağı (E.A. Codman) – sümüyün bədxassəli şişi zamanı rentgenoloji müayinədə sümük səthində aşkar olunan üçbucaqlı rentgen kölgə

Koen sindromu (M.H. Cohen, amer. genetik) – irsi xəstəlik: piylənmə, əzələ hipotoniyası, qismən ağıl kəmliyi, qıcolma tutmaları, mikrosefaliya, iri dişlər, ağızın daim açıq qalması, diafraqmal yırtıq, skolioz, kifoz, görmə sinirinin atrofiyasından ibarət simptomokompleks

Kofein *(coffeinum)* – mərkəzi sinir sisteminə stimuləedici təsir göstərən dərman vasitəsi

Kofein natrium-benzoat *(coffeinum-natrii benzoas)* – mərkəzi sinir sisteminə stimuləedici təsir göstərən dərman vasitəsi

Kofeinizm (sin. kofeinofagiya) – kofeindən xroniki zəhərlənmə; uzun müddət kofeindən və ya tərkibində kofein olan məhsullardan istifadə nəticəsində yaranan toksikomaniya

Kofeinofagiya (kofein + yun. *phagein* yemək, udmaq) – *bax:* kofeinizm

Koferment – yalnız başqa fermentin iştirakı ilə təsir göstərən ferment

Koffin-Lauri sindromu (G.Coffin) – zehni inkişafdan geri qalma, hipotoniya, hidrosefaliya, neyrosensor karlıq, qulaqların və ağızın iri olması, enli qaşlar və skeletin inkişaf qüsurlarından ibarət simptomokompleks

Kofo – (yun. *kophos* kar, kütləşmiş) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "kar" "karlıq" mənasını verir

Kofocərrahiyyə (*cophochirurgia*) – ağıreşitmə və karlığı olan şəxslərə eşitmənin yaxşılaşdırılması məqsədilə icra edilən cərrahi əməliyyatların ümumi adı

Kofoterapiya (*cophotherapia*) – ağıreşitmə və karlığı olan şəxslərə eşitmənin yaxşılaşdırılması məqsədilə aparılan kompleks terapevtik tədbirlər

Kox sınağı (R. Koch, 1843-1910, alm. bakterioloqu) – vərəm xəstəliyini aşkar etmək üçün tuberkulinlə qoyulan dərialtı sınaq

Koxanovski simptomu – beynin alın payı absesi zamanı göz qapaqlarını passiv qaldırdıqda yalnız xəstə tərəfdə müqavimətin göstərilməsi

Koxer manevri (E.Th. Kocher, 1841-1917, isveçrə cərrahı) – duodenumun arxa divarını görmək üçün sol lateral tərəfindən sərbəstləşdirilməsi

Koxer sıxacı (E.Th. Kocher, 1841-1917, isveçrə cərrahı) – uzun, ensiz işçi dodaqları iti dişciklərə malik olan qandayandıran sıxac

Koxlear (*cochlearis*; anat. *cochlea* daxili qulağın ilbizi, yun. *kochlos* ilbiz, ilbiz qabığı) – daxili qulağın ilbizinə aid olan

Koxlear aparat – ilbizin tərkibində yerləşən səsqəbuledici aparatla birlikdə daxili qulağın bir hissəsi

Koxleo- – mürəkkəb sözlərin tərkib hissəsi olub, "daxili qulağın ilbizinə aid" mənasını verir

Koxleoqramma – daxili qulağın ilbizinin elektrik potensialının müəyyən vaxt ərzində dəyişiklikliyini əks etdirən əyri

Koxleopatiya (*cochleopathia*; *koxleo-* + yun. *pathos* əzab, xəstəlik) – kortiyev (spiral) orqanın reseptor elementlərinin zədələnməsi ilə gedən daxili qulağın qeyri-iltihabi xəstəliklərinin ümumi adı

Kokain hidroxlorid (*cocainum hydrochloridum*) – yerli təsirli ağrıkəsici maddə

Kokarboksilaza *(cocarboxylasum)* – karbohidrat mübadiləsində iştirak edən B_1 vitamininin kofermenti

Kokkeyn sindromu (E.A. Cockayne, 1880-1956, ing. pediatrı) – ağıreşitmə, qulaq seyvanlarının displaziyası, səsin kobudlaşması, cırtdanboyluq, göz yuvasının dərində yerləşməsi, alt çənənin önə çıxması və intellektin zəifləməsi ilə təzahür edən irsi xəstəlik

Koks – (lat. çoxa bud; anat. *os coxae* çanaq sümüyü, *articulatio* coxae bud-çanaq oynağı) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "çanağa, bud-çanaq oynağına aid" mənasını verir

Koksalgiya (*coxalgia*) – bud-çanaq oynağı nahiyəsində ağrı

Koksartroz (*coxarthrosis*) – bud-çanaq oynağının artrozu

Koksidioidomikoz – *Coccidioides immitis* tərəfindən törədilən, əsasən ağciyər toxumasını, dərini, sümük və oynaqları, daxili orqanları və beyin qişalarını zədələyən dərin mikoz

Koksiellyoz (*coxiellosis*) – *bax:* Ku qızdırması

Koksikodiniya (*coccygodynia*; anat. *coccyx, coccygis* büzdüm + yun. *odyne* ağrı) – büzdüm nahiyəsində ağrı

Koksit (*coxitis*) – bud-çanaq oynağının iltihabı

Koqan sindromu (D.G. Cogan, amer. oftalmoloq) – karlıq, qulaqda küy, nistaqm, başgicəllənmə, öyümə, parenximatoz keratitlə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik

Kolduel-Lyuk üsulu (G.W. Caldwell, 1834-1918, amer. otorinolarinqoloq; H. Luc, 1855-1925, frans. otorinolarinqoloqu) – radikal haymorotomiyanın bir növü: yuxarı çənə boşluğu ön divardan açılır (üst dodağın altında kəsik aparıldıqdan sonra), selikli qişa kənar edilir və boşluğu aşağı burun keçidi ilə birləşdirən geniş dəlik əmələ gətirilir

Kolxamin *(colchaminum)* – bitki mən-

şəli alkaloid tərkibli sitostatik preparat

Kolibakterioz (*colibacteriosis*; sin. eşerixioz) – bütün növ cavan kənd təsərrüfatı heyvanlarının kəskin yoluxucu xəstəliyi, törədicisi Koli – bağırsaq çöpüdür.

Kolidistal sindrom *(syndromum colidistale*; yun. *kolon* yoğun bağırsaq*)* – qan, selik və irinlə qarışıq maye nəcisin ifraz olunması ilə defekasiyaya tez-tez çağırışlar; qeyri-spesifik yaralı kolit zamanı müşahidə olunur

Koline-Kaplan sindromu (E. Colinet; A. Caplan, ing. həkimi) – *bax:* Kaplan sindromu

Kolit (*colitis*) – yoğun bağırsağın selikli qişasının iltihabı

Allergik kolit (c. allergica) – qida və ya dərman allergiyasının təzahürü kimi inkişaf edən kolit

Amöblu kolit (c. amoebica) – yoğun bağırsağın toxumalarına *Entamoeba histolytica*-nın yeridilməsi və sonradan xoraların əmələ gəlməsi nəticəsində inkişaf edən kolit; amöbiazın əsas təzahürü

Xoralı kolit (c. ulcerosa) – yoğun bağırsağın selikli qişasında xoraların əmələ gəlməsi ilə xarakterizə olunan kolit

Xroniki kolit (c. chronica) – yoğun başırsağın selikli qişasının xroniki iltihabıdır, düz bağırsaqdan başlayıb proskimala doğru yayılır; əksər hallarda kəskinləşmələrin (ağrı, qanlı ishal, hərarət) və remissiyaların təkrarlanması ilə gedir, bəzən ağırlaşmalara səbəb olur (qanaxma, toksik dilatasiya, perforasiya və s.)

İdiopatik yaralı kolit – *bax:* qeyri-spesifik xoralı kolit

İnfeksion kolit (c. infectiosa) – hər hansı bir yoluxucu xəstəlik zamanı onun klinik sindromu kimi inkişaf edən kolit

İşemik kolit (c. ischaemica) – bağırsağın qan təchizatının pozulması nəticəsində yaranan kolit, məs., tromboz və emboliyalar, kiçik damarların okklüziyası zamanı

Kəskin kolit (c. acuta) – ani başlayan, ishal, enteralgiya və qısamüddətli gedişlə xarakterizə olunan kolit

Qeyri-spesifik xoralı kolit – ağırlaşma və remisiya ilə gedən naməlum etiologiyalı yoğun bağırsaqda yara, hemorrogiya və irin əmələ gəlmə ilə müşahidə olunan xroniki xəstəlik

Qranulomatoz kolit (*c. granulomatosa*) – Kron xəstəliyinin bir növüdür, patoloji proses yoğun bağırsaqda lokalizə olunur

Psevdomembranoz kolit – antibakterial terapiyanın nəticəsində meydana çıxan yoğun bağırsağın kəskin ağır xəstəliyi

Spastik kolit (*c. spastica*) – bağırsağın spastik yığılmaları ilə xarakterizə olunan funksional xəstəlik, qarında ağrıların olması ilə ishal və qəbzliyin növbələnməsi ilə təzahür edir

Kollagen (*collagenum*) – fibroblastlar tərəfindən sintez olunan dermanın zülal tərkibli struktur vahidi

Kollagen-lifli qığırdaq *(cartilago fibrosa callogenosa) – bax:* lifli qığırdaq toxuması

Kollagenaza *(collagenasa)* – iribuynuzlu heyvanların mədəaltı vəzindən alınan ferment preparatı

Kollagenozlar (*collagenoses*) – bütün orqanizmin orqanlarının və sistemlərinin kollagen liflərinin sistemli proqressiv zədələnməsi ilə gedən

xəstəliklər qrupu (revmatizm, revmatoid artrit, sistem qırmızı qurdeşənəyi, sistem sklerodermiya; dermatomiozit); birləşdirici toxuma və damarların diffuz zədələnməsi ilə xarakterizə olunur

Kollaps (*collapsus*; lat. *collabor, collapsus*, birdən yıxılmaq, ürəyi getmək) – arterial təzyiqin kəskin sürətdə aşağı düşməsi, periferik qan dövranının pozulması ilə müşahidə edilən, həyat üçün təhlükəli olan kəskin damar çatışmazlığı

Hemorragik kollaps (c. haemorrhagicus) – böyük qan itkisi zamanı baş verən kollaps

Hipoksik kollaps (c. hypoxicus) – kəskin oksigen çatışmazlığı zamanı yaranan kollaps

Infeksion kollaps (c. infectiosus) – yoluxucu xəstəliyin pik səviyyəsində və ya bədən temperaturunun kəskin olduğu hallarda baş verən kollaps

Kardiogen kollaps (c. *cardiogenus*) – *bax:* kardiogen şok

Pankreatik kollaps (c. pancreaticus) – mədəaltı vəzinin kəskin iltihabı zamanı baş verən kollaps

Toksik kollaps (c. toxicus) – kəskin zəhərlənmə zamanı baş verən kollaps

Kollapsoterapiya (*collapsotherapia*) – zədələnmiş ağciyərin həcminin daimi və ya müvəqqəti azaldılması yolu ilə ağciyər vəraminin müalicəsi

Kollarqol *(collargolum)* – gümüş tərkibli antiseptik maddə

Kolliyer iflici (J.S. Collier, 1870-1935, ing. nevropatoloqu) – burunətrafı sinuslardan iltihabi prosesin yayılması nəticəsində gözün hərəki sinirinin parezi, üçlü sinirin nevralgiyası

Koloboma (*coloboma*) – üst göz qapağı kənarının üçbucaq və ya yarımdairəvi oyuq şəklində inkişaf qüsuru

Kolonoskopiya (yun. *kolon* yoğun bağırsaq + *skopeo* müayinə etmək) – yoğun bağırsağın arxa keçəcəkdən kor bağırsağa qədər əsnək, bükülə-bilən, borulu alətlə müayinəsi

Kolostomiya (*colostomia*) – cərrahi əməliyyat: yoğun bağırsağa fistulun qoyulması

Kolp- (kolpo-; yun. *kolpos* dərinlik, boşluq, uşaqlıq yolu) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "uşaqlıq yoluna aid" mənasını verir

Kolpit (*colpitis*; sin. vaginit) – uşaqlıq yolunun selikli qişasının iltihabı

Kolpohisterotomiya – uşaqlıq yolunun Kesar kəsiyi; uşaqlığın doğuşdan sonra çevrilməsi hallarında icra olunur

Kolpoqrafiya (*kolpo-* + yun. *grapho* yazmaq, təsvir etmək) – *bax:* vaginoqrafiya

Kolpopeksiya (*colpopexia*) – *bax:* vaginofiksasiya

Kolpoperineoplastika (*colpoperineoplastica*) – plastik əməliyyat: kiçik çanaq orqanlarının sallanması və ya düşməsinin qarşısını almaq məqsədilə uşaqlıq yolunun arxa divarı və aralıq əzələlərinin tikilməsi

Kolpoperineorafiya (*kolpo-* - yun. *perineos* aralıq + *rhaphe* tikiş) – cırılmış uşaqlıq yolunun və aralığın tikilməsi

Kolposkop – uşaqlıq boynunu müayinə etmək üçün tibbi endoskop

Kolpotomiya (*kolpo-* + yun. *tome* kəsik, yarılma) – cərrahi əməliyyat: uşaqlıq yolunun divarının yarılması

Koma (*coma*; yun. *koma* dərin yuxu) – şüurun itməsi, mərkəzi sinir sisteminin fəaliyyətinin ciddi şəkildə zəifləməsi, qıcıqlara qarşı reaksiyaların olmaması, maddələr mübadiləsi, tənəffüs, qan dövranı və digər sistemlərdə əmələ gələn pozulmalarla xarakterizə olunan ağır patoloji vəziyyət

Apopleksik koma (c. apoplecticum) – beyin toxumasına qansızmalar və ya beynin kəskin lokal işemiyası nəticəsində əmələ gələn koma

Diabetik koma (c. diabeticum) – ağır formalı şəkərli diabet xəstəliyinin ağırlaşması kimi inkişaf edən koma; bu zaman karbohidrat, yağ və zülal mübadiləsində əmələ gələn ciddi pozulmalar nəticəsində beynin və digər toxumaların enerji təchizatı pozulur, su-elektrolit disbalansı və intoksikasiya əlamətləri aşkarlanır

Hipoqlikemik koma (c. hypoglycaemicum) – qanda qlükozanın miqdarının kəskin şəkildə azalması ilə əlaqədar yaranan koma; şəkərli diabetin müalicəsi üçün istifadə edilən insulinin artıq dozada yeridilməsi nəticəsində, mədəaltı vəzin şişi – insulinoma tərəfindən insulinin hipersekresiyası zamanı, digər endokrin pozulmaları və qaraciyər çatışmazlığında inkişaf edir

Qaraciyər koması (c. hepaticum) – qaraciyər hüceyrələrinin əksər hisssəsinin ağır şəkildə zədələnməsi nəticəsində inkişaf edən koma

Travmatik koma (c. traumaticum) – beyin silkələnməsi, beyin toxumasının əzilməsi və ocaqlı qansızmalar nəticəsində əmələ gələn koma

Komatoz hal (*status comatosus*) – *bax:* koma

Kombinəolunmuş zədələnmə – döyüş zamanı zərərçəkənin bir neçə növ silahdan və ya zədələyici faktorların təsirindən zədələnməsi

Komissura (*commissura*; lat. birləşmə, əlaqə) – *bax:* bitişmə

Komissurotomiya (*commissurotomia*; *komissura* + yun. *tome* yarılma) – cərrahi əməliyyat: ürəyin atrioventrikulyar dəliyinin stenozu zamanı bitişmələrin ayrılması

Kompensasiya (lat. *compensatio* əvəzini vermə) – orqan və toxumaların zədələnmiş sistemlərinin funksiyalarının kompensator proseslər hesabına tam və ya qismən bərpa edilməsi halı

Komplement (lat. *complementum* əlavə) – qanda və toxuma mayesində dövr edən, bir-biriləri ilə qarşılıqlı təsirdə ola bilən 20-yə qədər müxtəlif zülallar sistemidir; onlar aktivləşərək yad hüceyrə və mikroorqanizmlərin məhvində, iltihab prosesinin yaradılmasında, antigenlərin opsonlaşdırılaraq faqositoza uğradılmasında, immun komplekslərinin parçalanmasında və immunoloji reaksiyalar zamanı limfositlərin aktivləşdirilməsində mühüm rol oynayırlar.

Komponent (*componens*) – bir şeyin tərkib hissəsi

Kompres (frans. *compresse*, lat. *comprimo, compressum* sıxmaq, basmaq) – tənzifdən və ya digər parçadan hazırlanmış çoxqatlı müalicəvi yaş sarğı

Kompulsiv hərəkət – tez-tez virtual xarakterli hərəkət etməyə meyllilik

Kompulsiv meyl – öz istəyinin əksinə olaraq düşünülməmiş, mənasız, adətən qorxulu işlər görməyə can atmaq

Kompulsiv təsir – özünə ziyan versə belə, stereotip hərəkətləri etməyə can atmaq

Kondilus *(condylus)* – epifiz nahiyəsinin qalınlaşmış və ya qabarıq hissəsi (oynaqlar üçün birləşdirici səth)

Konfabulyasiya (*confabulationes*; lat. *confabulatio* söhbət) – heç vaxt baş verməmiş və baş verməsi mümkün olmayan qeyri-real, fantastik məzmunlu hadisələrin xatırlanması; yaddaş boşluqlarının xəstə tərəfindən ağlına gələn fantastik ifadələrlə doldurulması

Konferon *(conferon)* – dəmirdefisitli anemiyalar zamanı tətbiq olunan dərman vasitəsi

Konxo- – mürəkkəb sözlərin tərkib hissəsi olub, "balıqqulağına aid" mənasını verir

Konxoskop – burun boşluğunu müayinə etmək üçün alət; şəpəki quraşdırılmış güzgüsü olan borucuk

Konxotom (yun. *konche* раковина + *tome* kəsik) – burun balıqqulağı sümüyünün artımlarının kəsilib xaric edilməsi üçün istifadə olunan alət

Konxotomiya (*conchotomia*) – cərrahi əməliyyat: alt və (və ya) orta burun balıqqulaqlarının rezeksiyası

Koni (konio-; yun. *konia* toz) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "toz", "tozşəkilli" mənasını verir

Konikotomiya (*conicotomia*; anat. *conus elasticus* elastik konus + yun. *tome* kəsik) – cərrahi əməliyyat: üzüyəbənzər və qalxanabənzər qığırdaqlar arasındakı məsafədə qırtlaq mənfəzinin açılması

Konimetr – havada tozun miqdarını ölçmək üçün cihaz

Koniofobiya (*koniophobia*) – *bax:* amatofobiya

Koniokorteks (*coniocortex*; *konio-* + anat. *cortex cerebri* beyin qabığı; sin. tozşəkilli qabıq) – kiçik neyronların çoxluğu ilə xarakterizə olunan tozşəkilli beyin qabığı

Konkrement (*concrementum,* lat. bitişik; sin. daş) – bərk, daşlı struktura malik patoloji törəmə, əsasən duzların çökməsi nəticəsində əmələ gəlir

Konqlomerat (lat. *conglomeratus* yığılmış, sıxlaşdırılmış) – kütlə yığını; müxtəlif bir şeylərin sistemsiz birləşməsi

Konn simptomu (H.Conn, 1925-, amer. həkim) – assiti olan xəstələrdə xayalığın şişməsinin əlaməti: xəstə ayaqlarını geniş aralamış vəziyyətdə uzanır

Konn sindromu (J.W. Conn, amer. endokrinoloq; sin. birincili hiperaldosteronizm) – böyrəküstü vəzin qabıq maddəsinin yumuşacıq zonasının şişi; əsasən qadınlarda rast gəlinir

Konovalov sindromu (N.V. Konovalov, 1900-1966, sov. nevropatoloqu) – *bax:* hepatoserebral sindrom

Konradi-Hünerman nöqtəvi xondrodisplaziyası (E. Conradi, XX əsr alm. pediatrı; C. Hunermann, XX əsr alm. həkimi) – kalsiumun qırtlağın və traxeyanın qığırdaqlarına hopması, epifizin nöqtəvi kalsifikasiyası nəticəsində ətrafların assimetrik qısalması və oynaqların kontrakturası

Konsentrasiya (lat. *concentratio* bir yerə toplanma, yığılma) – 1) ayrı-ayrı komponentlərin qatılıq, sıxlıq dərəcəsi; 2) fikrin, diqqətin bir hadisə və ya obyekt üzərində cəmləşməsi

Konsentrativ boşalma – *bax:* autogen məşq

Konserv (lat. *conservo* saxlanma) –

uzun müddət saxlamaq üçün xüsusi işləmədən keçmiş qida məhsulları

Konservativ müalicə (lat. *conservativus*, *conservo* sözündən saxlamaq) – qeyri-cərrahi, dərman maddələri ilə müalicə

Konsilium (*consilium*; lat. müşavirə, müzakirə) – həkimlərin birgə məsləhətləşməsi ilə xəstəyə diaqnoz qoymaq, müalicə üsullarını müəyyənləşdirmək üçün keçirilən toplantı; nüfuzlu mütəxəssislərin keçirdiyi məsləhətləşmə

Konstitusional arefleksiya – *bax:* Eydi sindromu

Konstitusional ekzema (*eczema constitutionale*) – *bax:* diffuz neyrodermit

Konstitusional əsəbilik – *bax:* nevropatiya

Konstitusional xəstəliklər – hər hansı bir orqanı ayrı-ayrılıqda deyil, bədənin ümumi quruluşuna (konstitusiyasına), xüsusilə də qan dövranı və limfatik sistemdən ibarət olan daxili mühitə (milieu iuterieur) təsir edən və onu dəyişdirən xəstəliklərdir, məs., çiçək xəstəliyi, sifilis, alkoqolizm, irsi xəstəliklər

Konstitusional tip – bədən quruluşunun tipi

Konstitusional-involyutiv arıqlama – həkim tərəfindən dərindən aparılmış tibbi müayinə zamanı patoloji dəyişiklik tapılmadıqda, yaşlı şəxslərdə atrofik və degenerativ proseslər nəticəsində involyutiv (yaşla əlaqəli) arıqlama

Konstitusiya (*constitutio* quruluş, xassə) – orqanizmin irsi və qazanılmış, kifayət qədər davamlı morfoloji və funksional xassələrinin vahid kompleksi olub, fərdi reaktivliyi müəyyən edir

Konsultasiya (*consultatio*) – bir məsələyə dair mütəxəssisin məsləhəti

Kontaminasiya (*contaminatio*; lat. qarışma) – insanın və ya heyvanın bədəninin səthində, istehlak üçün hazırlanmış məhsulun daxilində yaxud səthində və ya digər cansız əşyalarda, o cümlədən daşıma vasitələrində olan və əhalinin səhhəti üçün risk təşkil edən infeksion yaxud toksik amillər deməkdir

Kontraktura (*contractura*; lat. *contraho, contractum* yığmaq, azaltmaq) – oynaqlarda hərəkətlərin məhdudlaşması

Kontrasepsiya (*contraceptio*) – arzuolunmaz hamiləliyin baş verməsinin qarşısının alınması üsulu

Kontraseptik vasitələr (*contraceptiva*) – hamiləliyin qarşınısı alan vasitələr

Kontrast maddələr – diaqnostika məqsədilə işlədilən preparatlar

Kontrikal *(contrykal)* – kəskin pankreatitlərdə və pankreanekrozda istifadə olunan antiproteaz ferment

Kontrofobiya – qorxu yaradan vəziyyətlərə patoloji meyllilik (məs., yüksəklikdən qorxan şəxsin təyyarəçi olmağa cəhd etməsi)

Kontuziya (*contusio*; lat. əzik, zədə) – mərmi partlayışı, uçqun və s. nəticəsində dəriyə zərər vermədən bədənin müxtəlif yerlərində əmələ gələn zədə, əziklik, şikəstlik

Konus (*conus*) – 1) zoologiyada – ilbizlər ailəsindən olan və əsasən tropik dənizlərdə yaşayan zəhərli molyusklar cinsi; 2) oftalmologiyada – *bax:* Miopik konus

Konversion pozuntu – *bax:* dissosiativ pozuntu

Konvertin – *bax:* faktor VII

Konvulsiya (lat. *convulsio*; *convello, convulsum* titrətmək, əsdirmək) – böyük əzələ qruplarını əhatə edən klonik konvulsiya

Konyunktiva (*tunica conjuntiva*; lat. *conjunctivus* birləşdirici) – göz qapaqlarının arxa səthini və göz almasını qüzehli qişaya qədər örtən nazik şəffaf təbəqə

Konyunktivanın aypara büküşü *(plica seminularis conjunctivae)* – gözün medial bucağında göz alması və göz yaşı aparatı arasında yerləşən şaquli büküş

Konyunktiva follikulyozu *(folliculosis conjunctivae)* – hər iki gözün aşağı göz qapağı büküşlərində əmələ gələn solğun-çəhrayı rəngli limfatik follikulların hiperplaziyası

Konyunktivit (*conjunctivitis*) – gözün selikli qişasının iltihabı

Adenovirus konyunktivit – triada ilə – qızdırma, faringit və irinsiz follikulyar konyunktivit simptomu ilə gedən, adenoviruslar tərəfindən törədilən konyunktivanın iltihabı

Allergik konyunktivit (c. allergica) – gözün allergena qarşı iltihabi reaksiyası

Difteriya konyunktiviti (c. diphtherica) – *corynebacterium diphteriae* tərəfindən törədilən konyunktivit

Epidemik hemorragik konyunktivit (*c. haemorrhagica epidemica*) – *bax:* hemorragik enteroviruslu konyunktivit

Fliktenuloz konyunktivit (c. phlyctaenulosa) – *bax:* vərəm-allergik konyunktivit

Hemorragik enteroviruslu konyunktivit (*c. haemorrhagica enteroviralis*; sin. kəskin hemorragik konyunktivit, epidemik hemorragik konyunktivit) – enterovis 70 (EV70) tərəfindən törədilən kəskin infeksion xəstəlik; hemorragik konyunktivitlə, bəzən isə kəllə və onurğa-beyin sinirlərinin zədələnməsi ilə təzahür edir

Kəskin hemorragik konyunktivit (*c. haemorrhagica acuta*) – *bax:* hemorragik enteroviruslu konyunktivit

Herpetik konyunktivit (*c. herpetica*) – konyunktivanın sadə herpesin dermatoneyrotrop virusu tərəfindən törədilən iltihabı

Kəskin epidemik konyunktivit (c. epidemica acuta; sin. Kox-Uiks konyunktiviti) – Kox-Uiks bakteriyası tərəfindən törədilən kəskin konyunktivit; yüksək yoluxuculuq, bol selikli-irinli ifrazatın olması və konyunktivaya qansızma ilə xarakterizə olunur

Kox-Uiks konyunktiviti – *bax:* kəskin epidemik konyunktivit

Qonokokk konyunktiviti (qonoblenoreya) (c. gonococcica) – qrammənfi diplokokkun – Neysser qonokokkunun konyunktiva boşluğuna düşməsi nəticəsində inkişaf edir

Pollinoz konyunktivit – yaz-yay aylarında bitkilərin tozcuqlarından törənən konyunktivanın iltihabı

Vərəm-allergik konyunktivit (c. tuberculosoallergica) – vərəm xəstələrində endogen toksiko-allergik səbəbdən törənən konyunktivit

Yaz konyunktiviti (*c. vernalis*) – etiologiyası tam öyrənilməmiş, erkən yaz aylarında təsadüf olunan konyunktivanın iltihabı

Koordinasiya (lat. *co* birgə, *ordinatio* qaydaya salma) – fizioloji funksiyaların müəyyən vərdişə uyğunlaşdırılması, əlaqələndirilmə

Koordinasiya pozğunluğu – *bax:* müvazinət pozğunluğu

Kopofobiya (*kopophobia*; yun. *kopos* yorğunluq) – həddindən artıq yorulmaqdan qorxma

Kopr- (kopro-; yun. *kopros* nəcis) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "nəcisə aid", "çirkli" mənasını verir

Kopremezis *(*köh.; *copremesis*; *kopr-* + yun. *emesis* qusma*)* – *bax:* nəcis qusması

Koprofagiya (*coprophagia*; *kopro-* + yun. *phagein* yemək; sin. skatofagiya) – ruhi pozğunluq: öz ifrazatını, nəcisini yemək istəyi

Koprofiliya (*coprophilia*; *kopro-* + yun. *philia* həvəs, meyl) – *bax:* skatofiliya

Koprolaliya (*coprolalia*; *kopro-* + yun. *lalia* nitq) – psixiatriyada: nalayiq sözlərin impulsiv deyilməsi

Koprolit (*coprolithus*; *kopro-* + yun. *lithos* daş) – yoğun bağırsaqda olan bərk nəcis kütləsi (daş ifrazat)

Koprologiya (yun. *kopros* peyin, nəcis, *loqos* elm) – bioloji və tibbi nöqteyi-nəzərdən nəcisin elmi öyrənilməsi

Kopromaniya (*copromania*) – *bax:* skatofiliya

Koproskopiya – nəcisin mikroskopik müayinəsi

Koprostaz (*coprostasis*) – nəcis durğunluğu, yoğun bağırsaqda nəcisin ləngiməsi

Kor ləkə (*macula caeca*) – görmə sahəsində görmə siniri diskinin proyeksiyası olan mütləq skotoma; görmə reseptorları olmayan görmə sinirinin torlu qişadan çıxan hissəsi

Kor uçuş – yer və göy (astronomik) oriyentirlərini görmədən, yalnız cihazların göstərişlərinə əsasən icra olunan uçuş

Korazol *(corazolum)* – tənəffüs və damar hərəki sistemə qıcıqlandırıcı təsir göstərən analeptik vasitə

Kordiamin *(cordiaminum)* – tənəffüs və damar hərəki sistemə qıcıqlandırıcı təsir göstərən analeptik vasitə

Korektopiya (corectopia) – bəbəyin yerdəyişməsi, bəbəyin ekssentrik vəziyyəti

Korfologiya – düşüncənin amentiv və delirioz tip pozuntusu zamanı meydana çıxan lüzumsuz hərəkətlər etmək: xəstə barmaqları ilə nə isə axtarır, paltarının düymələrini qurdalayır

Kori xəstəliyi (G. Th. Cori, 1896-1957, amer. biokimyaçı) – *bax:* qlikogenozun III tipi

Koriumkarsinoma (*coriumcarcinoma*) – *bax:* bazalioma

Korluq *(caecitas)* – hər iki gözdə işığın hiss edilməsinin davamlı pozulması; görmə qabiliyyətinin tam itməsinə qədər enməsi

Korneli de Lanq sindromu (Cornelia de Lange, 1871-1950, hol. pediatrı) – zehni geriliyin müxtəlif fiziki anomaliyalarla – mikrosefaliya, braxisefaliya, kloun üzü, ürəyin anadangəlmə qüsurları ilə birgə təsadüf olunduğu irsi xəstəlik; autosom-dominant yolla ötürülür

Koro sindromu (*koro-* etnospesifik termindir, sindrom mənasını verir) – kişilərdə cinsiyyət orqanının kiçilməkdə və ya içəriyə çəkilməkdə olduğu qorxusuna qapılmasına səbəb olan psixiatrik bir narahatlıqdır; xəstələr bunun baş verməsi halında öləcəklərinə inanırlar; xəstəlik adətən Cənubi Asiya ölkələrinin

(Hindistan, Çin ve Yaponiya) yerli əhalisi arasında yayılıb

Korofiliya (*corophilia*; yun. *kore* cavan qız + *philia* həvəs, sevgi) – gənc qızlara qarşı patoloji həvəslə xarakterizə olunan qadın homoseksualizmi

Koronar arteriya (*arteria coronaria*) – ürəyin tac arteriyası

Koronar qan dövranı vaxtı – qanın tac arteriyadan tac sinusa qədər dövr etdiyi vaxt

Koronar qan dövranının sürəti – *bax:* koronar qan dövranı vaxtı

Koronar perfuziya – ürək əməliyyatları zamanı ürəkdə regionar süni qan dövranı, bu zaman arterial qan koronar arteriyalara qovulur

Koronar şuntlama – *bax:* aorta koronar şuntlama

Koronar-serebral sindrom *(syndromum coronariocerebrale)* – koronar qan dövranının çatışmazlığı nəticəsində meydana gələn kardioserebral sindrom

Koronaroskleroz (*coronarosclerosis*) – ürəyin koronar arteriyasının sklerozu

Korpus (lat. *corpus* bir bütün) – sərbəst döyüş fəaliyyəti göstərən, bir neçə diviziya və hərbi hissələrin birləşməsi

Korrektorlar (lat. *correctio* əlavə düzəliş) – neyroleptik maddələrin mənfi təsirlərini aradan qaldırmaq üçün istifadə edilən dərman maddələri: antixolinergik preparatlar, beta-adrenoblokatorlar, antihistamin vasitələr və dig.

Korrelyasiya etmək (лат. *correlatio* qarşılıqlı əlaqə) – qarşılıqlı təsir etmək

Korroziv dərman (*corrosivus*; lat. *corrodire* yeyici, aşındırıcı) – dağıdıcı, yeyici dərman vasitələri

Korsakov sindromu (S.S. Korsakov, 1854-1900, rus psixiatrı) – hazırda baş verən hadisələrin unudulması ilə yanaşı müşahidə olunan özünü və mühiti dərk etmənin pozulması; xəstə bir neçə dəqiqə bundan əvvəl baş vermiş hadisəni, görüşdüyü adamı dərhal unudur, eyni adamlarla dəfələrlə salamlaşır, hər dəfə də onları yeni adamlar kimi qəbul edir; əsasən alkoqol psixozlarında, bəzi hallarda isə beynin orqanik xəstəliklərində təsadüf edilir

Korti hüceyrələri (A. M. Corti, 1822-1876, ital. anatomu) – spiral orqanın epitelial reseptor hüceyrələri, qıcıqları eşitmə tükləri vasitəsilə qəbul edirlər

Korti qövsləri (A.M. Corti) – spiral orqanın strukturası xarici və daxili istinad hüceyrələrindən ibarət olduğundan onların aşağı ucları bir-birindən aralı, yuxarı uclarının isə bir-birinə dəyərək yaratdığı daxili tunel

Korti orqanı (A.M. Corti) – daxili qulaqda ilbizin eşitmə sinirinin uc cihazı

Korti tuneli (A.M. Corti, 1822-1876, ital. anatomu) – spiral orqanın daxili və xarici eşitmə telləri arasındakı məsafə

Korti zarı (A.M. Corti) – eşitmə fibrin telləri hüceyrələrinin üstündə yerləşən spiral orqanın elastik lövhəciyi

Kortikal fibroz qüsur – *bax:* sümüyün qeyri-osteogen fibroması

Kortikal karsinoma (*carcinoma corticalis*) – böyrəküstü vəzin qabıq maddəsinin xərçəngi

Kortikal korluq – beyin qabığında

görmə mərkəzinin zədələnməsi nəticəsində yaranan korluq; belə xəstələr dünyanı boz rəngin çalarları şəklində görür, hər şey sanki ağ-qara bir kinofilm kimidir

Kortikal osteoid (*osteoidum corticale*) – *bax:* osteoid-osteoma

Kortiko- (lat. *cortex, corticis* qabıq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "qabığa, qabıq maddəsinə aid olan" mənasını verir

Kortikoqramma (*kortiko-* + yun. *gramma* yazı) – *bax:* elektrokortikoqramma

Kortikoplevrit (*corticopleuritis*) – *bax:* plevrogen pnevmoskleroz

Kortikospinal trakt – *bax:* piramida yolu

Kortikosteroma (*corticosteroma*) – böyrəküstü vəzinin qabıq maddəsinin artıq miqdarda qlükokortikoid hormonlar hasil edən hormonal aktiv şişi

Kortikotropin rilizinq-hormon – hipotalamusun polipeptid hormonu, hipotalamasun qarşı hissəsinə təsir göstərərək, adrenokortikotropin hormonunun sekresiyasını gücləndirir

Kortiko-visseral sindrom *(syndromum corticoviscerale)* – qabıq-qabıqaltı əlaqələrin və daxili orqanların funksiyalarının neyro-humoral tənziminin pozulması ilə əlaqədar sindromların ümumi adı

Kortizol – böyrəküstü vəzi hormonu; stress hormonudur, arterial təzyiqi və qanda qlükozanın səviyyəsini artırır

Korvalyo simptomu (J. Rivero-Corvallo) – *bax:* Rivero-Korvalyo simptomu

Kosmik təbabət – kosmik fəzanın insan orqanizminə təsirini öyrənməklə kosmik gəmi və stansiya ekipajının sağlamlığının qorunma tədbirlərinin hazırlanması ilə məşğul olan tibb sahəsi

Kosmopolitik qayıdan yatalaq – *bax:* epidemik qayıdan yatalaq

Kosten sindromu (J.B. Costen, amer. otorinolarinqoloq) – dişlərin bir-birinin üstündə düzgün oturmaması, burun boşluğunda və udlağın burun hissəsində ağrı və tutqunluq hissi, eşitmənin zəifləməsi, dildə ağrılar, başgicəllənmə, qulaqlarda küy, çənə oynağında hərəkət məhdudluğu

Kostotom – qabırğa qayçısı

Kotar sindromu (J. Cotard, 1840-1887, frans. psixiatr; sin. Kotar sayıqlaması) – insanın öz bədəninin bir hissəsinin, yaxud bütünlükdə orqanizminin məhv olduğu və artıq mövcud olmadığını zənn etməsi ilə xarakterizə edilən nadir xəstəlik; belə xəstələr ətrafda canlı heç bir insanın olmadığına və dünyanın ümumiyyətlə mövcud olmadığına da inana bilirlər; Kotar sindromu depressiv vəziyyət, hallüsinasiya və yaddaşın itirilməsi ilə bağlıdır, bəzən şizofreniyada da rast gəlinə bilər

Kotromboplastin – *bax:* faktor VII

Koylonixiya (*coilonychia*; yun. *koilos* oyuq + *onyx, onychos* dırnaq) – dırnaqların qaşığabənzər deformasiyası; dəmir çatışmazlığı nəticəsində yaranan anemiyaya dəlalət edir

Kök kanalı – *bax:* diş kökü kanalı

Kökcük sindromu *(syndromum radiculare)* – onurğa beyninin müvafiq kökcüklərinin innervasiya nahiyəsində ağrı, periferik iflic və hissiyyat pozğunluğu, vətər reflekslərinin enməsi, əzələ liflərinin səyriməsi və

əzələ atrofiyalarının birgə təzahür etməsi

Kölgə sınağı – *bax:* skiaskopiya

Köndələn gülüş simptomu – müvafiq mimik əzələlərin atrofiyası ilə gedən miopatiyanın əlaməti: güldükdə ağız bucaqlarının yuxarı dartılmaması

Könüllü donorluq – könüllü, təmənnasız yoldaş yardımı, xəstənin həyatını və sağlamlığını qoruma işinə fəxri ictimai tövhə

Köpək çuxuru *(fossa canina)* – yuxarı çənənin ön səthində olan çökəklik; ağız bucağını qaldıran əzələnin başladığı yer

Köpək dişi çuxuru *(fossa canina)* – *bax:* köpək çuxuru

Köpəşik *(urtica)* – dəridə əmələ gələn xırda qırmızı qabarıq; sızanaq

Körpücük sümüyü üstü nahiyə (*regio supraclavicularis*) – *bax:* yan boyun nahiyəsi

Körpücükaltı nahiyə (*regio infraclavicularis*) – yuxarıda körpücük sümüyü, aşağıda kişilərdə III qabırğadan keçən horizontal xətt (qadınlarda süd vəzinin yuxarı kənarı), içəridən döş sümüyünün kənarı, xaricdən deltayabənzər əzələnin ön kənarı ilə məhdudlaşan nahiyə

Körpücükaltı simptom – körpücükaltı arteriyanın okklüziyası zamanı yuxarı ətraflarda nəbzin olmaması

Kövrək dəri sindromu – epidermisin hüceyrələri arasında əlaqənin zəif olması nəticəsində hüceyrəarası məsafənin geniş olması

Kövrək X-xromosomu sindromu (ing. *fragile X syndrome*, FraX, ing. *fragile* kövrək; sin. Martin-Bell sindromu) – X xromosomunda FMR1 geninin mutasiyası nəticəsində yaranan xəstəlik; əlamətləri: oliqofreniya, xayaların iri olması, böyük və nisbətən aşağıda yerləşmiş qulaqlar, aşağı çənənin önə çıxması və səs tembrinin yüksək olması

Krabbe xəstəliyi (K.H. Krabbe, 1885-1961, danim. nevropatoloq) – əzələ toxumasının inkişafdan qalması ilə xarakterizə olunan və amiotoniya, hərəki funksiyaların inkişafdan qalması ilə təzahür edən irsi xəstəlik

Krabbe sindromu (K.H. Krabbe) – *bax:* Sterj-Veber-Krabbe sindromu

Kramer üsulu (W. Kramer, 1801-1875, alm. otorinolarinqoloqu) – Yevstax (eşitmə) borusunun kateterizasiya üsulu; kateterin yeridilməsi zamanı oriyentir kimi yumşaq damağın arxa divarı nəzərdə tutulut

Kraniofaringioma (*craniopharyngioma*) – hipofizar cibin epitelial hüceyrələrindən inkişaf edən xoşxassəli şiş

Kistoz kraniofaringioma (c. *cysticum*) – tərkibində çoxlu miqdarda zülal və xolesterin olan sarı-qonur rəngli maye ilə dolu olan və epitel ilə əhatə olunmuş boşluğu olan kraniofaringioma

Kompakt kraniofaringioma (c. *compactum*) – tərkibində kista olmayan kraniofaringioma

Kranio- (lat. *cranium* kəllə) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "kəlləyə aid" mənasını verir

Kraniodisplaziya *(craniodysplasia)* – kəllənin inkişaf anomaliyalarının ümumi adı

Kranioqrafiya – kəllə sümüklərinin rentgenoloji müayinəsi

Kraniologiya (*craniologia*) – antropologiyanın insan kəlləsinin quruluşunu öyrənən bölməsi

Kraniometriya (*craniometria*) – insan kəlləsinin ölçülərinin hesablanması

Kraniopaq (*craniopagus*) – baş nahiyəsindən bitişmiş əkizlər

Kraniosinostoz (*craniosynostosis*; yun. *cranio-* **kəllə,** *synostosis* sümüklərin bitişməsi) – kəllə tikişlərinin vaxtından tez bitişməsi; kranial tikiş və tikişlərin vaxtından əvvəl bağlanması bir tərəfdən kəllədə forma pozğunluğuna səbəb olur, digər tərəfdən, altdakı beyin toxumasının normal inkişafını dolayı yolla pozur

Kraniotabes (*craniotabes*; *kranio-* + lat. *tabes* dağılma, üzülmə) – baş-kəllə sümüklərində yumşalma; raxit xəstəliyinin simptomu

Kraniotomiya (*craniotomia*) – 1) beyin maddəsi çıxarılmaqla ölü döl başının perforasiyasından ibarət əməliyyat; 2) *bax:* trepanasiya

Kraniovertebral anomaliya *(anomalia craniovertebralis)* – birinci boyun fəqərəsinin kəllə sümüyü ilə bir- və ya ikitərəli ankiloz şəklində birləşməsində olan anadangəlmə qüsur

Kraş-sindrom (ing. *crush* sıxılma) – *bax:* travmatik toksikoz

Kraup-Pozner-Şlossman sindromu (E. Kraupa, avstr. həkim, XX əsr; A. Posner, amer. oftalmoloq, XX əsr; A.Schlossmann, 1867-1932, alm. həkimi) – *bax:* Pozner-Şlossman sindromu

Krauze cismcikləri – dəridə soyuğu hiss edən cismciklər

Kravkov-Purkinye sınağı – gözün işığı qəbuletmə qabiliyyətini yoxlamaq üçün sınaq

Kreatin (yun. *kreas, kreatos* ət) – əzələlərin mühüm azotlu üzvi maddəsi olub, əzələ yığılmasının mexanizmini təşkil edən kimyəvi proseslərdə fəal iştirak edir; sidiklə xaric edilir

Kreatinin – kreatin molekulunun anhidridi; əzələ metabolizmasının istehsalı olan bu maddə böyrəklərdən sidik vasitəsi ilə ifraz olunur, böyrək funksiyaları pozulduğu zaman kreatininin ifrazı ləngiyir və qanda səviyyəsi yüksəlir

Kreatinkinaza – kreatinin dönər fosforlaşma reaksiyasını kataliz edən ferment; kreatinkinazanın aktivliyinin müəyyən edilməsi miokard infarktının diaqnostikasında əhəmiyyət kəsb edir

Kreatinuriya *(creatinuria)* – sidikdə kreatinin olması

Krede üsulu (K.S.F. Crede, 1819-1892, alm. mama-ginekoloq) – *bax:* Matveyev-Krede üsulu

Kremasiya *(cremare)* – ölmüş şəxslərin xüsusi kremasiya sobasında yandırılması

Krenleyn əməliyyatı (R.U. Kronlein, 1847-1910, isveçrəli cərrah) – *bax:* sümük orbitotomiyası

Krepelin xəstəliyi (E. Kraepelin, 1856-1926, alm. psixiatrı) – *bax:* presenil bədxassəli melanxoliya

Krepelin sindromu (E. Kraepelin) – depressiv əhavl-ruhiyyə, ensefalopatik əlamətlərlə təzahür edən posttravmatik ipoxondrik sindrom

Krepitasiya *(crepitatio*; lat. *crepito* cırıldamaq, xırçıldamaq*)* – palpasiya və ya auskultasiya zamanı çırtıldama və ya xırtıldama hissi

Kreslo-araba – xəstənin oturaq vəziyyətdə sərbəst hərəkət etməsi üçün vasitə; üçtəkərli kreslo-arabaları xəstə əllərilə idarə edir

Kreslo-xərək – xəstələrin oturaq vəziyyətdə dar pilləkənlərdə, dəhlizlərdə, yaşayış binalarının liftlərin-

də təxliyəsi üçün, asanlıqla xərəyə çevrilən vasitə

Kretinizm (*cretinismus*) – qalxanabənzər vəzinin anadangəlmə çatışmazlığı sindromu; uşaqlarda boyatma ləngiyir, ali sinir sisteminin fəaliyyəti pozulur, borulu sümüklərin ləng inkişafına görə xəstənin bədən quruluşu qeyri-mütənasib olur

Krey-Levi sindromu (M.Creyx, frans. həkimi; J.Levy, frans. mama-ginekoloq) – irsi anomaliyalar kompleksi: burnun selikli qişasının, göz yaşının, tüpürcəyin, mədə şirəsinin hipersekresiyası, xlorid mübadiləsinin pozulması və boyun fəqərələrində kalsinatların toplanması

Kreyser *(*hol. *kruiser* məlum istiqamətdə üzmək*)* – çox sürətli böyük hərbi gəmi

Kreytsfeldt-Yakob xəstəliyi (H.G. Creutzfeldt, 1885-1964, alm. nevropatoloq və psixiatrı; A.Jakob, 1884-1931, alm. nevropatoloqu) – baş beynin neyronlarda patoloji zülal olan prionun toplanması ilə bağlı olan nadir rast gəlinən xəstəliyi; kəskin ağıl zəifliyi, nitq pozğunluqları, hallüsinasiyalar, oynaqların iflici, ekstrapiramid (nistaqm, dizartriya, ataksiya və s.) pozuntularla təzahür edir

Kriçli sindromu (M. Critchley, amer. nevropatoloq və psixiatr) – əsasən və ya yalnız musiqigenli epileptik tutmalarla təzahür edən reflektor epilepsiya

Kriko – (yun. *krikos* dairə, üzük; anat. *cartilage cricoidea* üzüyəbənzər qığırdaq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "üzüyəbənzər qığırdağa aid" mənasını verir

Krikoepiqlotopeksiya – üçüncü dərəcəli qırtlaq xərçəngi zamanı icra olunan rekonstruktiv cərrahi əməliyyat: qırtlağın kəsilib xaric edilməsi, dilin kökündən qırtlaq qapağının azad hissəsini xatırladan büküşlərin yaradılması, üzüyəbənzər qığırdağın qalan hissəsinin dilaltı sümüyün cisminə fiksə edilməsi

Krikostoma (*cricostoma; kriko-* + yun. *stoma* dəlik) – üzüyəbənzər qığırdaq və boynun yumşaq toxumalarında yaradılan və qırtlaq boşluğunu xarici mühitlə birləşdirən süni dəlik; müalicəvi manipulyasiyaların aparılması və tənəffüsün bərpa edilməsi üçün yaradılır

Krikostomiya (*cricostomia*) – cərrahi əməliyyat: krikostomanın yaradılması

Krikotomiya (*cricotomia*; *kriko-* + yun. *tome* kəsik) – cərrahi əməliyyat: üzüyəbənzər qığırdağın açılması və kəsilməsi yolu ilə qırtlağın yarılması

Krikotraxeotomiya (*cricotracheotomia*) – cərrahi əməliyyat: üzüyəbənzər qığırdaqla traxeyanın yuxarı həlqələrinin açılması və kəsilməsi; qırtlağın alt və traxeyanın üst hissəsinə giriş kimi aparılır

Kriocərrahiyyə (*cryochirurgia;* yun. *kryos* soyuq) – maye azotdan istifadə etməklə toxumalarm yerli dondurulması vasitəsilə aparılan müdaxilə

Kriodestruktor (*krio-* + lat. *destruo, destructum* dağıtmaq) – *bax:* krioterapiya üçün aparat

Kriopresipitasiya (sin. krioaferez) – sirkulyasiya edən immunokompleksələrin təyini metodu

Krioterapiya (*cryotherapia*) – karbon qazının və maye azotun soyuq formada sinir uclarına təsiri nəticəsində aparılan müalicə

Krioterapiya üçün aparat – dəri və selikli qişaların soyuq azotla müalicəsi üçün aparat

Kript- (kripto-; yun. *kryptos* gizli, *krypte* gizli yer; anat. *crypta* kripta) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "gizli", "kriptaya aid (badamcıqda, düz bağırsaqda və s.) " mənasını verir

Kriptoftalm (*cryptophthalmus*; *kript-* + yun. *ophthalmos* göz) – göz alması, göz qapaqları və göz yarığının anadangəlmə inkişafdan qalması

Kriptogen – naməlum mənşəli

Kriptokokkoz (*cryptococcosis*) – kriptokokk tərəfindən törədilən dərin mikoz, əsasən mərkəzi sinir sistemi, daha az hallarda isə ağciyər, dəri və selikli qişanın zədələnməsi ilə səciyyələnir

Kriptoqrafiya – xəstələrin yaratdığı gizli (şərti) yazı, şifr

Kriptolaliya (*kripto-* + yun. *lalia* nitq) – xəstənin özü tərəfindən yaradılan, ətrafdakıların anlaya bilmədiyi danışıq dili

Kriptomneziya (*cryptomnesia*; *kripto-* + yun. *mnesis* yaddaş) – yaddaşın pozulması, bu zaman xəstə eşitdiyi ideyanı və ya oxuduğu kitabı özününkü kimi qəbul edir

Kriptorxizm (*cryptorchismus*; *kript-* + yun. *orchis* yumurtacıq, xaya) – inkişaf anomaliyası: xayalarda yumurtanın birinin və ya ikisinin də olmaması, və ya onların inkişafının dayanması

Krist-Simens sindromu (J. Christ, 1871-1948, alm. stomatoloqu; H.W. Siemens, alm. dermatoloqu) – *bax:* Simens sindromu

Kriz (*crisis*; yun. *krisis* xəstəliyin gedişində ani dəyişiklik) – xəstənin ani ortaya çıxan, xəstəliyin mövcud simptomlarının kəskinləşməsi və ya yenilərinin əmələ gəlməsi ilə xarakterizə olunan, nisbətən qısamüddətli vəziyyəti

Adrenal kriz (c. *adrenalica*) – kəskin adrenal yetməzlik

Bağırsaq krizi (c. intestinalis, c. enteralgica) – *tabes dorsalis* və ya qurğuşunla zəhərlənmə zamanı baş verən və qarın nahiyəsində ağrılarla xarakterizə olunan kriz

Böyrəküstü kriz (c. suprarenalis; sin. adrenal kriz) – Addison xəstəliyi zamanı baş verən kriz, xəstənin ümumi vəziyyətinin ürək bulanması, qusma, ishal, zəiflik, arterial təzyiqin aşağı düşməsi ilə kəskin pisləşməsi

Damar krizi – orqan və ya sistemlərin damar tonusunun pozulması nəticəsində qan təchizatının kəskin pozulması

Hipertonik kriz (c. hypertonica) – arterial təzyiqin beyin, tac və ya böyrək qan dövranının pisləşməsi və vegetatıv simptomlarla müşayiət olunan qəfil qalxması; bir neçə saatdan bir neçə günə kimi davam edə bilər

Qırtlaq krizi (c. *laryngealis*) – *bax:* bettolepsiya

Qlaukomosiklitik kriz (c. *glaucomocyclitica*) – gözdaxili təzyiqin birtərəfli kəskin qalxması, iri presipitatların əmələ gəlməsi, buynuz qişanın ödemi ilə xarakterizə olunan kriz

Miastenik kriz (c. myasthenica) – miasteniya zamanı baş verən və nəfəsalma, udqunma, ürək fəaliyyətinin pozulması, kəskin əzələ zəifliyi ilə xarakterizə olunan kriz

Serebral kriz (c. cerebralis) – bey-

nin hər hansı bir funksiyasının pozulması ilə xarakterizə olunan kriz

Tireotoksik kriz (c. thyreotoxica) – diffuz toksik zob zamanı baş verən və hipertireoz əlamətlərinin (zəiflik, tərləmə, qusma, hipertermiya, taxikardiya və taxiaritmiya, ekzoftalm) kəskin artması ilə xarakterizə olunan kriz

Vazovaqal kriz (c. vasovagalis; lat. *vas* damar + anat. *nervus vagus* azan sinir) – *bax:* Qovers sindromu

Vestibulyar kriz (c. vestibularis) – fəqərə və bazilyar arteriyalarda qan dövranının pozulması, həmçinin araxnoidit, labirintit və digər xəstəliklər zamanı baş verən və başgicəllənmə, qulaqda səs, vestibulovegetativ reaksiyalarla xarakterizə olunan kriz

Krizanol *(crysanolum)* – tərkibində qızıl olan, əsasən revmatoidli artritlərin müalicəsində istifadə olunan preparat

Krizis halı – *bax:* krizis reaksiyası

Krizis reaksiyası – xəstənin öz halına qarşı fərdi yüksək cavab reaksiyası; belə hallar şəxsin öz həyatına xəsarət yetirməsi ilə təzahür edə bilər

Krizoderma (*chrysoderma*; yun. *chrysos* qızıl + *derma* dəri) – qızıl preparatlarının qəbulu ilə əlaqədar olaraq meydana çıxan və polimorf səpgilərlə xarakterizə olunan dermatoz

Krou simptomu (H.W.Crowe, ing. həkimi) – baş beyin sinuslarının trombozunun əlaməti: vidaci venanın birtərəfli kompressiyası gözün tor qişasının damarlarına qanın dolmasını sürətləndirir

Kruk-Aper-Qalle sindromu (A.C. Crooke, ing. endokrinoloq və patoloqu; E. Apert, 1868-1940, frans. pediatrı; A. Gallais, frans. həkimi, XX əsr) – *bax:* adrenogenital sindrom

Kruvelye-Baumqarten sindromu (J. Cruveilhier, 1791-1874, frans. patoloq və anatomu; P.C. Baumgarten, 1848-1928, alm. patoloq və anatomu) – inkişaf anomaliyası: göbək nahiyəsində görünən varikoz genişlənmiş damarlar əmələ gətirməklə qapı venoz sistemi ilə anastomozlasan göbək venasının bitişməməsi

Kruzon sindromu (L.E.O. Crouzon, 1874-1938, frans. həkimi) – fibroblastların inkişaf qüsuru, kraniosinostoz, çəpgözlülük, qısa üst dodaq, üst çənənin hipoplaziyasının təsadüf olunduğu simptomokompleks

Ksantoma *(xanthoma)* – yağ mübadiləsi pozularkən dəridə və ya digər toxumalarda əmələ gələn patoloji törəmə; dəri altına yağın toplanması

Anadangəlmə ksantoma (*x. congenita*) – əsasən südəmər uşaqların diz və dirsək oynaqları nahiyəsində bərk, sarı düyüncüklərlə gedən patoloji proses

Düyünlü ksantoma (*x. tuberosum*) – lipid mübadiləsinin pozulması ilə gedən dəri xəstəliyi

Ksantomatoz *(xanthomatosis*; sin. Kerl-Urbax xəstəliyi*)* – piy mübadiləsinin pozulması nəticəsində dəri və daxili orqanlarda xolesterin və triqliseridlərin toplanması ilə xarakterizə olunan patoloji vəziyyət

Ksantopsiya (*xanthopsia*) – əşyaların sarı rəngdə görünməsi; sarılıq və bir sıra digər patoloji hallarda müşahidə oluna bilər

Ksantoz (*xanthosis*) – *bax:* ksantomatoz

Ksenofobiya (*xenophobia*; yun. *xenos*

əcnəbi) – əcnəbilərdən, yad insanlardan qorxma

Kser- (ksero-; yun. *xeros* quru) - mürəkkəb sözlərin tərkib hissəsi olub, "quru", "quruluq" mənasını verir

Kseroderma (*xeroderma*) – «perqament» dəri

Kserodermik oliqofreniya (*oligophrenia xerodermica*) – hamiləlik zamanı ananın kifayət qədər retinol və karotin tərkibli qidalar qəbul etməməsi nəticəsində oliqofreniyanın ixtioz, görmə itiliyinin zəifləməsi, əzələ tonusunun qalxması və ümumi halsızlıqla birgə təsadüf etməsi

Kserodermiya (*xerodermia*; sin. ixtioz, kseroderma, kseroz) – ətrafların açıcı səthi və sağrı nahiyəsində dərinin quru, nahamar və xırda pulcuqların olması ilə xarakterizə olunan ixtiozun bir növü

Kseroform (*xeroformium*) – bismut təsirli büzücü maddə

Kseroradioqrafiya – *bax:* elektrorentgenoqrafiya

Kseroradioqramma – *bax:* elektrorentgenoqramma

Kserorentgenoqrafiya – *bax:* elektrorentgenoqrafiya

Kserorentgenoqramma – *bax:* elektrorentgenoqramma

Kserostomiya (*xerostomia*) – ağız suyu vəzilərinin destruksiyası, sklerozlaşması və atrofiyası nəticəsində ağızda quruluq

Kseroz (*xerosis*) – 1) dərinin patoloji quruluğu; dəri çox quru, nahamar, kobud olur, qabıq verir, dartılır, qaşınır, qızarır, səpir; 2) oftalmologiyada: buynuz qişanın mərkəzində dairəvi formada pulcuqşəkilli boz törəmənin olması

Ksifodiniya – *bax:* ksifoidalgiya

Ksifoidalgiya – xəncərəbənzər çıxıntı nahiyəsinin ağrı sindromu; döş qəfəsinin ön səthində və epiqastriyada ağrılarla müşahidə olunur, ağır yeməkdən, öskürəkdən, əyilmə və dövri hərəkətlərdən sonra ağrı artır

Ksilofobiya (*xylophobia*; sin. niktoqilofobiya) – ağac əşyalardan, meşələdən qorxma

Ku qızdırması (febris Q; Q – ing. qısaldılmış *query* qeyri-müəyyən, aydın olmayan) – atipik pnevmoniya, ümumi intoksikasiya və qızdırma ilə gedən, rikketsioz qrupundan kəskin infeksion xəstəlik; hava-damcı, alimentar və ya kontakt yolla keçir

Kukla gözü simptomu – əsasən parkinsonizm zamanı rast gəlinən, başı önə əydikdə göz almasının yuxarı, başı arxaya atdıqda isə göz almasının aşağı doğru hərəkət etməsi

Kuldoskopiya (frans. *cul-de-sac* torbanın, çantanın dibi + yun. *skopeo* müayinə etmək, müşahidə etmək) – endoskop vasitəsilə qadının kiçik çanaq orqanlarının müayinə üsulu

Kuli anemiyası (Th.B. Cooley, 1871-1945, amer. pediatr) – *bax:* böyük talassemiya

Kulikovski iynəsi (Q.Q. Kulikovski, 1890-1955, sov. otorinolarinqoloqu) – haymor cibinin punksiyası və yuyulması üçün kanyulası olan əyilmiş boruşəkilli iynə

Kulikovski zondu (Q.Q. Kulikovski) – damaq badamcıqlarının lakunalarını müayinə etmək üçün düz bucaq altında əyilmiş düyməli metallik zond

Kulikovskinin liqatura iynəsi (Q.Q. Kulikovski) – tonzillektomiyadan sonrakı dövrdə baş verən qanaxmalar zamanı damar qövslərini tikmək üçün istifadə olunan iti iynə

Kumıs – at südündən əldə edilən içki

Kumulyativ effekt – partlayışın təsirinin müəyyən istiqamətdə gücləndirilməsi; bu effektə partlayıcı maddələrdə hədəfə tərəf istiqamətlənmiş, kumulyativ çuxurcuğun yaradılması yolu ilə nail olunur

Kumulyativ təsir (lat. *kumulo* toplamaq) – dərmanların təsirlərinin toplanması

Kundrat xəstəliyi – *bax:* limfosarkomatoz

Kundrat sindromu (H. Kundrat, 1845-1893, alm. patoloqoanatom) – qoxu mərkəzlərinin inkişaf etməməsi, burun sümüklərinin ageneziyası, göz hipertelorizmi ilə təzahür edən irsi xəstəlik

Kunkel sınağı (H.G. Kunkel, amer. biokimyaçısı) – *bax:* sink sınağı

Kuper xəstəliyi (A.P. Cooper, 1768-1841, ing. cərrah və anatomu) – 1) *bax:* mastodiniya; 2) *bax:* orxialgiya

Kuperit (*cowperitis*) – bulbouretral (kuper) vəzilərinin iltihabı

Kuplen simptomu – *bax:* Kallen simptomu

Kurareyəbənzər təsir – hərəki sinir uclarının xolinoreseptorlarına təsir etməklə skelet əzələlərini boşaldan vasitələrin təsiri

Kurareyəbənzər vasitələr (*curaremimetica*) – hərəki sinirlərdən sinir impulslarının skelet əzələlərinə ötürülməsini blokada edən və bununla da onların zəifləməsinə səbəb olan dərman vasitələri

Kurşmann simptomu (H. Curschmann, 1846-1910, alm. həkimi) – aortanın anevrizması zamanı traxeyanın yerdəyişməsi

Kurşmann-Batten-Şteynert xəstəliyi (H. Curschmann, 1846-1910, alm. həkimi; F. E. Batten, 1865-1918, ing. nevropatoloqu; H. Steinert, alm. həkimi, XX əsr) – *bax:* distrofik miotoniya

Kurtade sınağı (Courtade) – birtərəfli karlığın simulyasiya edilməsinin aşkar edilməsi üsulu: müayinə olunan şəxsin eşitmə kanallarına Y-vari rezin borunun iki ucu yeridilir, sonra ona üçüncü ucunda həkimin tələffüz etdiyi sözləri təkrar etməsi təklif olunur, bu zaman borunun digər iki ucu gizlicə növbə ilə sıxılır

Kurvuazye simptomu (L. Courvoisier, 1843-1918, isveçrəli cərrah) – ümumi öd axarının mədəaltı vəzi başının şişi və ya onikibarmaq bağırsağın böyük məməciyi (Fater məməciyi) nahiyəsində olan şişlə tıxanması zamanı sarılığı olan xəstədə palpasiya edilən ağrısız öd kisəsi

Kurvuazye sindromu (L. Courvoisier) – *bax:* Bar-Pik sindromu

Kurvuazye-Terre sindromu (L. Courvoisier; L.F. Terrier, 1837-1908, frans. cərrahı) – *bax:* Bar-Pik sindromu

Kussmaul nəbzi (A. Kussmaul, 1822-1902, alm. həkimi) – paradoksal nəbz

Kussmaul-Meyr xəstəliyi (A. Kussmaul, 1822-1902, alm. həkimi; R. Meier, 1824-1888, alm. həkimi) – *bax:* düyünlü periarteriit

Kuşinq xəstəliyi (H.W. Cushing, 1869-1939, amer. neyrocərrahı) – *bax:* İsenko-Kuşinq xəstəliyi

Kuşinq sindromu (H.W. Cushing) – xəstənin ümumi görünüşündə xarakter dəyişikliklərin (ayabənzər sifət, mərkəzi piylənmə,periferik ödemlər, çiyin, ayaq və sağrı əzələlərinin atrofiyaya uğraması,

qadınlarda hirsutizm) arterial hipertenziya, osteoporoz, əzələ zəifliyi ilə birgə təzahürü; uzun müddət müəyyən xəstəliklər nəticəsində kortikosteroidlərin qəbulu nəticəsində meydana çıxır

Küret (frans. *curette*) – iti və ya küt metal ilmə şəklində olan cərrahi alət
Ginekoloji küret – uşaqlığın selikli qişasının qaşınması üçün iti, ilmə şəklində olan küret (bıçaq)
Neyrocərrahi küret – baş beyin və onurğa beyni şişlərinin kənar edilməsi üçün nəzərdə tutulmuş, iki iti ilməsi olan küret

Küretaj (frans. *curettage*) – diş əti xəstəlikləri zamanı diş əti altında olan iltihabın qaşınması

Kürək nahiyəsi *(regio scapularis)* – kürək sümüyünün arxa səthində yerləşən, yumşaq toxumalardan ibarət sahə

Küriterapiya (P. Curie, 1859-1906; M. Sktodowska-Curie, 1867-1934; radium kimyəvi elementi kəşf edən frans. fizikləri) – radiumla şüa terapiyası

Kütləşmiş perkutor səs – normadan az miqdarda hava olan zaman meydana çıxan perkutor səs

Kütləvi qırğın silahının tətbiqinin nəticələrinin ləğvi – qoşunun döyüş qabiliyyətini, arxa hissədə obyektlərin fəaliyyətini bərpa etmək, sonrakı dağıntı və itkilərin qarşısını almaq məqsədilə tədbirlər kompleksi

Küveyz (lat. *incubo, incubatum* uzanmaq, yatmaq) – vaxtından əvvəl doğulmuş uşaqların saxlanılması üçün nəzərdə tutulan və içində müəyyən dərəcədə temperatur, rütubət və havanın qaz tərkibi olan kamera

Küy *(murmur)* – bəzi orqanların funksional vəziyyətini xarakterizə edən və auskultasiya zamanı qeydə alınan səs
Bağırsaq küyü *(m. intestinale)* – bağırsaq perestaltikası zamanı möhtəviyyatın yerdəyişməsi ilə əlaqədar olaraq qarın səthində eşidilən küy
Diastolik küy *(m. diastolicum)* – bütün diastola boyunca eşidilən ürək küyü
Dolma küyü – qulaqcıq-mədəcik dəliyinin daralmaları zamanı ürək mədəciklərinin qanla dolması zamanı qeydə alınan diastolik küy
Endokardial küy – ürəkdaxili küy
Göbək küyü *(m. funiculi umbilicalis)* – hamilə qadınların göbək nahiyəsində nəbzlə sinxron eşidilən küy
Qapaq küyü *(m. valvulare)* – ürək klapanlarının zədələnmələri zamanı ürəyin hər hansı bir nahiyəsinin plevral ürək küyləri
Mezodiastolik küy *(m. mesodiastolicum)* – yalnız diastola fazasında eşidilən ürək küyü
Mezosistolik küy *(m. mesosystolicum)* – yalnız sistolanın ortasında eşidilən ürək küyü
Pansistolik küy *(m. pansystolicum)* – bütün sistola dövründə eşidilən küy
Parakardial küy *(m. paracardiale)* – ürəyin və iri damarların zədələnməsi ilə əlaqəsi olmayan, ürək tsiklinin müxtəlif fazalarında döş qəfəsi üzərində eşidilən küy
Plevrokardial küy *(m. pleurocardiale)* – ürəyin hər hansı bir nahiyəsinin plevral boşluqla sıxılması nəticəsində meydana çıxan küy
Plevroperikardial küy *(m. pleuropericardiale)* – plevroperikardial bitişmələr zamanı perikardial na-

hiyədə ürək tsikləri zamanı eşidilən, tənəffüs fazaları zamanı isə zəifləyərək itən kobud küy

Presistolik küy *(m. praesystolicum)* – qulaqcıq-mədəcik dəliyinin daralmaları zamanı diastolanın sonuna yaxın eşidilən ürək küyü

Protodiastolik küy *(m. protodiastolicum)* – əsasən aorta qapağının və ağciyər kötüyü qapağının çatışmazlığı zamanı eşidilən, ikinci ürək tonunun dərhal ardınca meydana gələn və diastola ərzində tədricən zəifləyən ürək küyü

Tənəffüs küyü *(m. respiratorium)* – havanın tənəffüs yollarında hərəkəti nəticəsində döş qəfəsi üzərində eşidilən küy

Trikuspidal küy – ürəyin üçtaylı qapağının çatışmazlığı zamanı eşidilən küy

Udma küyü *(m. deglutitionis)* – qida və ya suyu udduqdan sonra döş fəqərələri boyunca və traxeyadan sol tərəfdə, xəncərəbənzər çıxıntı və sol qabırğa qövsü arasında eşidilən küylərin ümumi adı

Kvadri – (lat. *quadri-, quattuor* **dörd) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "dörd" mənasını verir**

Kvadriparez (*quadriparesis*) – *bax:* tetraparez

Kvadriplegiya (*quadriplegia*; *kvadri-* + yun. *plege* zərbə, zədələnmə) – *bax:* tetraplegiya

Kvalimetr (lat. *qualis* keyfiyyət) – rentgen şüalarının sərtliyini ölçmək üçün cihaz

Kvaşiorkor (*kwashiorkor* Qana dövlətinin yerli əhalisinin dilində "qırmızı oğlan" deməkdir) – uşaq pellaqrası: uşaqlarda alimentar distrofiyanın ağır forması olub, protein aclığı zamanı inkişaf edir; fiziki inkişafın ləngiməsi, dəri piqmentasiyasının və bağırsaqda sorulmanın pozulmaları, psixi pozğunluqlarla xarakterizə olunur

Kverulyantlıq (lat. *querulus* daim şikayət edən) – ardıcıl olaraq ərizələr yazmaqla öz "itirilmiş haqlarını" bərpa etməyə çalışmaq

Kvinke nəbzi (H.I. Quincke, 1842-1922, alm. terapevti) – *bax:* prekapillyar nəbz

Kvinke ödemi (*oedema Quincke*) – dərinin, dəri altı birləşdirici toxumanın və ya selikli qişaların şiddətli, birdən inkişaf edən ödemi; qaşınma, temperaturun yüksəlməsi ilə müşayiət olunur, adətən bir müddət sonra özbaşına keçir; allergik və ya irsi xəstəlikdir, əsasən qadınlarda təsadüf olunur

Kvinke simptomu (H.I. Quincke) – *bax:* prekapillyar nəbz

Q

Q diski *(discus Q)* – *bax:* anizotrop disk

Qabaqcadan aparılan tibbi baxış – işə düzəlmək istəyən şəxslərin sağlamlıq vəziyyətini və düzələcəyi peşə ilə bağlı əks göstəricilərin olub-olmamasını müəyyən etmək üçün aparılan tibbi baxış

Qabarcıq *(tuberculum)* – boşluqsuz dəri morfoloji elementi

Qabıqlanma *(desquamatio)* – dəri səthindən epidermisin buynuz qişa hüceyrələrinin ayrılması

Qabırğa *(costa)* – döş qəfəsinin cüt, əyilmiş, yastı, sümük və qığırdaqdan ibarət olan 12 cüt sümüyü

Bel qabırğası (c. lumbalis) – I, na-

dir hallarda isə XI bel fəqərəsində əlavə qabırğa

Boyun qabırğası (c. cervicalis) – VII, nadir hallarda isə VI boyun fəqərəsində əlavə qabırğa

Əlavə qabırğa *(c. accessoria)* – inkişaf anomaliyası: boyun və ya bel fəqərələrindən inkişaf edən qabırğalar

Qabırğa bıçağı - cərrahi əməliyyatlarda istifadə edilən kəsici alət

Qabırğa çıxıntısı *(prosessus costarius)* – boyun və bel fəqərələrinin qabırğa rudimenti olan çıxıntıları

Qabırğa kəsiyi *(incisurae costalea)* – döş sümüyünün lateral kənarında olan döş sümüyü ilə qabırğa qığırdaqlarının birləşdiyi nahiyə

Qabırğa qığırdağının sürüşməsi sindromu – VII-X qabırğa qığırdaqlarının sürüşməsi nəticəsində qabırğaarası sümüklərin qıcıqlanması və kəskin ağrı sindromu

Qabırğa qığırdaqlarının psevdoşişi – *bax:* Titse sindromu

Qabırğa yaxınlaşdırıcı – döş qəfəsi yaralarını tikmək üçün qabırğaları yaxınlaşdıran cərrahi alət

Qabırğaaltı nahiyə *(regiohypochondriaca)* – qarnın ön-yan divarında yuxarıdan VII qabırğa qövsü, içəridən qarnın düz əzələsinin lateral kənarı, aşağıdan X qabırğanın aşağı nöqtələrini birləşdirən xətlə məhdudlaşan cüt nahiyə

Qabırğaaltı sahə *(planum subcostale)* – qabırğa qövsünün ən aşağı nöqtələrindən keçən horizontal müstəvi (qarınaltı və qarın nahiyələrinin sərhədlərinə uyğun gəlir)

Qabırğaarası neyropatiya sindromu – döş fəqərələrarası və qabırğa başı oynağı nahiyəsində sümük əlavələrinin, fəqərəarası disk yırtığının sinirləri sıxması nəticəsində yaranan ağrı

Qabırğa-divararası sinusu *(recessus costomediastinalis)* – *bax:* qabırğa-mediastinal sinus

Qabırğa-döş sümüyü sindromu – II-V qabırğa-döş sümüyü birləşməsi nahiyəsində palpasiya zamanı ağrı

Qabırğa-qığırdaq bıçağı – *bax:* qabırğa bıçağı

Qabırğa-mediastinal əyriliyi *(recessus costomediastinalis)* – *bax:* qabırğa-mediastinal sinus

Qabırğa-mediastinal sinus *(recessus costomediastinalis)* – öndən qabırğa plevrasının, arxadan mediastinal plevraya keçdiyi yerdə yerləşən vertikal plevral sinus

Qadın cinsi xromatini – qadın orqanizminin somatik hüceyrələrinin nüvələrinin periferiyasında yerləşən, üçbucaq, dairəvi və ya çubuq formal intensive rənglənən iri sahə

Qadın homoseksualizmi – iki qadın arasında cinsi əlaqə zəmininde məhəbbət hissinin yaranması

Qadın sonsuzluğu *(sterilitas feminina)*– qadının mayalanma qabiliyyətinin olmaması

Qafefobiya *(haptofobiya,sin.qaptofobiya)* – təsadüfi toxunmalardan patoloji qorxu

Qakkebuş-Geyer-Geymanoviç xəstəliyi – yaşlı şəxslərdə ağıl kəmliyi, afaziya, apraksiya və digər psixi simptomokomplekslərlə təzahür edən, əsasında əsasən, sol gicgah və təpə nahiyələrinin damar-atrofik prosesləri duran xəstəlik

Qalaktoforit *(galactophoritis)* – süd vəzi axacaqlarının iltihab prosesi olan mastit forması

Qalaktometr *(laktometr)* – südün keyfiyyətini müəyyən etmək üçün alət

Qalaktoreya *(galactorrhea)* – süd vəzindən südün axması

Qalaktosele *(galactocele)* – süd vəzinin retension kistası, südlü maye ilə dolu olan boşluq

Qalaktostaz *(galactostasis)* – uşaq əmizdirən qadının süd vəzində süd durğunluğu

Qalaktoza *(*yun. *galaktos* süd*)* – həzm traktında laktozanın parçalanmasından əmələ gəlib, qlükozaya çevrilən monosaxarid; beynin qalaktolipidlərinin, qanın və birləşdirici toxumanın qlikoproteidlərinin tərkibinə daxil olur

Qalaktoza ilə sınaq – 1) qalaktoza qəbulundan 30 və 60 dəqiqə sonar qanda şəkərin miqdarının təyininə əsasən karbohidratların bağırsaqlardan sorulmasının təyini; 2) qaraciyərdə karbohidrat mübadiləsinin müayinə üsulu (qalaktoza qəbulundan 4 saat sonar onun sidiklə xaric olmasına əsasən)

Qalakturiya – *bax:* xiluriya

Qalantamin *(galanthaminum)* – geri dönən antixolinesteraz təsir göstərən maddə

Qalaskorbin *(galascorbinum)* – askorbin turşusunun kompleks preparatı

Qalaşəkilli kəllə (*turricephalia, acrocephalia*) – *bax:* akrosefaliya

Qalazolin *(halazolinum)* – əsasən yerli təsir göstərən adrenomimetik maddə

Qalça böyrəyi – böyrəyin öz adi yerində deyil, qalça nahiyəsində yerləşməsi

Qalça-qasıq nahiyəsi – *bax:* qasıq nahiyəsi

Qalen preparatları *(Galenica)* – buxarlanma,qaynadılma,spirtdə saxlanma üsullu ilə bitkilərdən və heyvanlardan alinan preparatlar.

Qalezovski-Parino simptomokompleksi (X.Galezowski, 1832-1907, frans. oftalmoloqu; H.Parinand, 1844-1905, frans. oftalmoloqu)– *bax:* Parino konyunktiviti

Qalxan enli aorta *(aorta ascendens)* – qalxan aortanın diffuz genişlənməsindən ibarət inkişaf anomaliyası

Qalxanabənzər qığırdaq *(cartilago thyroidea)* – qırtlağın ən böyük tək qığırdağı olub, qırtlaq hündürlüyünü əmələ gətirir

Qalxanabənzər vəz follikulu *(folliculus glandulae thyroideae)* – qalxanvari vəzin struktur komponentidir, onun divarları birqatlı epiteldən təşkil olunur, boşluğunda kolloid məhlul yerləşir

Qalxanabənzər-dil axacağı *(ductus thyroglossus)* – embrional dövrdə qalxanvari vəzlə ağız boşluğunu birləşdirən, gələcəkdə reduksiya olunmadıqda sist və ya fistulların mənbəyi olan axacaq

Qalxanabənzər vəzinin istmik nahiyəsi *(isthmus glandulae thyroidea)* – qalxanvari vəzin paylarını birləşdirən ensiz orta hissəsi

Qalxanabənzər vəzinin oksifil adenoması *(sin. Qyürtle hüceyrələrinsən şiş, Qyürtle hüceyrələrindən adenoma)* – onkositlərdən ibarət qalxanabənzər vəzin adenoması

Qalxanabənzər vəzinin toksiki adenoması (*adenoma glandulae thyreoideae toxicum*; sin. Plammer xəstəliyi) – qalxanabənzər vəzinin hiperfunksiyası ilə müşayiət olunan adenoması

Qalıq hava *(aria residnal)* – *bax:* ağciyərin qalıq həcmi

Qalın böyük pərgar – bədənin köndələn ölçülərini ölçmək üçün pərgar

Qalın damcı (sin. qan damlası) – mikroskopiya üçün hazırlanmış sınaq şüşəsi üzərində qalın bərabər qatla yayılmış 2-3 damcı qan

Qalın kiçik pərgar – başın və kəllə sümüklərinin ölçülərini ölçmək üçün pərgar

Qalla xəstəliyi (W.W. Gull, 1816-1890, ing. həkimi) – *bax:* hipotireoz

Qallo sınağı – *bax:* amidopirin sınağı

Qalvanik reaksiya – *bax:* qalvanik sınaq

Qalvanik sınaq – daxili qulaq labirintinin daimi elektrik cərəyanı ilə qıcıqlanması zamanı cərəyan həlqəsinin bağlanması müşahidə olunur, qapanma zamanı nistaqm katoda tərəf, həlqənin açılması zamanı anoda tərəf olur, əsasən vestibulyar aparatın müayinə metodudur

Qalvanizasiya – aşağı gərginlikli (30-80 V) və güclü elektrik (50 mA) cərəyanının müalicə məqsədilə tibdə tətbiqi

Qalvanoionoterapiya *(galvanoionotherapia)* – *bax:* dərman elektroforezi

Qalvanokaustika *(galvanocaustica)* – *bax:* elektrokaustika

Qalvanokauter *(galvanocauterio)* – *bax:* elektrokauter

Qalvanometr (*galvanometro*) – bir çox tibbi alətlərin tərkibinə daxil olan, elektrik cərəyanın güc və gərginliyini ölçən cihaz

Qalvanotermiya – *bax:* elektrokaustika

Qalvanopunktura *(galvanopunctura)* – *bax:* elektropunktura

Qalvanoterapiya *(galvanotherapie)* – sabit elektrik cərəyanı ilə müalicə

Qamaksofobiya – *bax:* amaksofobiya

Qamaşi – əməliyyat stolunda xəstənin ayağına geyindirilən corab

Qamet *(gamete)* – cinsi hüceyrə

Qamma-aminoyağ turşusu *(Acidum gammaaminobutyricum)* – beyin hüceyrəsinin təbii metoboliti ,mərkəzi sinir sisteminin əsas neyromediatorudur (QAYT preparatları damargenişləndirici dərman vasitəsi kimi istifadə olunur)

Qamma-ingibitor – qan zərdabının qamma-qlobulin fraksiyasının tərkibinə daxil olub, ortomikso virusların aktivliyini ləngidən termostabil mukoproteid

Qamma-kamera *(gamma camera)* – orqanizmə əvvəlcədən yeridilmiş radioaktiv izotopların paylanmasının qrafik qeydiyyatını aparan cihaz, əsasən insanlarda onkoloji və ürək-damar sistemlərin xəstəliklərinin diaqnostikası üçündür

Qamma-kardioqrafiya *(gamma cardiography)* – ürək fəaliyyətinin qamma-kardioqraf vasitəsilə skanə edilməsi ilə müayinəsi

Qamma-kardioqramma *(gamma cardiogram)* – ürəyin qamma-kardioqrafiya ilə fotoşəklinin çəkilməsi

Qamma-şüalanma (*radiatiogamma*) – atom nüvələrinin energetik vəziyyətinin dəyişməsi nəticəsində bioloji təsirə malik foton şüalanma

Qamstorp xəstəliyi (I. Gamstorp, İsveç pediatrı) – qanda kaliumun miqdarının kəskin artması nəticəsində meydana çıxan əzələ zəifliyi

Qan bulağı fenomeni – *bax:* nöqtəvari qanaxma fenomeni (sin. Auspitz Phanomen; Auspits simptomu)

Qan damarı *(vasa sanguineum)* – mənfəzindən qan axan damar (arteriya, arteriola, kapillyar, vena, venula)

Qan dövranı çatışmazlığı *(insufficientia circulationis sanguinis)* – orqan və toxumaların qan dövranının pozulmasına və qanın damar hövzələrində patoloji paylanmasına səbəb olan hemodinamik pozğunluqlar (məs., ürək çatışmazlığı, damar çatışmazlığı və qan dövranının mexaniki pozulmaları zamanı təsadüf olunur)

Qan dövranının kəskin pozulması sindromu – kəskin qanitirmə zamanı baş verir

Qan hüceyrələrinin konduktotermik sayğacı – *bax:* elektrohemoskop

Qan *(sanguis, haema)* – qan damarları ilə fasiləsiz hərəkət edən orqanizmin maye toxuması

Qan qrupu (*blood group*) – qanın normal immunogenetik əlamətləri (eritrositlərin izoantigen strukturu və antieritrositar anticisimlərin təbii spesifikliyi)

Birinci qan qrupu (I (0)) – eritrositlərdə A və B sistemi izoanticismlərinin olmaması ilə xarakterizə olunan qan qrupu

İkinci qan qrupu (II (A)) – eritrositlərdə A sistemi izoanticismlərinin olması ilə xarakterizə olunan qan qrupu

Üçüncü qan qrupu (III (B)) – eritrositlərdə B sistemi izoanticismlərinin olması ilə xarakterizə olunan qan qrupu

Dördüncü qan qrupu (IV (AB)) – eritrositlərdə A və B sistemi izoanticismlərinin olması ilə xarakterizə olunan qan qrupu

Qan şişi – *bax:* hematoma

Qan təchizatı – orqan və toxumalara arterial qanın daxil olması

Qan tədarükü dəstəsi – konservləşdirilmiş qan tədarükü ilə məşğul olur

Qanadabənzər boyun (*pterygium colli*) – *bax:* pterigium sindromu

Qanadabənzər sindrom – *bax:* pterigium sindromu

Qanad-damaq düyünü sindromu *(ganglion pterygopalatinum sindromu)* – *bax:* Slader simptomokompleksi

Qanaxma *(haemorrhagia)* – qan damarının bu və ya digər səbəbdən tamlığının pozulması nəticəsində dəri səthinə, bədən boşluqlarına, boşluqlu üzvlərin daxilinə qanın axması

Arterial qanaxma (*h. arteriorum*) – arterial qan damarının bütövlüyünün pozulması nəticəsində baş verən qanaxma

Birincili qanaxma (*h. primitiva*) – qan damarlarının zədələnməsindən bilavasitə sonra başlanan qanaxma

Burun qanaxması (*epistaxis*) – burun boşluğuna qanaxma

Daxili qanaxma (*h. interna*) – boşluqlu orqanların, havalı orqanların daxilinə, toxuma arasına qan axması

Erkən ikincili qanaxma (*h. secundaria praecox*) – zədələnmədən və ya əməliyyatdan bir neçə saatdan bir sutkaya qədərki dövrdə baş verən qanaxma

Fizioloji qanaxma (*h. physiologica*) – orqanizmin fizioloji halına görə baş verən qanaxma

Gecikmiş ikincili qanaxma (*h. secundaria tarda*) – zədələnmədən və ya əməliyyatdan bir sutka sonra baş verən qanaxma

Gizli qanaxma (*h. latenta*) – daxili orqanların xəstəliyi nəticəsində damcı-damcı sızan, gözlə görünməyən qanaxma

Xarici qanaxma (*h. externa*) – qanın dəri və ya selikli qişaya axması
İkincili qanaxma (*h. secundaria*) – zədələnmədən və ya əməliyyatdan bir neçə saat sonra baş verən qanaxma
Qeyri-travmatik qanaxma (*h. nontraumatic*) – hər hansı patoloji prosesin nəticəsində damar divarının tamlığının pozulması səbəbindən qanın axması
Labüd qanaxma – cift gəlişi zamanı təsadüf olunan qanaxma
Mexaniki qanaxma – qan damarının travma nəticəsində zədələnməsi zamanı baş verən qanaxma
Neyrotrofik qanaxma – qan damarının tamlığının patoloji proses nəticəsində pozulmasından baş verən qanaxma
Parenximatoz qanaxma (*h. parenchymatosa*) – parenximatoz orqanların zədələnməsi nəticəsində baş verən qanaxma
Profuz qanaxma (*h. profusum*) – güclü qanaxma
Travmatik qanaxma (*h. traumatic*) – damarın mexaniki zədələnməsi nəticəsində qanın axması
Venoz qanaxma (*h.venosa*) – venoz qan damarının bütövlüyünün pozulması nəticəsində baş verən qanaxma

Qanaxmanın müvəqqəti dayandırılması – xəstəni və ya yaralını növbəti təxliyyə mərhələsinə ötürmək və ya radikal cərrahi əməliyyata hazırlamaq məqsədilə icra olunan, lakin növbəti qanaxma təhlükəsinin qarşısını almayan tədbir

Qanaxmanın tam dayandırılması – qanaxma mənbəyini aradan qaldırmağa imkan verən müdaxilə ilə qanaxmanın dayandırılması (məs., liqaturanın qoyulması, cırılmış parenximatoz orqanın tikilməsi)

Qanaxmanı dayandıran vasitələr (*haemostatica*) – qanaxmanı dayandırma xüsusiyyətinə malik olan dərman vasitələri (*vikasol, hemostatic süngər, trombin*)

Qanburaxma *(missio sanguinis)* – venadan qanın götürülməsi ilə aparılan müalicə metodu

Qanın antihistamin faktoru – qan zərdabının histamini *in vitro* inaktivləşdirmək qabiliyyəti olan maddəsi

Qanın eksfuziyası *(exfusio sanguinis)* – qanın qan damarından götürülməsi, mübadilə qanköçürülməsi zamanı

Qanın eksposivliyi *(expono)* – qanın depolardan ümumi qan dövranına daxil olması

Qanın laxtalanma müddəti *(dies continens concretionis)* – qanın *in vitro* müayinəsinə başlanılan andan qan laxtasının əmələ gələn anına qədər olan müddət, laxtalanma sisteminin aktiv göstəricisi

Qanın plazması *(plasma sanguinis)* – qanın formalı elementlərini xaric etdikdən sonra yerdə qalan hissəsi

Qanın reinfuziyası (reinfusio sanguinis) – *bax:* geriyə qanköçürmə

Qanın retransfuziyası (retransfusio sanguinis) – *bax:* geriyə qanköçürmə

Qanın stabilizatoru (stabilisator sanguinis) – orqanizmdən alınmış qana onun laxtalanmasının qarşısını almaq üçün əlavə edilən maddə

Qanitirmə – orqanizmin qanaxma və ya qanburaxma nəticəsində qanının bir hissəsini itirməsi
Dekompensəolunmuş qanitirmə – beyinin kəskin hipoksiyasına, dövr

edən qanın miqdarının kəskin azalmasına səbəb olan qanitirmə

Qanköçürmə *(transfusio sanguinis, haemotransfusio)* – donordan və ya respientin özündən götürülmüş qanın xəstəyə köçürülməsi

Axınla qanköçürmə – qanın fasiləsiz axınla (öz axını ilə və təzyiq altında) köçürülməsi

Damcı üsulu ilə qanköçürmə – sistem dəsti vasitəsi ilə ayrı-ayrı damcılarla venadaxili qanköçürmə

Geriyə qanköçürmə (*retransfusio sanguinis)* – cərrahi əməliyyat zamanı xəstənin seroz boşluğuna yığılmış qanın yenidən özünə köçürülməsi

Massiv qanköçürmə – xəstənin dövr edən qanının 30%-dən çox miqdarda qanköçürmə

Mübadilə qanköçürməsi *(h. substituta)* – resipiyentin müəyyən miqdar qanının eyni miqdar donor qanı ilə əvəz edilməklə icra olunan qanköçürmə

Sümükdaxili qanköçürmə *(h. intraossea)* – resipiyentin sümüyünün süngəri maddəsinə qanköçürmə

Ürəkdaxili qanköçürmə *(h. intracardialis)* – resipiyentin sol mədəciyinə qanköçürmə; digər qanköçürmə üsulları uğursuz olduğu halda tətbiq edilir

Vasitəli qanköçürmə *(h. indirecta)* – donordan götürülərək stabilizasiya və ya konservasiya edildikdən sonra xəstəyə qanın köçürülməsi

Vasitəsiz qanköçürmə *(h. directa)* – qanın donordan birbaşa respiyentə köçürülməsi

Venadaxili qanköçürmə *(h. intravenosa)* – resipiyentin iri venalarından birinə qanköçürmə

Qanqliektomiya (ganglioektomiya) – *bax:* qanqlionar simpatektomiya

Qanqlion (*ganglion*) – sinirlərin yolunda yerləşən və birləşdirici toxuma ilə əhatə olunan kapsulda neyronların məhdudlaşmış yığımı

Arnold qanqlionu (*g. Arnoldi,* F.Arnold, 1803-1890, alm. anatomu) – 1) orta ürək qanqlionu; 2) *bax:* qulaq qanqlionu; 3) *bax:* daxili qanqlion

Aşağı qanqlion (*g. inferius*) – gicgah sümüyü piramidasının aşağı səthində, daşlıq çuxurda yerləşən dil-udlaq sinirinin hissi qanqlionu

Ayaqcıqlararası qanqlion (köh., *g. interpedunculare*) – *bax:* ayaqcıqlararası nüvə

Bazal qanqlion (köh. *g. basale*) – *bax:* bazal nüvə

Daxili qanqlion (*g. splanchnicum)* – böyük kəllə sinirinin diafraqmaya daxil olduğu yerdə yerləşən simpatik qanqlion

Daşlıq qanqlionu (*g. petrosum*) – *bax:* aşağı qanqlion

Dəhliz qanqlionu (*g. vestibulare,* sin. Skarp qanqlionu) – daxili qulaq keçəcəyində yerləşən dəhliz-ilbiz sinirinin hissi qanqlionu

Əsas sümük-damaq qanqlionu – *bax:* qanad-damaq qanqlionu

İlbizin spiral qanqlionu – *bax:* Korti qanqlionu

Kəllə xarici qanqlion (*g. extracraniale*) – *bax:* aşağı qanqlion

Korti qanqlionu (*g. Corti, A.M. Corti, 1822-1876, italyan, histoloq*) – daxili qulaq labirintində, ilbizin spiral lövhəsində yerləşən dəhliz-ilbiz sinirinin dəhliz hissəsinin hissi qanqlionu

Kranial qırtlaq siniri qanqlionu (*g. nervi laryngei cranialis*) – yuxarı

qırtlaq sinirinin qalınlığında rast gəlinən və həmişə təsadüf olunmayan hissi qanqlion

Qanad-damaq qanqlionu (*g. pterygopalatinum*) – qanad-damaq çuxurunda yerləşən parasimpatik qanqlion

Simpatik qanqlion (*g. sympathicum*) – vegetativ sinir sisteminin simpatik hissəsinə daxil olan vegetativ qanqlion

Skarp qanqlionu (*g. Scarpae, A.Scarpa, 1752-1832, italyan, anatom*) – daxili qulaq keçəcəində yerləşən dəhliz-ilbiz sinirinin hissi qanqlionu

Təbil qanqlionu (*g. tympanicum*) – təbil boşluğunun medial divarına söykənən, təbil sinirinin hissi qanqlionu

Qanqlionar lövhənin zolağı – yeni baş beyin qabığının B qatının V mieloarxitektonik sahəsinə uyğun gələn üfüqi yerləşmiş mielin liflər toplusu

Qanqlionektomiya *(gangliitis ectomy)* – sinir düyününün cərrahi yolla xaric edilməsi

Qanqlionit *(ganglionitis)* – sinir düyününün iltihabı

Qanqlizoidoz (gangliozidoz) – əsasən sinir sistemində qanqliozidlərin toplanması ilə müşahidə olan xəstəliklər qrupu

Qanqrena *(gangraena)* – ölmüş toxumanın mumifikasiya olması və ya çüründülü parçalanması ilə nəticələnən nekroz forması

Diabetik qanqrena (*g. diabetica*) – ağır şəkərli diabet zamanı turşu-qələvi tarazlığı və karbohidrat mübadiləsində baş verən ciddi pozğunluqlar nəticəsində inkişaf edən yaş qanqrena

Qazlı qanqrena (*g. gasea*) – qanqrenin ən təhlükəli növü hesab edilir; ağır qəzalar zamanı zədələnmiş yerin iltihabı nəticəsində yaraya aneorob bakteriyaların yoluxması nəticəsində əmələ gəlir; zədələnmiş toxumaların hüceyrə balansı pozulduğu üçün toxuma nekrozlaşır və burada şişkin, qazla dolu qovuqcuqlar yaranır, ağırlaşma zamanı həmin toxumalar amputasiya edilir

Qocalıq qanqrenası (*g. senilis*) – yaşlılıq dövründə qan dövranının və sinir trofikasının yerli və ümumi aterosklerotik pozğunluqları ilə əlaqədar baş verir

Quru qanqrena (*g. sicca*) – toxumalara qan axını birdən kəsildikdə və toxumalar quruduqda başlayır; çürümüş toxuma bərkiyir, büzüşür, tünd-qəhvəyi, yaxud qara rəng alır; toxumalar kənarlardan mərkəzə doğru ölgünləşir, bir müddətdən sonra, ölgün hissə ilə sağlam toxuma sərhədində reaktiv iltihab başlayır və ölgün hissənin qopması ilə nəticələnir

Senil qanqrena (*g. senilis*) – qocalıq qanqrenası

Yaş qanqrena (*g. humida*) – zədəli sahə boz-qonur rəng alır, toxumalar şişir, həcmi böyüyür, yumşaq kütləyə çevrilir, getdikcə çürüyür, ölgün toxumalar bədəndən ayrılır; orqanizm zəif olduqda çürümə məhsulları qana keçib qan iltihabı ilə - sepsislə nəticələnir (bu şəkərli diabet xəstələrində daha çox təsadüf edilir); zədəli toxumaların üst qatının həssaslığı itir, dəridə ağrı olur, temperatur yüksəlir

Qansen çöpləri (Hansens Bacillus; G.A.Hansen, 1841-1912, norveç epidemioloqu) – *bax:* cüzam çöpləri

Qansen xəstəliyi (*morbus Hanseni*; G.A. Hansen) – *bax:* cüzam

Qanseniaz *(ganzeniaz)* – *bax:* cüzam

Qalxanabənzər-dil axacağı (*ductus thyroglossus*) – *bax:* Hiss kanalı

Qastrokardial sindrom (*gastrocardiac syndrome*) – *bax:* Remxeld sindromu

Qansenoz (*ganzenoz*) – *bax:* cüzam

Qansızma *(haemorrhagia)* – damarlardan sızılan qanın toxuma və ya boşluqlarda toplanması

Beyindaxili qansızma (*h. intracerebralis*) – travma anında beyindaxili damarların cırılması və beyindaxili qan dövranının kəskin pozulması nəticəsində beyində baş verən qansızmalar; beyin maddəsində hematoma və ya hemorragik yumşalma ocağı şəklində baş verən qansızma

Boşluqdaxili qansızma (*h. cavalis*) – damarlardan sızılan qanın qarın boşluğuna, plevra boşluğuna və perikard boşluğuna toplanması

Epidural qansızma (*h. epiduralis*) – travma nəticəsində sərt beyin qişası ilə sümüyün arasında əmələ gəlir; mənbəyi qişa arteriyasının şaxələri, sərt beyin qişasının xarici səthinin venaları və diploe venaları, venaların sinuslarıdır; kəllədaxili təzyiqin yüksəlməsi nəticəsində meydana çıxan epidural qansızmalar çəpgözlülük, ptoz, göz almalarının axın hərəkəti, bəbəklərin daralması və ya genəlməsi, nəbzin yavaşıması, tənəffüsün pozulması ilə özünü göstərir

Kəllədaxili qansızma (*h. intracranialis*) – damarlardan sızılan qanın kəllə boşluğuna toplanması

Mədəcikdaxili qansızma (*h. ventricularis*) – baş beyin mədəciklərində baş verən qansızma

Nöqtəvari qansızma (*h. punctata*) – *bax:* petexiya

Petexial qansızma (*h. petechialis*) – *bax:* petexiya

Subaraxnoidal qansızma (*h. subarachnoidalis*) – beynin subaraxnoidal sahəyə – beyinlə onu əhatə edən yumşaq selikli qişanın arasındakı sahəyə qansızma

Subdural qansızma (*h. subduralis*) – baş beyin və ya onurğa beyninin subdural sahəsində baş verən qansızma

Qanzer sindromu (*Ganser syndrome*; S. Ganser, 1853-1931, alm. psixiatrı) – ruhi sarsıntıdan sonra yaranan, kifayət qədər savadı olan şəxsin ən elementar suallara belə cavab verə bilməməsi

Qapaq çatışmazlığı *(defectus vulvularis)* – ürəyin iki və ya üçtaylı qapaqlarından birinin qüsuru

Qapaq qüsuru – *bax:* qapaq çatışmazlığı

Qapalı tıntınlıq *(rhinolalia clausa)* – fonasiya zamanı burnun parez və ya iflici zamanı damaq pərdəsi ilə ağız-udlaqdan ayrılmaması nəticəsində səsin tutqunçalarlı olması

Qapanmış insan sindromu *(locked-in syndrome)* – bulbar, mimik və çeynəmə əzələlərinin iflici nəticəsində ətraf mühitə adekvat reaksiyanın olmaması

Qapayıcı sinir sindromu *(syndromum nervi obturatorii)* – qapayıcı sinirin zədələnmələri zamanı budu yaxınlaşdıran əzələnin iflici və budun daxili səthində hissiyyat pozğunluğunun birgə təzahürü

Qaplomikoz *(gaplomikoz)* – *bax:* adiaspiromikoz

Qara maddə *(substantia nigra)* – ekstrapiramid sistemin böyük beyin ayaqcığında yerləşən, tərkibində melanin olan sinir hüceyrələrindən ibarət olan nüvəsi

Qaraciyər *(hepar)* – qarın boşluğunda sağ qabırğaaltı nahiyədə diafraqmanın altında yerləşən, öd əmələ gətirmə, toksik maddələri zərərsizləşdirmə və maddələr mübadiləsini tənzim etmə funksiyasını icra edən həzm sistemi orqanı

Böyük alabəzək qaraciyər *(h. magnum varium)* – toksik distrofiyanın başlanğıc fazalarına uyğun gələn, normal parenximası və müxtəlif qansızma ocaqlarının bir-birini əvəz etməsi ilə fərqlənən ölçüləri böyümüş qaraciyər

Böyük düyünlü qaraciyər *(h. magnum tuberosum)* – postnekrotik, ölçüləri böyümüş, səthi nahamar olan qaraciyər

Durğun qaraciyər *(h. congestivum)* – venoz hiperemiya zamanı ölçüləri böyümüş, qaraciyər paylarının mərkəzi hissəsində kapillyarların qanla dolması nəticəsində alabəzək xarakter almış qaraciyər

Qaz qaraciyəri *(h. anserinum)* – piy distrofiyası üçün xarakterik olan, bircinsli sarımtıl rəngli, ölçüləri böyümüş qaraciyər

Muskat qaraciyər (*h. moschatum*) – *bax:* durğunluq qaraciyəri

Paylı qaraciyər *(h. lobatum)* – sifilisin III dövrü üçün xarakter olan, anatomik bölgüyə uyğun olmayan çoxsaylı paylara bölünmüş, kəskin deformasiyaya uğramış qaraciyər

Silisiumlu qaraciyər *(h. silicium)* – anadangəlmə sifilis zamanı təsadüf olunan, silisium turşusunun hopması nəticəsində bozumtul-qəhvəyi rəng almış, daş konsistensiyalı, səthi xırdaqabarlı qaraciyər

Şirəli qaraciyər – xroniki poliserozitlər üçün xarakter olan zülalların hopması nəticəsində kapsulu ağımtıl süd rəngə boyanmış, qalınlaşmış qaraciyər

Qaraciyər çatışmazlığı *(hepatic insufficientia)* – qaraciyər funksiyasının pozulması nəticəsində meydana gələn simptomokompleks

Qaraciyər fibrozu *(fibrosis hepatis)* – qaraciyər parenximasında serrozdan fərqli olaraq qaraciyər venaları ilə qan axınının pozulmasına səbəb olmadan inkişaf edən fibroz

Qaraciyər infantilizmi – *bax:* qaraciyər raxiti

Qaraciyər kisəsi *(bursa hepatica)* – qaraciyərin sağ payı ilə parietal periton arasında qalan, yuxarıdan diafraqma, soldan orağabənzər, sağdan qaraciyərin tac bağı ilə, aşağıdan köndələn çənbər bağırsaqla məhdudlaşan yarığabənzər sahə

Qaraciyərin kəskin sarı distrofiyası (*dystrophia hepatis flava*) – qaraciyər hüceyrələrinin piy və zülal tərkibli toxumalarla əvəz olunması ilə təzahür edən, sarılıqla müşayiət olunan kəskin xəstəlik

Qaraciyər kütlüyü – qarnın sağ yan və ön nahiyəsində yerləşən, qaraciyər proyeksiyasına uyğun gələn və üzərində kütləşmiş perkutor səs ayırd edilən nahiyə

Qaraciyərin qırmızı distrofiyası (*dystrophia hepatis rubra*) – qaraciyərin toksiki distrofiyasının nekroz ocaqlarının mərkəzdən periferiyaya doğru yayılması, qaraciyər toxumasının parçalanması ilə xarakterizə olunan mərhələsi

Qaraciyər nəbzi *(pulsus hepaticus)*

– ürək fəaliyyəti ilə əlaqədar qaraciyər həcminin ritmik dəyişməsi

Qaraciyər psevdohemofiliyası *(pseudohaemophilia hepatica)* – qanda protrombinin miqdarının az olması nəticəsində qaraciyər sirrozu zamanı rast gəlinən psevdohemofiliya

Qaraciyər sarılığı *(icterus hepaticus)* – hepatositlərin zədələnməsi nəticəsində yaranan sarılıq (qanda düz və dolayı bilirubinin, sidikdə urobilinin, nəcisdə sterkobilinin artması)

Qaraciyər seqmenti *(segmentum hepatis)* – qaraciyərin, qapı venasının iri şaxəsi və onu müşayiət edən qaraciyər arteriyası, öd axarına müvafiq hissəsi (8 ədəd daimi qaraciyər seqmenti var)

Qaraciyər sirrozu *(cirrhosis hepatis)* – qaraciyər parenximasının distrofiya və nekrozu ilə gedən, parenximada düyünlü regenerasiya və diffuz olaraq birləşdirici toxumanın əmələ gəlməsi ilə müşayiət olunan proqressivləşən xroniki xəstəlik

Dekompensə olunmuş qaraciyər sirrozu (*c. hepatis decompensata*) – qaraciyər çatışmazlığı əlamətlərinin kəskin ifadə olunduğu qaraciyər sirrozu

Həqiqi qaraciyər sirrozu – *bax:* qaraciyər sirrozu

Kompensə olunmuş qaraciyər sirrozu (*c. hepatis compensata*) – qaraciyər çatışmazlığı əlamətlərinin qeyd olunmadığı qaraciyər sirrozu

Qaraciyərin alkoqol sirrozu (*c. hepatis alcoholica*) – xroniki alkoqol intoksikasiyaları zamanı inkişaf edən qaraciyər sirrozu

Qaraciyərin anadangəlmə biliar sirrozu (*c. hepatis biliaris congenita*) – yenidoğulmuşlarda qaraciyərdən xaric öd yollarının anadangəlmə atreziyası nəticəsində inkişaf edən qaraciyər sirrozu

Qaraciyərin Ano sirrozu (V.Ch. Hanat, 1844-1896, frans. terapevti) – *bax:* qaraciyərin biliar sirrozu

Qaraciyərin biliar sirrozu (*c. hepatis biliaris*) – öd yollarında iltihabi proses və öd durğunluğu nəticəsində inkişaf edən qaraciyər sirrozu

Qaraciyərin bürünc sirrozu (*c. hepatis bronzea*) – xromoproteid mübadiləsinin pozulması nəticəsində qaraciyər toxumasında hemosiderin, lipofussin və melaninin toplanması nəticəsində inkişaf edən qaraciyər sirrozu

Qaraciyərin xırdadüyünlü sirrozu – *bax:* qaraciyərin alkoqol sirrozu

Qaraciyərin xolangiolitik sirrozu (*c. hepatis cholangiolytica*) – *bax:* qaraciyərin biliar sirrozu

Qaraciyərin iridüyünlü sirrozu (*cirrhosis coarse nodular*) – qaraciyərin virus etiologiyalı sirrozu

Qaraciyərin ksantomatoz sirrozu (c. hepatis xanthomatotica) – *bax:* Tannhauzerin qaraciyər sirrozu

Qaraciyərin Pik sirrozu – *bax:* qaraciyərin Pik psevdosirrozu

Monolobar qaraciyər sirrozu (*c. hepatis monolobaris*) – morfoloji dəyişikliyin qaraciyərin yalnız bir payında aşkar edildiyi qaraciyər sirrozu

Qaraciyər zəhəri – *bax:* hepatotrop zəhər

Qaraciyəraltı blok – qapı venasının kənardan inkişaf edən şişlər və ya metastazlar vasitəsi ilə sıxılmasından assitin yaranması

Qaraciyər-böyrək sindromu (*syndromum hepatorenale*) – *bax:* hepatorenal sindrom

Qaraciyərdaxili blok – qaraciyər sir-

rozu və qaraciyər xərçəngi zamanı assitin yaranması, qida borusu, qarnın ön divarlarının venalarının varikoz genəlməsi

Qaraciyər-dalaq sindromu (*syndromum hepatorenale*) – *bax:* hepatolienal sindrom

Qaraciyərdənxaric öd axarı (*intrahepatic ductus*) – iki qaraciyər axarı, ümumi qaraciyər axarı, öd kisəsi axarı və ümumi öd axarları

Qaraciyərin Pik psevdosirrozu (*pseudocirrose de Pick*, F.Pick, 1867-1926, çex. həkim) – konstriktiv perikardit zamanı yuxarı boş venanın sıxılması nəticəsində meydana gələn portal hipertenziya, qaraciyər venalarının genişlənməsi, assit, qaraciyərin fibroz dəyişikliyi ilə gedən sindrom

Qaraciyərin yayılmış teleangiektaziyası (*teleangiectasia hepatis disseminata*) – əsas etibarilə qaraciyərdə yerləşən çoxsaylı teleangiektaziya; Osler-Randyu sindromunun bir variantı

Qaraciyərüstü blok – yapışan perikardit və sağ mədəcik qan dövranının çatışmazlığı zamanı hepatomeqaliya və davamlı assit

Qarayara *(anthrax)* – dəri, limfatik düyünlər və daxili orqanlarda əksər hallarda spesifik karbunkul törətməklə gedən, ümumi intoksikasiya və seroz-hemorragik iltihab əlamətləri ilə xarakterizə olunan kəskin bakterial zoonoz infeksiya

Qarayara bassili *(bacillus anthracis)* – qarayaranın törədicisi olan hərəkətsiz qrammənfi, spor əmələgətirən bakteriya

Qarayara çöpləri – *bax:* qarayara bassili

Qardner simptomu (E.J. Gardner, 1909-1989, amer. genetik) – nazik və çənbər bağırsağın dəri və sümüklərin xoşxassəli şişləri (fibroma, lipoma, osteoma) ilə birgə təsadüf olunan çoxsaylı polipozu ilə xarakterizə olunan irsi xəstəlik

Qardner-Terner sindromu (W.J. Gardner, O.Turner, amer. neyrocərrahlar) – dəhliz-ilbiz sinirinin irsi ikitərəfli nevrinomasının (n. statoacusticus) əlamətləri: qulaqda küy və müvazinətin pozulması, eşitmə pozğunluğu 5-10 il ərzində inkişaf edərək tam karlığa gətirib çıxarır; xəstəlik 30 yaşa qədər təzahür edir

Qarel simptomu (J.Garel, 1852-1931, frans. həkimi) – haymorit zamanı diafonoskopiya etdikdə işığa qeyri-həssaslıq

Qarel-Bürger simptomu (Garel-Burger) – *bax:* Qarel simptomu

Qarın yatalağı *(typhus abdominalis)* – salmonellalar tərəfindən törədilən, əsasən nazik bağırsağın limfatik aparatını zədələyən, qaraciyər və dalağın böyüməsi ilə gedən, ümumi intoksikasiya əlamətləri olan infeksion xəstəlik

Qarın yatalağı çöpləri – *Enterobacteriaceae* ailəsinin Salmonella cinsindən olan hərəkətli, qram (+), insanda qarın yatalağı xəstəliyi yaradan, endotoksin hasil edən bakteriya

Qarınaltı nahiyə (*regio hypogastrica*) – *bax:* hipoqastrium

Qarındaxili təzyiq *(tensio intraabdominalis)* – qarın boşluğunda yerləşən orqan və mayelərin qarın divarına göstərdiyi təzyiq

Qarın-qasıq halqası (*annulus inguinalis abdominalis*) – *bax:* dərin qasıq halqası

Qarınüstü nahiyə (*epigastrium*) – yuxarıdan diafraqma, aşağıdan X

qabırğaların aşağı nöqtələrini birləşdirən üfüqi xətt arasında qalan nahiyə

Qarışıq ballistoqramma – bədənin seçilmiş oxa nəzərən yerdəyişməsi zamanı amplitudanın dəyişməsinin qeydə alınması nəticəsində əldə edilən ballistokardioqramma

Qarışıq tıntınlıq *(rhinolalia mixta)* – açıq və qapalı tıntınlığın birgə təsadüf olunması

Qarqara *(gargarisma)* – xəstənin özü tərəfindən icra edilən, ağız boşluğu və udlağı ağıza yığılmış maye dərman vasitəsi ilə yuyan müalicəvi-profilaktik proseduru

Qarqoilizm (frans. *gargouille*) – erkən uşaq yaşlarında təsadüf edilən zehni inkişafın ləngiməsi, sümüklərin deformasiyası, qaraciyər və dalağın böyüməsi, büllurun bulanıqlaşması şəklində təzahür edən irsi xəstəlik (sin.Pfaunder-Qurler xəstəliyi; V.Pfaunder-Meinhard, 1872-1947, alm. , pediatr)

Qarsen simptomu I (R.Garcin, frans. nevropatoloqu) – labirintin zədələnməsinin əlaməti: xüsusi kresloda xəstəni yavaş fırlandırdıqda xəstə ayaqları ilə dirənməyə çalışır, sürətlə fırlandırdıqda isə onun bu reaksiyası müşahidə edilmir

Qarsen simptomu II (R.Garcin) – udlağın burun hissəsinin birləşdirici toxumasından inkişaf edən kəllə əsasının şişi zamanı bədənin hissi və hərəki pozulmalarına səbəb olmayan beyin sinirlərinin birtərəfli iflici

Qarsen sindromu (R.Garcin) – kəllə sinirlərinin birtərəfli iflici: yüksək beyindaxili təzyiqin əlamətləri (baş ağrısı, görmə sinirin durğun məməciyi); ətraflarda həssaslığın və motorikanın pozulması; likvorda dəyişikliklər müşahidə olunmur

Qarsen-Giyen-Bertoletti sindromu (Garcin-Guillain-Bertolotti*) – bax:* Qarsen sindromu

Qartmaq *(crusta)* – dəri örtüyünün məhdud bir sahəsində hər hansı ekssudatın quruması nəticəsində əmələ gələn ikincili morfoloji element

Qasıq birləşməsi (symphysis pubica) – *bax:* qasıq simfizi

Qasıq bitləri *(pediculosis pubis)* – əsasən qasıq nahiyəsində yaşayan bitlərdir, lakin bəzən orqanizmin digər hissəsələrinə də (köks qəfəsi, qoltuqaltı çuxur və s.) yayıla bilər; 22-27 gün yaşayırlar

Qasıq epidermofitiyası (*epidermophytia inguinalis*) – bud-qasıq büküşü nahiyəsində *Epidermophyton inguinali* göbələkləri tərəfindən törədilən kəskin iltihabi səpgilərlə xarakterizə olunan dermatomikoz

Qasıq kanalı *(canalis inguinalis)* – qasıq bağının daxili hissəsində yerləşən qarnın ön divar əzələləri arasında əmələ gələn yarıq (kişilərdə qasıq kanalında toxum axarı, qadınlarda uşaqlığın girdə bağı yerləşir)

Qasıq qövsü *(arcus pubis)* – qarnın daxili çəp və köndələn əzələlərinin aşağı kənarlarının əmələ gətirdiyi daimi olmayan qövsəbənzər əzələ lifləri

Qasıq qranuleması (*granuloma inguinale*) – *bax:* qasıq limfoqranulematozu

Qasıq limfoqranulomatozu – filtrasiya edən virusların törətdiyi qasıq, daha sonra isə bud və çanaq limfa düyünlərinin papula və eroziyalar şəklində zədələnməsi, qızdırma, dalağın şişməsi və leykositozla təzahür edən xəstəlik

Qasıq nahiyəsi *(regio inguinalis)* – qarnın ön-yan divarının, yuxarıdan sümüklərarası xətt, medial olaraq qarnın düz əzələsinin lateral kənarından keçən vertikal xətt, aşağı və lateral hissədə qasıq bağı ilə məhdudlaşan cüt sahəsi

Qasıq üçbucağı – *bax:* qasıq nahiyəsi

Qasıqüstü kapsula (sin. İrvinq kapsulu) – qasıqüstü sidik kisəsi fistulları zamanı sidiyi yığmaq üçün paslanmayan metaldan hazırlanmış, rezin kəmərlə qasıq üstündə bərkidilən oval qutu

Qasıqüstü litotomiya (*lithotomia suprapubica*) – qarın boşluğunun qasıq simfizinin üstündə orta və ya köndələn kəsiyi ilə icra olunan litotomiya

Qasperini sindromu (M.Gasperini, 1880-1918, ital. alimi) – *teqmentum pontisin* zədələnməsi zamanı üçlü, uzaqlaşdırıcı, üz, dəhliz-ilbiz sinirlərinin və zədələnmələrinin əks tərəfində yuxarı və aşağı ətrafların hissiyyatının itirilməsi

Qasser düyünü simptomu *(syndromum ganglii Gasseri)* – üçlü sinirin qanqlionunun zədələnməsi zamanı həmin sinirin innervasiya etdiyi nahiyədə ağrı, hissiyyat pozğunluğu və herpetik səpgilərin birgə meydana gəlməsi

Qastr- (qastro-; yun. *gaster, gasteros, gastros* mədə) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "mədəyə aid" mənasını verir

Qastral lavaj (frans. *lavage*, lat. *lavo* yumaq) – birbaşa mədənin yuyulması ilə yerinə yetirilən intrakorporal dializ

Qastrektomiya *(gastrectomia)* – mədənin cərrahi yolla tam çıxarılması və qida borusu ilə nazik bağırsaq arasında anastomozun qoyulması

Qastrektaziya (*gastrectasia*; *qastr-* + yun. *ektasis* dartma, genişləndirmə) – mədənin pilor hissəsi və ya onikibarmaq bağırsağın stenozu zamanı mədənin genişlənməsi

Qastrinoma *(gastrinoma)* – qastrinin sekresiyasının artması nəticəsində mədə və 12 barmaq bağırsaqda peptik xoranın əmələ gəlməsi ilə nəticələnən xəstəlik

Qastrit (*gastritis*) – mədənin selikli qişasının morfoloji və funksional dəyişiklikləri ilə müşayiət olunan iltihabı

Antral qastrit (*g. antralis*, sin. antrum-qastrit) – mədə çıxacağının deformasiyası ilə xarakterizə olunan xroniki qastritin morfoloji forması

Fibrinoz qastrit (*g. fibrinosa*) – mədənin selikli qişasının difteritik iltihabı (qalın fibrinoz ərpin əmələ gəlməsi) ilə xarakterizə olunan kəskin qastrit; adətən turşularla zəhərlənmələr və ya ağır infeksion xəstəliklər zamanı yaranır

Fleqmonoz (irinli) qastrit (*g. phlegmonosa*) – ağır gedişli xora xəstəliyindən, xərçəng xəstəliyindən, bəzi infeksion xəstəliklərdən və travmalardan sonra yaranan kəskin qastrit; irin əsasən selikaltı qata yayılır

Hipertrofik qlandulyar qastrit (*g. hypertrophica glandularis) – bax:* qastroduodenit

Xroniki qastrit (*g. chronica*) – uzun müddət davam edən və mədənin selikli qişasının struktur dəyişikliyə uğraması (atrofiya, metaplaziya) ilə xarakterizə olunan qastrit

Kataral qastrit (*g. catarrhalis*; sin. sadə qastrit) – leykositlərin mədənin selikli qişasına infiltrasiya et-

məsi, iltihabı hiperemiya, epitelidə baş verən distrofik dəyişikliklərlə xarakterizə olunan kəskin qastrit; çox vaxt yüngül zəhərlənmələr və qeyri-düzgün qidalanma nəticəsində yaranır

Kəskin qastrit (*g. acuta*) – mədənin hansısa səbəbdən kəskin qıcıqlanmasının nəticəsində əmələ gələn qastrit: kimyəvi maddələr, infeksiya, qida intoksikasiyaları, bəzi dərman preparatları, agır metal birləşmələri, kəskin və xronik infeksion xəstəlikləri (qarın yatalağı, vərəm, dizenteriya və s.); kəskin qastrit qaraciyər, böyrək, pankreas, sinir və endokrin sistem xəstəlikləri zamanı da müşahidə oluna bilər

Korroziv qastrit (*g. corrosiva*; sin. nekrotik qastrit, toksiki-kimyəvi qastrit) – ağır metalların, qatı halda turşuların və qələvilərin mədəyə düşməsi nəticəsində inkişaf edən və toxumaların nekrotik dəyişiklikləri ilə təzahür edən kəskin qastrit

Qastrit xolangiyası (köh.) – *bax:* qastrogen xolangit

Qastroduodenit *(gastroduodenitis)* – epiqastral nahiyədə ağrı ilə gedən mədə çıxacağının və 12 barmaq bağırsağın selikli qişasını əhatə edən xroniki qastritin bir forması

Qastroduodenoskop (*qastro-* + anat. *duodenum* onikibarmaq bağırsaq + yun. *skopeo* baxmaq) – mədə və 12-barmaq bağırsağın daxilini səthini müayinə etmək üçün tibbi endoskop; tədqiq olunan səthin işıqlandırılması və təsvirin alınması şüşə liflər dəstəsindən ibarət elastik işıqötürücü vasitəsilə həyata keçirilir

Qastroduodenoskopiya (*gastroduodenoscopia*) – mədə və onikibarmaq bağırsağın endoskopik alətlər vasitəsilə müayinəsi

Qastroduodenostomiya *(gastroduodenostomia)* – cərrahi əməliyyat: mədə və onikibarmaq bağırsaq arasında anastomozun qoyulması

Qastroenterit *(gastroenteritis)* – mədə və nazik bağırsağın selikli qişalarının iltihabı

Qastroenterologiya *(gastroenterologia)* – tibbin həzm sisteminin quruluşunu, funksiyalarını, xəstəliklərini və onların müalicə və profilaktikasını öyrənən bölməsi

Qastroenteroloq – mədə-bağırsaq sistemi xəstəliklərinin diaqnostikası, profilaktikası və müalicəsi üzrə həkim-mütəxəssis

Qastroenterostomiya *(gastroenterostomia*; sin. qastroyeyunostomiya*)* – cərrahi əməliyyat: mədə və nazik bağırsaq arasında anastomozun qoyulması (məqsəd qidanın mədə çıxacağı və onikibarmaq bağırsaqdan keçmədən nazik bağırsağa ötürülməsini təmin etməkdir)

Qastroezofaqostomiya *(gastroezophagostomia)* – cərrahi əməliyyat: kardiostenoz və ya qida borusunun çapıq daralmaları zamanı qida borusu və mədə arasında anastomozun qoyulması

Qastrofibroskop (*qastro-* + lat. *fibra* lif + yun. *skopeo* baxmaq) – mədəni müayinə etmək üçün formasını asanlıqla dəyişə bilən lifli qastroskop

Qastrohepatoenteral sindrom *(syndromum gastrohepatoenterale)* – qastroenteritin inkişafı nəticəsində qaraciyərin funksiyasının pozulması

Qastrointestinal *(gastrointestinalis*; *qastro-* + lat. *intestinum* bağırsaq*)* –

mədə-bağırsaq, eyni zamanda həm mədəyə və həm də bağırsağa aid olan

Qastrointestinal yol – mədə-bağırsaq yolu

Qastrokamera – *bax:* fotoqastroqraf (2-ci mənada)

Qastro-kardial – mədə-ürək

Qastrokardial sindrom *(syndromum gastrocardiale)* – mədənin həddən artıq dolması və ya metiorizm zamanı ürək döyünməsi, ürək nahiyəsində ağrı, ürək ritminin dəyişməsi, arterial təzyiqin qalxması və ya enməsinin müşayiət olunması

Qastroqraf – mədənin hərəki fəaliyyətini qrafik qeydə alan cihaz

Qastromalyasiya *(gastromalacia)* – qan təchizatının pozulması, iltihab nəticəsində mədə divarının yumşalması

Qastromiksoreya *(gastromyxorrhoea*; *qastro-* + yun. *myxa* selik + *rhoia* axma*)* – *bax:* Reyxman sindromu

Qastromukoproteid (sin. Kaslın daxili amili) – mədə dibi və cisminin əlavə hüceyrələrinin ifraz etdiyi, B_{12} vitamininin bağırsaq divarı ilə adsorbsiyasını təmin edən bioloji aktiv maddə; qastromukoproteidin çatışmazlığı anemiyaya səbəb ola bilər

Qastropaqlar – qarın nahiyəsində bitişmiş əkizlər

Qastropeksiya *(gastropexia)* – mədə sallanması zamanı mədənin qarnın ön və ya arxa divarına tikilməsi

Qastroptoz *(yunanca gaster-mədə, ptozis – düşmə, sallanma)* –mədə sallanması

Qastrorafiya (*qastro-* + yun. *rapho* tikirəm) – qarın boşluğunda keçirilən əməliyatlardan sonra yaranın kənarlarının tikilməsi

Qastrorragiya *(gastrorrhagia)* – mədə qanaxması

Qastroskopiya (*qastro-* + yun. *skopeo* baxmaq) – qastroskop vasitəsilə mədənin selikli qişasının müayinəsi üsulu

Qastrostomiya *(gastrostomia)* – qida borusu keçməməzliyi zamanı xəstənin süni qidalandırılması məqsədilə mədənin xarici fistulunun yaradılması cərrahi əməliyyatı

Müvəqqəti qastrostomiya – udlaq və qida borusu əməliyyatlarından öncə cərrahi yolla mədə fistulunun yaradılması; müvəqqəti qastrostomiyaya göstərişlər: qida borusunun zədələnməsi ilə olan döş qəfəsi yaralanmaları, ağır üz-çənə travmaları, qida borusunun yanıqları zamanı keçiricilik bərpa olunana qədər; müvəqqəti qastrostoma elə formalaşdırılır ki, gələcəkdə təkrar əməliyyat olmadan kənar edilməsi mümkün olsun

Qastrosukkoreya (*gastrosuccorrhoea*) – *bax:* Reyxman sindromu

Qastroşizis *(gastroschisis)* – göbəkdən sağda yerləşən dəlikdən orqanların bətndaxili eventrasiyası, ön qarın divarının anadangəlmə bitişməməsi

Qastrotomiya *(gastrotomy)* – mədənin cərrahi yolla açılması

Qastrotrop maddə *(gastrotrope)* – mədəyə təsir edən maddə

Qastroyeyunoduodenoplastika (*gastrojejunoduodenoplastica*) – cərrahi əməliyyat: mədənin və onikibarmaq bağırsağın nazik bağırsaq seqmenti ilə əvəz edilməsi və onun mənfəzinə ümumi öd axarı və mədəaltı vəz axarının açılması

Qastroyeyunoplastika *(gastrojejunoplastica)* – cərrahi əməliyyat:

mədənin nazik bağırsaq seqmenti ilə əvəz olunması

Qastroyeyunostomiya *(gastrojejunostomia) – bax:* qastroenterostomiya

Qaşınma *(pruritus)* – dəri və ya selikli qişaların qaşınması tələbatını yaradan hissiyat; ağrı hissiyyatının şəkildəyişmiş forması

Allergik qaşınma *(*p. *allergicus)* - patogenezində əsas rolu allergiya oynayan qaşınma

Anal qaşınma *(p.ani)* – anus və onun ətraf dərisinin qaşınması

Biopsiyaedici qaşınma – dərinin dərin zədələnməsi ilə nəticələnən güclü dəri qaşınması

Dəri qaşınması *(p.cutaneus)*- bütün dəri və ya dərinin hər hansı nahiyəsində olan qaşınma

Diabetik qaşınma *(*p. *diabeticus)*- şəkərli diabeti olan xəstələrdə dəri və (və ya) genital qaşınma

Fəsil qaşınması – kəkskinləşməsi ilin müəyyən dövrü ilə əlaqədar olan dəri qaşınması(əsasən, yaz və

Genital qaşınma *(*p. *genitalis)*- xarici cinsiyyət orqanlarında olan qaşınma

Hamilələrin qaşınması (*p. gravidarum*) - əsasən hamiləliyin ikinci yarısının toksikozu kimi meydana gələn qaşınma

Qocalıq qaşınması (p. senilis) – dərinin yaşla əlaqədar atrofik və aterosklerotik dəyişikliyi nəticəsində inkişaf edən

Lixenifikasiya ilə məhdudlaşan qaşınma – *bax* məhdud neyrodermit

Lokal qaşınma *(p. localisatus)* – bədənin müəyyən nahiyəsi ilə məhdudlanan qaşınma payızda)

Reflektor qaşınma *(p.reflectorius)* – daxili orqanalrın xəstəlikləri zamanı meydana çıxan qaşınma

Universal qaşınma *(*p. *universalis)* – *bax:* ümumi qaşınma

Ümumi qaşınma - *bax:* yayılmış qaşınma

Yayılmış qaşınma (p. *generalisatus)* – bütün bədən səthinə yayılmış dəri qaşınması

Yerli qaşınma – *bax:* lokal qaşınma

Qaşınma xəstəliyi *(prurigo)* – papula, vezikula və ya düyüncüklər formalı qaşınan səpgilərin olması ilə xarakterizə olunan dermatozların ümumi adı

Adi qaşınma xəstəliyi – *bax* diffuz neyrodermi

Bahar qaşınma xəstəliyi *(*p. *vernalis) – bax:* yay qaşınma xəstəliyi

Diatez qaşınma xəstəliyi *(*p. *diathetica)* – bax: diffuz neyrodermit

Düyünlü qaşınma xəstəliyi *(p. nodularis)* – əsasən yaşlı kişilərdə təsadüf olunan, ətrafların yarımsferik, qırmızımtıl, bərk, qabıqlanan səthli düyünləri ilə gedən qaşınma xəstəliyi

Günəş qaşınma xəstəliyi *(p. solaris)* – günəşin təsiri nəticəsində dərinin qızarması, şişməsi, qaşınması və sulanması , yay qaşınma xəstəliyi

Qış qaşınma xəstəliyi *(p. hiemalis)* – soyuq hava şəraitində xroniki residiv verən qaşınma xəstəliyi;əsasən kişilərdərast gəlinir, ayaq nahiyyəsində yerləşir

Limfatik qaşınma xəstəliyi *(p. lymphatica)* – əsasən limfoqranulomatoz zamanı meydana çıxan hemodermiyaşəkilli qaşınma xəstəliklərinin ümumi adı

Uşaq qaşınma xəstəliyi *(p. infantium)* – 3-4 yaşlı uşaqların ətrafla-

rının açıcı səthlərinin, gövdənin, sağrı nahiyəsinin papula və vezikula şəkilli qaşınan səpgiləri ilə xarakterizə olunan xəstəlik (adətən süd dişlərinin çıxması zamanı təsadüf olunur)

Yaşlıların qaşınması *(p. adultorum)* – qaşınma və ətrafların xarici səthində xırda düyüncüklərin əmələ gəlməsi ilə gedən dəri xəstəliyi

Yay qaşınma xəstəliyi *(p. aestivalis)* – əsasən yaz və yay aylarında kəskinləşmə verən, bədənin açıq nahiyələrində lokalizasiya edən xroniki residiv verən fotodermatoz

Qatranabənzər nəcis (*tarry feces*) – *bax:* melena

Qayalı dağların ləkəli qızdırması (sin. mavi xəstəlik; Şimali Amerika Kordilyer dağlarının şimalında dağ sistemi) – riketsiyalar tərəfindən törədilən bitlərlə yayılan qızdırma, polimorf papullyoz-hemorragik səpgilərlə gedən, qasıq nahiyəsinin dərisində nekrozlaşmış dəyişikliklər əmələ gətirən endemik xəstəlik; Şimali və Cənubi Amerika üçün xas olan xəstəlik

Qayçı *(forfex, forbici)* – tibdə: toxumaları, sarğıları və digər tibbi materialları kəsmək üçün cərrahi alət

Bağırsaq qayçısı – cərrahi əməliyyatlarda istifadə olunan qayçı

Cərrahi qayçı – cərrahi əməliyyatlarda istifadə olunan qayçıların ümumi adı

Enukleasiya qayçısı – göz almasının çıxarılması cərrahi əməliyyatında istifadə edilən qayçı

Esmarx qayçısı (F.A. Esmarch, 1823-1908, alm. cərrahı) – sarğıları kəsmək üçün bucaq altında əyilmiş ülgücləri olan qayçı

Göz qayçısı – oftalmoloji əməliyyatlarda istifadə olunan qayçı

Kuper qayçısı (A.P.Cooper, 1768-1841, ing. cərrah və anatomu) – müstəvi üzrə əyilmiş cərrahi qayçı

Qabırğa qayçısı – cərrahi əməliyyatlarda qabırğaları kəsmək üçün istifadə olunan qayçı

Qilyotin qayçı – açdıqda və bağladıqda toxuma kənarına paralelliyini saxlayan, cərrahi əməliyyatlarda istifadə olunan qayçı

Landolt qayçısı (E.Landolt, 1846-1926, isveçrəli oftalmoloq) – görmə sinirini kəsmək üçün istifadə olunan qayçı

Miminoşvili qayçısı (S.Ya. Miminoşvili, 1915-1990, sov. oftalmoloqu) – gözün enukleasiyası əməliyyatı zamanı görmə sinirini kəsmək üçün qayçı

Neyrocərrahi qayçı – neyrocərrahi əməliyyatlar zamanı yaranın dibində toxumaların kəsilməsi üçün nəzərdə tutulan qayçı

Rixter qayçısı (A.G. Richter, 1742-1812, alm. cərahı) – ucları alətin simmetriya oxuna 25-30^0 altında əyilmiş cərrahi qayçı

Umblikal qayçı – göbək ciyəsini kəsmək üçün qayçı

Zibold qayçısı (E.K.J. Siebold, 1801-1861, alm. akuşeri) – embriotomiya üçün istifadə olunan akuşer aləti

Qaye-Vernike sindromu (C.J.A. Gayet, 1833-1904, frans. həkimi; K. Wernicke, 1848-1905, alm. anatomu) – *bax:* hemorragik polioensefalit

Qayıdan epidemik spiroxetoz (*spirochaetosis recurrens epidemica*) – *bax:* epidemik qayıdan yatalaq

Qayıdan gənə yatalağı – *bax:* epidemik qayıdan yatalaq

Qayıdan qızdırma (*febris recurrens*) – *bax:* epidemik qayıdan yatalaq

Qayıdan sinir sindromu *(syndromum nervi laryngei recurrentis)* – 1) qayıdan qırtlaq sinirinin birtərəfli zədələnməsi zamanı fonasiyanın pozulması; 2) qayıdan qırtlaq sinirinin ikitərəfli zədələnməsi zamanı fonasiyanın və tənəffüsün pozulması

Qayıdan yatalaq *(typhus recurens)* – spiroxetlər tərəfindən törədilən, bitlər və ya birələrlə ötürülən, qızdırmalı və qızdırmasız vəziyyətlərin növbələnməsi ilə gedən yoluxucu xəstəliklərin ümumi adı

Qaytarılmaz itkilər – *bax:* döyüş itkiləri

Qaz analizi – müxtəlif mühitlərdə qaz komponentlərinin kəmiyyət və keyfiyyətlərinin təyin edilməsi üsullarının məcmusu

Qaz həmləsi – zəhərləyici qazların döyüşdə tətbiqi üsulu

Qaz dezinfeksiya aparatı – hər hansı sahəni formalin buxarlandırılması və ya kükürd yandırılması ilə dezinfeksiya edən aparat

Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) – qazanılmış immun çatışmazlığı sindromu; insanda immunçatışmazlığı virusu (İİV) infeksiyası fonunda inkişaf edən orqanizmin immun sistemini kəskin zəiflədən limfotrop viruslar tərəfindən törədilən infeksion xəstəlik; QİÇS-in təzahür formaları özünü çoxsaylı yoluxucu və qeyri-yoluxucu xəstəliklərlə biruzə verir, bu virusa yoluxmuş insanların immun-müdafiə sistemi kəskin zəifləyir və onlar bir çox xəstəliklərə asanlıqla tutulurlar; bu xəstəliklər ölümlə nəticələnir

Qazanılmış mərkəzdənqaçan leykoderma (*leucoderma centrifugale acquisitum*) – *bax:* Satton xalı

Qeyri-bakterial mənşəli kəskin qastroenterit – *bax:* viruslu diareya

Qeyri-invaziv *(noninvasive)* – qansız, atravmatik

Qeyri-lipoid retikulohistiositoz – *bax:* Letter-Sive xəstəliyi

Qeyri-spesifik perikardit (*pericarditis acuta non specifica*) – *bax:* idiopatik perikardit

Qeyri-spesifik xoralı kolit (*colitis ulcerosa non specifica*) – yoğun bağırsağın selikli qişasının xoralı-destruktiv dəyişiklikləri ilə xarakterizə olunan xəstəlik; bağırsaq və bağırsaq divarında iltihab, hiperemiya, ödem, xoralaşmalar olur; əsasən qarında ağrı, ishal, bağırsaq qanaxmaları ilə təzahür edir

Qeyri-təbii anal dəlik *(anus praeternaturalis)* – yoğun bağırsağın cərrahi əməliyyat yolu ilə süni yaradılmış xarici fistulu

Qəbul bölməsi – stasionar tipli müalicə-profilaktik müəssisənin xəstələri qəbul edən, ilkin diaqnostika, ilk yardım, zərurət olduqda izolyasiya, sanitar işləmə, qeydiyyat və şöbələr üzrə paylanmasını təmin etmək üçün nəzərdə tutulan şöbəsi

Qəbul-çeşidləmə bölməsi – tibbi təxliyyənin xəstələrin qəbul və tibbi çeşidləməsini həyata keçirən funksional bölməsi

Qəbizlik (*constipatio, obstipatio*) – qatı və gec baş verən defekasiya (bağırsağın boşalması)

Qəfləti ekzantema (*exanthema subitum*) – erkən yaşlı uşaqlarda hərarətin qəflətən qalxması, endik-

dən sonra isə əsasən bilək və sağrı nahiyəsində xırdaləkəli səpgilərin əmələ gəlməsi ilə xarakterizə olunan kəskin yoluxucu xəstəlik

Qəlpələnən aviasiya bombası – gövdəsi partlayış zamanı çoxlu sayda qəlpələrə parçalanan, canlı qüvvə, artilleriya, avtomobil nəqliyyatı, aerodromlara və başqa hədəflərə qəlpələrlə zədə endirmək üçün istifadə olunan aviasiya bombası (çəkisi 1 kq-dan 100 kq qədər olur)

Qəlpələnən fuqas aviasiya bombası – fuqas təsiri ilə gücləndirilmiş qəlpələnən bomba (çəkisi 100-250 kq olur).

Qəpik sınağı – gözüyumulu vəziyyətdə qəpiyə əllə toxunduqda üzvi hipesteziyalı xəstələrdə qəpiyin ölçüsünün olduğundan kiçik, funksional hipesteziyalı xəstələrdə isə normadan böyük və ya olduğu ölçüdə hiss edilməsi

Qərbi Nil qızdırması – tropik ağcaqanad qızdırmaları qrupundan olan, arbo viruslar tərəfindən törədilən mülayim qızdırmalı, meningeal əlamətli limfadenit ilə gedən xəstəlik

Qəsdən özünə xəsarət yetirmə – məqsədli surətdə öz orqanizminə xəsarət yetirmə

Qəza haqqında akt – qəzanın səbəbi, yeri, başvermə vaxtı və şəraiti haqqında qeydiyyat və əməliyyat sənədi

Qəza işıqlanması üçün hərəkətedən lampa – səhra şəraitində cərrahi əməliyyatlar zamanı əməliyyat sahəsini işıqlandırmaq üçün istifadə olunur

Qəza-xilasedici işlər – *bax:* qəza-xilasetmə tədbirləri

Qəza-xilasetmə tədbirləri – müxtəlif qəzalar, təbii fəlakətlər, kütləvi silah yaralanmaları zamanı insanları xilas etmək və ilk tibbi yardım göstərmək tədbirləri

Qıcığa qarşı həssaslığın artması – *bax:* hipersteniya

Qıcıqlandırıcı *(irritants)* – ətraf və ya daxili mühitin qıcıqlanan strukturun vəziyyətini dəyişdirən faktoru

Ağrı qıcıqlandırıcısı – ağrı hissiyyatı yaradan spesifik qıcıqlandırıcı

İnteroseptiv qıcıqlandırıcı – interoseptorların spesifik qıcıqlandırıcısı

Qeyri-adekvat qıcıqlandırıcı – *bax:* qeyri-spesifik qıcıqlandırıcı

Qeyri-spesifik qıcıqlandırıcı – xüsusilə onun qavrayışına uyğun olmayan bir bioloji struktura təsir edən qıcıqlandırıcı

Qoxu qıcıqlandırıcısı – qoxu hissiyyatı yaradan spesifik qıcıqlandırıcı

Nosiseptiv qıcıqlandırıcı – *bax:* ağrı qıcıqlandırıcısı

Optimal qıcıqlandırıcı – həcmi oyanan toxumanın cavab reaksiyasının yaranmasına kifayət edən qıcıqlandırıcı

Patogen qıcıqlandırıcı – *bax:* patoloji qıcıqlandırıcı

Patoloji qıcıqlandırıcı – patoloji proses və xəstəliklərin yaranmasına, orqan və toxumaların funksiyasının pozulmasına və strukturunun zədələnməsinə səbəb olan qıcıqlandırıcı

Səs qıcıqlandırıcısı – səs hissiyyatı yaradan spesifik qıcıqlandırıcı

Şərtsiz qıcıqlandırıcı – şərtsiz refleksin yaranmasına səbəb olan qıcıqlandırıcı

Taktil qıcıqlandırıcı – taktil reseptorların spesifik qıcıqlandırıcısı

Qıcıqlanma *(irritatio)* – daxili və ya

xarici mühit faktorlarının orqan və ya toxumalara qıcıqlandırıcı təsiri

Diskret qıcıqlanma *(*lat. *discretus* ayrı, kəsilən*)* – müəyyən tezliklə təkrarlanan qıcıqlanma

Dolayı qıcıqlanma – qıcıqlandırıcının toxumanı innervasiya edən sinir vasitəsi ilə göstərdiyi qıcıqlandırıcı təsir

Düz qıcıqlanma – qıcıqlandırıcının toxumaya birbaşa təsirindən yaranan qıcıqlanma

İndiskret qıcıqlanma *(*lat. *in* + *discretus* ayrı, kəsilən*)* – müəyyən zaman daxilində fasiləsiz baş verən qıcıqlanma

Qıcıqlanma sindromu – gətirici yolların və mərkəzi sinir sisteminin hər hansı bir patoloji proseslə qıcıqlanması nəticəsində meydana çıxan sindromların ümumi adı

Qıcqırma *(pyrosis)* – mədə şirəsinin qida borusuna düşməsi nəticəsində yaranan, döş sümüyü arxasında, boğazda, qida borusu boyunca hiss olunan göynəmə hissi

Qıcolma *(spasmus)* – əzələlərin qeyri-iradi qəfləti yığılması

Affektiv qıcolma (*s. affectivi*) – güclü emosional oyanıqlığın təsiri altında baş verən oyanma

Baxışın qıcolması – gözün qeyri-iradi olaraq yuxarı çönməsi və bir neçə dəqiqə bu vəziyyətdə qalması

Dissosiativ qıcolma – epilepsiya ilə əlaqədar olmayan yalançı tutmalar

Epileptiform qıcolma (*s. epileptiformis*) – zahirən epileptik tutmaları xatırladan qeyri-epileptik mənşəli qıcolma

Əks olunmuş qıcolma – *bax:* reperkussiv qıcolma

Hipnaqogik qıcolma (*s. hypnagogicus*) – mineral mübadiləsinin pozulmasından əziyyət çəkən şəxslərdə yuxudan öncə, əsasən aşağı ətraflarda baş verən qıcolma

İnisial qıcolma (*s. initialis*) – mərkəzi sinir sisteminin bəzi xəstəlikləri zamanı iradi hərəkətdən öncə baş verən qıcolma

Klonik qıcolma (*s. clonicus*) – beyin yarımkürələrinin hərəki zonasının qıcıqlanması zamanı əzələlərdə bir-birinin ardınca yığılma və boşalmaların baş verməsi

Qabıq qıcolması (*s. corticalis*) – baş beyin yarımkürələri qabığının ön mərkəzi şırımı nahiyəsində hərəki mərkəzlərin qıcıqlanması nəticəsində baş verən qıcolma

Operkulyar qıcolma (*s. opercularis*) – aşağı alın qırışının arxa nahiyəsinin zədələnmələri zamanı dil və dodaq əzələlərinin, çeynəmə əzələlərinin ritmik qıcolması

Paroksizmal qıcolma (*s. paroxysmalis*) – təkrar tutmalar şəklində meydana çıxan qıcolma

Peşə qıcolması (*s. professionalis*) – peşə ilə əlaqədar olaraq əzələlərin sistematik yorulması nəticəsində meydana çıxan qıcolma

Reflektor qıcolma (*s. reflectorius*) – dərini ştrixvari qıcıqlandırdıqda baş verən qıcolma

Reperkussiv qıcolma (*s. repercussivus*) – qıcıqlanma yerindən uzaqda yerləşən əzələlərdə baş verən qıcolma (məs., daxili orqanların xəstəlikləri zamanı)

Saltator qıcolma (*s. saltatorius*) – ayaqüstə dayanmış xəstənin aşağı ətraflarında baş verən klonik qıcolma

Tonik qıcolma (*s. tonicus*) – yığılmış əzələlərin uzunmüddətli gər-

ginliyi ilə xarakterizə olunan qıcolma

Qıcolma terapiyası – ruhi xəstələrin müalicəsində baş beynin müəyyən hissəsinin elektrik cərəyanı ilə və ya dərman vasitəsi ilə qıcıqlandırmaqla qıcolma yaradılmasına yönələn terapiya; zəiflətməyə yönəlmiş terapiya

Qığırdaq birləşmə *(articulatro cartilaginea) – bax:* sinxondroz

Qığırdaq toxuması kapsulu *(capsula cartilaginea)* – xondrositlərin yerləşdiyi boşluğun divarlarını əmələ gətirən, hüceyrələrarası maddələrdən təşkil olunmuş qat

Qırış *(ruga)* – orqanizmin qocalması və ya dəriyə düzgün qulluq edilməməsi nəticəsində dəridə yaranan büküş və ya şrım

Qırmızı qurdeşənəyi (*lupus erythematosus*) – dəri, daxili orqanlar, mərkəzi sinir sistemi və oynaqların zədələnməsi ilə gedən autoantitellər tərəfindən törədilən kollagenoz

Dərin qırmızı qurdeşənəyi *(l. erythematosus profundus)* – əsasən üzdə, bəzi hallarda ətrafların dəri altı piy toxumasında yerləşən, çapıq toxumasının əmələ gəlməsi ilə nəticələnən dərindüyünlü infiltratla təzahür edən sistem xəstəlik

Diskoid qırmızı qurdeşənəyi *(l. erythematosus discoideus)* – əsasən üz dərisinin eritema, hiperkeratoz və atrofiya şəklində zədələnməsi ilə gedən qırmızı qurdeşənəyinin forması

Sistemli qırmızı qurdeşənəyi (*l. erythematosus systemicus*) – ən yayqın forması, oynaqların, dərinin zədələnməsi, daxili orqanların patoloji prosesə cəlb olunması ilə səciyyələnir

Səthi qırmızı qurdeşənəyi (*l. erythematosus superficialis*) – diskoid qırmızı qurdeşənəyin forması olub, üzdə və dərinin digər açıq nahiyələrində kəskin məhdudlaşmış və periferiya üzrə artan eritemanın əmələ gəlməsi ilə səciyyələnir; daxili orqanların zədələnməsi mümkündür

Qırmızı yastı dəmrov (*lichenis ruber planus atrophicus*) – papulaların yerində dəri atrofiyası qalan qırmızı yastı dəmrov

Atrofik qırmızı yastı dəmrov *(lichen ruber planus atrophicus)* – çoxgüşəli yastı və sədəf tək parıldayan monomorf düyün çüklərdən ibarət dəri xəstəliyi

Eritematoz qırmızı yastı dəmrov (*l. ruber planus erythematosus*) – göynəyən iri eritematoz ləkələrin və papulaların səpməsi ilə səciyyələnən qırmızı yastı dəmrov; ümumi intoksikasiya əlamətləri ilə müşayiət olunur

Hiperkeratotik qırmızı yastı dəmrov (*l. ruber planus hyperkeratoticus*) – əsasən baldırlarda lokallaşır və papulaların səthində hiperkeratoz müşahidə olunur

Hipertrofik qırmızı yastı dəmrov (*l. ruber planus hypertrophicus*) – bənövşəyi rəngdə, buynuz qatlarla örtülmüş iri papulalarla səciyyələnən qırmızı yastı dəmrov

Qırpma-çeynəmə testi – *bax:* korneomandibulyar refleks

Qırtlağın havalı sisti – *bax:* larinqosele

Qırtlaq başgicəllənməsi (*vertigo aryngea*) – *bax:* bettolepsiya

Qırtlaq bıçağı – qırtlaq abseslərini qırtlaq güzgüsünün köməyi ilə yar-

maq üçün istifadə olunan xüsusi cərrahi alət

Qırtlaq boşluğu *(cavum laryngis)* – qırtlağı udlaq və traxeya ilə birləşdirən daxili hissəsi

Qırtlaq yarığı – *bax:* Pallister-Holl sindromu

Qırtlaqüstü qığırdaq *(epiglottis)* – dil kökündən aşağıda yerləşib udqunma zamanı qırtlaq girişini bağlayan qığırdaq

Qısa bağırsaq sindromu *(short bowel syndrome)* – nazik bağırsağın böyük bir hissəsinin rezeksiyası nəticəsində meydana çıxan ediareya, statoreya ilə gedən sindrom

Qısa boyun sindromu *(cervical fusion syndrome) – bax:* Klippel-Feyl xəstəliyi

Qısa qarın aortası *(aorta abdominalis brevis)* – aorta bifurkasiyasının adi yerindən yuxarıda (I-II bel fəqərəli səviyyəsində) yerləşməsindən ibarət inkişaf anomaliyası

Qısadalğalı diatermiya *(short wave diathermy) – bax:* induktotermiya

Qısayüyənli cinsiyyət üzvü – cinsiyyət üzvünün inkişaf anomaliyası

Qızartı *(ruber)* – iltihabın 5 klassik simptomundan biri

Qızdırma *(febris*) – iltihabın 5 klassik simptomundan biri, orqanizmin infeksion və ya iltihabi prosesə universal cavab reaksiyası

Alimentar qızdırma *(f. alimentaria)* – südəmər uşaqlarda qidanın qeyri-adekvat tərkibi ilə bağlı qızdırma (adətən suyun çatışmazlığı nəticəsində olur)

Daimi qızdırma (*f. continua*) – bədənin temperaturunda gündəlik dalğalanmalar 1° C-dən çox olmur; məs., səpmə yatalaqda, krupoz pnevmoniya zamanı müşahidə olunur

Dalğaşəkilli qızdırma *(f. undulans)* – bir neşə gün ərzində temperaturun yüksəlməsi və azalması dövrlərinin növbələnməsi ilə xarakterizə olunan qızdırma

Dəyişdirici qızdırma (*f. remittens*) – bədənin temperaturunda gündəlik dalğalanmalar 1,5-2°C aralığında olur, amma eyni zamanda temperatur normal səviyyəyə düşmür

Duz qızdırması – orqanizmdə NaCl duzunun artıq miqdarda toplanması nəticəsində meydana çıxan qızdırma; südəmər uşaqlarda qidalanma pozğunluğu zamanı müşahidə olunur

Fövqəladə qızdırma (*f. intermittis*) – gün ərzində yüksək bədən temperaturunun normal və ya aşağı temperaturla növbələnməsi ilə xarakterizə olunan qızdırma

Hektik qızdırma *(f. hectica)* – bədən temperaturunun yüksəlməsi (3-5^0) və sürətlə azalması ilə xarakterizə olunan qızdırma, gün ərzində bir neçə dəfə təkrarlana bilər; məs., sepsis zamanı müşahidə olunur

Həddindən artıq yüksək qızdırma – *bax:* hiperpiretik qızdırma

Hiperpiretik qızdırma *(f. hyperpyretica)* – bədən temperaturunun 41^0 C-dən yüksək olması

İnfeksion qızdırma (*f. infectiva*) – yoluxucu xəstəliklər zamanı törədicinin mübadilə və parçalanma məhsullarının, həmçinin endogen pirogenlərin orqanizmə təsiri nəticəsində meydana çıxan qızdırma

İrinli-rezorbtiv qızdırma *(f. purulentoresorptiva)* – irinli iltihab ocağından toksik məhsulların so-

rulması nəticəsində meydana çıxan qızdırma

Qeyri-infeksion qızdırma (*f. non infectiva*) – infeksion proseslə əlaqəsi olmayan, məsələn, toxumaların aseptik zədələnməsi, reseptor zonanın qıcıqlanması, orqanizmə pirogen maddələrin daxil edilməsi nəticəsində yaranan qızdırma

Mülayim qızdırma – bədən temperaturu 38-39^{0}C arasında dəyişir

Residiv verən qızdırma (*f. recidiva*) – xəstənin bədən temperaturunun normal göstəricilərə endikdən bir neçə gün sonra yenidən yüksəlməsi ilə xarakterizə olunan qızdırma

Subfebril qızdırma (*f. subfebrilis*) – bədən temperaturunun 38^{0}C-dən yüksək olmaması

Süd qızdırması (*f. lactea*) – süd vəzində südün kəskin durğunluğu nəticəsində yaranan qızdırma

Üzücü qızdırma *(f. hectica) – bax:* hektik qızdırma

Vaksin qızdırması – peyvənddən sonra temperaturun yüksəlməsi

Yanılmış qızdırma (*f. inversa*) – səhər saatlarında bədən temperaturu axşam saatlarına nisbətən yüksək olur

Yanlış qızdırma *(f. irregularis)* – bədən temperaturunun yüksəlmə və azalma dövrlərinin əvəzlənməsində heç bir qanunauyğunluğun olması

Yara qızdırması (*f. vulneralis*) – *bax:* irinli-rezorbtiv qızdırma

Yüksək qızdırma – bədən temperaturu 39-41^{0}C arasında dəyişir

Q-qızdırması *(febris Q*, qısaldılmış ing. *query* qeyri-müəyyən*) – bax:* Ku qızdırması

Qızıl dermatit – *bax:* krizoderma

Qızılyel *(erysipelas)* – kəskin və ya xroniki gedişli streptokokk infeksiyası olub, dəri və ya selikli qişada məhdudlaşmış seroz, seroz-hemorragik iltihab əlamətləri və ümumi intoksikasion əlamətlərlə gedən xəstəlik

Azan qızılyel *(e. migrans) – bax:* miqrasiyaedən qızılyel

Birincili qızılyel *(e. primarium)* – orqanizmdə iltihab ocağı olmadan baş qaldıran qızılyel

Bulyoz qızılyel *(e. bullosum)* – seroz ekssudatla dolu epidermal qovuqcuqların əmələ gəlməsi ilə gedən qızılyel

Eritematoz qızılyel *(e. erythematosum)* – dərinin hiperemiyası və ödemi ilə gedən qızılyel

Fleqmonoz qızılyel *(e. phlegmonosum)* – dərialtı toxumanın fleqmonası ilə gedən qızılyel

İkincili qızılyel *(e. secundarium)* – irinləmiş yaranın və ya digər irinli iltihab ocağının ağırlaşması kimi meydana çıxan qızılyel

Qanqrenoz qızılyel *(e. gangraenosum)* – dərinin bir hissəsinin nekrozu ilə gedən qızılyel

Miqrasiyaedən qızılyel *(e. migrans)* – ilkin iltihab ocağında iltihabi prosesin sönməsindən sonra digər nahiyələrdə prosesin baş qaldırması ilə gedən qızılyel

Pustulyoz qızılyel *(e. pustulosum)* – irinlə dolu epidermal qovuqcuqların əmələ gəlməsi ilə gedən qızılyel

Residivverən qızılyel *(e. recurrens)* – iltihabi prosesin eyni lokalizasiyada təkrar meydana çıxmasından ibarət qızılyel

Sürünən qızılyel – ilkin zədələnmə ocağının sərhədlərindən kənara yayılan qızılyel

Yalançı qızılyel *(e. spurium) – bax:* ikincili qızılyel

Qızılca (*morbilli*) – kəskin infeksion xəstəlik olub, qızılca virusu – Palynosa morbillarum tərəfindən törədilir; xəstəlik hava-damcı yolu ilə keçir, ümumi intoksikasiya, baş ağrıları, yuxarı tənəffüs yollarının katarı, papulyoz-ləkəli səpgilərlə səciyyələnir; nəinki uşaqlar, böyüklər də xəstələnə bilərlər

Qızılca qlobulini – qeyri-fəal immunizasiya üçün vasitə

Qızıllama metodu (sin. qızılla impreqnasiya) – histoloji preparatlarda neyrofibrillərin xlorlu qızıl məhlulunda impreqnasiyasına əsaslanan aşkar edilməsi üsulu

Qida antiseptikləri – qida məhsullarının konservləşdirilməsi zamanı istifadə olunan mikrob əleyhinə vasitələr

Qida bakteriotoksikozu *(bacteriotoxicoisis alimentaria) – bax:* qida toksikoinfeksiyası

Qida borusu *(esophagus)* – həzm sisteminin udlaqla qida borusu arasında yerləşən boruşəkilli əzələvi orqanı

Qida borusu dəliyi *(hiatus esophageus)* – diafraqma ayaqcıqları arasında, aortal dəlikdən solda, bir qədər öndə yerləşən, qida borusu və azan sinirin keçdiyi dəlik

Qida borusu səsi – *bax:* psevdosəs

Qida borusunun atreziyası – hər hansı bir səbəbdən qida borusu dəliyinin qapalı olması

Qida borusunun Barrett yarası *(Barrett esophagus)* – klinik-morfoloji əlamətlərinə görə mədə və onikibarmaq bağırsağın peptik yarasını xatırladan qida borusunun yarası

Qida borusunun idiopatik genişlənməsi *(dilatatio oesophagiidiopa-ellica) – bax:* kardianın axalaziyası

Qida intoksikasiyası *(alimentary toxicosis) – bax:* qida zəhərlənməsi

Qida maddələrinin disbalansı – bioloji mühüm maddələrinin optimal nisbətinin pozulduğu qida rasionu

Qida maddələrinin imbalansı – *bax:* qida maddələrinin disbalansı

Qida mühiti *(growth medium)* – mikroorqanizmlərin və ya ali orqanizm hüceyrələrinin inkişafı və ya bölünməsi üçün lazım olan konsentrasiyada qidalı maddələrin olduğu süni substrat

Qida toksikoinfeksiyası *(toxicoinfectio alimentaria)* – orqanizmdən kənarda ekzotoksin törətmək qabiliyyəti olan şərti patogen bakteriyaların törətdiyi, əsasən mədə-bağırsaq traktının yuxarı hissəsini zədələyən, su-duz mübadiləsinin pozulması ilə gedən kəskin qısamüddətli xəstəlik

Qida zəhərlənməsi *(intoxicatio alimentaria)* – tərkibində zəhərli maddələr olan qida məhsulları ilə zəhərlənmə

Qidalanma *(alimentatio)* – orqanizmin sərf etdiyi enerjinin bərpa edilməsi, toxumaların yenilənməsi və orqanizmin funksiyalarının tənzimlənməsi üçün lazımi olan maddələrin orqanizmə daxil olması, həzm olunması və sorulması prosesi

Qidalanma faktoru – qidanın tərkibinə daxil olan və orqanizmin mübadilə proseslərində iştirak edən maddələrin ümumi adı

Qidanın ballast maddələri – bitki mənşəli qidalarda olan, həzm traktında heç bir fermentativ dəyişikliyə uğramayan və bununla da bağırsağın fəaliyyətini tənzimləyən maddə

Qidanın həzmi (pepsis, digestio) – mürəkkəb qida maddələrinin həzm orqanları tərəfindən ifraz olunan fermentlər vasitəsi ilə daha sadə maddələrə parçalanması

Qidanın kalorililiyi – tərkibinə daxil olan maddələrin oksidləşməsi zamanı ayrılan enerjinin miqdarını göstərən energetik göstərici

Qlansmann – Riniker sindromu ***(Glanzmann-Riniker sindrom, E.Glanzmann, 1887-1959, isveçrə,patoloqu; R.Paul, 1911, isveçrə, pediatrı, hematoloqu)***– *bax:* limfopenik aqammaqlobulinemiya

Qlanzmann xəstəliyi – burun qanaxmaları, dəri və selikli qişalarda qansızmalar, anemiya ilə təzahür edən, erkən uşaq yaşlarında rast gəlinən irsi xəstəlik

Qlanzmann Rineker sindromu – ağız boşluğunun, udlağın, qırtlağın yayılmış mikozu, pnevmoniya, bədənin hərarətinin yüksəlməsi, allergik səpgi və limfositopeniya ilə gedən, erkən uşaq ölümünə səbəb olan irsi xəstəlik

Qlaukoma *(glaucoma)* – gözdaxili mayenin rahat xaric ola bilməməsi nəticəsində gözdaxili təzyiqin qalxması və görmə siniri diskinin trofikasının pozulması nəticəsində görmə funksiyasının zəifləməsi ilə gedən xəstəlik

Açıqbucaqlı qlaukoma (*g. apertoangulare*) – gözün ön kamera bucağı hər tərəfdən açıq olur, gözdaxili təzyiqin yüksəlməsi maye axınının çətinləşməsi ilə əlaqədardır; xəstələrin əksəriyyətində qüzehli qişanın bəbək zonasının diffuz atrofiyası, piqmentli bəbək haşiyəsinin dağılması, piqmentin qüzehli qişanın ön səthində yayılması müşahidə olunur

Adi qlaukoma (*g. simplex*) – hiss edilmədən başlayan, tədricən inkişaf edən və gözün ön seqmentində aydın görünən klinik təzahürlərin olmaması ilə xarakterizə olunan qlaukoma

Anadangəlmə qlaukoma (*g. congenitum*) – mayenin axım yollarının anadangəlmə inkişaf etməməsi səbəbi ilə yaranan qlaukoma; erkən uşaq yaşından təzahür edir

Birincili qlaukoma (*g. primarium*) – bir qayda olaraq, 40 yaşdan yuxarı şəxslərdə rast gəlinir, sağlam hesab olunan gözlərdə aşkar səbəb olmadan yaranır

Fakogen qlaukoma (*g. phacogeneticum*) – büllurun forma, ölçü və yerinin dəyişməsi nəticəsində maye axımının pozulması ilə səciyyələnən ikincili qlaukoma

Fakolitik qlaukoma (*g. phacolyticum*; yun. *phakos* mərci + *lytikos* dağıda bilən) – yetişmiş katarakta zamanı inkişaf edən fakogen qlaukoma növü; büllurun kapsulunda mikroperforasiyaların əmələ gəlməsi nəticəsində ön kamera mayesinə keçən zülal mikrohissəcikləri mayenin axım yollarını blokada edir

Fakomorfik qlaukoma (*g. phacomorphum*) – yetişməmiş və ya travmatik katarakta zamanı büllurun şişkinləşməsi və həcminin artması nəticəsində inkişaf edən fakogenetik qlaukoma

Hipersekretor qlaukoma (*g. hypersecretorium*) – normal maye axınının saxlanması ilə maye ifrazının artması nəticəsində inkişaf edən qlaukoma

Xroniki qlaukoma (*g. chronicum*) – gözdaxili təzyiqin kəskin artması baş vermədən uzun müddət davam edən qlaukoma

Qapalıbucaqlı qlaukoma (*g. clausoangulare*) – gözün ön kamera bucağının qüzehli qişanın kökü ilə blokadası

Mütləq qlaukoma (*g. absolutum*) – qlaukomanın son mərhələsi, görmə funksiyaları tam itirilmişdir

Piqmentli qlaukoma (*g. pigmentosum*) – gözün drenaj aparatının piqmetlə bağlanması nəticəsində yaranan açıqbucaqlı qlaukoma

Posttravmatik qlaukoma (*g. posttraumaticum*) – mayenin axım yollarının mexaniki zədələnməsi nəticəsində yaranan ikincili qlaukoma

Qlaukomotsiklik tutmalar sindromu – *bax:* Pozner-Şlossman sindromu

Qlazer sindromu *(G.H. Glaser,1920,amer. nevropatoloq)* – üzdə tutmaşəkilli ağrılar, zökəm, göz yaşının və tüpürcək ifrazının axması ilə təzahür edən atipik nevralgiya

Qlazer yarığı (fissura Glaseri; J. H. Glaser, 1629-1675, isveçrəli anatom) – gicgah sümüyündə yerləşən təbil telinin çıxış yeri

Qlenar üsulu (C.M.F. Glenard, 1848-1920, frans. həkimi) – splanxnoptozun aşkar edilməsi üsulu, xəstənin arxasında dayanan həkim onun qarnının aşağı hissəsini əlləri ilə yuxarıya doğru çəkməsi nəticədə qarındakı ağrıların itməsinə əsaslanır

Qlenar simptomokompleksi (C.M.F. Glenard) – *bax:* splanxnoptoz

Qlial afibroplaziya *(afibroplasia glialis)* – əsasən alimentar distrofiya, pernisioz anemiya və ağır mübadilə pozğunluqları zamanı meydana çıxan astrositar qlialın distrofiyası nəticəsində qlial liflərin əmələ gəlməsinin pozulması ilə xarakterizə olunan patoloji vəziyyət

Qlikogen *(glycogenium)* – qaraciyər və əzələlərdə toplanan, qlükozanın qalığından yaranan yüksəkmolekullu polisaxarid (qlikogen mübadiləsinin pozulması nəticəsində qlikogenozlar yaranır)

Qlikogen aminturşuları – mübadiləsi zamanı qlükozanın əmələ gəldiyi və ketoqrup tərkibli kimyəvi birləşmənin əmələ gəlmədiyi aminturşular (məs., alanin, arginin, asparagin turşuları)

Qlikogen xəstəliyi *(sin. Qirke xəstəliyi) – bax:* qlikogenoz

Qlikogenez (*glycogenesis*; qliko- + yun. *genesis* yaranma, əmələ gəlmə) – qlikogenin orqanizmdə biosintezi

Qlikogeniya (köh.; qliko- + yun. *genea* yaranma, əmələ gəlmə) – *bax:* qlikogenez

Qlikogenoz *(glycogenosis)* – orqan və toxumalarda qlikogenin artıq miqdarda toplanması ilə xarakterizə olunan karbohidrat mübadiləsinin irsi xəstəliklərinin ümumi adı

I tip qlikogenoz – qaraciyər və böyrəklərdə qlükoza-6-fosfataza fermentinin çatışmazlığı ilə xarakterizə olunan qlikogenoz; qaraciyər və böyrəklərin ölçüsünün böyüməsi, kaxeksiya və qıcolmalarla təzahür edir; autosom-dominant tiplə ötürülür

II tip qlikogenoz – α-qlükozidazanın çatışmazlığı nəticəsində inkişaf edən qlikogenoz; ürək çatışmazlığı, adinamiya, əzələ hipotoniyası, boyun inkişafdan qalması, MSS funksiyalarının pozulması ilə xa-

rakterizə olunur; autosom-resessiv tiplə ötürülür

III tip qlikogenoz – qaraciyər və əzələlərdə amino-1,6-qlükozidaza fermentinin aktivliyinin tam və ya qismən olmaması nəticəsində inkişaf edən qlikogenoz; hepatomeqaliya, əzələ hipotoniyası, ayrı-ayrı əzələ qruplarının hipertrofiyası, qan dövranının pozulması ilə xarakterizə olunur

IV tip qlikogenoz – 1,4-qlükan, 6-α-qlükoziltranferazanın olmaması nəticəsində hepatosplenomeqaliya, sarılıq, hipoqlikemiya və qaraciyər sirrozunun inkişafı ilə xarakterizə olunan qlikogenoz; autosom-resessiv tiplə ötürülür

V tip qlikogenoz – əzələ qlikogen-fosforilazasının çatışmazlığı nəticəsində meydana çıxan, əzələ zəifliyi, əzələ spazmları və taxikardiya ilə təzahür edən qlikogenoz; autosom-resessiv tiplə ötürülür

VI tip qlikogenoz – qaraciyər qlikogen-fosforilazasının çatışmazlığı nəticəsində inkişaf edən qlikogenoz; boyun inkişafdan qalması, hepatomeqaliya, hipoqlikemiya və lipemiya ilə xarakterizə -olunur; autosom-resessiv tiplə ötürülür

VII tip qlikogenoz – qaraciyər və (və ya) əzələlərdə fosfoqlükomutazanın çatışmazlığı nəticəsində inkişaf edən və metabolik miopatiya, hepatomeqaliya ilə təzahür edən qlikogenoz

VIII tip qlikogenoz – əzələlərdə fosfofruktokinazanın aktivliyinin çatışmazlığı və ya tamamilə olmaması nəticəsində inkişaf edən, əzələ zəifliyi və yorğunluqla təzahür edən qlikogenoz

IX tip qlikogenoz – fosforilaza B-nin kinazasının çatışmazlığı nəticəsində meydana çıxan, hepatomeqaliya və iştahanın olmaması ilə xarakterizə olunan qlükogenoz; resessiv tiplə ötürülür

Generelaziə olunmuş qlikogenoz *(g. generalisata) – bax:* II tip qlikogenoz

Hepatonefromeqal qlikogenoz *(g. hepatonephromegalica) – bax:* I tip qlikogenoz

Kombinəolunmuş qlikogenoz *(g. combinata)* – bir neçə fermentin çatışmazlığı ilə xarakterizə olunan glikogenoz

Qaraciyərin sirrozu ilə diffuz qlikogenoz – *bax:* IV tip qlikogenoz

Nefromeqalik glikogenoz *(g. nephromegalica) – bax:* I tip qlikogenoz

Qlikolitik – şəkəri parçalayan

Qlikoliz *(glycolysis)* – oksigen tələbatı olmadan, süd turşusu və ATF-in yaranması ilə nəticələnən, qlükozanın fermentativ parçalanması (anaerob şəraitdə işləyən əzələ üçün enerji mənbəyi)

Qlikoproteinlər *(glycoproteins)*– tərkibində karbohidrat komponenti olan mürəkkəb zülallar (məs., bir sıra ferment, hormon və immunoqlobulinlər)

Qlikoproteidlər – *bax:* qlikoproteinlər (köhnə adı qlikoproteidlər)

Qlioblastoma *(glioblastoma)* – şiş hüceyrələrinin dağınıq yerləşməsi, nüvələrinin polimorfizmi, nekroz ocaqlarının olması və damarlarının dəyişilməsi ilə xarakterizə olunan bədxassəli qliomanın bir növü

Qlioma *(glioma)* – mərkəzi sinir sisteminin neyroqliya hüceyrələrindən inkişaf edən şişi; geniş yayılmış baş beyin və onurğa beyni xərçəngidir

Qlioma ependimal *(ependymal glioma) – bax:* ependimoma

Qlioma sarkomatoz *(glioma sarcomatosum) – bax:* meduloblastoma

Qlioz çapıq *(cicatrix gilialis)* – qlial hüceyrələrin proliferasiyası zamanı sinir toxumasının kiçikocaqlı zədələnməsi nəticəsində əmələ gələn çapıq

Qliserin *(glycerinum)* – təbii yağ və lipidlərin tərkibinə daxil olan üçatomlu spirt

Qlisinemiya *(glycinaemia)* – aminturşuların mübadiləsinin irsi pozğunluğu olub, qanda və sidikdə qliserin artması, ketoasidoz

Qliya *(glia) – bax:* neyroqliya

Qlobar demensiya – *bax:* total demensiya

Qlobulin *(globulinum*; lat. *globulus* kürəcik*)* – duzların, turşu və qələvilərin zəif neytral məhlulunda həll olunan, distillə edilmiş suda həll olunmayan zülalların ümumi adı; qan zərdabında zülalların 40%-ni təşkil edirlər

AC-qlobulin – *bax:* factor V

Akselerator qlobulin *(acceletaror globulin) – bax:* factor V

Alfa-qlobulin – lipidlərin nəqlində iştirak edən qlikoproteid və lipoproteidlərdən təşkil olunmuş qan zərdabının qlobulin fraksiyası

Antihemofil qlobulin – *bax:* faktor VIII

Antihemofil qlobulin A – *bax:* faktor VIII

Antihemofil qlobulin B – *bax:* faktor IX

Beta-qlobulin – tərkibində ən çox lipid fraksiyası olan zülallardır, onlara aiddir: β-lipoproteinlər, transferrin, C3-kompliment, kompliment C-1 S,kompliment C-4, kompliment C-5, C-reaktiv zülal

Əzələ qlobulini – *bax:* mioqlobulin

Qamma-qlobulin *(gamma-globulinum)* – plazmanın alfa və beta qlobulinlərə nisbətən az elektroforetik hərəkətliyə malik immunoqlobulin fraksiyası

Kortikosteroid birləşmiş qlobulin (sin. transkortin) – kortikosteroidləri birləşdirən və onların nəqlində iştirak edən qan zülalı

Qlobus isterikus *(globus hystericus, sin.globus pharyngeus)* – boğazda müxtəlif patologiyalarla əlaqədar olaraq yuxarı-aşağı enən yığıntının varlığı hissiyyatı, emisional stresdə əmələ gəlir ,klassik nevrotik sindromdu

Qlomangioma *(glomangioma) – bax:* qlomusun şişi

Qlomerulit *(glomerulitis)* – böyrəklərin kəskin və xroniki xəstəliklərində böyrək yumaqcıqlarının hər hansı bir zədələnməsi yaxud funksiyalarının pozulması

Qlomerulonefrit *(glomerulonephritis)* – əsasən böyrəyin yumaqcıq aparatının zədələnməsilə böyrəklərin ikitərəfli diffuz itihabı; çox vaxt angina, yuxarı tənəffüs yollarının infeksiyası, pnevmoniya və digər xəstəliklərdən sonra baş verir

Ailəvi karlıqla gedən qlomerulonefrit – *bax:* Alport sindromu

Hipertonik qlomerulonefrit (*g. hypertonica*) – əsas simptomu arterial hipertenziya olan xroniki qlomerulonefrit

Xroniki qlomerulonefrit *(g. chronica)* – böyrək yumaqcıqlarının immun zədələnməsi nəticəsində böyrək funksiyasının zəifləməsi və böyrək çatışmazlığı ilə nəticələnən

xəstəlik (chronicus glomerulonephritis)

Kəskin qlomerulonefrit *(g. acuta)* – streptokokk və ya başqa bir infeksiya nəticəsində böyrək yumaqcıqlarının zədələnəməsi və nefrotik sindromla gedən xəstəlik

Qarışıq qlomerulonefrit – qlomerulonefritin bu növü 7% xəstələrdə rast gəlinir, nefrotik sindrom və arterial təzyiqlə xarakterizə olunur

Latent qlomerulonefrit (*g. latens*) – zəif təzahür edən sidik sindromu ilə xarakterizə olunan xroniki qlomerulonefrit; xəstəlik 15-20 il davam edə bilir, bu müddət ərzində xəstələrdə protenuriya, hematuriya, sidiyin nisbi sıxlığının azlığı, hipoproteinemiya əlamətləri müşahidə olunur

Membranoz qlomerulonefrit (*g. membranosa*) – xroniki qlomerulonefritin patomorfoloji növü olub, böyrək yumaqcıqlarının bazal membranlarının qalınlaşması və parçalanması ilə xarakterizə olunur

Membranoz-proliferativ qlomerulonefrit (*g. membranosoproliferativa*) – xroniki qlomerulonefritin patomorfoloji növü olub, özündə membranoz və proliferativ qlomerulonefritin əlamətlərini birləşdirməklə xarakterizə olunur

Nefrotik qlomerulonefrit (*g. nephrotica*) – normal və aşağı qan təzyiqində ödem, proteinuriya, hipoproteinuriya, disproteinuriya, hiperxolesterinemiya ilə xarakterizə olunan xroniki qlomerulonefrit

Proliferativ qlomerulonefrit (*g. proliferativa*) – qlomerulonefritin patomorfoloji növü olub, Endotelial və xüsusən mezangial hüceyrələrin proliferasiyası, yumaqcıqların polimorfnüvəli leykositlərlə infiltrasiyası ilə xarakterizə olunur

Tez proqressivləşən qlomerulonefrit – qlomerulonefritin az rast gəlinən forması olub, böyrək çatışmazlığı ilə xarakterizə olunur; ağır gedişə malikdir, ödem, yüksək arterial təzyiq, sidik sindromları, böyrək çatışmazlığı sindromu ilə büruzə verir

Qlomerulopatiya *(glomerulopathia)* – *bax:* qlomerulyar xəstəlik

Qlomerulyar xəstəlik – iltihabı və qeyri-iltihabı səbəbdən böyrəyin yumaqcıqlarının keçiricilik qabiliyyətinin pozulması ilə gedən xəstəliklərin ümumi adı

Qlomus *(glomus)* – *bax:* paraqanqlium

Qlosektomiya *(glossectomy)* – dilin cərrahi yolla xaric edilməsi

Qlossalgiya *(glossalgia)* – dildə ağrı və digər patoloji dəyişiklərlə müşahidə olan xəstəlik

Qlossit *(glossitis)* – dilin kəskin və ya xroniki iltihabı

Atrofik qlossit (*g. atrophica*) – dilin selikli qişasının bütün növ məməciklərinin azalması və ya tam yox olması, bəzən isə dilin ölçüsünün kiçilməsi ilə xarakterizə olunan qlossit

Deskvamativ qlossit (*g. desquamativa*; sin. miqrasiya edən qlossit, eksfoliativ qlossit) – epitelin deskvamasiya ocaqlarının onun şişkinlik və qaralma ocaqları ilə növbələnməsi ilə xarakterizə olunan qlossit

Eksfoliativ qlossit *(g. exfoliativa)* – *bax:* deskvamativ qlossit

Miqrasiya edən (*g. migrans*) – *bax:* deskvamativ qlossit

Qlossit rombşəkilli (*glossitis rhomboidea*) – dilin orta xəttində erite-

matoz atrofiyalaşmış rombabənzər sahənin olması

Qlossodiniya *(glossodynia)* – seqmentar tipli dilin hissiyatının pozulması,tüpürcək ifrazının və dad hissiyatının poulması

Qlossofitiya – «tüklü qara dil»

Qlossofobiya – *bax:* peyrafobiya

Qlossolaliya *(glossolalia)* – 1) dilin hər hansı bir patoloji prosesi zamanı artikulyasiyanın pozulması; 2) psixi xəstələrdə çoxsaylı neologizmlərin işlənməsi və cümlələrin düzgün qurulmaması nəticəsində anlaşılmayan nitq

Qlossoplegiya *(glossplegia)* – dilaltı sinirin ikitərəfli zədələnməsi zamanı dil əzələsinin iflici

Qlossoptoz *(glossoptosis)* – dilin tam inkişaf etməməsi və sallanmasından ibarət inkişaf anomaliyası

Qlottoqraf – səs tellərinin vibrasiyasını tətbiq edən cihaz

Qlottoqrafiya (*glottis* + yun. *grapho* yazmaq) – fonasiya prosesində səs tellərinin vibrasiyasını əks etdirən xəttin qeydə alınması ilə icra olunan səs aparatının müayinə üsulu

Qlükagon *(glucagonum)* – mədəaltı vəz hüceyrələri tərəfindən sintez olunan insulinin fizioloji antaqonisti

Qlükaqonoma *(glicagonoma)* – mədəaltı vəzin adenoması tərəfindən qlükoqonun sekresiyasının artması nəticəsində eroziv dermatoz, anqulyar xeilit, stomatit, qlossit, anemiya ilə gedən xəstəlik

Qlükosteroma – böyrəküstü vəzin qabıq maddəsinin şişi

Qlükozaya tolerantlıq testi – orqanizmə qlükoza yeridildikdən sonra onun qanda konsentrasiyasına əsasən, şəkərli diabetin diaqnostikası üsulu

Qlütamin *(glutamine)* – toksiki birləşmələrin neytralizasiyasında, purin nukleotidlərinin biosintezində iştirak edən amonyakın orqanizmdə çevrilmə məhsulu

Qlütamin turşusu *(acidum glutaminicum)* – orqanizmdə azot mübadiləsində iştirak edən dərman preparatı

Qocalıq ağıl kəmliyinin Altsheymerləşməsi – qocalıq ağıl kəmliyinin gecikmiş mərhələsində Altsheymer xəsətəliyinə oxşar ocaqlı simptomların (afaziya, aqrafiya, aleksiya, apraksiya, aqnoziya və s.) əmələ gəlməsi

Qocalıq elastozu (*elastosis senilis*) – *bax:* dərinin diffuz elastoması

Qocalıq karlığı *(amblyacusia)* – *bax:* presbiakuzis

Qocalıq qövsü *(arcus senilis)* – gözün buynuz qişasının lipid mübadiləsinin pozulması nəticəsində yaşlı şəxslərdə limbə nəzərən konsentrik yerləşən qövs və ya halqa şəklində degenerativ xarakterli davamlı bulanıqlaşma

Qocalıq uzaqdangörməsi – *bax:* presbiopiya

Qocalıq ziyilləri *(verruca senilisis)* – yaşlı şəxslərdə təsadüf olunan bərk konsistensiyalı ziyillər

Qocalıq zəifeşitməsi – *bax:* presbiakuzis

Qocalma *(senescentia)* – bütün canılara xas olan bioloji qanunauyğunluqdur; orqanizmin orqan və sistemlərində onun ətraf mühitə uyğunlaşma qabiliyyətini məhdudlaşdıran və qocalığa gətirib çıxaran yaş dəyişikliklərinin əmələ gəlməsi; bu dəyişikliklər əvvəlcə xarici əlamətlərdə özünü göstərir: bədənin qaməti

dəyişir, bədən forması başqa şəkil alır, onun ölçüləri kiçilir, dəri elastikliyini itirir, onda qırışlar əmələ gəlir; görmə, eşitməvə yaddaş zəyifləyir; sümük toxumasının sıx və süngər maddəsi nazikləşir

Fizioloji qocalma (*s. physiologica*) – fərdin genetik inkişaf proqramına uyğun olaraq təbii gedən qocalma

Patoloji qocalma (*s. pathologica*) – hər hansı bir xəstəlik nəticəsində fizioloji qocalma tempinin sürətlənməsi

Radiasion qocalma (*s. radiatione*) – orqanizmə ionlaşdırıcı şüaların təsiri nəticəsində baş verən vaxtından əvvəl qocalma

Vaxtından əvvəl qocalma (*s. praecox*) – daha erkən yaşlarda baş verən qocalma

Qoemin sindromu *(sin.TKCR-sindromu "tosticollis", keloids, cryptorchidim)* – əyriboyunluq, kriptorxizm, böyrəyin displaziyası və keloid çapıqlardan ibarət simptomokompleks

Qoffmanın sikkozabənzər atrofik follikiliti *(E.Hoffmann, 1868-1959, alm. dermatoloqu) – bax:* lyüpoid sikkozu

Qofman-Haberman sindromu – *bax:* toksiki lixenoid melanodermiyası

Qofmann çöpləri – *bax:* yalançı difteriya çöpləri

Qofmester-Finsterer əməliyyatı (F. Hofmeister, 1867-1926, alm. cərrahı; H.Finsterer, 1877-1955,avstria cərrahı) – Bilrot-2 əməliyyatının modifikasiyası

Qoxu estezioneyroepiteliomaası (aesthesioneuroepithelioma olfactorium) – *bax:* estezioneyroblastoma

Qoxu sapları *(filum olfactorium)* – xəlbir sümüyü dəliklərindən qoxu soğanağına gedən qoxu hüceyrələrinin aksonabənzər çıxıntıları dəstəsi

Qoxu siniri sindromu *(syndromum nervi olfactori)* – qoxu analizatorunun periferik hissəsinin zədələnmələri zamanı taktil və dad hissiyyatının saxlanılması şəraitində birtərəfli hipo və ya anosmiya

Qoxu soğanağı *(bulbus olfactorius)* – baş beyin yarımkürələrinin alın payının aşağı səthində yerləşən qoxu beyninin qoxu yolu ilə davam edən hissəsi

Qoxu şırımı *(sucus olfactorius)* – burun boşluğunun lateral divarında yerləşən ensiz çökək

Qoxu üçbucağı *(triconum olfactorium)* – qoxu beynində qoxu yolunun aralanması nəticəsində yaranmış sahə

Qoxu yolları – impulsları burnun selikli qişasından qabıq və qabıqaltı qoxu mərkəzinə ötürən sinir hüceyrələri və lifləri

Qoxu yolu *(tractus olfactorius)* – baş beyin yarımkürələrinin alın payının aşağı səthində qoxu soğanağı və qoxu üçbucağı arasında yerləşən nazik kütlə

Qoxu yumaqcığı *(glomerulus olfactorius)* – qoxu soğanağında yerləşən qoxu saplarının və mitral hüceyrələrin dendritlərinin məcmusu

Qoldberq sindromu *(Goldberg syndrome)* – tədricən inkişaf edən eşitmə zəifliyi, boyun qısa olması, əqli inkişafın ləngiməsi, gözün buynuz qişasının bulanması ilə təzahür edən autosom –retisiv tipli irsi inkişaf anomaliyası

Qoldenar sindromu – epibulbar dermoid, qulaq seyvanının anomaliyası, mikroqnatiya və vertebral displaziyadan ibarət simptomokompleks

Qoldenhar sindromu *(Goldenhar sy-*

ndrome) – irsi patologiyadı , bədənin bir tərəfində inkişaf ləngiməsi müşahidə olunur - üz, qulaq, göz, onurğa: xarici qulaq keçəcəyinin atreziyası, qulaqətrafı fistullar, üzün birtərəfli hipoplaziyası, mikroftalmiya, katarakta, göz yarıqlarının çəpinə yerləşməsi və əqli inkişafın ləngiməsi

Qolotimiya *(holothymia) – bax:* affektiv fon

Qolts refleksi *(F.L. Goltz, 1834-1902, alm. fizioloqu)* – qarın boşluğu interoreseptorlarının qıcıqlanması nəticəsində ürək yığılmalarının tezliyinin azalması (bəzən ürəyin dayanması)

Qolts simptomu – qarın boşluğu orqanlarının zədə və xəstəlikləri zamanı Qolts refleksinə görə ürək yığılmalarının tezliyinin azalması

Qoltsknext sahəsi *(G.Holzknecht,1872-1931,avstr. qentqenoloqu) – bax:* retrokardial sahə

Qoltuqaltı nahiyə *(regio axillaris)* – öndən böyük döş əzələsinin aşağı kənarı, arxadan kürəyin enli əzələsi və böyük dairəvi əzələ (bazu oynağı ilə döş qəfəsi arasındakı nahiyə)

Qoltuqaltı trixokardioz *(trichocardinosis axillaris) – bax:* qoltuqaltı trixomikoz

Qon mişarlanması – seksiya zamanı kəllə əsası sümüklərinin frontal müstəvidə mişarlanması

Qonadopatiya *(gonadopathia)* – cinsiyyət vəzilərinin xəstəliyi

Qonadoterapiya *(qonadotherapia)* – cinsiyyət hormonlarının ekstraktları ilə müalicə

Qonadotropin – rilizinq ingibəedici hormon

Qonadotropsitlər – *bax:* D – bazofil adenositlər

Qoniometr *(goniometer)* – oynağın hərəkətliyini müəyyən etmək üçün cihaz

Qonioskop *(gonioscope)* – gözün ön kamerasını müayinə etmək üçün cihaz

Qonioskopiya *(gonioscopia)* – ön kamera bucaqlarının müayinə metodu

Qonoblenoreya *(sin . Blenoreya konyuktiviti)* – konyunktiva kisəsinə qonokokkun düşməsi nəticəsində yaranan spesifik iltihabi proses

Qonokokkemiya *(gonococcaemia)* – qanda qonokokkların olması

Qonomiya – *bax:* qonokokkemiya

Qonopiemiya *(gonopyaemia)* – müxtəlif orqanlara metastaz verən qonokokk sepsisi

Qonotokont (*qono-* + yun. *tokos* doğuş + *on, ontos* canlı, varlıq) – *bax:* auksosit

Qopalan sindromu (C. Gopalan, 20-ci əsr hind həkimi) – *bax:* ayağın yanma sindromu

Qopma *(abruptio)* – toxumaların həddən artıq gərilməsi nəticəsində ətrafların, orqanın, sümük fraqmentinin və s. qopmasından ibarət mexaniki zədələnmə

Qordışevski üsulu (Т.И. Гордышевский, 1890-cı ildə an. olub, sov. otorinolarinqoloqu) – qida borusunun kimyəvi yanıqları zamanı yaranmış stenozların aradan qaldırılması üçün "bujun" səhərə qədər qida borusunda qalması ilə aparılan bujlama

Qordoks *(gordox)* – kallikrein və tripsini inaktivləşdirən preparat

Qorxu (*angor, anxietas, timor*) – öz sağlamlığı, həyatı və s. üçün həyəcan yaradan hiss; normadan artıq olması patoloji vəziyyətlə əlaqədar olur

Qorxudan qorxma – *bax:* fobofobiya

Qorlin-Holts sindromu (R.J. Gorlin, amer. stomatoloq; R.W. Goltz, amer. dermatoloq) – dərinin kəskin hüdudları olan nazikləşməsi və hiperpiqmentasiyası, dırnaqların distrofiyası, ürəyin, gözün, qırtlağın və skeletin inkişaf qüsurlarından ibarət irsi genetik xəstəlik

Qorner sindromu (J.F. Horner, 1831-1886, isveçrəli oftalmoloq) – döş aortasının anevrizması zamanı boyun simpoitik kötüyünün sıxılması

Qornerin əks sindromu (J.F. Horner) – *bax:* Pti sindromu

Qorsleyin damar tikişi – damar uclarının çevrilərək fasiləsiz tikişlə tikilməsi

Qoruyucu geyim – dəri örtüyünə və geyim üzərinə müxtəlif zəhərləyici, radioaktiv, bioloji vasitələrin təsirindən, həmçinin nüvə partlayışı zamanı şəxsi heyətin qoruyucu vasitəsi

Qoruyucu maskalar – hava-damcı infeksiyaları zamanı istifadə olunan fərdi mühafizə vasitəsi

Qoşe xəstəliyi (P.Gaucher, 1854-1918, frans. həkimi) – qlükoserebrozidazanın çatışmazlığı nəticəsində mərkəzi sinir sisteminin zədələnməsi, sümük toxumasının dağılması, limfoadenopatiya, hepatosplenomeqaliya ilə gedən irsi xəstəlik

Qoşunların döyüş zamanı tibbi təminatı – tibb xidmətinin müalicə, təxliyyə, sanitar-gigiyena və əksepidemik fəaliyyəti və tibbi təchizatı

Qoşunların kütləvi qırğın silahından mühafizəsi – qoşunların döyüş qabiliyyətini saxlamaq və döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, nüvə, kimyəvi bioloji silahın qoşunlara və arxa obyektlərə təsirinə yol verməmək və ya onların təsirini maksimum zəiflətmək məqsədilə aparılan xüsusi tədbirlər sistemi

Qoşunun sanitar-epidemioloji vəziyyəti – qoşunun şəxsi heyətinin yoluxucu xəstələnmə halının səviyyəsi, strukturu və dinamikasını xarakterizə edən məlumatlar məcmusu

Qottşteyn üsulu ilə tamponada – zonda bərk sarınmamış pambığı burun boşluğuna yerləşdirdikdən sonra zondun əks tərəfə burularaq çıxarılması

Qoturluq *(scabies)* – qoturluq gənəsinin törətdiyi dermatozoonoz xəstəlik

Qoturluq gənəsi *(sarcoptes)* – qoturluq xəstəliyinin törədicisi

Qovers simptomu (W.R. Gowers, 1845-1915, ing. terapevt və nevropatoloqu) – 1) üz sinirinin zədələnməsi əlaməti: zədələnmiş tərəfdə dodaqlarını yumulu saxlamağa çalışan xəstənin aşağı dodağının çevrilməsi və mimiki əzələlərin yığılma qabiliyyətinin olmaması; 2) üçüncülü sifilisin əlaməti: işıqlandırma zamanı göz bəbəyinin qeyri-adi genişlənməsi

Qovers sindromu (W.R. Gowers; sin. vaqal kris, vazovaqal kriz) – karotit sinus nahiyəsində azan sinirin qəfil qıcıqlanması zamanı qarnın yuxarı nahiyəsində ağrı, nəbzin tezləşməsi, arterial təzyiqin aşağı düşməsi, soyuq tər və ölümdən qorxu əlamətlərinin meydana gəlməsi

Qovseyev üsulu (Л.А. Говсеев, sov. otorinolarinqoloqu) – eşitmə simulyasiyasını aşkar etmək üçün tətbiq olunan üsul

Qovuqcuqlu qızılyel *(erysipelas bullosum) – bax:* bulyoz qızılyel

Qoyer-Reynolds-Burke-Burkholder sindromu (R.A. Goyer, amer. patoloq; J.Reynolds, J.Burke, amer. həkimlər; P.M. Burkholder, amer. patoloq və immunoloq) – irsi anomaliyalar kompleksi: anadangəlmə böyrək xəstəliyi (polikistoz, qlomerulonefrit), karlıq, ixtioz

Qradeniqo sindromu (G.Gradeniga, 1859-1926, ital. otolarinqoloqu) – gicqah sümüyünün zirvəsi nahiyəsində məhdud meningit zamanı irinli orta otitin gözün düz əzələsinin iflici ilə birgə rast gəlindiyi və üçlü sinir boyunca ağrı, ağıreşitmə ilə gedən simptomokompleks

Qrafofobiya *(graphophobia)* – yazmaq, əlinə qələm götürməkdən patoloji qorxu

Qrafospazm *(graphospasmus)* – yazı zamanı barmaqlarda qıcolma

Qrahofiliya – qadınlarda yaşlı qadınlara qarşı cinsi həvəslə təzahür edən homoseksualizm

Qrammafon simptomu *(grammofon)* – xəstə tərəfindən qısaməzmunlu hadisələrin daimi təkrarlanmasından ibarət nitq stereotipinin bir forması

Qrand mal *(grand mal)* – generalizə olunmuş böyük epilepsiya tutması

Qrandaksin ***(****grandaxinum****)*** – nevroz və nevrozabənzər hallarda tətbiq olunan, emosional oyanıqlıq, apatiya, qorxu və həyəcanı aradan götürən trankvilizator

Qranşe xəstəliyi (J.J. Gnancher, 1843-1907, frans. pediatrı) – *bax:* Deno pnevmoniyası

Qranulema *(granuloma)* – iltihab nəticəsində toxumada əmələ gələn düyün və ya qabarlar

Brusellyoz qranulema (*g. brucellosum*) – brusellyoz zamanı əsas etibarı ilə limfatik düyünlərdə əmələ gələn epitelioid, giqant və plazmatik hüceyrələrdən təşkil olunan qranulema

İntubasion qranulema – intubasiya borusu ilə zədələnmə nəticəsində qırtlağın selikli qişasındakı səs qırışında inkişaf edən qranulema

İnyeksion qranulema– *bax:* inyeksion lipoqranuloma

Lepromatoz qranulema (*g. lepromatosum*) – *bax:* leproma

Lipoid qranulema (*g. lipoideum*) – *bax:* lipoqranuloma

Liponekrotik qranulema (*g. liponecroticum*; yun. *lipos* piy + *nekrotikos* ölümə səbəb olan, nekrotik) – *bax:* lipoqranulema

Nəhənghüceyrəli qranulema (*g. gigantocellulare*) – əsasən iri çoxnüvəli hüceyrələrdən ibarət olan qranulema

Periapikal qranulema (*g. periapicalei;* sin. diş qranuleması) – diş kökünü əhatə edən toxumalarda yerləşən qranulema, fibroz kapsula ilə əhatə olunmuş qranulyasiya toxumasından ibarətdir; xroniki iltihab nəticəsində əmələ gəlir

Piogen qranulema (*g. pyogenum*) – dərinin qırmızı və ya qəhvəyi rəngdə, ayaqcığı olan şişəbənzər törəməsi; qranulyasiya toxumasının çoxsaylı genişlənmiş kapillyarlarla artımı şəklindədir

Yad cismin qranuleması (*g. corporis alieni*) – yad cisim ətrafında yaranan giqanthüceyrəli qranulema

Qranulematoz *(granulomatosis)* – qranulemanın əmələ gəlməsi ilə gedən xəstəlik və ya vəziyyətlərin ümumi adı

Infeksion qranulematoz (g. infectiosa) - bir sıra infeksion xəstəliklər (vərəm, cüzam, sifilis, qarın və səpmə yatalağı və s.) zamanı əmələ gələn qranulematoz

Qeyri-infeksion nekrotik qranulematoz *(g. noninfectiosa necrotica) – bax:* Vegener qranulematozu

Xoşxassəli qranulematoz (*g. benigna*) – *bax:* sarkoidoz

Xroniki proqressivləşən diskoid qranulematoz (*g. discoidea progressiva chronica*) – naməlum etiologiyalı dermatoz, baldırın ön səthində sarımtıl-qırmızı rəngdə, iri yastı piləklərin əmələ gəlməsi ilə xarakterizə olunur

Qranulematoz periqlomerulit *(periglomerulitis granulematosa)* – Vegner qranulematozu zamanı zədələnmiş böyrək yumaqcıqlarının ətrafında yerləşən damarların periarteriiti

Qranuleozabənzər tekoma (*thecoma granulosiforme) – bax:* tekafollikuloma

Qranuloblastoma *(granuloblastoma) – bax:* meduloblastoma

Qranuloftiz *(granulophthisis) – bax:* aqranulositoz

Qranulopeniya *(granulopenia)* – dənəli leykositlərin sayının azalması

Qranulosit (*granulocytus*) – boyama zamanı sitoplazmasında dənəvərlik aşkar olunan leykosit

Qranulositopeniya *(granulocytopenia) – bax:* qranulopeniya

Qranulyasiya – *bax:* qranulyasiya toxuması

Qranulyoz – hər hansı patoloji proses nəticəsində epidermis qatının dənəli təbəqəsinin qalınlaşması

-Burnun qırmızı qranulyozu – yerli hiperhidroz və sianoz fonunda burnun üstündə xırda, çəhrayı papulaların yaranması ilə gedən tər vəziləri sekresiyasının pozulması nəticəsində meydana gələn xroniki uşaq dermatozu

Qranulyoz hüceyrəli şişlər (*thecoma granulosothecocellularis) – bax:* tekafollikuloma

Qranulyoz tekosit hüceyrəli şiş – *bax:* tekafollikuloma

Qrefe xəstəliyi – *bax:* xroniki xarici proqressivləşən oftalmoplegiya

Qrefe simptomu (A. Graefe, 1828-1870, alm. cərrah-oftalmoloqu) – aşağıya baxdıqda yuxarı göz qapağının geri qalması nəticəsində göz qapağı ilə buynuz qişa arasında skleradan ibarət sahənin görsənməsi

Qrefe-Şöqren sindromu (A. Graefe, 1828-1870, alm. cərraf-oftalmoloqu; T. Sjogren, isveçrəli psixiatr) – *bax:* Halqren sindromu

Qreqq sindromu (N.M. Gregg, 1892-1966, ing. oftalmoloqu) – hamiləlik zamanı ananın məxmərəklə yoluxması nəticəsində döldə yaranan karlıq, mikrosefaliya, zehni inkişafdan geri qalma, qıcolmalar, görmə sinirinin atrofiyası, mikroftalmiyası ilə təzahür edən anomaliyalar

Qrem Littl sindromu (E.G.G. Little, 1867-1950, ing. dermatoloqu) – *bax:* Littl-Lassuer sindromu

Qrenblad-Stranberq sindromu (Gronblad-Stranberg) – *bax:* elastik psevdoksantoma

Qrenland aloepsiyası *(greenland alopecia) – bax:* travmatik alopesiya

Qreyq sindromu (D.M. Greig, 1864-1936, şotl. cərrah) – kriptorxizm, qısaboyluluq, braxe sefaliya, mikrosefaliya və burun zirvəsinin enli olması ilə təzahür edən irsi inkişaf anomaliyası

Qrin-Berkoviç aspirasiyası – xəstənin öskürək anında icra olunan bronxoskopik aspirasiya

Qrinfelt-Lesqaft aralığı (J.C.Grynfelt, 1840-1913, frans. cərrahı) – *bax:* bel-vətər aralığı

Qrinfild sindromu (J.G. Greenfield, 1884-1958, ing. nevropatoloqu) – proqressivləşən ağıreşitmə, nitq qabiliyyətinin tədricən itməsi, davranış pozğunluğu, əqli çatışmazlıq və spastik parezlə gedən baş beynin sfinqolipidozlu sklerozu

Qrinsted sınağı – *bax:* sulema sınağı

Qrip *(influenza)* – yüksək kontagioz kəskin virus infeksiyası

Qrippoz angina (*angina gripposa*) – boğazda ağrılar, udlağın və damaq badamcıqlarının parlaq hiperemiyası ilə gedən qrip

Qrippotifoz leptospiroz – *bax:* sarılıqsız leptospiroz

Qrişprunq xəstəliyi (sin. aqanqlioz, HSCR, Hirschspurg's disease) – çənbər bağırsağın kəskin genişlənməsi və evakuator funksiyasının pozulması ilə gedən anadangəlmə xəstəlik

Qrizel sindromu (P.Grisel, 1869-1959, frans. həkimi) – əyriboyunluq **,** tonzillektomiya, angina, paratonzilyar abses və burunətrafı sinusların iltihabı nəticəsində atlant-ox oynağının limfogen iltihabı

Qrizel-Burjua sindromu *(syndrome Grisel-Bourgeois)* – *bax:* Qrizel sindromu

Qrizeofulvin *(griseofulvinum)* – göbələk əleyhinə təsir göstərən antibiotik

Qrizinger simptomu (N.Griesinger, 1881-1959, alm. psixiatr-nevropatoloqu) – «S» – vari sinusun trombozu və absesi zamanı məməyə-bənzər çıxıntının arxa kənarını palpasiya etdikdə şişkinlik və ağrının aşkar edilməsi

QRS-nın aberrant kompleksi – *bax:* mədəciklərin EKQ aberrant kompleksi

Qruber sindromu (sin. Mekkel-Qruber sindromu; G.B. Gruber 1884-1977, alm. patoloqu) – *bax:* Mekkel sindromu

Qrup antigeni – *bax:* izoantigen

Qruplaşmış immun anticismi – qanköçürmə, hamiləlik və allotransplantasiya zamanı, izoantigenlərlə kontakt nəticəsində yaranan izoanticisim

Qruplaşmış immun izoaqqlutin – *bax:* qruplaşmış immun anticismi

Qruplaşmış normal izoanticisim – normal insanın qan zərdabının təbii anticismi (ABO sisteminin bir və ya iki izoantigenlərinə qarşı yönəlmiş və qanın qruplara bölünməsini təmin edən anticisim)

Qruyenfelder simptomu – uşaqlarda orta qulağın kəskin iltihabı zamanı əmgəyin xarici bucağına basdıqda əlin baş barmağının bükülməsi, digər barmaqların yelpikvari açılması

Qualdi sindromu (Gualdi syndrome; P.Gualdi, 1808-1859) – *bax:* Kleyn-Vardenburq simptomu

Quanidin – maddələr mübadiləsində mühüm əhəmiyyət kəsb edən, kreatinin və argininin tərkibinə daxil olan fizioloji aktiv maddə

Qubler iflici (A.M.Gubler, 1821-1879, frans. farmakoloqu) – *bax:* Miara-Qubler sindromu

Qubler sindromu (A.M.Gubler) – *bax:* Millard-Qubler sindromu

Qudpasçer sindromu (sin. Anti GBM – xəstəlik; E.W. Goodpasture, 1886-1960, amer. patoloq) – proq-

ressivləşən qlomerulonefrit və ağciyər qanaxması ilə gedən autoimmun xəstəlik

Quduzluq *(rabies)* – əsasən mərkəzi sinir sistemini zədələyən kəskin zoonoz virus xəstəliyi

Quduzluq virusları qrupu – *bax:* lassa viruslar

Quelmonun kəskin eritromielozu (sin. kəskin mieloz) – *bax:* kəskin eritromieloblast leykoz

Quilford sindromu (sin. progeriya; H. Gilford, 1861-1941, ing. cərrahı) – qoxu və dadbilmənin olmaması, istilik mübadiləsinin olmaması, anhidroz, anadontiya, hipotrixoz, atrofik rinitlə təzahür edən inkişaf anomaliyası

Quilford-Tandli sindromu *(*H. Gilford, 1861-1941, ing. cərrahı) – *bax:* Quilford sindromu

Qujero-Mulok-Hoyver-Şöqren sindromu (H. E. Gougerot, 1881-1955, frans. dermatoloqu; H.S.C. Sjoqren, 1899, İsveç oftalmoloqu) – *bax:* Mikuliç-Şöqren sindromu

Qulağın hava kontuziyası – hava dalğası nəticəsində alınan zədə

Qulağın yuyulması – xarici qulaq keçəcəyinin və ya orta qulağın xüsusi spris vasitəsi ilə dezinfeksiyaedici məhlulların yeridilməsi ilə icra olunan müalicəvi proseduru (məs., qulaq boşluğuna irinin yığılması zamanı, qulaq tıxacığının xaric edilməsi məqsədilə)

Qulaq damcıları – qulaq xəstəliklərinin müalicəsi zamanı istifadə edilən damcı

Qulaq kiri *(cerumen)* – xarici qulaq keçəcəyinin qığırdaq hissəsində yerləşən xüsusi vəzilərin ifraz etdiyi maddə

Qulaq qanqlionu (*ganglionun oticum)* – aşağı çənə sinirinin medial tərəfində oval dəlikdən aşağıda yerləşən parasimpatik qanqlion

Qulaq kiri tıxacı – xarici qulaq keçəcəyinin qığırdaq hissəsində yerləşən xüsusi vəzilərin ifraz etdiyi maddənin artması nəticəsində əmələ gələn tıxac

Qulaq manometriyası – Yevstax borusunun keçiriciliyinin qulaq manometri vasitəsi ilə təyin edilməsi

Qulaq mobilizatoru – qulağın orta hissəsində aparılan əməliyyat zamanı təbil pərdəsini uzaqlaşdıran və qulaq sümüklərinin hərəkətliyini yoxlayan alət

Qulaq pərdəsi *(membrana tympani)* – xarici qulaqla orta qulağın hüdudunda yerləşən, su və havanı buraxmayan zar

Qulaq seyvanı *(aurikula)* – xarici qulağın çənə oynağı ilə məməyəbənzər çıxıntı arasında yerləşən qığırdaqlı hissəsi

Qulaq seyvanı qabarcığı *(tuberculum auriculae) – bax:* Darvin qabarcığı

Qulaqcığın səyriməsi – qulaqcığın elektrik aktivliyinin tezliyinin dəqiqədə 240-440-a qədər yüksəlməsi

Qulaqcıq asistoliyası – bir və ya bir neçə ürək tsikli zamanı qulaqcığın sistolasının olmaması

Qulaqcıq-mədəcik dissosiasiyası – *bax:* atrioventrikulyar dissosiasiyası

Qulaqcıq-mədəcik kanalı – *bax:* atrioventrikulyar kanal

Qulaqətrafı-çeynəmə nahiyəsi *(regio parotiteomasseterica)* – yuxarıda almacıq qövsü, öndən çeynəmə əzələsinin ön kənarı, aşağıdan aşağı çənənin aşağı kənarı, arxadan xarici qulaq keçəcəyi və məməyəbənzər

çıxıntının ön kənarı ilə məhdudlaşan sahə

Qulaq-gicgah siniri sindromu (sin. Frey sindromu, qulaq ətrafı hiperhidroz) – *bax:* aurikulotemporal sindrom

Qülləşəkilli dırnaq *(unguis inturricula)* – distal hissəsində dırnaq yatağından aralanan qalınlaşmış və hündürə qalxmış dırnaq

Qullstrandın sxematk göz modeli (A. Gullstrand, 1862-1930, İsveçrəli oftalmoloq) – altı sındırıcı səthi olan, gözün quruluşunu öyrənmək üçün ən düzgün hazırlanmış model

Qundu (sin. anakre) – burun qanadlarının hər iki tərəfində (bəzi hallarda bir tərəfində) çənə sümüyündən əmələ gələn burun ekzotozlarının inkişafı nəticəsində meydana çıxan böyük burun

Qunter xəstəliyi (sin. Qunter sindromu; J. Hunter, 1754-1809, şotl. cərrah) – *bax:* mukopolisaxaridoz II tip

Qunter üsulu ilə arteriyanın bağlanması – liqaturanın qan damarına texniki cəhətdən qoyulmasının asan olduğu yerdə tətbiq olunması

Qurbağa şişi – *bax:* ranula

Qurdağızlılıq – anadangəlmə inkişaf qüsuru olub, üst damağın parçalanması

Qurd əleyhinə vasitələr *(antihelminthica)* – qurd invaziyaları zamanı istifadə olunan dərman vasitələri (piperazin, vermoks, erkək ayı döşənəyi)

Qurdeşənəyi – dərinin zədələnməsi ilə gedən sistem xəstəliklər qrupu

Qurdeşənəyi artriti – *bax:* Lyupus-artrit

Qurdeşənəyi endokarditi – sistem qırmızı qurd eşənəyi zamanı ziyilli abakterial endokardit

Qurdeşənəyi qabarlığı *(tuberculum luposum)* – *bax:* lupoma

Qurler xəstəliyi *(*sin. Qurler sindromu; H. Gurler, XXI əsr, alm. pediatrı*)* - *bax:* mukopolisaxaridoz I tip

Qurler-Ellis polidistrofiyası (H. Gurler; R.W.B. Ellis, 1902-1966, ing. pediatrı) – *bax:* mukopolisaxaridoz I tip

Qurğuşun anemiyası *(anaemia plumbea)* – qurğuşunla zəhərlənmələr zamanı yaranan hemolitik anemiya, porfirinlərin sintezi pozulur, eritrositlər parçalanır

Qurğuşun iflici *(paralysis plumbea)* – qurğuşunla işləyənlərin peşə xəstəliyi

Qurşaqlayan dəmrov *(herpes zoster)* – neyrotrop süzülən virusların törətdiyi su çiçəyinə bənzər dəmrov

Quru bürümə – quru mələfə ilə bürümə

Quru ərzaq payı – hərbi qulluqçulara isti ərzağın hazırlanması mümkün olmayan şəraitdə verilən ərzaq payı

Quru göz sindromu *(sin.quru keratit, quru keratokonyuktivit; keratokonjunctivitis sicca, dry eye syndrome)* – göz yaşı vəzilərinin xəstəlikləri zamanı göz yaşı ifrazının azalması nəticəsində göz almasının quruması

Quru plevriziya – *bax:* epidemik plevrodiniya

Quru seboriya *(seborrea sicca)* – piy vəzilərinin hipofunksiyası ilə gedən dəri xəstəliyi

Qusakov üsulu (Л.А. Гусаков, 1875, rus akuşeri)- abdominal kesariyan zamanı olan, uşağlığın aşağı seqmentində kəsik, sonradan genişləndirmək şərti ilə

Qusdurucu vasitələr *(vomitiva)* – qusma mərkəzinin hemoreseptorlarına və ya mədənin selikli qişasının sinir

uclarına qıcıqlandırıcı təsir göstərməklə qusma refleksi yaradan maddələr

Qusma *(vomitus, emesis)* – həzm traktı möhtəviyyatının, əsasən mədə möhtəviyyatının ağız vasitəsi ilə qeyri-iradi xaric olunması

Beyin qusması (*v. cerebralis*) – baş beynin və ya onun qişalarının üzvi zədələnmələri zamanı qida qəbulundan asılı olmayan tutmaşəkilli qusma

İnadlı qusma (*hyperemesi*s) – sutka ərzində, hətta gecələr də dəfələrlə təkrar olunan qusma; zəhərlənmələr, ağır yoluxucu xəstəliklər, hamilələrin toksikozu zamanı müşahidə olunur

İsterik qusma (*v. hystericus*) – isteriya zamanı meydana çıxan qusma

Qanlı qusma (*v. cruentus; haematemesis*) – mədə qanaxmaları zamanı təsadüf olunan qanlı qusma

«Qəhvə xıltılı» qusma – qusuntu kütləsi qara-qəhvəyi rəngdə olan qanlı qusma

Nəcis qusması (*copremesis*) – bağırsaq keçməzliyi, mədə-bağırsaq fistulları zamanı qusuntu möhtəviyyatında nəcis qoxusunun və ya nəcislə qarışıq olması

Ödlü qusma (*v. felliosus*) – qusuntu möhtəviyyatının içərisində ödün olması ilə xarakterizə olunan qusma

Qusma refleksi (*reflexus vomificus*) – udlağın arxa divarının mexaniki qıcıqlanması zamanı qusmanın meydana çıxmasından ibarət fizioloji refleks

Qusuntu kütləsi - qusma aktı zamanı qeyri-iradi ağızdan tullanan kütlə

Qüsur *(vitium)* – hər hansı orqanın funksional və ya orqanik çatışmazlığı

Qusının əməliyyatı (В.А. Гусынин, rus cərrahı) – cərrahi əməliyyat: xayalığın hipospadiyası zamanı uretra qusurunun aradan götürülməsi

Qusının rinoplastikası (В.А. Гусынин) – cərrahi əməliyyat: burun qığırdagının tam dağıldığı zaman, onun 2 qulağın seyvanı ilə əvəz olunması

Quttman simptomu (P.Guttman, 1834-1893, alm. həkimi) – diffuz toksiki zob xəstələrində,auskultasiya zamanı qalxanabənzər vəzin üstündə eşidilən küt səs

Qütblü spongioblastoma (*spongioblastoma polare*) – histoloji olaraq iyəbənzər nüvələri olan bipolyar hüceyrələrlə xarakterizə olunan beynin qlial xoşxassəli şişi

Qüzehli qişa *(iris)* – damarlı qişanın ön hissəsi

Qüzehli qişanın böyük arterial dairəsi *(sirculus arteriosus iridis mayor)* – iki uzunkirpik arteriyasının şaxələnməsi nəticəsində əmələ gələn qüzehli qişa limbi ətrafında konsentrik yerləşən qan damarı anastomoz kələfi

Qüzehli qişanın kiçik arterial dairəsi *(sirculus arteriosus iridis minor)* – qüzehli qişada bəbək limbi ətrafında konsentrik yerləşən qan damarı anastomoz kələfi

Qüzehli qişanın sinerxiyası *(synechia)* – qüzehli qişanın bitişməsi

Qvist simptomu (G. Guist, 1892-ci ildə an. olub, avstr. oftalmoloq) – hipertoniya zamanı torlu qişanın sarı ləkə nahiyəsində venulaların genişlənməsi və əyilməsi

Qyürtle hüceyrəli şiş – *bax:* qalxanvari vəzin oksifil adenoması

L

Labdometr – çanaqda döl başını ölçmək üçün alət

Labil əhval-ruhiyyə *(labile state)* – əhval-ruhiyyənin bir haldan başqa hala keçməsi, dəyişkənliyi

Labil faktor – *bax:* V faktor

Labioqraf *(labiograph)* – danışıq zamanı dodaq hərəkətlərini qeyd edən cihaz

Labiologiya *(labiology)* – danışıq və oxuma zamanı dodaq hərəkətlərinin öyrənilməsi

Labirint *(labyrinthus)* – *bax:* daxili qulaq

Xəlbir labirint (*l. ethmoidale*) – alın və əsas cib arasında yerləşən burnun əlavə cibi

Zarlı labirint (*l. membranaseus*) – daxili qulağın kisəcik, torbacıq, üçzarlı yarımdairəvi kanal və zarlı ilbizdən təşkil olunmuş hissəsi

Sümük labirinti (*l. osseus*) – daxili qulağın dəhliz, ilbiz və üç yarımdairəvi kanaldan ibarət olan hissəsi

Labirint fistulu (*fistula labyrinthi*) – xroniki irinli epitimpanitin ağırlaşması kimi meydana çıxan, təbil boşluğunu daxili qulaqla və yan yarımdairəvi kanalla birləşdirən təbil boşluğunun daxili fistulu

Labirint karlığı *(surditas labyrinthica)* – *bax:* periferik karlıq

Labirint sindromu – *bax:* Meyner xəstəliyi

Labirintektomiya *(labyrinthectomia)* – sümük və zarlı labirintin çıxarılması

Labirintin fenestrasiyası *(fenestratio labyrinthi)* – oval pəncərənin funksiyasını bərpa etmək üçün labirintin lateral yarımdairəvi kanalını təbil boşluğuna birləşdirən dəlik yaratmaq məqsədilə otoskleroz zamanı icra olunan cərrahi əməliyyat

Labirintit *(labyrinthitis)* – daxili qulağın iltihabı

Diffuz labirintit – orta qulağın seroz və ya irinli yayılmış iltihabı

Meninqogen labirintit – əsasən körpə uşaqlarda epidemik serebrospinal meningit zamanı daxili qulağa meninqokokk infeksiyasının keçməsi nəticəsində yaranan iltihabi proses

Məhdud labirintit – daxili qulağın məhdud iltihabi xəstəliyi

Labirintotomiya *(labyrinthotomia)* – sümük labirinti boşluğunun açılması

Labitom – tibbi kəlbətin

Laborator göstəricilər – orqan və toxumaların bərk və ya maye nümunələrinin, ifrazatlarının biokimyəvi immunoloji, mikrobioloji və s. göstəriciləri

Laborator hamam – müayinə olunan obyektin bərabər qızdırılması üçün aparat

Laboratoriya – 1) tibb müəssisəsinin hər hansı bir materialın müayinəsinin aparılması üçün xüsusi aparatlar dəsti, reaktivlər ilə təchiz olunmuş hissəsi; 2) tibb müəssisəsinin elmi araşdırmalar aparmaq, dianqostik və dərman preparatları hazırlamaq üçün xüsusi təchiz olunmuş hissəsi

Dozimetrik laboratoriya – dozimetrik xidmətin ionlaşdırıcı şüalanma mənbələrinin ölçülməsi üçün xüsusi təchiz olunmuş və hazırlanmış hissəsi

Qaynar laboratoriya – qaynar kamera və ya hermetik bokslarla təchiz olunmuş yüksəkaktivlikli ra-

dioaktiv maddələrlə işləmək üçün nəzərdə tutulmuş kompleks

Mikrobioloji-laboratoriya – mikrobları müəyyən etmək üçün laboratoriya

Radioizotop laboratoriyası – radioizatop araşdırmaları həyata keçirmək üçün ixtisaslaşmış elmi-tədqiqat-tibb müəssisəsi

Radon laboratoriyası – radiumdan konsentrasiya olunmuş radon məhlulu hazırlamaq üçün ixtisaslaşmış tibb müəssisəsi

Sanitar-epidemioloji laboratoriya – kompleks bakterioloji və sanitar-gigiyenik müayinələri həyata keçirmək üçün avadanlıqlarla təchiz olunmuş laboratoriya

Labrosit *(labrocytes,sin. mastosit,-mast cells)*– dənəli bazofil leykosit

LADD simptomu – lacrima-göz yaşı, auris-qulaq (auricula), dens-diş, digitalis-barmaq latın sözlərinin abreviaturası ilə verilən inkişaf anomaliyaları kompleksi-ağıreşitmə, qıfabənzər qulaq seyvanı, göz yaşı nöqtələrinin aplaziyası, göz yaşı-burun kanalının atreziyası, çeçələ barmaqların klinodaktiliyası, diş emalının displaziyası ilə təzahür edən simptomokompleks

Laxta *(coagulum)* – qanın, plazmanın və ya seroz ekssudatın elastik, hamar, parıltılı səthli, sarı və ya qırmızı rəngli törəməsi

Laxtalanma əleyhinə vasitələr – *bax:* antikoaqulyant

Lakrimatorlar *(*lat. *lakrima* göz yaşı*)* – *bax:* gözyaşardıcı zəhərləyici maddələr

Lakrimonazal axacaq *(lakrimonasal duct)* – burun-göz yaşı axacağı

Lakrimotomiya *(lakrimotomy)*– göz yaşı axacağının kəsilməsi

Laktat-asidoz (*Lactat asidosis*) – qanda sidik turşusunun toplanması ilə xarakterizə olunan patoloji vəziyyət

Laktasidemiya *(lactacidaemia,* sin. laktatasidoz, südturşulu koma*)* – süd turşulu asidoz

Laktasiduriya – *bax:* xiluriya

Laktasiya *(lactatio)* – süd ifrazı, südün əmələ gəlməsi, əmizdirmə

Super laktasiya – güclü süd ifrazı

Laktobutirometr *(laktobutyrometer)* – süd yağlarını müəyyən etmək üçün cihaz

Laktodensimetr *(laktodensimeter)* – südün xüsusi çəkisini müəyyən edən cihaz

Laktoqen – süd ifrazına kömək edən maddə, südqovucu maddə

Laktometr *(laktometer)* – südün keyfiyyətini müəyyən edən cihaz

Laktoskop *(lactoscope)* – südün şəffaflığına göra onun tərkibində olan yağların miqdarın təyin edən çihaz

Laktoterapiya *(lactotherapy)* – südlə müalicə,protein terapiyanın bir növü

Laktoza *(lactosum)* – süd turşusu əmələ gətirən ferment

Lakunar vəziyyət *(status lacunaris)* – *bax:* süngəri vəziyyət

Laqoftalm (*lagophthalmus*; yun. *lagoos* dovşan + *ophthalmos* göz) – göz qapaqlarının tam qapanmaması; konyunktiva və buynuz qişanın quruması nəticəsində iltihabi və destruktiv proseslərin inkişafı ilə müşayiət olunur

Lal böyrək – klinik olaraq heç bir əlamət verməyən, bir ədəd funksiya edən böyrəyin olması

«Lal» öd daşı xəstəliyi – simptomsuz öd daşı xəstəliyi

Lal-karların barmaq əlifbası – bilək

və barmaqların hərəkəti ilə hərf və sözlərin ifadə olunması

Lal-karlıq *(surdomutitas)* – həm eşitmək, həm də danışmak qabiliyyətinin olmaması

Laloqnoziya *(lalognosia)* – pəltək danışığı anlamaq

Lamblen sindromu (A. P. N. Lambling, 1899, frans. qatroenteroloqu) – *bax:* postqastroektomik sindrom

Lambo-lambo – *bax:* tropik piomiozit

Laminektomiya *(laminectomia)* – fəqərə qövsü lövhəsinin çıxarılması ilə onurğa sütünün açılması

Laminoqrafiya *(laminagraphy) – bax:* tomoqrafiya

Landolt sindromu (R.F. Landolt, 1913, isveşrəli pediatrı) – *bax:* ameqakariositoz

Landri sindromu (J.B.O. Landry, 1826-1865, frans. nevropatoloqu) – *bax:* qalxan iflic

Landrinin qalxan iflici (J. B. O. Landry, 1826-1865, frans. həkim) – *bax:* qalxan iflic

Langenbek üsulu (B. R. K. Langenbeck, 1810-1887, alm. cərrahı) – küy şəraitində aparılan audiometriya

Langenbek iynəsaxlayan (B. R. K. Langenbeck) – cərrahi əməliyyat zamanı iynənin daha etibarlı fiksasiyasını təmin edən işçi çənələrində qurğuşun plitələrlə olan qayçı

Langenbek pinseti (B. R. K. Langenbeck) – cərrahi əməliyyat zamanı toxumaları tutmaq və saxlamaq üçün olan alət, kilidlə təmin olunmuşdur, hansı ki işçi çənələrini fiksə edir

Langerhans adacıqları (*insula Langerhansi,* P. Langerhans, 1847-1888, alm. patoloq-anatomu) – mədəaltı vəzin hüceyrələri

Lange-Zonnenkalp üsulu (F.Lange,1899-1987,alm. fizik) – sinus nahiyəsinin və piramidanın daha aydın görünməsi üçün gicgah sümüyünün məməyəbənzər çıxıntısının yan proeksiyada rentgenoloji müayinəsi

Lanqhans qatı (Th. Langhans, 1839-1915, alm. , patoloq-anatom) – *bax:* subendotelial qat

Lanqhans şişi (Th. Langhans, 1839-1915, alm. , patoloq-anatom) – bax: Lanqhans struma

Lanqhans struma (Th. Langhans) – qalxanabənzər vəzin orta differensə olunmuş follikulyr şişi

Lanset *(lancea)* – cərrahi əməliyyatlar zamanı toxumalarda kəsiyin aparılması üçün istifadə olunan alət

Lanuqo (lat. dilində *lanuqo*-zərif tüklər) – ilkin tük örtüyü, zərif tüklər

Laparektomiya *(laparektomia)* – qarın divarının bir hissəsinin kəsilib götürülməsi

Laparohemorragia *(laparohaemorragia)* –bax. hemoperitoneum

Laparohisteropeksiya *(laparohysteropexia)* – uşaqlığın qarın divarına fiksə edilməsi

Laparometriya – qarın nahiyyəsinin həcminin göbək nahiyyəsində ölçülməsi

Laparomiomektomiya *(laparomyomectomy)* – uşaqlıq miomasının peritondan keçərək çıxarılması

Laparonefrektomiya *(laparonephrectomy)* – peritondan keçərək böyrəyin çıxarılması

Laparosentez *(laparocentesis)* – qarın boşluğunun qarın divarından icra olunan punksiyası

Laparosistotomiya – kista (sist) möhtəviyyatının peritondan keçərək çıxarılması

Laparoskop *(laparo* + lat. *sko-*

peo-baxmaq, sin. peritoneoskop*)* – qarın boşluğunda aparılan cərrahi əməliyyatların minimal invaziv olaraq həyata keçirilməsinə köməklik göstərən endoskopik alət

Laparoskopiya *(laparoscopie)– bax:* abdominoskopiya

Laparotomiya *(laparotomy)* – qarın boşluğunu açma

Abdominotorakal laparotomiya *(abdominal incision)– bax:* laparotorakotomiya

Diaqnostik laparotomiya *(explorative laparotomy)* – diaqnozun qoyulması məqsədilə icra olunmuş laparotomiya

Peritondanxaric laparotomiya *(laparotomia extrperitonealis)* – qarın divarının peritona qədər bütün qişalarının kəsilməsi (peritonarxası orqanlarda və uşaqlıqda əməliyyat aparmaq üçün tətbiq olunur)

Topçubaşov laparotomiyası (M. Topçubaşov, 1895-1981, azərbaycan cərrahı) – qaraciyər rezeksiyası zamanı tətbiq olunan, qarnın düz əzələsinin sağ bayır kənarı ilə göbəkdən yuxarı VII qabırğaarası sahəyə doğru aparılan kəsik

Laparotomofiliya *(laparotomophilia)* – həkimin ehtiyac olmadan geniş surətdə əməliyyat tətbiq etməsi

Laparotorakotomiya *(laparothoracotomia)* – mədə, qida borusu və qaraciyər əməliyyatları zamanı laparotomiyanın ardınca torakotomiya və diafraqmanın kəsilməsi

Laringeal iflic (*paralysis laryngealis*) – *bax:* laringeal bulbar iflic

Larenqoskop *(laryngoscope)* – intubasiya etmək üçün alət

Laringit *(laryngitis)* – qırtlağın iltihabı

Abseslənən laringit *(laryngitis abscedens)– bax:* fleqmanoz laringit

Fleqmanoz laringit *(flegmonous laryngitis)* – qırtlaq qapağının dilə tərəf olan səthində və ya çalovabənzər qığırdaq-qırtlaq qapağı büküşlərində əmələ gələn abseslə gedən kəskin laringit

Larinqektomiya (*laryngectomia*) – qırtlağın cərrahi yolla xaric edilməsi əməliyyatı (bədxassəli şişlər zamanı tətbiq olunur)

Larinqofissura *(laryngofissure)* – qırtlağın qalxanabənzər qığırdağının yuxarı kənarından, üzüyəbənzər qığırdağın aşağı kənarına qədər yarılması nəticəsində əmələ gələn yarığabənzər dəlik

Larinqofon *(laryngophone)* – boynun ön səthində, qırtlaq üzərində mexaniki titrəyiş hərəkətini elektrik siqnallarına çevirən aparat

Larinqoqraf *(laryngographe)* – səs tellərinin vibrasiyasını tədqiq etmək üçün cihaz

Larinqoqrafiya *(laryngography)* – kontrast maddənin köməyi ilə qırtlağın rentgen müayinəsi

Larinqologiya *(laryngology)* – qırtlaq xəstəlikləri haqqında elm

Larinqoloq – qırtlaq xəstəlikləri üzrə mütəxəssis

Larinqosele *(laryngocele)* – qırtlaqda hava ilə dolu kisəşəkilli şişkinliyin əmələ gəlməsi

Anadangəlmə larinqosele (*l. congenita*) – *bax:* həqiqi larinqosele

Daxili larinqosele (*l. interna*) – bəzən səs telini örtən, girdə törəmə şəklində qırtlaq dəhlizi büküşlərinin qalın hissələrinə yayılan larinqosele

Xarici larinqosele (*l. externa*) – qalxanabənzər-dilaltı membranı dəlib-keçən və boyun əzələləri arasına yayılan kürə formalı şişkinliklə təzahür edən larinqosele

Qazanılmış larinqosele (*l. acquisita*) – *bax:* simptomatik larinqosele
Simptomatik larinqosele (*l. symptomatica*) – qırtlaq büküşlərində şiş və çapıqların olması, onların qırtlaq mədəciyinə fonasiya vaxtı daxil olan havanın əks istiqamətdə qırtlaq boşluğuna keçməsinə maneə törədən larinqosele

Larinqoskop *(laryngoscope)* – qırtlağı müayinə etmək üçün alət, qırtlaq güzgüsü

Larinqoskopiya (*larinqo-* + yun. *skopeo* gözdən keçirmək, tədqiq etmək) – qırtlağın müayinə üsulu
Düz larinqoskopiya – fibrin lifli endoskopun və ya larinqoskopun ağız boşluğundan və udlaqdan qırtlağa yeridilməsi ilə aparılan larinqoskopiya
Killean üsulu ilə düz, asma larinqoskopiya (*direct laryngoscopy,suspension laryngoscopy,* G. Killian, 1860-1921, alm. otolarinqoloqu) –dilin kökünə şpatellə basmaqla başı sallanmış, arxası üstə uzanmış vəziyyətdə xəstəyə larinqoskopiyanın icra edilməsi
Killean larinqoskopiyası (G. Killian) - müayinə olunan şəxsin başını önə və aşağı əyərək ayaqüstə dayanması, müayinə edənin isə stulda oturaraq düzgün olmayan laribqoskopiyanın içra edilməsi,qırtlağın arxa divarına baxmaq üşün istifadə olunur

Larinqospazm *(laryngismus)* – qırtlaq əzələlərinin qəfil qıcolması

Larinqostenoz *(laryngostenosis*) – qırtlağın daralması

Larinqostoma *(laryngostoma)* – qırtlaq boşluğunu ətraf mühitlə əlaqələndirən cərrahi yolla yaradılmış dəlik

Larinqostomiya *(laryngostomia)*– qırtlaq fistulunun yaradılması

Larinqostroboskop *(laryngostroboscope)* – səs tellərinin titrəyişinin tezliyinə uyğun gələn, fasiləli işıqlandırma impulsları ilə müşahidə etməyə imkan verən cihaz

Larinqostroboskopiya *(laryngostroboscopie)* – güzgülü larinqoskopiya zamanı stroboskopik işıqlandırmadan istifadəyə əsaslanan, səs tellərinin hərəkətini müayinə edən üsul

Larinqotomiya *(laryngotomy)* – qırtlağın yarılması, açılması

Larinqotraxeit *(laryngotracheitis)* – qırtlağın və traxeyanın selikli qişasının birgə iltihabı

Larinqotraxeostomiya *(laryngotracheostomia)* – qırtlağın bir neçə yuxarı həlqəsinin larinqotraxeostoma formalaşdırmaq və ya yaraya traxeostoma kanyulasının yerləşdirilməsi məqsədilə icra edilən cərrahi əməliyyat

Larinqotraxeotomiya *(laryngotrachiotomia)* – qırtlağın və traxeyanın bir neçə yuxarı həlqəsinin kəsilməsi cərrahi əməliyyatı

Larsen sindromu (T.Larsen, 1927, amer. ortopedi) – çoxsaylı anadangəlmə çıxıqlar, yastı üz, qabarıq alın, skolioz, braxidaktiliya, əlavə bilək sümükləri, terminal falanqaların qısa olması, karlıq və onurğanın patologiyalarından ibarət simptomokompleks

L-Asparaginaza *(asparaginasum)* – şiş əleyhinə təsir göstərən ferment preparatı

Lassa viruslar – insan üçün patogen olan quduzluq viruslarını birləşdirən rabdo viruslar qrupu

Lasteni de Ferjol sindromu – ruhi

xəstələrdə özündə qanaxma törətməyə patoloji meyllilik

Lata *(lata,* malayca- qıdığdan qorxan*)* – qorxudan sonra yaranan tranzitor psixoz, aktiv hərəkət gərginliyi və başqalarının hərəkətlərini təkrarlamaqla özünü birüzə verir

Latent – gizli, simptomsuz

Latent autoimmun diabet – *bax:* gizli diabet

Latent dövr – xəstəliyin klinik əlamətlərinin üzə çıxana qədrki dövrü

Lateral boyun nahiyəsi *(regione cervicavle laterale)* – *bax:* yan boyun nahiyəsi

Lateral çıxıntı – çəkic sümüyünün boynu və dəstəyi arasında yerləşən, onun lateral səthindəki qısa çıxıntı

Lateral ilgək – *bax:* eşitmə ilgəyi

Lateral vəziyyət *(decubitus lateralis, positio lateralis)* – xəstənin sağ və ya sol böyrü üstə uzanmış vəziyyəti

Lateral – yan, kənar

Lateralizasion simptom *(lateralization sign)* – patoloji ocağın baş beynin hansı tərəfində yerləşməsini müəyyən etməyə imkan verən simptom

Laterosemifron pozisiya – xəstənin sol böyrü üzərində uzanaraq sağ dizinin qarnına sıxılmış vəziyyəti

Latirizm (sin. əsmə,paresteziya ,spastik paraplegiya) –uzun müddətli yeməkdə paxlalı bitkilərin istifadəsi nevroloji simptomlarla özün göstərir

Latrodektizm *(latrodectism)* – neyrotoksik hörümçək zəhəri ilə zəhərlənmə

Lavanj *(lacage)* – təmizləmə

Ağciyərlərin lavanjı – bronxların yuyulması

Mədənin lavanjı – *bax:* mədənin yuyulması

Peritoneal lavanj – *bax:* peritoneal dializ

Bronxoalveolar lavanj – xırda bronxların üstündən bronxoskopik üsulla yuyuntunun alınması

Lavsan – cərrahi əməliyyatlarda istifadə olunan sintetik sap

Layell sindromu (A. Lyell, şotland dermatoloqu) – dərman allergiyasının ağır təzahürü olub, dəri və dərialtı toxumaların bulyoz zədələnməsi, epidermisin lay-lay qopması ilə gedən xəstəlik

Layma xəstəliyi (sin. Laym borreliozu, gənə borreliozu) – *Borellialar* tərəfindən törədilən, dayaq-hərəkət, sinir sistemi və dərinin zədələnməsi ilə gedən zoonoz xəstəlik

Laytvud sindromu – böyrək kanalcıqlarının proksimal hissələrinin bikarbonat anionlarını tam reabsorbsiya edə bilməməsi

Laytvud-Olbrayt sindromu – poliuriya, skeletin raxitəbənzər dəyişiklikləri, nefrokalsinoz, nefroltiaz və turşu-qələvi tarazlığının pozulması ilə gedən irsi xəstəlik

Lazaret *(ital. lazzaretto)* – hərbi hissələrin tibb müəssisələrinin xəstə və yaralıların stasionar müalicəsi və hospitala göndəriləcək xəstələrin müvəqqəti yerləşdirilməsi üçün tibb müəssisəsi

Qoşun lazareti – *bax:* lazaret

Lazarev simptomu *(*В.Г. Лазарев, sovet nevropatoloqu*)* – komatoz vəziyyətdə olan xəstənin almacıq qövsünə perkusiya etdikdə üz əzələsinin birtərəfli yığılmasının zəifləməsi və ya olmaması (baş beynin əks tərəfdə ocaqlı zədələnməsi)

Lazer epilyasiyası – lazer şüalarının təsiri ilə aparılan epilyasiya

Lazer kapsulofakopunkturası – kata-

raktanın büllur kapsulunun ön hissəsinin lazer vasitəsilə dağıdılmasına əsaslanan müalicə üsulu

Lazer zədələnməsi – optiki kvant generatorlarının şüalandırıcı təsirindən meydana çıxan zədələnmə

Lazeroterapiya *(laser therapy)* – infraqırmızı lazer spektrinin təsiri ilə müalicə

LE fenomeni (*lupus erythematodes*) – *invitro* təcrübə zamanı LE cisimciklərinin, LE hüceyrələrinin əmələ gəlməsinə əsaslanan diaqnostik test

Lefevr-Papion sindromu (A.Lefevre, 1891-1991, frans. dermatoloqu; M.M. Papillon ,XX əsr, frans. dermatoloqu) – *bax:* Papion-Lefevr keratodermiyası

Leffler mühiti (F.A.J.Loeffler, 1852-1915, alm. bakterioloqu) – difteriya bakteriyalarını selektiv olaraq qidalandırmaq üçün mühit

Leffler sindromu (W.Loffler, 1887-1972, isveçrə həkimi) – *bax:* restriktiv kardiomiopatiya

Lefflerin boyama metodu (W.Loffler) – difteriya törədicilərinin Lefflerin metilen göyü ilə boyamaqla müayinə edilməsi

Lefflerin metilen göyü (W.Loffler) – mikroorqanizmləri mikroskopik müayinə zamanı boyamaq üçün maddə

Lefor buju (Le Fort, 1829-1893, frans. cərrahı) – nazik uretral buj (uretranın selikli qişasının deşilməsi ehtimalını azaldan buj)

Lefor-Neygebauer əməliyyatı (Le Fort; F.L. Neugebauer, 1821-1890, polşa ginekoloqu) – uşaqlığın sallanması zamanı fiksəedici əməliyyat

Lefor-Neygebauer kolporafiyası (Le Fort; F.L. Neugebauer) – *bax:* Lefor-Neygebauer əməliyyatı

Lefrgen sindromu (S.H. Lofgren , 1910-1978, isveç terapevti) – ikitərəfli olaraq bronx-ağciyər limfatik düyünlərinin böyüməsi, dəridə düyünlü eritromatoz

Leftosefaliya – qeyri-adi kiçik başın olması

Legrazol *(legrasolum)* – levomisetin qrupundan olan genişspektrli antibiotik

LE-hüceyrə *(lupus erythematodes cells)* – qırmızı qurdeşənəyi hüceyrələri

Lekomaniya *(lekomania)* – psixotrop dərmanlardan həddən artıq istifadə etməklə onlardan asılı vəziyyətə düşmə

Lekozim *(lecozym)* – üç proteolitik fermentdən (papain, ximopapain və lizosim) ibarət olan preparat

Lekser əməliyyatı (E.Lexer, 1807-1938, alm. cərrahı) - qamış sümüyündən götürülmüş sümük lövhəsi və saiddən götürülmüş dəri ilə aparılan rinoplastika

Lekser nəzəriyyəsi (E.Lexer) – hematogen osteomielitin bakterial embolların sümük metafizinin damarlarına çökməsi nəticəsində əmələ gəlməsi barədə nəzəriyyə

Lekser rinoplastikası (E.Lexer) - bax: Lekser əməliyyatı

Lektinlər *(lectus)* – eritrositləri, leykositləri və digər hüceyrələri aqqlütinasiya etmək qabiliyyətinə malik bitki mənşəli zülallar (anticisimlərin öyrənilməsi üçün istifadə olunur)

Leqq-Kalve-Pertes xəstəliyi (A. Th. Legg, 1874-1939, ing. cərrahı; J. Calve, 1875-1954, frans. Cərrah-ortoped; G. C. Perthes, 1869-1927,

alm. cərrahı) – bud sümüyünün başının aseptik, idiopatik nekrozu

Lelçisk ekspiratoru (В.Н. Лельчицкий, sovet cərrahı) – spontan klapanlı pnevmotoraks zamanı plevra boşluğundan havanın daimi sorulması üçün aparat

Lambert-İtonun miastenik sindromu (sin. LEMS; E.H. Lambert, 1915-2003, amer. neyrofizioloq, Lee M. Eaton, 1958-2011, amer. neyrofizioloq) – sinir-əzələ ötürücülüyünün pozulması nəticəsində proqressivləşən əzələ zəifliyi, nadir autoimmun xəstəlik

Lemmoblastoma *(lemmoblastoma)* – *bax:* nevrinoma

Lemmoma *(lemmoma)* – *bax:* nevrinoma

Lemosit *(lemocytus)* – sinir lifinin tərkibində qlial hüceyrə

Lemos-Tores-Deni əməliyyatı (M. Lemos, V.Torres, M. Degni, braziliyali cərrah) – portal hipertenziya zamanı ümumi qaraciyər arteriyasının periarterial simpatektomiyası əməliyyatı

Lempert əməliyyatı (J. Lempert, 1890-1968, amer. otolarinqoloq) – otoskleroz zamanı eşitmə qabiliyyətini qismən bərpa etmək üçün aparılan cərrahi əməliyyat

Lempert simptomu (J. Lempert) – otoskleroz zamanı təbil pərdəsinin fibroz qatının atrofiyası nəticəsində nazikləşməsi və rənginin dəyişməsi

Lendis sınağı (E.M.Landis, 1901, amer. fizioloq) – hava manjetinin köməyi ilə kapillyarlarda təzyiqin artırılması nəticəsində kapillyar keçiriciliyinin təyin olunması metodu

Lendis-Gibbon sınağı (E.M. Landis, 1901, amer. fizioloq; J. H. Gibbon, 1903, amer. cərrah) – *bax:* Lendis sınağı

Lendorf sindromu (H.Lehndorff, 1877, avstr. pediatr) – yenidoğulmuşlarda allergik mənşəli keçib-gedən anemiya

Lendorf-Qrasian sınığı (H.Lehndorff) – tetanus zamanı həddən artıq geriyə açılma nəticəsində onurğa sütunu fəqərə cisimlərinin kompression sınığı

Lendorf-Leyner xəstəliyi (H.Lehndorff, 1877, avstr. pediatr; K.Leiner, 1871-1930, avstr. pediatr) – *bax:* revmatik eritema

Leneqr xəstəliyi (J. Lenegre, 1904-1972, frans. kardioloqu) – miokardın digər hissələrinin normal vəziyyətində ürəyin gətirici sisteminin distrofik və sklerotik dəyişikliyi ilə xarakterizə olunan naməlum mənşəli xəstəlik

Lenk fenomeni (R. Lenk,1885, avstr. rentqenoloq) – xəstənin vertikal vəziyyətinin şaquli vəziyyətlə əvəz olunması zamanı ağciyər sahəsinin tündləşməsi (plevra boşluğunda sərbəst mayenin olduğunu göstərən əlamət)

Lenqli qanqliyası (J.N. Langley, 1852-1925, ing. fizioloqu) – *bax:* aşağı çənəaltı qanqliya

Lennander əməliyyatı (K. G.Lennander, 1857-1908, isveçrəli cərrah) – aşağı ətrafların bədxassəli şişləri zamanı çanaq limfatik düyünlərindən başlayaraq aortanın bifurkasiyası nahiyəsindəki limfatik düyünlərə qədər çıxarılması cərrahi əməliyyatı

Lennander kəsiyi (K. G. Lennander) – qarın boşluğunun qarnın düz əzələsinin xarici kənarından aparılan boylama kəsiyi (əzələlərin orta xəttə doğru çəkilməsi ilə)

Lennander simptomu (K. G.Lennander) – kiçik çanaqda iltihabi proseslər zamanı qoltuqaltı nahiyədəki temperaturla düz bağırsaqdakı temperatur arasındakı fizioloji fərqin artması

Lennoksun akinetik kiçik tutması (W. G. Lennox,1884- 1960, amer. nevropatoloq) – *bax:* akinetik epileptik tutma

Lenobl-Obino sindromu (E.A. Lenoble, 1864-1928, frans. həkimi; E.Aubineau, 1871-1951, frans. oftalmoloqu) – vazomotor pozğunluqlar, tremor və nistaqmla xarakterizə olunan anadangəlmə, irsi xəstəlik

Lentiginoz *(lentiginosis)* – dərinin lentiqo ləkələri ilə səpməsi şəklində gedən naməlum etiologiyalı dermatoz

Lepramatoz reaksiya ***(LR)*** – interkurrent xəstəliklərin xarici təsiri nəticəsində lepramatoz cüzamın kəskinləşməsi

Lepriçaunizm *(leprechaunismus)* – sifətin hipotrofiyası və kiçikölçülü olması, hirsutizm, süd vəzilərinin, klitorun, kiçik cinsiyyət dodaqlarının böyüməsi, yumurtalıqların və mədəaltı vəzin ada aparatının hiperplaziyası, qaraciyərdə qlikogen və dəmirin toplanması, böyrəklərin kalsinozu ilə təzahür edən, yalnız qadınlarda təsadüf olunan irsi xəstəlik

Lepridlər *(leprida)* – cüzam zamanı səpgilərin ümumi adı

Leprofobiya *(leprophobia)* – cüzamla xəstələnməkdən patoloji qorxu

Leprologiya *(leprologia)* – yoluxucu xəstəliklərin cüzam və onun diaqnostika, müalicə-profilaktikasının təkmilləşdirilməsi ilə məşğul olan bölməsi

Leproma *(leproma)* – cüzam zamanı rast gəlinən spesifik qranulemaların ümumi adı

Sarkoid leproması *(l. sarcoideum)* – epitelial, limfoid və Lanqhans hüceyrələrindən təşkil olunmuş, hialinozla əhatə edilmiş leproma

Tipik leproma *(l. tipicum)* – cüzam hüceyrələrindən təşkil olunmuş leproma

Tuberkuloid leproma *(l. tuberculoideum)* – epitelial limfoid və Lanqhans hüceyrələrindən təşkil olunmuş leproma

Lepromin *(leprominum)* – leproma toxumasının avtoklavlaşdırılaraq hazırlanmış suspenziyası (lepromin sınağı qoymaq üçün anticisim)

Lepromin sınağı – leprominlə qoyulan dəridaxili allergik sınaq; cavab reaksiyası 2-4 həftəyə qiymətləndirilir və cüzamın tipinin, proqnozunun dəqiqləşdirilməsi məqsədilə tətbiq edilir

Leprostatik – cüzam çöplərinin inkişafını ləngidən dərman preparatları

Leproz düyün – *bax:* leproma

Leproz reaksiya *(reactio leprosa)* – qızdırma, səpgilərin şişkinləşməsi və qızarması, bəzən isə düyünlü eritema ilə gedən cüzamın periodik kəskinləşməsi

Leprozorium – cüzamlı xəstələrin saxlandığı xəstəxana, cüzam lazareti

Leprozoriya *(leprosorium)* – cüzamlı xəstələrin müalicə-profilaktika müəssisəsi

Lepto *(leptos)* – mürəkkəb sözlərin tərkibinə daxil olub, çox nazik, çox zəif, böyük olmayan mənasını verir

Leptofoniya *(leptophonia)* – səsin zəif olması

Leptokurare – depolyarizəedici kurareyəbənzər vasitələr

Leptomeningit *(leptomeningitis)* – beynin yumşaq və hörümçəyəbənzər qişalarının iltihabı (meningeal simptomların inkişafı, beyin-onurğa beyni mayesinin iltihabi dəyişiklikləri ilə təzahür edir)

Adgeziv leptomeningit *(l. athaesiva)* – beyin qişaları arasında çoxsaylı bitişmələr və artan hidrosefaliya simptomları ilə gedən uzungedişli leptomeningit

Arxa beyin çuxurunun leptomeningiti *(l. fossae cranii posterioris)* – irinli labirintitin ağırlaşması kimi beyincik-beyin sisternlərini əhatə edən məhdud leptomeningit

Bazal leptomeningit *(l. basalis)* – baş beyin nahiyəsində lokallaşan və kəllə sinirlərinin zədələnməsi ilə gedən məhdud leptomeningit

Beyin çuxurunun lateral sisternlərinin leptomeningiti (*l. cisternaefossae lateralis cerebri*) – beyin körpüsünün (Varoliev körpüsü) xarici kənarını əhatə edən, üçlü, üz, eşitmə, dilaltı və azan sinirlərin zədələnməsi ilə gedən leptomeningit

Diffuz leptomeningit *(l. diffusa)* – bütünlükdə baş beyin və onurğa beynini əhatə edən leptomeningit

Fibroz leptomeningit *(l. fibrosa)* – *bax:* adgeziv leptomeningit

Hemorragik leptomeningit (*l. hemorragica*) – hemorragik ekssudatın olması ilə xarakterizə olunan leptomeningit,beyinin yumşaq toxumasına çox saylı qansızmalarla müşahidə olunur

Xarici leptomeningit – irinli prosesin beynin sərt qişası altında yerləşən hörümçək toruna bənzər qişaya keçməsi ilə gedən leptomeningit

İrinli leptomeningit *(l. purulenta)* – irinli ekssudatın olması ilə xarakterizə olunan leptomeningit, bakterial flora tərəfindən törədilir

Kistoz leptomeningit *(l. cystica)* – beyin qişalarının bitişmələri və bu bitişmələrdə toplanmış maye ilə gedən, beyin-onurğa beyni mayesinin sirkulyasiyasının pozulması ilə nəticələnən kəskin və ya yarımkəskin seroz leptomeningit

Konveksital leptomeningit *(l. convexitalis)* – baş beynin qabarıq səthində lokalizasiya olunan leptomeningit

Qrippoz leptomeningit *(l. gripposa)* – qripin ağırlaşması kimi meydana çıxan hemorragik leptomeningit

Məhdud leptomeningit *(l. localisata)* – beynin hər hansı bir sahəsi ilə məhdudlaşan leptomeningit

Optoxiazmal leptomeningit *(l. optochiasmatica)* – görmə sinirlərinin çarpazlaşdığı nahiyəni əhatə edən bitemporal və ya binazal hemianopsiya, görmə sinirinin atrofiyası ilə xarakterizə olunan leptomeningit

Otogen leptomeningit *(l. otogenis)* – kəskin və ya xronik orta otit zamanı subaraxnoidal sahəyə infeksiyanın keçməsi nəticəsində meydana çıxan ağırlaşma

Pnemokokk leptomeningiti *(l. pneumococcica*) – pnevmokokk mənşəli pnevmoniya, otit, haymorit və ya endokarditin ağırlaşması olan irinli leptomeningit

Produkduktiv leptomeningit (*l. productiva*) – *bax:* adgeziv leptomeningit

Prorinosinusogen leptomeningit *(l. rhinosinusogena)* – irinli prosesin burun ciblərindən yayılması ilə yaranan irinli leptomeningit

Serebral leptomeningit *(l. cerebra-*

lis) – yalnız baş beyin qişalarında lokallaşan leptomeningit

Seroz leptomeningit *(l. serosa)* – seroz ekssudatın olması ilə xarakterizə olunan leptomeningit

Seroz-kistoz leptomeningit – *bax:* kistoz leptomeningit

Sifilitik leptomeningit *(l. syphilitica)* – sifilisin II və III dövründə meydana çıxan limfoid elementlərlə zəngin seroz ekssudatın olması ilə xarakterizə olunan leptomeningit (neyrosifilisin bir təzahürü)

Spinal leptomeningit *(l. spinalis)* – prosesin yalnız onurğa beynini əhatə etməsi və meninqoradikulit və meninqomielit simptomları ilə gedən leptomeningit

Stafilokokk leptomeningiti (*l. staphylococcica*) – stafilokokk mənşəli otitin və açıq kəllə-beyin travmasının ağırlaşması olaraq meydana çıxan irinli leptomeningit

Streptokokk leptomeningiti *(l. streptococcica)* – septiki endokarditin, doğuşdansonrakı sepsisin, qızılyelin ağırlaşması olaraq meydan çıxan irinli leptomeningit

Toksoplazma leptomeningiti (*l. toxoplasmotica*) – yenidoğulmuşların kəskin seroz leptomeningiti

Tonzillogen leptomeningit *(l. tonsillogena)* – kəskinləşmiş xroniki tonzillitin ağırlaşması kimi meydana çıxan leptomeningit

Travmatik leptomeningit *(l. traumatica)* – kəllə-beyin travmaları zamanı meydana çıxan leptomeningit

Travmatik erkən leptomeningit *(l. traumatica praecox)* – açıq kəllə-beyin travmasından dərhal sonra və ya qapalı kəllə-beyin travmasından 3-4 gün sonra meydana çıxan irinli leptomeningit

Travmatik gecikmiş leptomeningit (*l. traumatica tarda*) – zədələnmədən uzun müddət sonra (aylar, bəzən illər) kisələşmiş absesin deşilməsi nəticəsində irinin hörümçək qişa altına yayılması nəticəsində meydana çıxan leptomeningit

Vərəm leptomeningit *(l. tuberculosa)* – vərəm mikobakteriyaları tərəfindən törədilən alterativ-ekssudativ dəyişikliklərlə xarakterizə olunan, sonralar isə vərəm qabarcıqlarının əmələ gəlməsi və beyin qişalarının bitişməsi ilə gedən leptomeningit

Yan sistern leptomeningiti *(l. cisternae lateralis)* – *bax:* beyin çuxurunun lateral sisternlərinin leptomeningiti

Leptomeninks *(leptomeninx)* – beynin hörümçəyəbənzər və yumşaq qişalarının birgə adı

Leptopaximeningit *(leptopachymeningitis)* – bütün beyin qişalarına yayılan meningit

Leptoskleriya*(leptoscleria)* – *bax:* mavi sklera simptomu

Leptospiroz (*leptospirosis*) – kəskin ifadə olunmuş mialgiya, qaraciyər, böyrək, sinir və damarların zədələnməsi, hemorragik sindrom və sarılıqla gedən ümumi intoksikasion, kəskin zoonoz infeksiya

Sarılıqlı leptospiroz (*l. icterica*) – leptospirozun sarılıq və hemorragik diatezlə keçən klinik növü

Sarılıqsız leptospiroz (*l. anicterica*) – leptospirozun sarılıqsız keçən klinik növü

Leptotrixoz – Leptotrix bucealis mikroorqanizmləri tərəfindən törədilən bakterial xəstəlikdi, əsasən ağız boşluğunu və qırtlağı zədələyir, tüklərin patoloji dərəcə nazikləşir

Leri xəstəliyi (A. Leri, 1875-1930,

frans. nevropatoloqu) – *bax:* meloreostoz

Leri pleonosteozu *(*A. Leri) – skeletin inkişafının pozulmasından ibarət irsi xəstəlik (gövdənin qısalması, kəllə sümüyü ölçülərinin böyüməsi, bəzi oynaqların hərəkətinin məhdudlaşması)

Leri-Molen-de Teysi sindromu (A. Leri; Molin de Teyssieu) – böyümüş limfa düyünlərinin çiyin kələfini sıxması nəticəsində ağciyər vərəmi zamanı yuxarı ətraflarda ağrı, hissi və hərəki pozğunluqlar

Lerinin oynaq refleksi (A. Leri) – bilək və barmaqların passiv yığılması zamanı dirsək oynağının yığılması refleksi (əllərin supinasiya vəziyyətində önə uzadılması zamanı)

Leriş əməliyyatı (R.H. M. Leriche, 1879-1955, frans. cərrahı) – *bax:* periarterial simpatektomiya

Leriş sindromu (sin. aorta-qalça arteriyasının okklüziyası; R.H. M. Leriche) – qarın aortası və qalça arteriyasının okklüziyası zamanı meydana çıxan əlamətlər

Leri-Veyl disxondrostenozu (A.Leri, 1875-1930, frans. nevropatoloqu; J.A. Weill, 1903, frans. pediator-endokrinoloq) –irsi xəstəlikdi, skelet inkişafının anomaliyaları ilə müşahidə olunur (uzunborulu sümüklərin əyilməsi və qalınlaşması, boyun fəqərələrinin deformasiyası,lordoz)

Lermit hallüsinozu (J. J. Lhermitte, 1877-1959, frans. nevroloq-psixiatrı) – *bax:* pedunkulyar hallüsinoz

Lermitt simptomu (J. J. Lhermitte) – onurğa beyninin zədələnməsi zamanı başı önə əydikdə meydana çıxan, onurğa boyunca yuxarıdan aşağıya doğru yayılan kəskin ağrı (məs., yayılmış skleroz zamanı müşahidə olunur)

Lermitta-Monye-Vinar-Tsokanakis simptomu (J. J. Lhermitte; Monier; Vinard; Tsocanakis) – beyin əsasında və ya boyunda olan patoloji prosesin azan siniri qıcıqlandırması zamanı udlaq və qida borusu əzələlərinin spazmı nəticəsində udmanın pozulması

Lermuaye əlaməti (M. E. J. Lermoyes, 1858-1928, frans. otolarinqoloq) – daxili qulağın labirintində süni yaradılmış soyuq və ya istinin təsirindən yaranan nistaqm

Lermuaye sindromu (M. E. J. Lermoyes) – aterosklerozu olan xəstələrdə Menyer xəstəliyinin bir forması (ağır eşitmə , qulaqda üzücü küy, baş gicəllənmə)

Lesaj simptomu (A.A. Lessage, 1862-1952, frans. həkimi) – *bax:* asma simptomu

Lesbos *(lesbiacus,* sin. lesbiyanlıq, sapfizm, tribadiya) – *bax:* qadın homoseksualizmi

Lesqaft kütləsi (П. Ф. Лесгафт, 1837-1909, sov. anatomu) – anatomik preparatlar hazırlamaq məqsədilə qan damarlarını doldurmaq üçün kütlə (vosk, kanifol, venesian skipidarı və boyaq maddələri)

Lesqaft – Qrinfelt üçbucağı (П. Ф. Лесгафт; J.C. Grynfelt, 1840-1913, frans. cərrahı) – *bax:* bel-vətər aralığı

Lesqaft yarığı (П.Ф. Лесгафт*)* – *bax:* bel-vətər aralığı

Leşenko refleksi *(*Г.Д. Лещенко, sov. nevropatoloqu) – III barmağın periferik falanqasına vurduqda I və II barmaqların bükülməsi (piramid yolların zədələnməsi əlamətləri)

Leşenko sinkineziyası (sin. Varten-

berqin yellənmə simptomu; Г.Д. Лещенко) – bir gözün yuxarı göz qapağını passiv şəkildə qaldırıb-endirdikdə digər gözün göz qapağının da qalxıb-enməsi (virus ensefalitinin əlaməti)

Leşke sindromu (sin. irsi piqment distrofiyası; E.F.W.Leschke, 1887-1933, alm. terapevti) – vegetativ sinir sisteminin pozğunluğu, hipofizin və böyrəküstü vəzin disfunksiyası, infantilizm və dəridə çoxsaylı piqment ləkələri ilə gedən irsi xəstəlik

Leş-Nayen sindromu (M. Lesch, 1939, amer. pediatrı) – yalnız oğlan uşaqlarında təsadüf olunan sidik cövhəri və uratların ifrazının artması, zehni gerilik, spastik mərkəzi iflic və aqressiv davranışdan ibarət simptomokompleks

Leş-Nayxan sindromu (M. Lesch; M.L. Nyhan, 1925, amer. həkimi) – *bax:* hiperurikemiya

Letallıq (*letalis*) – ölüm göstəricisi, ölüm faizi

Letargik ensefalit – *bax:* epidemik ensefalit

Letargik hal – *bax:* latergiya

Letargik sindrom *(syndromum lethargicum)* – bir neçə saatdan bir neçə günə və ya həftəyədək davam edən, kənar təsirlərlə oyadılması mümkün olmayan, əzələ hipotoniyası, vətər arefleksiyası, arterial hipotenziya, çanaq orqanları üzərində nəzarətin itirilməsi ilə təzahür edən periodik yuxu tutmaları (aralıq beynin xüsusən hipotalamusun zədələnmələri zamanı müşayiət olunur)

Letargik yuxu – *bax:* letargiya

Letargiya *(lethargia*-dərin yuxu) – bütün həyat əlamətlərinin zəifləməsi, maddələr mübadiləsinin kəskin enməsi, xarici qıcıqlandırıcılara reaksiyanın zəifləməsi və ya olmamasından ibarət patoloji vəziyyət (məs. isteriya zamanı), uzunsürən yuxu, hipnozun birinci mərhələsi

Leto üçbucağı – *bax:* sidik kisəsi üçbucağı

Letterer-Sive xəstəliyi (sin. qeyri lipoid retikulohistiositoz; E. Letterer, 1895, alm. patoloqu; S. Siwe, 1897, isveç pediatrı) – 2 yaşına qədər uşaqlarda təsadüf olunan qızdırma, hepatosplenomeqaliya, limfatik düyünlərin generalizəolunmuş böyüməsi, papulloz səpgilər, hemorragik puppura, selikli qişaların, yastı sümüklərin və ağciyərlərin zədələnməsi ilə gedən kəskin sistem irsi histiositoz

Letull sindromu (*hygroma cysticum, lymphangioma cystoides*) – yenidoğulmuşların boynunda, dilində və dodağında hüceyrəli limfangiomanın olmasından ibarət inkişaf anomaliyası (limfatik sistemin anadangəlmə anomaliyası)

Levamizol *(levamisolum)* – immunostimulyator və qurd əleyhinə təsir göstərən maddə

Leve sınağı (W.F. Lever, amer. dermatoloqu) – sümük-qığırdaq keçiriciliyi ilə sümük keçiriciliyinin müqayisəsi nəticəsində koxlear analizatorun tədqiqi

Leve üsulu (W.F. Lever) – seksiya zamanı əngin alveolyar çıxıntısının sərt damaqdan iskənə ilə ayırmaq üsulu

Leverin bulyoz pemfiqoidi (W.F. Lever) – qeyri-akontolitik pemfiqus

Levitasiya – ruhi xəstələrdə uçma hissi ilə əlaqədar hallüsinasiya

Levodopa (*levodopum***)** – mərkəzi sinir sisteminin dofaminergik sisteminə

təsir göstərən parkinsonizm əleyhinə preparat

Levomisetin *(laevomycetinum)* – qrammüsbət və qrammənfi mikroorqanizmlərə təsir edən genişspektrli antibiotik

Levorin *(levorinum)* – əsasən *Candida* göbələklərinə təsir edən antibiotik

Levovinizol *(laevovinisolum)* – levomisetin qrupundan olan genişspektrli antibiotik

Levuridlər (levurides, levure-maya) – *bax:* kandidamikidlər

Ley sindromu – beyin tağında, beyincikdə və bazal qanqlionlarda nekroz və hialinozun yaranması ilə gedən yarımkəskin nekrozlaşan ensefalopatiya

Leyxtenştern sindromu – *bax:* hemorragik meninqoensefalit

Leykemiya *(leukaemia)* – ağ qan xəstəliyi

Mallori leykemiyası – qətran məhsullarının parenteral yolla yeridilməsi ilə eksperimental leykozun yaradılması

Meningeal leykemiya *(l. meningealis)* – bax. leykoz meningit

Osteosklerotik leykemiya *(l. osteosclerotica)* – *bax:* osteomielofibroz

Leykemik səyirmə – periferik qanda keçid blast hüceyrələrinin və yetişmiş leykositlərin olmaması; kəskin leykozlar üçün səciyyəvidir

Leykizm (lat. *leukos* ağ) – *bax:* albinizm

Leykoaqqlütininlər *(leucoagglutinina)* – *bax:* leykoaqqlütinasiyaedən anticisim

Leykoderma *(leucoderma)* – dəri piqmentasiyasının pozulması, melaninin azalması yaxud tamam itməsi ilə müşahidə olunur

Cuzam leykoderması *(l. leprosum)* –vərəmli cuzam vaxtı müşaidə olunur, depiq mentasiya və anesteziya ocaqları ilə özünü birüzə verir

Dərmanlı leykoderma *(l. medicamentosum)* –dərmanların toksiki təsirindən olur

Qırçınlı leykoderma *(l. reticulare)* – setkalı leykoderma

Ləkəli leykoderma *(l. maculosum)* –sifilitik leykoderma,hiperemiya fonunda çox saylı oval və yumru ryni ölçülü ləkələr

Peşə leykoderması *(l. professionale)* – peşə xəstəliyidi

Sifilitik leykoderma *(l. syphiliticum)* –ikinçili sifilis zamanı olur, əsasən boyun nahiyyəsində

Leykodierez *(leucodiaeresis)* – *bax:* leykoliz

Leykoferez – leykositlərin qandan çıxarılması

Leykogen *(leucogenum)* – leykopeniyalarda leykopoezə stimuləedici təsir göstərən preparat

Leykoqramma *bax:* leykositar formula

Leykoliz *(leucosis,* sin. leykodierez, leykositodierez, leykositoliz) – leykositlərin parçalanma prosesi

Leykoliz reaksiyası – *bax:* leykositoliz testi

Leykomielit *(leucomyelitus)* – onurğa beyninin ağ maddəsinin prosesə cəlb olunmaqla iltihabı

Leykopat – *bax:* albinos

Leykopatiya *(leucopathia)* – piqmentasiyanın pozulması nəticəsində girdə açıq rəngli ləkələr şəklində görünən patoloji vəziyyət

Leykopedez *(leucopedesis)* – leykositlərin damar mənfəzindən çıxması

Leykopeniya *(leucopenia)* – ağ qan cisimciklərinin sayının azalması

Leykoplagiya – epitelin buynuzlaşma-

sı nəticəsində selikli qişada əmələ gələn ağ ləkələr

Sidik kisəsinin leykoplagiyası – sidiki kisəsinin xroniki iltihabı nəticəsində yaranan nadir xəstəlik olub, sistoskopiya zamanı selikli qişadan azca yuxarı qalxan, sağlam toxumadan hiperemiya ilə seçilən ağ ləkələrlə xarakterizə olunur

Leykoplastr – bir tərəfi yapışqanlı nazik polimer material; xarici sarğının bir növü

Leykopoez *(sin. leucopoesil, leucopoiesis, leykogenez, leykositopoez)* – ağ qan cisimciklərinin yaranması

Leykosit (*leucocytus*; *leyko-* + *cytus* hüceyrə) – nüvəli ağ qan hüceyrəsi

Asidofil leykosit (*l. acidophilicus*) – *bax:* asidofil qranulosit

Bazofil leykosit (*l. basophilicus*) – *bax:* bazofil qranulosit, dənəli leykosit

Çubuqnüvəli leykosit (*l. bacillonuclearis*) – *bax:* çubuqnüvəli neytrofil qranulosit

Dənəli leykosit (*granulocytus*) – *bax:* qranulosit

Dənəsiz leykosit (*agranulocytus*) – *bax:* aqranulosit

Eozinofil leykosit *(l. eosinophilicus)* – asidofil qranulosit

Neytrofil leykosit *(l. neutrophilicus)* – neytrofil qranulosit

Seqmentnüvəli leykosit *(l. segmentonuclearis)* – qranulosit neytrofil seqmentnüvəli

«Sərnişin leykosit» – resepiyentin orqanizmində allotransplantatın leykositi

Leykositar formula (sin. hemoqram, leykoqram) – periferik qanda ayrı-ayrı leykosit növlərinin faizlə miqdarı

Leykositlərin amato cisimcikləri – skarlatina zamanı leykosit və mielositlərin sitoplazmasında aşkar edilən bənövşəyi-göyümtül dənəciklər

Leykositlərin emiqrasiyası – iltihab zamanı leykositlərin kapillyar və vena damarından xaric olması

Leykositodiaqnostika – leykositar formula əsasən, xəstəliyin diaqnostikası

Leykositodierez *(leucocytus + diaresis* ayrılma*)* – *bax:* leykoliz

Leykositoliz (*leucocytolysis;* sin. leykoliz) – ağ qan hüceyrələrinin dağılması

Leykositoliz testi – *in vitro* olaraq araşdırılan allergen əlavə edildikdən sonra leykositlərin lizisə uğramasına əsasən, orqanizmin spesifik sensiblizasiyasının qiymətləndirilməsi

Leykositoriz – *bax:* leykoliz

Leykositoterapiya – leykositlərlə müalicə

Leykositoz *(leucocytosis)* – ağ qan hüceyrələrinin sayının artması

Aqonal leykositoz *(l. agonalis)* – aqoniya vəziyyətində olan xəstələrdə patoloji leykositoz

Alimentar leykositoz *(l. alimentaria)* – yemək qəbulu ilə əlaqədar olan leykositoz

İnfeksion leykositoz *(l.infectiosa)* – infeksion xəstəliklərdə müşahidə olunan leykositoz

Mütləq leykositoz *(l.absoluta)* – leykositlərin artmasın göstərir

Leykotomiya *(leucotomia)* – beyin yarımkürələri ağ maddəsinin kəsilməsi

Leykotrixiya *(leucotrichia)* – saçların anadangəlmə ağarması

Leykoz (*leucosis*) – qanyaradıcı orqanın xəstəliklərinin ümumi adı

Xroniki limfoid leykozu – *bax:* xroniki limfoleykoz

Xroniki mieloid leykoz – sümük iliyi hüceyrələrində inkişaf edən qan xərçəngi

Kəskin differensə olunmamış leykoz – qanyaradıcı və digər daxili orqanların differensə olunmamış şiş hüceyrələri ilə infiltrasiya olunması ilə gedən kəskin leykoz

Kəskin eritromieloblast leykoz – qanda və qırmızı sümük iliyində eritroblast, mieloblast, monoblast və differensə olunmamış blast hüceyrələrin olması ilə gedən kəskin leykoz

Kəskin meqakarioblast leykoz *(l. megacaryoblastica)* – qanda və qırmızı sümük iliyində meqakarioblastların və differensə olunmamış blast hüceyrələrin olması ilə gedən kəskin leykoz

Kəskin mieloblast leykoz *(l. myeloblastica)* – sümük iliyi, dalaq, qaraciyər, böyrək və selikli qişaların mieloblast tipli şiş hüceyrələri ilə infiltrasiya olunması ilə gedən kəskin leykoz

Kəskin plazmoblast leykoz *(l. plasmoplastica)* – immunoqlobulin sintez edən B-limfositlərdən yaranan plazmoblastların orqan və toxumalara infiltrasiyası nəticəsində yaranan kəskin leykoz

Limfoblast leykoz *(l.lymphoblastica)* – T-limfositlərin blast hüceyrələrə çevrilməsi nəticəsində yaranan leykoz

Leyomioma *(leiomyoma)* – sadə əzələ toxumasından inkişaf edən xoşxassəli şiş

Damar leyomioması (*l. vasculare*) – *bax:* angioleyomioma

Dəri leyomioması (*l. cutis*) – dermada lokallaşan və saçları qaldıran əzələlərdən çıxan leyomioma

Epitelioid leyomioma (*l. epithelioideum*) – əsasən dairəvi və asidofil sitoplazmaya malik poliqonal hüceyrələrdən ibarət leyomioma

Leyşmanial mərhələ – *bax:* amastiqota

Leyşmanioma *(leishmanioma)* – leyşmanioz zamanı mığmığanın dişlədiyi yerdə əmələ gəlmiş yaralı iltihabi infiltrat

Leyşmanioz *(leishmaniosis)* – *Leishmania* sinfindən olan hüceyrədaxili parazitlərin transmissiv yolla ötürdüyü protozoy xəstəliklərinin ümumi adı

Antroponoz dəri leyşmaniozu (*l. anthrophonosis cutis*) – mığmığa sancması nəticəsində ötürülən, xırda düyüncük-leyşmanioma ilə başlayan dəri xəstəliyi

Aralıq-Orta Asiya dənizi visseral leyşmaniozu – vaxtaşırı qızdırma tutmaları, çəkinin itməsi, qaraciyər və dalağın böyüməsi, anemiya ilə xarakterizə olunan, əsasən Cənub-Şərqi Asiyada yayılan yüksək endemik xəstəlik

Dəri leyşmaniozu (*l. cutanea*) – əsas etibarilə dəridə yaralar və çapıqlar əmələ gəlməsi ilə gedən leyşmanioz növü

Zoonoz dəri leyşmaniozu (*l. zoonosis cutis*) – əsasən kənd əhalisində təsadüf olunan dəri leyşmaniozu

Hind visseral leyşmaniozu – *Leishmania donovani donovani* tərəfindən törədilən əsasən şərqi Hindistanda və Banqladeşdə rast gəlinən böyrəküstü üstü vəzin qabıq maddəsinin zədələnməsi və dərinin tündləşməsi ilə xarakterizə olunan visseral leyşmaniozun bir növü

Leyşmanioz splenomeqaliyası *(splenomegalia leishmaniosa)* – visseral leyşmanioz zamanı bərkimiş və həddən artıq böyümüş dalaq

Lezbiyanlıq *(lesbiacus)* – qadınlarda öz cinsinə olan seksual meyl

Ləçəkvari sarğı *(fascia triangularis)* – üçbucaqşəkilli parça materialdan hazırlanmış, əsas etibarilə yuxarı ətrafa qoyulan sarğı

Ləkə (*macula*) – dərinin və selikli qişanın məhdud bir nahiyədə rəngini dəyişməsi

Damar ləkəsi *(m. vasculosa)* – dərinin xırda damarlarının davamlı genəlməsi və ya proliferasiyası nəticəsində meydana çıxan ləkə

Mavi ləkələr (*m. caeruleae)* – qasıq bitlərinin dişləmə yerində qalan solğun, göyümtül-bozumtul ləkə

Meyerhofer ləkəsi (E. Meyerhofer; sin. *vernix caseosa persistens*) – ekssudativ kataral diatez zamanı uşaqların baldırının ön nahiyəsində dairəvi sarı ləkələr

Piqment ləkəsi *(m. pigmentosa)* – dəridə melaninin toplanmasının artması və ya azalması, rəngli maddələrin dəriyə çökərək toplanması nəticəsində meydana çıxan ləkə

Ləkəli atrixiya *(atrichia maculoza)* – *bax:* anadangəlmə məhdud alopesiya

Ləkəli sümük – *bax:* osteopoykiliya

Ləng proqressivləşən qlomerulyar xəstəlik – *bax:* xroniki qlomerulonefrit

Ləngərləyici axsama – aşağı ətraf damarlarının xroniki stenoz və ya okluziyası zamanı periodik olaraq, əl əzələlərinin paresteziyası və ağrısı nəticəsində meydana çıxan ləngərləyici axsama ilə gedən xəstəlik

Ləyənin amputasiya simptomu – böyrək ləyəninin şişləri və ya sistləri zamanı rentgenoqramda dolma defektinin olması

Ləyən-sidik axarı seqmenti klapanı simptomu – *bax:* boş sidik axarı simptomu

Li xəstəliyi (D. Leigh, 1915, ing. nevropatoloqu) – mərkəzi sinir sisteminin ağ maddəsinin proqressivləşən distrofiyası, artan piramid və ekstrapiramid pozğunluqlar, kəllə sinirlərinin funksiyasının dəyişməsi, miokardın zədələnməsi ilə gedən irsi xəstəlik

Liana-Sige-Velti sindromu (C.G. Lian, 1882-1969, frans. həkimi; F. Siguier, 1909, frans. həkimi, H. L. Welti, 1895-1970, frans. cərrahı) – refluks ezofagitlə ağırlaşan diafraqmal yırtıqların aşağı ətraf damarlarının trombozu və tromboflebiti, hipoxrom anemiya ilə birgə təsadüf olunan naməlum etiologiyalı xəstəlik

Libeksin (*libexin***)** – yuxar tənəffüs yollarının katarı, kəskin və xroniki bronxitlər, bronxopnevmoniyalar, ağciyərlərin emfizeması zamanı tətbiq edilən öskürək əleyhinə preparat

Liberinlər (sin.rilizinq faktorlar) – hipofizin trop hormonlarının ifrazını stimulə edən neyrohormonlar

Liberman-Burxard reaksiyası (H. Burchard, L. Liebermann, 1852-1926, macar biokimyaçısı) – xolesterinin miqdarının müəyyən edilməsi reaksiyası

Libermeyster qanunu (K. Liebermeister, 1833-1901, alm. həkimi) – xəstənin temperaturunun hər 1^0 qalxmasına uyğun olaraq nəbz 1dəqiqədə 8 vurğu artır

Libermeyster simptomu – hava em-

boliyası zamanı dildə solğun ləkə və keyimə hissiyyatı

Libido *(libido)* – seksual maraq, seksual emosionallıq

Libman xəstəliyi (E. Libman, 1872-1946, amer. həkim) – *bax:* qurd endokarditi

Libman sınağı (E. Libman) – qanda karboksihemoqlobilinin təyin edilməsi üsulu

Lidaza *(lydasum)* – tərkibində hialunoridaza olan fermentativ preparat

Lidl sindromu (G.W. Lidlle, ing. həkimi) – aldosteronun miqdarının aşağı olmasına baxmayaraq, klinik olaraq hiperaldosteronizmi xatırladan arterial hipertoniya və hipokalemik alkalozla gedən simptomokompleks

Lidokain (*lidocainum*) – yerli təsirli ağrıkəsici maddə

Lien *(lien)* – mürəkkəb sözlərin tərkibinə daxil olub dalağa aid olan mənasını verir, məs.splenit

Lienal *(lienalis)* – dalağa aid olan

Lienit *(lienitis) – bax:* splenit

Lienoqrafiya – dalaq arteriyasının selektiv angioqrafiyası

Lienoportoqrafiya – *bax:* splenoportoqrafiya

Lifli qığırdaq *(cartilago fibrosa) – bax:* lifli qığırdaq toxuması

Lifli skelet – *bax:* interstisial toxuma

Lifuzol *(lifusolum)* – nitrofuran törəməsi olan antibakterial maddə

Lixen 1 *(lichen*; yun. *leichen* ağacda mamır, şibyə*)* – dəri və selikli qişalarda heç bir morfoloji elementə transformasiya olunmayan xırda çoxsaylı papulalar;

Lixen 2 *(lichen)* – xırda çoxsaylı papulalarla təzahür edən dermatozların ümumi adı

Atrofik sklerotik lixen (*l. sclerotic*us *atrophicus*) – *bax:* damcışəkilli sklerodermiya

Birincili atrofik lixen (*l. atrophicus primarius*) – *bax:* damcışəkilli sklerodermiya

Bizəoxşar lixen (*l. spinulosus*) – əsasən boyun və saidin bükücü səthlərində yerləşən nazik qırmızı ucluqlu papulalar

Çumbuşun ağ lixeni – *bax:* damcıyabənzər sklerodermiya

Dekalvasiyaedən follikulyar qırmızı lixen (*l. niber follicularis decalvans*) – *bax:* Littl-Lassuer sindromu

Feldmanın atropik, yastı, itiuclu lixeni – *bax:* Litll-Lassuer sindromu

Fibromusinoidoz lixen (*l. fibromucinoidosus*) – *bax:* dərinin papulyoz musinozu

Xətti lixen (*l. striatus*) – uşaqlarda boyun və ya ətraflarda təsadüf olunan birtərəfli xətvari dəri çatı ilə təzahür edən naməlum etiologiyalı patoloji vəziyyət

İkincili atrofik lixen (*l. atrophicus secundaris*) – *bax:* qırmızı yastı dəmrov

Qırmızı yastı lixen (*l. niber planus*) – *bax:* qırmızı yastı dəmrov

Littlın bizşəkilli follikulyar lixeni – *bax:* Littl-Lassuer sindromu

Miksedematoz lixen (*l. myxoedematosus*) – dərinin papullyoz musinozu

Parıldayan lixen (*l. nitidus; granuloma nitidum)* – dəri səthindən cüzi qalxan dairəvi və ya çoxbucaqlı, hamar parıldayan papulalar

Tropik lixen *(l. tropicus)* – saidin bükücü səthində yerləşən çoxsaylı, yastı, çoxbucaqlı, solğun çəhrayı parıltılı papulalar (Sakit okeanın cənub qərbində malyariya əleyhinə

dərman preparatları qəbul edən şəxslərdə təsadüf edilir

Yastı atrofik lixen (*l. planus atrophicus*) – *bax:* damcışəkilli sklerodermiya

Yastı tropik lixen (*l. planus tropicus*) – *bax:* tropik lixen

Yastı Yeni Qvineya lixeni – *bax:* tropik lixen

Lixenifikasiya *(lichenificatio)* – *bax:* lixenizasiya

Giqant hipertrofik lixenifikasiya (lichenificatio gigantea hypertrophica) – *bax:* hipertrofik neyrodermit

Hipertrofik giqant lixenifikasiya – *bax:* hipertrofik neyrodermit

Lixenizasiya *(lichenisatio)* – xroniki qaşınan dermatozlarda dərinin piqmentləşməsi, müxtəlif düyüncüklərin əmələ gəlməsi nəticəsində dərinin aldığı şəkil

Lixenoid dəri vərəmi (*tuberculosis cutis lichinoides*) – tük kisəciklərinin girəcəyində düyünlərin əmələ gəlməsi ilə gedən, əsasən uşaqlarda müşahidə olunan dəri vərəmi

Lixtenberq simptomu (A.Von Lichtenberg, 1880-1949, alm. uroloqu) – *bax:* boş sidik axarı simptomu

Lixtenstayn-Braysev xəstəliyi (L. Lichtenstein, 1906-1977, amer. patoloq-anatom; В.Р. Брайцев, 1878-1964, sov. cərrahı) – *bax:* fibroz osteodisplaziya

Likantropiya *(lycanthropia)* – canavara çönmə qorxusu hallüsinasiyası ilə müşahidə olan patoloji hal

Likvor *(liquor-maye)* – beyin – onurğa beyin mayesi

Likvoreya *(liquorrhoea)* – beyin-onurğa beyin mayesinin axması

Burun likvoreyası – *bax:* nazal likvoreya

Əməliyyatdan sonrakı likvoreya *(l. postoperativa)* – beyin və baş sümüyündə keçirilən əməliyyatlarından sonra baş verir,qoyulan tikişlərin qüsurlarına gora

Qizli likvoreya *(l. occulta)* – bağlı boşluqlara və toxumalara olan likvoreya

Qulaq likvoreyası *(l. auralis)* – adətən gicgah sümüyü piramidasının sınığı zamanı xarici qulaq keçəcəyindən serebro-spinal mayenin axması

Nazal likvoreya (*l. nasalis*) – xəlbir sümüyünün zədələnməsi zamanı beynin sərt qişası qüsurundan beyin-onurğa beyni mayesinin burun boşluğuna axması

Likvorun blokada sindromu – *bax:* blok sindromu

Liqamentit *(ligamentitis)* – oynaq bağlarının iltihabı

Liqamentit stenozlaşan – *bax:* stenozlaşan tendovaginit

Liqamentoqrafiya *(*lat. *ligamentum* bağ + *grapho* yazmaq*)* – oynaq bağlarının və vətərlərinin kontrast rentgenoqrafiyası

Liqatura en masse (frans. bütün çəki ilə) – damarı ətraf toxumalarla birgə bağlayan liqatura

Liqatura *(ligatura)* – qan damarı və ya hər hansı borulu orqanı bağlamaq üçün vasitə

Liqnin *(lignum)* – əvvəllər istifadə olunan, ağacdan hazırlanmış nazik çoxqatlı sarğı materialı

Limbal gözlər – *bax:* bonne gözləri

Limberqin «qaranquş qıfılı» (A.A. Лимберг, 1894-1974, sov. cərrahı) – sümük fraqmentlərindən birində yaradılmış trapesiyayabənzər çıxıntı ilə osteosintez üsulu

Limfa axını – limfanın limfatik damar-

larda hərəkət edərək venoz axına tökülməsi

Limfadenik eritrodermiya – *bax:* Potrie-Vorenje sindromu

Limfadenit *(lymphadenitis)* – limfa vəzilərinin iltihabı

Favuoz limfadenit *(l. favosa)* – favus (keçəllik) zamanı boyun, ənsə və qulaqətrafı limfa vəzilərinin limfadeniti

Xroniki limfadenit *(l. chronica)* – azağrılı və ümumi təzahürlü uzungedişli limfadenit

İnfiltrativ limfadenit (*l. infiltrativa*) – vərəmin ilk mərhələsində limfatik düyünün hiperplaziyası ilə xarakterizə olunan vərəm limfadeniti

İrinli limfadenit *(l. purulenta)* – limfoid toxumanın irinli əriməsi nəticəsində abses və ya adenofleqmonanın əmələ gəlməsi ilə gedən kəskin limfadenit

Kataral limfadenit *(l. catarrhalis)* – *bax:* seroz limfadenit

Kazeoz limfadenit *(l. caseosa)* – limfoid toxumanın kazeoz dağılması nəticəsində abses əmələ gələn vərəm limfadeniti

Kəskin limfadenit *(l. acuta)* – ümumi intoksikasiya, ağrı və limfatik düyünlərin sürətli böyüməsi ilə gedən kəskin limfadenit

Lipomelanotik limfadenit *(l. lipomelanotica)* – dərinin lipomelanotik retikulyozu zamanı ağrılı böyümüş limfa vəziləri

Mezenterial limfadenit *(l. mesenterica)* – *bax:* mezadenit

Mikotik limfadenit *(l. mycotica)* – parazit göbələklərin törətdiyi limfadenit (məs., aktinomikoz zamanı)

Perixoledoxial limfadenit *(l. pericholedochialis)* – öd yollarının iltihabı nəticəsində, öd axarı ətrafında yerləşən limfatik vəzilərin iltihabı ilə gedən kəskin limfadenit

Regionar limfadenit *(l. regionalis)* – iltihab törədicisinin iltihab ocağından limfatik damarlar vasitəsi ilə regionar limfa düyünlərinə yayılması nəticəsində əmələ gələn limfadenit

Sadə limfadenit *(l. simplex)* – *bax:* seroz limfadenit

Seroz limfadenit *(l. serosa)* – limfatik düyünlərə seroz mayenin hopması nəticəsində əmələ gələn limfadenit

Sifilitik limfadenit *(l. syphilitica)* – sifilis zamanı ağrısız, bərk elastik konsistensiyalı zədələnmiş limfa vəziləri

Vərəm limfadeniti *(l. tuberculosa)* – ağciyərlərin uzungedişli, xroniki vərəmi zamanı limfatik düyünlərin kazeoz parçalanması nəticəsində soyuq absessin və fistulun əmələ gəlməsi ilə gedən xroniki limfadenit

Limfadenoid *(lymphadenoideus)* – limfatik vəzə aid olan

Limfadenoid udlaq həlqəsi – *bax:* limfatik udlaq həlqəsi

Limfadenoqrafiya – limfatik düyünlərin, onlardan keçən limfa damarlarına kontrast maddə yeridilməklə rentgenoqrafiyası

Limfadenoma *(lymphadenoma)* – limfatik düyün şişlərinin köhnəlmiş ümumi adı

Limfadenoz *(lymphadenosis)* – limfoid toxumanın sistem hiperplaziyası (məs., leykozlar zamanı müşahidə olunur)

Limfangi – (limfangio-; *limf-* + yun. *angeion* damar) – mürəkkəb sözlərin tərkib hissəsi olub, “limfatik damarlara aid” mənasını verir

Limfangiektatik ödem (*oedema lymphangiectaticum*) – *bax:* limfedema

Limfalogiya – anatomiyanın limfa damarlarını öyrənən bölməsi

Limfangeoma – limfa damarlarında inkişaf edən şiş

Limfangiektoziya *(lymphangiectasia)* – limfatik damarların kəskin davamlı genəlməsi

Limfangiit *(lymphangitis)* – *bax:* limfangit

Limfangioadenoduktoqrafiya – kontrast maddənin aşağı ətraf limfa damarlarına yeridilməsi nəticəsində qasıq, qalça, bel limfa damarlarının və döş limfa axarının limfoqrafiyası

Limfangioadenoqrafiya – limfatik damarların və regionar limfa düyünlərinin limfoqrafiyası

Limfangioblastoma *(lymphangioblastoma)* – *bax:* limfangiosarkoma

Limfangioendotelioblastoma *(lymphangioendothelioblastoma)* – *bax:* limfangioendotelioma

Limfangioendotelioma *(lymphangioendothelioma)* – limfatik damarların endotelindən inkişaf edən bədxassəli şiş

Limfangioma *(lymphangioma)* – limfatik damarlardan inkişaf edən xoşxassəli şiş

Diffuz limfangioma (*l. diffusum*) – dərinin geniş sahəsində yayılan limfangioma

Hipertrofik limfangioma (*l. hypertrophicum*) – *bax:* diffuz limfangioma

Kapillyar limfangioma (*l. capillare*) – genişlənmiş və əyilmiş limfatik kapilyarlardan ibarət limfangioma

Kavernoz limfangioma (*l. cavernosum*) – çoxsaylı xırda hüceyrə və daxili endotellə örtülmüş boşluqlarla xarakterizə olunan limfangioma

Kistoz limfangioma (*l. cystosum*) – daxili endotel hüceyrələrlə örtülmüş, tərkibində detrit və seroz maye olan boşluqlarla xarakterizə olunan limfangioma

Mağaralı limfangioma (*l. cavernosum*) – *bax:* kavernoz limfangioma

Ziyilli limfangioma (*l. verrucosum*) – dəridə ziyilşəkilli epitelial törəmələrlə xarakterizə olunan limfangioma

Limfangiomioma *(lymphangiomyoma)* – limfatik yarıqları əhatə edən saya əzələ liflərindən inkişaf edən xoşxassəli şiş

Limfangiosarkoma *(lymphangiosarcoma)* – limfatik damarlarının hissələrindən ibarət olan bədxassəli şiş

Limfangioplastika – limfa damarlarının plastikası, limfanın axıb getmə yollarının bərpa edilməsi

Limfangiit *(lymphangiitis)* – limfatik damarların iltihabı

Xərçəng limfangiiti *(l. carcinomatosa)* – bədxassəli şiş hüceyrələrinin limfatik damarlarla yayılması

Xroniki limfangiit *(l. chronica)* – dərin limfatik damarların tutulması ilə gedən ödemin əmələ gəlməsinə səbəb olan limfangit (fil ayaqlığın səbəbi)

İrinli limfangiit *(l. purulenta)* – limfatik damarların damar boyunca abses və ya fleqmonaların əmələ gəlməsi ilə gedən irinli iltihabı

Kapillyar limfangiit *(l. capillaris)* – *bax:* torlu limfangit

Kataral limfangiit *(l. cataralis)* – *bax:* seroz limfangit

Kəskin limfangiit *(l. acuta)* – irinli iltihabi ocağın yaxınlığında əmələ gələn, kəskin gedişi və ümumi in-

toksikasiya əlamətləri ilə gedən limfangit

Kök limfangiiti *(l. truncalis)* – iri damarların zədələnməsi nəticəsində dərinin zolaqşəkilli hiperemiyası ilə gedən limfangit

Retikulyar limfangiit *(l. reticularis)* – *bax:* torlu limfangit

Seroz limfangiit *(l. serosa)* – zədələnmiş damarın ətrafındakı toxumalara və damar divarına seroz ekssudatın hopması və hiperemiya ilə gedən limfangit

Torlu limfangiit *(l. reticularis)* – xırda damarların zədələnməsi nəticəsində dərinin torşəkilli hiperemiyası ilə gedən limfangit

Trunkulyar limfangiit *(l. truncalis)* -bax: kök limfangiti

Limfanqoit – *bax:* limfangiit

Limfantomiya – limfa damarlarının kəsilməsi

Limfatik axar *(ductus lympaticus)* – limfatik damarların birləşməsindən yaranan və iri venalara açılan iri limfatik damarların ümumi adı (döş limfatik axarı, sağ limfatik axar)

Limfatik düyün *(nodilymphatici)* – limfatik sistemin, anticisim əmələ gəlməsi və limfositopoyez vəzifəsini yerinə yetirən, limfatik damarlar boyunca yerləşən yumşaq dairəvi orqanı

Limfatik düyüncük *(nodulus lymphaticus)* – *bax:* limfatik follikul

Limfatik follikul (*folliculus lymphaticus*) – limfatik düyünlərdə, badamcıqlarda, dalaqda, bəzi daxili orqanların selikli qişalarında limfasitlərin inkişaf etdiyi məhdud limfoid toxuma.

Limfatik həlqə – *bax:* limfatik udlaq həlqəsi

Limfatik kötük *(truncus lympaticus)* – döş və ya sağ limfatik axara açılan iri limfatik damarların ümumi adı

Limfatik reaksiya – qanda limfositlərin miqdarının müvəqqəti qalxması (məs., məxmərək, göy öskürək, skarlatina və vərəm zamanı təsadüf olunur)

Limfatik udlaq həlqəsi (sin. Valdeyrov limfatik həlqə, limfoid həlqə, Piroqov-Valder həlqəsi) – udlağın ağız və burun boşluğundan girişinin ətrafında yerləşən badamcıqlar (iki damaq, iki boru, dilaltı və dil badamcıqları)

Limfatiostomiya – limfa axacağının drenləşdirilməsi

Limfatizm – ekssudativ-kataral diatez

Limfedema *(lymphoedema)* – limfostazla əlaqədar toxumaların ödemi

Limfoangioqrafiya – kontrast maddə yeridilməklə limfa damarlarının angioqrafiyası

Limfoblast *(lymphoblastus)* – limfositin ilk diferensiasiya etmiş morfoloji sələfi

Limfoblastoz *(lymphoblastosis)* – periferik qanda limfoblastların olması

Limfoblastoz xoşxassəli *(l. benignoacuta)* – *bax:* infeksion mononukleoz

Limfoduktoqrafiya – *bax:* limfangioadenoduktoqrafiya

Limfoepitelioma *(lymphoepithelioma)* – *bax:* Şminke şişi

Limfofleboqrafiya (*lymphophlebographoe*) – bədənin müəyyən nahiyəsinin vena və limfa damarlarının eyni anda müayinəsi

Limfofollikulyar sarcoma – *bax:* giqant follikulyar limfoma

Limfoid – limfatik toxumaya aid olan

Limfoid-hüceyrə anginası (*angina lymphoidocellularis*) – *bax:* infeksion mononukleoz

Limfokapillyar – *bax:* limfatik kapillyar

Limfokininlər – hüceyrə immuniteti mediatorları

Limfoqanqlioqrafiya – *bax:* limfadenoqrafiya

Limfoqrafiya (*limfo-* + yun. *grapho* yazmaq, təsvir etmək) – limfatik sistem orqanlarının kontrast rentgenoqrafiyası

Dolayı limfoqrafiya – kontrast maddənin yumşaq toxumalara yeridilməsi ilə aparılan limfoqrafiya (kontrast maddə diffuziya yolu ilə limfatik yollara keçir)

Düz limfoqrafiya – kontrast maddənin cərrahi yolla açılmış limfotik damara yeridilməsi ilə aparılan limfoqrafiya

Limfoqranulema *(lymphogranuloma)* – limfatik sistemin orqanlarında inkişaf edən polimorf hüceyrəli qranulemalar

Qasıq limfoqranuleması (lymphogranuloma inguinalis) – *bax:* qasıq limfoqranulematozu

Limfoqranulematoz (*lymphogranulomatosis)* – limfoid toxumanın daxili orqanlarda və limfatik vəzilərdə limfoqranulemaların əmələ gəlməsi ilə gedən bədxassəli hiperplaziyası

Disseminə olunmuş limfoqranulematoz *(l. disseminata)* – limfoqranulematozun limfatik düyünlərin və daxili orqanların çoxsaylı zədələnməsi ilə gedən mərhələsi

Generalizə olunmuş limfoqranulematoz *(l. generalisata)* – limfoqranulematozun diafraqma və dalağın ətrafında yerləşən limfatik düyünlərin zədələnməsi ilə gedən mərhələsi

Xoşxassəli limfoqranulematoz *(l. benigna)* – *bax:* sarkoidoz

Qasıq limfoqranulematoz *(l. inguinalis)* – xlamidiyalar tərəfindən törədilən regionar limfatik düyünlərin xoralaşan, qanayan və çoxsaylı fistullar ilə ağırlaşan limfadeniti və xarici cinsiyyət orqanlarında ağrılı eroziya və yaraların əmələ gəlməsi ilə gedən zöhrəvi xəstəlik

Lokal limfoqranulematoz *(l. localis)* – *bax:* ocaqlı limfoqranulematoz

Ocaqlı limfoqranulematoz *(l. localis)* – limfoqranulematozun diafraqma ətrafında yerləşən bir və ya iki qrup limfatik düyünlərin çoxsaylı zədələnməsi ilə gedən başlanğıc mərhələsi

Regionar limfoqranulematoz *(l. regionalis)* – limfoqranulematozun diafraqma ətrafında yerləşən iki və ya daha artıq qrup limfatik düyünlərin çoxsaylı zədələnməsi ilə gedən mərhələsi

Zöhrəvi limfoqranulematoz *(l. venerica)* – *bax:* qasıq limfoqranulematozu

Limfoqranulidlər *(lymphogranulida)* – limfoqranulematoz zamanı dərinin polimorf qaşınan səpgiləri

Limfolavanş *(frans. lympholavage)* – hipertonik məhlullardan istifadə etməklə yara səthi və toxumalardan möhtəviyyatın axınının gücləndirilməsi (yaranın fiziki antiseptikasının bir üsulu)

Limfoleykoz *(lympholeucosis)* – limfopoyezin sələf hüceyrələrinin başlanğıc verdiyi şiş prosesi (leykozun bir növü)

Xroniki limfoleykoz (*l. chronica)* – morfoloji substratı əsasən limfositlərdən ibarət olan limfoleykoz

Kəskin limfoleykoz *(l. acuta)* – *bax:* limfoblast leykoz

Limfologiya *(lymphologia)* – anatomi-

yanın limfotik sistemin quruluşunu öyrənən bölməsi

Limfoma *(lymphoma)* – limfoid toxumadan inkişaf edən şişlərin ümumi adı

Afrikan limfoması–*bax:*Berkitt şişi

Berkitt limfoması –*bax:* Berkitt şişi

Nodulyar limfoma *(l. nodulare)* – *bax:* giqant follikulyar limfoma

Limfopenik aqammaqlobulinemiya *(agammaglobulinaemia lymphopenica)* – timus vəzinin aplaziyası, toxumalarda plazmatik hüceyrələrin və limfositlərin olmaması, immunoqlobulinlərin defisiti ilə gedən irsi xəstəlik

Limfopeniya *(lymphopenia)*– periferik qanda limfositlərin miqdarının az olması

Limfopletora *(lymfoplehtora)* – limfatik damarlarda limfanın miqdarının artması

Limfopoez (*lymphopoesis*) – limfositlərin əmələ gəlməsinə səbəb olan hüceyrələrin diferensiasiya və proliferasiyası

Limforadioqrafiya – *bax:* radioizotop limfoqrafiyası

Limforagiya – *bax:* limforeya

Limforentgenoqrafiya – *bax:* limfoqrafiya

Limforetikulositoma *(lymphoreticulocytoma)* – *bax:* dərinin limfositoması

Limforetikulyoz – *bax:* giqant follikulyar limfoma

Limforeya (*lymphorhoia***)** – bədən boşluğuna və ya bədən səthinə limfanın axması

Limforragiya *(lymphorrhagia)* – *bax:* limforeya

Limfosarkoma *(lymphosarcoma)* – tam yetişməmiş limfoid hüceyrələrindən əmələ gələn bədxassəli şiş

Berkit limfosarkoması – bax: Berkit şişi

Limfoblastik limfosarkoma (*l. lymphoblasticum)* – limfoblastlarla morfoloji eyni olan hüceyrələrdən yaranan limfosarkoma

Limfositar limfosarkoma *(l. lymphocyticum)* – limfositlərlə morfologiyası eyni olan hüceyrələrdən yaranan limfosarkoma

Limfosarkomatoz (*lymphosarcomatosis***)** – limfosarkomanın generalizəolunmuş forması

Limfosele – limfa ilə dolmuş kista (sist)

Limfosit *(lymphocytus)* – dalaqda, limfatik düyünlərində, sümük iliyində yaranan immunoloji reaksiyalarda iştirak edən dənəsiz leykosit

Limfositar diskeneziya – *bax:* alimfositoz

Limfositar xoriomeningit (*choriomenmgitis limphocitaris)* – insanlara gəmiricilərdən ötürülən, beyin qişalarının və MSS-nin damar kələfini zədələyən virus infeksiyası

Limfositofarez *(lymphositophairesis)* – leykofarezin bir növü,limfositlərin tam qandan ayrılması

Limfositopeniya – qanda limfositlərin miqdarının azalması

Limfositoz *(lymphosyotsis)* – qanda limfositlərin artması

Absolyut limfositoz *(l. absoluta)* – *bax:* mütləq limfositoz

İnfeksion azsimptomlu limfositoz – *bax:* kəskin infeksion limfositoz

Kəskin infeksion limfositoz *(l. infectiosa acuta)* – əsasən uşaqlarda rast gəlinən, yüksək limfositoz və çoxsaylı klinik təzahürləri olan, virus etiologiyalı kəskin yoluxucu xəstəlik

Mütləq limfositoz *(l. absoluta)* –

qan vahidində limfositlərin orta miqdarının artması (xroniki limfoleykoz, infeksion mononukleoz zamanı müşahidə olunur)

Nisbi limfositoz *(l. relativa)* – limfositlərin miqdarının digər leykositlərin miqdarına nisbətən artması (hipo və aplastik anemiyalar) zamanı müşahidə olunur

Limfosorbsiya *(lymphosorbeo)* – toksik maddələrin orqanizmdən limfanın adsorbentdən keçirilərək təmizlənməsi metodu

Limfostaz *(lymphstasis)* – limfa axınının tam dayanması (limfangiektaziya, ödem və fil ayaqlığa gətirib çıxarır)

Limfuriya (*lymphuria***)** – *bax:* xiluriya

Limon qabığı simptomu – süd vəzi xərçəngi zamanı süd vəzi dərisinin qalınlaşması, ödemləşməsi və tər vəzi dəliklərinin kəskin nəzərə çarpması

Linç sindromu – yoğun və düz bağırsağın qeyri-polipoz xərçəngi, irsi xəstəlikdi

Lindau sisti (A. V. Lindau, 1892-1958, isveçrəli patoloq) – *bax:* angioretikulema

Lindenbraten simptomu (Л. Д. Линденбратен, 1922, sov. rentgenoloqu) – məhdud fibroz plevrit zamanı rentgenoqramda vertikal və çəp yerləşmiş uzun, ensiz kölgələrin aşkar edilməsi

Linder simptomu (sin. Neri simptomu) – arxası üstə, aşağı ətrafı tam açılmış vəziyyətdə uzanan, bel-oma radikuliti olan xəstələrin passiv şəkildə başını önə əydikdə bel nahiyəsində ağrının meydana gəlməsi

Lindrat fenomeni – əzələnin statik yükünün kəsildikdən dərhal sonra qaz mübadiləsinin artması, fizioloji haldı

Lindsey sindromu – irit və koxleovestibulyar simptomların birgə meydana çıxması

Linetol *(linaetholum)* – ateroskleroz, yanıq və şüa zədələnmələri zamanı tətbiq olunan hipoxolesterinemik təsir göstərən dərman maddəsi

Liniment *(linimentum)* – duru məlhəm şəkilində olur, dəri üçün istifadə olunan dərman forması

Linkomisin *(lincimycinum)* – *Actinomyces lincolniensis* tərəfindən hasil edilən əksər qram müsbət, bəzi qram mənfi çöplərə qarşı aktiv olan antibiotik

Linkomisin hidroxlorid *(lincomucini hydrochloridum)* – əsasən qram-müsbət mikroorqanizmlərə, bəzi anaerob mikroorqanizmlərə və mikoplazmalara təsir edən genişspektrli antibiotik

Linq sistemi – hərəkətlərlə müalicə sistemi

Linqual *(lingualis)* – dilə aid olan

Linqvatulos *(linguatulosis)* – *Linguatula serrata* tərəfindən törənən invaziv xəstəlik

Linnarts sıxacı (Linnartz) – "yan-yana" enteroenteroanastomozun qoyulması üçün istifadə edilən üçbaşlı elastik sıxac

Linolin turşusu – insan orqanizmində əvəz olunmayan yağ turşusu (şəkərli diabet zamanı metabolizmi pozulur)

Linton əməliyyatı (R. R. Linton, 1900, amer. cərrahı)– baldırın dərin və səthi venaları arasındakı anastomozun aponevrozaltı bağlanması cərrahi əməliyyatı, aşağı ətrafların varikoz genişlənməsində istifadə olunur

Linyak sindromu (G. O. E. Lignac, 1891-1954, hol. patoloq) – *bax:* sistinoz

Linyak-Fankoni sindromu (G. O. E. Lignac, G. Fanconi, 1892, isveçrəli pediatr) – *bax:* sistinoz

Linza (*alm. linse*) – iki yarım qabarıq sahəli şəffaf cisim (bəzi optik cihazlarda işıq şüalarının yönləndirilməsi və görmənin korreksiyası üçün istifadə olunur)

Afokal linzalar – təsviri fokslandırmayan linzalar (məs., eynəklər üçün prizmatik linzalar)

Anastiqmasilindrik linza – sferosilindrik linza

Anastiqmatik linza – *bax:* sferik linza

Asferik linza – səthi şarı xatırlatmayan linza (məs., silindrik və ya torik linzalar)

Astiqmatik eynək linzası – astiqmatizm zamanı görməni korreksiya etmək üçün istifadə olunan, bir səthi sferik, digər səthi torik olan linzalar

Bifokal eynək linzaları – presbiopsiya zamanı görməni korreksiya etmək üçün iki müxtəlif sındırma qabiliyyətli linzalar

Bisilindirik eynək linzaları – astiqmatizm zamanı görməni korreksiya etmək üçün istifadə olunan hər iki səthi torik olan linzalar

Elektromaqnit linzası – elektron mikroskopun çoxqatlı solenoid quruluşlu, maqnit sahəsini idarə etmək üçün nəzərdə tutulan linzası

Eynək linzaları – görməni korreksiya etmək üçün eynəklərə taxılan linzaların ümumi adı

Kontakt skleral linzalar – skleraya qoyulan və optik hissəni buynuz qişa önündə saxlayan linzalar

Kontakt linzaları – görməni korreksiya etmək üçün bilavasitə göz almasına qoyulan nazik linzalar

Kontakt buynuz qişa linzaları – kiçikdiametrli, yalnız optik hissədən ibarət olan buynuz qişa səthinə qoyulan linzalar

Korneal linzalar – *bax:* kontakt buynuz qişa linzaları

Lentikulyar linzalar – optik gücü 13,5 dptr-dən çox olan səpici eynək linzaları

Yığıcı linzalar – paralel şüa dəstəsini bir yerə toplayan linzalar

Torik linzalar – səthi qövsşəkilli, asferik linzalara aid olan, astiqmatizm zamanı görmənin korreksiyası üçün istifadə olunan linzalar

Mənfi linzalar – *bax:* səpələyici linzalar

Müsbət linzalar – *bax:* yığıcı linzalar

Planslindirik eynək linzaları – bir səthi hamar, digər səthi torik olan eynək linzaları

Prizmatik eynək linzaları – heteroforiya və konvergensiyanın pozulması zamanı görmənin korreksiya edilməsi üçün fırlanan səthli optik linzalar

Səpələyici linzalar – paralel şüa dəstəsini səpələnən şüa dəstəsinə çevirən linzalar (yaxından görmə zamanı tətbiq olunur)

Sferik linzalar – hər iki hissəsi şarın səthinin yarımkürələri formasında olan linzalar (astiqmatizm olmayan hallarda görmənin korreksiyası üçün istifadə olunur)

Sferoslindrik eynək linzalar – *bax:* astiqmatik eynək linzası

Skleral linzalar – *bax:* kontakt skleral linzalar

Silindrik linzalar – səthi silindrin yan səthinin hissəsinə uyğun gələn,

asferik linzalara aid olan, astiqmatizm zamanı görmənin korreksiyası üçün istifadə olunan linzalar

Linzometr – *bax:* dioptrimetr

Liobil (*tabulettae liobilum***) – ödqovucu təsirli maddə**

Liontioz – şir sifəti

Lipamid *(lipamidum)* – biokimyəvi təsirinə görə B qrup vitamin kompleksi preparatlarına uyğun gələn, orqanizmin enerji təchizatını artıran preparat

Lipaza – triqliseridlərin qliserin və yağ turşularına çevrilməsini kataliz edən mədəaltı vəz və bağırsaq fermenti

Lipektomiya *(lipectomia)* – artıq piy toxumasının çıxarılmasından ibarət cərrahi əməliyyat

Lipemaniya *(lypemania)* – melanxoliya və sayıqlamanın birgə təzahür etdiyi ruhi xəstəlik

Lipemiya *(lipaemia)* – 1) qanda yağların miqdarının artması (neytral yağların və triqliseridlərin)

Alimentar lipemiya *(l. alimentaria)* – qida ilə yağların artıq miqdarda daxil olması nəticəsində yaranan lipemiya

Birincili lipemiya *(l. primaria)* – yağ mübadiləsinin anadangəlmə pozğunluğu nəticəsində yaranan lipemiya

Fizioloji lipemiya *(l. physiogika)* – yağ mübadiləsinin pozğunluğu ilə əlaqədar olmayan lipemiya

İkincili lipemiya *(l. secundaria)* – yağ mübadiləsinin qazanılmış pozğunluğu nəticəsində yaranan lipemiya

Qida lipemiyası – *bax:* alimentar lipemiya

Patoloji lipemiya *(l. pathologica)* – yağ mübadiləsinin pozulması nəticəsində yaranan lipemiya

Postprandial lipemiya – *bax:* alimentar lipemiya

Retension lipemiya *(l. retertionialis)* – qandan yağların kifayət qədər xaric olunması nəticəsində yaranan lipemiya

Lipemiya *(lipaemia)* – 2) qanda yağların olması

Lipidemiya (*lipidaemia*; *lipidlər* + yun. *haima* qan) – 1) qanda lipidlərin miqdarının yüksək olması; 2) qanda lipidlərin olması

Lipidlər *(lipidis)* – suda həll olmayan, üzvi həlledicilərdə həll olan, bütün piy hüceyrələrinə daxil maddələr

Lipidoz *(lipidosis)* – 1) lipid mübadiləsinin anadangəlmə və ya qazanılmış xəstəliklərinin ümumi adı; 2) piy distrofiyası

Lipman əlaməti (H. C. Liepmann, 1863-1925, alm. psixiatrı) – göz almacıqlarını sıxmaqla və ya təlqin etməklə optik hallüsinasiyaların yaranması

Lipmann fenomeni (H. C. Liepmann) – alkoqol delirisi zamanı özünə təlqin nəticəsində yaranan görmə hallüsinasiyaları

Lipmann simptomu (H. C. Liepmann) – *bax:* Lipman fenomeni

Lipoblast – yetişməmiş piy hüceyrəsi

Lipoblastoma – bədxassəli lipoma

Lipodermoid *(lipodermoidum)* – dərinin, bəzi hallarda daxili orqanların çoxsaylı yastı epitel hüceyrələri ilə örtülmüş piy toxumaları ilə dolmuş sistlərindən ibarət inkişaf anomaliyası

Lipoektomiya – *bax:* liposaksiya

Lipofaq qranuloması – *bax:* lipoqranuloma

Lipofaneroz *(lipophanerosis)* – piy distrofiyası, degenerativ piylənmə

Lipofibroma (*lipofibroma*) – *bax:* fibrolipoma

Lipofussin *(lipefuscinum)* – qocalma piqmentidir, hüceyrələrin sitoplazmasında sarı və boz dənəciklər şəklində yayılmış qlikoproteiddir

Lipoid qranuloması – *bax:* lipoqranuloma

Lipoid nekrobioz (*necrobioisis lipoidea*) – əsasən baldır nahiyəsinin dərisində kollogenin nekrobioza uğradığı yerlərdə lipoidlərin toplanması nəticəsində yaranan, qeyri-düzgün formalı, sarı rəngli dermatozların meydana gəlməsi ilə gedən patoloji vəziyyət

Lipoidemiya (*lipoidlər* + yun. *haimai* qan) – 1) qanda lipidlərin olması; 2) qanda lipidlərin miqdarının artması

Lipoid proteinozu – *bax:* dəri və selikli qişaların hialinozu

Lipoidlər (*lipoida*) – təbii yağabənzər maddələrin köhnəlmiş ümumi adı: hüceyrə membranlarının struktur komponenti olan fosfatidlər, sterinlər, sfinqolipidlər hazırda lipidlərə aiddirlər

Lipoidoz (köh., *lipoidosis*) – *bax:* lipidoz

Lipokain *(lipocainum)* – iribuynuzlu heyvanların mədəaltı vəzindən insulin xaric edildikdən sonra alınmış ekstrakt (qaraciyərin piy infiltrasiyasının qarşısını almaq qabiliyyətinə malikdir)

Lipokalsinoqranulomatoz *(lipocalcinogranulomatosis)* – yumşaq toxumalarda kalsium duzlarının massiv toplanması ilə xarakterizə olunan, piy və kalsium mübadiləsinin pozulmasından ibarət naməlum etiologiyalı patoloji proses

Dərialtı lipokalsinoqranulomatoz *(l. subcutanea)* – kalsium duzlarının əsas etibarilə dəri və dərialtı toxumada toplanması nəticəsində zədələnmiş nahiyənin xüsusi zirəhəbənzər şəkil alması

Əzələ-hiqromatoz lipokalsinoqranulomatoz (*l. muscularis hygromatosa*) – oynaqlar ətrafında kalsium duzlarının yığılması və hiqromaların əmələ gəlməsindən ibarət lipokalsinoqranulomatoz; artralgiya, oynaqətrafı toxumaların qalınlaşması, oynaq funksiyalarının pozulması ilə təzahür edir

Lipoqranulema *(lipogranuloma)* – giqant çoxnüvəli hüceyrələrin, piy infiltrasiyalı xırda sistlərin olması ilə xarakterizə olunan xroniki iltihab ocağı

İnyeksion lipoqranuloma *(*sin. oleoqranuloma, oleoma, oleoskleroma*)* – yağ tərkibli dərman maddələrinin inyeksiya yerində yaranan lipoqranuloma

Travmatik lipoqranuloma (*l. traumaticum*) – zədələnmə nəticəsində piy toxumasının nekroza uğramış yerində əmələ gəlmiş lipoqranuloma

Lipoqranulomatoz (*lipoqranulomatosis*) – *bax:* Hend-Krisçen-Şüller xəstəliyi

Müsariqənin lipoqranulomatozu (*l. mesenterii*) – *bax:* intestinal lipodistrofiya

Yenidoğulmuşların disseminəolunmuş lipoqranulomatozu (*l. disseminata songenita*) – *bax:* Farber sindromu

Lipol turşusu – qaraciyər, böyrək və miokardın tərkibinə daxil olan, maddələr mübadiləsində iştirak edən kofermet

Lipolitik – piyləri parçalayan maddələr

Lipoma *(lipoma)* – piy toxumasının xoşxassəli şişi

Bədxassəli lipoma (*l. malignum*) – *bax:* liposarkoma

Diffuz lipoma *(l. diffusa)*– birləşdirici toxumadan ibarət kapsulası olmayan, piy toxumasında yerləşən lipoma

Əzələarası lipoma (*l. intramscularе*) – əzələ toxumaları arasında yerləşən lipoma

İnfiltrasiyaedən lipoma (*l. infiltrans*) – *bax:* liposarkoma

İntramural lipoma (*l. intramurale*)– *bax:* əzələarası lipoma

Lipomatoz *(lipomatosis)* – piy toxumasının patoloji surətdə artması

Lipomatoz diffuz simmetrik *(lipomatosis symmetrica diffusa) – bax:* Madelunq sindromu

Lipomatoz məhdud simmetrik *(lipomatosis symmetrica circumscripta) – bax:* Roşa-Leri lipomatozu

Lipomelanotik hiperplastik retikulit – *bax:* Potrie-Vorenje sindromu

Lipomelanotik limfoadenopatiya – *bax:* Potrie-Vorenje sindromu

Liposaksiya – artıq piyin cərrahi yolla xaric edilməsi

Liposarkoma *(liposarcoma)* – piy toxumasından əmələ gələn bədxassəli şiş

Lipositar liposarkoma *(l. lipocyticum)* – müxtəlif səviyyədə yetişmiş lipositlərdən əmələ gələn liposarkoma

Pleomorf liposarkoma *(l. pleomorphum)* – bax: lipositar liposarkoma

Polimorf – hüceyrəli liposarkoma *(l. liposarkoma polymorphocellulare)* - bax: lipositar liposarkoma

Lipostoma – ağızın anadangəlmə olmaması

Lipotimiya *(sin. lipopsixia)* – düşüncənin qısamüddətli itməsi, bayılma

Lipoy turşusu *(acidum lipoicum)* – biokimyəvi təsirinə görə B qrup vitamin kompleksi preparatlarına uyğun gələn, orqanizmin enerji təchizatını artıran preparat

Lipuriya *(lipuria)* – sidikdə lipidlərin olması

Liranın vətər tikişi (H. Lier) – vətər uclarının iki boylama və bir köndələn ilgəkşəkilli tikişlə tikilməsi

Lısenkov əməliyyatı – ön beyin yırtıqları zamanı icra olunan cərrahi əməliyyat

Lisenziya – icazə

Lisfrank bıçağı (J. Lisfranc) – cərrahi əməliyyatlarda istifadə edilən kəsici alət

Lisovskayanın reaksiyası (C. H. Лисовская, 1876-1951, sov. cərrahı) – çoxvalentli qonokokk kulturası ilə immunlaşmış dovşan qanının zərdabı vasitəsilə uşaqlıq boynu ifrazatı və sidikdə qonokokk anticisminin tapılmasına əsaslanan sereloji diaqnostika

Lissauer iflici (H. Lissauer, 1861-1891, alm. nevroloqu) – proqressiv iflicin nisbətən xoşxassəli, uzungedişli atipik forması (paralitik demensiyanın zəif ifadə olunduğu, yerli ocaqlı simptomların-afaziya, aqnoziya, parez və ifliclərin) üstünlük təşkil etdyi atipik forma

Lissensefaliya *(lissencephalia) – bax:* agiriya

Lissofobiya *(lyssophobia)* – psixi pozulmadan patoloji qorxma

Lissotrixiya *(lissotrichia)* – insan saçının tam düz forması

Lister üsulu (J. Lister,1827-1912, ing.

cərrahı) – cərrahın əlinin, sarğı materiallarının, əməliyyat sahəsinin karbol turşusu ilə dezinfeksiya edilməsi üsulu

Lister sarğısı (J. Lister) – tərkibində karbol turşusu olan mayedə isladılmış sarğı

Listerelloma – *bax:* listerioma

Listerelloz – *bax:* listerioz

Listerioma *(listerioma)* – listerioza xarakterik olan mərkəzi nekrozlaşmış, ətrafı limfoid və retikulyar hüceyrələrdən ibarət olan, sitoplazmasında listeriyalar tapılan qranuloma

Listerioz *(listeriosis)* – *Listeriya Monosytogenez* tərəfindən törədilən, alimentar yolla yoluxan, əsasən limfatik düyünləri zədələyən, septisemiya ilə ağırlaşan zoonoz yoluxucu xəstəlik

Listeriyalar *(listeria)* (J. Lister, 1827-1912, ingilis cərrahı) – canlılarda listerioz xəstəliyi törədən, hərəkətli qram müsbət, *Listeriya Monosytogenez* sinfindən olan bakteriyalar

Listonun sümükkəsici aləti (R. Liston, 1794-1847, ing. cərrahı; sin. Liston kəlbətini*)* – kəsici səthinin düzxətli olması ilə seçilən sümük toxumasını kəsmək üçün cərrahi alət

Lisunov aləti ilə dartma (B.A. Лисунов, sov. cərrahı) – su altında xəstənin bədəninin yuxarı hissəsi fiksə olunmaq şərti ilə çanaq nahiyəsinə yükün birləşdirilməsi (diskogen radikulitlərin müalicəsi zamanı istifadə olunur)

Litiaz *(lithasis)* – daş əmələgəlmə prosesi

Tubulomedulyar litiaz *(l. tubulomedularis)* – *bax:* nefrokalsinoz

Litik qarışıq *(mixtio lytica)* – cərrahi əməliyyatlar zamanı anesteziologiyada vegetativ funksiyaları stabil saxlamaq üçün dərman vasitələrinin kombinasiyası (neyroleptiklər, trankolizatorlar, analgetiklər, histaminəlehinə maddələr və s.)

Litioterapiya *(lithiotherapia)* – litium duzlarının müalicəvi və ya profilaktik məqsədlə təyin edilməsi (psixi xəstəliklərdə)

Litium karbonat *(lithii carbonas)* – əsasən maniakal və hipomaniakal mənşəli psixozlarda tətbiq olunan antidepressant

Litoxol turşusu – bağırsaq mikroflorasının təsiri altında yaranan öd turşusu

Litokelifoz *(lithokelyphosis)* – döl qişasının kirəcləşməsi və dölün mumlaşması

Litolapaksiya *(litholapaxia)* – litotrpisiya zamanı əmələ gəlmiş daş qırıntılarının sidik kisəsinin yuyulması ilə xaric edilməsi

Litolitiklər *(litholytica)* – konkrementlərin həll edilməsi üçün dərman vasitələri

Litoliz – sidik yolları daşlarının həll edilməsi

Litopedion *(lithopaedion)* – boru hamiləlik nəticəsində tələf olmuş və sümükləşmiş döl

Litotom – daşı xaric etmək üçün icra edilən əməliyyatlarda istifadə olunan alət

Litotomiya *(lithotomia)* – *bax:* daşın xaric edilməsi

Litotriptor – sidik kisəsində daşı mexaniki yolla parçalamaq üçün alət

Litotriptoz-sistoskop – *bax:* sistolitotriptoz

Litotrpisiya *(lithotripsia)* – daşın parçalanması

Litsman ölçüsü (C.C. Th. Litzmann, 1815-1890, alm. akuşeri) – çanaq

sümüyünün arxa qalça qanadları arasındakı məsafə

Littl xəstəliyi (W. J. Little, 1810-1894, ing. həkimi) – aşağı ətrafların spastik paraparezinin üstünlüyü ilə gedən uşaq serebral iflicinin bir forması

Littl-Lassuer sindromu (E.G.G. Little, 1867-1950, ing. dermatoloqu; A. Lassueur) – başın tüklü hissəsinin, qoltuqaltı və qasıq nahiyəsinin alopesiyası və follikulyar keratotik səpgilərlə təzahür edən naməlum etiologiyalı xəstəlik

Littlın çoxsaylı eritomatoz epitelioması (E.G.G. Little, 1867-1950, ing. dermatoloqu) – *bax:* xoralaşmamış səthi yastı dəri bazalioması

Littre kolostomiyası (A. Littre, 1658-1725, frans. cərrahı) – siqmayabənzər bağırsağa süni stomanın qoyulması (*anus praeternaturalis*)

Littre yırtığı (A.Littre, 1658-1725, frans. cərrahı) – qarnın ön divarının tərkibi qalça bağırsağın divertikulundan ibarət olan anadangəlmə yırtığı

Littreit *(littreitis)* – sidik axarı kanalı vəzilərinin iltihabı; kəskin süzənək uretriti zamanı müşahidə olunur

Littlın dekalvasiyaedən follikulyar bizəbənzər lixeni – *bax:* Littl-Lassuer sindromu

Liv 52 (*liv 52*) – hepatoprotektor təsirli maddə

Lıvov əməliyyatı – damaq loskutlarının geriyə çəkilməsi ilə icra olunan uranoplastika

Lizat *(lysis)* – hər hansı bir orqan və ya toxumanın lizisə uğramış hissəsi

Lizatoterapiya – lizatların müalicə məqsədilə istifadə olunması

Lizis – temperaturun tədricən enməsi, orqanizmin özünə məxsus fermentlərin təsirindən hüceyrə və toxumalarının dağılması

Xəstəliyin lizisi – xəstəliyin əlamətlərinin tədricən zəifləməsi

Lizoform *(lysoformium)* – dezinfeksiya və dezodorasiya məqsədilə işlədilən antiseptik maddə

LL cüzamı – *bax:* lepramatoz cüzam

Lobektomiya *(lobectomia)* – hər hansı bir orqanın payının cərrahi yolla xaric edilməsi (ağciyərin, qaraciyərin, baş beynin)

Lobelin *(lobelinum)* – tənəffüs mərkəzinə reflektori stimuləedici təsir göstərən analeptik vasitə

Lobit *(lobitis)* – *bax:* pay pnevmoniyası

Lobri-Pessi sindromu (Ch. Laubry,1872-1941, frans. həkim; Pezzi) – mədəciklərarası arakəsmənin qüsurunun aortal qapağın çatışmazlığı ilə birgə təsadüf olunduğu ürək qüsuru

Lobri-Sull sindromu *(*Ch. Laubry; P.L.J. Saulle,1903-1960, frans. həkimi) – ürəyin işemik xəstəliyi zamanı həzm traktının reflektor hipokineziyası ilə əlaqədar mədədə artıq miqdarda qazın toplanması və sağ diafraqma kümbəzinin yuxarıda dayanması

Lofotrix – bir hüceyrə qütbündə qamçıları olan bakteriyalar

Logetronoqrafiya – *bax:* logeqrafiya

Logeqrafiya – xüsusi elektron ekranın-logetronun köməyi ilə rentgenoqramın alınması

Loximetriya *(lochiometra)* – loxilərin uşaqlıq daxilində ləngiməsi (uşaqlığın yığılma qabiliyyətinin zəif olması və ya uşaqlıq boynunun spazması nəticəsində meydana çıxır)

Loxiya *(yun. lochia)* – doğuşdan sonra

uşaqlıqdan gələn qan, selik, nekrozlaşmış toxumalardan ibarət ifrazat

Loje yırtığı (S. Laugier, 1799-1872, frans. cərrahı) – lakunar bağ nahiyəsindəki yarıqdan çıxan bud yırtığı

Lokal Hollender-Simons xəstəliyi – *bax:* proqressivləşən seqmentar lipodistrofiya

Lokalitik prinsip – xəstəliklərin yerləşdiyi anatomik substrata görə klassifikasiyası

Lokalizasionizm – xəstəliyin inkişafının morfoloji substratla bağlılığını ön plana çəkən metafizik baxış (xəstəliyin inkişafında sinir və humoral faktorların rolunu inkar edən baxış)

Lokalizasiya – yayılma məhdudiyyəti

Lokxard-Mammeri üsulu (J. P. Lockhart- Mummery, 1875-1957, ingilis cərrahı) – hemorraidal qanaxmalar zamanı düz bağırsağın rezin boru ətrafına dolanmış drenajla tamponada edilməsi

Lokomosiya *(locomotio)* – canlının mühitdə aktiv hərəkət etməsi üçün etdiyi razılaşdırılmış hərəkətlərin məcmusu

Lokus *(locus- yer)* – genin xromosomda yerləşdiyi yer

Loqasteniya (*logasthenia*) – səhv tələffüz etmədən qorxu nəticəsində yaranan nitq qüsuru

Loqofobiya *(logophobia)* – lazım olan sözləri tələffüz edə bilməməkdən patoloji qorxu

Loqokloniya *(logoclonia)* – ayrı-ayrı hecaların, sözlərin təkrarlanmasından ibarət kəkələmə (əzələlərin klonik yığılması nəticəsində)

Loqonevroz *(logoneurosis)* – nevroz zamanı nitqin pəltəklik formasında pozulması

Loqopatiya *(logopathia)* – nitq pozğunluqlarının ümumi adı

Loqoped – danışığı qüsurlu olan şəxslərlə məşğul olan mütəxəssis

Loqopedik kömək – həkimin nəzarəti və iştirakı ilə ixtisaslaşmış pedaqoqun nitq pozğunluğu olan uşaqlarla məşğələlər keçməsi

Loqopediya – nitqin qüsurlarını və onların korreksiyasını öyrənən, pedaqogikanın tiblə bağlı sahəsi

Loqoreya *(logorrhoea)* – nitqini saxlaya bilməmə

Loqoritm – nitq qüsurlarının aradan qaldırılması üçün elektron aparat

Lombard pellaqrası – *bax:* pellaqra

Lombard simptomu (E. Lombard,1869-1920, frans. otolarinqoloqu) – labirintin xəstəliyi ilə əlaqədar meydana çıxmış karlıq zamanı nitqin həddən artıq yüksək olması

Lombard üsulu (E. Lombard) – karlığın simulyasiyasını aşkar etmək üçün yüksək tonla kitab oxuyan şəxsə kənardan daha yüksək tonla səs qıcıqlandırıcısı verdikdə müayinə olunan şəxsin səs tonunu yüksəltməsi

Lombrozianlıq *(*C. Lombroso, 1835-1909, ital. psixiatrı) – cinayətkarlığa meylliyin anadangəlmə qüsur olması ilə bağlı konsepsiya

Longet *(frans. longuette)* – immobilizəedici sarğıların qoyulması üçün bin neçə qat bintdən və ya plastmasdan hazırlanmış gips sarğısı

Lonqmayer-Dollete əməliyyatı (W. P. Longmire, 1913, amer. cərrah; A. M. Dogliotti, 1897-1966, ital. cərrahı) – qaraciyərdaxili öd axarları ilə mədə arasında anastomozun qoyulması ilə birgə icra olunan qaraciyərin rezeksiyası cərrahi əməliyyatı

Lonqo sıxacı (N. Longo) – kardiocər-

rahiyyədə istifadə olunan, ürək yaralarının kənarlarını yaxınlaşdırmaq üçün cərrahi alət, işçi hissəsində iti dişləri olan sıxac

Loozerin şəffaf zonası (E. Looser, 1877-1936, isveçrəli cərrah və rentqenoloq) – rentgenoqramda normal sümük strukturuna nəzərən köndələn şəffaf zolağın olması (bu əlamət həddən artıq yük altında sümük toxumasının sorulmasını və yenidən qurulmasını göstərir)

Loozer-Milkmen xəstəliyi (E. Looser; L.A.Milkman, 1895-1951, amer. rentqenoloq) – *bax:* Milkmen xəstəliyi

Loran üsulu (G.Laurens, 1867-1941, frans. otolarinqoloqu) – qulaqarxası absesin açılması zamanı meydana gələn fistulun ətraf toxumalarla örtülməsindən ibarət plastik əməliyyat

Lorazepam (*lorazepamum***)** – benzodiazepin törəməsi olan trankvilizator

Lordoz *(lordosis)* – onurğanın içəri əyriliyi

Lorens aləti (A.Lorenz, 1854-1946, avstr. ortoped-cərrah) – osteotomiyalar zamanı istifadə olunan cərrahi alət

Lorens aparatı *(*A.Lorenz) – bud-çanaq oynağının kontrakturaları zamanı istifadə olunan ortopedik dartma aparatı

Lorens çarpayısı (A.Lorenz) – onurğanın immobilizasiyası məqsədilə istifadə olunan gips çarpayısı (əsasən vərəm spondilitində istifadə olunur)

Lorens qaşığı (A.Lorenz) – artrodez zamanı qığırdağı qaşımaq üçün iti qaşıq

Lorens vəziyyəti (A.Lorenz) – anadangəlmə bud çıxığının yerinə salınmasından sonra budun uzaqlaşdırılmış vəziyyətində fiksəolunmuş gips sarğısı

Lorens-Muna-Barde-Bidl sindromu (J. Z. Laurence, 1830-1874, ing. oftalmoloqu, R. Ch. Moon, 1844-1914, amer. oftalmoloq, G.Barret, 1855, frans. həkimi, A. Biedl, 1869-1933, çex həkimi) – piylənmə, hipogenitalizm, piqment retiniti, zehni inkişafın geri qalması, polidaktiliya və sindaktiliyadan ibarət irsi xəstəlik

Lorens-Mun-Bidl sindromu (J. Z. Laurence; R. Ch. Moon; A. Biedl) – piylənmə, zehni və cinsi inkişafın geri qalması, polidaktiliya və piqment retiniti ilə gedən autosom-ressiv neyroendokrin xəstəlik

Lorens-Ştill aparatı (A.Lorenz,1854-1946,avstr. ortoped-cərrahı; Stille) – dartma üçün istifadə olunan ortopedik aparat

Lorens-Ştoffel neyrotomiyası (A.Lorenz; A. Stoffel, 1880-1937, alm. ortoped-cərrahı) – *bax:* Ştoffel əməliyyatı

Lorin-Epşteyn blokadası (M. Ю. Лорен-Эпштейн, sov. cərrahı) – toxum axarının səthi qasıq kanalı nahiyəsində və ya uşaqlığın girdə bağının qasıq sümüyünə bağlandığı yerdə novokainlə blokada edilməsi (böyrək sançısı zamanı tətbiq olunur)

Lorin-Epşteyn simptomu (M. Ю. Лорен-Эпштейн) – tetanusun erkən əlamətləri: 1) ağızın yarımaçıq vəziyyətində aşağı çənəyə döyəcləndə çeynəmə əzələlərinin yığılması; 2) energik massaj zamanı aşağı ətraf əzələlərində ağırlı rigidliyin əmələ gəlməsi

Lositski tikişi (B.A. Лоситская, sov.

mama-ginekoloqu) – uşaqlığın hipotoniyası zamanı stimulə məqsədilə uşaqlıq boynunun arxa səthinə doğuşdan sonra qoyulan tikiş

Loskut – cərrahiyyədə: bədəndən cərrahi yolla trasplantasiya məqsədilə və ya zədələnmə nəticəsində ayrılmış, qalınlığı az olan müəyyən sahəli toxuma

Ayaqcıq üzərində loskut – qidalanmasını saxlamaq üçün qan damarları saxlanılmış loskut

Budaqlı loskut – *bax:* Filatov gövdəsi

Dairəvi loskut – *bax:* Filatov gövdəsi

Dəri-əzələ-sümük loskutu – ayaqcıq üzərində dəri, dərialtı toxuma, əzələ və sümüküstlüyü ilə birgə sümükdən ibarət loskut (kəllənin sümük-plastik trepanasiyası zamanı istifadə olunur)

Dəri perforativ loskut – müəyyən ölçülü, üzərində bir neçə kəsik aparılmış sərbəst loskut (loskutun altına ekssudatın yığılmasının qarşısını almaq üçün)

Miqrasiyaedən loskut – *bax:* Filatovun miqrasiyaedən budağı

Sərbəst loskut – ətraf toxumalardan, o cümlədən altında yerləşmiş toxumalardan cərrahi yolla tamamilə ayrılmış loskut

Timpanomeatal loskut (anat. *membrana tympani* qulaq pərdəsi + *meatus acusticus* eşitmə yolu) – qulağın xarici keçəcəyinin dərisi və təbil pərdəsindən ibarət loskut (orta qulağın radikal əməliyyatlarında və timpanoplastikalarda istifadə edilir)

Lossen əməliyyatı (H.Lessen, 1842-1909, alm. cərrahı) – əng sinirinin nevralgiyası zamanı çeynəmə əzələlərinə toxunmadan sinirin kəsilməsi cərrahi əməliyyatı

Lou sindromu (sin.okuloserebrorenal sindrom, Ch U. Lowe, 1921, amer. pediatr) – D vitamininə rezistent raxitlik, zehni inkişafda gerilik, sidiklə üzvi turşuların xaric olunmasının artması, böyrək çatışmazlığı, gözün zədələnməsindən (katarakta və qlaukoma) ibarət simptomokompleks

Lonua Bansoda (P.E. Launois, 1856-1914,frans. həkimi; R.Bensaude, 1866-1938, frans. həkimi) – *bax:* Madelunq sindromu

Lourens üsulu (A.Lorenz) – erkənyaşlı uşaqların burun boşluğunu müayinə etdikdə həkimin sol əlin baş barmağı ilə xəstənin burnunun ucunu yuxarı qaldırması, qalan dörd barmağı ilə alnını fiksə edərək müayinə aparması

Lourens-Mun sindromu (J. Z. Laurence, 1830-1874, ing. oftalmoloqu, R. Ch. Moon, 1844-1914, amer. oftalmoloq) - nevroloji və endokrin simptomatika ilə gedən irsi piqment retiniti

Lousli orxipeksiyası (D. S. Lowsley, 1884-1955, amer. cərrah) – kriptorxizm zamanı icra olunan cərrahi əməliyyat

Lovrik-Volner reaksiyası (A. A. Lovrich, ing. immunoloqu*)* – infeksion mononuklioz zamanı qoyulan reaksiya

Lozanov əməliyyatı (И. Н. Лозанов, sov. otolarinqoloqu) – eşitmə keçəcəyinin bitişmələri zamanı aparılan cərrahi əməliyyat

Löde simptomu – kataral otit zamanı qulaqlarda kiçik krepitasiyalar

Ludloff ləkəsi (A. Ludloff, 1864-1954, alm. cərrahı) – yan proyeksiya-

dan çəkilmiş rentgenoqramda bud sümüyünün distal epifizində qeyri-düzgün formalı işıqlanma sahəsinin aşkar edilməsi (anatomik inkişafın quruluş xüsusiyyəti)

Lui-Bar sindromu (sin. ataksiya telianqiektaziya, D. Louis-Bar, frans. həkimi) – tədricən inkişaf edən beyincik pozğunluqları, simmetrik teleangioektaziyalar, residiv verən pnevmoniyalar, timus vəzinin hipoplaziyası ilə inkişaf edən irsi xəstəlik

Lukin-Libman əlaməti (E. Libmann, 1872-1946, amer. həkimi) – yarımkəskin septiki endokardit zamanı, əsasən aşağı qapaq nahiyəsindəki konyunktivaya qansızma

Lukomski nəzəriyyəsi (И. Г. Лукомский, 1893-1958, sov. stomatoloqu) – kariesin əmələ gəlməsində orqanizmdə baş verən endogen pozğunluqların nəticəsində odontoblastların funksional pozğunluğunu əsas səbəb kimi göstərən nəzəriyyə

Lunatik – dərin yuxuda olduqda tam amneziya ilə müşayiət olunan gəzmə

Lunatizm – *bax:* somnambulizm

Lunatizm sindromu – *bax:* lunatik

Lund əməliyyatı (F. B. Lund, 1865-1950, amer. cərrah) – yastıayaqlılıq zamanı aşıq sümüyünün çıxarılmasından ibarət cərrahi əməliyyat

Lundborqun psixoklonik reaksiyası (H. B. Lundorg, 1868-1943, isveçrə psixiatrı) – mioklonus epilepsiya zamanı psixi oyanıqlığın təsiri altında mioklonik qıcolmaların artması

Lundborqun sensoklonik reaksiyası (H. B. Lundorg) – mioklonus epilepsiya zamanı hissi orqanlara hər hansı qıcıqlandırıcının təsirindən mioklonik qıcolmaların artması

Lupa *(*frans. *loupe)* – dermatologiyada, oftalmologiyada, laboratoriyada kiçik obyektlərin böyüdülərək baxılması üçün bir və ya bir necə linzadan ibarət optik alət

Binokulyar lupa – linzaları iki gözlə eyni zamanda müayinə etmək üçün uyğunlaşdırılmış lupa

Teleskopik lupa – 25 sm və daha artıq məsafədə yerləşmiş obyektlərə baxmaq imkanı verən lupa

Lupus-nefrit (*lupus nephritis*) – sistem qırmızı qurdeşənəyi zamanı böyrək toxumasının yumaqcıqlarının bazal membranının qalınlaşması, fibrin toplanması, hialin topalarının və hematoksilin cismciklərin olması ilə gedən zədələnməsi

Lupus-pnevmonit (*lupus pneumonitis)* – sistem qırmızı qurdeşənəyi zamanı ağciyər toxumasının vaskulit və ya atipik gedişli pnevmoniya ilə zədələnməsi

Lusoria disfagiyası (lat. *lusus naturae* təbiət oyunu) – sağ körpücükaltı arteriyanın və bazu başı gövdəsinin anomal yerləşmələri zamanı onları qida borusu sıxması nəticəsində yaranan disfagiya

Luşki badamcığı (H. Luschka, 1820-1875, alm. anatomu) – udlağın burun hissəsinin tağında selikli qişada yerləşən tək badamcıq

Luşki çəngəli (H. Luschka) – qabırğaların ön uclarının ikiləşməsindən ibarət inkişaf anomaliyası

Luşki yolu (H. Luschka) – öd daşı xəstəliyində təsadüf olunan öd kisəsinin seroz qatına qədər inkişaf edən axarlar

Luşkinin həqiqi axacaqları (H. Luschka) – öd kisəsinin selikaltı qişa-

sında yerləşən tam inkişaf etməmiş epitelial yollar (çox vaxt qaraciyərdaxili öd yolları ilə birləşir)

Lübarş-Pik sindromu (L.Pick, 1868-1944, alm. patoloqu; O. Lubarch, 1860-1933, alm. patoloqu) – sistem amiloidozun makroqlossiya, çoxsaylı ksantoma və exkimozlar, proteinuriya, hiperxlorerinemiya və anuriya ilə birgə təsadüf olunması (mielom xəstəliyinin ağırlaşması)

Lüer dişləyicisi (Luer, 19-cu əsrdə tibbi alətlər hazırlayan usta; sin. Luer maşası) – sümük toxumasını kəsmək üçün oval dodaqları olan cərrahi alət

Lüer sıxacı (Luer) – qalın toxumaları tutub saxlamaq üçün nəzərdə tutulan atravmatik cərrahi sıxac

Lüetin – ölmüş solğun treponema kulturasının ekstraktı (sifilisin allergik diaqnostikası üçün istifadə olunur)

Lüetin reaksiyası – sifilis zamanı lüteinin dərialtına yeridilməsi ilə qoyulan allergik sınaq

Lükke-Şede artrotomiyası (W. Lucke, 1890, alm. ortopedi; F. Schede, 1882, alm. ortopedi) – bud-çanaq oynağının patologiyaları zamanı icra olunan artrotomiya növü

Lüksmetr *(luxmetreo)* – gigiyenik müayinələr zamanı istifadə olunan portativ fotometrik cihaz

Lük-Şampionner üsulu – ətraf sümüklərinin sınıqlarının erkən qoyulmuş funksional yüklə dartma ilə müalicəsi

Lüqol məhlulu *(*J.G.A. Lugol, 1786-1851, frans. həkimi) – tərkibində yod, kalium yod və su olan (1:2:17 nisbətində) laborator diaqnostikada və dərman vasitəsi kimi istifadə olunan məhlul

Lümbal funksiya – onurğa beyni funksiyası

Lümboişalgiya – *bax:* işias

Lüpozoriya – vərəm qurdeşənəyi olan xəstələrin müalicə-profilaktika müəssisəsi

Lüşer sınağı (E.Luscher, isveçrə otolarinqoloqu) – səs siqnalının minimal intensivlikdə qəbul edilməsinin audiometriya ilə müayinəsi

Lüşer-Zvislotski testi (E.Luscher**)** – eşitmə zəifliyinin diferensial diaqnostik müayinə üsulu

Lütambaşe sindromu (R. Lutembacher, 1884- 1968, frans. kardioloqu) – qulaqcıqlararası arakəsmənin və sol atrio-ventikulyar dəliyin daralmasından ibarət anadangəlmə ürək qüsuru

Lüteinoma *(luteinoma) – bax:* lüteoma

Lüteoma *(luteoma)* – yumurtalığın progesteron və esterogen sintez edən hormonal aktiv şişi

Lüteosit *(luteocytus)* – yumurtalığın sarı piqment toplayan hüceyrələrinin ümumi adı (sarı cisim əmələ gətirən zaman)

Lütkens sfinktoru (Lutkens) – öd kisəsi boynunun kisəyə keçdiyi yerdə saya əzələlərdən ibarət sfinktor

Lüst simptomu (F. Lust, 1880, alm. həkim) – tetaniyalar zamanı incik sümüyünün başına çəkiclə vurduqda ayağın qeyri-iradi açılması, uzaqlaşması və çölə rotasiyası

Lütse simptomu – labirint divarında fistul olduqda, pnevmotik sınaq zamanı havanın təzyiqi artdıqda nistaqmın müayinə olunan tərəfə, havanın təzyiqi azaldıqda isə əks tərəfə yönəlməsi

Lyamblioz – *bax:* hiardioz

Lyapis – *bax:* Cəhənnəm daşı

Lyudoterapiya*(ludotherapia)* – psixi boşalma əmələ gətirən vasitələrə əsaslanan müalicə metodu (idman, oyun, rəqs və s.)

Lyudviq anginası (W. F. Ludwig, 1790-1865, alm. cərrahı) – ağız boşluğu kövşək birləşdirici toxumalarının və damaq badamcıqlarının fleqmanoz prosesi

Lyuis sınağı (T. Lewis, ingilis cərrahı) – xəstənin ayaqları uzanmış vəziyyətən aşağı sallayaraq oturmuş vəziyyətə keçməsindən 1 dəqiqə sonra ayaqlarda sianozun əmələ gəlməsi (obliterasiyaedici endoartritin diaqnostikası)

Levis-Federiçi sınağı (Lewis; F. Federici) – üzəngi əsasının dəhliz pəncərəsində fiksəsini aşkar etməklə üzənginin ankilozu diaqnozunun dəqiqləşdirilməsi üçün aparılan sınaq

Lyuis sindromu (Th. Lewis, 1871-1945, ing. kardioloqu) – *bax:* vazovaqal sindrom

Lyumbaqo *(lumbago)* – bel nahiyəsində baş verən kəskin ağrı

Lyumbalgiya *(lumbalgia)* – sinir köklərinin qıcıqlanması nəticəsində bel-oma nahiyəsində davamlı ağrı simptomunun ümumi adı

Lyumbalizasiya *(lumbalisatio)* – birinci oma fəqərəsinin oma sümüyündən ayrı yerləşməsi və bel fəqərəsi formasında olmasından ibarət inkişaf anomaliyası

Lyumbo *(lumbo)* – mürəkkəb sözlərin tərkibinə daxil olaraq, onurğanın və ya onurğa beyninin bel nahiyəsinə aid olan mənasını verir

Lyumboartroz *(lumboarthrosis)* – *bax:* bel spondiloartrozu

Lyumboperitoneostomiya *(lumboperitoneostomia)* – açıq hidrosefaliyalar zamanı beyin-onurğa beyni mayesinin qarın boşluğuna axıdılmasından ibarət cərrahi əməliyyat

Lyumbosalpinqostomiya *(lumbosalpingostomia)* – açıq hidrosefaliyalar zamanı beyin-onurğa beyni mayesinin uşaqlıq borusuna axıdılmasından ibarət cərrahi əməliyyat

Lyumbotomiya *(lumbotomia)* – peritonarxası sahənin peritondan kənar yolla açılmasından ibarət cərrahi əməliyyat

Lyupoid *(lupoidum)* – *bax:* sarkoid

Lyupoma *(lupoma)* – adi qurdeşənəyində rast gəlinən ilkin morfoloji element

Lyuppi kəsiyi – barmağın ekzartikulyasiyası zamanı dairəvi kəsik

Lyupus-artrit (*lupus-arthritis*) – əsasən kiçik oynaqları zədələyən və sistem qırmızı qurdeşənəyinin ilkin əlaməti

Lyusid katatoniya – düşüncənin aydın fonunda donuqluq, neqativizm, impulsiv hərəkətlərlə xarakterizə olunan katatoniya sindromu

Lyutsa xəstəliyi – *bax:* Cənubi Amerika blastomikozu

Lyüpoid sikoz *(sycosis lupoides*; sin. Brok lyupoid sikozu, Qoffmanın sikozabənzər atrofik follkuliti, sikozabənzər çapıqlı eritema*)* – bir yanaq nahiyəsində kənarları qırmızı rəngli infiltrasion dəyişiklikli follikulyar papulanın əmələ gəlməsi, sonradan bu papulanın mərkəzi hissəsinin atrofik çapığı ilə xarakterizə olunan naməlum etiologiyalı dermatoz

M

«Makaka qulağı» – qulaq seyvanının quruluş variantı

«Meduza başı» – portal hipertenziya zamanı qarnın ön divarının dərialtı venalarının genişlənməsi

«Moruqlu dil» – skarlatina xəstəliyi zamanı simptom

Maass-Keniq üsulu (H.Maas, IX əsr, alm. cərrahı; F.Konig, 1832-1910, alm. cərrahı) – ürək zirvəsinin proyeksiyası və döş sümüyü arasındakı məsafədən ürəyin xarici massajı

Madaroz *(madarosis)* – qaşların, kirpiklərin tökülməsi, əsasən blefarit xəstəliyində və yanıqlarda olur

Maddələr mübadiləsi *(*sin. metabolizm*)* – canlı orqanizmin daxilində maddələrin və enerjinin çevrilməsi və ətraf mühitlə maddələr və enerji mübadiləsi proseslərinin cəmi

Aerob mübadilə – oksidləşmə-reduksiya proseslərinin son məhsulunun oksigen olduğu energetik mübadilə növü

Anaerob mübadilə – oksidləşmə-reduksiya proseslərinin son məhsulunun oksigen deyil, digər maddələrin olduğu energetik mübadilə növü

Aralıq mübadilə – orqanizmdə maddələrin qana daxil olmasından son məhsulun əmələ gəlməsinə qədər olan proseslər

Azot mübadiləsi – tərkibində azot olan maddələrin mübadiləsi (zülal, nuklein turşusu, aminturşusu və s.)

Energetik mübadilə – enerjinin toplanması, çevrilməsi, istifadə edilməsi və yayılması proseslərindən ibarət mübadilə

Hüceyrədaxili mübadilə – hüceyrə daxilində gedən maddələr mübadiləsi

Karbohidrat mübadiləsi – karbohidratların orqanizmə paylanması, çevrilməsi və xaric olmasından ibarət mübadilə prosesləri

Lipid mübadiləsi – lipidlərin çevrilməsi, yağ turşularının və monoqliseridlərin sorulması, spesifik lipidlərin biosintezi, parçalanması və son məhsulların xaric edilməsi

Lipoid mübadiləsi – lipoidlərin çevrilmələrindən ibarət lipid mübadiləsinin tərkib hissəsi

Mineral mübadiləsi – qeyri-üzvi maddələrin orqanizmdə paylanması, çevrilməsindən və xaric olmasından ibarət mübadilə prosesləri

Su mübadiləsi – orqanizmə suyun daxil olması, paylanması və çevrilməsindən və xaric olmasından ibarət mübadilə prosesləri

Su-duz mübadiləsi – orqanizmə suyun və mineral duzların daxil olması, paylanması və çevrilməsindən və xaric olmasından ibarət mübadilə prosesləri

Toxuma mübadiləsi – hər hansı bir toxumanın daxilində gedən mübadilə

Yağ mübadiləsi – neytral yağların çevrilmələrindən ibarət lipid mübadiləsinin tərkib hissəsi

Zülal mübadiləsi – orqanizmə zülalların daxil olması, parçalanması, əmələ gəlmiş aminturşuların daşınması, orqanizmin özünə xas olan zülalların sintezi, parçalanması və son məhsullarının orqanizmdən xaric edilməsi prosesləri

Maddələr mübadiləsi xəstəlikləri – orqanizmdə maddələrin çevrilməsinin pozulması ilə gedən xəstəliklər qrupu

Madelunq deformasiyası (O.W. Madelung, 1846-1926, alm. cərrahı) – *bax:* Madelunq xəstəliyi

Madelunq əməliyyatı (O.W. Madelung) – aşağı ətraf dərialtı varikoz genişlənmiş damarlarının bir ümumi kəsiklə xaric edilməsi cərrahi əməliyyatı

Madelunq xəstəliyi (O.W. Madelung) – mil sümüyünün sümükləşməsinin inkişafının pozulmasından ibarət inkişaf anomaliyası, biləyin xroniki yarımçıxığı

Madelunq sindromu (O.W. Madelung, sin. boyunun diffuz lipoması, simmetrik diffuz lipomatoz, Lonua-Bansod sindromu) – boyun limfatik düyünləri nahiyəsində diffuz çoxağrılı piy toxumasının olmasından ibarət naməlum etiologiyalı xəstəlik

Maffuççi sindromu (A. Maffucci, 1845-1903, ital. həkimi) – sümüklərin diffuz asimetrik xondromatozu, dərinin və daxili orqanların çoxsaylı angiomaları, dərinin disxromiyasından ibarət irsi xəstəlik

Magik düşünmə – fikirlərin, sözlərin, hərəkətlərin həddən artıq özünə inam yaratmaqla nümayişi

Magistral *(magistralis)* – 1) anatomiyada qeyd olunan anatomik nahiyə üçün əsas olan mənası, məs., magistral damar; 2) farmakalogiyada həkimin resepti əsasında aptekdə hazırlanmış mənasını verir

Magistral damarların transpozisiyası – aortanın sağ mədəcikdən, ağciyər arteriyasının isə sol mədəcikdən çıxmasından ibarət inkişaf anomaliyası

Mağaralı cib *(sinus cavernosus)* – kəllənin orta çuxurunda türk yəhərinin yan tərəflərində yerləşən beynin sərt qişasının cüt cibi

Mağaralı cismin Bonne sindromu – *bax:* mağaralı sinusun trombozu sindromu

Mağaralı kələf *(plexus cavernosus)* – sərt beyin qişası sinusunun mağarasında yerləşən daxili yuxu arteriyasının bir hissəsi

Mağaralı sinus (*sinus cavernosus*; sin. kavernoz sinus, mağaralı cib) – kəllənin orta çuxurunda türk yəhərinin yan tərəflərində yerləşən beynin sərt qişasının cüt sinusu,mağaraarası sinuslar sağ və sol mağaralı sinusu birləşdirirlər; üts ota beyin damarı, adacıq damarar, hipofizin damarları, yuxarı göz damarı mağarılı sinusla birləşirlər

Mağaralı sinus sindromu *(syndromum sinus cavernosi)* – gözün hərəki, uzaqlaşdırıcı, göz və blok sinirlərinin zədələnmələri zamanı tam oftalmoplegiya, alın və göz yarığı nahiyəsində ağrı

Mağaralı sinusun xarici divar sindromu – *bax:* mağaralı sinus sindromu

Majbis əməliyyatı (A. M. Мажбиц, 1894, sov. həkimi) – qadınlarda sidiyi saxlayabilməmə, sistosele və uretrosele zamanı sidik kisəsi sfinktorunun və sidik kisəsi boynunun tikilməsindən ibarət cərrahi əməliyyat

Makar əməliyyatı (N. Makar) – varikosele zamanı ümumi yataqdan toxum axarına fassial futliarın yaradılmasından ibarət əməliyyat

Makarin-Oliva üsulu (L. Macarini, ital. rentqenoloqu; L. Oliva, ital. rentqenoloqu) – peritonarxası sahəyə qaz yeridildikdən sonra mə-

dəaltı vəzin yan proyeksiyada rentgen müayinəsi

Mak-Ardl xəstəliyi (B.McArdle, 1911-2002, ing. həkimi) – *bax:* V tip qlikogenoz

Mak-Ardl-Şmid-Pirson xəstəliyi (B. MacArdle, ing. pediatrı; R. Schmid, amer. həkim; C. M.Pearson) – *bax:* V tip qlikogenoz

Mak-Berney əməliyyatı (Ch. McBurney, 1845-1914, amer. cərrah) – qaraciyər-mədəaltı vəz ampulasından konkrementin çıxarılması əməliyyatı, duodenotomiya vasitəsi ilə

Mak-Berney kəsiyi (Ch. McBurney, sin.Volkoviç kəsiyi, Mak Berney-Volkoviç-Dyakonov kəsiyi) – sağ qalça çuxurunda appendektomiya zamanı aparılan kəsik

Mak-Berney nöqtəsi (Ch. McBurney) – göbəklə sağ qalça çuxurunu birləşdirən xəttin aşağıdan V sm-də yerləşən nöqtə

Mak-Berney simptomu(Ch. McBurney, sin. Qrey simptomu) – Mark-Berney nöqtəsinə təzyiq etdikdə ağrının olması (kəskin appendisitin simptomu)

Mak-Berney-Volkoviç-Diyakonova kəsiyi (Ch. McBurney; N.M. Volkoviç, 1858-1928, sov.cərrahı; P.B.Dyakonova,1855-1908, sov. cərrahı) – *bax:* Mak-Berney kəsiyi

Makfarlen sxemi (R.Macfarlane, 20 əsr, ing. həkimi) – qanın laxtalanma və əks laxtalanma sisteminin qarşılıqlı əlaqəsini göstərən sxem

Mak-Kartinin spinoadduktor refleksi (D. J. McCarthy, amer. nevroloq) – *bax:* dorsal adduktor refleksi

Makkas klemması (M. Makkas, 1879-1965, yun. cərrahı) – kəllə tağı nahiyəsində yumşaq toxuma damarlarından axan qanı dayandırmaq üçün birdəfəlik alət

Makkasın plastik əməliyyatı (M. Makkas) – kor bağırsaq kəsiyindən sidik kisəsi yaradılması plastik əməliyyatı

Mak-Kenzi simptomu (S. Mac-Kenzie, 1844-1909, ing. həkimi) – qarın boşluğunda kəskin iltihabi proseslər zamanı qarnın ön divarı nahiyəsində dəri hiperesteziyası

Mak-Kenzi sindromu (S. Mac-Kenzie) – azan sinir və dilaltı sinirlərin zədələnməsi zamanı hissəvi afoniya, disfagiya, səsin kallaşması, dilin hərəkətinin pozulması

Mak-Klüer-Oldriç sınağı (sin.hidrofil sınağ, Oldrich sınağı; W.B.McClure, 1884-1936, amer. həkim; Ch. A. Aldrich, 1888-1949, amer. pediatoru) – dəri içinə NaCl-run steril məhlulunun yeridilməsi nəticəsində yaradılmış su qabarının sorulmasının tezləşməsi əsasında gizli ödemlərin və ödemə meylliliyin aşkar edilməsi sınağı

Mak-Laud mühiti (J. W. McLeod, 1887, ing. bakterioloqu; sin. tellurit-şokoladlı aqar) – korinobakteriyaları aşkar etmək üçün tərkibində defibrinləşmiş qan və tellurit olan bərk, selektiv qida mühiti

Makl-Uels sindromu (T.J.Makl, 1931-2014, şotl. patoloq-anatom; M.V.Wells, ing. alimi)– ümumi zəiflik, allergik mənşəli titrəmə, nefrotik sindrom, qanda xolesterinin, azotun və qlobulinlərin miqdarının artması və karlıqla gedən irsi xəstəlik

Mak-Marri əməliyyatı (Th. P. McMurray, 1887, ing. cərrahı) – bud sümüyü boynunun yalançı oynağı

zamanı dayaq funksiyasının bərpa edilməsi cərrahi əməliyyatı

Makmeliya – ətrafların böyük olması

Maknoton aparatı (E.A.Macnaughton, kan. cərrah) – nazik bağırsaq anastomozu vasitəsi ilə bağırsaq möhtəviyyatının gətirici ilgəyindən aparıcı ilgəyə yerinin dəyişdirilməsi üçün xüsusi aparat

Makroanaerostat (*makro* + *anaerostat*) – anaerob mikroorqanizmləri becərmək üçün aparat

Makroautoradioqrafiya (*macroautoradiography*) – bütövlükdə orqanizmin və ya hər hansı bir orqanın autoradioqrafiyası

Makrobiot (*makro-* + yun. *biote* həyat) – uzunömürlülük

Makrobraxiya (*macrobrachia*) – əlin uzun olması

Makrodaktiliya *(macrodactylia)* – həddən artıq böyük barmaqlar

Makrodentiya *(macrodentia)* – həddən artıq böyük dişlər

Makroensefaliya *(macroencephalia)* – inkişaf anomaliyası: kəllənin (beynin) ölçülərinin patoloji böyüməsi

Makrofaq *(macrophagus)* – böyük birnüvəli hüceyrə, faqositoza malikdir

Makrofollikulyar – *bax:* giqantofollikulyar limfoma

Makrofoniya *(macrophonia)* – eşitmə zəifliyi zamanı nitq tonunun yüksəlməsi

Makrogenitosomiya *(macrogenitosomia)* – uşaqların vaxtından qabaq inkişafı ilə əlaqədar olaraq bədən və cinsi orqan ölçülərinin normadan böyük olması

Makrogeniya *(macrogenia)* – aşağı çənənin böyük olmasından ibarət inkişaf anomaliyası

Makrohelmintoskopiya – nəcis, sidik, bəlğəm, qusuntu kütləsi və s. ifrazatlardan adi gözlə helmint və ya onun fraqmentlərinin aşkar edilməsi üsulu

Makrohematuriya *(macrohaematuria)* – sidikdə gözlə görünən qanın olması

Makroxeyliya *(macrocheilia)* – dodaqların böyük olmasından ibarət inkişaf anomaliyası

Makroxeyriya *(macrocheiria)* – *bax:* makrobraxiya

Makrokardiya *(macrocardia)* – ölçüsü həddən artıq böyük olan ürək

Makrokorneya *(macrocornea)* – *bax:* meqalokorneya

Makroqliya *(macroglia)* – *bax:* atrositar neyroqliya

Makroqlossiya (*macroglossia*) – dilin patoloji böyüməsi (inkişaf qüsuru və ya hər hansı xroniki patoloji proses zamanı rast gəlinə bilər)

Amiloid makroqlossiya (*m. amyloidea*) – dildə amiloid toxumanın toplanması nəticəsində çat, yara, düyünlərdən ibarət dəyişiklik və dilin böyük olması

Blastomikotik makroqlossiya *(m. blastomycotica)* – blastomikoz zamanı dilin kökündə bir və ya bir neçə düyünün olması, sonradan isə bu düyünün parçalanaraq yaraya çevrilməsi və dilin böyük olması

Linfangiomatoz makroqlossiya *(m. lymphangiomatosa)* – *bax:* limfangiomatoz meqaqlossiya

Sifilitik makroqlossiya *(m. syphilitica)* – *bax:* sifilitik meqaqlossiya

Vərəm makroqlossiyası *(m. tuberculosa)* – *bax:* vərəm meqaqlossiyası

Makroqnatiya *(macrognathia)* – üst çənənin həddən artıq böyük olması

Makromastiya *(macromastia)* – qeyri-normal böyük süd vəziləri

Makronixiya *(macronychia)* – dırnaq lövhəciyinin böyük olması
Makropodiya *(macropodia)* – aşağı ətrafların çox uzun olması
Makropsiya *(macropsia)* – görmə qabiliyyəti pozulduqda əşyaların böyük görünməsi
Makrorentgenoqrafiya – təsvirin böyüdülməsi ilə aparılan rentgenoqrafiya
Makrosefaliya *(macrocephalia) – bax:* meqasefaliya
Makrosit *(macrocytus)* – normal ölçüdən böyuk olan eritrositlər
Makrositar anemiya *(anemia macrocytica)* – yetişməmiş eritrositlərin-makrositlərin əmələ gəlməsi və həddən artıq parçalanması ilə gedən irsi anemiya
Makroskopik (*makro-* + yun. *skopeo* müşahidə etmək) – adi gözlə görünən
Makroskopik müayinə – böyüdücü cihazların köməyi olmadan adi insan gözü ilə aparılan müayinə
Makrosomiya *(macrosomia)* – giqantizm, nəhəngboylu
Makrostomiya *(macrostomia)* – çox enli ağız dəliyi
Makrotiya *(macrotia)* – qulaq seyvanının böyük olması
Makrotomoqramma *(macrotomogram)* – böyüdülmüş tomoqramma
Maksillit *(maxalitis) – bax:* haymorit
Maksilloqrafiya *(*anat. *maxilla* üst çənə + yun. *grapho* yazmaq) – *bax:* haymoroqrafiya
Maksimal yumaqcıq ekskresiyası – böyrəyin funksional göstəricisi
Maksimov qarışığı (A.A. Максимов, 1874-1928, sov. gistoloqu) – histoloji preparatları fiksə etmək üçün xüsusi qarışıq
Makulit *(maculitis)* – gözün torlu və damarlı qişasının sarı ləkə nahiyəsində iltihabı
Makulopatiya *(maculophthia)* – torlu qişanın sarı ləkəsinin zədələnmələrinin ümumi adı
Miopik makulopatiya – sarı ləkə nahiyəsində, yüksək dərəcəli yaxından görmə zamanı, torlu qişa və damarlı qişaya təkrar qansızmalar nəticəsində inkişaf edən xorioretinit
Makulotester *(maculotester)* – polyaroidin fırlanmasına əsasən, sarı cismi müayinə edən optik cihaz
Makyuin simptomu (W.Macewen, 1848-1924, şotl. cərrahı) – *bax:* çatlamış qab simptomu
Maqarşaka üsulu – sidiyin turşuluğunun neytral qırmızı və metilen abısı əlavə edilməklə təyin edilməsi
Maqqaş – *bax:* pinset
Fyodorov maqqaşı – beynin sərt qişasını tutmaq üçün cərrahi alət
Maqnit qeydiyyatı – ferromaqnit materialda elektrik siqnallarının fiksə olunması
Maqnit sınağı – yad cisimlərin (məs., gözdə) diferensial diaqnostika üsulu
Maqnitobiologiya *(magnetobiology)* – biofizikanın maqnit sahələrinin canlı orqanizmə təsiri və orqanizmlər arasında elektromaqnit qarşılıqlı təsirini öyrənən bölməsi
Maqnitokardioqraf *(magnetocardiograph)* – ürəyin elektromaqnit sahəsinin dəyişməsini qeydə almaqla ürək fəaliyyətini müayinə edən cihaz
Maqnitokardioqramma *(magnetocardiogram)* – ürəyin işi zamanı elektromaqnit sahəsinin dəyişikliklərini əks etdirən əyri
Maqnitoterapiya *(magnetotherapy)* – maqnitin müalicə məqsədilə tədbiqi

Maqnizium oksid *(magnesii oxydum)* – hiperassit qastrit, mədə və onikibarmaq bağırsaq xoraları zamanı tətbiq olunan antosid maddə

Maqnizium-sulfat (*magnesii sulfas*) – sakitləşdirici, qıcolma əlehinə, spazmolitik, öd qovucu və işlədəci təsir göstərən dərman vasitəsi

Maqrassi-Leonardi sindromu (F. Magrassi, ital. həkimi; G . Leonardi, ital. həkimi) – eozinofliya və monositozla müşayiət olunan infeksion-allergik mənşəli ocaqlı pnevmoniya

Malakoplakiya *(malacoplakia)* – əsasən sidik yollarında yastı sarı düyünlərin əmələ gəlməsindən ibarət naməlum etiologiyalı xəstəlik (az hallarda böyrək və cinsiyyət vəzilərində)

Malan-Xarşak üsulu – aralarındakı məsafə 1 sm olan və 30^0 –sektorlara ayrılan konsentrik həlqələrdən ibarət torun üzərinə ağ kağız qoyduqda, müayinə olunan şəxsin rənglənmiş şəhadət barmağı ilə həlqələrin mərkəzinə toxunduqda yanılmaların qeydə alınması

Malyariologiya – malyariya haqqında elm

Malç simptomu (Maicz) – səpgili yatalaq zamanı dilaltı sinirin zədələnməsi nəticəsində xəstənin dilini çölə çıxara bilməməsi

Maleko kateteri (E.Malecot, 1851-1894, frans. həkimi) – sidik kisəsində uzun müddət saxlanılmaq üçün nəzərdə tutulmuş kateter

Maler əlaməti (R. A. Mahler, alm. mama həkimi) – doğuşdan sonra zahının nəbzinin temperaturdan asılı olmadan qalxması (doğuşdan sonrakı tromboflebitin əlaməti)

Malformasiya *(malformatio)* – *bax:* inkişaf qüsuru

Malgen kəsiyi (J.F. Malgaigne) – əlin baş barmağının eqzartikulyasiyası zamanı aparılan kəsik

Malgen-Panas əməliyyatı (J.F. Malgaigne, 1806-1865, frans. cərrahı; Ph. Panas, 1832-1903, frans. cərrahı) – bağırsaq fistullarının peritondan xaric yolla bağlanması

Maliginizasiya *(malignisatio)* – normal və ya patoloji dəyişikliyə uğramış hüceyrələrin bədxassəli şiş hüceyrəsinə çevrilməsi

Malışev əməliyyatı (Yu.İ. Malışev, sov. cərrahı) – düz bağırsaq sallanması zamanı bağırsağın V bel fəqərəsinin ön səthinə lavsan lentlə fiksə olunması əməliyyatı

Mallein *(malleinum)* – öldürülmüş 4-8 aylıq sap bakteriyalarının kulturası

Mallein sınağı – sapın diaqnostikası məqsədilə insanlara dəriiçi, heyvanlara isə dərialtı və ya konyunktival kisəyə malleinin yeridilməsi

Malleinizasiya – sap xəstəliyinə yoluxmanı müəyyən etmək üçün atlara malleinlə qoyulan allergik sınaq

Malligen sıxacı (W. Mulligan) – venanı qismən lateral sıxmaq üçün, hər iki işçi dodağında iynəşəkilli dişcikləri olan cərrahi sıxac

Mallori cisimcikləri (F. B. Mallory, 1862-1941, ing. patoloq-anatomu və gistoloqu) – zülal distrofiyası zamanı hüceyrə sitoplazmasında, nüvə ətrafında yaranmış asidofil törəmələr (əsasən hepatositlərdə)

Malpigi cisimcikləri (M. Malpighi, 1628-1694, ital. həkim-bioloq) – *bax:* böyrək cisimcikləri

Malufa sindromu – durğunluq dilatasion kardiomiopatiyası, ovarial diskenez və hiperqonadotrop hi-

poqonadizmdən ibarət simptomokompleks

Malyariya (*malaria*; ital. *mala aria* pis hava) – qızdırma tutmaları və qızdırmasız periodların bir-birini əvəz etməsi ilə gedən, tsiklik gedişli kəskin protozoy xəstəlik

Anadangəlmə malyariya (*m. congenita*) – patoloji dəyişikliyə uğramış ciftdən və ya doğuş zamanı yenidoğulmuşun malyariya ilə yoluxması

Dayanıqlı malyariya (*m. stabilis*) – uzun illər epidemioloji zonada malyariyaya yoluxmanın sayının stabil qalması

Dayanıqsız malyariya – malyariya indeksinin nəinki mövsümlə əlaqədar, həmçinin ilbəil dəyişməsi ilə xarakterizə olunan epidemioloji ocaqlarda təsadüf olunan malyariya xəstəliyi

Dördgünlük malyariya (*m. quartana*) – plazmodium malariae tərəfindən 72 saatdan sonra requlyar paroksizmlərlə gedən malyariyanın klinik forması

Hiperendemik malyariya – dalaq malyariya indeksinin 2-9 yaşlı uşaqlarda 50%-dən yuxarı olması ilə xarakterizə olunan, endemik ərazilərdə rast gəlinən malyariya

Hipoendemik malyariya – dalaq malyariya indeksinin 2-9 yaşlı uşaqlarda 10%-i keçməməsi ilə xarakterizə olunan, endemik ərazilərdə rast gəlinən malyariya

Holoendemik malyariya – dalaq malyariya indeksinin südəmər uşaqlarda 75%-dən yuxarı olması ilə xarakterizə olunan, endemik ərazilərdə rast gəlinən malyariya

Qarışıq malyariya (*m. mixta*) – eyni bir şəxsin müxtəlif formalı malyariyaya yoluxması

Mezoendemik malyariya – dalaq malyariya indeksinin 2-9 yaşlı uşaqlarda 50%-ə qədər olması ilə xarakterizə olunan, endemik ərazilərdə rast gəlinən malyariya

Pernisioz malyariya (*m. perniciosa*) – ağır gedən tropik formalı malyariyaların ümumi adı

Peyvənd malyariyası – *bax:* transfuzion malyariya

Transfuzion malyariya (*m. posttransfusionem*) – daşıyıcı-donordan qanköçürmə zamanı qanköçürülmüş şəxsin malyariyaya yoluxması

Tropik malyariya *(m. tropica)* – plasmodium falciparum tərəfindən törədilən isti iqlimli ərazilərdə 48 saatdan sonra başlayan, uzunmüddətli qızdırma paroksizmləri və intoksikasiya əlamətləri ilə gedən malyariyanın klinik forması

Üçgünlük ildırımsürətli malyariya *(m. tertiana fulminans)* – bədxassəli gedişə malik nadir rast gəlinən qızdırma paroksizmindən sonra bir neçə saat ərzində xəstənin ölümünə səbəb ola bilən malyariyanın klinik forması

Üçgünlük malyariya *(m. tertiana)* – 48 saatdan sonra requlyar paroksizmlərlə gedən malyariyanın klinik forması

Malyariya algidi – tropik malyariyanın ağırlaşması olaraq dərin kollaps, dəri örtüyünün temperaturunun düşməsi və eyni zamanda rektal temperaturun qalxması, inadlı ishal

Malyariya hemoqlobinuriyası – *bax:* hemoqlobinuriyalı qızdırma

Malyariya indeksi – müəyyən zaman daxilində əhali qrupunun malyariyaya yoluxmasının epidemioloji

göstəricilərinin statistikasının ümumi adı

Anamnestik malyariya indeksi – malyariyaya yoluxmuş şəxslərin ümumi müayinədən keçən xəstələrin sayına nisbətini göstərən malyariya indeksi

Dalaq malyariya indeksi – müayinə zamanı dalağın şişməsi aşkar edilmiş şəxslərin sayının ümumi müayinədən keçən xəstələrin sayına nisbətini göstərən malyariya indeksi

Endemik malyariya indeksi – qanında malyariya törədicisi və dalağın böyüməsi aşkar edilmiş şəxslərin sayının ümumi müayinədən keçən xəstələrin sayına nisbətini göstərən malyariya indeksi

Qametosit malyariya indeksi – qanında malyariya törədicilərinin cinsi formaları aşkar edilmiş şəxslərin sayının ümumi müayinədən keçən xəstələrin sayına nisbətini göstərən malyariya indeksi

Parazitar malyariya indeksi – qalın yaxmada malyariya törədicisi tapılmış şəxslərin sayının ümumi müayinədən keçən xəstələrin sayına nisbətini göstərən malyariya indeksi

Malyariya onixiyası (*onychia malarica*) – malyariya zamanı dırnaq lövhələrində köndələn piqmentasiya zolaqlarının olması

Malyariya terapiyası – proqressiv iflic zamanı malyariya ilə yoluxdurmaqla müalicə məqsədilə süni yüksək temperaturun yaradılması

Mamalıq fantomu – mamalıq dərsinin keçirilməsi üçün istifadə edilən rəngli şəkillər və modellər

Mamillar xətt *(linea mamillaris)* – *bax:* orta körpücük xətti

Mamilloplastika – süd vəzisi giləsində plastik əməliyyat

Mammoqrafiya *(mammographia)* – süd vəzinin kontrast maddələrsiz rentgenoqrafiyası

Mamoplastika – süd vəzisinin plastikası

Mamotrofik – süd vəzisinin inkişafına və funksiyasına stimuləedici təsir göstərən vasitə

Mandren *(*frans. *mandrin)* – borulu alətin mənfəzini bağlamaq və elastik alətə sərtlik vermək üçün dirək

Manerlik *(*frans. *maniere* özünü aparmaq qabiliyyəti*)* – hərəkətlərdə, danışıqda, mimikada əks olunan sünilik, ədəbazlıq, diqqəti cəlb etmək marağı

Manevr (frans. *manoeuvre* əməliyyat, fəaliyyət) – 1) müharibədə qoşunun və ya donanmanın düşmənə zərbə vurmaq məqsədilə hərəkəti, yerdəyişməsi; 2) sülh şəraitində hərbi qüvvələrin döyüşə hazırlığını yoxlamaq üçün aparılan taktiki məşğələlər

Maniakal hal – öz imkanlarını düzgün qiymətləndirməməklə həddən artıq optimizm, gümrahlıq, sərbəstlik və qıcıqlanmış vəziyyət

Maniakal sindrom *(maniacal syndrome)* – əhval ruhiyənin, düşüncə tempinin və hərəki aktivliyin yüksək olması

Maniakal üçlük – əhval-ruhiyyənin səbəbsiz yüksəlməsi, psixi proseslərin sürətlənməsi, hərəkətlərin və nitqin sürətlənməsi

Maniken – anatomiyanı öyrənmək üçün insan bədəninin modeli, tədris fantomu

Manilov sindromu (Manilov – N.V. Qoqolun "Ölülər" poemasının personajı) – isterik şəxsiyyətin bir va-

riantı olub, sonsuz arzular və fabtaziyalara canatma, iradi aktivliyin olmaması ilə xarakterizə olunur

Maniofobiya *(maniophobia)* – *bax:* lissofobiya

Manqanokonioz *(manganoconiosis)* – kalium permanqanat tozu ilə sistematik nəfəs alan şəxslərdə yaranmış pnevmokonioz

Mann simptomu (L.Mann, 1866-1936, alm. nevropatoloqu) – baş-beyin silkələnməsi zamanı parlaq işıqda alın nahiyəsində və göz almalarında ağrının artması

Mann sindromu (L.Mann) – beyinciyin birtərəfli zədələnməsindən sonra meydana çıxan birtərəfli karlıq, burun selikli qişasında reflekslərin birtərəfli zəifləməsi, beyincik ataksiyası, göz almasının xaricə tərəf hərəkətinin məhdudlaşması və yeridikdə qolların birgə hərəkətinin mümkünsüzlüyü

Mannit *(mannitum)* – osmotik təsirli diuretik

Mannozidoz – sinir-əzələ sisteminin zədələnməsi ilə özünü göstərən, qlikoproteidoz qrupundan olan autosom-ressesiv tipli irsi xəstəlik

Manoanesteziya - əl və ayaq dərisinin bütün hissiyyatının itməsi

Manometr *(manometr)* – bir çox tibbi alətlərin tərkibinə daxil olub, qaz və alətlərinin təzyiqini ölçmək üçün istifadə olunur

Civə manometri – tənzimləyici mayesi civə olan maye manometr

Diferensial manometr – iki müxtəlif qaz və ya mayenin təzyiqlər fərqini ölçmək üçün manometr

Elektrik manometri – elektrik parametrlərinin dəyişməsinə əsasən, təzyiqi ölçən manometr

Göz manometri – eksperimentdə gözdaxili təzyiqi ölçmək üçün gözün ön kamerasına monometrlə əlaqələndirilmiş kanyulanın daxil edilməsinə əsaslanan göz monometriyası

Hidravlik manometr – *bax:* maye manometr

İonizasiyaedən manometr – aşağıtəzyiqli (10-7-10-3 mm c.süt) qazların ona ionlaşdırıcı cərəyanın təsirindən oyanıqlığını müəyyən etməklə təzyiqinin ölçülməsi (eksperimentlərdə istifadə olunur)

Qoldşteyn manometri – burnun hava keçiriciliyini yoxlayan cihaz

Qulaq manometri – xarici qulaq keçəcəyində və orta qulaq boşluğunda təzyiqin dəyişməsini müəyyən edən maye manometr (barofunksiyaların müayinəsi zamanı tətbiq olunur)

Maye manometr – təzyiqi maye sütununun tənzimləməsinə nisbətən müəyyən edən manometr

Mexaniki manometr – alətin deformasiyaya uğramasına görə təzyiqi ölçən manometr (məs., barometr-aneroid)

Manro mikroabsesi (W.J. Munro, ing. həkimi)– psoriaz zamanı dərinin parakeratonik buynuz qatında neytrofil qranulositlərinin toplanmasının histoloji olaraq müəyyən edilməsi

Manro nöqtəsi (J.C. Munro, 1858-1910, amer. cərrahı) – qarnın düz əzələsinin xarici kənarının göbək və sağ qalça qanadının yuxarı kənarından keçən xətlə kəsişmə nöqtəsi

Manro simptomu (J.C. Munro) – Manro nöqtəsinə təzyiq etdikdə ağrının olması (appendisitin əlaməti)

Mansonelloz *(mansonellosis)* – *Mansonella Ozzarai* tərəfindən törədilən, qızdırma, dəridə allergik

səpgilər, oynaqlarda ağrı və eoziniliya ilə gedən, Cənubi və Mərkəzi Amerikada, Hindistanda yayılan helmintoz

Mantu sınağı (Ch.Mantoux, 1877-1947, frans. həkimi) – vərəm xəstəliyini aşkar etmək üçün qoyulan dəri sınağı

Manuylov simptomu (E.H. Мануйлов, rus otorinolarinqoloqu) – orta otit zamanı yenidoğulmuş və südəmər uşaqlarda xəstə tərəfdə bəbəyin genişlənməsi və göz yarığının daralması

Manyan simptomu (J. J. V. Magnan,1835-1916, frans. psixiatr) – dəri altında yad cisimlər və ya həşəratların hiss olunmasından ibarət taktil hallüsinasiyası (kokainlə zəhərlənmə zamanı meydana çıxır)

Manyanın bilateral hallüsinasiyaları (J. J. V. Magnan) – bir tərəflə eşidilənlərin, digər tərəflə eşidilənlərlə tam əks olmasından ibarət eşitmə hallüsinasiyası (məs. şizofreniya zamanı müşahidə olunur)

Manyanın xronik sayıqlaması (J. J. V. Magnan) – aşağıdakı inkişaf mərhələlərini keçən sayıqlama psixozu: narahatlıq, eşitmə hallüsinasiyaları ilə təqib edilmə sayıqlaması, böyüklük sayıqlaması, demensiya

Manyanın sayıqlama-hallüsinasiyaları (J. J. V. Magnan) – *bax:* Manyanın xronik sayıqlaması

Maranyon simptomu – *bax:* boyun-ayaqaltı simptomu

Marazm *(marasmus)* – tədricən bütün həyati proseslərin tükənməsi, orqan və toxumaların atrofiyası

Alimentar marazm *(m. alimentarius)* – *bax:* alimentar distrofiya

Psixi marazm *(m. psychicus)* – bütün növ psixi fəaliyyətin son həddə qədər tükənməsi (məs., danışığın itirilməsi, məişətdə kimdənsə asılı hala düşəcək dərəcədə acizlik)

Qocalıq marazmı *(m. senilis)* – orqanizmin qocalma prosesləri ilə əlaqəli marazm

Marbuk xəstəliyi (Marburgvirus nəs., Filoviridae ailəsi) – *Filovirus* tərəfindən törədilən ağır, zoonoz, hemorragik qızdırma

Marburq triadası (Marburg, 1874-1948, avstr. nevropatoloqu) – yayılmış sklerozun üç əlamətinin birləşməsi: mərkəzi parezlər, qarın reflekslərinin itməsi, görmə siniri disklərinin bitemporal solğunlaşması və ya atrofiyası

Mareotit *(mareotitis)* – çimmə nəticəsində yaranan otit

Marfan sindromu (B.C. A. Marfan, 1858-1942, frans. pediatr) – birləşdirici toxumanın və dayaq-hərəkət aparatının (ətrafların həddən artıq uzun olması, araxnodaktiliya və s.) birgə təsadüf olunan anomaliyalarından ibarət irsi xəstəlik, autosom-dominant tipli

Marfanın təhrif olunma sindromu (B.C. A. Marfan) – *bax:* Markezani sindromu

Marginal neyroqliya (*neuroglia marginalis*) – sinir borularının daxili və orta qişalarında yerləşən hüceyrələrin çıxıntılarından təşkil olunmuş xarici səthi

Mari ataksiyası (P.Marie, 1853-1940, frans. nevropatoloqu) – *bax:* Pyer Marinin irsi beyincik ataksiyası

Mari simptomu (P.Marie) – parkinsonizmin ilk mərhələlərində rast gəlinən göz qapaqlarının nadir qırpılması

Mari sindromu (P.Marie) – *bax:* akromeqaliya

Mari xəstəliyi (P.Marie) – *bax:* Mari-Bamberger sindromu

Mari-Bamberger sindromu (P.Marie; E. Bamberger,1858-1921, avstr. həkimi) – skleroz və uzunborulu sümüklərin qalınlaşması, əl barmaqlarının baraban çubuqları forması alması (xərçəng, ağciyərlərdə irinli proseslər, qaraciyər sirrozu, ürək çatışmazlığı zamanı rast gəlinən sindrom)

Mari-Bamberger xəstəliyi (P.Marie; E. Bamberger) – *bax:* hipertrofik osteoartropatiya

Mari-Boveri xəstəliyi (P.Marie; P.Boveri, 1879-1932, ital. həkimi) – ekzoftalm, nitqin intension əsməsi ilə gedən hipertrofik nevritinin bir forması

Mari-Fua refleksi (P.Marie; Ch.Faix, 1882-1927, frans. nevropatoloqu) – *bax:* Bexterev-Mari-Fua refleksi

Mari-Fua-Alajuanin xəstəliyi (P. Marie; Ch.Faix; Th. Alajonanine, 1890, frans. nevropatoloqu) – yaşlı şəxslərdə beyinciyin atrofiyası ilə əlaqədar olaraq müvazinətin pozulması, inamsız gəziş və Romberq simptomunun müsbət olması ilə gedən mərkəzi sinir sisteminin xəstəliyi

Mari-Giyen simptomu (P.Marie; G. Guillian, 1876-1961, frans. nevropatoloqu) – I və II barmaqların yarımqatlanmış, digər barmaqların isə qatlanmış vəziyyəti (sirinqomieliya nəticəsində yaranan bilək əzələlərinin artrofiyası zamanı təsadüf olunur)

Marihuana *(marijuana)* – Meksika zəhərli bitkisi, narkotik vasitə

Mari-Leri sindromu (P.Marie; A. Leri, 1875-1930, frans. nevropatoloqu) - *bax:* akromeqaliya

Marin-Amata sindromu (M. Marin-Amat, ispan oftalmoloqu) – ağzı açdıqda və çeynəmə zamanı göz qapaqlarının bağlanması (üz siniri nevritinin bərpa mərhələsində təsadüf edilir)

Marinesko-Şeqren sindromu (G.Marinescu, 1863-1928, rumıniyalı nevropatoloq; K.G.T. Sjogren,1896, isveç psixiatr-nevropatoloqu) – beyincik qabığının artrofiyası nəticəsində beyincik ataksiyası, zehni inkişafdan geri qalma, mikrosefaliya, əzələ zəifliyi, anadangəlmə katarakta, nistaqm, çəpgözlülükdən ibarət simptomokompleks

Marinesko-Şeqren-Qarlend sindromu (G.Marinescu; K.G.T. Sjogren; H. Garland, ing. həkimi) – *bax:* Marinesko-Şeqren sindromu

Marinesku-Dragenski-Vasiliu sindromu (G.Marinescu; S. Draganescu; D.Vasiliu) – *bax:* Marinesku-Şeqren sindromu

Marinesku-Hirşberq simptomu (G. Marinescu; L. K . Hirschberg, 1877, amer. həkimi) – ayağın daxili kənarını ştrixşəkilli qıcıqlandırdıqda, yaxınlaşdırılması və içəriyə rotasiyası (*bax:* piramid yolların zədələnməsi)

Marion əməliyyatı (G.Marion, 1869-1960, frans. uroloq) – Marion xəstəliyi zamanı sidik kisəsi boynunun seroz və əzələ qatının cərrahi yolla kəsilməsi

Marion xəstəliyi (G.Marion) – sidik kisəsi boynunun anadangəlmə hipertrofiyası

Marion simptomu (G.Marion) – sidik kisəsi üçbucağının sitoskopik şəklinin dəyişməsi (görmə sahəsində eyni zamanda yuxarı qalxmış sidik kisəsi boynunun və sidik axarı də-

liyinin görsənməsi-prostat vəzinin adenomasının əlaməti)

Marion-Xolsov əməliyyatı (G.Marion, B.N. Xolsov, 1861-1940, sov. uroloqu) – sidik axarının çapıqlaşmış mərkəzi nahiyəsinin kəsilib götürülməsi və uc-uca anastomozun qoyularaq tikilməsi

Mariotta ləkəsi (E.Mariotte, 1620-1684, frans. həkimi) – *bax:* kor ləkə

Markezani sindromu (O.Marchesani, 1900-1952, alm. oftalmoloqu) – ətrafların tam inkişaf etməməsi, boyun balaca olması, büllurun inkişaf qüsurlarının (sfero və ya mikrofagiya) birgə təsadüf olunduğu irsi xəstəlik

Markiafov-Binyami sindromu (E. Marchiafava, 1847-1916, ital. patoloqu; A. Bignami, 1862-1929,italyan patoloqu) – alkoqol psixozunun, demensiya, dizartriya, əzələ tonusunun qalxması, oftalmoplegiya ilə birgə təzahür etməsi,alkoqol ensefalopatiyasının bir növüdür

Markov simptomu (D.A. Markov, 1895-1976, sov. nevropatoloqu) – baldır əzələlərinin perkusiyası zamanı ayaq barmaqlarının yığılması (mərkəzi parez zamanı, zədələnmiş patoloji ocaq olan tərəfdə)

Marks əməliyyatı (H.Marx, alm. otolarinqoloqu) – şəlpəqulaqlıq zamanı icra olunan plastik cərrahi əməliyyat

Marks simptomu (H.Marx) – anadangəlmə bud çıxığı olan yenidoğulmuşlarda aşağı ətrafın diz və bud-çanaq oynağında bükülməsi, ardınca budun uzaqlaşdırıcı hərəkəti zamanı qeyd olunan xarakterik şıqqıltı

Markser əməliyyatı (Marxer,1885, alm. cərrahı) – körpücük sümüyünün döş hissəsinin travmatik çıxıqları zamanı aparılan cərrahi əməliyyat

Markus siqmoidoskopu (J. M. Marcus, amer. həkimi) – irriqasion sistemlə təchiz olunmuş rektoromonoskop

Marqanis məhlulu – kalium-permanqanat

Marqanokonioz – *bax:* manqanokonioz

Marmo üsulu (S.Marmo, ital. akuşeri) – yenidoğulmuşların ağciyərlərinin süni ventilyasiya üsulu (qoltuqaltından tutulmuş yenidoğulmuşun, nəfəs alması uşağı qaldırdıqdan sonra cəld hərəkətlə başı aşağı vəziyyətə gətirmək, nəfəs vermə isə uşağın döş qəfəsinə əllərlə təzyiq etmə nəticəsində yaradılır)

Maroto-Lami sindromu (P. Maroteaux, 1926, frans. pediatr-genetiki; M. Lamy, 1895, frans. pediatr-genetiki) – onurğanın döş hissəsinin skoliozu, pəncələrin inkişaf anomaliyası, qulaq seyvanının displaziyası, qurdağızlıq, qısaboyluluqla gedən inkişaf anomaliyası

Marri əməliyyatı (G.Murray, amer. cərrah) – ürəyin işemik xəstəliyi zamanı sklerotik dəyişikliyə uğramış tac arteriyanın auto və ya allotransplantatla əvəz edilməsi cərrahi əməliyyatı

Marri-Senderqard-Byerk üsulu (G. Murray; Sondergaard; V.O.Byork) – qulaqcıqlararası arakəsmənin xüsusi iynə ilə dairəvi tikişlərlə tikilərək qüsurun aradan qaldırılması cərrahi əməliyyatı

Marsel qızdırması – Rickettsia conuri tərəfindən törədilən, gənələr vasitəsilə yayılan, kəskin qızdırma, gənənin dişlədiyi yerdə tünd qabıq-

lı yara, makulayabənzər səpgilərlə gedən endemik xəstəlik

Marsel riketsiozu – *bax:* Marsel qızdırması

Marsel sabunu – zeytun yağından alınan sabun

Marsupializasiya *(marsupualiatio)* – döş və qarın boşluğu orqanlarının sistləri zamanı sist kənarlarının əməliyyat yarası kənarına tikilməsi və boşluğun qranulyasiya toxuması ilə doldurulması cərrahi əməliyyatı

Marş (*iter, itineris*) – qoşunların hərbi yürüşlə hərəkəti

Marşal-Marçetti əməliyyatı (V. F. Marshall, amer. ginekoloq; A. Marchetti, amer. ginekoloq*)* – qadınlarda sidiyi saxlaya bilməmə zamanı icra olunan sidik kanalının fiksəsi cərrahi əməliyyatı

Marşal-Uitmor əməliyyatı (V. F. Marshall; W. F.Whitmore) – sidik kisəsinin xərçəngi zamanı sidik kisəsinin limfatik vəzilərin və peritonun kəsilərək xaric edilməsi əməliyyatı

Marşanov orqanı (F.J. Marchand, 1846-1928, alm. patoloqu) – əlavə böyrəküstü vəz

Marşan-Aniçkov xəstəliyi (F.Marshan, 1846-1928, alm. patoloq-anatomu; Н. Н. Аничков, 1885-1964, sov. həkimi) – *bax:* ateroskleroz

Martin əməliyyatı (A. E. Martin,1847-1933, alm. ginekolqu) – sidik axarının bağırsağa köçürülməsi cərrahi əməliyyatı (bağırsaq möhtəviyyatının sidik axarına axmasının qarşısını almaq üçün xüsusi sıxac əmələ gətirməklə)

Martin salpinqostomiyası (A. E. Martin) – uşaqlıq borusunun keçiriciliyinin bərpa edilməsi məqsədilə icra olunan cərrahi əməliyyat

Martine sınağı (A.Martinet, 1868-1922, frans. terapevti) – uşaqlarda ürəyin funksional vəziyyətini qiymətləndirmək üçün ortostatik sınaq

Martin şkalası (R.Martin,1864-1925, isveçrəli antropoloq) – göz bəbəyinin rəngini müəyyən etmək üçün 16 etalonlu şkala

Martin-Bell sindromu (J.P.Martin, ing. həkim; J.Bell, 1879-1979, ing. genetiki) – *bax:* kövrək X-xromosomu sindromu

Martin-Olbrayt psevdohipoparatireoid sindromu (E.Martin, 1900, isveçrəli həkim; F.Albright, 1900, amer. həkimi) – toxumalar tərəfindən qalxanvari ətraf vəzilərin hormonlarının mənimsənilməsinin pozulması simptomokompleksi (hipokalsemiya, hiperfosfatemiya, axandroplaziya, zehni inkişafın geri qalması, tetaniya tutmaları, katarakta və dırnaqların distrofiyası)

Martınov əməliyyatı (A. B. Мартынов,1868-1934, sov. cərrahı) – 1) *bax:* qalxanvari vəzin Mikuliç üsulu ilə rezeksiyası; 2) çəp qasıq yırtığı zamanı yırtığın ləğvi və qasıq kanalının ön divarının plastikası cərrahi əməliyyatı

Martınov-Rovsinq simptomu (A. B. Мартынов; N. Th. Rovsing, 1862-1927, danim. cərrah) – nalabənzər böyrəyin sinir kələflərini sıxması nəticəsində qarında ağrı

Martland sindromu (H.S. Martiand, amer. nevropatoloq) – boksçuların travmatik ensefalopatiyası

Martorel sindromu (F.Martorell, ispan cərrahı) – hipertoniya xəstəliyi zamanı arteriolaların obliterasiyası nəticəsində baldırın aşağı 1/3-nin ön-yan səthində yaranın əmələ gəlməsi

Marvedel kəsiyi (G. Marwedel, 1868, alm. cərrahı) – qida borusu və mədənin kardial hissəsinə cərrahi müdaxilə məqsədilə sol qabırğa qövsünə paralel 2-3 qabırğa qığırdağının kəsilməsi ilə aparılan kəsik

Marvedel-Vendel kardioplastikası (G. Marwedel, alm. cərrahı; W. Wendel, alm. cərrahı) – kardiospazm zamanı kardiyanın bütün qatlarının boylama istiqamətdə kəsilərək köndələn istiqamətdə tikilməsindən ibarət cərrahi əməliyyat

MASA sindromu – zehni inkişafdan qalma, afaziya, əlin baş barmağının deformasiyası, ayaqları sürüyə-sürüyə gəzmədən ibarət simptomokompleks

Maserasiya (lat. *maceratio* isladılma, dağılma) – mayenin uzun müddətli təsirindən toxumaların yumşalması və dağılması

Dölün maserasiyası *(m. fetus)* – dölün antenatal ölümündən sonra dölyanı mayenin təsirindən əmələ gələn maserasiyası

Meyitin maserasiyası *(m. cadaveris)* – nəm mühitdə saxlanılmış meyitin dəri səthində maserasiya

Maskeviç simptomu (Masceviz) – xəstənin qarnı üstə uzandığı vəziyyətində ayağını diz oynağında bükdükdə budun ön səthində ağrının meydana gəlməsi (bud sinirinin zədələnmələri zamanı müşahidə olunur)

Maskulinizasiya *(masculinisatio)* – *bax:* virilizasiya

Maskulinoma *(masculinoma, sin. arrenoblastoma)* – xayanın struktur komponentləri olan yumurtalıq şişi

Maslov fenomeni (M.C. Маслов, 1885-1961, sov. pediatrı) – *bax:* Maslov simptomu

Maslov simptomu (M.C. Маслов) – *spazmofiliyalı* uşaqlarda ayağa iynə batırdıqda tənəffüsün qısamüddətli dayanması

Massaj *(*frans. *massage)* – bədən səthinin hər hansı bir nahiyəsinə dozalanmış mexaniki təsir (əl və ya xüsusi aparatların köməyi ilə müalicəvi və ya profilaktik məqsədlə aparıla bilər)

Ağciyərlərin massajı – döş qəfəsinin açılmış vəziyyətində total bronxospazm zamanı qaz mübadiləsini dəstəkləmək üçün ağciyərlərin ritmik basılması

Gigiyenik massaj – yorğunluğun aradan qaldırılması, əmək qabiliyyətinin yüksəldilməsi, xəstəliklərin qarşısının alınması və sağlamlığın möhkəmləndirilməsi məqsədilə tətbiq olunan massaj

İdman massajı – idman formasını saxlamaq, yarışlara hazırlıq, yorğunluğu aradan götürmək və iş qabiliyyətini artırmaq məqsədilə tətbiq olunan massaj

Klassik massaj – dörd əsas üsulun (sığallama, sürtmə, əzmə və vibrasiya) köməyi ilə aparılan massaj

Lüse massajı – təbil pərdəsinin zondla massajı

Müalicəvi massaj – xəstəliyin müalicəsi və profilaktikası məqsədilə tətbiq olunan massaj

Nöqtə massajı – bədən səthinin funksional aktiv nöqtələrinə və topoqrafik xüsusiyyətlərinə əsasən icra edilən seqmentar-reflektor massaj

Seqmentar-reflektor massaj – bədən səthinin müəyyən zonasına reflektor təsir etməklə daxili orqanların funksional halına təsir edən massaj

Təbil pərdəsinin massajı – təbil pərdəsinin çapıq dəyişiklikləri zamanı təbil pərdəsini süni qıcıqlandırmaq vasitəsi ilə gərginliyini azaltmaq və eşitmə sümüklərinin hərəkətini bərpa etmək

Ürək massajı – ürək dayandıqdan sonra onun fəaliyyətinin bərpa edilməsi məqsədilə ilə ürəyə göstərilən mexaniki təsir

Ürəyin açıq massajı – *bax:* ürəyin birbaşa massajı

Ürəyin birbaşa massajı – ürəyin açılmış döş qəfəsindən əllə açılmış perikarddan və ya perikardın üzərindən massaj edilməsi

Ürəyin xarici massajı – *bax:* ürəyin dolayı massajı

Ürəyin dolayı massajı – döş qəfəsinin ritmik olaraq sıxılması ilə ürək massajı

Ürəyin qapalı massajı – *bax:* ürəyin dolayı massajı

Ürəyin subdiafraqmal massajı – açılmış qarın boşluğundan diafraqmanın tamlığı saxlanılmaqla ürəyin döş qəfəsinin ön divarına sıxılaraq icra edilən ürəyin dolayı massajı

Ürəyin transdiafraqmal massajı – açılmış qarın boşluğundan, diafraqma kəsiyindən ürəyin düz massajı

Ürəyin transtorakal massajı – döş qəfəsi kəsiyindən icra edilən ürəyin düz massajı

Ürəyin vasitəsiz massajı – *bax:* ürəyin birbaşa massajı

Vakuum massajı – mənfi təzyiqin köməyi ilə xüsusi vakuum cihazları ilə aparılan massaj

Massiv hemotransfuziya sindromu – bir sutka ərzində resipiyentin dövr edən qanının 40-50%-i qədər qan köçürüldükdə meydana çıxan ürək-damar sistemi; qaraciyər, böyrək və laxtalanma sistemində meydana çıxan dəyişikliklər

Masugi nefriti (M. Masugi, yap. həkim, 20 əsr) – *bax:* eksperimental sitotoksik nefrit

Mastalgiya (*mastalgia;* yun. *mastos* döş, məməcik + *algos* ağrı) – süd vəzisində ağrı, qadınlarda menstruasiyadan öncə nevrozlarda olur; qızlarda – pubertant yaşda

Mastektomiya *(mastectomia)* – süd vəzisinin çıxarılması əməliyyatı, amputasiyası

Erban-Xoldin mastektomiyası (J.A. Urban, С.А.Холдин, 1896-1974, sov. cərrah-onkoloqu) – süd vəzinin parasternal limfatik düyünlərlə birgə xaric edilməsi cərrahi əməliyyatı

Xoldin mastektomiyası (С.А.Холдин) – parasternal limfatik düyünlərin ekstraplevral yolla xaric edilməsi ilə icra olunan radikal mastektomiya

Radikal genişlənmiş mastektomiya – qabırğa qığırdaqlarının rezeksiyası, döşətrafı və körpücük sümüyüüstü limfatik düyünlərin də xaric edilməsi ilə icra olunan radikal mastektomiya

Radikal mastektomiya – böyük və kiçik döş əzələsinin, regionar limfa vəzilərinin, qoltuqaltı, körpücük sümüyüaltı və kürəkaltı nahiyənin limfa vəzilərinin xaric edilməsi ilə icra olunan mastektomiya

Sadə mastektomiya – regionar limfatik düyünlərə dəyilmədən icra olunan mastektomiya

Master sınağı (A.M. Master, 1895-1973, amer. kardioloq) – latent koranar çatışmazlığın aşkar edilməsi üçün tətbiq edilən funksional sınaq

Masterd əməliyyatı (J. F. Mustard,

1927, amer. kardioloq) – magistral damarların transpoziyası zamanı icra edilən cərrahi əməliyyat

Mastik reaksiya – serebrospinal mayenin kolloid xüsusiyyətlərinin dəyişməsinə əsasən, sinir sisteminin bəzi xəstəliklərinin diaqnostikası üsulu

Mastikasioqraf *(masticatiograph)* – çeynəmə zamanı aşağı çənənin hərəkətinin qrafik təsvirini qeydə almaq üçün cihaz

Mastikasioqrafiya *(masticatiographia)* – bax: mastikasioqraf

Mastikasioqramma *(masticatiogramma)* – çeynəmə zamanı aşağı çənənin hərəkətinin qrafik təsviri

Mastit *(mastitis)* – əsasən laktasiya dövründə rast gəlinən süd vəzinin iltihabı

Abseslərşən mastit *(mastitis abscedens)* – süd vəzinin parenximasında abseslərin əmələ gəlməsi ilə gedən irinli mastit

Doğuşdan sonrakı mastit *(mastitis puerperalis)* – döşlə əmizdirmə zamanı meydana çıxan kəskin mastit

Fleqmonoz mastit *(mastitis phlegmonosa)* – süd vəzinin əriməsi ilə gedən yayılmış irinli mastit

Xərçəng mastiti (mastitis carcinomatosa) – *bax:* mastitəbənzər xərçəng

Xroniki irinli mastit *(mastitis chronica purulenta)* – residiv verən uzungedişli irinli mastit

Xroniki irinsiz mastit *(mastitis chronica impurulenta)* – tədricən inkişaf edən irin infiltrasiyası olmadan bərkləşmə və düyünləşmə sahələri olan mastit

İnfiltrativ mastit *(mastitis infiltrativa)* – süd vəzi toxumasında palpasiya zamanı aşkar olunan ilfiltratların əmələ gəlməsi ilə gedən mastit

İntrakanalikulyar mastit *(mastitis intracanalicularis)* – *bax:* qalaktoforit

İrinli mastit *(mastitis purulenta)* – süd vəzi toxumasının irinli infiltarsiyası ilə gedən mastit

Karsinomatoz mastit *(mastitis carcinomatosa)* – *bax:* mastitəbənzər xərçəng

Qanqrenoz mastit *(mastitis gangraenosa)* – qan damarlarının trombozu nəticəsində iltihab ocağında nekrozlaşmış sahələrin əmələ gəlməsi ilə gedən kəskin irinli mastit

Qanqrenozlaşan mastit *(mastitis gangraenosa)* – *bax:* qanqrenoz mastit

Laktasion mastit *(mastitis lactantitum)* – *bax:* doğuşdan sonrakı mastit

Periduktal mastit *(mastitis periductalis)* – əsasən menopauza dövründə süd axarları ətrafında plazmatik hüceyrələrin infiltratlaşması nəticəsində meydana çıxan mastit

Plazmositar mastit *(mastitis plazmosytica)* – *bax:* periduktal mastit

Yenidoğulmuşların mastiti *(mastitis neonatorum)* – yenidoğulmuşlarda hiperplaziya olunmuş vəzi elementlərinin infeksiyalaşması nəticəsində meydana çıxan mastit

Yeniyetməlik mastiti *(mastitis adolescentium, mastitis puberatis)* – cinsi yetişkənlik zamanı hər iki cinsin nümayəndələrində təsadüf olunan süd vəzilərinin ağrılı şişkinləşməsi, dərisinin qızarması

Mastitəbənzər xərçəng *(carcinoma mastitoideum)* – süd vəzinin ödemi, diffuz bərkiməsi və ağrılı olması, dərisinin hiperimiyası və bədən

temperaturunun yüksəlməsi ilə gedən infiltrativ xərçəngi

Mastodiniya (*mastodynia; mast-*+ yun. *odyne* ağrı; sin. Kuper xəstəliyi, mastalgiya) – süd vəzi nahiyəsində ağrı; gənc qadınlarda nevrozlar zamanı, menstruasiyadan əvvəl, qızlarda isə – yetkinlik dövründə müşahidə olunur

Mastoid – (mastoido-; anat. *processus mastoideus* məməyəbənzər çıxıntı; yun. *mastos* məməcik, döş + *eides* oxşar) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "məməyəbənzər çıxıntıya aid" mənasını verir

Mastoidektomiya *(mastoidectomy)* – gicgah sümüyünün məməyəbənzər çıxıntısının kənar edilməsi

Mastoidit *(mastoiditis)* – gicgah sümüyünün məməyəbənzər çıxıntısının iltihabı

Atipik mastoidit (*m. atipica*) – məməyəbənzər çıxıntı nahiyəsində ağrısız və gözlə görünən dəyişikliksiz gedən mastoidit

Besold mastoiditi – məməyəbənzər çıxıntının zirvəsinin daxili divarı ilə boyun əzələləri altına irinin keçməsi nəticəsində inkişaf edən məməyəbənzər çıxıntı – boyun mastoiditi

Birincili mastoidit *(m. pirimaria)* – orta qulağın kəskin iltihabı olmadan yaranan mastoidit

Çitelli mastoiditi (S.Çitelli, 1875-1947, ital. otorinolarinqoloqu) – *bax:* Çitelli absesi

İrinli mastoidit *(m. purulenta)* – irinli ekssudatın əmələ gəlməsi və hüceyrələr arasındakı arakəsmələrin dağılması ilə gedən mastoidit

Kəskin mastoidit *(m. acuta)* – orta qulağın məməyəbənzər hissəciklərinin iltihabı

Kontuzion mastoidit *(m. contusione)* – hava kontuziyası nəticəsində alınmış kəllədaxili zədənin gecikmiş təzahürü

Nekrotik mastoidit *(m. necrotica)* – skarlatina, difteriya, fuzospirellozun ağırlaşması kimi məməyəbənzər çıxıntıda nekrotik dəyişikliklərlə gedən atipik mastoidit

Odlu silah mastoiditi *(m. sclopetaria)* – gicgah sümüyünün odlu silah yaralanmasından sonra yaranan mastoidit

Residivverən mastoidit *(m. recidivia)* – mastoidotomiyadan sonra sümük qüsuru nahiyəsində yaranmış çapıq toxumasının iltihabı

Sifilitik mastoidit *(m. syphilitica)* – ikincili və ya üçüncülü sifilis zamanı məməyəbənzər çıxıntının qabıq qatının periostiti şəklində meydana çıxan mastoidit

Travmatik mastoidit *(m. trumatica)* – gicgah sümüyünün zədələnməsi nəticəsində meydana çıxan mastoidit

Vərəm mastoiditi (*m. tuberculosa*) – vərəm zamanı məməyəbənzər çıxıntının kazeoz dağılması ilə xarakterizə olunan mastoidit

Yalançı mastoidit (*m. spuria*) – klinik olaraq mastoiditi xatırladan məməyəbənzər çıxıntı nahiyəsindəki yumşaq toxumaların mastoiditi (məs., limfadenit, frunkul)

Zirvə-boyun mastoiditi (*m. apicocervicalis*) – prosesin həm də boyun nahiyəsinin əzələlərinə yayıldığı zirvə mastoiditi

Zirvə mastoiditi (*m. apicalis*) – irinli prosesin yalnız məməyəbənzər çıxıntının zirvə nahiyəsinə yayıldığı irinli mastoidit

Mastoidotomiya *(mastoidotomia)* –

gicgah sümüyünün məməyəbənzər çıxıntısının kəsiyi

Mastoqrafiya *(mastography)* – *bax:* mammoqrafiya

Mastopatiya (*mastopathia)* – süd vəzilərinin hormonal pozğunluqla bağlı dəyişikliyi

Diffuz mastopatiya (*mastopathia diffusa)* – süd vəzi paylarının çoxsaylı hiperplaziya və atrofiyası, ətraf birləşdirici toxumaların fibrozu və hialinozu ilə gedən mastopatiya

Düyünlü mastopatiya (*mastopathia nodosa)* – tək-tək düyünlərin və bərkimə ocaqlarının olması ilə gedən mastopatiya

Fibroz mastopatiya (*mastopathia fibrosa)* – fibroz birləşdirici toxumanın üstünlüyü ilə gedən mastopatiya

İsterik mastopatiya (*mastopathia hysterica)* – *bax:* tireotoksik mastopatiya

Kistoz-proliferativ mastopatiya (*mastopathia cysticoproliferativa*) – süd axarlarının və sistlərin daxilində papilyar epitel hüceyrələrinin inkişaf etməsi ilə gedən kistoz mastopatiya

Kistoz mastopatiya (*mastopathia cystica)* – süd vəzi paylarının hissəvi atrofiyası və eozinofil epitel hüceyrələri ilə örtülmüş sistləri ilə gedən mastopatiya

Kisto-fibroz mastopatiya (*mastopathia cysticofibrosa)* – sistlərin ətrafında fibroz toxumanın inkişaf etməsi ilə xarakterizə olunan mastopatiya

Tireotoksik mastopatiya (*mastopathia thyreotoxica)* – tireotoksikoz nəticəsində yumurtalıqların hormonal aktivliyinin dəyişməsi nəticəsində meydana çıxan mastopatiya

Vəzili-kistoz mastopatiya *(mastopathia glandulocystica)* – süd vəzi paylarının hiperplaziyası və sistləri ilə gedən mastopatiya

Mastopeksiya *(mastopexy)* – sallanmış süd vəzilərinin cərrahi yolla bərkidilməsi

Mastoplastika *(*frans. *mastoplastie)* – süd vəzisinin plastikası

Mastoptoz *(mastoptosis)* – öz ağırlığı nəticəsində formasını uzununa doğru dəyişən və sallanan süd vəziləri

Mastoragiya *(mastorrhagia)* – süd vəzisindən qan ifraz olunması

Mastositoma *(mastocytoma)* – dəri və ya selikli qişanın tosqun hüceyrələrin toplanmasından yaranan xoşxassəli şişi

Mastositoz *(mastosytosis)* – tosqun hüceyrələrin (labrositlərin) proliferasiyası ilə gedən, ən çox uşaqlarda rast gəlinən xroniki xəstəlik (dəri, limfatik düyünlər, sümük iliyi, dalaqda daha çox təsadüf olunur)

Bulyoz mastositoz *(m. bullosa)* – dəri səthində gərgin seroz və ya hemorragik möhtəviyyatlı qabarların olması ilə gedən mastositoz

Çoxdüyünlü mastositoz *(m. tumorosa)* – çoxsaylı, hamarsəthli, yarımkürəşəkilli, bərk konsistensiyalı düyünlərin olması ilə gedən mastositoz

Dəri-fisseral mastositozu *(m. cutaneovisceralis)* – dəri və daxili orqanların qarışıq zədələnməsi ilə gedən mastositoz

Diffuz mastositoz *(m. diffusa)* – bütün dəri səthinin diffuz infiltrasiyası ilə gedən mastositoz

Düyünlü bitişən mastositoz – bərk konsistensiyalı bitişməyə meylli qırmızı düyünlərlə gedən mastosi-

toz (əsasən dəri büküşlərində rast gəlinir)

Düyünlü mastositoz *(m. nodilaris)* – müxtəlif ölçülü və sıxlıqlı, açıq-sarı rəngli düyünlərlə gedən mastositoz

Eritromatoz-ləkəli eruptiv mastositoz – *bax:* teleangiektatik mastositoz

Ksantelazmoid mastositozu (*m. xanthelasmoidea*) – yastı, ovalşəkilli, elastik konsistensiyalı düyünlərin olması ilə gedən mastositoz

Ləkəli mastositoz *(m. maculosa)* – Unn simptomunda müsbət nəticə verən, çoxsaylı, müxtəlif ölçülü qəhvəyi ləkələrlə təzahür edən mastositoz

Ləkəli papulloz mastositoz *(m. maculopapulosa)* – dəri səthində qəhvəyi ləkələr və düyünlərlə təzahür edən mastositoz

Ləkəli piqmentli eruptiv mastositoz *(m. pigmentata maculosa eruptiva)* – *bax:* ləkəli mastositoz

Nişanşəkilli mastositoz *(m. xanthelasmoidea)* – *bax:* ksantelazmoid mastositozu

Papulloz mastositoz *(m. papulosa)* – dəridə lentiqonu xatırladan düyünlərlə gedən tünd rəngli mastositoz

Papulloz piqmentsiz mastositoz – düyünləri piqmentsiz olan papulloz mastositoz

Şişşəkilli mastositoz *(m. tumorosa)* – yenidoğulmuşlarda şişmiş piqment ləkələri və ya böyüklərdə bərk düyün formalı şişəbənzər dəyişikliklər ilə gedən mastositoz

Teleangiektatik mastositoz *(m. teleangiektatica)* – dəri və selikli qişalarda çoxsaylı teleangioektaziyalar, ləkə və papulalarla gedən mastositoz

Mastotomiya – süd vəzisinin kəsiyi

Masturbasiya *(masturbatio)* – əlləri ilə xarici cinsiyyət orqanlarının süni sürətdə orqazma çatdırılması

Masud-Kitaxar sindromu (Masuda; S.Kitahara, yap. oftalmoloqu) – *bax:* mərkəzi seroz retinopatiya

Maşa – orqan və ya toxumanı tutmaq, sıxmaq məqsədilə istifadə olunan tibbi alət

Akuşer maşaları – uşaqlıq yığılmaları doğuşu başa çatdarmaq üçün kifayət etmədikdə tətbiq olunan xüsusi alətlər

Breys maşası – yüksəkdə yerləşmiş döl başını çıxarmaq üçün hərəkətli akuşer maşası

Bryuninqs maşası (W. Brunings, 1876-1958, alm. otorinolarinqoloqu) – burun əməliyyatlarında istifadə olunan alət

Bryuninqsin aynalı maşası (W. Brunings) – düzbucaqlı aynası olan lövhəli pinset

Hemorroidal maşa – əməliyyat zamanı hemorroidal düyünləri tutub saxlamaq üçün sonluğunda dəlik olan alət

Horsli maşası (V.A.H. Horsley,1857-1916, ing. cərrahı) – laminektomiya zamanı istifadə olunan cərrahi alət

Kaqalovskinin fiksator maşası (Г.М. Кагаловский, 1957, sov. cərrahı) – plevrektomiya və ağciyər dekortikasiyası zamanı plevranı tutmaq üçün alət

Killand maşası (Ch.Kielland, 1871-1941, norv. ginekoloqu) – döl başını xaric etmək üçün istifadə edilən mamalıq aləti

Killean maşası – burun əməliyyatlarında istifadə olunan alət

Qaşığabənzər maşa – beyin və beyin qişalarından şişlərin xaric edilməsi və biopsiyası zamanı istifadə olunan, işçi hissəsi qaşığabənzər formada olan alət

Lazareviç maşası (И.П.Лазаревич, 1829-1902, rus mama-ginekoloqu) – döl başını xaric etmək üçün istifadə edilən akuşer aləti

Negele maşası (F.Naegele, 1777-1851, alm. mama həkimi) – döl başını xaric etmək üçün istifadə edilən akuşer aləti

Ortodontik maşa – diş cərgəsi və çənənin deformasiyalarının profilaktika və müalicəsində istifadə olunan vasitələri tənzimləmək üçün alət

Pravosud maşası (Ф.Г. Правосуд, sov.cərrahı) – düz 40 sm uzunluqda, dairəvi başı, uzunsov boynu olan, adi çarpazlanan tutacaqlı akuşer maşası

Sekvestral maşa (*sequestro*) – sümük sekvesterlərini və fraqmentlərini xaric etmək üçün alət

Simpsom maşası (J.Y. Simpson, 1811-1870, şotl. ginekoloq) – döl başını xaric etmək üçün istifadə edilən akuşer aləti

Sümük maşası – osteosintez zamanı sümük fraqmentlərini saxlamaq üçün istifadə olunan alət

Uretral maşa – sidikçıxarıcı kanaldan yad cismi xaric etmək üçün alət

Matas əməliyyatı (R. Matas, 1860-1957, amer. cərrah) – *bax:* endoanevrizmorafiya

Matas sınağı (R. Matas) – baş beyində kollateral qan dövranının funksional müayinəsi sınağı

Meterioloji şərait – müəyyən olunmuş anda və ya vaxt ərzində təyin olunmuş rayonda meterioloji elementlərin məcmusu

Matis əməliyyatı (И. Е. Матис) – alın cibi xəstəliklərində burun boşluğundan icra olunan cərrahi müdaxilə

Matizen əməliyyatı (W. Mathisen) – sidik kisəsi – sidik axarı refluksu zamanı icra olunan cərrahi əməliyyat

Matriks *(matrix)* – hüceyrə sturukturlarını və onlar arasındakı sahəni dolduran xırdadənəli, yarım maye konsistensiyalı maddə

Dırnağın matriksi *(matrix unguis)* – dırnaq yatağının dırnaq lövhəsinin altında yerləşən epitel hüceyrələrdən ibarət hissəsi (bu hissənin hüceyrələrinin bölünməsi nəticəsində dırnaq uzanır)

Saçın matriksi *(matrix pili)* – saç soğanağının bir hissəsi (bu hissənin hüceyrələrinin bölünməsi nəticəsində saç uzanır)

Mattinin sümük plastikası (H.Matti, 1879-1941, isveçrəli cərrah) – qanadabənzər kürək sümüyü zamanı icra olunan cərrahi əməliyyat (kürək sümüyünün qabırğalara fiksə edilməsi)

Matveyev-Krede üsulu (А. П. Матвеев, 1816-1982, sov. mama-ginekoloqu; K. S. F.Grede, 1819-1892, alm. mama-ginekoloqu) – yenidoğulmuşlarda konyunktiva kisəsinə 1-2 damcı 2%-li gümüş nitrat məhlulunun tökülməsi ilə qonoblenoreyanın profilaktikası metodu

Matye iynə tutanı (A.Mathieu, 1855-1917, frans. həkimi) – tutacaqları əyilmiş formada olan iynə tutan

Matye simptomu (A.Mathieu) – göbək nahiyəsinin təkanşəkilli palpa-

siyası zamanı sürtünmə küyünün eşidilməsi (bağırsaq keçməməzliyinin əlaməti)

Maudjeri sindromu (S. Maugeri, 1905, ital. həkimi) – bronxial astma tutmaları, qırtlağın və traxeyanın ödemi, dərindən nəfəs aldıqda öskürək, midriaz və anizokoriya əlamətləri ilə gedən naməlum etiologiyalı xəstəlik

Mauqli sindromu – təcridolunmaya meyllə xarakterizə olunan psixi çatışmazlıq

Maurer ləkələri (G.Maurer, alm. həkimi) – ağır formalı tropik malyariyada eritrositlərdə Romanovski-Qimza ilə boyanmış preparatlarda bənövşəyi və ya qırmızı ləkələrin aşkar edilməsi

Mavi xəstəlik – *bax:* Qayalı dağlarının ləkəli qızdırması

Mavi sklera simptomu *(*sin. leptoskleriya*)* – göz alması sklerasının mavi rəngə boyanması; Van-der-Huve xəstəliyi zamanı təzadüf olunur

Maydl əməliyyatı (K. Maydl, 1853-1903, çex cərrahı) – sidik kisəsinin seqmentinin sidik axarı ilə birgə S-ə bənzər bağırsağa köçürülməsi əməliyyatı

Mayer dizerqaziyası (A. Meyer, 1866-1950, amer. psixiatr) – *bax:* dizerqaziya

Mayer hemalaunu (P. Mayer, 1848-1923, alm. zooloq və gistoloq) – əsas komponenti hemateinin naşatırlı məhlulu olan histoloji boyaq maddəsi; əsasən hüceyrə nüvəsini rəngləmək üçün istifadə olunur

Mayer simptomu (A. Meyer) – otoskleroz zamanı xarici qulaq keçəcəyində ekzostozların olması

Mayer üsulu (E. G. Mayer, 1893, avstriyalı rentgenoloq) – gicgah sümüyünün rentgen şüalarının piramid oxu boyunca yönəldilməsi zamanı çəkilmiş rentgenoqramma; təbil boşluğunun rentgen şəklini almağa imkan verir

Mayerin yalançı hemoqlobinuriyası (E. Mayer, alm. həkimi) – eritrositlərin böyrək damarlarında parçalanması nəticəsində əmələ gələn hemoqlobulinuriya

Maykova-Stronqova üsulu (B.C. Майкова-Строганова, sov. rentgenoloqu) – göz almasına düşmüş yad cismin müayinə olunması üsulu

Mazğal – atəş açmaq üçün səngərlərin, tranşeyaların, xəndəyin və ya əlaqə yollarının sipərində düzəldilmiş çuxur

Mazindol *(mazindol)* – piylənmə zamanı istifadə olunan anoreksinogen təsir göstərən maddə

Mazoxizm *(masochismus)* **-** əks cins tərəfindən cinsi zövq almaq üçün fiziki və mənəvi işgəncələrə məruz qalmaq istəyi

Mazura üsulu – bəlğəmdə vərəm mikobakteriyalarının aşkar edilməsi üsulu: bunun üçün bəlğəmə durulaşdırılmış sirkə turşusu qatırlar, sonradan köpük əmələ gələnə gədər çalxalayırlar,sentrifuje edib çöküntü nü qatı mühitlərə əkirlər

Mazurenko virusu (Н. П. Мазуренко, sov. onkoloq-virusoloqu) – eksperimentdə siçanlarda kəskin leykoz və retikulyoz yaradan virus

MBTD-də çıxış vəziyyəti – fiziki hərəkətlərin başlandığı zaman bədənin vəziyyəti

Meatometr *(*köh. anat. *meatus urinarius* sidikçıxarıcı kanalın xarici dəliyi + yun. *metreo* ölçmək*)* – sidikçıxarıcı kanalın xarici dəliyinin diametrini ölçmək üçün cihaz

Meatoskopiya *(meatoscopy)* – sidik axarının sistoskop vasitəsilə müayinəsi

Meatotom *(meatotome)* – sidikçıxarıcı kanalın xarici dəliyini kəsmək üçün kəsici alət

Meatotomiya *(meatotomy)* – cərrahi müdaxilə: sidik kanalının xarici dəliyinin yarılması

Mebikar (*mebicarum*) – nevroz və nevrozabənzər hallarda tədbiq olunan, emosional oyanıqlıq, qorxu və həyəcanı aradan götürən trankvlizator

Mebius sindromu (P.J. Moebius, 11853-1907, alm. nevropatoloqu) – gözün uzaqlaşdırıcı sinirin və üz sinirinin bir və ya ikitərəfli zədələnməsindən ibarət irsi xəstəliyi; çəpgözlülük, hipomimiya əlamətləri ilə özünü göstərir

Meçnikovun immunitet nəzəriyyəsi (И.И.Мечников, 1845-1916, rus bioloq və patoloqu) – bu nəzəriyyəyə görə antibakterial immunitetdə əsas rol faqositoza məxsusdur

Meddoks şkalası (E. A. Maddox, 1860-1933, ing. oftalmoloqu) – çəpgözlüyün dərəcəsini və geteroforiyanı qiymətləndirilməsi üçün şkala

Mediastinal sindrom *(syndromum mediastenale)* – divararalığı orqanlarının sıxılması nəticəsində döş qəfəsində ağrı, periferik limfostaz və stenotik tənəffüs

Mediastinit *(mediastinitis)* – divararalığının iltihabı

Kontakt mediastiniti *(m. contactilis)* – iltihabi prosesin ətraf orqan və toxumalardan keçməsi nəticəsində yaranan mediastinit

Tonzilogen mediastinit *(m. stonsilogena)* – irinli prosesin paratonzilyar sahədən keçməsi nəticəsində yaranan mediastinit

Mediastinoqrafiya *(mediastinography)* – divararalığı orqanlarının kontrast maddə yeridildikdən sonra rentgenoqrafiyası

Qazlı mediastinoqrafiya – kontrast maddə qismində qazların (məs., oksigen qazı) tətbiqi ilə çəkilən mediastinoqrafiya

Mediastinoskop *(mediastinoskop)* – ön divar aralığının müayinə və müalicəsi üçün istifadə olunan endoskop

Mediastinoskopiya *(mediastinoscopy)* – divararalığı orqanlarına rentgenlə baxılması

Mediastinotomiya *(mediastynotomia)* – divararalığının açılması

Arxa ekstraplevral mediastinotomiya *(m. extrapleuralis posterior)* – *bax:* Nasilov üsulu

Boylama transsternal mediastinotomiya *(m. transsternalis longitudinalis)* – döş sümüyünün boylama kəsilməsi ilə icra olunan mediastinotomiya

Boyun mediastinotomiyası (*m. transcervicalis*) – *bax:* transservikal mediastinotomiya

Ekstraplevral mediastinotomiya *(m. extrapleuralis)* – plevra boşluğunu açmadan icra olunan mediastinotomiya

Köndələn transsternal mediastinotomiya *(m. transsternalis transversa)* – döş sümüyünün köndələn kəsilməsi ilə icra olunan mediastinotomiya

Suprasternal mediastinotomiya *(m. suprasternalis)* – *bax:* transservikal mediastinotomiya

Transdiafraqmal mediastinotomiya *(m. transdiaphragmatica)* – la-

parotomiyadan sonra diafraqmada aparılan kəsikdən və ya xəncərəbənzər çıxıntının altından aparılmış ekstraperitonial kəsikdən icra olunan mediastinotomiya

Transplevral mediastinotomiya *(m. transpleuralis)* – torakotomiyadan sonra plevra boşluğundan icra olunan mediastinotomiya

Transservikal mediastinotomiya *(m. transcervicalis)* – vidaci çüxurdan aparılan kəsiklə icra olunan mediastinotomiya

Transsternal mediastinotomiya *(m. transsternalis)* – döş sümüyünün tam və ya hissəvi kəsilməsi ilə icra olunan mediastinotomiya

Meniskositar anemiya *(anemia meniscocytica) – bax:* orağabənzər hüceyrəli anemiya

Medikamentoz artrit *(arthtritis medicamentosa)* – hər hansı bir dərman vasitəsinə qarşı həssaslığın artması nəticəsində inkişaf edən artrit

Medionekroz (*medionecrosis*) – arteriyanın orta qişasının nekrozu

Meditasiya *(meditation)* – orqanizmin xarici və daxili qıcıqlandırıcıların təsirindən azad edilərək fikrin dərin cəmləşdirilməsi qabiliyyəti

Medomalakufobiya *(medomalacuphobia)* – ereksiyanın itirilməsindən patoloji qorxu

Medortofobiya *(medorthophobia)* – ereksiya vəziyyətində olan penisdən patoloji qorxu

Medrotestron propionat *(medrotestroni propionas)* – şiş əleyhinə təsir göstərən hormonal preparat

Medufobiya – meduzalardan patoloji qorxu

Medulloepitelioma *(medulloepithelioma) – bax:* diktioma

Medulloqrafiya *(medullography)* – sümük iliyi boşluğuna kontrast maddə yeridildikdən sonra sümükdaxili venaların rentgenoloji müayinəsi

Meduloblastoma *(medulloblastoma)* – baş beynin neyroektodermal bədxassəli şişi

Medulyar şırım – *bax:* sinir şırımı

Medvedev əməliyyatı (П.М. Медведев, 1927, sov. cərrahı) – filayaqlıq zamanı icra olunan cərrahi əməliyyat (dərialtı piy təbəqəsinin xüsusi fassiya ilə birgə xaric edilməsi)

Medvedev kəsiyi (П.М. Медведев) – patoloqo-anatomik müayinə zamanı boyun-üz və əllərdə aparılan kəsik

Medvedevin damar tikişi (П.М. Медведев) - aorta üzərində əməliyyatlar zamanı tətbiq olunan П – şəkilli fasiləsiz tikiş

Mexaniki üsul – bakteriya saxlayan filtrlərdən istifadə olunur

Mexanofobiya *(mechanophobia)* – maşınlardan, mexanizmlərdən patoloji qorxu

Mexanoreseptorlar – mexaniki təsiri qəbul edən reseptorlar (məs., təzyiq)

Mexanoseptorlar – *bax:* mexanoreseptorlar

Mexanoterapevtik aparat – müalicə məqsədilə aktiv və passiv dozalanmış hərəkətlərin icra edilməsini təmin edən aparat

Mexanoterapiya *(mechanotherapia)* – müalicəvi bədən tərbiyəsinin mexanoterapevtik aparatlar vasitəsi ilə dozalanmış hərəkətlərin verilməsi nəticəsində aparılan müalicə üsulu

M-exo (sin. orta Exo) – exo ensefaloqrafiya zamanı baş beynin mərkəzində yerləşən strukturları əks etdirən ultrasəs siqnalı

Mexolil testi – mədəaltı vəzin xarici sekretor funksiyasını yoxlamaq üçün etil efiri və mexolil vasitəsi ilə stimulə etməklə duodenal möhtəviyyatın fraksion müayinəsi üsulu

Mekkel divertikulu *(diverticulum Meckeli;* J. F. Meckel junior, 1781-1833, alm. anatomu) – *bax:* Çənbər bağırsağın divertikulu

Mekkel sindromu *(*J.F. Meckel junior, 1781-1833, alm. anatomu*)* – kəllə sümüklərinin deformasiyası, polidaktiliya, sindaktiliya, katarakta, böyrəklərin polikistozu, sidik kisəsi və sidik axarlarının hipoplaziyası, qaraciyərin, dalağın, böyrəküstü vəzilərin və ağciyərin inkişaf qüsurlarından ibarət simptomokompleks

Mekkel-Qruber sindromu (J.F. Meckel junior; G.B. Gruber, 1884, alm. patoloqu) – *bax:* Mekkel sindromu

Mekometr *(mecometer)* – uşağın boyunu ölçən cihaz

Mekonioreya (*meconiorrhoea*) – mekoniumun həddindən artıq ifraz olunması

Mekonium *(*yun. *mekonion)* – dölün bətindaxili inkişafının 3 ayından başlayaraq bağırsağın mənfəzində əmələ gələn və yenidoğulmuşun 2-3 gün ərzində ifraz etdiyi özlü konsistensiyalı, yaşımtıl rəngli nəcis

Meksaform *(mexaform)* – oksixinolin törəməsi olan antibakterial maddə

Meksamin (*mexaminum*) – radioloji müdafiə qabiliyyətinə malik antiserotinogen preparat

Meksaza *(mexase)* – oksixinolin törəməsi olan antibakterial maddə

Meqadolixokolon *(megadolichocolon)* – çənbər bağırsağın nəzərəçarpan dərəcədə uzanması və mənfəzinin genişlənməsi

Meqadolixosiqma *(megadolichosigma)* – «S»-ə bənzər bağırsağın nəzərə çarpacaq dərəcədə uzanması və mənfəzinin genişlənməsi

Meqaduodenum *(megaduodenum)* – həzm traktı saya əzələlərinin zədələnməsi nəticəsində onikibarmaq bağırsağın evakuator funksiyasının zəifləməsi

Meqaezofaqus *(megaoesophaqus)* – qida borusu ölçülərinin normadan böyük olması

Meqakalikoz *(megacalycosis)* – böyrək ləyənlərinin həcminin böyüməsindən ibarət inkişaf anomaliyası

Meqakalsinoz – medulyar displaziyanın nəticəsində yaranan böyrəyin anadangəlmə inkişaf qüsuru

Meqakilks *(megacalyx)* – *bax:* meqakalikoz

Meqakolon *(megacolon)* – çənbər bağırsağın tam və ya hissəvi olaraq mənfəzinin genişlənməsi

Meqaqlossiya (*megaglossia*) – həddən artıq böyük dil

Amiloid meqaqlossiya (*m. amyloidea*) – *bax:* amiloid makroqlossiya

Blastomikotik meqaqlossiya *(m. blastomycotica)* – *bax:* blastomikotik makroqlossiya

Linfangiomatoz meqaqlossiya *(m. lymphangiomatosa)* – dildə limfangiomaların əmələ gəlməsi və dilin böyük olması

Vərəm meqaqlossiyası *(m. tuberculosa)* – dilin əsasında vərəm düyünlərinin əmələ gəlməsi, prosesin zəif inkişaf etməsi və kəskin iltihabi əlamətlərin olmaması ilə gedən dil böyüməsi

Meqaloblast *(megaloblastus)*– böyük nüvəli eritrosit

Meqalodontiya *(megalodontia)* – *bax:* Makrodentiya

Meqalodermiya *(megalodermia)* – dərinin diffuz hipertrofiyası və ayrı-ayrı sahələrinin atrofiyası ilə gedən anadangəlmə xəstəlik

Meqaloesteziya *(megaloaesthesia)* – əşyanı olduğundan böyük hiss etməkdən ibarət hissiyyat pozğunluğu

Meqalofobiya – böyük əşyalardan patoloji qorxu

Meqaloxeyliya *(megalocheilia) – bax:* makroxeyliya

Meqalokornea *(megalocornea*; *meqalo-* + anat. *cornea* buynuz qişa*)* – inkişaf anomaliyası: buynuz qişanın ölçülərinin böyüməsi

Meqaloqlossiya *(megaloglossia) – bax:* makroqlossiya

Meqaloqrafiya *(megalographia)* – beyinciyin zədələnməsi ilə əlaqədar olaraq yazı zamanı hərflərin həddən artıq böyük yazılması

Meqalomaliya *(megalomalia)* – özünü böyütmə sayıqlaması

Meqalomaniya *(megalomania)* – özü əldə etmədiyi fəaliyyəti, qəhrəmanlığı özünə aid etməsi

Meqalonixiya *(megalonychia) – bax:* makronixiya

Meqalopapilla *(megalopapilla)* – görmə siniri diskinin ölçülərinin normadan böyük olmasından ibarət inkişaf anomaliyası

Meqaloplaziya *(megaloplsia)* – hər hansı orqan və ya toxumanın normadan artıq inkişaf etməsi

Meqalopodiya *(megalopodia) – bax:* makropodiya

Meqalopsiya *(meqalopsia)* – real obyektlərin, əşyaların proporsional böyük həcmdə qavranılması

Meqaloureter *(megaloureter) – bax:* meqaureter

Meqantrop *(meganthops)* – insanabənzər iri canlının aşkar olunmuş sümükləri

Meqarektum *(megarectum)* – düz bağırsağın genişlənməsi (adətən uzunmüddətli qəbzlik nəticəsində əmələ gəlir)

Meqasefaliya *(megacephalia)* – başın ölçülərinin normadan böyük olması

Meqaureter *(megaureter)* – sidik axarı mənfəzinin nəzərəçarpan genişlənməsi

Meqoloureter – *bax:* meqaureter

Melanemiya *(melanaemia)* – melanoma xəstəliyi zamanı qanda melaninin olması

Melanxolik *(melancholy)* – aciz, zəif, cəsarəti olmayan temperament tipi

Melanxolik kütləşmə *(melancholia attonitus)* – hərəki aktivliyin stupora qədər tormozlanması ilə gedən patoloji vəziyyət

Melanxolik partlayış – qəmginliyin artması, hərəkətlərin narahatlığı, öz-özünü günahlandırma, bəzən isə süi-qəsd cəhdi

Melanxolik raptus sindromu – *bax:* melanxolik partlayış

Melanxoliya *(melancholia)*– ruhdandüşmə, məyusluq

İnvolüssion melanxoliya – yaşlı şəxslərdə özünə qapanma, həyəcan, ajiotaj, idiomator hərəkətlər və qorxu ilə xarakterizə olunan depressiv hal

Melanin *(*yun. *melanos)* – qara və tünd qəhvəyi rəngli piqmentlərin ümumi adı

Melanizm *(melanismus) – bax:* melanoz

Melanjer *(frans. melangeur)* – qanda olan hüceyrələri saymaq üçün istifadə olunan şüşə alət

Melanoblastoma *(melanoblastoma)* – *bax:* melanoma

Melanodermiya *(melanodermia)* – melaninin dəridə artıq miqdarda toplanması

Melanoepiteliosit *(melanoepitheliocytus)* – *bax:* melanosit

Melanofobiya *(melanophobia)* – qara rəngdən patoloji qorxu

Melanokarsinoma (*melanocarcinoma*) – *bax:* melanoma

Melanoma *(melanoma)* – melanin sintez edən hüceyrələrdən (melanositlərdən) inkişaf edən bədxassəli şiş; dəri xərçəngi

Amelanotik melanoma *(m. amelanoticum)* – hüceyrələrində melanin olmayan melanoma növü

Bədxassəli melanoma – *bax:* melanoma

Dərinin melanoması *(m. cutis)* – dərinin açıq nahiyələrində papilloma, yara və düyün formasında inkişaf edən melanoma

Epiteləbənzər melanoma *(m. epithelioideum)* – çoxbucaqlı və dairəvi formalı epitel hüceyrələrindən ibarət melanoma

Gənclik melanoması *(m. juvenile)* – əsasən gənc yaşlarda təsadüf edilən xoşgedişli, iri qabarcıqlar formasında təzahür edən melanoma

Göz melanoması *(m. oculi)* – gözün damarlı qişasının piqment hüceyrələrindən inkişaf edən melanoma

Gözün düyünlü melanoması *(m. oculi nodulare)* – torlu qişadan şüşəyəbənzər cismə doğru inkişaf edən melanoma

Gözün yastı melanoması *(m. oculi planare)* – gözün damarlı qişasının yastı hüceyrələrindən inkişaf edən melanoma

İridosilyar melanoma *(m. iridociliare)* – bəbəklə kirpikli cismin sərhədindən inkişaf edən melanoma

İyəbənzər hüceyrəli melanoma *(m. fusicellulare)* – hüceyrələri iy formasında olan melanoma növü

Qarışıq hüseyrəli melanoma *(m. mixtocellulare)* – çoxbucaqlı epiteləbənzər və iyəbənzər formalı hücyerələrdən ibarət melanoma

Yuvenil melanoması *(m. juvenile)* – *bax:* gənclik melanoması

Piqmentsiz melanoma *(m. non piqmentatum)* – *bax:* amelanotik melanoma

Melanonixiya *(melanonychia)* – melaninin dırnaqlarda çökməsi, məs. şəkərli diabetdə, hamiləlikdə

Melanopatiya *(melanopathia)* – *bax:* melanoz

Melanosit *(melanocytus)* – piqmentləşmiş leykosit

Melanositoblastoma *(melanocytoblastoma)* – *bax:* melanoma

Melanositoma *(melanocytoma)* – *bax:* melanoma

Melanostatin – rilizinq inhibəedici hormon

Melanoz *(melanosis)* – orqan və toxumalarda melaninin artıq miqdarda toplanması

Melanuriya (*melanuria*) – sidikdə melaninin olması (sidiyə tünd rəng verən və melanoma zamanı təsadüf olunan vəziyyət

Melena *(melaena)* – qətranabənzər defekasiya, həzm traktının yuxarı hissələrində baş verən qanaxma nəticəsində nəcisin qara olması

Melinger blefarostatı (K. Melinger, alm. oftalmoloqu) – oftalmoloji əməliyyatlar zamanı istifadə olunan cərrahi alət

Melinit (*melenite*; yun. *meli* bal) – bəzi döyüş sursatlarını təchiz etmək üçün istifadə edilən, əridilmiş pikrin turşusundan ibarət, bal şəklində olan partlayıcı maddə

Melioidoz *(melioidosis)* – kəskin və ya xroniki septisemiya ilə gedən infeksion xəstəlik, Pseudomonas pseudomallei tərəfindən törədilir

Melissofobiya *(melissophobia) – bax:* apifobiya

Melitokokkoz *(melitococcosis) – bax:* brusellyoz

Melitokoksiya *(melitococcia) – bax:* brusellyoz

Melkerson-Rozental sindromu (E.G. Melkersson, 1898-1932, İsveç həkimi; G.Rosenthal, alm. nevropatoloqu) – dodaqların qranulomatoz iltihabı və ödemi, üz sinirinin parezi, dilin büküşlü olması

Mellori-Veys sindromu (G.K. Mallory, amer. patoloq; S.Weiss, 1898-1942, amer. həkim) – qida borusunun aşağı nahiyəsinin və mədənin selikli qişasının cırılması, qanaxma və divararalığına penitrasiya, mediastenit; əsasən spirtli içkilərdən sui-istifadə edən şəxslərdə müşahidə olunur

Melnikov əməliyyatı (A.B. Мельников, 1889-1958, sov. cərrahı) – bağırsağın dodağabənzər fistulunun iki oval dəri loskutu vasitəsi ilə ləğv edilməsi cərrahi əməliyyatı

Melnikov girişi (A.B. Мельников) – diafraqmaaltı abseslər zamanı, XII qabırğanın rezeksiyası və plevranın kənar edilməsindən sonra diafraqmada kəsiyin aparılması ilə abses boşluğuna müdaxilə

Melnikov sınağı (A.B. Мельников) – *bax:* sapın kəsmə simptomu

Melnikov üsulu (A.B. Мельников) – pnevmoektomiya zamanı bronx güdüllərinin biri digərinin içərisinə salınmaqla peribronxial toxumadan keçən tikişlərlə bərkidilməsi

Melnikov-Razvedenkov üsulu (Н.Ф.Мельников-Разведенков, 1866-1937, sov. patoloq-anatomu) – anatomik preparatların təbii rəngini saxlamaqla balzamlaşdırılması üsulu

Melofobiya *(melophobia)* – musiqidən qorxma

Meloplastika *(meloplastica)* – yanağın qüsurları zamanı bərpaedici plastik əməliyyat

Meloreostoz *(melorheostosis)* – uzunborulu sümüklərin deformasiyası, kəskin ifadə olunmuş skleroz və hiperostozla gedən anadangəlmə xəstəlik

Meloşizis *(meloschisis)* – ağız ölçülərinin iri olması nəticəsində yanağın hissələrə ayrılmasından ibarət inkişaf anomaliyası

Meltser simptomu (S.J. Meltzer, 1851-1920, amer. fizioloq)– qida borusunun aşağı nahiyəsinin keçməməzliyi zamanı ürəyin auskultasiyasında udma küylərinin olmaması

Meltser-Layon sınağı (S.J. Meltzer; B.B.V.Lyon, 1880-1953, amer. həkim) – öd kisəsinə Mg SO_4 yeritməklə kisə ödünün ifrazının stimulə edilməsi (müalicəvi və diaqnostik məqsədlə tətbiq olunur)

Membran sfiqmomanometri – arterial təzyiqi ölçmək üçün indikatoru mexaniki membran olan sfiqmomanometr

Menarxe *(menarche*; yun. *men* ay + *arche* başlanğıc*)* – ilk baş vermiş aybaşı

Mende sindromu (I.Mende, alm. həkimi) – qismən albinizmin monqoloid görünüşlə irsi ahəngi: dəri və saçların piqment anomaliyaları, anadangəlmə lal-karlıq, monqoloid sifət quruluşu, qısa boy, hipertelorizm, geniş burun kökü, qulaq seyvanlarının kəlləyə bitişməsi

Mendel simptomu (F.Mendel, 1862-1912, alm. həkimi) – xora xəstəliyi zamanı qarnın ön divarının perkusiyasının ağrılı olması

Mendelin meningeal simptomu (K. Mendel, 1874-1946, alm. həkimi) – xarici qulaq keçəcəyinin ön divarına təzyiq etdikdə ağrının və ağrı qrimasının olması; meningitin arxa kəllə çuxurunun lokalizasiyasında təsadüf olunan simptom

Mendelson sindromu – narkoz zamanı mədə möhtəviyyatının aspirasiyasından 2-5 saat sonra yaranan ağciyər ödemi və astmayabənzər vəziyyət

Menecer sindromu *(*ing. *manager)* – həddən artıq iş yükü olduqda böyük cavabdehliklə əlaqədar olaraq emosional gərginlik nəticəsində meydana çıxan nevrasteniya və vegetativ pozğunluqlar

Menetriye xəstəliyi (P. E. Menetrier, 1859-1935, frans. həkimi) – mədənin selikli qişasının kəskin hipertrofiyası, çoxsaylı adenoma və kistaların əmələ gəlməsi, mədə şirəsində zülalın miqdarının artması, hipoalbuminemiya və yerdəyişən ödemlərin olması ilə gedən xəstəlik

Mengel-Köniqsmark-Berlin-Mak Kyusik sindromu (M.Mengel, amer. genetik; B.W. Konigsmark, Ch.Berlin, amer. otorinolarinqoloqlar; V.A. McKusick, amer. genetik və kardioloq) – irsi anomaliyalar kompleksi: qulaq seyvanının ikitərəfli displaziyası, ikitərəfli ağıreşitmə və ya karlıq, göz yarıqlarının çəp yerləşməsi, yastıburunluq, cırtdanboyluluq, kriptorxizm və hipoqonadizm

Meningeal simptomlar – beyin qişasının qıcıqlanması nəticəsində meydana çıxan simptomların ümumi adı

Meningeal sindrom *(syndromum meningeale)* – davamlı diffuz baş ağrısı, ürək bulanma, qusma, dəri hiperesteziyası, işıq və səs qıcıqlandırıcılarına qarşı həssaslığın artması, ənsə əzələlərinin rigidliyi

Meningeal şırımlar – *bax:* kəllənin arterial şırımları

Meningioma *(meningioma)* – əsasən beynin qişasının hörümcəyəbənzər qat hüceyrələrindən, bəzi hallarda yumşaq beyin qişası və ya damar kələfindən inkişaf edən xoşxassəli şiş

Angiomatoz meningioma *(m. angiomatosum)* – kapilliyar toru yaxşı inkişaf etmiş meningioma

Fibroblastik meningioma *(m. fibroblasticum)* – fibroblasta bənzər hüceyrələr və birləşdirici toxuma hüceyrələrindən təşkil olunmuş meningioma

Fibroz meningioma *(m. fibrosum)* – *bax:* fibroblastik meningioma

Fibroplastik meningioma *(m. fibroplasticum)* – *bax:* fibroblastik meningioma

Meninqoteliomatoz meningioma (*m. meningotheliomatsum*) – *bax:* meninqotelial meningioma

Meninqotelial meningioma *(m. meningotheliale)* – tərkibində xırdadənəli xromatin olan mozaik-şəkilli hüceyrələrdən təşkil olunmuş meningioma

Psammomatoz meningioma *(m. psammomatosum)* – tərkibində psammom cisimcikləri olan meningioma

Meningit *(meningitis)* – beynin yumşaq qişasının iltihabı

Bakterial meningit *(m. bacterialis)* – bakteriyalar tərəfindən törədilən meningit

Bazal meningit *(m. basalis)* – prosesin əsasən baş beynin aşağı nahiyələrində lokallaşdığı meningit

Blastomikoz meningiti *(m. blastomycotica)* – kriptokkoz zamanı seroz meningitin inkişaf etməsi

Bruselyoz meningiti *(m. brucellosa)* – neyrobruselyoz zamanı brusellaların beyin qişasına keçməsi zamanı inkişaf edən seroz meningit

Hemorragik meningit *(m. haemorrhagica)* – beyinin yumşaq qişasına çoxsaylı qansızmalarla gedən meningit

Herpetik meningit *(m. herpetica)* – sadə və ya kəmərləyici herpes virusu tərəfindən törədilən, eyni zamanda beyin və onurğa beyninin ocaqlı zədələnməsi ilə gedən seroz meningit

İrinli meningit *(m. purulenta)* – beyin qişalarının irinli zədələnməsi, beyin-onurğa beyni mayesinin neytrofiliozu və zülalların artması ilə gedən meningit

Kandidamikoz meningiti *(m. cantidamycotica)* – generalizə olunmuş kandidamikoz zamanı yaranan irinli meningit

Qarın yatalağı meningiti *(m. abdanominotyphosa)* – qarın yatalağı zamanı törədicinin beyin qişasına keçməsi nəticəsində yaranan irinli meningit

Qummoz meningit *(m. qummoza)* – sifilisin III mərhələsində beyin qişalarının qummoz infiltrasiyası ilə gedən meningit

Menqo meningiti – Mengo virusları tərəfindən törədilən, qızdırma, meningit, ensefalit və ya meninqoensefalit əlamətləi ilə gedən infeksion xəstəlik

Metastatik meningit *(m. metastatica)* – digər orqan və toxumaların irinli prosesinin qan və limfa damarları ilə beyin qişalarına yayılması nəticəsində inkişaf edən irinli meningit

Seroz meningit *(m. serrosa)* – beyin-onurğa beyni mayesində limfositlərin artmasının üstünlüyü ilə gedən meningit

Seroz-kistoz meningit *(m. serrosa cystica)* – beyin qişasında sistlərin əmələ gəlməsi ilə gedən seroz meningit

Toksoplazma meningiti *(m. toxoplasmotica)* – anadangəlmə və ya qazanılmış toksoplazmozlu xəstələrdə, adətən ensefalitlə birgə təsadüf olunan meningit növü

Vərəm meningiti *(m. tuberculoza)* – vərəm mikobakteriyaları tərəfindən törədilən seroz meningit (beynin yumşaq qişasında, görmə siniri çarpazında və orta beyində miliar qabarların əmələ gəlməsi ilə gedir)

Viruslu meningit *(m. viralis)* – viruslar tərəfindən törədilən seroz meningit (məs., entera viruslar, epidemik parotit və herpes virusları tərəfindən törədilən)

Meningitofobiya (*meningitophobia*) – baş-beyin xəstəliklərindən qorxma

Meninqoblastoma *(meningoblastoma) – bax:* meningioma

Meninqoensefaloliz *(meningoensephalolysis)* – beyin qişaları və baş-beyin qabığı arasında olan çapıq bitişmələrinin cərrahi yolla ayrılması

Meninqokokk sepsesi – *bax:* ildırımsürətli meninqokokkemiya

Meninqokokkemiya *(meningicoccaemia*) – ağır və sürətli gedən hemorragik sindrom; ümumi intoksikasiya, qanaxma və qansızmalarla təzahür edən meninqokokk infeksiyası

Fulminativ meninqokokkemiya (*m. fulminans;* lat. *fulmen* ildırım) – *bax:* ildırımsürətli meninqokokkemiya

İldırımsürətli meninqokokkemiya *(m. fulminans)* – ağır infeksion-toksiki şokla gedən meninqokokkemiya,yüksək hərarət,hemoqqagik və meningeal sindromlarla ,hemorragik səpkilərlə müşaahidə olunan formasıdı

Meninqolizis (*meningolysis)* – beyin qişalarının ətraf toxumalarla və öz aralarında əmələ gətirdiyi çapıq bitişmələrinin kəsilməsi cərrahi əməliyyatı

Meninqomielit (*meningomyelitis*) – onurğa beyin qişaları və maddəsinin iltihabı

Meninqomielolis (*meningomyelolysis)* – cərrahi əməliyyat: beyin qişaları və onurğa beyni arasındakı çapıq bitişmələrin kəsilməsi

Meninqoosteoflebit – sümüküstlüyü venalarının iltihabı

Meninqoradikulit *(meningoradiculitis)* – onurğa beyni qişalarının onurğa beyni sinir kökləri ilə birgə iltihabı

Meninqosele *(meningocele)* – beyin qişalarının yırtığı

Meninqotelioma *(meningothelioma)* – *bax:* meningioma

Meninqoteliomatoz *(meningotheliomatosis)* – *bax:* araxnoidendoteliomatoz

Meniskektomiya (*meniscectomia*) – cərrahi əməliyyat: oynaq meniskinin xaric edilməsi

Meniskopatiya *(meniscopathia)* – oynaq menisklərində olan distrofik dəyişikliklərin ümumi adı

Menissit *(meniscitis)* – *bax:* meniskopatiya

Menkes sindromu (J.H.Menkes, 1928, amer. pediatr) – mis mübadiləsinin pozulması nəticəsində zəif piqmentləşmə, saçların burulması, fiziki və zehni inkişafdan qalma, qıcolmalar

Menqofobiya – *bax:* menofobiya

Menofobiya *(menophobia)* – menstruasiyadan qorxma

Menopauza *(menopause)* – aybaşı funksiyasının kəsilməsi, klimakterik periodun 2-çi fazası

Menouriya – sidik kisəsi-uşaqlıq yolu fistulundan menstrual qanın sidik axarı vasitəsi ilə xaric olunması

Mentallıq *(mentalis)* – *bax:* debillik

Mental aberrasiya – 19-cu əsrdə fransız psixiatriyasında bütün ruhi xəstəliklərin ümumi adı

Mentizm (*mentismus*; lat. *mens, mentis* fikir) – gərginlik və həyəcan fonunda fikirlərin axını

Mentol (*mentholum*) – sinir uclarına qıcıqlandırıcı təsir göstərən maddə

Menyer xəstəliyi (P.Meniere, 1799-1862, frans. həkimi) – endolimfanın miqdarının artması, Menyer sindromu və proqressivləşən karlıq ilə müşahidə olunan daxili qulağın irinsiz xəstəliyi

Menyer sindromu (P.Meniere) – daxili qulağın vestibulyar aparatının

zədələnməsi zamanı periodik olaraq baş gicəllənmə, ürək bulanma, qusma, qulaqlarda küy və vegetativ pozğunluqlarla gedən simptomokompleks

Menyerin allergik sindromu (P.Meniere) – allergik reaksiya zamanı Menyer sindromu şəklində davam edən vestibulopatiya

Menzi – *bax:* alastrim

Menzurka (lat. *mensura* ölçü) – maye ölçmək üçün dərəcələrə bölünmüş şüşə qab

Meprotan (*meprotanum*) – nevroz və nevrozabənzər hallarda tətbiq olunan, qorxu, həyəcan, affektiv gərginlik və yuxu pozğunluqlarını aradan götürən trankvilizator

Mererqaziya (yun. *meros* hissə + *ergasia* hərəkət) – davranışın qismən pozulması

Merfi artroplastikası (J. B. Murphy, 1857-1916, amer. cərrahı) – bud-çanaq oynağının artroplastikası üsulu; burma çuxurunun dibi budun enli fassiyası və ya dərialtı birləşdirici toxumanın loskutu ilə örtülür

Merfi üsulu (J. B. Murphy) – vərəmin müalicəsi məqsədilə rentgenoloji nəzarət altında süni pnevmotoraksın yaradılması

Merfi-Lekser müdaxiləsi (J. B. Murphy; E.Lexer,1867-1938, alm. cərrahı) - dirsək oynağında cərrahi müdaxilə zamanı dərinin qövsvari kəsilməsi və dirsək çıxıntısının osteotomiyası

Merfinin damar tikişi (J. B. Murphy) – damarları «uc-uca» birləşdirən zaman üç ilgəyəbənzər və ayrı-ayrı tikişlərin qoyulması

Meridil *(meridilum)* – fenilalkilamin törəməsi olan mərkəzi sinir sisteminə stimuləedici təsir göstərən dərman vasitəsi

Merintofobiya (*merinthophobia*) – əlləri, ayaqları bağlı olmaqdan qorxma

Meristoma *(meristoma) – bax:* sitoblastoma

Merkaptopurin *(mercaptopurinum)* – purin törəməsi olan antimetobolit təsirli preparat

Merkurializm *(mercurialismus)* – civə və onun birləşməsi ilə xroniki zəhərlənmə

Merkuzal (*mercusalum*) – civə tərkibli diuretik maddə

Merman əməliyyatı (A.Mermann, alm. mama-ginekoloqu) – uşaqlıq borularının rezeksiyası əməliyyatı

Mersye əməliyyatı (L.A.Mercier, 1811-1882, fran. uroloqu) – prostat vəzinin adenoması zamanı sidikçıxarıcı axar vasitəsi ilə, xüsusi alətlə prostat vəzi toxumasının kəsilməsi və kanalın keçiriciliyinin bərpa edilməsi

Merzeburq triadası *(*Bazedov tiadası*)* – ur (vəzinin böyüməsi), ekzoftalm (gözlərin bərəlməsi) və taxikardiyanın (ürək təqəllüslərinin tezləşməsi) birgə təzahürü: diffuz toksik ur zamanı müşahidə olunur

Meskalin – stimuləedici təsirə malik narkotik maddə

Metaallergiya (*metallergia*) – orqanizmin qeyri-spesifik qıcıqların təsirinə cavab olaraq reaksiyaya hazır olması

Metabolizm *(*yun. *metabole* **dəyişiklik, dəyişmə***) – bax:* maddələr mübadiləsi

Metaepifizeoliz *(metaepiphyseolysis)* – epifizin köndələn istiqamətdə yerdəyişməsi ilə gedən sınığı

Metafizar fibroz qüsur – *bax:* sümüyün qeyri-osteogen fibroması

Metafizik intoksikasiya – *bax:* fəlsəfi intoksikasiya

Metafizit *(metaphysitis)* – uzunborulu sümüklərin metafiz nahiyəsində iltihabı

Metallergiya (*metallergia*) – orqanizmin allergik reaksiya bitdikdən sonra qeyri-spesifik qıcıqlandırıcıya eyni klinik təzahürlərlə cavab vermək qabiliyyəti

Metaxromatik dənəcik – *bax:* Babeş-Ernst dənəciyi

Metakvalon (*methaqualonum*) – sakitləşdirici və yuxugətirici dərman vasitəsi

Metallik perkutor səs – yüksək obertonlu qısa, aydın perkutor səs (nazik boşluqlu orqanın üzərində meydana çıxan rezonansla əlaqədardır)

Metallofobiya *(metallophobia)* – metallar və metal əşyalardan qorxma

Metalloosteosintez – sümük framentlərinin metal əlavələrlə birləşdirilməsi

Metalloterapiya – metallardan müalicə məqsədilə istifadə olunması

Metamorfopsiya (*metamorphopsia*; *meta-* + yun. *morphe* görünüş, forma + *opsis* görmə qabiliyyəti) – *bax:* dismorfopsiya

Metanefrin – böyrəküstü vəz hormonlarının aralıq məhsulu

Metanefros (*metanephros*; *meta-* + yun. *nephros* böyrək) – ikincili və ya çanaq böyrək, embrional olaraq gövdə böyrəkdən sonra (mezanefroz) əsası qoyulur və ali onurğalılarda, həmçinin insanda difinitiv (axırıncı) ifrazat sistemi adlanır; gövdənin arxa seqmentlərin və ikincili sidik axarının epitelial başlanğıcının seqmentləşməmiş nefrotom kütləsindən inkişaf edir və yetkin orqanizmdə böyrək şəklində qalır.

Metaplaziya *(metaplasia)* – bir toxuma növünün digərinə çevrilməsi

Metasiklin hidroxlorid *(methacyclinum hydrochloridum)* – tetrasiklin qrupundan olan genişspektrli antibiotik

Metasimulyasiya *(metasimulatio)* **-** ruhi xəstələrdə həqiqi əlamətlərin keçib getməsinə baxmayaraq, xəstəliyin uzanmasını göstərməyə çalışaraq xəstəlik əlamətlərini təkrarən nümayiş etirməyə meyllilik

Metasin (*methacinum*) – antixolinergik təsir göstərən maddə

Metastabil – sabit olmayan, dəyişkən

Metastatik endoftalmit *(endophthalmitis metastatica)* – irin törədicisinin gözə başqa bir iltihab ocağından hematogen yolla gətirilməsi ilə yaranan endoftalmit

Metastatik oftalmiya (*ophthalmitis metastatica*) – hər hansı bir infeksiya ocağından törədicinin hematogen yolla göz almasına gəlməsi nəticəsində inkişaf edən oftalmiya

Metastaz *(metastasis)* – patoloji materialın orqanizmin digər nahiyəsindən gətirilməsi nəticəsində əmələ gələn şiş və ya iltihab ocağı

Hematogen metastaz *(m. haematogena)* – patoloji materialın qan cərəyanı vasitəsi ilə gətirilməsindən yaranmış metastaz

İrinli metastaz – *bax:* metastatik abses

Limfogen metastaz *(m. lyimphogena)* – patoloji materialın limfa cərəyanı vasitəsi ilə gətirilməsindən yaranmış metastaz

Ortoqrad metastaz (*m. orthograda)* – ilkin ocaqdan qan və limfa cərə-

yanının təbii istiqaməti ilə yayılmış metastaz

Osteoklastik metastaz *(m. osteoclastica) – bax:* osteolitik metastaz

Osteolitik metastaz *(m. osteolytica)* – sümük toxumasının strukturun pozan və dağıdan bəd xassəli şişin sümüyə metastazı

Osteoplastik metastaz (*m. osteoplastica*) – sümük toxumasına ətraf toxumalardan inkişaf edən metastatik bədxassəli şiş

Regionar metastaz *(m. regionalis)* – birincili ocağa yaxın yerləşən regionar limfa düyünlərinə limfogen yolla yayılan metastaz

Retroqrad metastaz *(m. retrograda)* – damarın tutulması və ya kənardan sıxılması nəticəsində qan və limfa cərəyanının əksinə yayılan metastaz

Sklerotik metastaz *(m. sclerotica) – bax:* osteoplastik metastaz

Sümük metastazı *(m. ossea) – bax:* osteoplastik metastaz

Toz metastazı *(m. pulverea)* – pnevmokonioz zamanı regionar və uzaq limfa düyünlərində toz hissəciklərinin toplanması

Metastazlaşan zob (*struma metastatica*) – *bax:* metastazlaşan adenoma

Meteoanamnez – hava şəraitinin və dəyişmələrinin orqanizmə təsiri barədə anamnestik məlumat

Meteopatiya *(meteopathia)* – adi klimat şəraitində havanın dəyişməsi ilə əlaqədar olaraq orqanizmin ümumi halının dəyişilməsi

Meteorizm *(meteorismus)* – bağırsaqlarda patoloji qazın əmələ gəlməsi

Alimentar meteorizm *(m. alimentarius)* – bağırsaqlarda qaz əmələ gəlməsini artıran qida maddələrindən artıq miqdarda istifadə edilməsi nəticəsində yaranan meteorizm

Dinamik meteorizm *(m. dynamicus)* – bağırsağın hərəki qabiliyyətinin zəifləməsi nəticəsində yaranan meteorizm

Hündürlük meteorizmi – atmosfer təzyiqinin kəskin aşağı düşməsi nəticəsində yaranan meteorizm

Mexaniki meteorizm *(m. mechanicus)* – bağırsaq keçiriciliyinin pozulması nəticəsində yaranan meteorizm

Meyit meteorizmi – bağırsaq möhtəviyyatının çürüməsi və bağırsaq divarı tonusunun itməsi nəticəsində meyitin qarnının köpməsi

Psixogen meteorizm (*m. psychogenus)* – isteriya zamanı meydana çıxan dinamik meteorizm

Reflektor meteorizm (*m. reflectorius)* – hər hansı bir patoloji prosesin reflektor təsiri nəticəsində meydana çıxan dinamik meteorizm

Meteotrop xəstəlik – hava şəraiti ilə əlaqədar olan xəstəlik

Meterazin (*metherazinum***)** – fenotiazin törəməsi olan neyroleptik dərman vasitəsi

Methemoqlobinuriya *(methaemoglobinuria)* – sidikdə methemoqlobinin olması (məs., anilin, nitrobenzolla zəhərlənmələr zamanı təsadüf olunur)

Metildofa (*methyldopa*) – periferik damar müqavimətini azaltmaqla təsir göstərən antihipertenziv maddə

Metilen göyü *(methylenum coeruleum)* – boyayıcı antiseptik maddə

Metilen göyü testi – vena daxilinə vurulmuş metilen göyünün sidik axarı dəliyindən xaric olmasına əsasən, böyrəyin funksional vəziyyətinin müəyyən edilməsi

Metilerqometrin (*methylergometrinum*) – uşaqlıq əzələsini stimulə edən maddə

Metilkarnozin – *bax:* anserin

Metilmalon asiduriyası – metilmalonil-KoA-izomeraza 2 fermentinin çatışmazlığı, psixi və fiziki inkişafın ləngiməsi, daimi olmayan hiperqlikemiya, sidikdə metilmalon turşusunun və ketonların olması ilə təzahür edən irsi xəstəlik

Metilmetioninsulfonium xlorid *(methylmethioninsulfonii chloridum)* – U vitamini

Metilofobiya (*methyphoba*) – alkoqoldan qorxma

Metilsalisilat (*methylii salicylas*) – qeyri-steroid iltihab əlehinə preparat

Metilurasil *(methyluracilum)* – pirimidin törəməsi olub, metabolik proseslərə stimuləedici təsir göstərir

Metionin *(methioninum)* – boyun inkişafı və azot mübadiləsində iştirak edən əvəz olunmayan aminturşusu

Metoklopramid (*metoclopramidum*) – *Serukal, Reqlan* adı ilə daha çox tanınan qusma əleyhinə preparat

Meteolabillik *(sin. meteorolabillik)*–– hava şəraitinin və iqlimin dəyişməsinə qarşı həssaslığın yüksək olması

Metomorfopsiya – damarlı qişanın zədələnməsi zamanı baxılan əşyaların və hərflərin təhrif olunması

Metopion (yun. *metopion* alın) – antropometrik nöqtə: orta xəttin alın qabarlarının çıxıntılı nöqtələrini birləşdirən xətlə kəsişdiyi nöqtə

Metorin (*methorinum*) – neyroleptik dərman vasitəsi

Metotreksat *(methotrexatum)* – əsasən kəskin leykozların, ağciyər, süd vəzi, uşaqlıq xərçənginin müalicəsində tətbiq olunan antimetabolit təsirli preparat

Metras üsulu (H.Metras, 1918-1958, frans. cərrah) – pnevmo və lobektomiya zamanı bronx güdülünün birsıralı tikişlərlə bağlanması (bu zaman selikli qişa tikişə götürülmür və sonuncu düyün bronxun mənfəzinə daxil edilir)

Metr- (metro-; yun. *metra* uşaqlıq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "uşaqlığa aid" mənasını verir

Metreyrinter (*metr-* + *euryno* genişləndirmək) – uşaqlıq yolunu açmaq üçün rezin balon

Metrit *(metritis)* – uşaqlığın iltihabı

Metrodinamometr – uşaqlıq yığılmasını ölçmək üçün cihaz

Metroendometrit *(metroendometritis)* – uşaqlığın əzələ və selikli qişasının iltihabı

Metrofobiya (*metrophobia*) – poeziyadan qorxma

Metroqrafiya – uşaqlıq boynu vasitəsilə uşaqlığın kontrast maddə ilə doldurulduqdan sonra rentgenoqrafiyası

Metromalyasiya (*metromalacia*) – uşaqlıq toxumalarının yumşalması

Metronidazol *(metronidazolum)* – ibtidailərə qarşı geni spektorlu antibakterial maddə

Metronom *(metronomos)* – müalicəvi bədən tərbiyəsi, mexanoterapiya və eksperimental müayinələr zamanı qısa ritmik səs siqnalları ötürülməsi üçün aparat

Metropeksiya – uşaqlığın fiksə edilməsi

Metroplastika – uşaqlıqda plastik əməliyyat

Metroptoz *(metroptosis,sin. qisteroptoz)* – uşaqlığın sallanması

Metrosele (yun. *meter* uşaqlıq, *kele* yırtıq) – uşaqlıq yırtığı

Meybomit *(meibomitis)* – göz qapağı vəzi qığırdağının kəskin irinli iltihabı

Meydança simptomu – süd vəzi xərçəngi zamanı süd vəzi dərisində elastikliyini itirmiş sahənin olması

Meyer-Bets xəstəliyi (F.Meyer-Betz, alm. həkimi) – bax: paralitik mioqlobinuriya

Meyerqofer ləkəsi (E.Meyerchofer) – ekssudativ kataral diatez zamanı uşaqların baldırının ön nahiyəsində dairəvi sarı ləkələr

Meyer-Overtonun narkoz nəzəriyyəsi (H.H.Meyer, 1853-1939, avstr. farmakoloq; Ch.E.Overton, 1865-1933, ing. farmakoloqu) – narkotik vasitələrin hüceyrədaxili lipidlərlə qarşılıqlı əlaqə nəticəsində təsir göstərməsi haqqında nəzəriyyə

Meyer-Şlüterin elektrozondu (A.W. Meyer,1885, alm. cərrahı; Schluter) – cərrahi əməliyyat zamanı beyindaxili şişlərin lokalizasiyasını dəqiqləşdirmək üçün istifadə olunan serebral reometriya cihazı

Meyer-Şvikkerat sindromu (G. Meyer-Schwickerath, 1920, alm. oftalmoloqu) – mikrooftalmiya, qlaukoma, diş minasının hipoplaziyası və qəhvəyi rəngli olması, qısa əl və ayaq barmaqları ilə təzahür edən ektomezodermal displaziya

Meyqeferin yumru qaşığı – göz qapağı və gözdə patoloji proseslər zamanı qaşımaq üçün istifadə olunan alət

Meyqs sindromu (J. V. Meigs, 1892-1963, amer. cərrah) – yumurtalıqların və uşaqlığın xoşxassəli şişləri zamanı assit, hidrotoraks və ümumi zəifləmə əlamətlərinin birgə təzahür etməsi

Meyit qanının fibrinogenolizi – *bax:* meyit qanının fibrinolizi

Meyit melanozu (*melanosis cadaverina*) – *bax:* psevdomelanoz II

Meyitin balzamlaşdırılması – meyitin çürümədən qorunması məqsədilə antiseptik tərkibli maddələrlə işlənməsi

Meyj xəstəliyi (H.Meige, 1866-1940, fransız anatomu) – bax: Nonne-Milroy-Meyj sindromu

Meyj trofedemi – əsasən üz nahiyəsində rast gəlinən angiotrofonevroz

Meyqs sindromu (J.V.Meigs, 1892-1963, amer. cərrahı) – yumurtalığın şişləri zamanı assit və hidrotoraksın əmələ gəlməsi

Meyqs-Koss sindromu (J.V.Meigs) – bax: Meyqs sindromu

Meylenqraxt pəhrizi (E.Meulengracht, 1887, daniya həkimi) – mədə və onikibarmaq bağırsağın qanayan xoraları zamanı tətbiq olunan zülal tərkibli pəhriz (mexaniki və termiki cəhətdən qoruyucu xüsusiyyətlər saxlanılmaqla)

Meylenqraxt sarılığı – *bax:* Jilber-Meylenqraxt sindromu

Meymun əli – *bax:* Aran-Düşennin atrofik biləyi

Meynert amensiyası (Th.Meynert, 1833-1892, avstriya nevropatoloq-psixiatr) – təfəkkür və nitqin əlaqəsizliyi ilə gedən kəskin psixoz (tutmaşəkilli şizofreniyanın təzahür forması)

Meynike reaksiyası (E.Meinicke, 1878-1945, alm. alimi) – sifilisin serodiaqnostikasında istifadə olunan lipid emulsiyalarının presipitasiyasına əsaslanan diaqnostik reaksiya

Meyo əməliyyatı (W.J. Mayo,1861-1939, amer. cərrah) – göbək yırtığı

zamanı yırtıq qapısının plastikası məqsədilə apanevrozların tikilməsinin duplikatura əmələ gətirməsinə əsaslanan plastik əməliyyat

Meyo simptomu (Ch.H.Mayo, 1865-1939, amer. cərrah) – narkozun III mərhələsində nəfəsalma zamanı çənəaltının enməsi və qırtlağın aşağıya doğru yerini dəyişməsi

Meyo-Robson əməliyyatı (A.W.Mayo-Robson, 1853-1933, ing. cərrahı) – nazik bağırsaq fistulunun yaradılması cərrahi əməliyyatı

Meyo-Robson simptomu (A.W.Mayo-Robson) – sol qabırğa-fəqərə sütunu bucağı nahiyəsinin palpasiyasının ağrılı olması (pankreatitin əlaməti)

Meyo-Simpson-Kollen yarageniş-ləndiricisi (W.J. Mayo,1861-1939, amer. cərrah; J.Y.Simpson, 1811-1870, şotl. ginekoloq; A.Collin, 1831-1923, frans. usta) – cərrahi əməliyyatlar zamanı yara kənarlarını genişləndirmək üçün istifadə olunan üç güzgüdən ibarət yaragenəldici alət

Meyosit *(meiocytus) – bax:* auksosit

Meyssner kələfi (*plexus Meissneri*; G. Meissner, 1829-1905, alm. anatom və fizioloqu) – yoğun bağırsağın selikli qişaaltı sinir kələfi

Mezadenit (*mesadenitis*; anat. *mesenterium* müsariqə + yun. *aden* vəzi) – bağırsaq müsariqəsinin limfa vəzilərinin iltihabı

Xroniki mezadenit *(m. chronica)* – əsasən vərəm etiologiyalı olan, uzun müddət davam edən, qarında qeyri-müəyyən lokalizasiyalı ağrı tutmaları, müsbət Şternberq simptomu, bəzi hallarda qəbizlik və ya ishal ilə təzahür edən mezadenit

Kəskin mezadenit *(m. acuta)* – əksər hallarda qeyri-spesifik olan, surətlə inkişaf edən, qarının yuxarı kvadrantında və ya göbək ətrafında tutmaşəkilli ağrılar, bədən temperaturunun yüksəlməsi ilə təzahür edən mezadenit

Residiv verən mezadenit *(m. recidiva) – bax:* xroniki mezadenit

Mezangiosit *(mesangyocytus)* – mezangiumun tərkibinə daxil olan fagositar qabiliyyətli hüceyrələr

Mezangium *(mesangium)* – böyrəyin yumaqcıq aparatının damarları arasında yerləşən birləşdirici toxuma strukturu

Mezaortit *(mesaortitis)* – aortanın orta qişasının iltihabı

Sifilitik mezaortit *(mesaortitis syphilitica)* – sifilisin III mərhələsində əsasən qalxan aortanın elastik-kollagen təbəqəsinin dağılması, ocaqlı nekrozu, duzların toplanması və infiltratların əmələ gəlməsi

Mezapam (*mezapamum***)** – benzodiazepin törəməsi olan trakvilizator

Mezarteriit *(mesarteriitis)* – arteriyanın orta qatının iltihabı

Giqanthüceyrəli qranulematoz mezarteriit *(mesaortitis granulomatosa gigantocellularis) – bax:* giqanthüceyrəli arteriit

Mezaton (*mesatonum*) – adrenomimetik təsir göstərən maddə

Mezenximoplastika *(mesenchymoplastica)* – patoloji proseslər zamanı epitel toxumasından mezenximanın əmələ gəlməsi (bəzi alimlər bu nəzəriyyəni qəbul etmirlər)

Mezensefal sindrom *(syndromum mesencephalicum)* – nevroloji və psixopatoloji simptomların birgə təzahürü

Mezensefalotomiya *(mesencephalotomia)* – kəskin ifadə olunmuş ağrı zamanı hissi aparıcı yolların orta beyin səviyyəsində kəsilməsi cərrahi əməliyyatı

Mezenterikoqrafiya *(mesentericusoqraphia)* – müsariqə damarlarının kontrastlaşdırıldıqdan sonra rentgen müayinəsi

Aşağı mezenterikoqrafiya – kontrast maddənin kateter vasitəsi ilə aşağı müsariqə arteriyasına yeridilməsindən sonra icra olunan mezenterikoqrafiya

Yuxarı mezenterikoqrafiya – kontrast maddənin kateter vasitəsi ilə yuxarı müsariqə arteriyasına yeridilməsindən sonra icra olunan mezenterikoqrafiya

Mezenteriolit *(mesenteriolitis)* – soxulcanabənzər çıxıntı müsariqəsinin iltihabı

Mezenterit *(mesenteritis)* – müsariqənin iltihabı

Mezim-forte *(mezym-forte)* – tərkibində pankreatin, amilaza, lipaza və proteaza olan kompleks preparat

Mezobilin – *bax:* urobilin

Mezobilinogen – *bax:* urobilinogen

Mezoblast *(mesoblastus)* – *bax:* mezoderma

Mezobronxit *(mesobronchitis)* – bronx divarının əzələ və selikaltı qatının iltihabı

Mezoderma *(mesoderma)* – orta embrional qişa (ekto və endodermanın ortasında yerləşən qat)

Mezo-epitimpanit – xronik, irinli orta otitin bir növü

Mezofarinks *(mesopharynx)* – udlağın ağız hissəsi

Mezofarinqokonstriksiya *(mesopharyngoconstrictio)* – damağın anadangəlmə defekti zamanı icra olunan plastik əməliyyat

Mezofarinqoskopiya *(mesopharyngoscopia)* – ağız-udlağın (damaq qövsü, badamcıqlar və udlağın arxa divarının) alına taxılmış güzgü ilə işıqlandırma və şpatelin köməyi ilə müayinə edilməsi

Mezofillər – *bax:* mezofil bakteriyalar

Mezoflebit – venanın orta qişasının iltihabı

Mezofobiya – çirklənməkdən patoloji qorxu nəticəsində ətraf əşyalarla təmasdan qaçmaq

Mezoielit *(mesoielitis)* – çənbər bağırsağın müsariqəsinin iltihabı,enterit və kolit formasında üzə çıxır

Mezokardia *(mesocardia)* – ürəyin boylama oxunun bədənin orta oxu ilə üst-üstə düşməsi

Mezokefaliya *(mezokephalia)* – *bax:* mezosefaliya

Mezokraniya *(mesocrania)* – kəllə sümüyünün quruluş forması, braxi və dolixo krania arasında orta vəziyyət (kəllə indeksi 75-79,9)

Mezoqastral nahiyə – qarnın orta nahiyəsi

Mezoqastralgiya *(mesogastralgia)* – mezoqastral nahiyədə ağrının olması

Mezoqastrium – *bax:* mezoqastral nahiyə

Mezoqlioblastoma – *bax:* mezoqlioma

Mezonefroma *(mesonephroma)* – mezonefrozun qalıqlarından inkişaf edən yumurtalığın bədxassəli şişi

Mezonefros *(mesonephros)* – döldə müvəqqəti ifrazat orqanı (sonradan geriyə inkişaf edir)

Mezonnev əməliyyatı (J.G.F.Maisonneuve, 1809-1897, frans. cərrahı) – bağırsaq fistulunun bağlanmasının birinci mərhələsi; gətirici və aparıcı

bağırsaq ilgəkləri arasında «yan-yana» anastomozun qoyulması

Mezoperiarteriit *(mesoperiarteriitis)* – arteriyanın xarici və orta təbəqəsinin ətraf toxumalara keçən iltihabı

Mezosefaliya *(mesocphalia)* – insan kəlləsinin braxi və dolixosefaliya arasında orta quruluşu (kişilərdə baş indeksi 76,0-80,9, qadınlarda 77,0-81,9)

Mezosiqmoidit *(mesosigmoiditis)* – kolit simptomları ilə təzahür edən S-ə bənzər bağırsaq müsariqəsinin iltihabı

Büzüşmüş mezosiqmoidit *(m. corrugans)* – bağırsaq keçməməzliyi simptomları ilə təzahür edən S-ə bənzər bağırsaq müsariqəsinin iltihabı və müsariqənin deformasiyası

Mezoskleroz – mikrosklerozun və mezoterapiyanın kombinə olunmuş forması

Mezoteli *(mesothelium)* – peritonu, plevranı, perikardı və digər orqanların seroz qişalarını örtən yastı hüceyrə qatı

Mezotelioma *(mesothelioma)* – morfoloji substratı mezoteli hüceyrələri olan şiş

Bədxassəli mezotelioma (mesothelioma malignum) – infiltrativ inkişaf xüsusiyyətli, tez metastaz verməyə meylli bədxassəli mezotelioma

Fibroz mezotelioma (mesothelioma fibrosum) – *bax:* xoşxassəli mezotelioma

Xaya mezotelioması (mesothelioma testis) – xayanın, xaya artımlarının və toxum kanalının seroz qişasından inkişaf edən, vəziyəbənzər boşluq əmələ gətirməklə gedən xoşxassəli mezotelioma

Xoşxassəli mezotelioma (mesothelioma benigmum) – ayaqcıq üzərində yerləşən düyün və ya genişəsaslı xoşxassəli mezotelioma

Oynaq mezotelioma (mesothelioma articulations) – oynağın sinovial qişasından inkişaf edən mezotelioma

Peritonun mezotelioması – periton hüceyrələrindən inkişaf edən nadir bədxassəli şiş

Sinovial mezotelioma – vətər yatağının və ya sinovial kisənin selikli qişasından inkişaf edən şiş

Mezotimpanit *(mesotympanitis)* – təbil boşluğunun mərkəzi hissəsinin selikli qişasının xroniki irinli iltihabı

Mezotimpanon *(mesotympanon)* – *bax:* mezotimpanum

Mezotimpanum *(mesotympanum)* – təbil boşluğunun mərkəzi hissəsi

Mezrinin pnevmotik tamponu *(*М.П. Мезрин, sov. otorinolarinqoloqu*)* – balon və kateter ilə təchiz olunmuş burun qanaxmasını dayandırmaq üçün uyğunlaşdırılmış vasitə (burun boşluğuna daxil edildikdən sonra balonlar kateter vasitəsi ilə doldurulur)

Məcburi ağlama – şəraitə və emosiyalara uyğun olmayan qeyri-iradi ağlama; psevdobulbar ifliclər zamanı təsadüf olunur

Məcburi gülüş – şəraitə və emosiyalara uyğun olmayan qeyri-iradi gülüş; psevdobulbar ifliclər zamanı təsadüf olunur

Mədə *(ventriculus, gaster)* – həzm traktının qida borusu və onikibarmaq bağırsağın arasında yerləşən boşluqlu orqanı; həzm kanalının ən geniş hissəsini təşkil edir

Mədə cığırı – *bax:* mədə kanalı

Mədə çıxacağının çatışmazlığı (*insufficientia pylori*) – pilorik hissənin qapayıcı əzələlərinin yığılmasının və mədənin motor funksiyasının pozulması nəticəsində mədə möhtəviyyatının onikibarmaq bağırsağa keçməsinin tezləşməsi və duodenal möhtəviyyatın mədəyə reflyuksu

Mədə kanalı *(canalis ventriculi)* – mədənin kiçik əyriliyi boyunca yerləşən və mədə əzələlərinin yığılması zamanı bağlanan dənlik

Mədə kisəsi – rentgenoloji müayinə zamanı müayinə olunan şəxsin vertikal vəziyyətində mədənin yuxarı hissəsinə qazın toplanması (mədə kisəsinin forma və ölçüsünün diaqnostik əhəmiyyəti var)

Mədə osteopatiyası (*osteopathia gastrica*) – *bax:* mədə osteodistrofiyası

Mədə selikli qişasının giqant hipertrofiyası – *bax:* Menetrie xəstəliyi

Mədə şirəsi *(succus gastricus)* – mədə vəziləri və mədənin selikli qişasının epitel hüceyrələri tərəfindən hasil olunan maye (tərkibində fermentlər (pepsin, jelatinaza, ximozin) HCl turşusu, qastrmukoproteinlər, selik, mineral maddələr və su olur)

Mədəaltı vəz axarı *(ductus pancreaticus)* – mədəaltı vəzin ümumi öd axarı ilə bir dəliklə onikibarmaq bağırsağın enən hissəsində böyük məməciyə açılan axarı

Mədəaltı vəz şirəsi – *bax:* pankreas şirəsi

Mədə-bağırsaq anastomuzu *(anastomosis gastrointestinalis)* – qastroenterostomiya və ya mədə rezeksiyasından sonra mədə və nazik bağırsaq arasında qoyulan anastomoz

Mədə-bağırsaq traktı *(tractus gastrointestinalis)* – *bax:* həzm traktı

Mədəciklərarası çəpərin əzələ tipli qüsuru – arakəsmənin əzələ qismində yerləşən, əksər hallarda öz-özünə qapanan qüsur

Mədəciklərarası çəpərin membranoz tip qüsuru – mədəciklərarası çəpərin üst qismində, aortal qapağın və üçtaylı qapağın septal tayının altında yerləşən qüsur

Mədəciklərarası çəpərin suprakristal qüsuru – sağ mədəcik boşluğunun çıxışında, mədəciklərarası darağın üst qismində yerləşən qüsur

Mədəciklərin fibrilyasiyası (*fibrillatio ventriculorum*) – ürək əzələsinin yığılma qabiliyyətinin ürək əzələ liflərinin koordinasiyasız, asinxron, xaotik işi nəticəsində pozulması

Mədəciklərin EKQ aberrant kompleksi – oyanıcıqlığın sinus-qulaqcıq düyünündən qeyri-adi yolla yayılması nəticəsində meydana çıxan deformasiyaolunmuş mədəcik kompleksi

Mədən xəstəliyi – *bax:* ankilostom anemiyası

Mədənin axiliyası *(achylia gastrica)* – mədənin selikli qişasının HCl və fermentlər ifraz etmə qabiliyyətinin olmaması ilə xarakterizə olunan patoloji hal

Mədənin ekstirpasiyası (*exstirpatio ventriculi*) – *bax:* qastrektomiya

Mədənin funksional axiliyası *(achylia gastrica functionalis)* – üzvi dəyişiklik olmadan mədə sekresiyasının reflektor ləngiməsi ilə əlaqədar axiliya

Mədənin hipotermiyası üçün aparat – qanaxmanı dayandırmaq və kəskin pankreatitin müalicəsi üçün mədənin selikli qişası vasitəsilə mədəni soyudan aparat

Mədənin histaminəhəssas axiliyası – histaminin stimuləedici təsirindən sonra saxlanılan axiliya

Mədənin idiopatik axiliyası *(achylia gastrica idiopathica)* – mədənin vəz aparatının anadangəlmə zəifliyi ilə əlaqədar axiliya

Mədənin kəskin atoniyası – mədəni innervasiya edən sinirlərin zədələnməsi və ya reflektor olaraq mədə divarı əzələrinin qəfləti iflici nəticəsində mədə divarının qəfləti genəlməsi

Mədənin pnevmoptozu – mədənin daxilində havanın həddən artıq olması

Mədənin üzvi axiliyası *(achylia gastrica organica)* – mədənin vəz aparatının atrofiyası ilə əlaqədar axiliya (atrofik qastrit, intoksikasiya, şiş xəstəlikləri zamanı)

Mədə-ürək sindromu – *bax:* qastrokardial sindrom

Məftil simptomu – 1) terminal ileit zamanı çənbər bağırsağın rentgen kölgəsinin kəskin daralması; 2) yoğun bağırsağın vərəmlə zədələnməsi zamanı rentgen şəklinin kəskin daralması

Məhdud bitişən meninqopatiya – *bax:* bitişən araxnoidit

Məhdud simmetrik allotrixiya *(allotrichia circumscripta symmetrica)* – başın tüklü hissəsində simmetrik olaraq sərt, nazikləşmiş, spiral şəklində burulmuş tüklərin olmasından ibarət inkişaf anomaliyası

Məhkəmə təbabəti – tibbin hüquq praktikasında meydana çıxan tibbi-bioloji məsələlərin həllini öyrənən sahəsi

Məhkəməbazlıq sindromu – *bax:* kverulyantlıq

Məhkəmə-ekspertiza aktı – məhkəmə – tibbi ekspertizası zamanı tərtib olunan, ekspertin fəaliyyətini və rəyini əks etdirən sənəd

Məhkəmə-kimyəvi analiz – məhkəmə-tibbi ekspertizası zamanı daxili orqanlarda, toxumalarda, bioloji mayelərdə və əşyalarda kimyəvi maddələrin kəmiyyət və keyfiyyətlərinin təyini

Məhkəmə-psixiatrik ekspertiza – ekspert-psixiatrın məhkəmə istintaq orqanları tərəfindən təyin olunmuş məhkəmə prosesi obyektinin (cavabdeh, şahid, zərər çəkmiş şəxs) və azadlıqdan məhkum olunma müəssisəsində olan şəxsin psixi durumuna şübhə olduqda apardığı ekspertiza

Məhkəmə-tibbi ekspertiza – məhkəmə-istintaq orqanları tərəfindən təyin olunmuş xüsusi tibbi müayinə

Məhkəmə-tibbi ekspertiza aktı – məhkəmə-tibbi ekspertizası zamanı ekspert tərəfindən tərtib olunmuş akt və ekspertin rəyi

Məxmərək (*rubeola*) – *Togaviridae* tərəfindən törədilən kəskin infeksion xəstəlik; səpgilər, qızdırma və limfa düyünlərinin böyüməsi (limfadenopatiya) ilə təzahür edir; əsasən uşaqlıq yaşında keçirilir və ən ağır 3 gün davam edir; xəstəliyin əvvəlində hərarətin yüksəlməsi, ümumi zəiflik, bəzən burun tənəffüsünün çətinləşməsi, zökəm, öskürək, ənsə və arxa boyun limfa vəzilərinin böyüməsi müşahidə olunur, iştahasızlıq, qızdırma, baş ağrısı baş verir; hava-damcı yolu ilə ötürülür

Məqsədli tibbi baxış – hər hansı bir konkret xəstəliyin (vərəm, bədxassəli şiş, zöhrəvi xəstəliklər, qlauko-

ma və s.) erkən formalarını aşkar etmək məqsədilə aparılan əhalinin kütləvi tibbi baxışı

Məlhəm *(unguentum)* – xarici istifadə üçün nəzərdə tutulan özülü konsistensiyalı yumşaq dərman forması

Avtol məlhəmi – yanıq, xora və yaraların müalicəsində istifadə olunan, tərkibi avtol, stealin və sink oksidindən ibarət məlhəm

Ekstraksion məlhəm – bitki və ya heyvan mənşəli maddələrdən ayrılmış quru dərman kütləsinin məlhəm əsasında və ya bitki yağında həll edilməsindən alınan məlhəm

Emulsion məlhəm (*u.-emulsum)* – məlhəm əsasında onda həll olmayan dərman məhlulunun həll olunmasından yaranmış məlhəm

Heparin məlhəmi *(u. heparini)* – yerli təsir göstərən antitrombotik preparat

Homogen məlhəm – həlledici ilə həll olan maddənin fazalararası səthlərində fərqin olmaması ilə xarakterizə olunan məlhəm

Kombinə olunmuş məlhəm – eyni zamanda məlhəm əsasında həll olan və həll olmayan (tozşəkilli) maddələrdən ibarət olan məlhəm

Müdafiəvi məlhəm – professional zərərli təsirlərin və kütləvi zədələnmə silahlarının zədələyici təsirlərinin qarşısını almaq üçün vasitə

Neapol məlhəmi – boz civə məlhəmi

Profilaktik məlhəm – *bax:* müdafiəvi məlhəm

Suspenzion məlhəm *(u. suspensio)* – məlhəm əsasında onda həll olmayan tozşəkilli dərman maddələrinin əlavə olunmasından yaranmış məlhəm

Triturasion məlhəm (*u.-suspensio*) – *bax:* suspenzion məlhəm

Məlhəm-emulsiya *(unguentum-emulsum) – bax:* emulsion məlhəm

Məlhəm-həlledici (*unguentum-solutio)* – dərman maddələrinin məlhəm əsasında həll olması nəticəsində hazırlanan məlhəm

Məlhəm-suspenziya *(unguentum-suspensio) – bax:* suspenzion məlhəm

Məməşəkilli xətt (*linea mamillaris*) – *bax:* orta körpücük xətti

Məməyəbənzər çıxıntının trepanasiyası – *bax:* mastoidotomiya

Məməyəbənzər çuxur – xarici qulaq keçəcəyinin yuxarı kənarı üstündə, gicgah sümüyünün xarici səthində yerləşən çökəklik

Məməyəbənzər dəlik – məməyəbənzər çıxıntının arxasında yerləşən emissar venanın keçdiyi dəlik

Məməyəbənzər mağara *(antrum mastoideum)* – gicgah sümüyünün məməyəbənzər çıxıntısında yerləşən, onun boşluqları və təbil boşluğu ilə əlaqələnən sahə

Məməyəbənzər nahiyə *(regio mastoideum)* – başın qulaq seyvanından arxada yerləşən gicgah sümüyünün məməyəbənzər çıxıntısının hüdudlarına uyğun gələn hissəsi

Məməyəbənzər şırım – gicgah sümüyünün məməyəbənzər çıxıntısının medial səthində yerləşən ikiqarınlı əzələnin başlandığı şırım

Mənəvi döyüş keyfiyyətləri – sülh dövründə hərbi qulluqçuların öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirməsi üçün vacib olan, şəxsiyyətin formalaşmasında bir-biri ilə sıx bağlı və bir-birini tamamlayan keyfiyyətlərin kompleksi (hərbi anda sadiqlik, hərbi fəallıq, inti-

zamlılıq, dözümlülük, mərdlik, qorxmazlıq, təşəbbüskarlıq)

Mənfi azot balansı – *bax:* azot defisiti

Mənfi Valsalva sınağı (A.M.Valsalva,1666-1723, ital. anatomu) – *bax:* Toynbi sınağı

Mərcimək dənəsi – *bax:* lentikulyar papula

Mərkəzi angionevrotik xorioretinit – *bax:* mərkəzi seroz retinopatiya

Mərkəzi iflic sindromu – *bax:* mərkəzi iflic

Mərkəzi kanal (*canalis centralis*) – onurğa beyninin boz maddəsindən keçən, sinir borusu mənfəzinin qalığı hesab olunan uzununa kanal; yuxarıda IV mədəciklə birləşir, aşağı ucu isə uc sapın yarısınadək çatır və büzdüm siniri köklərinin başlandığı yerdə bir genişlik təşkil edir – uc mədəcik

Mərkəzi seroz xorioretinit – *bax:* mərkəzi seroz retinopatiya

Mərkəzi seroz retinopatiya (*retinopathia centralis serosa*) – gözlərin toksik-infeksion mənşəli xəstəliyidir, mərkəzi skotomanın inkişaf etməsi ilə görmənin ani zəifləməsi, oftalmoskopik isə - sarı ləkə nahiyəsində torlu qişanın bulanıqlaşması və ödemi ilə təzahür edir

Mərkəzi təsirli miorelaksantlar – mərkəzi sinir sistemində oyanıqlığın ötürülməsinin pozulması nəticəsində əzələ tonusunu tənzimləyən mexanizmi ləngidən vasitələr (məs., mianezin, meprotan)

Mərkəzi vena katetrizasiyası – intensiv terapiya məqsədilə edilən reanimasion tədbir

Mərkəzi venoz təzyiq – yuxarı və aşağı boş venada olan venoz təzyiq (ürəyin sağ hissəsinin kateterizasiyası zamanı elektromanometr vasitəsi ilə ölçülür və normada sağ qulaqcıqdakı qan təzyiqinə yaxın olur)

Mərmər sümüklər – anadangəlmə osteosklerotik qanazlığı zamanı simptom

Mərmi – müxtəlif hədəflərin məhv edilməsi və ya digər tapşırıqların (işıqlandırma, tüstülətmə, təlim və s.) yerinə yetirilməsi üçün artilleriya atəşinin əsas elementi, topdan atılan vasitə

Mış simptomu – qalça qanadı və oturaq qabar arasında çanağın sagital istiqamətdə sıxılması zamanı meydana gələn sınıqlar zamanı ağrının olması

Mialgiya *(mialgia)* **-** əzələlərin işemiyası, iltihabı, sıxılması və spazmı nəticəsində baş verən əzələ ağrısı

Epidemik mialgiya – *bax:* epidemik plevrodiniya

Miaz (*myasis*; yun. *myia* milçək) – insan və heyvanlarda milçək sürfələrinin törətdiyi xəstəlik

Miyyar-Qubler sindromu (A.Millard, 1830-1915, frans. həkimi; A.Gubler, 1821-1879, frans. farmakoloqu*)* – VI-VII kəllə sinirlərinin və kortiko spinal traktın liflərinin zədələnməsi nəticəsində meydana çıxan hemiplegiya

Miarsenol *(myarsenolum)* – sifilis törədicisi əleyhinə təsir göstərən arsen preparatı

Miasonsistouretroqrafiya – kontrast maddənin sidik kisəsinə sidik ifrazı zamanı enməsi anında aparılan sistouretroqrafiya

Miastenik reaksiya *(*sin. Jolli miastenik reaksiya*)* – elektrik cərəyanı ilə təkrar qıcıqlandırdıqda əzələnin yığılma qabiliyyətinin azalması (miasteniyanın təyin edilməsi üçün differensial diaqnostik sınaq)

Miastenik sınaq – dəri altına prozerin yeridildikdən 20-30 dəqiqə sonra əzələ zəifliyinin azalması (differensial diaqnostik sınaq)

Miasteniya (*myasthenia*) – immunitetin pozulması, sinir-əzələ keçiriciliyinin pozğunluğu nəticəsində müxtəlif qrup əzələlərin süstlüyü ilə xarakterizə olunan klassik autoimmun əsəb-əzələ xəstəliyi

Miatoniya (*myatonia*; sin. Oppengeym miatoniyası) – sinir sisteminin anadangəlmə xəstəliyi; əzələ tonusunun patoloji azalması ilə təzahür edir

Miazmalar *(miasma)* – yoluxucu xəstəlik törədən çürümə məhsulları

Mibelli angiokeratoması (V.Mibelli, 186-1910, ital. dermatoloqu) – bax: barmaqların nevusabənzər məhdud angiokeratoması

Mibelli porokeratozu (V.Mibelli) – *bax:* porokeratoz

Midantan (*midantanum***)** – mərkəzi sinir sisteminin dofaminergik sisteminə təsir göstərən parkinsonizm əleyhinə preparat

MİDAS sindromu – mikroftalm, dərinin aplaziyası, skleranın bulanmasından ibarət simptomokompleks

Midokalm (*mydocalm***)** – saya əzələlərinin tonusları zamanı tətbiq olunan preparat

Midriatik vasitələr *(mydriatica)* – midriaz törədən dərman vasitələri (atropin, qomatropin, skopolamin və s.)

Midriaz *(mydriasis)* – bəbəyin genəlməsi

Medikamentoz midriaz (mydriasis medicamentosa) – bəbəyi dilatatorla stimulə etdikdə və ya bəbək sfinktorunu iflic edən dərman vasitələrinin tətbiqi zamanı yaranan midriaz

Paralitik midriaz (mydriasis paralytica) – gözün hərəki sinirinin zədələnməsi zamanı bəbək sfinktorunun iflici zamanı yaranan midriaz

Spastik midriaz (mydriasis spastica) – boyun simpatik kötüyünün qıcıqlanması və adrenergik vasitələrin tətbiqi zamanı yaranan midriaz

Travmatik midriaz (mydriasis traumatica) – gözün kontuziyası zamanı yaranan midriaz

Midzuo fenomeni (G.Mizuo, yap. oftalmoloqu) – göz dibinin rəngsizləşməsi zamanı bir neçə saat qaranlıq məkanda qaldıqdan sonra normal rənginin bərpa olunması, Oquti xəstəliyində müşahidə olunur

Midzuo-Nakamur simptomu (G.Muzuo, Nakamura) – bir neçə saat sarğı altında qalan gözləri açdıqda Oquti xəstəliyinə tutulmuş göz dibinin normal rənginin bərpa olunması (açıq qalmış gözün dibinin isə rəngsiz olması)

Miektomiya *(myectomia)* – əzələnin kəsilməsi, çəpgözlük zamanı gözün xarici əzələsinin bir hissəsinin kəsilməsi əməliyyatı

Miel- (mielo-; yun. *myelos* beyin, beyin maddəsi, sümük iliyi) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "beyinə, beyin maddəsinə, sümük iliyinə və ya onurğa beyinə aid" mənasını verir

Mielin *(myelinum)* – sinir lifinin daxili qişasının tərkib hissəsi olan lipid və zülal maddələrinin qarışığı (tünd-qəhvəyi rəngli olur)

Mielit *(mielitis)* – onurğa beyninin iltihabı

Disseminə olunmuş mielit (*m. disseminata*) – çoxsaylı irinli iltihab ocaqlarının olması ilə xarakterizə olunan mielit

Hemorragik mielit *(m. haemorrhagica)* – onurğa beyninə çoxsaylı xırda qansızmalarla gedən mielit

İrinli mielit *(m. purulenta)* – əsasən irinli epiduritin ağırlaşması ilə gedən onurğa beyninin irinli iltihabı

Kompressiv mielit *(m. compressiva)* – onurğa beyninin sıxılması nəticəsində meydana çıxan mielit (fəqərəarası diskin yırtığı, kistoz araxnoidit)

Nekrotik mielit *(m. necrotica)* – əsasən onurğa beyni damarlarının trombozu zamanı yaranan köndələn, nekroz ocaqlı mielit

Sifilitik mielit *(m. syphilitica)* – sifilitik endoarteriit nəticəsində yaranan ocaqlı mielit

Şüa mieliti *(m. radialis)* – ionlaşdırıcı şüaların lokal təsiri nəticəsində yaranan mielit

Toksiki mielit (*m. toxica)* – qurğuşun, civə və digər maddələrlə intoksikasiya nəticəsində yaranan mielit

Travmatik mielit *(m. traumatica)* – onurğa beyni damarlarının köndələn zədələnməsi nəticəsində yaranan mielit

Vaksinal mielit *(m. vaccinalis)* – sensiblizə olunmuş şəxslərdə vaksinasiyadan sonra yaranmış allergik mənşəli mielit

Mielitik sindrom *(syndromum myeliticum)* – onurğa beyninin zədələnmiş nahiyəsinə uyğun olaraq seqmentar hərəki və hissi pozğunluğun birgə təzahürü

Mieloblastoz *(myeloblastosis)* – periferik qanda mieloblastların olması və ya sümük iliyində miqdarının kəskin artması; leykozlar zamanı müşahidə olunur

Mielodisplaziya *(myelodiysplasia)* – onurğa beyninin inkişaf anomaliyalarının ümumi adı

Mieloqrafiya (*mielo-* + yun. *grapho* yazmaq, təsvir etmək) – hörümçəyəbənzər qişanın altına kontrast maddə yeridildikdən sonra onurğa beyninin rentgenoqrafiyası

Enən mieloqrafiya – xəstənin vertikal vəziyyətində xüsusi çəkisi onurğa beyni mayesindən ağır olan kontrast maddə yeridilməklə aparılan mieloqrafiya (bu zaman kontrast maddə yeridilmə yerindən aşağıya yayılır)

Qalxan mieloqrafiya – xəstənin vertikal vəziyyətində xüsusi çəkisi onurğa beyni mayesindən yüngül olan kontrast maddə yeridilməklə aparılan mieloqrafiya (bu zaman kontrast maddə yeridilmə yerindən yuxarıya yayılır)

Mieloqramma (*mielo-* + yun. *gramma* yazı) – sümük iliyinin müayinəsi; mieloid toxumasının nüvətərkibli hüceyrələrinin keyfiyyət və kəmiyyət göstəricilərini əks etdirən cədvəl və ya diaqram şəklində mikroskopiyanın nəticələri

Mieloleykoz *(myeloleucosis)* – sələf hüceyrəsi mielopoyezin hüceyrələri olan leykoz

Kəskin mieloleykoz (*m. acuta*) – *bax:* kəskin mieloblast leykoz

Xroniki mieloleykoz (*m. chronica*) – morfoloji substratı qranulositlər olan xroniki leykoz

Osteosklerotik mieloleykoz (*m. osteosclerotica*) – *bax:* osteomielofibroz

Mielom böyrəyi – *bax:* mielom nefropatiyası

Mielom nefropatiyası (*nephropathia myelomatica*) – mielom xəstəliyi

zamanı müşahidə olunan və zülal kütlələrinin böyrək kanalcıqlarında toplanması ilə əmələ gələn nefroskleroz

Mielomalyasiya (*myelomalacia*) – onurğa beyninində nekrotik ocaqların yaranması və onun yumşalması, onurğa-beyinin tromboz və emboliyasında olur

Mielomeninqosele *(myelomeningocele)* – yırtıq möhtəviyyatı beyin-onurğa beyni mayesi, onurğa beyninin bir hissəsi qişaları ilə birgə, sinir kötükləri olan onurğa beyni yırtığı

Mielopatiya *(myelopathia)* – onurğa beyninin qeyri-iltihabi xarakterli zədələnmələri

Aterosklerotik mielopatiya *(m. atherosclerotica)* – onurğa beyni arteriyaların aterosklerozu nəticəsində onurğa beyni toxumasında xırda distrofik ocaqların əmələ gəlməs

Boyun mielopatiyası (*m. cervicalis) – bax:* servikal mielopatiya

Diabetik mielopatiya *(m. dibetica)* – karbohidrat mübadiləsinin pozğunluğu nəticəsində onurğa beyni toxumasında xırda distrofik ocaqların əmələ gəlməsi

Diskogen mielopatiya *(m. discogena)* – fəqərəarası disklərin yerdəyişməsi zamanı onurğa beyni damarlarının sıxılması nəticəsində meydana çıxan mielopatiya

Şüa mielopatiyası – *bax:* şüa mieliti

Spondilogen mielopatiya *(m. spondylogena)* – osteoxondroz və ya onurğa sütununun travmaları zamanı əmələ gələn, osteofitlər tərəfindən onurğa beyni damarlarının sıxılması nəticəsində meydana çıxan mielopatiya

Servikal mielopatiya *(m. cervicalis)* – onurğa beyninin boyun siqmentinin zədələnməsi nəticəsində meydana gələn mielopatiya

Mielopoez *(myelopoesis)* – sümük iliyində qranulositlərin, trombositlərin və eritrositlərin əmələ gəlmə prosesi

Mieloroliradikulonevrit (*myelopolyradiculoneuritis*) – onurğa beyni, onurğa beyni sinirlərinin və köklərinin birgə iltihabı

Mielosarkoma (köh.; *myelosarcoma*) – *bax:* xlorleykoz

Mielosarkomatoz (köh.; *myelosarcomatosis*) – *bax:* xlorleykoz

Mielosit (*myelocytus*) – sümük iliyi hüceyrəsi

Mieloskanoqrafiya – radionuklidin hörümçəyəbənzər qişaaltı nahiyədə yayılmasının qat-qat çəkilməklə qeydə alındığı radioizatop mieloqrafiyası

Mieloskop – onurğa beynin hörümçəyəbənzər qişaaltı nahiyəsinin punksiya vasitəsi ilə endoskopiya edilməsi üçün alət

Mielotomiya *(myelotomia)* – cərrahi əməliyyat: onurğa beyninin kəsilməsi

Mielotransplantasiya – qan sistemi xəstəlikləri olan insanlara sümük iliyinin köçürülməsi cərrahi əməliyyatı

Mieloz *(myelosis) – bax:* xroniki mieloleykoz

Aleykemik mieloz *(m. aleukaemica)– bax:* osteomielofibroz

Şüa mielozu *(m. radialis) – bax:* şüa mieliti

Mifofobiya *(mythophobia)* – faktları düzgün çatdıra bilməməkdən patoloji qorxu (bu səbəbdən sözlər və ifadələr uzun müddət seçilir)

Mifofobiya (*mythophobia*) – nağıl və əfsanələrdən qorxma

Mifomaniya *(myphomania)* – isterik fantaziyaların olması

Mifomaniya sindromu – *bax:* isterik fantaziyalar

Migind simptomu (Mygind) – yuxu arteriyalarını sıxdıqda yaranan fistul simptomu

Mixaylov reaksiyası (Ф.А.Михайлов, 1897, sov. ftiziatoru) – bəzi infeksion xəstəliklərin xəstəyə az miqdarda spesifik allergen yeridildikdən sonra periferik qanda eozinofillərin miqdarının artmasına əsasən təyin edilməsi (məs., vərəm, aktinomikoz, exinokokkoz)

Mixaylov sınağı (Ф.А.Михайлов) – bax: Mixaylov reaksiyası

Mixaylov-Modelski pielokalikoplastikası (E.Michalowski; Modelski) – hidronefroz zamanı böyrək kasacığı və ləyəni arasında anastomozun yaradılması cərrahi əməliyyatı

Mixaylov-Modelski uretroplastikası (E.Michalowski; Modelski) – kişilərdə sidikçıxarıcı kanalın daralması zamanı ureoplastika əməliyyatı

Mixelson aktinometri (А.И.Михельсон, 1902-1973, sov. uroloqu) – birbaşa günəş şüalanmasını ölçmək üçün cihaz

Mixelsonun nevrotik alopesiyası (А.И.Михельсон) – bax: nevrotik alopesiya

Mixelson-Ternovski əməliyyatı (А.И.Михельсон; С.Д.Терновский, 1869-1960, sov. cərrahı) – sidik kisəsinin«S-ə bənzər bağırsağa implantasiya edilməsi cərrahi əməliyyatı

Mikidlər (*mykida*; *mik-* + yun. *eides* oxşar) – mikozlar zamanı rast gəlinən allergik səpgilər

Mikoallergidlər *(mycoallergida)* – mikidlər

Mikofobiya (*mycophobia*) – göbələklərdən qorxma

Mikologiya (yun. *mykes, myketos* göbələk) – botanikanın göbələkləri, onların biokimyəvi və genetik xüsusiyyətlərini, təsnifatını, insanların həyatındakı rolunu, insanlar üçün toksigenlik və yoluxma təhlükələrini və onların insanlar üçün tibbi,qida və enterogenlər kimi əhəmiyyətini öyrənən bölməsi

Mikoseptin *(mycoseptin)* – göbələk əleyhinə təsir göstərən preparat

Mikotoksinlər – göbələklərin hasil etdiyi zəhər; insan üçün təhlükəli olan mikotoksinlərə aflotoksinlər, fusariotoksinlər və s. aiddir

Mikoz (*mycosis*) – göbələklərin törətdiyi xəstəliklərin ümumi adı

Dərin mikoz *(m. profunda)* – daxili orqanların, sinir sisteminin, dayaq-hərəkət sisteminin zədələnməsi ilə gedən mikoz

Ekzotik mikoz – *bax:* tropik mikoz

Sistem mikoz *(m. systemica)* – *bax:* dərin mikoz

Tropik mikoz *(m. tropica)* – tropik iqlimli ölkələrdə rast gəlinən mikozların ümumi adı

Visseral mikoz *(m. visceralis)* – *bax:* dərin mikoz

Mikozolon *(mycosolon)* – göbələk əleyhinə təsir göstərən preparat

Mikroalətlər (yun. *mikros* kiçik) – mikrocərrahiyyədə istifadə olunan alətlər

Mikroiynə – mikrocərrahiyyədə istifadə olunan nazik şüşə iynə

Mikroangiopatiya *(microangiopathia)* – kiçik damarların xəstəliyi

Mikroanevrizma – kiçik damarların anevrizması

Mikrob dissosiasiyası – eyni ştamdan yeni variant mikrobların yaranması

Mikrobəleyhinə vasitələr – *bax:* antimikrob vasitələr

Mikrobid *(microbidum)* – *bax:* bakterid

Mikrobiologiya – mikroorqanizmləri öyrənən elm

Kənd təsərrüfatı mikrobiologiyası – *bax:* aqromikrobiologiya

Klinik mikrobiologiya – mikrobiologiyanın infeksion xəstəliklərin diaqnostikanı öyrənən hissəsi

Kosmik mikrobiologiya – mikrobiologiyanın kosmik gəmi və stansiyalarda insan və onu əhatə edən ətraf mühitin mikroflorasını öyrənən hissəsi

Radiasion mikrobiologiya – mikrobiologiyanın ionlaşdırıcı şüaların mikroorqanizmlərə təsirini öyrənən hissəsi

Sanitar mikrobiologiya – mikrobiologiyanın ətraf mühitin mikroflorasını və bu tərkibin insan orqanizminə təsirini öyrənən hissəsi

Sanitar-qida mikrobiologiya – mikrobiologiyanın qida sənayesində yaranan mikrofloranı, qida toksiki infeksiyalarının və intoksikasiyaların profilaktikasını öyrənən hissəsi

Mikrobioloji monitorinq – bütün bioloji mühitlərin antibiotiklərinə həssaslığın yoxlanılması

Mikroblefaron *(microblepharon)* – laqoftalma səbəb olan göz qapağının vertikal ölçüsünün kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikro braxisefaliya *(microbrachycephalia)* – beynin və kəllənin ölçülərinin kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikrobraxiya – yuxarı ətrafın tam inkişaf etməməsi

Mikrodaktiliya (mikro- + yun. *daktylos* barmaq) – inkişaf anomaliyası: çox kiçik barmaqlar

Mikrodentizim *(microdentismus)* – dişin tac hissəsinin normadan kiçik olması

Mikroemboliya (*microembolia*) – orqandaxili arteriya şaxələrinin mikroskopik ölçülü embolla tutulması

Mikroensefaliya *(microencephalia)* – baş beynin kiçikölçülü olmasından ibarət inkişaf anomaliyası

Mikroensefalometriya – baş beynin xırda strukturlarının mikroskopiya vasitəsi ilə ölçülməsi və müayinə edilməsi

Mikroesteziya *(microaesthesia)* – toxunulan əşyanın ölçüsünün real ölçüsündən kiçik qəbul edilməsindən ibarət taktil hissiyyat pozğunluğu

Mikrofakiya *(microphakia)* – çox kiçik göz bülluru

Mikrofalangiya *(microphalangia)* – *bax:* braxifalangiya

Mikroflora – 1) müəyyən ekoloji mühit üçün evolyusiya prosesində formalaşmış mikroorqanizmlərin müxtəlif növlərinin məcmusu; 2) ətraf mühitin bəzi obyektlərinin səthində və ya daxilində olan mikroorqanizm növlərinin məcmusu (bədən boşluğu, yara səthi və s.)

Mikrofobiya (*microphobia*) – kiçik əşyalardan qorxma

Mikrofoniya *(microphonia)* – səs aparatı əzələlərinin tonusunun pozulması nəticəsində səs zəifliyinin meydana çıxması

Mikrofotoqrafiya – mikroskopik preparatların şəklinin çəkilməsi

Mikroftalm *(mikrophtalmus)* – çox kiçik göz alması

Mikrogeniya *(microgenia)* – çox kiçik alt çənə

Mikrohematuriya*(microhaematuria)* – sidikdə gözlə görünməyən, yalnız mikroskopla aşkar olunan qanın olması

Mikroxeyliya *(microcheilia)* – dodaqların kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikroimalə – azhəcmli (25-100 ml) maye vasitəsilə imalə
Dərman mikroimaləsi – mikroimalə zamanı daxil edilən mayenin ümumi və ya yerli dərman xarakterli olması

Mikroinsult *(microinsultus)* – keçib-gedən nevroloji simptomlarla təzahür edən baş-beynin kiçikocaqlı infarktı və ya qansızması

Mikrokardiya *(microcardia)* – ürəyin kiçikölçülü olmasından ibarət inkişaf anomaliyası

Mikrokauter – toxumaların nöqtəvi yandırılması üçün istifadə olunan mikroalət

Mikrokolon *(microcolon)* – çox qısa yoğun bağırsaq

Mikrokolposkopiya *(microcolposcopia)* – mikroskopla təchiz olunmuş kolposkop vasitəsilə icra olunan kolposkopiya

Mikrokornea (*microcornea*) – inkişaf anomaliyası: kiçik diametrli buynuz təbəqə

Mikrokristallik sınaq – hər hansı bir maddəyə müvafiq reaktiv tətbiq etdikdə əmələ gələn kristalların xarakterinə görə diaqnozun qoyulması (klinik, gigiyenik müayinələrdə və məhkəmə təbabətində tətbiq olunur)

Mikrokristalloskopiya – *bax:* mikrokristallik sınaq

Mikroqastriya *(microgastria)* – çox kiçik mədə

Mikroqazanalizator – qanda qazların miqdarını ölçmək üçün cihaz

Mikroqlioma (*microglioma*) – MSS-nin atipik mikroqlia hüceyrələrindən təşkil olunmuş birincili bədxassəli limfomalar qrupuna aid olan bədxassəli şişi

Mikroqlossiya *(microglossia)* – dilin ölçüsünün kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikroqnatiya *(micrognathia)* – yuxarı çənənin balaca olması

Mikroqrafiya *(microqraphia)* – xüsusən sətrin sonuna doğru yazının həddən artıq kiçik olması

Mikrolaparotomiya *(microlaparotomia)* – əsasən diaqnostik məqsədlə icra edilən qarın boşluğunun kiçik kəsiklə açılması

Mikrolit *(microlithus)* – kiçikölüçü konkrement

Mikrolitiaz *(microlithiasis)* – çoxlu kiçik daşların (mikrolitlərin) orqanizmdə əmələ gəlməsi

Mikromaniya *(micromania)* – özünü məhvetmə sayıqlaması

Mikromastiya*(micromastia)* – süd vəzilərinin inkişafdan qalması

Mikromeliya *(micromelia)* – ətrafların qısa olmasından ibarət inkişaf anomaliyası

Mikromerkurializm *(*köh., yeni – merkurializm*)* – civənin kiçik dozaları ilə xroniki zəhərlənmə

Mikromieliya *(micromyelia)* – onurğa beyninin tam inkişaf etməməsi

Mikromiomalyasiya *(micromyomalacia)* – əzələ toxumasında kiçikocaqlı yumşalma zonalarının əmələ

gəlməsi (məs., miokard infarktı zamanı rast gəlinir)

Mikromonosporroz *(micromonosporosis)* – mikromonosporlar tərəfindən törədilən, klinik təzahürləri ilə aktinomikozlara yaxın olan xroniki yoluxucu xəstəlik

Mikronema *(sin.sarkonema,toksonema)* – elektron mikroskopiyası zamanı toksoplazm və sarkosporidlərdə aşkar olunan xətşəkilli struktur

Mikronixiya *(micronychia)* – dırnaq lövhəsinin kiçikölçülü olması

Mikroostomiya – ağız yarığının anadangəlmə və ya qazanılma daralması

Mikroperforasiya *(microperforatio)* – boşluqlu orqanın divarının tamlığının nöqtəşəkilli pozulması

Mikropoliadenit *(micropolyadinitis)* – çoxsaylı limfatik düyünlərin ölçülərinin az böyüməsi və bərkləşməsi ilə gedən patoloji vəziyyət (adətən uşaqlarda xroniki intoksikasiyalar və vərəm zamanı rast gəlinir)

Mikropsiya (*micropsia*) – görmə qabiliyyətinin pozulması: əşyaların olduğundan daha kiçik qavranılması

Mikrosefaliya *(microsephalia)* – kəllə sümüyünün və baş beynin kiçik olmasından ibarət inkişaf anomaliyası

İrsi mikrosefaliya (*m. hereditaria*) – autosom-ressesiv yolla ötürülən irsi mikrosefaliya

Şüa mikrosefaliyası (*m. radialis*) – bətndaxili inkişaf zamanı kritik periodlarda dölün ionlaşdırıcı şüalarla şüalanması nəticəsində yaranan mikrosefaliya

Mikrosferofakiya-braximorfiya *(microsphaerophakia-brachimorphia) – bax:* Markezani sindromu

Mikrosferositar anemiya *(anaemia microsphaerocytica) – bax:* mikrosferositar hemolitik anemiya

Mikrosikloskopiya – kirpikli cisim nahiyəsinin qonioskop və xüsusi lampa vasitəsi ilə müayinəsi

Mikrosirkulyasiya – qanın kiçik arteriya, arteriola, kapilliyar venula və kiçik venalara hərəkəti

Mikrosirkulyator pozğunluq – kiçik arteriya, arteriola, kapilliyar venula və kiçik venalarda qan dövranı pozğunluğu (damardaxili aqreqasiya, damar keçiriciliyinin dəyişməsi, qanın hərəkət sürətinin aşağı olması ilə əlaqədar ola bilər)

Mikroskop *Leica* – sidiyin ümumi analizi, qalın qan damlası (malyariya), uretradan yaxma, uşaqlıq yolundan yaxma, bəlğəm, onurğa beyni mayesi, plevra mayesi və nəcisin ümumi müayinələrində istifadə olunur

Mikroskop (yun. *mikros* kiçik, *skopeo* baxmaq) – adi gözlə görünməyən kiçik obyektlərin optik cihazlarla müşahidə edilməsi üçün alət

Binokulyar mikroskop – obyekti eyni zamanda iki gözlə müşahidə etməyə imkan verən ikiokulyarlı mikroskop

Əməliyyat mikroskopu – əməliyyat zamanı əməliyyat sahəsinin böyüdülmüş təsvirini almaq üçün xüsusi ştativə bərkidilmiş mikroskop

Faza-kontrast mikroskopu – optik sistemə fazalı amplitudlar fərqini ayırd etməyə imkan verən optik əlavənin edilməsi ilə aparmağa imkan verən mikroskop

İnterferension mikroskop – işığın interferensiyası hadisəsinə əsaslanan, obyekti daha yaxşı müşahidə etməyə imkan verən mikroskop

Lüminesent mikroskopu – ultrabənövşəyi şüalanma mənbəyi ilə təchiz olunmuş lüminensiyalı mikroskop

Müqayisə mikroskopu – eyni zamanda iki preparatı müşahidə etməyə imkan verən ikiobyektivli mikroskop

Poliyarizasion mikroskop – obyektdən keçən işığın poliyarizasiyasını öyrənmək üçün xüsusi optik sistemlə təchiz olunmuş mikroskop

Stereoskopik mikroskop – eyni zamanda obyekti sağ və sol gözlə müxtəlif bucaq altında müşahidə etməklə həcmli görüntü almağa imkan verən mikroskop

Mikroskopik anatomiya – *bax:* xüsusi histologiya

Mikroskopik müayinə – böyüdücü cihazların köməyi ilə aparılan müayinə

Mikroskopik poliarteriit – klinik gedişatında nekrozlaşan nefrit və ağciyər kapillyariti üstünlük təşkil edən xırda damarların nekrozlaşmış vaskuliti

Mikroskopiya (yun. *mikros* kiçik, *skopeo* baxmaq) – gözlə görünməyən obyektlərin mikroskop vasitəsi ilə böyüdülərək müayinə edilməsi

Amplitud-kontrast mikroskopiyası – *bax:* anoptral mikroskopiya

Anoptral mikroskopiya – canlı rənglənməmiş obyektlərin keçən işıq şüalarının amplitudasının gücləndirilməsi ilə aparılan mikroskopiya

Canlı mikroskopiya – *bax:* vital mikroskopiya

Fazalı-kontrastlı mikroskopiya – canlı rənglənməmiş obyektlərin müxtəlif amplitudlu işıq şüalarının fazalı fərqi ilə aparılan mikroskopiyası

Flüoressent mikroskopiyası – *bax:* lüminissent mikroskopiyası

İşıq mikroskopiyası – böyüdülmüş əksin optik cihaz vasitəsi ilə əldə edilməsi ilə aparılan mikroskopiya

Qaranlıq sahəli mikroskopiya – rənglənməmiş obyektlərin qaranlıq fonda yan işıqlandırılması ilə aparılan mikroskopiya

Lüminissent mikroskopiyası – ultrabənövşəyi şüalanma zamanı lüminissensiya qabiliyyəti olan obyektlərin mikroskopiyası (floroxromla rənglənmə zamanı)

Polyarizasion mikroskopiya – obyektin poliyarizasiya edən işıqla işıqlandırılmaqla aparılan mikroskopiya

Supravital mikroskopiya – yenicə fiksəolunmuş, kobud dəyişikliyə uğramamış mikroorqanizm və toxumaların mikroskopiyası

Ultrabənövşəyi mikroskopiya – obyektin ultrabənövşəyi şüalarla işıqlandırılması və təsvirin lüminissent ekrandan alınması və ya mikroşəklinin çəklməsi ilə aparılan mikroskopiya; əsasən hüceyrədaxili strukturların müayinəsi zamanı tətbiq edilir

Vital mikroskopiya – canlı obyektlərin mikroskopiyası

Mikroskopun revolveri – mikroskopun obyektivini yaxınlaşdırıcı, uzaqlaşdırıcı vasitə

Mikrosomiya*(microsomia)* – kiçikbədənli, cırtdanboylu

Mikrosopus *(mikrosopus)* – üzün zəif inkişaf etməsi

Mikrospleniya *(microsplenia)* – dalağın ölçülərinin kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikrospondiliya *(microspondyli)* – fəqərənin ölçülərinin kiçik olmasından ibarət inkişaf anomaliyası

Mikrosporoz *(microsporosis)* – *bax:* mikrosproriya

Mikrosproriya *(microsporia)* – *Microsporum* cinsindən olan parazit göbələklərin törətdiyi dermatomikoz

Mikrostoma *(microstoma)* – ağız yarığının dar olması

Mikrotiya *(microtia)* – çox kiçik qulaq seyvanı

Mikrotom bıcağı – cərrahi əməliyyatlarda istifadə edilən kəsici alət

Mikrotonometr – qanda qazların parsial təzyiqini müəyyən etmək üçün cihaz

Mikrotraxeostomiya *(microiracheostomia)* – boynun orta xətti boyunca traxeyanın qalın cərrahi iynə vasitəsi ilə punksiyası (traxeya möhtəviyyatının evakuasiyası və ya bronxlara dərman vasitələrinin yeridilməsi məqsədilə icra edilir)

Mikrotravmatik artrit (*arthritis microtraumatica*) – uzunmüddətli mikrotravmatizasiya nəticəsində oynaqlarda inkişaf edən distrofik dəyişiklik

Miksedema *(myxoedema)* – *bax:* hipotireoz

Dərinin məhdud miksedeması – *bax:* dərinin düyünlü musinozu

Dərinin miksedeması – *bax:* dəri musinozu

Freydentalın papulyoz dəri miksedeması – *bax:* dərinin papulyoz musinozu

Papulyoz miksedema *(m.papulosum)* – *bax:* dərinin düyünlü musinozu

Pretibal miksedema *(m.praetibiale)* – *bax:* dərinin düyünlü musinozu

Tuberoz-nodoz miksedema *(m.tuberosum nodosum)* – *bax:* dərinin düyünlü musinozu

Mikseofobiya – soyunmaq, tərəf müqabilinin bədəninə toxunmaq zərurətinə görə, cinsi aktdan patoloji qorxu

Miksiometr – sidik ifrazının həcmi sürətini müəyyən etmək üçün cihaz

Miksodermiya – *bax:* dərinin düyünlü musinozu

Mikst *(mixtus)* – odlu silah zədələnməsi ilə zəhərləyici maddələrlə zəhərlənmənin birgə təzahürü

Mikstura *(mixtura)* – bir neçə dərman maddəsinin qatışığından ibarət maye dərman (miksturanın mühiti həmişə su olur)

Saturasiya miksturası – tərkibində qazabənzər dərman maddəsi olan mikstura

Mikuliç aftası (J.F.Mikulicz-Radecki, 1850-1905, alm. cərrahı) – bax: xroniki yaş aftası

Mikuliç əlaməti (J.F.Mikulicz-Radecki) – zahıda cift ayrıldıqdan sonra defekasiyaya çağırışların olması

Mikuliç kəsiyi (J.F.Mikulicz-Radecki) – sağ qabırğaaltı nahiyədə qabırğa qövsünün aşağı nöqtəsini qarnın ağ xətti ilə (göbəkdən 3-4 sm yuxarı) birləşdirən xətt boyunca aparılan kəsik (öd və öd axarlarına cərrahi müdaxilə zamanı tətbiq olunur)

Mikuliç sıxacı (J. F. Mikulicz-Radecki, 1850-1905, alm. cərrahı) – badamcıqlar kəsildikdən sonra qandayandıran tamponları uzun müddət saxlamaq üçün alət

Mikuliç sindromu (J.F.Mikulicz-Radecki) – göz yaşı və tüpürcək və-

zilərinin böyüməsi və sekretor funksiyasının azalması (leykozlar, limfaqranulomatozlar, vərəm, sifilis və endokrin pozğunluqlar zamanı təsadüf oluna bilər)

Mikuliç tamponu (J.F.Mikulicz-Radecki) – irin boşluğuna daxil etmək üçün torbaşəkilli tənzif tampon

Mikuliçin burun tamponadası (J.F. Mikulicz-Radecki) – burun boşluğuna yerləşdirilmiş parça kisənin uzun tənzif turundalarla doldurulması ilə burun qanaxmasının dayandırılması

Mikuliç-Şöqren sindromu (J.F.Mikulicz-Radecki) – bütün xarici sekresiya vəzilərinin funksional çatışmazlığı nəticəsində ağız boşluğu, burun, udlaq, qida borusu selikli qişalarının quruluğu

Miqrasiyaedən düyünlü pannikulit (*panniculitis nodularis migrans*) – baldır nahiyəsində düyün şəklində olan pannikulit; bəzən qadınlarda soyuqdəymədən sonra yaranır

Miqrasiya edən kütlük – qarında maye olduqda rast gəlinən simptom

Miqren (frans. *migraine*; sin. hemikraniya – köh.) – əsasən başın bir hissəsini əhatə edən tutmaşəkilli ağrı

Abdominal miqren – baş ağrısı tutmasından öncə qarında tutmaşəkilli ağrıların, ürək bulanma, qusma və poliuriya ilə gedən miqren növü

Assosiasiya olunmuş miqren – baş ağrısı tutmasından öncə keçici olaraq nitqin və hissiyyatın pozulması ilə gedən miqren növü

Beyincik miqreni – beyincik simptomları (asinergiya, intension əsmə və s.) ilə müşayiət olunan miqren; bazilyar və orta beyin arteriyaları sistemində qan dövranı pozğunluğu zamanı müşahidə olunur

Oftalmik miqren – baş ağrısı tutmasından öncə görmə sahəsinin itməsi və keçici görmə pozğunluğundan ibarət simptomların olması ilə gedən miqren növü

Oftalmoplegik miqren – baş ağrısı tutmasından öncə gözün hərəki sinirlərinin keçici iflici nəticəsində meydana gələn çəpgözlük və ikigörmə ilə gedən miqren

Vestibulyar miqren – baş ağrısı tutmasından öncə başgicəllənməsi ilə müşayiət olunan miqren

Mil səfhəsi (*lamina modioli*) – daxili qulaqda ilbizin zirvəsindəki oxun son hissəsi

Mil siniri fenomeni – ovuc-ovuca qoyulmuş əllərdə zədələnmiş əlin barmaqlarını qıcıqlandırdıqda zədələnmiş əl boyunca sürüşərək hərəkət etməsi (mil sinirinin zədələnmə simptomu)

Mil siniri sindromu *(syndromum nervi radialis)* – mil sinirinin zədələnmələri zamanı bilək və əl barmaqlarının açılmasının, baş barmağın uzaqlaşdırılmasının, bazu, said və ovucun arxa səthində hissiyyat pozğunluğunun birgə təzahürü

Mil sinirinin anomaliyaları ilə birgə Qoldener sindromu – cırtdanboyluluq, aşağı çənənin qısalması və dəri əlavələri, yuxarı ətrafın müxtəlif qüsurları, dodağın ikiyə bölünməsi, eşitmə zəifliyindən ibarət simptomokompleks

Mil-dirsək bursiti – *bax:* tenisçi dirsəyi

Milian sindromu (G.Milian, 1871-1945, frans. dermatoloqu) – *bax:* doqquzuncu gün sindromu

Miliar angiomatoz (*angiomatosis miliaris*) – *bax:* Şteyner-Ferner sindromu

Miliarizasiya *(miliarisatio)* – orqan və toxumalarda çoxsaylı xırdaocaqlı patoloji prosesin əmələ gəlməsi və generalizasiyası

Milium *(milium)* – dərinin piy vəzi və ya saç folikullarının buynuz qat hüceyrələri ilə tutulması nəticəsində yaranan retension sisti

Milkmen xəstəliyi (L.A.Milkman, 1895-1951, amer. renqenoloq) – osteomalyasiyanın erkən fazası (rentgenoloji olaraq çoxsaylı simmetrik dəyişiklik, klinik olaraq isə ayaqlarda ağrı, yerişin pozulması və fəqərə sütununun əyilməsi)

Milkmen sindromu (L.A.Milkman) – *bax:* Milkmen xəstəliyi

Millar-Güble sindromu (A.Millard, 1830-1915, frans. həkimi; A.M. Gubler, 1821-1879, frans. həkimi) – dəyişən hemiplegiyanın bir növü: zədələnmiş nahiyədə mimiki əzələlərin periferik iflici və ya parezi, ətrafların spastik iflici; üz siniri və piramid yolun beyin körpüsü nahiyəsində zədələnməsi zamanı təsadüf olunur

Miller simptomu (W.D.Miller, 1853-1907, amer. stomatoloq) – aorta klapanlarının çatışmazlığı zamanı ürək ritmi ilə sinxron olaraq dilçəyin pulsasiyası və damaq badamcıqları, yumşaq damağın vaxtaşırı təkrarlanan hiperemiyası

Miller nəzəriyyəsi (W.D.Miller) – kariyesin əmələ gəlməsinin ağız boşluğunda olan mikroorqanizmlərin ifraz etdiyi süd turşusunun diş toxumasına göstərdiyi təsirdən olması haqqında nəzəriyyə

Millian simptomu (G. Milian, 1871-1945, frans. dermatoloqu) – qulaq seyvanının yalnız dərisini əhatə edən iltihabın olması

Miliar karsinoz *(carcinosis miliaris)* – şiş hüceyrələrinin kiçikocaqlı çoxsaylı metastazı

Milliken-Zikert sindromu (C.H.Millikan, amer. həkim; R.G.Siekert, amer. həkim) – baş gicəllənməsi və iki görmənin, huşun qısamüddətli pozulması ilə eyni zamanda təsadüf edilməsi (bazilyar və onurğa beyni arteriyalarında qan dövranı pozğunluğu nəticəsində təsadüf olunur)

Milliqan-Morqan əməliyyatı (E.Milligan, C.Morgan) – hemorroidektomiya əməliyyatı: hemorroidal düyünün selikli qişasının soyularaq ayağının sıxacla tutularaq kəsilməsi və tikilməsi

Millinqen-Sapejko üsulu (E.Millingen; К.П.Сапежко, sov.cərrahı) – bax: Sapejko əməliyyatı

Milroy xəstəliyi (W.F.Milroy, 1855-1942, alm. həkimi) – *bax:* Nonne-Milroy-Meyj sindromu

Mimika *(mimikos)* – üz əzələlərinin emosiyalarla müşahidə olunan hərəkətləri

Mimikriya (frans. *mimétisme*, ing. *mimicry*) – mühitə uyğunlaşma qabiliyyəti, təqlidçilik; müdafiəsiz orqanizmin yaxşı müdafiəyə malik digər növə oxşaması

Mina damcıları – *bax:* adamantoma

Mina qatının diskalsinasiyası *(dyscalcinatio enameli)* – dişin mina qatının üzvi və qeyri-üzvi komponentlərinin nisbətinin pozulması nəticəsində ağ və ya rəngli piqment ləkənin əmələ gəlməsi

Minakov ləkəsi (П.А.Минаков, 1865-1931, sov. sudmedeksperti) – kəskin qanitirmədən baş verən ölüm zamanı sol mədəcik endokardına qansızma

Minakov üsulu (П.А.Минаков) – meyitin kəllə, döş və qarın boşluğuna şprislə spirt-formalin qarışığı yeridilməklə balzamlaşdırılması

Mina-partlayış yaralanması – partlayış dalğasının gücündən və mərmi qəlpələri tərəfindən törədilir

Mineral duzlar – orqanizmdə duz balansını tənzimləyən mineral maddələr

Mineral sular – tərkibində qazlar və hər hansı bir mineral maddənin yüksək konsentrasiyası olan və insan orqanizminə müalicəvi təsir göstərən təbii sular

Atmosfer mineral suları – *bax:* infiltrasion mineral sular

Azot mineral suları – tərkibindəki azotun miqdarı digər qazların ümumi miqdarının 90%-ni təşkil edən mineral su

Brom mineral suları – tərkibindəki bromun konsentrasiyası 25 mg/l-dən az olmayan mineral sular

Dəmir mineral suları – tərkibində dəmirin konsentrasiyası 20 mg/l-dən az olmayan sular

Hidrokarbonat mineral suları – tərkibində HCO_3 anionları 70 ekv%-dən az olmayan mineral sular

İsti mineral sular – *bax:* termal sular

Qaynar mineral sular – *bax:* yüksək termal mineral suları

Qələvi mineral suları – qələvi reaksiyası PH-ı 7,2-dən çox olan mineral sular

Termal mineral sular – *bax:* termal sular

Yüksək termal mineral suları – temperaturu 42^0 C-dən çox olan mineral sular

Minimata sindromu (Minimata – Yaponiyanın cənubunda yerləşən körfəzin adı, bu sindromun ilk halları 1957-1961-ci illərdə burada qeyd edilmişdir) – civə birləşmələri ilə zəhərlənmələr zamanı mərkəzi sinir sisteminin degenerasiyasının simptomokompleksi: ataksiya, karlıq, dizartriya, südəmər uşaqlarda – lal-karlıq, görmə sahəsinin proqressiv daralması, yuxusuzluq, ağız suyunun axması, əzələ spazmları

Minkeviç üsulu (И.Е.Минкевич, 1894-1950, sov. mikrobioloqu) – səpgili yatalaq, qarın yatalağı və paratiflərin sereloji diaqnostika üsulu

Minkovski-Şoffar xəstəliyi (W.Minkowski, 1858-1931, polşalı həkim; A.M.E.Chauffard, 1855-1932, frans. həkimi) – *bax:* mikrosferositar hemolitik anemiya

Minqasini-Barre sınağı (C.Mingazzini,1859-1923, ital. nevropatoloq-psixiatrı; J.A.Barre,1880-1967, frans. nevropatoloqu) – piramid yolların zədələnmə sahəsinin aşkar edilməsi metodu (qarnı üstə uzanmış, ayaqları diz oynağında düz bucaq altında bükülmüş xəstənin paretik ayağının tədricən aşağı düşməsi)

Mioalbumin – əzələlərdən ayrılmış zülaldır, fiziki-kimyəvi xassələrinə görə tipik albumin zülalıdır

Mioblast (*myoblastus*) – *bax:* sarkoblast

Mioblastoma (*myoblastoma*) – *bax:* dənəvər hüceyrəli mioblastoma

Miodidimus (ing. *miodidymus*) – ənsələri bitişmiş, iki qeyri-bərabər inkişaf etmiş başı olan döl

Mioendokardit (*myoendocarditis*) – miokardın və endokardın birgə iltihabı

Mioesteziometr – əzələnin sıxılması zamanı ağrı hissiyyatını təyin edən cihaz

Miofassit *(myofascitis)* – əzələ və fassiyanın birləşdiyi yerdə iltihabı (əsasən artrozlarda təsadüf edilir)
Peşə miofassiti (*myofascitis professionalis*) – əmək fəaliyyəti ilə əlaqədar olaraq əzələlərin həddindən artıq gərginləşməsi nəticəsində müşahidə olunan miofassit (əsasən yuxarı ətraflarda təsadüf edilir)

Miofibrilyar disk – eninəzolaqlı əzələlərin izotrop və anizotrop disklərinin ümumi adı

Miofibrilyar sahə *(area myofibrillaris)* – eninəzolaqlı əzələ lifinin köndələn kəsiyində miofibrillər dəstəsinə uyğun gələn sahə

Miofibroz *(myofibrosis)* – *bax:* mioskleroz

Miofosfofruktokinaz çatışmazlığı – *bax:* VIII tip qlikogenoz

Miogen *(myogenum)* – suda asanlıqla həll olunan əzələ zülalı

Miohistogenez – otogenezdə əzələ toxumasının inkişaf prosesi

Miokard *(myocardium)* – ürək nahiyəsinin əzələ qatı

Miokardial ürək stimulyasiyası – ürək əzələsinə implantasiya edilmiş elektrod vasitəsi ilə həyata keçirilən ürək stimulyasiyası

Miokardın arterilizasiyası *(arterialisatio myocardii)* – miokardın qan təchizatının yaxşılaşdırılması məqsədilə icra olunan cərrahi əməliyyatların ümumi adı

Miokardın fraqmentasiyası *(fragmentatio myocardii)* – ürəyin işemik xəstəliyi zamanı miokard liflərinin ayrı-ayrı fraqmentlərə parçalanması

Miokardın idiopatik hipertrofiyası (*hypertrophia myocardii idiopathica*) – ürək əzələ liflərinin hipertrofiyası proseslərinin üstünlüyü ilə fərqlənən naməlum etiologiyalı kardiomiopatiya

Miokardioskleroz*(myocardiosclerosis)* – *bax:* kardioskleroz

Miokardit *(myocarditis)* – ürək əzələsinin iltihabı
Bədxassəli miokardit *(m.maligna)* – idiopatik miokarditin ağır, proqressivləşən və əksərən letal sonluqla nəticələnən forması
Fidler miokarditi – *bax:* idiopatik miokardit
İnfeksion-allergik miokardit *(m.infectiosa-allergica)* – *bax:* idiopatik miokardit
Alergik miokardit (m.allergica) – allergik mexanizmləri olan miokardit
Bruselyoz miokarditi (m. brucelloza) –bruselyozun ağır formalarının fəsadlaşmasında bir üzə çıxır
Qarın yatalağı miokarditi (m.abdomino typhosa) – qarın yatalağı xəstəliyi fəsadlaşmış formalarında olur
Virus miokarditi (m.viralis) – viruslar tərəfindən törədilən miokardit (məs.koksaki virusu)
Qranulematoz miokarditi (m.granulomatosa) –bəzi granulematozlarda rast gəlinir
Göbələk miokarditi (m. fungina) – parazitik göbələklər tərəfindən törədilən miokardit
Sifilitik miokardit – sifilisin 3 –cü mərhələsində rast gəlinir,gunma əmələ gəlməklə üzə çıxır

Miokardoz *(myocardosis)* – sistem xəstəlikləri zamanı miokardın müxtəlif zədələnmələri

Miokloniya *(myoclonia)* – əzələnin qıclıq şəklində dartılması
Yumşaq damaq miokloniyası – *bax:* velopalatin miokloniya

Velopalatin miokloniya *(m.velopalatina)* – yumşaq damaq, udlaq və dilin əzələlərinin ritmik mioklonyası

Mioqbuinuriya *(myoglobinuria)* – sidiklə mioqlubinin xaric edilməsi

Mioqlobulin *(myoglobilinum)* – əzələ qlobulinlərinin ümumi adı **,** saya və ürək əzələlərinin tərkibində dəmir olan, özünə oksigen birləşdirən zülalı

Mioqlobin *(myoqlobinum)* – əzələlərə oksigenin çatdırılması və depolaşmasını təmin edən hemoqlobinə identik xromoproteid

Mioqlobinemiya – qanda mioqlobinlərin olması

Mioqraf – əzələ yığılmalarını qrafik qeydə almaq üçün cihaz

Mioqram – əzələ təqəllüsünün yazılması

Mioqramma – ayrı-ayrı əzələ və ya əzələ qruplarının yığılmasını əks etdirən əyri

Miologiya *(myologia)* – anatomiyanın əzələ sisteminin quruluşunu öyrənən bölməsi

Mioma *(myoma)* – əzələ toxumasından inkişaf edən xoş xassəli şiş

Bədxassəli mioma *(myoma malignum)* – *bax:* miosarkoma

Miomalyasiya *(myomalacia)* – nekrozlaşan əzələlərin fermentativ yumşalması

Miomer *(myomerus)– bax:* miotom

Miomonometr – əzələ tonusunu ölçmək üçün cihaz

Mionevral birləşmə – sinir-əzələ əlaqəsi

Miopatik iflic *(paralysis myopathica)* – maddələr mübadiləsinin normal getməməsi nəticəsində əzələ hərəkətinin pozulması

Miopatiya *(myopathia)* – əzələ zəifliyi, əzələ liflərinin yığılma qabiliyyətinin pozulması və aktiv hərəkətlərin həcminin azalması ilə gedən irsi xəstəliklərin ümumi adı

Anadangəlmə miopatiya (*myopathia congenita*) – autosom – ressesiv yolla ötürülən ətraf və gövdə əzələlərinin kobud atrofiyası, vətər reflekslərinin və aktiv hərəkətlərin olmaması və oynaqların deformasiyası ilə təzahür edən irsi xəstəlik

Anadangəlmə zəif proqressivləşən miopatiya *(m.congenita non progressiva) – bax:* sapşəkilli miopatiya

Çiyin-kürək-üz miopatiyası (*myopathia brachioscapulofacialis*) – üz əzələsinin, çiyin qurşağı əzələlərinin və gövdə əzələlərinin zədələnməsi ilə gedən, zəif proqressivləşən miopatiya

Düşen tipli miopatiya – *bax:* psevdohipertrofik miopatiya

Düşen psevdohipertrofik miopatiyası – *bax:* psevdohipertrofik miopatiya

Endokrin miopatiya (*myopathia endocrinica*) – endokrin sistemin pozğunluqları zamanı klinik əlamətləri miopatiyaya oxşar olan sindrom (məs., hiper və hipotireozlar, akromeqaliya, Addison xəstəliyi zamanı və kortiko steroidlərlə müalicə zamanı)

Gənclik miopatiyası (*m. juvenilis*) – uşaq və ya gənc yaşlarında başlayan, çiyin və çanaq əzələlərinin atrofiyası ilə gedən miopatiya

Qrefe miopatiyası – *bax:* oftalmoplegik miopatiya

Landuzi-Dejern miopatiyası – *bax:* çiyin-kürək-üz miopatiyası

Metabolik miopatiya (*myopathia metabolica*) – maddələr mübadilə-

sinin pozğunluğu zamanı klinik əlamətləri miopatiyaya oxşar olan sindrom (məs., qlikogenozlar zamanı)

Nemalin miopatiyası – *bax:* sapşəkilli miopatiya

Oftalmoplegik miopatiya (*myopathia ophthalmoplegica*) – gözün hərəki əzələsinin zədələnməsi ilə xarakterizə olunan miopatiya

Proqressivləşən miopatiya (*myopathia progressiva*) – tam hərəkətsizliyə gətirən əzələ zəifliyinin proqressiv artması ilə gedən miopatiya

Psevdohipertrofik miopatiya (*myopathia pseudohypertrophica*) – əzələlərin diffuz atrofiyası fonunda əzələlərin psevdohipertrofiyası, ördək gəzişi, intellektin zəif olması və endokrin pozğunluqlarla gedən anadangəlmə miopatiya

Sapşəkilli miopatiya (*myopathia filiformis*) – əzələ liflərinin strukturunun və yığılma qabiliyyətinin dəyişməsi ilə gedən zəif proqressivləşən anadangəlmə miopatiya

Miopik konus *(conus myopicus)* – oftalmoskopiya zamanı göz dibində orağabənzər törəmənin aşkar edilməsi (yaxından görmə zamanı təsadüf olunur)

Miopiya *(myopia)* – paralel optik işıq şüalarının torlu qişadan öndə toplanması, yaxından görmə

Mioplastika – əzələ plastikası

Miorelaksantlar *(myorelaxantia)* – əzələ tonusunu aşağı salan dərman maddələri

Miorenal sindrom (*syndromum myorenale*) – *bax:* travmatik toksikoz

Miosideroz (*myosiderosis*) – əzələlərdə dəmir tərkibli piqmentlərin toplanması (əsasən miokartda təsadüf edilir)

Miosit (*myocytus*) – saya əzələ hüceyrəsi

Ürək miositi (*m. cardiacus*) – miokardın tərkibinə daxil olan miosit

Güzehli qişanın miositi (*m. iridicus*) – göz bəbəyinin dilatator və sfinkterinin miostlərinin ümumi adı

Ötürücü ürək miositi (*m. conducens cardiacus*; sin. Purkinye lifi) – ürəyin ötürücü sisteminin törəmələrinin tərkibinə daxil olan və sarkoplazma ilə zəngin atipik ürək miositi

Miostatika – bədənin sakitlik və hərəkət halında müəyyən vəziyyətdə olmasını və əzələ tonusunu təmin edən hərəkət sisteminin mexanizmi

Miotendinit *(myotendinitis)* – əzələ və vətərlərin birləşdiyi yerdə iltihabi-distrofik prosses (məs., zədələnmələrdən sonra)

Miotenoliz *(myotenolysis)* – əzələ və vətərlərin kontrakturaları zamanı çapıqlardan azad edilməsi əməliyyatı

Miotik vasitələr (*miotica***)** – bəbəyin daralmasına səbəb olan dərman vasitələri (məs., antixolinesteraz və M-xolinomimetik vasitələr)

Miotom (*myotomus*) – dermatom və sklerotomun arasında yerləşən hüceyrə qatı; miotomdan skelet əzələsi inkişaf edir

Miotomiya (*myotomia*) – cərrahi əməliyyat: əzələnin kəsilməsi

Miotonik reaksiya – əzələnin mexaniki və ya elektrik qıcıqlandırıcısına verdiyi uzunmüddətli güclü yığılması və zəif boşalmasından ibarət reaksiya

Miotoniya *(myotomia)* – əzələ gərginliyi, əzələ tonusu

Distrofik miotoniya (myotonia dystrophica) – autosom-dominant tiplə ötürülən əzələnin atrofiyası, miotoniyası, erkən katarakta, cinsi vəzilərin atrofiyası, bəzi hallarda zehni inkişafın geri qalması ilə gedən irsi xəstəlik

Tomsen miotoniyası – *bax:* anadangəlmə miotoniya

Miotoniya xəstəliyi *(myotonia)* – amiotoniyanın yayılması ilə gedən onurğa beyni motoneyronlarının distrofiyasından ibarət anadangəlmə xəstəlik

Miotonometr (sin. əzələ tenziometri) – əzələ tonusunu ölçmək üçün cihaz

Miotonometriya – əzələ tonusunun ölçülməsi ilə əzələnin funksional halının təyin edilməsi

Mioz *(miosis)* – bəbəyin daralması

Medikamentoz mioz (*m. medicamentosa*) – dərman maddələrinin təsiri altında bəbəyi daraldan əzələlərin stimulyasiyası, bəbəyi genəldən əzələlərin isə funksiyasının zəifləməsi

Paralitik mioz (*m. paralitica*) – bəbəyin dilatatorunun iflici ilə əlaqədar yaranan mioz (simpatik kötüyün boyun nahiyəsinin zədələnməsi zamanı meydana çıxır)

Sifilitik mioz (*m. syphilitica*) – tabes dorsalis zamanı meydana çıxan siliospinal mərkəzin zədələnməsi ilə əlaqədar bəbəyin daralması

Spastik mioz (*m. spastica*) – meningit, yayılmış skleroz zamanı bəbək sfinktorunun spazmı ilə əlaqədar olaraq meydana çıxan bəbəyin daralması

Miozit *(myositis)* – əzələlərin iltihabı

Epidemik miozit – *bax:* epidemik plevrodiniya

İnfeksion miozit (*m.infectiosa*) – infeksion xəstəliklərin ağırlaşması kimi inkişaf edən miozitlərin ümumi adı

İrinli miozit (*m.purulenta*) – irinlədici bakteriyalar tərəfindən törədilən və əzələ qatının dərinliyində abseslərin və fleqmonaların əmələ gəlməsi ilə xarakterizə olunan miozit

Ossifikasiyaedici proqressivləşən miozit *(m.ossificans progressiva)* – *bax:* Myunxmeyer xəstəliyi

Pedj-Klejin generalizə olunmuş mioziti – *bax:* poykilodermatomiozit

Tropik miozit *(m. tropica)* – *bax:* tropik piomiozit

Miringit *(myringitis)* – təbil pərdəsinin iltihabı

Bulyoz-hemorragik miringit *(m. bullosohaemorragica)* – təbil pərdəsində və xarici qulaq keçəcəyinin ona bitişmiş sahələrində qanla dolmuş tünd qırmızı rəngdə qabarcıqların əmələ gəlməsi ilə gedən miringit

Dənəcikli miringit *(m.granulosa)* – *bax:* qranulyoz miringit

Qranulyoz miringit (*m. granulosa*) – təbil pərdəsinin infiltrasiyası, damarların genişlənməsi və qranulyasiyaların əmələ gəlməsi ilə gedən lənggedişli irinli miringit

Mirinq – (mirinqo-; lat. *myringa* təbil pərdəsi) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "təbil pərdəsinə aid" mənasını verir

Mirinqektomiya *(myringectomia)* – təbil pərdəsinin xaric edilməsi əməliyyatı

Mirinqoplastika *(myringoplastica)* – dəri köçürməklə təbil pərdəsinin deşilməsinin cərrahi müalicəsi

Mirinqoskop – təbil pərdəsini müayinə etmək üçün alət

Mirinqotom – təbil pərdəsində əməliyyat üçün skalpel

Mirinqotomiya *(myringotomia)* – orta qulağa maye yığılması zamanı təbil pərdəsinin arxa kvadratı boyunca aparılan kəsik

Mirmekofobiya – qarışqalardan patoloji qorxu

Miro əməliyyatı (J.Mirault,1796-1879, frans. cərrahı) – yuxarı dodağın anadangəlmə birtərəfli yarığı zamanı icra olunan plastik əməliyyat

Mirşanp simptomuc (Mirchamp) – epidemik parotitli xəstələrdə dilə dadlı, qıcıqlandırıcı qida dəydikdə zədələnmiş tüpürcək vəzindən reflektor olaraq ağrılı tüpürcək ifrazının olması

Mis sulfat *(cupri sulfas)* – mis tərkibli antiseptik maddə

Misetologiya – *bax:* mikologiya

Misir xlorozu – *bax:* ankilostom anemiyası

Misir hematuriyası – sidik-cinsiyyət şistomozu

Miskeviç tikişi (Л.Д.Мицкевич, sov. oftalmoloqu) – blefaroplastika zamanı qoyulan xüsusi tikiş

Misud sınağı (K.Mitsuda, yap. həkimi) – bax: lepromin sınağı

Mişel anomaliyası – xarici və orta qulağın normal inkişaf etməsinə baxmayaraq, kompüter tomoqrafiyada daxili qulaq strukturlarının olmaması

Mişer sindromu (G.Miescher, 1887-1961, İsveçrəli dermatoloq) – ağıl zəifliyi, infantilizm, dərinin akantozu, dişlərin deformasiyası və hipertrixoz əlamətləri olan irsi xəstəlik

Mişkutin-Yakovleva üsulu – cərrahi əlcəklərin soyuq sterilizasiyası üsulu, əlcəklər 6 saat aşağıdakı tərkibdə olan məhlulda saxlanılır: 1 litr distillə edilmiş suya 3 qr karbol turşusu, 20 qr formalin, 15 qr natrium fenolyat əlavə olunur

Mişşer-Ştorka mikrobidi (G.Miescher; H.Storck) – bax: hemorragik leykoplastik mikrobid

Mişşer-Ştorka sindromu (G.Miescher; H.Storck) – bax: hemorragik leykoplastik mikrobid

Mitbreyt aparatı-ayaqqabısı (И.М. Митбрейн, 1922, sov.ortopedi) – ayaq barmaqlarının deformasiyası zamanı ucları açıq və şüşə ilə təmin olunmuş ayaqqabı (barmaqlararası məsafədən deformasiya olunmuş barmaqlar bu şüşəyə sıxılır)

Mitbreyt əməliyyatı (И.М. Митбрейн) – V bel və I oma fəqərəarası disklərinə sağtərəfli peritondankənar yolla müdaxilə (spondilolistezin cərrahi müalicəsi zamanı tətbiq olunur)

Mitçell xəstəliyi (S.W.Mitchell, 1839-1914, amer. nevropatoloq) – *bax:* eritromelalgiya

Mitçell üsulu (S.W.Mitchell) – nevrozlu xəstələrin gün ərzində yüksəkkalorili qidalarla tez-tez (8-9 dəfə) qidalandırmaqla müalicəsi

Mitotik ingibitor – *bax:* mitotik zəhər

Mitotik zəhər (sin. mitotik ingibitor) – mitoz prosesinə ləngidici təsir göstərən zəhər; sitoloji müayinələrdə istifadə olunur

Mitral astma (*asthma mitrale*) – ürəyin mirtal qüsuru zamanı baş verən ürək astması

Mitral dəlik – *bax:* sol qulaqcıq-mədəcik dəliyi

Mitral qapağın sallanması – döş sümüyündən solda, III-IV qabırğaarası sahədə yandırıcı və təzyiqedici ağrı ilə gedən ürək qüsuru

Mitsetoma *(mycetoma)* – *bax:* moduromikoz

Mitsud antigeni – *bax:* lepromin

Mizandriya *(misandria)* – qadınlarda kişilərə qarşı patoloji ikrah hissinin yaranması

Mizantropiya – ruhi xəstələrdə insanlara qarşı nifrət hissi

Mizofobiya *(mysophobia)* – çirklənməkdən və ya yoluxmaqdan patoloji qorxu

Mizoginiya *(misogynia)* – kişilərdə qadınlara qarşı nifrət hissi

Mizopediya *(misopaedia)* – uşaqlara qarşı patoloji ikrah hissinin yaranması

Mnemofobiya (*mnemophobia*) – xatirələrdən, xatırlamalardan qorxma

Mnemonika *(*yun. *mnemonika* yadda saxlama sənəti*)* – təsviri incəsənət assosiasiyası ilə yaddaşın asanlaşdırılması üsulu

Mnemoskop – ambliopik gözün məşq etdirilməsi üçün alət

Mobil (*mobilis*) – hərəkətli

Mobil əməliyyatxana – *bax:* avtoəməliyyatxana

Mobil rentgen stansiya – *bax:* avtorentgen

Mobil sarğı otağı – *bax:* avtosarğı otağı

Modifikasiya etmək *(modification)* – şəklini, formasını dəyişmək

Moduromikoz (*moduromycosis*) – zədələdiyi toxumada sarı və qara dənələr şəklində dəyişiklik əmələ gətirən dərin mikoz

Mogiqrafiya *(mogigraphia)* – *bax:* yazı spazmı

Mogilaliya *(mogilalia)* - ayrı-ayrı hecaların tələffüz edilməsi zamanı pəltəklik

Moksa (yap. *moe kusa* acı ot) – bioloji aktiv nöqtələrdə dərinin yandırılması və qızdırılmasına əsaslanan reflektor terapiya üsulu; snir sisteminin funksional pozğunluqlarının, allergik xəstəliklərin müalicəsi zamanı tətəbiq olunur

Moli fenomeni – dərin düşüncə pozuntuları zamanı olmuş həyəcanların yaddaşda saxlanılması

Molizmofobiya *(molysmophobia)* – xəstələnməkdən patoloji qorxu

Molotkov üsulu (А.Г.Молотков,1874-1950,sov.neyrocərrah) – zədələnmiş zonanın sinirlərinin kəsilməsi ilə trofiki yaraların müalicəsi metodu

Momberq kəməri – qarın aortası və onun şaxələrinin zədələnməsi zamanı qanaxmanı müvəqqəti dayandırmaq üçün kəmər

Momburq üsulu (F.A.Momburg, 1870-1939, alm. cərahı)– çanağın iri arteriyalarından qanaxma zamanı qanaxmanın müvəqqəti dayandırılma üsulu (qasıq nahiyəsinə sıxıcı jqutun qoyularaq qarın aortasının sıxılması ilə)

Momburqun bağırsaq tikişi (F.A. Momburg) – Şmiden tikişinin modifikasiyası (tikiş bağırsağın selikli qişasından keçmir)

Mommsen aparatı (E.Mommsen, alm. ortopedi) – barmaq kontrakturaları zamanı tətbiq olunan ortopedik aparat

Monaldi üsulu (V.Monaldi, 1899,italyanpulmonoloqu) – ağciyərlərin böyük kavernalarının transtorakal yeridilmiş kateter vasitəsi ilə dren-

ləşdirilərək aparılan cərrahi müalicəsi

Monastırski əməliyyatı (Н. Д. Монастырский, 1847-1888, sov. cərrahı) – *bax:* xolesistoyeyunostomiya

Mondini anomaliyası – KT müayinəsi zamanı ilbiz qıvrımının natamam ayrılması, qıvrımların sayının azalması, dəhliz və yarımdairəvi kanalların inkişafdan qalması

Mondini sindromu – karlıq, anosmiya, dovşandodaqlıq və qurdağızlıq, ürəyin kombinə olunmuş qüsurları ilə xarakterizə olunan inkişaf anomaliyaları

Mondonezi simptomu (F.Mondonesi, italyan) – göz almasına təzyiq etdikdə zədələnmənin əks tərəfində üz əzələsinin yığılması (insultun əlaməti)

Mondor xəstəliyi (H.J.Mondor, 1855-1962, fransız cərrahı)– tam sağlamlıq vəziyyətindən kəskin respirator xəstəliyin simptomlarını xatırladan əlamətlərlə başlayan, döş qəfəsinin ön və yan səthində damar boyunca naqili xatırladan qalınlaşma və ağrı ilə gedən xəstəlik

Mondor sindromu (H. J. Mondor) – kəskin pankreatit zamanı peritonun qıcıqlanma əlaməti ilə xəstənin üzünün sianozunun eyni zamanda təzahür edilməsi

Money sindromu – xəstəliyin sonunda karlıq və korluqla nəticələnən, proqressivləşən ağıreşitmə və uzağı pis görmədən ibarət irsi inkişaf anomaliyası

Moniliaz *(moniliasis) – bax:* kandidoz

Moniliidlər *(moniliida) – bax:* kandidamikidlər

Monitor *(monitor) – bax:* kardiomonitor

Monitor müşahidəsi – həyatı vacib funksiyaların uzunmüddətli qeydiyyatı və izlənməsi (məs., kardiomonitorla)

Monkriff sindromu (A.Moncrieff, ingilis pediatr) – karbohidrat mübadiləsinin anadangəlmə pozğunluğu (alimentar saxarozuriya, laktozuriya, fruktozuriya, fiziki və zehni inkişafın ləngiməsi, diafraqmal yırtıq)

Monoanesteziya *(monoanaesthesia)* – bir ətrafda hissiyyatın olmaması

Monoartrit (*monoarthritis*) – bir oynağın iltihabı

Monoautovaksin (*monoautovaccinum*) – hər hansı bir xəstəliyin müalicəsi üçün xəstə və ya daşıyıcının öz orqanizmindən alınmış bir yoluxucu xəstəliyə qarşı vaksin

Monobraxiya *(monobrachia)* – bir əlin olmamasından ibarət inkişaf anomaliyası

Monodaktiliya (*monodactylia*) – inkişaf anomaliyası: birbarmaqlı əl

Monofagiya *(monophagia)* – orqanizmin yalnız bir növ qida ilə qidalanaraq yaşaya bilməsi

Monofobiya (*monophobia*) – tək qalmaqdan patoloji dərəcədə qorxma

Monoxord *(monochorde)* – audiometriya üçün cihaz

Monoxoreya *(monochorea)* – hiperkinezin bir ətrafla məhdudlaşdığı xoreya

Monoxromatik – yalnız bir rəngi ayıra bilən

Monoxromaziya – rəngli əşyaların ağ-qara qəbul edilməsi

Monoideizim *(monoideismus)* – ruhi xəstələrin şüurunda hər hansı bir fikrin dominantlıq təşkil etməsi

Monokauzalizm *(monocausalismus)* – yoluxucu xəstəliklərin inkişafında mikroorqanizmin orqanizmə daxil

olmasını əsas götürən istiqamət (makroorqanizmin individual həssaslığını və yaşayış şəraitini nəzərə almadan)

Monokulyar – birgözlü

Monoloq simptomu – şizofreniya zamanı xəstənin verilmiş suala cavab olaraq dayanmadan danışması

Monomaniya *(monomania)* – psixi pozğunluğun bir növü ilə təzahür edən psixoz (məs., sayıqlama və ya eşitmə hallüsinasiyaları ilə)

Monomisin *(monomycinum)* – aminoqlikozidlər qrupundan olan genişspektrli antibiotik

Mononevrit *(mononeuritis)* – bir sinirin iltihabı

Monoossal – bir sümüyün zədələnməsinə aid olan

Monoparez *(monoparesis)* – bir ətrafın parezi

Monopatofobiya – müəyyən xəstəlikdən patoloji qorxu

Monoplegiya *(monoplegia)* – bir ətrafın iflici

Monopodiya *(monopodia)* – bir ayağın olmamasından ibarət inkişaf anomaliyası

Monorxizm *(monorchismus)* – anadangəlmə olaraq bir xayanın olmaması

Monosimptom *(monosymptoma)* – hər hansı bir xəstəliyin yeganə simptomla təzahür etməsi

Monosit *(monosytus)* – 12-20 mkm diametrli yetişmiş leykosit (periferik qanın aktiv faqositi)

Monositar angina (*angina monocytica*) – *bax:* infeksion mononukleoz

Monositopeniya *(monosytopenia)* – periferik qanda monositlərin sayının azalması (pernisioz anemiyalar zamanı təsadüf olunur)

Monositoz *(monocytosis)* – periferik qanda monositlərin sayının artması (bəzi infeksion xəstəliklərdə müşahidə olunur)

Monosporioz *(monosporiosis)* – *Allescheria boydi* göbələkləri tərəfindən törədilən dərin mikoz (meningit, meninqoensefalit şəklində təzahür edir)

Monoterapiya – bir müalicə üsulu və ya bir dərmanla müalicə

Monotoniya *(monotonia)* – eynicinsli işi icra etmək nəticəsində orqanizmdə yaranan funksional vəziyyət

Monovaksin *(monovaccinum)* – bir növ mikroorqanizmdən hazırlanmış vaksin

Monovalent anticism – antigenin determinantı ilə əlaqəyə girmək qabiliyyətinə malik yalnız bir antideterminantı olan anticism

Monrad-Kron simptomu (Monrad, Krohn) – qeyri-iradi mimiki hərəkətlərin saxlanıldığı halda, iradi mimiki hərəkətlərin mümkün olmaması (üz sinirinin mərkəzi iflici zamanı təsadüf olunur)

Monro nöqtəsi (D.Monro) – qarın boşluğunun punksiyası üçün orientir nöqtə (göbəyi sağ ön yuxarı qalça sümüyü ilə birləşdirən xəttin ortası)

Monro sistemi (D.Monro, 1889, amer. cərrah) – sidik kisəsinin uzunmüddətli drenləşdirilməsi üçün sifonla təmin edilmiş kateter

Montandon simptomu (A.Montandon, isveçrəli həkimi) – qırtlağa maye qidanın düşməsi nəticəsində qida borusunun boyun hissəsinin tutmaşəkilli miogen disfagiyası

Montandon sindromu (A.Montandon) – miogen mənşəli disfagiya nəticəsində kaxeksiya

Montedji sınığı (G.B.Monteggia, 1762-1815, ital. cərrahı) – dirsək sümüyünün başının çıxığı ilə müşayiət olunan mil sümüyünün aşağı və ya orta 1/3-də sınığı

Monumentofobiya – heykəllərdən patoloji qorxu

Moos üsulu – karlığın simuləsini aşkar etmək üçün kamertonun müayinə olunan şəxsin əmgək nahiyəsinə yerləşdirilməsi ilə aparılan sınaq

Mor sıxacı (Moor) – rezin boruları sıxmaq üçün istifadə olunan sıxac

Mor sindromu (O.L. Mohr, norveç həkimi) – bir neçə hissəyə bölünmüş dil, sərt damağın hündürdə yerləşməsi, dovşandodaqlıq və qurdağızlıq, hava keçiriciliyinin pozulması nəticəsində ağıreşitmə ilə gedən inkişaf anomaliyası; çox vaxt uşaq yaşlarında ölümlə nəticələnir

Morel xəstəliyi (E.Morel,1888-1957, isveçrəli psixiatr) – alkoqol ensefalopatiyasının bir növü (baş beynin alın payının simmetrik zədələnməsi ilə xarakterizə olunan, psevdoparalitik sindrom, əzələ rigidliyi, ataksiya və apraksiya)

Morelin dizorik angiopatiyası – baş beynin xırda arteriya, arteriol və kapilliyarlarının qocalıq düyünləri ilə birgə təzahür etməsi; Alsgeymer xəstəliyi və qocalıq ağıl kəmliyi zamanı təsadüf edilir

Morest plastikası (H.Morestin, 1869-1919, frans. cərrahı) – çapıq kontrakturaları zamanı icra olunan cərrahi əməliyyat (çapığın boylama kəsilməsi və şahmat qaydası ilə köndələn kəsiklərin aparılması, ətrafın fizioloji vəziyyətdə fiksə edilməsi, əməliyyat yarasının tikilməməsi)

Morfan sindromu (B.J.A.Marfan, 1858-1942, frans. pediatr) – döş aortasının anevrizması olan xəstələrdə rast gəlinən sindrom (hündür boy, nazik, uzunsov üz quruluşu, ətrafların qeyri-proporsional uzun olması, «hörümçəyə bənzər» barmaqlar və büllurun ektopiyası)

Morfi hidroxlorid (*morphini hydrochloridum)* – narkotik analgetiklərin əsas nümayəndəsi

Morfinizm *(morphinismus)* – morfidən asılı hala düşmə

Morfinofobiya – morfiyə qarşı meyllənməkdən patoloji qorxu

Morfinomaniya *(morphinomania)* – morfiyə alüdəçilik, morfinizm

Morfodinamika – inkişafda olan orqanizmin forma və struktur dəyişikliyinin cəmi

Morfofizioloji proqres – *bax:* aromorfoz

Morfogenez *(morphogenesis)* – orqanizmin və ya onun bir hissəsinin yaranması və inkişafı

Morfoqramma – insan orqanizminin əsas hissələrinin nisbi mütənasibliyini göstərən sxem

Morfologiya *(morphologia)* – orqanizmin forma və quruluşunu öyrənən elmlərin kompleksi (anatomiya, histologiya, sitologiya, embriologiya, patoloji anatomiya)

Patoloji morfologiya – *bax:* patoloji anatomiya

Morfometriya – müxtəlif orqanların ölçülərinin müəyyən edilməsi

Morfosiklin *(morphocyclinum)* – tetrasiklin qrupundan olan genişspektrli antibiotik

Morfostaz – diferensəolunmuş toxumaların davamlı vəziyyəti

Moriak sindromu (P. Mauriac, 1882-1963, frans. həkimi) – şəkərli dia-

beti olan uşaqların insulinin kifayət qədər olmayan dozası ilə uzunmüddətli müalicəsindən yaranan boyun və cinsi inkişafın ləngiməsi, piylənmə və hepatomeqaliya

Morkio simptomu (L.Morquio, 1867-1935, uruqvaylı pediatr) – arxası üstə uzanmış xəstənin ayağını diz oynağında bükmədən otura bilməməsi (polimielitin ilkin əlamətlərindən biri)

Morq *(*frans. *morgue)* – meyitlərin saxlandığı yer, meyitxana

Morqani xəstəliyi (G. B. Morgagni, 1682-1771, ital. həkim və anatomu) – *bax:* Morqani sindromu

Morqani kataraktası *(cataracta Morgagniana;* G. B. Morgagni) – həddən artıq yetişmiş qocalıq kataraktası

Morqani sindromu *(*G.B. Morgagni, 1682-1771, ital. həkim və anatomu) – yalnız qadınlarda təsadüf olunan, alın sümüyünün daxili lövhəsinin hiperostozu, virilizm, piylənmə, amenoreya ilə müşahidə olunur

Morqani triadası (G. B. Morgagni) – *bax:* Morqani sindromu

Morqani-Adams-Stoks sindromu (G.B. Morgagni, 1682-1771, ital. həkimi; R. Adams, 1791-1895, irl. həkim; W. Stokes, 1804-1878, irl. həkim) – qəfildən baş verən qıcolma və huşun itməsi, dərinin avazıması, sianoz və tənəffüsün pozulması; tutma zamanı arterial təzyiq təyin olunmur və adətən ürək tonları eşidilmir

Morqani-Xenşen sindromu (G. B. Morgagni; S.E. Henschen, 1847-1930, İsveç həkimi) – *bax:* Morqani sindromu

Morqani-Styüart-Morel sindromu (G.B. Morgagni; R.M.Stewart, ing. neropatoloqu; F.Morel,1888-1957, isveçrəlı psixiatr) – *bax:* Morqani sindromu

Moro sınağı (E.Moro,1874-1951, alm. pediatrı*)*– tuberkulin və lanolindən ibarət qatışığın döş qəfəsi və qarnın ön divarına, dəri kəsilməklə qoyulan allergik dəri sınağı

Moro sınağı (E.Moro) – vərəm xəstəliyini aşkar etmək üçün qoyulan dəri sınağı

Morozovanın damar tikişi (А.И.Морозова, 1875-1925, sov. cərrahı)– Karrel tikişinin modifikasiyası (üç tutucu tikiş əvəzinə iki tikişdən istifadə edilməsi)

Morozov-Yunqlinq ostiti (H.B. Морозов, rus həkimi; O. Jungling, 1884-1944, alm. cərrahı) – əl və ayaq barmaqlarının falanqalarının qranulemalar şəklində çoxsaylı zədələnməsi; sarkoidozlu gənc xəstələrdə müşahidə olunur

Morris simptomu (R.T.Morris, 1857-1945, amer. cərrahı) – sağ ön yuxarı qalça qanadını göbəklə birləşdirən xəttin V sm-nin palpasiyasının ağrılı olması; kəskin appendesitin simptomu

Moskit infeksiyası – *bax:* flebutom qızdırması

Moskit sıxacı – əsasən uşaq cərrahiyyəsində və neyrocərrahiyyədə istifadə olunan sıxaclar

Mosso nəzəriyyəsi (A.Mosso, 1846-1910, ital. fizioloqu) – yuxunun baş beynə gələn qan axınının kəskin azalması nəticəsində əmələ gəldiyini izah edən nəzəriyyə

Moşkoviç xəstəliyi (E.Moschowitz, 1879-1964, amer. həkimi) – hemolitik anemiya, trombositopeniya və hemorragik sindromla gedən autoimmun mənşəli kəskin xəstəlik

Moşkoviç sınağı (L.Moszkowitz, 1873, avstriyalı cərrah) – ətrafların amputasiyası zamanı qoyulmuş jqutun çıxarılmasından sonra dəridə əmələ gələn reaktiv hiperemiyaya əsasən, amputasiya xəttinin təyin edilməsi

Moşkoviç-Singer-Simmers sindromu (E.Moschowitz; K.Singer; P.Symmers,1879-1952, amer. patoloq) – *bax:* Moşkoviç xəstəliyi

Mote əməliyyatı (E.Motais, 1845-1913, frans. oftalmoloqu) – göz qapağının ptozunun aradan qaldırılması plastik əməliyyatı

Motor afazisiyası – beynin sol alın payının aşağı nahiyəsinin zədələnməsi zamanı yaranan nitq pozğunluğu

Motorika – orqanizmin, ayrı-ayrı orqanların hərəki aktivliyi (bura həmçinin boşluqlu orqanların divarlarının və saya əzələlərin yığılması da daxildir)

Motorofobiya – *bax:* amaksofobiya

Mottefobiya – güvələrdən patoloji qorxu

Moulem – Cekson autoplastikası (R. Mowlem; D.Jackson) – geniş yanıq səthinin növbəli olaraq zolaqşəkilli auto və allotransplantlarla plastikası

Movşoviç əlaməti (И.А.Мовшович, sov. ortopedi) – rentgenoloji olaraq fəqərə cisminin aşağı yan kənarında osteoporoz əlamətlərinin aşkar edilməsi (proqressivləşən skoliozun əlaməti)

Mozaik göbələklər *(fungi mosaici)* – bəzi xəstəliklər zamanı dəridə boyunbağı, çoxgüşəli fiqurlar formalı, qabıqlanma verən göbələklər

Mozer tikişi (H.Moser, 1914, avstriyalı cərrah) – qarnın ön divarında yaranın sağ tərəfindəki dəri və dərialtı toxumadan sol kənarın apanevroz və əzələ qatına keçən və yaranın sol tərəfindəki dəri və dərialtı toxumadan sağ kənarın apanevroz və əzələ qatına keçən düyünlü çarpaz tikiş

"Möcüzəvi" tor *(retemirabile)* – arteriyadan başlayıb arteriyaya tökülən və ya venadan başlayıb venaya tökülən kapillyar toru

Muk simptomu – qazanılmış karlıq zamanı aşağı burun balıqqulaqlarının selikli qişasına adrenalin məhlulu sürtdükdə və onun üstündə zondla xətt çəkdikdə ağ zolağın əmələ gəlməsi

Mukaltin (*mucaltinum*) – gülxətmi bitkisindən alınan bəlğəmgətirici preparat

Mukoid maddə – *bax:* psevdomusin

Mukoklaziya – selikli qişanın çıxarılması

Mukokolpos *(mucocolpos)* – uşaqlıq yolunda seliyin toplanması

Mukopolisaxaridoz (*mucopolysaccharidosis*) – mukopolisaxaridlərin mübadiləsinin pozulması ilə əlaqədar olan irsi xəstəliklərin ümumi adı; mübadilənin pozulması nəticəsində mukopolisaxaridlər orqan və toxumalarda toplanır və artıq miqdarda sidiklə ifraz olunurlar

Mukopolisaxaridoz I tip *(*sin. Qurler sindromu, Qurler-Şeye sindromu, Şeye sindromu*)* – α-L-iduronidazanın defektinin səbəb olduğu və hepatosplenomeqaliya, buynuz qişanın tutqunlaşması, skeletin deformasiyası, əqli geriliklə xarakterizə olunan mukopolisaxaridoz; autosom-ressesiv yolla ötürülür

Mukopolisaxaridoz II tip (sin. Qunter sindromu*)* – dərinin zədələnməsi, işığa həssaslığının artması, hemolitik anemiya, eritrodontiya (dişlərin qırmızı rəngə boyanması) ilə təza-

hür edən, autosom-ressesiv yolla ötürülən irsi eritropoetik porfiriya

Mukopolisaxaridoz III tip *(*sin. Sanfilippo sindromu*)* – heparansulfatsulfatazanın, N-asetil-α-D-qlükozaminidazanın və ya α-qlükozaminidazanın defekti ilə əlaqədar olan və əqli gerilik, sinir sisteminin zədələnməsi, skeletin zəif deformasiyası ilə xarakterizə olunan mukopolisaxaridoz; autosom-ressesiv yolla ötürülür

Mukopolisaxaridoz IV tip *(*sin. Morkio sindromu*)* – xondroitinsulfat-N-asetil-geksozoaminsulfatazanın defekti ilə əlaqədar olan və skeletin kobud deformasiyası (əsasən döş qəfəsinin) ilə xarakterizə olunan mukopolisaxaridoz; autosom-ressesiv yolla ötürülür

Mukopolisaxaridoz V tip *(*sin. Qurler sindromu, Şeye sindromu*)* - α-L-iduronidazanın defekti ilə əlaqədar olan və skeletin deformasiyası, buynuz qişanın tutqunlaşması ilə xarakterizə olunan mukopolisaxaridoz; autosom-ressesiv yolla ötürülür

Mukopolisaxaridoz VI tip *(*sin. Maroto-Lami xəstəliyi*)* – M-asetilqalaktozamin-sulfatsulfatazanın defekti ilə əlaqədar olan skeletin deformasiyası, boyun çox kiçik olması, buynuz qişanın tutqunlaşması ilə xarakterizə olunan mukopolisaxaridoz; autosom-ressesiv yolla ötürülür

Mukopolisaxaridoz VII tip – β-qlükuronidazanın defekti ilə əlaqədar olan və klinik təzahürlərə görə I tip mukopolisaxaridozu xatırladan (buynuz qişanın tutqunlaşması olmadan) mukopolisaxaridoz

Mukoromikoz *(mucoromycosis)* – *bax:* rinoserebral fikomikoz

Mukosele *(mucosele)* – göz yaşı kisəsinin genəlməsi

Mukosit *(mucocytus)* – selik və ya zülal-selik ifraz edən vəzilərin sekretor hissəsinin hüceyrəsi

Mukozit – selikli qişanın iltihabı

Multiinfarkt demensiya – bir neçə kiçik işemik zədələnmə nəticəsində meydana çıxan demensiya

Multikistoz böyrək – nadir rast gəlinən bətndaxili inkişaf anomaliyası olub, böyrək toxumasının bütövlükdə xırda sistlərlə əvəz olunması, sidik axarının obliterasiya edilməsi ilə xarakterizə olunan hal

Multostat – *bax:* pantostat

Mulyaş simptomu – spru xəstəliyi zamanı, rentgenoloji müayinədə nazik bağırsaq ilgəklərində kontrast maddənin davamlı ləngiməsi

Mumifikasiya *(mumificatio)* – meyitin uzun müddət saxlanılmasını təmin edən quruması

Munye-Kun sindromu (P.Moanier-Kuhn, frans. otolarinqoloqu) – *bax:* traxeobronxomeqaliya

Mur artroplastikası (A. T. Moore, amer. cərrahı) – bud sümüyü başının və boynunun metallik endoprotezlə əvəz edilməsi cərrahi əməliyyatı

Mur əməliyyatı (E. J. More, 1855-1941, frans. otorinolarinqoloqu) – burun boşluğunun yuxarı hissəsinin, xəlbir labirintinin şişləri zamanı icra olunan cərrahi əməliyyat

Mur simptomu (E. J. More) – 1) qıtrlaq şişi zamanı qırtlağı horizontal istiqamətdə hərəkət etdirdikdə krepitasiyanın hiss edilməməsi; 2) qırtlağın qığırdaqarası oynaqları arasında infiltrat olduğu zaman qalxanabənzər qığırdağı onurğaya tərəf sıxıb sağa və sola hərəkət

etdirdikdə krepitasiyanın eşidilməməsi

Mur sindromu (köh.; M. T. Moore, 1901-ci an. olub, amer. həkimi) – əsas etibarilə abdominal epileptik tutmalarla təzahür edən epilepsiya

Mure mastoiditi (J.P. Mouret, 1865-1928, frans. otorinolarinqoloqu) – məməyəbənzər çıxıntının zirvəsində yerləşən irinli prosesin limfatik yollarla boynun dərin limfatik düyünlərinə, udlaqətrafı sahəyə və onurğa ətrafına yayılması (vidaci venanın trombozu nəticəsində mediastinit və ya udlaqətrafı abseslə ağırlaşa bilər)

Mursu əlaməti (Moursou) – epidemik parotit zamanı qulaqətrafı axacaq dəliyinin selikli qişasının göyümtül-qırmızı rəngdə şişkinləşməsi

Musiqi korluğu *(alexia musicalis)* – not yazısının başa düşülməsi qabiliyyətinin itirilməsindən ibarət aqnoziya

Musin – selikli sekret

Muskarinizm *(muscarinismus)* – tərkibində muskarin olan göbələklərlə (muxomor) qidalandıqda yaranan toksimaniya

Muskul trener *(muscul trainer)* – gözün hərəkətliyini artırmaq üçün gözün hərəki sinirini məşq etdirən cihaz

Mutagen – mutasiya törətmək qabiliyyəti olan bioloji, fiziki və kimyəvi amillərin ümumi adı

Mutagen stabillik – mutagen faktorların təsirinə davamlılıq

Mutagenez – mutasiya əmələ gəlmə prosesi

Mutar-Marten simptomu *(*E.Moutard-Martin, 1881-1961, frans. həkimi*)* – bel-oma radikuliti zamanı xəstə ayaqda Laseq simptomu yaradıldıqda sağlam ayağın Balle nöqtəsində ağrının olması

Mutasion prosses – *bax:* mutagenez

Mutasiya *(mutatio)* – müxtəlif amillərin təsiri altında baş verən, irsən keçən genotipik dəyişiklik, transformasiya

Mutasizm – *bax:* mutizm

Mutilyasiya *(mutilatio)* – orqanizmin nekrozlaşmış hissəsinin öz-özünə qopub düşməsi

Leproz mutilyasiya *(m. leprosa)* – əsasən diferensə olunmamış cüzam zamanı əl və ayağın öz-özünə amputasiyası

Sklerodermik mutilyasiya *(m. sclerodermica)* – sklerodermiya zamanı dərinin atrofiyası və sümük toxumasının sorulması nəticəsində barmaq falanqalarının öz-özünə amputasiyası

Mutizm *(mutismus)* – nitqin ləngiməsi, lallıq (xəstənin nitq aparatının normal olunan şəraitində)

Akinetik mutizm (*m. akineticus*) – orta beynin orqanik zədələnmələri zamanı göz almasının hərəkətindən başqa digər hərəki funksiyaların tormozlanması nəticəsində yaranan mutizm

Elektiv mutizm – uşaqlar arasında rast gəlinən yüngül mutizm (belə uşaqlar ailədə özünü sərbəst hiss etdikləri halda, kənar adamların yanında sıxıntı keçirir)

Xoreik mutizm *(m. choreicus)* – revmatik xoreya zamanı hiperkinezin qırtlaq əzələlərinə yayılması nəticəsində nitqin çətinləşməsi

İsterik mutizm *(m. hystericus)* – isteriya zamanı mimiki təzahürlərin artırılması ilə birgə gedən mutizm

Katatonik mutizm *(m. catatonicus)* – katatonik sindrom zamanı mimiki

hərəkətlərin olmaması ilə birgə gedən mutizm

Parsial mutizm – hər hansı bir səbəbdən danışmamaq (bəzən onu əhatə edənlərlə yazılı formada kontakta girmək

Seçici mutizm *(m. selectivus)* – yalnız müəyyən şəraitdə və müəyyən insanlarla danışıq zamanı meydana çıxan mutizm

Total mutizm – bütün hallarda insanlarla komunikal kontakta girməkdən imtina

Uşaqlarda elektiv mutizm – psixi pozuntu ilə əlaqədar olaraq uşaqlarda danışa bilməmək

Muzofobiya – siçanlardan patoloji qorxu

Myuze sıxacı (Museux, frans. cərrahı, 19 əsr) – ginekoloji əməliyyatlar zamanı uşaqlıq boynunu tutmaq üçün istifadə olunan dişli sıxac

Müalicə – sağlamlığın bərpa olunmasına yönəlmiş müxtəlif tədbirlərin ümumi adı

Ambulator müalicə – xəstələrə poliklinika və ya ev şəraitində müalicəvi-profilaktik tədbirlər göstərən müəssisə

Kurort müalicəsi – *bax:* sanator-kurort müalicəsi

Mərhələli müalicə – tibbi təxliyyə mərhələlərində aparılan müalicə

Sanator müalicə – *bax:* sanator-kurort müalicəsi

Sanator-kurort müalicəsi – təbii və süni (məs., fizioterapevtik) vasitələrin müalicəvi təsirindən istifadə etməklə, sanatoriya şəraitində aparılan müalicə

Stasionar müalicə – xəstələrin stasionarda yerləşdirilməsi ilə aparılan müalicə

Müalicəvi hovuz – müalicə – profilaktik müəssisələrin nəzdində fəaliyyət göstərən üzmə hovuzu (suda müalicəvi gimnastika, dozalanmış üzgüçülük və sualtı dartma)

Müalicəvi kulinariya – müalicəvi qida üçün qida maddələrinin və xörəklərin hazırlanması üsulları

Müalicəvi qıcıqlandırma – iltihabın törətdiyi ağrını sakitləşdirmək üçün müalicə metodu

Müalicəvi qida – *bax:* dietoterapiya

Müalicəvi pedaqogika – fiziki və zehni inkişafdan qalmış uşaqların tərbiyəsi və təhsili ilə məşğul olma üsulu (yardımcı məktəblər, uşaq ruhi xəstəxanalarının şöbələri)

Müalicəvi vasitə – *bax:* dərman vasitələri

Müalicəvi-profilaktik kömək – əhaliyə tibbi yardım göstərmənin dövlət tərəfindən təşkil olunmuş sistemi

Müalicəvi-profilaktik qidalanma *(prophylactic dietary, alimentacion medica-profilactica)* – zərərli faktorların təsirinin yarada biləcəyi fəsadların qarşısını almaq üçün seçilmiş qidalanma rasionu

Müalicəvi-profilaktik müəssisə – əhaliyə tibbi yardım göstərən müəssisələrin ümumi adı (ambulator-poliklinika, xəstəxana, sanator-kurort, dispanser, təcili yardım stansiyaları, qanköçürmə müəssisələri və s.)

Müalicəvi-profilaktik təminat – sülh dövründə hərbi birləşmələrin tibb müəssisələri tərəfindən hərbçilərin sağlamlığını qorumağa yönəlmiş müalicəvi-profilaktik tədbirlər kompleksi

Müalicəvi-təxliyyə müəssisəsi – döyüş şəraitində yaralı və xəstələrin təxliyyəsi və müalicəsi ilə məşğul olan hərbi-tibbi müəssisə

Müalicəvi təxliyyə təminatı – yaralı və xəstələrə onların təxliyəsi və müalicəsinin son mərhələsinə qədər (sağalma, tərxis və ya ölüm) göstərilən tibbi yardımların məcmusu

Mübadilə fondu – hərbi təbabətdə xərək, yataq dəsti, örtük və digər saitar-təsərrüfat əşyaları ehtiyatı

Müddətdən artıq xidmət edən hərbi qulluqçu (MAXE) – əlavə olaraq hərbi xidmətə cəlb edilmiş, həqiqi hərbi xidmət keçmiş və ya ehtiyatda olan hərbi qulluqçular, əksər hallarda çavuş və gizirlər

Müddətli hərbi qulluqçu, əsgər –qanunla müəyyən edilmiş müddətdə orduda və ya donanmada hərbi xidmət edən hərbi qulluqçu

Mügənnilərin psevdodüyünləri – həqiqi səs tellərinin sərhədində qan və limfa dövranının pozulması nəticəsində, seliyin yarımşəffaf törəmə şəklində toplanması (mügənnilərdə və səs aparatını gərginləşdirmək məcburiyyətində qalan digər şəxslərdə rast gəlinir)

Mühafizə qurğuları – qoşunun şəxsi heyətini, hərbi texnikasını, maddi ehtiyatlarını, həmçinin mülki əhalini zərbə vasitələrindən qorumaq üçün nəzərdə tutulan mühəndis qurğuları

Mühafizə geyimi – dəri örtüyünü nüvə partlayışının, işıq şüalanmasından, radioaktiv tozdan və bakterial aerozoldan qoruyan xüsusi geyim

Mühafizəedici pasta – professional ziyanın və massiv zədələyici silahların təsirinin qarşısını almaq və ya zəiflətmək məqsədilə dəriyə vurulan pasta

Müharibə dövrünün melanozu – *bax:* Ril melanozu

Müharibə tələfatı – müharibə edən dövlətlərin cəbhədə və arxada insan tələfatı

Mühəndis qoşunları – əsas qoşun növünün mühəndis işlərini icra edən hissə və ya birləşmə

Müller müdaxiləsi (L. Muller, 1862-1936, çex oftalmoloqu) – fəqərə sütununun bel-oma nahiyəsinə transperitoneal müdaxilə

Müller mühiti *(*L.Muller, bakterioloq*)* – salmonellaları yetişdirmək üçün selektiv qida mühiti

Müller simptomu (F.Muller, 1858-1941, alm. həkimi) – şəffaf şpatel və ya sınaq şüşəsi ilə yungül təzyiq etdikdə nəbzə uyğun olaraq ritmik qaydada udlağın, dodağın, dırnaq yatağının qızarması və solğunlaşması

Müller sınağı (F.Muller) – tənəffus və qan dövranı sistemi orqanlarının xəstəlikləri, diafraqma, qida borusu və udlağın zədələnmələri zamanı aparılan funksional sınaq

Müller yaragenişləndiricisi (L. Muller, 1862-1936, çex oftalmoloqu) – üç cüt qarmaqcığı olan, yaylı məftil yaragenişləndirici; oftalmoloji cərrahiyyədə istifadə olunur

Müller-Blümberger koefisienti (K. Miller; K.Blumberger) – qovulma mərhələsinin gərginlik mərhələsinə nisbətinə əsasən, miokardın yığılma göstəricisi

Mürəkkəb oynaq *(articulatio composita)* – ikidən artıq sümüyün iştirakı ilə yaranan oynaq

Mürəkkəb toz *(pulvis compositus)* – iki və daha artıq dərman maddəsindən təşkil olunmuş toz

Müsariqənin lipoqranulematozu (*lipogranulomatosis mesenterii*) – *bax:* intestinal lopodistrofiya

Müsbət simptomlar – pozitiv psixopatoloji simptomlar

Müsse simptomu – ürək ritmi ilə sinxron olaraq başın önə və arxaya hərəkət etdirilməsi (aortal klapanın çatışmazlığı zamanı rast gəlinən əlamət)

Müşahidəedici palata – ruhi-əsəb xəstəxanalarında özünə və ətrafdakılara fiziki zərər vura biləcək xəstələrin müşahidəsi üçün nəzərdə tutulan xüsusi palata

Müştərək hərbi travma – eyni zamanda 2 və daha artıq anatomik nahiyənin zədələnməsi

Müştərək şüa müalicəsi – bir neçə növ şüalanmadan istifadə edilməklə aparılan şüa müalicəsi

Müştərək ürək qüsurları – eyni zamanda bir neçə qapağın zədələnməsi ilə gedən ürək qüsurları

Mütləq ekstremal zona – *bax:* superekstremal zona

Mütləq eşitmə (*auditus absolutus)* – anadangəlmə olaraq səslərin yüksəkliyinin qəbuledilmə qabiliyyəti

Mütləq göstəriş – hər hansı bir diaqnostik və ya müalicəvi tədbirin həyata keçirilməsini sözsüz tələb edən göstəriş

Mütləq korluq (*caecitas absoluta*) – *bax:* korluq

Mütləq refrakterlik – oyanıqlıqdan dərhal sonra meydana çıxan və oyanıcıqlığın tam itməsi

Mütləq sidiyi saxlaya bilməmə (*inkontinentia urinae absoluta***)** – sidiyin sidik kisəsində toplanmadan daim axması (total epispadiya və sidik kisəsinin ekstrofiyası zamanı təsadüf olunur)

Müvazinət pozğunluğu – bədənin vəziyyətinin müstəvidə qısamüddətli və ya daimi idarə edilə bilməməsi

Müvəqqəti korluq – yüksək işıqlandırıcının təsirindən yaranan görmə analizatorunun hissiyyatının geri dönən zəifləməsi (məs., nüvə partlayışı zamanı işıq şüalanması nəticəsində)

Mycoplasma pneumaniae (sin. İton agenti) – Mycoplasma cinsindən olan mikroorqanizmlər növüdür, insanda ilkin atipik pnevmoniya törədicisidir

Myuir-Torr sindromu – dərinin piy şişləri, onikibarmaq və yoğun bağırsağın karsinoması, vaxtından əvvəl menopauza

Münhauzen sindromu – ruhi xəstələrdə özünü xəstə göstərməklə aylarla xəstəxanada müalicə olunmağa və cərrahi əməliyyat olunmağa cəhd etmələri, reallığa uyğun olmayaraq bütün bədən boyunca üzücü ağrıların olması, bu ağrıları aradan qaldırmaq üçün tam əməliyyat edilməsi tələbi formasında psixi pozğunluq

Myunxmeyer xəstəliyi (E.Munchmeyer, 1846-1880, alm. həkimi*)* – bütün skelet əzələlərində çoxsaylı sümükləşmə ocaqlarının inkişaf etməsindən ibarət naməlum etiologiyalı xəstəlik (diafraqma, dil və göz əzələləri istisna olmaqla)

N

N sindromu – ilk dəfə müşahidə olunan xəstənin baş hərfindən götürülmüş; ağıl kəmliyi, görmənin pozulması, yuxarı göz qapağında köndələn büküşlərn olması, karlıq, kriptorxizm, hipospadiya və limfoblast leykozdan ibarət simptomokompleks

Naffsiger simptomu (H.C.Naffziger, 1884-1956, amer. cərahı) – vidaci venaları sıxdıqda bel nahiyəsində ağrının meydana gəlməsi (bel-oma nahiyəsinin meninqoradikulitləri zamanı müşahidə olunur)

Naffsiger-Taun kəsiyi (H.C.Naffziger; E.B.Towne, 1883-1957, amer. cərahı) – boyun-ənsə nahiyəsinin yumşaq toxumalarının orta xətt boyunca kəsiyi (arxa kəllə çuxurunun şişləri zamanı tətbiq olunur)

Naftalan *(naphthalanum)* – neft və aromatik karbohidrogenlərdən alınmış təbii vasitə

Naftalan nefti – *bax:* naftalan

Naftalanla müalicə – qızdırılmış naftalanın vanna və ya sürtmə şəklində istifadə olunması ilə aparılan istiliklə müalicə növü

Naftamon *(naphthammonum)* – antihelmint preparat

Nafta-naftalan – *bax:* naftalan

Naftizin (*naphthyzinum*) – əsasən yerli təsir göstərən adrenomimetik maddə

Nakayama əməliyyatı (N. Nakayama, yapon cərahı) – bronxial astmanın müalicəsi zamanı yuxu qlomusunun rezeksiyası cərrahi əməliyyatı

Naqamatsu müdaxiləsi (G.E. Nagamatsu, yapon cərahı)– böyrək və böyrəküstü vəzə X-XII döş qabırğalarını kəsməklə aparılan cərrahi müdaxilə

Nalorfin (*nalorphini hydrochloridum***)** – narkotik analgetiklərin antoqonisti, opiat reseptorlarının antoqonisti

Nalvari böyrək – bətndaxili inkişaf anomaliyası

Nanofietoz *(nanophyetosis) – Nanophyetus schikhobalowi* tərəfindən törədilən, enteritin inkişafına səbəb olan helmintoz

Napalkov əməliyyatı (Н. И.Напалков, 1868-1938, sov. cərahı) – qaraciyərin girdə bağının mədə-köndələn çənbər bağırsaq bağı və böyük əyrilik boyunca keçirilərək qarın əzələlərinə tikilməsi ilə aparılan qastropeksiya əməliyyatı

Napalkov müdaxiləsi (Н. И.Напалков) – ürək əməliyyatları zamanı döş sümüyündən sağda III-V qabırğaları kəsməklə və döş qəfəsi loskutunu yaratmaqla aparılan cərrahi müdaxilə

Napalkov üsulu (Н. И.Напалков) – qadınlarda uşaqlıq yolunun selikli qişasından istifadə edilməklə aparılan rinoplastika əməliyyatı

Napalm *(*ing. *napalm, naphthenic acid , palmitic acid)* – çox qatı, müxtəlif səthlərə yaxşı yapışan, yandırıcı-odsaçan qatışıqlar kimi işlədilən yanacaq məhsulu

Napalm bombası – napalm doldurulmuş metal və ya plastik gövdəli yandırıcı aviasiya bombası

Naproksen (*naproxenum***)** – qeyri-steroid iltihab əleyhinə preparat

Narahat ayaq sindromu – sakitlik vəziyyətində, əsasən axşamlar ayaqlarda xoşagəlməz hissiyyatın olması və rahatlıq tapmaq üçün xəstəni hərəkətə məcbur edən hal

Narahatçılıq *(anxietas,atis)* – psixiatriyada heç bir səbəb olmadan xaotik və ya impulsiv hərəkətlər

Narkoanaliz – süni şəkildə rauş vəziyyətinə salınmış ruhi xəstənin həyəcan və hisslərinə görə aparılan müayinə

Narkohipnoz – hipnozun narkotik və ya yuxugətirici vasitələrin təsiri nəticəsində dərinləşdirilməsi və ya əldə edilməsi

Narkolepsiya *(narcolepsia; narco+-*yun. *lepsis* tutmalar; sin. Jelino xəstəliyi, essensial narkolepsiya*)*– narkotik maddə təsirindən yaranan yuxu

Essensial narkolepsiya *(narcolepsia essentialis) – bax:* narkolepsiya

Narkoleptik xəstəlik – *bax:* narkolepsiya

Narkoloji xidmət – alkoqolizm, narkomaniya və toksimaniya xəstəliyinə məruz qalmış xəstələrə tibbi-profilaktik, tibbi-sosial və tibbi-hüquqi yardım göstərən müəssisələr şəbəkəsi

Narkomaniya *(narcomania)* – narkotik maddələrə aludəçilik

Efir narkomaniyası – *bax:* efiromaniya

Narkoz aparatı – tənəffüs yolları vasitəsilə orqanizmə narkotik maddələrin yeridilməsini təmin edən aparat

Narkoz inhalyatoru – tənəffüs yoluna dozalanmış narkotik tərkibli qaz qarışıqlarının yeridilməsi üçün inhalyator

Narkoz 1 (*narcosis*; sin. ümumi anesteziya, ümumi ağrısızlaşdırma) – mərkəzi sinir sisteminin müxtəlif qıcıqları qəbuletmə mexanizmlərinin süni surətdə muvəqqəti sıradan çıxarılması; narkoz zamanı huş itir, reflekslər kütləşir, orqanizm xarici qıcıqlara qarşı reaksiya vermir, skelet əzələləri tonusdan düşür, ürək-damar və tənəffüs sistemlərinin fəaliyyəti zəifləyir

Peroral narkoz (*n. peroralis*) – narkotik maddənin ağız vasitəsilə yeridildiyi narkoz

Potensəolunmuş narkoz – narkotik vasitələrin təsirini gücləndirən dərman preparatlarının tətbiqi ilə alınan narkoz

Nazofaringeal narkoz (*n. nasopharyngealis*) – xəstənin burun-udlağına daxil edilmiş boru vasitəsi ilə verilən narkoz

Peritondaxili narkoz (*n. intraperitonealis*) – narkotik vasitənin periton boşluğuna yeridilməsi ilə əldə edilən narkoz

Narkoz 2 – huşun, ağrı hissinin və bir neçə reflektor funksiyaların müvəqqəti itməsi ilə müşahidə olunan mərkəzi sinir sisteminin fəaliyyətinin süni dayandırılması

Artuzionun efir narkozu – əvvəlcə dərin narkozun verilməsi, sonra analgeziyanın huşun saxlanılması ilə davam etdirilməsi

Balanslaşmış narkoz – narkotik maddələrin tətbiq olunan dozası ayrı-ayrılıqda narkotik təsir göstərə bilməyən qarışıq narkoz

Bir ağciyərli narkoz (*n. unipulmonalis*) – narkotik vasitənin yalnız bir ağciyərə daxil edilməsi ilə alınan narkoz

Bazis narkozu (*n. basalis*) – əsas narkotik vasitələrin qəbuluna qədər və ya eyni zamanda digər vasitələrin (qeyri-inhalyasion) də tətbiq olunduğu narkoz (əsas narkotik vasitələrin dozasını azaltmaq məqsədilə)

Rektal narkoz *(n. rectalis)* – efirin düz bağırsağa yeridilməsi ilə alınan narkoz

Çoxkomponentli narkoz – narkozun əsas komponentlərinin əldə edilməsi üçün müxtəlif narkotik və qeyri-narkotik maddələrdən istifadə edilməsi (analgeziya, huşun itməsi, əzələ relaksasiyası)

Damcı narkozu (*n. guttatim*) – uçucu narkotik vasitənin damcı şəklində maska vasitəsi ilə verildiyi narkoz

Endotraxeal narkoz (*n. endotrachealis*) – narkotik vasitənin boru vasitəsi ilə birbaşa traxeyaya yeridildiyi inhalyasion narkoz növü

Əsas narkoz – narkozun bütün əlamətlərinin tam inkişaf etdiyi mərhələsi (bütün cərrahi əməliyyatların icrasına imkan verən narkoz)

Əzələdaxili narkoz (*n. intramuscularis*) – narkotik vasitənin əzələ daxilinə yeridilməsi ilə əldə edilən narkoz

Giriş narkozu (*n. initialis*) – narkozun bütün əlamətlərinin tam inkişaf etmədiyi mərhələsi (qısamüddətli və ya az travmatik cərrahi əməliyyatlar zamanı tətbiq olunur)

Endotraxeal narkoz – *bax:* intubasion narkoz

İnhalyasion narkoz *(n. per inhalationern)* – narkozun orqanizmə tənəffüs yolu ilə verilməsi

İnsufflyason narkoz (*n. perinsufflationern*) – qaza və ya buxarabənzər narkotik vasitənin xəstənin ağciyərlərinə üfürülməsi ilə əldə edilən narkoz

Kombinə olunmuş narkoz (*n. combinata*) – narkotik vasitənin eyni zamanda və ya ardıcıl olaraq orqanizmə bir neçə yolla daxil edildiyi narkoz

Qarışıq narkoz (*n. nixta*) – müxtəlif narkotik vasitələrin qarışığından alınan narkoz

Qeyri-inhalyasion narkoz (*n. non perinhalationern*) – narkotik vasitənin orqanizmə tənəffüs yolu ilə deyil, digər yollarla daxil edildiyi narkoz

LM narkozu – narkotik maddənin larengeal maska ilə orqanizmə daxil edildiyi narkoz

Sümükdaxili narkoz (*n. intraossea*) – narkotik vasitənin sümüyün süngəri maddəsinə yeridilməsi ilə əldə edilən narkoz

İntubasion narkoz – *bax:* endotraxeal narkoz

Narkoz üçün efir (*aether pro narcosi*) – inqalyasion narkoz zamanı istifadə edilən dərman vasitəsi

Narkoz üçün maska – inhalyasion narkoz və ya ağciyərlərin süni ventilyasiyası zamanı pasiyentin üzünə qoyulan hermetik maska

Narkoz üçün trixloretilen (*trichloraethylenum pro narcosi*) – inhalyasion narkoz zamanı istifadə edilən dərman vasitəsi

Narkozun adsorbsiya nəzəriyyəsi – *bax:* traubenin narkoz nəzəriyyəsi

Narsissizm (*narcissismus; sin. avtomonoseksualizm*) – öz çılpaq bədəninin müəyyən hissələrinə, o cümlədən cinsi orqanlarına toxunmaqla cinsi həzzin alınmasından ibarət cinsi təhrifolunma

N-asetil qlutaminturşusu *(N-acety-L-glutamic acidum)*– sidik cövhərinin sintezində koferment rolunda iştirak edən qlütaminturşusunun asetilləşmiş nümayəndəsi

N-asetilxondrozamin – hüceyrə qişalarının qlikolipidlərinin və qlikoproteidlərinin tərkibinə daxil olan monosaxarid

N-asetilneyraminturşusu – sial turşusu, nekrotik zədələnmənin biokimyəvi markeridir

Nasilov üsulu (И.И.Насилов, 1842-1907, rus.cərahı) – qida borusunun döş hissəsinə operativ müdaxilə zamanı tətbiq olunan sol I-IV qa-

bırğaların arxa hissəsinin fəqərənin köndələn çıxıntısından qabırğa qövsünədək olan nahiyədə rezeksiya olunaraq arxa divararalığının plevradankənar açılması

Natamam korluq (*caecitas incompleta*) – görmə itiliyinin kəskin azalması, bu zaman yaxşı görən gözdə görmə itiliyi 0,04-dən yuxarı olmur, lakin işığı qavrama qabiliyyəti saxlanılmışdır

Natamam qidalanma *(hypoalimentation, deficient nutrition)* – qidanın tərkibində orqanizmin normal fəaliyyəti üçün zəruri olan hər hansı bir qida komponentinin çatışmazlığı və ya olmaması

Natrium arsenat *(natrii arsenas)* – tərkibində arsen olan ümumi gücləndirici vasitə

Natrium bromid (*natrii bromidum***)** – mərkəzi sinir sisteminə təsir edən sakitləşdirici dərman vasitəsi

Natrium etaminal *(aethaminalum-natrium)* – qıcolma əleyhinə, sakitləşdirici və yuxu gətirici dərman vasitəsi

Natrium hidrokarbonat *(natrii hydrocarbonas)* – asidozu aradan qaldırmaq üçün istifadə olunan dərman vasitəsi

Natrium xlorid *(natrii chloridum)* – plazma əvəzedici dərman vasitəsi

Natrium qlutamat *(natrii glutamas)* – qlutamin turşusunun ət, ət məhsullarına və konservlərinə vurulan duzu (çox miqdarda istifadə edildikdə mədə nahiyəsində yanğı, üzün hiperemiyası, baş gicəllənmə, ürək bulanma və ümumi zəiflik halı verir)

Natrium salisilat (*natrii salicylas***)** – qeyri-steroid iltihab əleyhinə preparat

Natrium sulfat (*natrii sulfas*) – bağırsaq möhtəviyyatının osmotik təzyiqinin artması nəticəsində təsir göstərən işlədici maddə

Natrium tiosulfat *(natrii thiosulfas)* – iltihabəleyhinə antitoksik və desensiblizasiyaedici maddə

Natrium-barbital (*barbitalum-natrium***)** – sakitləşdirici və yuxugətirici dərman vasitəsi

Natrium-tiopental *(thipentalum-natrium)* – venadaxili narkoz zamanı istifadə edilən dərman vasitəsi

Naturopatiya *(naturopathy)* – təbii amillərin tətbiqinə əsaslanan müalicə sistemi

Nazal sınaq – burun boşluğuna spesifik allergen daxil etməklə aparılan yerli allergik sınaq

Nazalizasiya – burunla tələffüs etmə

Nazarov əməliyyatı (В.М. Назаров, 1883-1945, rus. cərahı) – aşağı ətrafların obleterasiyaedici endaarteriiti zamanı icra olunan cərrahi əməliyyat (böyrəküstü vəzin çıxarılması ilə eyni zamanda icra olunan bel simpatektomiyası)

Nazion *(nasion)* – ön orta xətlə alın-burun tikişinin kəsişmə nöqtəsi (antropometrik nöqtə)

Nazo- *(*lat. *nasus* burun*)* – mürəkkəb sözlərin tərkibinə daxil olub, buruna və burunətrafı ciblərə aid olan mənasını verir

Nazofaringit *(nasopharyngitis; nazo* +anat. *orbital* göz*)* – burun-udlağın selikli qişasının iltihabı

Nazolabial büküş – burun-dodaq büküşü

Nazoorbital *(nasoorbitalis)* – eyni zamanda buruna və göz boşluğuna aid olan

Neçiporenko üsulu *(А. З. Нечипоренко, 1916-1980, sov. uroloqu)*

– sidik çöküntüsünün tərkibində leykosit, eritrosit və silindrlərin sayğaclı kamerası olan mikroskopla müayinəsi

Nedden üsulu (M.W. zur Nedden, 1870, alm. oftal.) – bulanmış şüşəyəbənzər cismin xüsusi iynə ilə təchiz olunmuş şpris vasitəsilə xaric edilməsi

Nefelinoz (*nephelinosis***)** – nefelin mineralı ilə sistematik nəfəs almaq nəticəsində meydana çıxan pnevmokonioz

Nefelometr – kalloid məhlulların, emussiyaların tərkibində olan maddələrin miqdarını təyin etmək üçün cihaz

Nefelometriya – kalloid məhlulların, emussiyaların tərkibində olan maddələrin miqdarının təyin edilməsi

Nefofobiya *(nephophobia)* – buludlardan patoloji qorxu

Nefralgiya *(nephralgia)* – böyrək nahiyəsində ağrı

Nefrektomiya (*nephrectomia*) – böyrəyin çıxarılması cərrahi əməliyyatı

Bel nefrektomiyası (*n. lumbalis*) – bel nahiyəsindən aparılmış müdaxilə ilə icra olunan nefrektomiya

Bilateral nefrektomiya (*n. bilateralis*) – böyrək transplantasiyası zamanı aralıq etap kimi hər iki böyrəkdə icra olunan mərhələ

Retroperitoneal nefrektomiya (*n. retroperitonealis*) – periton boşluğu açılmadan icra olunan bel ektomiyası

Subkapsulyar nefrektomiya (*n. subcabsularis*) – əvvəlcədən dekapsulyasiya edilərək fibroz kapsulunun böyrək qapısınadək yerini dəyişdirməklə icra olunan nefrektomiya (bu əməliyyat böyrəyin ətraf toxumalarla sıx birləşmələr əmələ gətirməsi zamanı icra olunur)

Transperitoneal nefrektomiya (*n. transperitonealis*) – periton boşluğun açılması ilə icra olunan nefrektomiya

Transtorakal nefrektomiya (*n. transthoracalis*) – XI və XII qabırğaların rezeksiyası, diafraqmanın kəsilməsi ilə döş boşluğundan icra olunan nefrektomiya (bu əməliyyat böyrəklərin böyük şişləri və kifoskoliozlu xəstələrdə icra olunur)

Nefrit (*nephritis*) – böyrəklərin iltihabı

Apostematoz nefrit (*n. apostematosa*) – əsasən böyrəyin qabıq qatında yerləşən çoxsaylı irinliklərlə xarakterizə olunan intersistial nefrit

Birləşdirici nefrit (*n. interstitialis*) – *bax:* interstisial nefrit

Duz itkili nefrit – kanalcıqlarda geriyə sorulma prosesinin pozulması ilə xarakterizə olunan interstisial nefrit

Eksperimental sitotoksik nefrit – eksperiment zamanı heyvana sitotoksik (nefrotoksik) zərdab yeridilməklə alınan nefrit

Hematurik nefrit (*n. haematurica*) – əsasən hematuriya ilə xarakterizə olunan nefrit

Səngər nefriti – müharibə dövründə soyuq, nəm havada uzun müddət səngərdə qaldıqdan sonra meydana çıxan kəskin qlomerulonefrit

İnterstisial nefrit (*nephritis interstitialis*) – əsasən böyrəyin birləşdirici toxumasının zədələnməsi ilə xarakterizə olunan nefrit

İrinli nefrit – *bax:* apostematoz nefrit

Qurdeşənəyi nefriti (*n. luposa*) – *bax:* lupus-nefrit

Ocaqlı embolik nefrit (*n. focalis embolica*) – əsasən yarımkəskin septiki endokardit zamanı müşahidə olunan yumaqcıq kapillyarlarının emboliyası nəticəsində meydana çıxan ocaqlı nefrit

Ocaqlı nefrit (*n. focalis*) – parenximanın böyük hissəsinin dəyişilmədiyi halda ayrı-ayrı yumaqcıqların zədələnməsi ilə xarakterizə olunan nefrit; qan damarlarının sistem zədələnməsi zamanı müşahidə olunur (məs., revmatizm, qırmızı qurdeşənəyi, düyünlü periarterit)

Postinfeksion nefrit (*n. postinfectiosa*) – keçirilmiş yoluxucu xəstəliyin ağırlaşması kimi meydana çıxan nefrit

Sifilitik nefrit (*n. syphilitica*) – anadangəlmə və ya üçüncülü sifilis zamanı böyrəklərin qummoz zədələnməsi ilə xarakterizə olunan nefrit; nefrotik sindrom, arterial hipertenziya ilə büruzə verir

Toksik nefrit (*n. toxica*) – xroniki ekzogen intoksikasiya nəticəsində meydana çıxan interstisial nefrit

Tranşey nefriti – *bax:* səngər nefriti

Vaskulyar nefrit (köh.; *n. vascularis*) – uzun müddət arterial hipertenziya sindromu ilə büruzə verən xroniki qlomerulonefrit

Nefrit ailəvi hemorragik (*nephritis hereditaria familiaris haemorrhagica*) – *bax:* Alpord sindromu

Nefrizm *(nephrismus)* – böyrək xəstəlikləri zamanı orqanizmdə törənən ümumi pozulma

Nefroangioskleroz *(nephroangiosclerosis*) – böyrək arterio və arteriolalarının sklerozunun ümumi adı

Nefrogen *(nephrogenus)* – böyrəkdən başlayan proseslərin ümumi adı

Nefrogen osteopatiya (*osteopathia nephrogena*) – böyrək çatışmazlığı zamanı kalsium və fosfor mübadiləsinin pozulması nəticəsində skeletin diffuz zədələnməsi

Nefroqrafiya *(nephographie)* – böyrək parenximasının kontrast rentgenoqrafiyası

Nefroqrafiya simptomu – sidik axarının okkluziyası zamanı ekskretor uroqrammada böyrək ləyəni və kasacıqlarında kontrast maddə olmadığı halda böyrəyin aydın rentgenoqrammasının alınması

Nefrolitiaz *(neprolithiasis)* – böyrək daşı xəstəliyi

Nefrolitotomia (*nephrolithotomia***)** – böyrək parenximasının kəsilərək konkrementin xaric edilməsi cərrahi əməliyyatı

Nefrologiya *(*yun. *nephros* böyrək+ *logos* elm*)* – daxili xəstəliklərin böyrək xəstəliklərinin etiologiya, patogenez, klinik gedişi, diaqnostikası, müalicə və profilaktikasını öyrənən bölməsi

Nefroloq – böyrək xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə ixtisaslaş
mış həkim

Nefrolotitomiya – böyrək daşının çıxarılması

Nefroma *(nephroma)* – böyrək toxumasından əmələ gələn şiş

Nefron (*nephronum*) – böyrəyin struktur – funksional vahidi

Qabıq nefronu (nephronum corticale) – böyrəyin qabıq maddəsində yerləşən nefron

Yukstamedulyar nefron (nephronum juxtamedullare) – distal və proksimal hissəsi qabıq maddədə, ilgəyi isə beyin maddədə yerləşən nefron

Nefron ilgəyi *(ansa nephrone)* – nefronun əsas proksimal hissəsindən sonra gələn, enən nazik və qalxan qalın hissəsi olan qalxan epitelial boru

Nefronekroz *(nephronecrosis) – bax:* nekronefroz

Nefropatiya (*nephropathia***)** – böyrək zədələnmələrinin ümumi adı

Nefropeksiya *(nephropexia)* – azan böyrəyin tikməklə bərkidilməsi

Edebols nefropeksiyası (G. M. Edebohls, 1853-1908, amer. həkim) – böyrək qapısına qədər soyulmuş fibroz kapsula vasitəsi ilə böyrəyin qarın divarına fiksəsi cərrahi əməliyyatı

Fyodorov nefropeksiyası (С.П.Федоров) – nefroptoz zamanı böyrəyin fibroz kapsulasının köməyi ilə XII qabırğaya fiksə olunması cərrahi əməliyyatı

Lousli nefropeksiyası (O. S. Lowsley, 1884-1955, amer. cərah) – böyrək qütblərinin dekapsulyasiyadan sonra qabırğaarası sahədə belin kvadrat əzələsinə fiksə edilməsi

Nefropielostomiya (*nephropyelostomia***)** – böyrəyin və böyrək ləyənlərinin drenə edilməsi üçün fistulun yaradılması cərrahi əməliyyatı

Nefroplikasiya (*nephroplicatio***)** – *bax:* nefrorafiya

Nefroptoz *(nephroptosis)* – böyrəyin öz adi yerindən aşağıda yerləşməsi, sallanması

Nefrorafiya (*nephrorrhaphia***)** – böyrək qütblərinin dekapsulyasiyası, bir-biri ilə əlaqələndirilməsi və xromlaşmış ketqutla torlu fiksəsi cərrahi əməliyyatı

Nefrosirroz *(nephrocirrhosis)* – böyrək nefronlarının birləşdirici toxuma ilə əvəz olunması və funksiyasının geri dönməyən itirilməsi

Nefrosit (*nephrosytus***)** – nefronun proksimal və distal hissəsinin və ilgəyinin polimorf epitel hüceyrəsi

Nefrositotoksin – böyrək toxumasının antigenlərinə sitotoksik təsir göstərən anticisim

Nefroskanoqrafiya *(static renal radionuclide)* – böyrəyin radioizotop müayinəsi

Neri simptomu (V.Neri, 1882, ital. nevropatoloqu) – *bax:* Linder simptomu

Nefroskleroz (*nephrosclerosis*) – böyrək funksiyasının pozulması və böyrəyin büzüşməsi ilə nəticələnən böyrək parenximasının birləşdirici toxuma ilə əvəz olunması

Arteriolonekrotik nefroskleroz *(nephrosclerosis arteriolonecrotica*) – *bax:* Fara nefrosklerozu

Arteriolosklerotik nefroskleroz – *bax:* arteriolonefroskleroz

Aterosklerotik nefroskleroz – *bax:* arterionefroskleroz

Eklampsiyadan sonrakı nefroskleroz *(nephrosclerosis posteclamptica)* – hamiləlik eklampsiyasından sonra inkişaf edən nefroskleroz

Hipertonik nefroskleroz *(n.hypertonica) – bax:* arteriolonefroskleroz

Xoşxassəli nefroskleroz *(nephrosclerosis benigna)* – hipertoniya xəstəliyi nəticəsində arteriolloskleroik dəyişikliyin əmələ gəlməsi səbəbindən meydana çıxan və nəzərəçarpan funksional dəyişikliklərin olmaması ilə xarakterizə olunan nefroskleroz

Xroniki nefroskleroz *(nephrosclerosis chronica)* – böyrəyin tədricən inkişaf edən xroniki iltihabı və ya arteriolosklerozu nəticəsində inkişaf edən nefroskleroz

İkincili nefroskleroz *(nephrosclerosis secundaria)* – böyrəyin xroniki iltihabi nəticəsində meydana çıxan nekroskleroz

Kəskin nefroskleroz *(nephrosclerosis acuta)* – böyrəyin kəskin qan dövranı pozğunluğu, iltihab və zədələnməsi nəticəsində meydana çıxan nefroskleroz

Pielonefritik nefroskleroz *(nephrosclerosis pyelonephritica)* – əsasən interstisial toxumanın və böyrək damarlarının zədələnməsi ilə gedən ikincili itlihabdan sonrakı nefroskleroz

Revmatik nefroskleroz *(nephrosclerosis rheumatica)* – revmatizm zamanı böyrəyin işemik infarktı, vaskulit və nefrit nəticəsində inkişaf edən nefroskleroz

Sifilitik nefroskleroz *(nephrosclerosis syphilitica)* – sifilis zamanı böyrəyin ikincili amiloidozu nəticəsində inkişaf edən nefroskleroz

Şüa nefrosklerozu *(nephrosclerosis radialis)* – ionlaşdırıcı şüaların uzaq nəticəsi olaraq meydana çıxan nefroskleroz

Nefroskopiya *(nephroscope)* – cərrahi əməliyyat zamanı böyrək ləyənlərinin kiçik kəsiyindən icra edilən endoskopiya ilə böyrək ləyənlərinin daxili səthinin müayinəsi

Nefrostomiya (*nephrostomia***)** – böyrəyin drenəedilməsi məqsədilə xarici fistulun qoyulması cərrahi əməliyyatı

Nefrotik sindrom (*syndromum nephroticum*) – yüksək protenuriya, hipoproteinemiya və ödemlə xarakterizə olunan sindrom

Ailəvi nefrotik sindrom *(s. nephroticum familiare)* – ailənin bir neçə üzvündə rast gəlinən arterial təzyiqin qalxması, böyrək kanalcıqlarının funksiyasının çatışmazlığı ilə gedən, irsi qlomerulonefrit nəticəsində meydana çıxan nefrotik sindrom

Anadangəlmə nefrotik sindrom *(s. nephroticum congenitum)* – 1) yenidoğulmuşlarda aşkar olunan nefrotik sindromların ümumi adı; 2) böyrəyin mikrokistozu nəticəsində həyatın ilk günlərində meydana çıxan irsi xəstəlik

Epizodik nefrotik sindrom – bəzi xəstəliklərin başlanğıc mərhələsində meydana çıxan və əsas xəstəliyin gedişatından asılı olmayaraq cəld geriyə inkişaf edən nefrotik sindrom

Persistəedən nefrotik sindrom *(s. nephroticum persistens)* – xroniki qlomerulonefrit, şəkərli diabet, böyrəklərin amiloidozu zamanı tədricən inkişaf edən böyrək çatışmazlığı nəticəsində meydana çıxan nefrotik sindrom

Residivverən nefrotik sindrom *(s. nephroticum recidivum)* – vaxtaşırı remissiyalarla gedən nefrotik sindrom

Nefrotoksik *(nephrotoxicity)* – böyrək parenximasını zədələyən

Nefrotom (*nephrotomus***)** – mezodermanın böyrəyə başlanğıc verən seqmenti

Nefrotomiya *(nephrotomia)* – böyrəyin kəsilməsi cərrahi əməliyyatı (kor nüfuz edən yaralanmalar, böyrək daşları)

Köndələn nefrotomiya (nephrotomia transversa) – böyrəyin boylama oxuna köndələn istiqamətdə aparılan kəsiklə icra olunan nefrotomiya

Seksion nefrotomiya (nephrotomia sectionalis) – böyrəyin qabarıq la-

teral kənarı ilə ləyənciyinə qədər aparılan kəsiklə icra olunan nefrotomiya

Nefrotomoqrafiya *(nephrotomography)* – böyrəyin kontrast maddə ilə və ya kontrast maddəsiz tomoqrafiyası

Nefroureterektomiya (*nephroureterectomia***)** – böyrəyin sidik axarları ilə birgə xaric edilməsi

Nefroz (*nephrosis*) – böyrək kanalcıqlarının patoloji dəyişikliyi ilə gedən böyrək zədələnmələrinin ümumi adı (nefrotik sindromla təzahür edir)

Ailəvi nefroz (*n. familiaris*) – *bax:* ailəvi nefrotik sindrom

Amiloid nefroz (*n. amyloidea*) – böyrək damarlarında amiloidin toplanması ilə müşahidə olunan xroniki nefroz

Anadangəlmə nefroz (*n. congenita*) – anadangəlmə nefrotik sindromla gedən patoloji vəziyyətlərin ümumi adı

Hemoqlobinuriyalı nefroz (*n. haemoglobinurica*) – böyrək kanalcıqlarının mənfəzində hemoqlobinin toplanması ilə gedən nekronefroz

Lipoid nefroz (*n. lipoidea*) – kanalcıqların zülal və piy distrofiyası ilə xarakterizə olunan nefroz

Mioqlobinuriyalı nefroz (*n. myoglobinurica*) – böyrək kanalcıqlarının mənfəzində mioqlobinin toplanması ilə gedən nekronefroz

Nekrotik nefroz (*n. necrotica*) – *bax:* nekronefroz

Paraproteinemik nefroz *(n. paraproteinaemica) – bax:* mielom nefropatiyası

Piqment nefrozu (*n. pigmentosa*) – hemoqlobinuriyalı və mioqlobinuriyalı nefrozların ümumi adı

Sarılıq nefrozu (*n. icterica*) – böyrək toxumasının ödemi və yaşımtıl-sarı rəngə boyanması ilə gedən nefroz (sarılıqlı xəstələrin autopsiyası zamanı aşkar olunan morfoloji əlamət)

Toksiki nefroz (*n. toxica)* – toksiki vasitələrin təsirindən yaranan nekronefroz

Nefrozonefrit (*nephrosonephritis*) – böyrəklərin piy distrofiyası və diffuz qlomerulonefritin birgə təzahürü

Negeli sindromu (O. Naegeli, 1885-1959, isveçrə dermat.) – dərinin retikulyar piqmentasiyası, hipohidroz, ovuc-ayaqaltı hiperkeratoz, dişin sarı ərpli və qeyri-düzgün formada olması

Nekatoroz (*necatorosis***)** – nazik bağırsaqda parazitlik edən *ankilostomidozlar* qrupundan olan helmintlər

Nekrektomiya (*necrektomia***)** – nekroza uğramış toxumanın sağlam toxuma səviyyəsində kəsilərək xaric edilməsi

Nekrobioz *(necrobiosis)* - toxumaların həyat fəaliyyətinin geri dönməyən pozulması (nekrozu)

İşemik nekrobioz (necrobioisis iscchaemica) – toxumaların trofikasının pozulması ilə gedən qan dövranı pozğunluğu nəticəsində meydana çıxan nekrobioz

Nekrofaq (*necrophag*) – 1) ölmüş toxuma qalıqlarını faqositoza uğradan hüceyrə; 2) meyitlərlə qidalanan canlı

Nekrofiliya *(necrophilia)* – ruhi xəstələrdə meyitə qarşı cinsi həvəs

Nekrofobiya *(necrophobia)* – meyitdən və dəfn mərasimindən patoloji dərəcədə qorxmaq

Nekrohormon *(necrohormone)* – toxumaların dağılması zamanı meydana çıxan, proliferasiya və regenerasiya proseslərini aktivləşdirən maddələrin ümumi adı

Nekrometr *(necrometer)* – meyitin və hissələrinin ölçülərini müəyyən etmək üçün alət

Nekronefroz (*necronephrosis*) – böyrək kanalcıqlarının damar yumaqcıqlarının nekrotik dəyişikliyi, trombozu, ödemi və iltihabı ilə gedən nekrozu (məs; zəhərlənmələrdə böyrəyin qan dövranı pozğunluqları zamanı təsadüf olunur)

Nekrospermiya (*necrospermia*) – spermada həyat fəaliyyəti olmayan spermaların sayının çoxluq təşkil etməsi

Nekrost (yun. *nekrosteon*) – sümüyün nekrozlaşmış hissəsi (məs; osteomielit zamanı)

Nekrotik angina (*angina necrotica*) – damaq badamcıqlarının və qövslərinin, yumşaq damağın, dilçək - toxumasının nekrozu, limfadenit və periadenitlə xarakterizə olunan angina

Nekrotik mil (*seapus necretus*) – furunkuldan ayrılan nekrotik tük follikulu

Nekrotomiya (*necrotomia*) – nekroza uğramış toxumaların kəsilməsi (anaerob infeksiyaları zamanı toxumaya oksigenin ötürülməsini asanlaşdırmaq, yaş qonqrena zamanı isə quruma proseslərini sürətləndəirmək üçün istifadə olunur)

Nekroz *(necrosis, yun.* nekrosis ölüm*)* – toxumaların ölməsi nəticəsində orqan və toxumaların həyat fəaliyyətinin geri dönə bilməyən prosesi

Allergik nekroz *(necrosis allergica)* – spesifik allergenin təsirindən sensibilizəolunmuş toxumalarda meydana çıxan nekroz (məs; Artyus fenomeni zamanı)

Birincili travmatik nekroz *(necrosis traumatica primaria)* – zədələyici agentin bilavasitə təsiri nəticəsində yaranan nekroz

Böyrəyin kortikal nekrozu *(necrosis renum corticalis)* – kəskin böyrək çatızmazlığı ilə böyrəyin qabıq maddəsinin ikitərəfli nekrozu (məs; ağır şok zamanı təsadüf olunur)

Böyrəyin medulyar nekrozu *(necrosis renismedullaris)* – irinli pielonefritin təzahürü kimi meydana çıxan böyrək piramidlərinin nekrozu

Dolayı nekroz *(indirecta hecrosis)* – zədələyici faktorun toxumaya bilavasitə təzyiqi ilə əlaqədar olmayan nekroz

Düz nekroz *(necrosis directa)* – zədələyici faktorun birbaşa toxumaya təsirindən yaranan nekroz

Erkən şüa nekrozu – şüalanmadan bir neçə ay sonra yaranan nekroz

Fibrinoid nekroz *(necrosis fibrinoidea)* – zədələnmiş toxumaya fibrin hopması ilə gedən nekroz

Gecikmiş şüa nekrozu – şüalanmadan bir neçə il sonra yaranan nekroz

Hemorragik nekroz *(necrosis haemorrhagica)* – zədələnmiş toxumaya qan hopması ilə gedən nekroz

İkincili travmatik nekroz *(necrosis traumatica secundaria)* – zədələnmiş toxumada iltihabi, damar mənşəli və digər ikincili dəyişikliklərin olması ilə gedən nekroz

İşemik nekroz *(necrosis işchaemica)* – yerli qan dövranı çatışmazlığı nəticəsində meydana çıxan nekroz

Kazeot nekroz *(necrosis kaseosa)* – *bax:* kəsmiyəbənzər nekroz

Kəskin şüa nekrozu *(necrosis radialis acuta)* – şüalanmadan bir neçə həftə sonra yaranan nekroz

Kəsmiyəbənzər nekroz *(necrosis caseosa)* – uzun müddət hidrolizə məruz qalan zülalların denaturasiya məhsullarının zahirən kəsmiyi xatırlatdığı quru nekroz forması

Koaqulyasion nekroz – *bax:* quru nekroz

Kollikvasion nekroz *(necrosis colliquativa)* – *bax:* yaş nekroz

Qaraciyərin kəskin massiv nekrozu – *bax:* qaraciyərin toksiki distrofiyası

Qaraciyərin toksiki nekrozu *(necrosis hepatis toxica)* – *bax:* qaraciyərin toksiki distrofiyası

Quru nekroz (nevrous sicca) – toxuma zülallarının koaqulyasiyası və denaturasiyasından yaranan dehidrasion nekroz.

Marantik nekroz *(necrosis marantica)* – təzyiqə məruz qalmış toxumaların nekrozu (üzülmüş xəstələrdə yataq yarasına səbəb olur)

Mədəaltı vəzin kəskin nekrozu *(necrosis pancreatis acuta)* – *bax:* hemorragik pankreatit

Mumabənzər nekroz (necrosis ceroidea) – əzələlərin boz-sarımtıl rəngli piy, parıltılı ocaqlarla gedən quru nekrozu

Neyrogen nekroz *(necrosis neurogena)* – *bax:* neyrotik nekroz

Neyrotik nekroz *(necrosis neuratica)* – toxumaların sinir trofikasının pozulması nəticəsində əmələ gələn nekroz

Piy nekrozu *(necrosis adiposa)* – piy toxumasının lipolitik fermentlərin təsiri altında gedən nekrozu

Radio nekroz – *bax:* şüa nekrozu

Sirkulyator nekroz – *bax:* işemik nekroz

Sümüyün aseptik nekrozu *(osteonecrosis aseptica)* – əsasən borulu sümüklərin epifizində inkişaf edən sümüyün işemik nekrozu

Şüa nekrozu *(necrosis radialis)* – ionlaşdırıcı şüalanma nəticəsində yaranan nekroz

Yaş nekroz *(necrosis humida)* – zədələnmiş toxumanın yumşalması (lizisi) ilə müşayiət olunan nekroz

Yenidoğulmuşların lipoid nekrozu *(necrosis lipoidea neonatorum)* – *bax:* yenidoğulmuşların dərialtı adiponekrozu

Nekrozin (*yun. nekrosis*) – iltihabi ekssudatın, iltihab ocağında toxumaların zədələnməsi və damarların trombozunu törədən qlobulin (Menkinin faktorlarından biri)

Nekrozlaşan arteriolit *(arteriolitis necrotisans)* – *bax:* arteriolonekroz

Nekrozlaşan fassit *(fasciitis necrotisans)* – fassiyanın cəld proqressivləşən, damar trombozu nəticəsində geniş nekrozu və ağır intoksikasiya əlamətləri ilə gedən xəstəlik

Neqativizm (*negativismus*) – ruhi xəstənin onunla kontakta girən şəxsə qarşı səbəbsiz mənfi münasibəti

Aktiv neqativizm (negativismus activus) – xəstənin məqsədli surətdə tələb olunan hərəkəti deyil, digər hərəkətləri icra etməsi

Nitq neqativizmi – xəstənin verilən suala cavab verməkdən imtina etməsi və ya suala qəti uyğun olmayan cavab verməsi

Paradoksal neqativizm (negativismus paradoxalis) – xəstənin təklif olunan hərəkətin əksinə hərəkət etməsi (məs: həkim salamlaşmaq

üçün əlini uzatdıqda xəstənin əlini gizlətməsi)

Passiv neqativizm (negativismus passivus) – bədən vəziyyətinin istənilən passiv dəyişikliyinə qarşı xəstənin müqavimət göstərməsi (bu isə əzələ tonusunun kəskin qalxması ilə müşayiət olunur)

Yarımyuxulu neqativizm – xəstənin yuxuya getdiyi və ya yuxudan tam oyanmadığı vəziyyətdə meydana çıxan neqativizm

Neqatoskop (*negatoskope*) – rentgenoqramları oxumaq üçün cihaz

Neqri cisimcikləri (A.Negri, 1876-1912, ital. patoloqu) – bax: Babeş-Neqri cisimcikləri

Neqro simptomu(C. Negro, 1861-1927, ital. nevropatoloqu) – üz sinirinin periferik iflici zamanı xəstə yuxarıya baxdıqda aşağı göz qapağı ilə sklera arasında enli zolağın olması

Nelaton bıcağı (A.Nelaton, 1807-1873, fran.cərahı) – cərrahi əməliyyatlarda istifadə edilən kəsici alət, rezeksiya bıçağı

Nelaton xətti (A.Nelaton) – bax: Rozer-Nelaton xətti

Nelaton Jannel-Rokis əməliyyatı (A.Nelaton) – bağırsaq fistulunun peritondan xaric bağlanması cərrahi əməliyyatı

Nelaton kateteri (A.Nelaton) – düz rezin uretral kateter

Nelaton rinoplastikası (A.Nelaton) – burun qüsurunun yanaq loskutları ilə bərpa edilməsi cərrahi əməliyyatı

Nelaton sfinktoru (A.Nelaton) – düz bağırsaq divarında, anal dəlikdə bir qədər yuxarıda yerləşən, daimi olmayan sirkulyar əzələ dəsti

Nelson mühiti (R.A.Nelson,1922, amer. immunoloqu) – solğun treponemaları təyin etmək üçün maye qidalı mühit

Nematodoz (*nematodosis***)** – nematodlar tərəfindən törədilən helmintozların ümumi adı

Nematosidlər – kənd təsərrüfatında helmintləri məhv etmək üçün istifadə olunan maddələr (yüksək dozalarda insan üçün toksik ola bilər)

Nensi-İnsli sindromu (W.E. Nanse; J.İnsley) – *bax:* Nensi-Suini-İnsli sindromu

Nensi-Suini-İnsli sindromu *(Nance W.E., Sweeney M., Insley J.)* – COL11A2 kollagen genin mutasiyası; yəhərəbənzər burun, proqressivləşən ağıreşitmə, damağın ikiləşməsi, bilək sümüklərinin birləşməsi, epifizlərin ölçüsünün böyüməsi

Nensk-Ziberq sınağı (M.B.Неницкий, 1847-1901,rus.biokim.) – sidikdə uroblinin təyin edilməsi metodu

Neo (*yun. neos***)** – mürəkkəb sözlərin tərkibində yeni, cavan, yeni yaranmış mənaları verən tərkib hissəsi

Neoantrop (*neoanthropus***)** – müasir insanın (*homo sapiens*) ümumi adı

Neoartroz (*neoarthrosis***)** – oynaqdaxili sümük sınıqları və çıxıqlar zamanı yaranmış oynaqlar

Neodikumarin *(neodicumarinum)* – dolayı təsirli antikoaqulyant

Neofiliya (*neophilia***)** – yeniliyə, adət olunmamış vəziyyətə, şəraitə patoloji meyllilik

Neofobiya (*neophobia***)** – yenilikdən (işinin və əhatəedən şəraitin dəyişilməsindən) patoloji qorxma

Neoimplantasiya – *bax:* reimplantasiya

Neointima (*neointima***)** – damar protezlərinin daxili qatında əmələ gələn yeni əlavə fibroz təbəqə

Neologizm – ruhi xəstələrin yazılı və şifahi nitqində özü tərəfindən yaratdığı yeni sözlərdən istifadə etməsi

Neomisin sulfat *(neomycini sulfas)* – aminoqlikozidlər qrupundan olan genişspektrli antibiotik

Neonatologiya *(*yun. *neonatus* yenidoğulmuş+ yun.*logos* elm*)* – pediatriyanın yenidoğulmuşların fiziologiya və xəstəliklərini öyrənən bölməsi

Neoplazma *(neoplasma)* – yenitörəmə

Neri refleksi (V.Neri,1882, italyan nevropatoloqu) – piramid yolların zədələnmə simptomu (kürək sümüyünün xarici kənarına perkusiya etdikdə bazunun uzaqlaşması, saidin bükülməsi və pronasiyası)

Neri simptomu (V.Neri) – 1) açılmış vəziyyətdə olan sağlam aşağı ətrafı bud-çanaq oynağında bükdükdə iflic vəziyyətdə olan ayağın diz oynağında bükülməsi; 2) kürəyi üstə uzanmış xəstənin əvvəlcədən açılmış və pronasiya vəziyyətində, iflicli olan yuxarı ətrafının passiv bükülməsi zamanı saidin və biləyin supinasiyası

Neri–Barre sindromu (V.Neri; J.A. Barre, 1880-1967, fran. nevropatoloqu) – *bax:* Barre-Leu sindromu

Nervizm (*nervus*) – sinir sisteminin həyat faliyyətinin tənzimində əsas rol oynadığını qeyd edən istiqamət

Nervon – beynin ağ maddəsinə daxil olan serebrozid

Nesterov ***sınağı*** *(А.И.Нестеров, 1895-1979,sov. terapevti)* – dərinin məhdud nahiyəsində dozalanmış vakuumun yaradılması ilə kapillyarların keçiriciliyinin müəyyən edilməsi üsulu

Nestiatriya (*nestiatria***)** – aclıqla müalicə

Nestiterapiya ***(****nestitherapia****)*** – *bax:* nestiatriya

Neştər – *bax:* lanset

Neterton sindromu (E.W.Netherton,amer.dermatoloqu) – yalnız qadınlarda rast gəlinən, irsi ixtiozomorf eritrodermiya, tüklərin proksimal hissəsinin distal hissəsi ilə invaginasiyası nəticəsində qalınlaşması, atopik dermatit və katarakta

Nevoid amensiya (*amentia naevoidea*) – *bax:* Sterj-Veber-Krabbe sindromu

Nevokarsinoma (*naevocarcinoma*) – *bax:* melanoma

Nevralgiya (*neuralgiya*, nevr + yun. *algos* ağrı) – sinirlərin kəskin ağrı verən zədələnməsi

Ənsə nevralgiyası (neuralgia occipitalis) – böyük və ya kiçik ənsə sinirinin qıcıqlanması zamanı ənsə nahiyəsində meydana çıxan nevralgiya

Qabırğaarası nevralgiya (neuralgia intercostalis) – qabırğaarası nahiyələrlə yayılan nevralgiya (onurğa beyni siniri köklərinin qıcıqlanması zamanı təsadüf olunur)

Qlossofaringeal nevralgiya *(neuralgia glossopharyngealis) – bax:* Sikar sindromu

Trigeminal nevralgiya (neuralgia trigeminalis) – *bax:* üçlü sinirin nevralgiyası

Peşə nevralgiyası (neuralgia professionalis) – professional zərərli amillərin sistematik təsiri nəticəsində meydana gələn nevralgiya (əzələ gərginliyinin və ətraf mühit

temperaturunun kəskin dəyişmələri nəticəsində təzahür edir)

Psixi nevralgiya *(neuralgia psyghica) – bax:* psixalgiya

Üçlü sinirin nevralgiyası (neuralgia nervitrigemini) – üçlü sinirin şaxələri boyunca sinrin özünün və ya qasser düyününün zədələnməsi zamanı rast gəlinən nevralgiya

Vegetativ nevralgiya (neuralgia vegetativa) – regionar olaraq tər ifrazı və termorequlyasiyanın pozulduğu nevralgiya (vegetativ sinir sisteminin zədələndiyi hallarda təsadüf olunur)

Nevrastenik simptom – *bax:* dəbilqə simptomu

Nevrastenik sindrom – *bax:* neyrosirkulyator distoniya

Nevrasteniya *(neurasthenia)* – tez yorulma, diqqətin, sakitliyin pozulması fonunda baş verən həddən atrıq qıcıqlanma halı

İntoksikasion nevrasteniya – *bax:* intoksikasion asteniya

Nevrelloz – *bax:* listerioz

Nevrilemmoma – *bax:* nevrinoma

Nevrinoma – sinirlərin mielin qişasının şvann hüceyrələrində inkişaf etmiş xoş xassəli şiş

Nevrit (*neuritis*) – sinirin infeksion, toksiki, travmatik mənşəli iltihabı

Aksikal nevrit *(n.axialis)* –orta silindrlərinin zədlənməsi ilə müşahidə olunan

Görmə sinirinin nevriti (*n. nervi optici*) – optik nevrit görmə sinirinin iltihabı nəticəsində ortaya çıxan kəskin xəstəlik

Görmə sinirinin yalançı nevriti (*n. nervi optici spuria*) – *bax:* görmə psevdonevriti

Koxlear infeksion nevrit – infeksion xəstəliklər zamanı eşitmə sinirində yaranan iltihabi proses

Koxlear nevrit (*n. cochlearis*) – eşitmə analizatorunun xəstəliyi olub, eşitmə sinirinin nevritidir

Koxlear toksiki nevrit – toksinlərin, sənaye zəhərlərinin dərman maddələrinin təsirindən eşitmə sinrində yaranan iltihabi proses

Parenximatoz nevrit *(n.parenchymatosa)* – öncədən patoloji proses sinirin özün zədələyir(mielin qatın və orta silindrı) ,sonradan birləşdirici toxumasın

Professional nevrit *(n.professionalis)* – bəzi müəssələrdən istifadə olunan zəhərli maddələrin təsirindən yaranan nevrit (məs: ağır metallar)

Retrobulbar periferik nevrit (*n. retrobulbaris peripherica*) – *bax:* retrobulbar perinevrit

Vegetativ nevrit *(n.vegetativa)* – trofik dəyşiklərlə,temperatur dəyişməsi ilə və dərinin rənginin dəyişməsilə müşahidə olunan vegetativ sinir sisteminin periferik sinirlərinin sədələnməsi

Nefroblastoma – *bax:* Vilms şişi

Nevrolemma (*neurolemma,*sin. nevrilemma,nevro-+ yun.*lemma* qabıq**)** – mielin sinir liflərini örtən bazal membran

Nevroliz (*neurolysis***)** – sinirlərin çapıq toxumalardan azad edilməsi cərrahi əməliyyatı

Nevrologiya *(*nevro +yun.*logos* elm*)* – əsəb sistemi və onun xəstəliklərindən bəhs edən elm

Nevroma (*neuroma***)** – sinir toxumasının şişəbənzər yeni törəməsi

Amputasion nevroma *(neuroma amputationale)* – amputasiya gü-

dülündə kəsilmiş sinirin travmatik nevroması

Həqiqi nevroma *(neuroma verum)* – sinir toxuması elementlərindən inkişaf edən nevroma

Hüdudi nevroma *(neuroma marginale)* – hissəvi zədələnmiş sinirin yan səthində əmələ gələn travmatik nevroma

Yalancı nevroma *(neuroma falsum)* – sinirin birləşdirici toxuma elementlərindən inkişaf edən nevroma

Travmatik nevroma *(neuroma traumaticum)* – sinirin zədələnmə yerindən inkişaf edən nevroma

Nevropat – sinir xəstəliklərinə meylli

Nevropatiya (*neurotaphia,* nevro + yun. *pathos* xəstəlik) – 1) sinir sisteminin konstitusional oyanıqlıq və üzülmə halı; 2) müxtəlif səbəblərdən törənmiş periferik sinirlərin distrofik xarakterli zədələnmələrinin ümumi adı

Nevropatologiya – kliniki təbabətin sinir sistemi xəstəliklərinin etiologiya, patogenez, kliniki təzahürlərini öyrənən, diaqnostika, müalicə və profilaktik tədbirləri hazırlayan bölməsi

Neyrosirkulyaor distoniya (*dystonia heurocirculatoria*) – qan-damar sisteminin nevrogen funksional labilliyi

Nevrosit *(*nevro + hist.*cytus* hüceyrə*)* – *bax:* neyron

Nevrosom *(neurosoma,* nevro + yun. *soma* bədən) – *bax:* neyrosom

Nevrospazm – sinir pozulmasından asılı olan əzələ spazmı

Nevrosteniya *(neurasthenia)* – fiziki üzülmə ilə birlikdə sinir yorulması

Nevrotik anoreksiya (*anorexia neurotica*) – uzun müddət piylənmə və artıq çəki yığma qorxusuna görə qidadan imtina etmə nəticəsində əmələ gələn iştahasızlıq

Nevrotik hal – *bax:* nevrotik sindrom

Nevrotik sindrom – ruhi-əsəb pozuntuları-yorğunluq, əzginlik, yuxu pozulması, qıcığa qarşı həssaslığın artması ilə təzahür edən sindrom

Nevrotmezis (*neurotmesis***)** – sinirin tam anatomik kəsilməsi

Nevrotom *(*nevro + yun. *tomos* hissə*)* – bir cüt kəllə və ya onurğa beyni sinirlərinin çıxdığı hissə

Nevroz (*neurosis*) – sinir zədələyici faktorların təsiri altında sinir sisteminin geri dönən dəyişikliyi (xəstə öz xəstəliyini dərk edir və real vəziyyəti normal qiymətləndirir)

Aktual nevroz (*n. actualis*) – yalnız nevrozu törədən faktorların təsir etdiyi zaman mövcud olan nevroz

Gözləmə nevrozu – hər hansı bir fəaliyyətin uğursuzluqla nəticələnəcəyindən ehtiyat edərək gözləmə nəticəsində meydana çıxan nevroz (məs; kütlə qarşısında ediləcək çıxışı gözləyərkən)

Hərəki nevroz (*n. motoria*) – hərəki aktivliklə müşahidə olunan nevroz

İnfantil nevroz *(n. infantilis*) – uşaq və yeniyetmələrdə yüngül formada təzahür edən nevroz

İpoxondrik nevroz (*n. hypochondrica*) – həyəcanlı həssaslıq, öz səhhətinə qarşı həddən artıq diqqətlilik, müalicə və müayinə olunmağa aktiv canatma ilə təzahür edən nevroz

Kardiofobik nevroz (*n. Kardiophobica*; yun. *kardia* ürək + *phobos* qorxu) – ağır ürək xəstəliyinə tutulma və ürək dayanmasından qorxu şəklində təzahür edən nevroz

Klimakterik nevroz (*n. climacterica*) – klimakterik sindrom fonunda meydana çıxan nevroz, məs; sen-

sopatiya və ya affektlərin labilliyi formasında

Kommosion nevroz (köh. *n. commotione*; sin. travmatik nevroz) – kəllə-beyin travmalarından qısa müddət sonra meydana çıxan nevroz; qıcıqlanma, əmək qabiliyyəti və əhval-ruhiyyənin aşağı düşməsi, çoxsaylı şikayətlərlə, bəzən isə kobud tremorla təzahür edir

Qorxu nevrozu *(n. anxietatis)* – əsas təzahürü müxtəlif məzmunlu qorxu olan nevroz; termin psixoanalizdə tətbiq edilir

Müharibə dövrünün nevrozu – müharibə şəraiti və hərbi əməliyyatların şərtlərinin səbəb olduğu həyəcanlarla əlaqədar meydana çıxan nevrozların ümumi adı

Sarışan hallar nevrozu – sarışan qorxular, şübhələr, fikirlərin ümumi adı

Şok nevrozu – *bax:* qorxu nevrozu

Travmatik nevroz (köh.; *n. traumatica) – bax:* kommosion nevroz

Yatrogen nevroz (*n. iatrogena*; yun. *iatros* həkim + *-genes* əmələ gələn) – həkim və ya digər tibb işçisinin səhv bir hərəkəti nəticəsində meydana çıxan nevroz (məs; xəstəliyin ağırlığı və təhlükəsi barədə xəstə yanında deyilən fikirlər); adətən fobiyalar, öz sağlamlığı üçün qorxu və əndişələrlə baş verir

Nevrozabənzər – *bax:* nevrotik sindrom

Nevrozabənzər pozğunluqlar – hər hansı xəstəlik zamanı meydana çıxan, xarici təzahürünə görə nevrozu xatırladan vəziyyət

Nevus *(naevus)* – xal, dəri səthində neyroektodermal xarakterli piqmentli törəmə, nevus hüceyrələrdən ibarətdi ,tərkibində melanin var

Angiokeratoz nevus – *bax:* gövdənin nevusabənzər məhdud angiokeratoması

Ekrin nevusu *(naevus eccrinus) – bax:* sirinqoadenoma

Göy nevus – *bax:* mavi nevus

Göz-yuxarı çənə nevusu – *bax:* Ota nevusu

Kissmeyerin ziyilli damar nevusu – *bax:* gövdənin nevusabənzər məhdud angiokeratoması

Qarışıq nevus (naevus mixtus) – epidermis və dermanın sərhədində, həmçinin dermanın daxilində yerləşən nevus

Mavi nevus *(naevus calrullus)* – uzunsov formalı, melanosit tərkibli mavi-qəhvəyi ləkə və ya düyünlər formalı nevus

Melanosit formalı nevus *(naevus melanophormis) – bax:* mavi nevus

Mürrəkəb nevus – *bax:* qarışıq nevus

Osteohipertrofik varikoz nevus – *bax:* Klippel-Tren-Uber sindromu

Ota nevusu (M.Ota, 1885, yapon dermatoloqu) – üçlü sinirin innervasiyası zonasında göyümtül-bozumtul ləkələr

Piqmentli sərhəd nevusu (naevus piqmentosus junctivus) – epidermis və dermanın sərhəddində yerləşən nevus

Sirinqosistadenomatoz nevus *(naevus syringocystadenomatosis) – bax:* sirinqoadenoma

Tüklü piqment nevusu (naevus piqmentosus pilosus) – artıq miqdarda tükün inkişafı ilə xarakterizə olunan nevus

Verrukoz nevus (naevus verrucosus) – *bax:* ziyilşəkilli nevus

Yunksional nevus (naevus junctivus) – *bax:* piqmentli sərhəd nevusu

Ziyilşəkilli nevus (naevus verrucosus) – epidermisin papillomatoz xalı

Nevusabənzər amensiya – *bax:* Sterj-Veber-Krabbe sindromu

Nevusabənzər sirinqosistadenoma – bax: sirinqoadenoma

Neyfax üsulu (C.A.Нейфах,1909, sov. biokimyaçı) – eşitmə siniri nevritinin və otosklerozun diferensial diaqnostik üsulu (xarici qulaq keçəcəyində təzyiqin süni yolla artırılmasından sonra icra olunan audiometriya)

Neymann labirintektomiyası (H. Neumann, 1873-1939,avstr.otolarinqoloqu) – labirintitin kəllədaxili ağırlaşmaları zamanı icra olunan labirintektomiya

Neyofarmofobiya – yeni dərmanlardan patoloji qorxu

Neyrat-Kuşinq sindromu (R.Neurath,1869, avstr.pediatoru, H.W. Gushing, 1869-1939, amer. cərahı) – giqantizm və adipozo-genetal distrofiyanın birgə təzahürü

Neyrinoma – *bax:* nevrinoma

Neyrektomiya (*neureectomia***)** – sinirin bir hissəsinin kəsilməsi cərrahi əməliyyatı

Neyrit *(yun. nevron* nerv*) – bax:* akson

Neyroallergiya (*neuroallergia*) – sinir sisteminin allergik reaksiyası

Neyroanatomiya – anatomiyanın sinir sisteminin quruluşundan bəhs edən hissəsi

Neyrobiotaksis – sinir hüceyrələrinin (neyrobalstların) ən güclü qıcıq mənbəyinə doğru hərəkəti

Neyroblastoma (*neuroblastomar***)** – əsasən simpatik sinir sistemində rast gəlinən yetişməmiş sinir hüceyrələrindən inkişaf edən bədxassəli şiş

Neyrobruselyoz (*neurobrucellosis***)** – bruselyozun əsasən sinir sistemini zədələyən kliniki forması

Neyrocərrah – zədələnmiş sinir sisteminin müalicə və dianqostikasının cərrahi yollarla aparılması üzrə hazırlanmış həkim-mütəxəssis

Neyrocərrahi pinset – 1) xırda damarları elektrokoaqulyasiya məqsədilə tutmaq üçün pinset; 2) beyin şişlərini tutmaq üçün pəncərəli pinset

Neyrodermal melanoz (*melanosis neurodermalis*) – dərinin, baş beynin və yumşaq beyin qişasının irsi melanozu

Neyrodermatit *(neurodermatitis)– bax:* neyrodermit

Neyrodermatoz *(neurodermatosis)* – siniri sisteminin funksional pozğunluğu nəticəsində şiddətli qaşınma, düyüncüklü səpgilər və dəmrovlaşma ilə gedən dəri xəstəliyi

Neyrodermit (*neurodermitis*) – qaşınma və birləşməyə meylli xırda papulloz səpgilərlə gedən və lixenizasiya ocaqları əmələ gətirən neyrodermatoz

Ağ neyrodermit (neurodermitis alba) – lixenizasiya zonasında depiqmentasiya və sklerodermayabənzər dəyişikliklərlə gedən neyrodermit

Dekalvirasiyaedən neyrodermit *(neurodermitis decalvans)* – başın tüklü hissəsinin zədələnmiş nahiyəsində tüklərin tökülməsi ilə gedən neyrodermit

Depiqmentasiya olunmuş neyrodermit *(neurodermitis depigmentata) – bax:* ağ neyrodermit

Diffuz neyrodermit *(neurodermitis diffusa)* – ətrafların bükücü səthində, üzdə, boyunda, anal dəlik və cinsiyyət orqanları ətrafında sim-

metrik yerləşən və ağ dermoqrafizmlə gedən yayılmış neyrodermit

Ekssudativ neyrodermit *(neurodermitis exsudativa)* – xırda qovuqcuqlu ödemli əsasda inkişaf edən diffuz neyrodermit

Hipertrofik neyrodermit *(neurodermitis hypertrophica)* – əsasən cinsiyyət orqanlarında və bud-qasıq büküşlərində rast gəlinən şişəbənzər lixenizasiya zonaları olan neyrodermit

Xroniki diffuz neyrodermit *(neurodermitis chronica diffusa) – bax:* diffuz neyrodermit

Konstitusional neyrodermit *(neurodermitis constitutionalis) – bax:* diffuz neyrodermit

Kreybix neyrodermiti – *bax:* ağ neyrodermit

Məhdud Brok neyrodermiti – *bax:* məhdud neyrodermit

Məhdud neyrodermit *(neurodermitis circumscipta)* – dəri hissəsinin məhdud sahəsində qaşınma verən düyüncüklü səpgilər, piqmentləşmə və dəmrovlaşma ilə müşahidə olunan dərinin iltihabi prosesi

Yayılan neyrodermit *(neurodermitis diffusa)* – eyni zamanda orqanizmin müxtəlif nahiyələrində gedən, qaşınma verən düyüncüklü səpgilər, piqmentləşmə və dəmrovlaşma ilə müşahidə olunan dərinin iltihabi prosesi

Ziyilli neyrodermit *(neurodermitis verrucosa)* – dərinin zədələnmiş nahiyələrində ziyiləbənzər dəyişikliklərlə gedən hipertrofik neyrodermit

Neyrodinamik anoreksiya – həddən artıq qıcıqlanma nəticəsində iştah mərkəzinin tormozlanması zamanı meydana çıxan anoreksiya

Neyroekzeres (*neuroexeresis***)** – sinirin burulmaqla xaric edilməsi cərrahi əməliyyatı

Neyroendokrinologiya – endokrinologiyanın həyat fəaliyyəti proseslərinin tənzimlənməsində mərkəzi sinir sistemi və endokrinologiyanın qarşılıqlı rolunu öyrənən bölməsi

Neyroepitelioma *(neuroepithelioma) – bax:* ependimoma

Neyrofarmakologiya – farmakologiyanın dərman maddələrinin sinir sisteminə təsirini öyrənən bölməsi

Neyrofibromatoz (*neurofibromatosis*) – dərialtı toxuma və kəllə,onurğa beyni sinirlərində çoxsaylı neyrofibroma, nevrinoma, hemangioma və limfangiomaların əmələ gəlməsi ilə xarakterizə olunan xəstəlik

Neyrofibromatoz fil ayaqlılıq (*elephantiasis neurofibromatosa*) – aşağı ətraflarda çoxsaylı neyrofibromaların əmələ gəlməsi nəticəsində həcmin böyüməsi

Neytrofil leykositozu – *bax:* neytrofilez

Neyrofizin – hipofizin arxa pay hormonu

Neyrofiziologiya – fiziologiyanın sinir sisteminin fəaliyyət mexanizmini, sinir sistemində informasiyanın əmələ gəlmə və ötürülməsini öyrənən bölməsi

Neyrogen sidik kisəsi*(vesica urinaria neyrogena)* – sidik kisəsini innervasiya edən sinirlərin zədələnməsi və ya inkişaf etməməsi ilə əlaqədar olaraq sidik ifrazının pozulması

Neyrohipofiz (*neurohypophysis***)** – ön beynin ventral divarından inkişaf edən, oksitosin və antidiuretik hormon ifraz edən hipofizin arxa hissəsi

Neyrohistologiya – histologiyanın sinir toxumalarının quruluşunu öyrənən hissəsi

Neyroinfeksiya (*neuroinfectio***)** – törədicinin əsas etibarilə mərkəzi sinir sistemində yerləşdiyi və onun hər hansı bir hissəsinin zədələnməsi klinikası ilə gedən yoluxucu xəstəliklərin ümumi adı

Neyrokimya – bioloji kimyanın sinir sistemində gedən kimyəvi proseslləri öyrənən hissəsi

Neyroksantoma (*neuroxanthoma***)** – qliositlərdə xolesterinin toplanması ilə gedən sinir toxumasının lokal distrofik dəyişikliyi

Neyrokutaneal sindrom – *bax:* Sterj-Veber-Krabbe sindromu

Neyroqliya *(neuroglia)* – sinir toxuması elementlərinin cəmi (neyronlardan başqa)

Astrositar neyroqliya (*neuroglia astrocytica*) – dayaq funksiyası yerinə yetirən, astrositlərdən təşkil olunmuş neyroqliya

Ependim neyroqliyası (*neuroglia ependymalis*) – onurğa beyni kanalının divarlarını və beyin mədəciklərini daxildən örtən neyroepitelial hüceyrələrdən ibarət neyroqliya

Periferik neyroqliya (*neuroglia peripherica*) – periferik sinir sisteminin tərkibinə daxil olan lemmositlərdən, vegetativ qanqlionlardan və s. təşkil olunan neyroqliya

Neyroleptik sindrom *(syndromum neurolepticum)* – neyroleptik vasitələrlə müalicə zamanı meydana çıxan vegetativ, nevroloji və psixi pozğunluqların ümumi adı

Neyroleptiklər – psixotrop təsir göstərən dərman maddələri (məs; aminazin, halaperidol və s.)

Neyroleptoanalgeziya – xəstənin huşu özündə olmaqla hissiyyatının itirilməsi, bunun üçün neyroleptik vasitələr və narkotik analgetiklər istifadə olunur

Neyroleykoz (*neuroleucosis***)** – leykozlar zamanı mərkəzi sinir sisteminin zədələnmələrinin ümumi adı

Neyrolipoma (*neurolipoma***)** – mərkəzi sinir sistemində lokallaşan lipomalar (əsasən döyənək cisimdə, damar kələflərində hörümcəyəbənzər qişaaltı sisternlərdə rast gəlinir)

Neyrolyups (*neurolupus*) – sistem qırmızı qurdeşənəyi zamanı mərkəzi sinir sisteminin zədələnmələrinin ümumi adı (meninqoensefalit, poliradikulonevrit, deliriyəbənzər vəziyyət şəklində təzahür edir)

Neyromediator – *bax:* sinir sisteminin mediatoru

Neyromiksoma (*neuromyxoma*) – sinir kötüyündən inkişaf edən çoxsaylı selikli hüceyrələri olan neyrofibroma

Neyromiotomiya *(neuromyotomy)* – əzələnin sinir şaxələrinin kəsilməsi

Neyromotor sinir – hərəki sinir

Neyron (*neuronum*) – sinir sisteminin funksional və sturuktur vahidi

Afferent neyron (*n. afferens*) – qıcığı qəbul edən və mərkəzi sinir sisteminin digər reseptorlarına ötürən neyron

Amakrin neyron (*n. amacrinum*) – torlu qişanın daxili dənəli qatında yerləşən və bu qatın neyronları arasında əlaqəni təmin edən neyron

Aralıq neyron – *bax:* əlavə neyron

Armudabənzər neyron (*n. piriforme*) – beyincik qabığının qanqlionar qatında yerləşən armud formalı efferent neyronlar

Assosiativ neyron – *bax:* əlavə neyron

Bipolyar neyron (*n. bipolare*) – iki çıxıntısı – akson və dendriti olan neyron

Böyük dənəvər neyron (*granoneurocytus magnus*) – beyincik qabığının molekulyar qatında yerləşən, dentritləri molekulyar qatda yayılan, akonları isə beyinciyin dənəvər qatı və ya yumaqcıqlarına gedən iri neyronların ümumi adı

Daxili neyron (*n. internum*) – onurğa beyninin ön buynuzlarının daxili qatında yerləşən, uzanmış aksonun əks tərəfinə keçən neyron

Dənəvər neyron (*n. granulare*) – dairəvi, bucaqşəkilli və piramidal formalı baş beyin qabığının xarici dənəvər qatında yerləşən, dentritləri molekulyar lövhəyə qalxan, aksonları isə ağ maddəyə daxil olan və ya qövs əmələ gətirərək molekulyar lövhəyə keçən xırda neyronların ümumi adı

Effektor neyronlar – *bax:* efferent neyronlar

Efferent neyronlar – qıcığı mərkəzi sinir sistemindən orqan və toxumalara ötürən neyronlar

Eksteroseptiv neyronlar (*n. exteroceptivum*) – ağrı və temperatur qıcıqlarını qəbul edən afferent neyronlar

Əlavə neyron (*n. intercalatum*) – qıcığın afferent neyronlardan efferent neyronlara ötürülməsində iştirak edən neyron

Giqant piramidal neyron (*n. gigantopyramidale*) – baş beyin qabığının piramidal lövhəsində yerləşən, aksonları qabıq – onurğa beyni (piramidal) yolunun əsasını təşkil edən piramidal neyronlar

Görmə-qanqlioz neyron (*n. opticogangilonare*) – torlu qişanın qanqlionar qatında yerləşən iri neyron

Hərəki neyronlar – *bax:* motoneyronlar

Hissi neyron (*n. sensorium*) – *bax:* afferent neyron

İnteroseptiv neyronlar (*n. interoceptivum*) – daxili orqanlardan qıcığı qəbul edən afferent neyronlar

İyəbənzər neyron (*n. fusiforme*) – baş beyin yarımkürələri qabığında rast gəlinən uzunsov formalı, multipolyar əlavə neyron

İyəbənzər üfüqi neyron (*n. fusiforme horizontale*) – beyinciyin qabıq qatının dənəvər hissəsində rast gəlinən uzunsov formalı, multipolyar əlavə neyron

Kiçik dənəvər neyron (*granoneurocytus parvus*) – beyincik qabığının dənəvər qatında yerləşən, dentritlərin beyincik yumaqcıqları aksonları isə molekulyar qatda iki şaxəyə bölünərək qabığa paralel gedən xırda neyronlar

Kök neyronları (*n. radiculare*) – aksonları ön kökə daxil olan onurğa beyninin boz maddəsinin neyronu

Multipolyar neyron (*n. multipolare*) – aksondan əlavə çoxlu sayda dendritləri olan neyron

Piramid neyronlar (*n. pyramidale*) – *bax:* piramidal neyron

Piramidal neyron (*n. pyramidale*) – baş beyin yarımkürələri qabığına daxil olan cismi piramida formalı, zirvəsi qabığa doğru yönəlmiş neyronlar

Postqanqlionar neyronlar (*n. postganglionare*) – vegetativ qanqliolarda yerləşən neyronlar

Preqanqlionar neyronlar (*n. praeganglionare*) – vegetativ sinir siste-

minin mərkəzi nüvələrində yerləşən neyronlar

Proprioseptiv neyronlar (*n. proprioceptivum*) – skelet əzələlərindən və vətərlərdən dəyişiklikləri qəbul edən afferent neyronlar

Psevdounipolyar neyronlar (*n. pseudounipolare*) – bir çıxıntısı olan, lakin bu çıxıntı cisimdən aralandıqdan bir qədər sonra dendrit və aksona bölünən neyronlar

Qısaaksonlu ulduzlu neyron (*n. stelatum breviaxonicum*) – beyincik qabığının dənəli qatında yerləşən və aksonları beyincik yumaqcığına daxil olan ulduzlu neyronlar

Reseptor neyron – *bax:* afferent neyron

Sensor neyron (*n. sensorium*) – *bax:* afferent neyron

Ulduzlu neyron (*n. stellatum*) – ulduz formalı əlavə neyron

Unipolyar neyronlar (*n. unipolare*) – bir çıxıntılı neyronlar (insan orqanizmində yalnız dendriti əmələ gələnə qədər neyroblastlar unipolyar olur)

Uzunaksonlu neyronlar (*n. longiaxonicum*) – impulsu saya və ya ürək əzələsinə ötürən vegetativ multipolyar neyron

Uzunaksonlu ulduzlu neyron (*n. stellatum longiaxonicum*) – beyincik qabığının dənəli qatında yerləşən, aksonları ağ maddəyə daxil olan ulduzlu neyronlar

Vegetativ neyron – vegetativ sinir sisteminin qanqlion, kələf və sinirlərinin tərkibinə daxil olan neyron

Neyronofagiya (*neuronophagia*) – zədələnmiş neyronların neyrofaqlar tərəfindən udulması prosesi

Neyronofaq (*neuronophaqus*) – zədələnmiş neyronları faqositoza uğradan qliosit və ya leykosit

Neyronoqrafiya (neyron+ yun. *grafo* yazmaq) – mərkəzi sinir sisteminin funksional əlaqələrinin müayinə metodu (müəyyən qrup neyronların qıcıqlanmasına cavab olaraq yaranan elektrik potensiallarının qeydə alınması)

Neyrooftalmologiya – oftalmologiyanın görmə yollarını və baş beynin görmə mərkəzlərini öyrənən bölməsi

Neyroplastika – sinirin cərrahi plastikası

Neyroplegik vasitələr – *bax:* neyroleptiklər

Neyropsixologiya – psixologiyanın psixi proseslərin baş beynin müəyyən sistemləri ilə əlaqəsini öyrənən bölməsi

Neyrorafiya (*neurorrhapia*) – sinirlərə qoyulan tikiş

Neyroretinit (*neuroretinitis*) – torlu qişanın və görmə sinirinin birgə iltihabi zədələnmələrinin ümumi adı

Neyroretinopatiya (*neuroretinopatpia*) – torlu qişanın və görmə sinirinin qeyri-iltihabi zədələnmələrinin ümumi adı

Neyrorevmatizm (*neurorheumatismus*) – sinir sisteminin revmatik mənşəli zədələnmələrinin ümumi adı

Neyrosekresiya – hipotalamus hüceyrələri tərəfindən neyrohormonların sintezi və ifraz edilməsi prosesi

Neyrosifilis (*neurosyphilis*) – sinir sisteminin sifilis mənşəli zədələnmələrinin ümumi adı

Neyrosit *(neurocytus) – bax:* neyron

Neyrosom (*neurosoma*) – sinir hüceyrəsinin mitoxondrisi

Neyrospongioblastoma *(neurospongioblastoma)* – *bax:* meduloblastoma

Neyrospongioma *(neurospongioma)* – *bax:* meduloblastoma

Neyrotaxometr *(neyro+* yun.*tachos* surət *+metreo* ölçmək*)* –ətrafların hərəkətlərinin gücünü və davam etməsini ölçən cizah

Neyrotoksik maddə – sinir toxumasını zəhərləyən maddə

Neyrotoksik sindrom *(syndromum neuro toxicum)* – kiçikyaşlı uşaqlarda bəzi kəskin infeksion xəstəliklər zamanı inkişaf edən hipertermiya, huşun itməsi, qıcolma və meningial simptomlarla təzahür edən patoloji vəziyyət

Neyrotoksikoz – *bax:* neyrotoksik sindrom

Neyrotoksin – sinir sisteminə seçici təsir göstərən bioloji mənşəli zəhərli maddələrin ümumi adı

Neyrotomiya (*neurotomia***)** – sinirin köndələn kəsilməsi cərrahi əməliyyatı

Hissəvi neyrotomiya (neurotomia partialis) –sinir liflərinin bir hissəsinin kəsilməsi

Tam neyrotomiya (neurotomia completa) – bütün sinir liflərinin kəsilməsi

Neyrotripsiya (*neurotripsia***)** – sinirin funksiyasının dayandırılması məqsədilə əzilməsi cərrahi əməliyyatı

Neyrotrop (*neurotropica***)** – seçici olaraq sinir toxumasına təsir edən faktorlar (dərman maddələri, zəhərlər, boyaqlar)

Neyrotrop vasitələr (*neurotropica***)** – əsasən sinir sisteminə təsir göstərən dərman maddələri

Neyrotropizm *(neyro* + yun. *tropos* istiqamət*)* – sinir lifinin böyüməsinə təsir göstərən kimyəvi maddələr, hadisələr

Neyrovaskulyar (*neurovascularis***)** – eyni zamanda sinir və damar sisteminə aid olan

Neyrovirus – seçici olaraq mərkəzi sinir sistemində reproduksiya olunan və onu zədələyən virusların ümumi adı

Neytrofil – bax: neytrofil qranulosit

Neytrofil qranulosit (*granulocytus neutrophilus*) – dənələri neytral boyalarla boyadıqda aşkar olunan qranulosit

Neytrofil leykosit – *bax:* neytrofil qranulosit

Neytrofilosit – *bax:* neytrofil qranulosit

Neysser üsulu ilə rənglənmə (M.Neisser,1869-1938, alm. bakterioloqu) – difteriya çöplərinin diferensiasiyası üçün istifadə olunan rənglənmə metodu

Neytrofilez (*neutrophilosis*) – periferik qanda neytrofil qranulositlərinin sayının artması

Mütləq neytrofilez (neutrophilosis absoluta) – neytrofil qranulositlərin qan vahidində artması şəklində gedən neytrofilez

Nisbi neytrofilez (neutrophilosis relativa) – nisbi neytrofil qranulositlərin ümumi leykositlərə nisbətən artması

Neytrofiliya *(neutrophilia)* – *bax:* neytrofilez

Neytropeniya *(neutropenia)* – periferik qanda neytrofillərin azalması

Nezelof sindromu (C.Nezelof) – *bax:* alimfositoz

Nəbz *(pulsus*; lat. zərbə, təkan, nəbz*)* – ürəkdən qanın qovulması nəticə-

sində arteriya divarlarında meydana çıxan periodik təkanvari titrəyişlər

Alternəedici nəbz *(p. alternans)* – zəif və güclü nəbz dalğalarının düzgün növbələnməsi ilə gedən ritmik nəbz

Dikrotik nəbz *(p. dicroticus)* – periferik damarların tonusunun enməsi nəticəsində hər ürək yığılması zamanı iki nəbz dalğasının olması ilə xarakterizə olunan nəbz

Gərgin nəbz *(p. contractus)* – arterial hipertenziya zamanı müqaviməti artmış damarlara qanın qovulması üçün artıq güc sərf olunduğu nəbz

İntermitəedici nəbz *(p. intermittens)* – bəzi növ atrioventrikulyar blokadalar zamanı damar divarlarının rəqsi arasında intervalın iki dəfə artması ilə xarakterizə olunan nəbz

Kapillyar nəbz (*p. capillaris*) – *bax:* prekapillyar nəbz

Kiçik nəbz *(p. parvus)* – nəbz dalğasının kiçik amplitudası ilə xarakterizə olunan nəbz (arterial damarların spazmı, böyük qanaxmalar, kollaps və ürəkkeçmələr zamanı təsadüf olunur)

Ləng nəbz *(p. tardus)* – nəbz dalğasının ləng qalxması və enməsi ilə xarakterizə olunan nəbz (məs; aorta dəliyinin stenozu zamanı rast gəlinir)

Nadir nəbz *(p. rarus)* – 1 dəqiqədə 60-dan az tezliklə vuran nəbz

Paradoksal nəbz *(p. paradoxalis)* – nəfəsalma zamanı zəifləyən nəbz (məs; iri damarların daralması, perikardın bitişmələri zamanı təsadüf olunur)

Periferik nəbz *(p. periphericus)* – körpücükaltı, yuxu və bud arteriyasından distal yerləşən arteriyalarda ayırd edilən nəbz

Sapvari nəbz *(p. filiformis)* – palpator olaraq çətinliklə ayırd edilən nəbz (məs; şok, kəskin ürək çatışmazlığı və s. zamanı təsadüf olunur)

Sərt nəbz *(p. durus)* – *bax:* gərgin nəbz

Tezləşmiş nəbz *(p. frequens)* – 1 dəqiqədə 100-dən çox nəbz vurğusunun qeydə alındığı nəbz

Yumşaq nəbz *(p. mollis)* – arterial hipotenziya zamanı arteriyanın zəif pulsasiya etməsi nəticəsində meydana çıxan nəbz

Yüksək nəbz *(p. altus)* – əsasən aortal çatışmazlıq zamanı meydana çıxan böyük amplitudalı nəbz dalğası ilə xarakterizə olunan nəbz

Nəbz indikatoru – nəbz dalğasını qəbul edib elektrik, səs və işıq siqnalına çevirən cihaz (əsasən cərrahi müdaxilələr zamanı xəstənin vəziyyətinə nəzarət etmək üçün istifadə olunur)

Nəbz çatışmazlığı (sin. Cekson simptomu) – ürək yığılmalarına nisbətən nəbzin sayının az olması (ekstrasistoliya və səyirici aritmiyalar zamanı təsadüf olunur)

Nəbz sayğacı – *bax:* pulsotaxometr

Nəbz təzyiqi – sistoloik təzyiqlə diastolik təzyiq arasındakı fərq

Nəcis *(faeces)* – defekasiya zamanı xaric olunan yoğun bağırsaq möhtəviyyatı

Ağ nəcis – südəmər uşaqlarda iyli, az miqarda, rəngsiz, düyünşəkilli nəcis

Axolik nəcis – bağırsaqlara öd piqmentlərinin az daxil olması nəticəsində bozumtul rəngli, çüründülü nəcis

Çüründülü nəcis – üfunətli iyli, qəhvəyi rəngli nəcis (çüründülü dispepsiya zamanı)

Formalaşmış nəcis – defekasiyadan sonra müəyyən formanı saxlayan nəcis

Formalaşmış nəcis – defekasiyadan sonra öz müəyyən formasını saxlayan nəcis

Fraqmentli nəcis – əsasən hiperkinetik qəbzlik zamanı sıx kürəciklər şəklində ifraz olunan tünd-qəhvəyi rəngli nəcis

İlk nəcis – bax: mekonium

"Keçi" nəcisi – *bax:* fraqmentli nəcis

Sıyıqvari nəcis – əsasən çüründülü dispepsiyalar, steatoreya və işlədici vasitələrin qəbulu zamanı təsadüf olunan duru konsistensialı, formalaşmamış sıyıqşəkilli nəcis

Nəcis şişi – yoğun bağırsaqda nəcisin toplanaraq baxış və palpasiya zamanı şişi xatırlatması

Nəqliyyat immobilizasiyası – xəstənin başqa yerə köçürülməsi zamanı tətbiq olunan immobilizasiya

Nəm bürümə – əvvəlcədən otaq temperaturunda olan mayedə isladılmış mələfə ilə bürümə

Nəm əsgi simptomu – kauzalgiya zamanı ətrafı nəm əsgi ilə bürüdükdə ağrının azalması

Nəmləndirici – nəfəs alınan havanın nəmliyinin artırılması üçün vasitə

Nəticə – orqanizmin funksional vəziyyətinin dəyişilməsinin bu dəyişməyə səbəb olan faktorun kəsilməsindən sonra davam etməsi

Nəzarət- təxliyyə hospitalı – iri hospital bazalarının tərkibində müvəqqəti olaraq yaradılan, xəstə və yaralıların düzgün çeşidlənməsi və təxliyyə edilməsini həyata keçirən hospital

Nialamid (*nialamidum*) – monoaminoksidazanın ingibitoru olan antidepresant

Niden-Zattler qalvanokauteri (Nieden; H. Sattier,1844-1928, avstr. oftalmoloq) – bəbəyin irinli yarasının yandırılması üçün alət

Nifergelt sindromu (K.Nievergelt, isveçrəli cərrah) – dirsək oynağının diplaziyası, mil-bilək oynağının sinostozu, mil və dirsək sümüklərinin çıxığı və ya yarım çıxığı ilə gedən irsi xəstəlik

Nihelizm – tibbin, dərmanların və müalicənin faydalı əhəmiyyətinin inkarı

Nikiforov qatışığı (М.Н.Никифоров, 1858-1915, rus patoloq-anatomu) – qan və bakterial preparatları fiksə etmək üçün etil spirti və susuz kükürd efirinin bərabər həcmli qarışığı

Nikiforov stolu (E.K. Никифоров, 1892, sov. ortopedi) – aşağı ətraflara gips sarğısı qoymaq üçün ortopedik stol

Nikodin (*nicodinum*) – ödqovucu təsirli maddə

Nikoladoni əməliyyatı (C.Nicoladoni, 1847-1902, avstr. cərrah) – 1) yastıpəncəlik zamanı icra olunan Axilles vətərinin bir hissəsinin arxa qamış əzələsinə köçürülməsi plastik əməliyyatı; 2) biləyin I barmağının qüsurunun ayağın I barmağı ilə əvəz edilməsi plastik əməliyyatı

Nikolayev simptomu (Н.А. Николаев, 1895-1947,sov.həkimi) – orta otit zamanı daxili yuxu arteriyası prokyeksiyasına təzyiq etdikdə qulaqda ağrının itməsi, təzyiqi dayandırdıqda ağrının bərpa olunması

Nikolayev triadası (А.П. Николаев, 1896-1972, sov.akuşer-ginekoloqu) – dölün bətndaxili hipoksiyasının qarşısını almaq üçün anaya qlükoza

məhlulunun köçürülməsi, korazol (kordiamin) inyeksiyası və oksigen inqalyasiyasının icra edilməsi

Nikola- Favr xəstəliyi (J.G.M.Nicolas,1868, frans.dermatoloqu ; M.J.Favre,1876-1954, frans. dermatoloqu) – *bax:* qasıq limfoqranulematozu

Nikolski simptomu (Д. П. Никольский, 1855-1918, rus. gigienisti) – həqiqi qovuqcuqlar zamanı epidermisin yüngül mexaniki təsir nəticəsində bazal qatdan ayrılması

Nikolski-Zolotarev-Bettmen üsulu (Д.П.Никольский,К.П.Золотарев, 1884, rus.cərrahı; A.G.Bettman, 1883, amer.cərrahı) – 5 %-li tanin və 10%-li gümüş nitrat məhlulu ilə dövri olaraq islatmaqla yanığın açıq müalicəsi üsulu

Nikotin – güclü neyrotrop təsirli tütün alkaloidi

Nikotin turşusu *(acidum nicotinicum)* – PP vitamini

Nikotinamid *(nicotinamidum)* – quruluşca nikotin turşusuna yaxın olan və orqanizmdə PP vitamini rolunu oynayan preparat

Nikotinizm – hipersalivasiya, baş ağrısı, baş gicəllənməsi, görmənin çətinləşməsi, anoreksiya, tremor, qıcıqlanma ilə gedən nikotinlə xroniki zəhərlənmə

Nikt – (*yun. nyktos*) – mürəkkəb sözlərin tərkibinə daxil olaraq gecəyə, qaranlığa aid olan mənası verir

Niktalgiya (*nyctalgia*) – gecələr baş verən ağrı

Niktofiliya *(nyctophilia)* – gecə həyat tərzinə meyllik

Niktofobiya (*nyctophobia*; yun. *nyktos* gecə, *phobos* qorxu) – qaranlıqdan patoloji qorxma

Niktogilofobiya – meşələrdən qorxma

Nikturiya (*nycturia*) – gün ərzində ifraz olunan sidiyin çox hissəsinin gecə ifraz olunması (məs; ürək çatışmazlığı zamanı)

Niqard-Braun xəstəliyi (K.K. Nygaard; G.E. Brown, 1885-1935) – bax: Niqard-Braun sindromu

Niqarda-Braun sindromu (K.K. Nygaard; G.E. Brown) - aşağı ətraf və çanaq arteriya larının çoxsaylı trombozu, protrombin indeksi dəyişmədiyi halda qanın laxtalanmasının tezləşməsi və qanaxma müddətinin qısalması ilə gedən, nəli əzələlərdə güclü ağrı və ləngərləyici axsama ilə təzahür edən, ağır hallarda qanqrena ilə nəticələnən naməlum etiologiyalı xəstəlik

Niqrotomiya (*nigrotomia*) – hiperkinezlər zamanı baş beynin qara maddəsinin dağıdılması cərrahi əməliyyatı

Nilander sınağı (C.W.G. Nylander, 1835-1907, İsveç kimyaçısı) – sidikdə qlükozanan aşkar edilməsi üsulu (qələvi mühitdə onun nitritindən bismutu bərpa edərək tünd rəngin əmələ gəlməsinə əsasən)

Nilsen sindromu (H.Nielsen,daniya həkimi) – üz sinirinin iflici, qulaq seyvanlarının inkişaf anomaliyaları, boyunda ikitərəfli «uçuş pərdəsi», göz qapaqlarının ptozu, çəpgözlük, əl və ayaq barmaqlarının ödemi və zehni inkişafdan qalma ilə xarakterizə olunan inkişaf anomaliyası

Nimann-Pik xəstəliyi (H.Niemann,1880-1921, alm. pediatoru; L.Pick, 1868-1944, alm. patoloq-anatomu) – fosfolipidlərin qaraciyər, dalaq, sümük iliyi və limfa düyünlərində toplanması ilə gedən lipoid histositoz

Nimfomaniya *(nymphomania)* – qadınlarda cinsi əlaqəyə həvəsin həddən artıq artması, kompulsiv cinsi əlaqəyə tələbat

Ninhidrin reaksiyası – qələvi mühitdə zülalların aşkar edilməsi və kəmiyyətinin müayinəsi üsulu

Nirop aparatı (C. Nyrop, danım. ortoped, XIX əsr) – skoliozun müalicəsi zamanı tətbiq olunan polad lövhədən hazırlanmış döş, bel və iki çiyin kəməri ilə təchiz olunmuş ortopedik aparat

Nisbi göstəriş – hər hansı bir diaqnostik və ya müalicəvi tədbirin digəri ilə əvəz edilə bilməsini istisna etməyən göstəriş

Nisbi refrakterlik – mütləq refrakterlikdən sonra meydana çıxan oyanıcılığın tədricən bərpa olunmasından ibarət refrakterlik

Nisbi sidiyi saxlaya bilməmə (*inkontinentia urinae relativa***)** – sidiyin sidik kisəsində qismən saxlanaraq bir hissəsinin qeyri-iradi ifraz edilməsi (tam olmayan epispadiya və sidik kisəsinin doğuşdan sonrakı zədələnmələri zamanı təsadüf olunur)

Nissen fundoplikasiyası (R.Nissen,1896-1981,alm. cərrahı) – qida borusunun diafraqmal dəlikləri zamanı icra olunan cərrahi əməliyyat (mədənin diafraqmanın qida borusu dəliyi nahiyəsində bir neçə tikişlə fiksə edilməsi)

Nissimoto xəstəliyi (A.Nishimoto,yapon həkimi) – yuxu arteriyasının okulluziyası və ya anadangəlmə anomaliyası nəticəsində baş beyin əsasında patoloji damar şəbəkəsinin əmələ gəlməsindən ibarət naməlum etiologiyalı xəstəlik (beyin qan dövranı pozğunluqları şəklində təzahür edir)

Nissimoto-Takeuti-Kudo xəstəliyi (A.Nishimoto,M. Takeuchi, T.Kuda) – bax: Nissimoto xəstəliyi

Nissl dənəvərliyi (F.Nissi, 1860-1919, alm. nevropatoloq və psixiatrı) – bax: bazofil maddə

Nissl substansiyası (F.Nissi) – bax: bazofil maddə

Nissl-Alsgeymer formalı neyrosifilis (F.Nissi; A.Aizheimer, 1864-1915, alm. həkimi*)* – baş beyin qabığının kiçik damarlarının zədələnməsi ilə xarakterizə olunan, tədricən inkişaf edən ağılkəmliyi şəklində təzahür edən neyrosifilis

Nisslin ağır xəstəliyi (F.Nissi) – bax: Şpilmeyerin sinir hüceyrələrinin əriməsi

Nisslin xromatofil maddəsi (F.Nissi) – bax: bazofil maddə

Nisslin xroniki xəstəliyi (F.Nissi) – *bax:* Şpilmeyerin sinir hüceyrələrinin büzüşməsi

Nistaqm (*nystagmus*) – göz almalarının qeyri-iradi ikifazalı ritmik hərəkəti

Anadangəlmə irsi nistaqm (*nystagmus congenitus hereditarius*) – daimi kəfkirəbənzər üfüqi nistaqmla təzahür edən irsi xəstəlik

Binokulyar nistaqm (*nystagmus binocularis*) – hər iki göz almasının hərəkət etdiyi nistaqm

Dəmir yolu nistaqmı – *bax:* optokinetik nistaqm

Diaqonal nistaqm (*nystagmus diagonalis*) – göz almasının aşağıdan əks tərəfin yuxarı hissəsinə, yuxarıdan əks tərəfin aşağı hissəsinə hərəkəti ilə xarakterizə olunan nistaqm (göz bəbəyinin hərəkətliyi)

Dissosəolunmuş nistaqm (*nystagmus dissociatus*) – sağ və sol göz

almalarının müxtəlif istiqamətlərdə gedən nistaqmı

Əməkdaşlıq nistaqmı – *bax:* assosəolunmuş nistaqm

Fiksasion nistaqm (*nystagmus fixationis*) – göz almasına yaxın yerləşmiş əşyaya uzun müddət fiksəolunmuş baxış zamanı meydana çıxan nistaqm

Fırlanma nistaqmı (*nystagmus rotatorius*) – müayinə olunan şəxsin fırladılması (məs; Barani kreslosunda) ilə süni sürətdə yaradılan nistaqm

Fırlanma nistaqmı sınağı – *bax:* Baraninin fırlanma sınağı

Fırlanmadan sonrakı nistaqm (*nystagmus postrotatorius*) – müayinə olunan şəxsin fırlanmasından sonra fırlanmanın əks istiqamətində meydana çıxan nistaqm

Görmə nistaqmı *(nystagmus opticus) – bax:* optokinetik nistaqm

Horizontal-rotator nistaqm (*nystagmus horizontalis rotatorius*) – göz almasının sagital ox boyunca fırlanması və eyni zamanda horizontal istiqamətdə hərəkəti ilə xarakterizə olunan nistaqm

Xırdaməsafəli nistaqm – hərəkətlərin kiçik amplitudası ilə xarakterizə olunan nistaqm (daxili qulağın labirintində qeyd olunan patoloji proseslər zamanı təsadüf olunur)

İntension nistaqm (nystagmus intentionalis) – *bax:* qurulmuş nistaqm

İriməsafəli nistaqm – hərəkətlərin böyük amplitudası ilə xarakterizə olunan nistaqm (arxa kəllə çuxurunda patoloji proseslər zamanı təsadüf olunur)

İradi nistaqm (*nystagmus voluntaris*) – göz almasının nistaqmı xatırladan hərəkəti (bu hərəkəti hər adam edə bilmir)

İsterik nistaqm (*nystagmus hystericus*) – isteriya tutması zamanı xəstələrdə qeyd olunan nistaqm

Kəfkirəbənzər nistaqm (*nystagmus pendularis*) – göz almasının hər iki tərəfə eyni sürətlə hərəkəti ilə xarakterizə olunan nistaqm

Konvergensiyaedici nistaqm *(nystagmus convergens)* – sağ və sol göz almasının bir-birinə doğru istiqamətlənmiş nistaqmı (orta beynin zədələnmələri zamanı təsadüf olunur)

Qalvanik nistaqm *(nystagmus galvanicus)* – məməyəbənzər çıxıntı nahiyəsinə cərəyanla təsir etmə nəticəsində yaradılan nistaqm (göz almasının katod tərəfə hərəkəti)

Qurulmuş nistaqm – xırdaməsafəli, üfüqi, az davam edən nistaqm (gözün kənara uzaqlaşdırılması zamanı meydana çıxır)

Labirint nistaqmı *(nystagmus labyrinthicus)* – vestibulyar analizatorun reseptorlarının qıcıqlanması nəticəsində meydana çıxan nistaqm

Latent nistaqm *(nystagmus latens)* – bir gözü sarğı ilə bağladıqda meydana çıxan nistaqm (göz xəstəliklərində və ya üçlü sinirin burnun selikli qişasındakı şaxələrinin qıcıqlanması zamanı təsadüf olunur)

Mioklonik nistaqm – *bax:* Lenobl-Obino sindromu

Monokulyar nistaqm *(nystagmus monocularis)* – yalnız bir göz almasının hərəkəti ilə xarakterizə olunan nistaqm (gözün hərəki sinirinin zədələnmələri zamanı təsadüf olunur)

Optik nistaqm *(nystagmus opticus)* – görmə analizatorunun xəstəlikləri

və ya inkişaf anomaliyaları zamanı rast gəlinən nistaqm

Optokinetik nistaqm (*nystagmus optokineticus)* – bir istiqamətdə hərəkət edən əşyaya baxışın fiksə olunması zamanı qeyd olunan nistaqm

Ortaməsafəli nistaqm – hərəkətlərin orta amplitudası ilə xarakterizə olunan nistaqm (daxili qulağın labirintində qeyd olunan patoloji proseslər zamanı təsadüf olunur)

Peşə nistaqmı *(nystagmus professionalis)* – gözün hərəki sinirinin sistematik gərginliyi zamanı və ya iş yerinin kifayət qədər işıqlanmaması zamanı meydana çıxan nistaqm

Pressor nistaqm *(nystagmus pressorius)* – xarici qulan keçəcəyində rezin ballon vasitəsi ilə hava təzyiqi yaradıldıqda meydana çıxan nistaqm (üzvi labirintitin və ya yarımdairəvi kanalların anadangəlmə fistulu zamanı təsadüf oluna bilər)

Pulsasiyaedən nistaqm *(nystagmus pulsans)* – *bax:* retraktor nistaqm

Retraktor nistaqm *(nystagmus retractorius)* – orta beynin zədələnmələri zamanı ön-arxa istiqamətdə qeyd edilən nistaqm

Spontan nistaqm *(nystagmus spontaneus)* – orqanizmə istiqamətlənməmiş təsir nəticəsində öz-özünə meydana çıxan nistaqm

Süni nistaqm – xüsusi seçilmiş qıcıqlandırıcıların təsirindən yaranan nistaqm (bədənin fırladılması, soyuq, daimi elektrik cərəyanı)

Tonik nistaqm *(nystagmus tonicus)* – göz almasının hərəkətinin ləngimiş nistaqmı (zəif və cəld fazaların nəzərə çarmaması ilə gedir)

Undulasiyaedən nistaqm *(nystagmus undulans)* – *bax:* kəfkirəbənzər nistaqm

Vertikal nistaqm *(nystagmus verticalis)* – göz almasının yuxarıdan aşağı və aşağıdan yuxarıya hərəkəti ilə gedən nistaqm

Vestibulyar nistaqm *(nystagmus vestibularis)* – vestibulyar analizatorun qıcıqlanması nəticəsində meydana çıxan nistaqm

Vəziyyət nistaqmı *(nystagmus positionis)* – yalnız başın müəyyən vəziyyətində meydana çıxan spontan nistaqm

Yellənmə nistaqmı – *bax:* kəfkirəbənzər nistaqm

Nistaqmoqrafiya (*nystagmography)* – göz hərəkətinin qrafik qeydə alınması ilə nistaqmın müayinəsi üsulu

Nistaqmoskopiya (*nystagmoscopia)* – optik cihazlarla müşahidə etməklə nistaqmın aşkar edilməsi

Nistatin *(nystatinum)* – əsasən *Candida* göbələklərinə və aspergiluslara təsir edən antibiotik

Nişanlanmış anticisimlər – antigenləri aşkar etmək məqsədilə tərkibinə radioaktiv izotoplar, boyayıcı maddələr daxil edilmiş preparatlar

Nişasta (*amylum*) – yerli təsirli bürüyücü maddə

Heyvan nişastası – *bax:* qlikogen

Nitq iterasiyası *(iteratio verbalis)* – uzun müddət eyni tərzdə teztez, ritmik olaraq mənasız söz, heca və söz birləşmələrinin təkrarlanması

Nitqin epileptik dayanması – epilepsiya tutmaları zamanı daxili nitq qabiliyyətinin saxlanılması şəraitində nitqi ifadə edə bilməmək

Nitqin itməsi – nitq qabiliyyətinin tədricən və qəflətən pozulması nə-

ticəsində total afaziyanın meydana gəlməsi

Nitqin stereotipliyi – eyniməzmunlu sözlərin təkrarlanması

Nitrazepam *(nitrazepamum)* – trankvilizator, miorelaksant, qıcolma əlehinə və anksiolitik təsir göstərən dərman vasitəsi

Nitrofungin *(nitrofungin)* – göbələk əleyhinə təsir göstərən preparat

Nitroqliserin (*nitroglycerinum*) – antianginal təsirli maddə

Nitroksolin *(nitroxolinum)* – oksixinolin törəməsi olan antibakterial maddə

Nitroqliserin sınağı – nitroqliserinin tac damarları genişləndirmək xüsusiyyətinə əsaslanan diaqnostik üsulların ümumi adı

Nitrometr – qaz qatışıqlarında azotun konsentrasiyasını müəyyən etmək üçün cihaz (məs; inhalyasion narkoz üçün)

Nitro- *(*lat. *nitrogenium* azot*)* **-** mürəkkəb sözlərin tərkibinə daxil olaraq "azota aid olan" və ya "azotlu birləşmələr" mənasını verir

Nitrong (*nitrong*) – antianginal təsirli maddə

Nitrosorbid (*nitrosorbidum*) – antianginal təsirli maddə

Nizəşəkilli göz bıçağı – ülgücü bərabəryanlı üçbucaq şəklində və yanları iti olan bıçaq, göz əməliyyatlarında istifadə olunur

Noaka sindromu – *bax:* akrosefalopolisindaktiliya I tip

Nobel əməliyyatı (Th.B.Nobel, amer. cərrah) – nazik bağırsaq ilgəklərinin bir-birinə fiksə edilməsi cərrahi əməliyyatı (bitişmə xəstəliyi zamanı bağırsaq keçməməzliyinin profilaktikası üçün tədbiq olunur)

Nodal (*nodalis*) – düyünə aid olan (məs; limfatik düyünə)

Nodal ritm – *bax:* ürəyin atrioventrikulyar ritmi

Nodoz (*nodosus*) – düyünlərdən təşkil olunan

Nodoz periarteriit *(periarteriitis nodosa)* – *bax:* düyünlü periarteriit

Nodoz oftalmiya (*ophthalmia nodosa*; sin. düyünlü oftalmiya) – bəzi quşların tüklərinin, bitki hissələrinin daxil olması nəticəsində gözdə düyünlərin əmələ gəlməsi ilə xarakterizə olunan gözün iltihabi dəyişikliyi

Nodulyar (*nodularis*) – düyünlərdən təşkil olunan, düyünlərin əmələ gəlməsi ilə gedən

Nodulyar limfoma (*lymphoma nodulare*) – *bax:* giqantofollikulyar limfoma

Nodulyar limfosarkoma – *bax:* giqantofollikulyar limfoma

Nokardioz (*nocardiosis*) – *nocardia asteroides* tərəfindən törədilən, abseslərən və bəzən hematogen yolla irinli metastazlar verən pnevmoniya

Nokkeman sindromu – ağıreşitmə, ovuc və ayaqaltı dərinin keratozu, dirsəklərin, dizlərin arxa səthinin ziyilli qalınlaşması ilə xarakterizə olunan inkişaf anomaliyası

Noquçi mühiti (H.Noguchi,1876-1928, yap. mikrobioloqu) – spiroxetləri becərmək üçün qidalı mühit (canlıların orqan tikələri və nativ insan zülalı – assitik maye, qan zərdabı)

Noma (*noma*) – naməlum etiologiyalı, əsasən üz toxumalarını, bəzi hallarda isə cinsi orqanları və anal dəlik nahiyəsini zədələyən yaş qanqrena

Nomatofobiya *(nomatophobia)* – adlardan patoloji qorxu

Nomofobiya *(nomophobia)* – əlaqəsiz, telefonsuz qalmaqdan patoloji qorxu

Nonne sınağı (M.Nonne, 1861-1959, alm. nevropatoloqu) – hörümçəyəbənzər qişaaltı nahiyədən 7-10 mm beyin-onurğa beyni mayesinin punksiya edilərək çıxarılması ilə bu nahiyədə keçiriciliyin pozulub-pozulmadığının təyin edilməi (təzyiqin kəskin düşməsi keçiriciliyin pozulmasını göstərir)

Nonne-Apelt reaksiyası (M.Nonne,F. Apelt,1872-1911, alm. nevropatoloqu) – beyin-onurğa beyni mayesini amonium-sulfat məhlulu ilə qarışdırdıqda bulanması (beyin-onurğa beyni mayesində qlobulinlərin olmasını göstərir)

Nonne-Milroy-Meyj sindromu (M. Nonne,W.F.Mielroy,1855-1942, amer. həkim; H.Meige, 1866-1940, frans. həkimi) – psixi və fiziki inkişafın ləngiməsi, hipoqonadizm, üzün və ətrafların trofedemaları ilə xarakterizə olunan irsi xəstəlik

Nonnenin kompression sindromu (M.Nonne) – *bax:* blok sindromu

Nootrop vasitələr – mərkəzi sinir sisteminin interaktiv mexanizmlərinə, zehni qabiliyyətə və yaddaşa birbaşa aktivləşdirici təsir göstərən, mərkəzi sinir sisteminin aqressiv təsirlərə dözümlüyünü artıran, qabıq-qabıqaltı əlaqələri yaxşılaşdıran dərman vasitələri

Noradrenalin *(noradrenalinum)* – böyrəküstü vəzin beyin maddəsinin hormonu (simpatik sinir sisteminin mediatoru)

Noradrenalin hidrotartrat (*noradrenalini hydotartras*) – simpatik sinirlərin postsinaptik uclarına oyadıcı təsir göstərən maddə

Norbi üsulu – sidikdə diastazanın karbohidratları çevirmə qabiliyyətinin təyin edilməsinə əsasən, mədəaltı vəzin müayinəsi üsulu

Norepinefrin *(norepineprinum) – bax:* noradrenalin

Norm *(norma)* – mürəkkəb sözlərin tərkibinə daxil olub, «normaya uyğun» mənasını verir

Norma (lat. *norma* qayda, nümunə**)** – tibdə və biologiyada: orqanizmin optimal inkişafı və fəaliyyətinin göstəricisi

Normergiya *(norm+* yun. *ergon* fəaliyyət*)* – orqanizmin reaksiyanı törədən faktorun xarakterinə və gücünə uyğun reaktiv halı

Normetanefrin – böyrəküstü vəzi hormonlarının aralıq məhsulu

Normokaliemik periodik iflic – qanda natrium və kalium ionlarının normal olmasına baxmayaraq əzələlərin tutmaşəkilli zəifləməsi ilə xarakterizə olunan irsi xəstəlik

Normokapniya (yun. *normokapnos*) – CO_2 - nin qanda normal gərginliyi

Normoqramma – birinci və üçüncü standart aparmalarda R və S dişlərinin amplitudasının təxminən eyni olduğu EKQ

Normal kaplemer – *bax:* kaplemer

Normospermiya – eyakulyatda spermatozoidlərin miqdarı (1 ml-də 50-150 mln. olması və onlardan 70%-ə qədərinin hərəkətli olması)

Normovolemiya (*normovolaemia*) – orqanizmdə qanın normal həcmi

Norri xəstəliyi (G.Norrie, 1855, denim. oftalmoloq) – şüşəyəbənzər cisim nahiyəsində bozumtul sarı rəngdə şişəbənzər kütlə, uveit, katarakta, ikincili qlaukoma, göz almasının korluqla nəticələnən atrofiyasından ibarət irsi xəstəlik

Norri-Varburq sindromu (G.Norrie, M.Warburg,1926) – *bax:* Heyne-Norri sindromu

Norsulfazol *(norsulfazolum)* – sulfanilamid preparatı

Norsulfazol natrii *(norsulfazolum natrium)* – sulfanilamid preparatı

Norveç qoturu *(scabies norvegica)*– immun-bioloji cəhətdən zəifləmiş şəxslərdə adi qoturun ağırlaşmış forması

Nosireseptor *(*lat.*nocens* ziyanlı+*reseptor)* – ağrını qəbul edən reseptor

Nosiseptiv ağrı – ağrı reseptorlarının bilavasitə akivləşməyi ilə əlaqədar olan ağrı

Nosiseptor – *bax:* ağrı reseptoru

Nostalgiya (*nostalgia***)** – vətəndən uzun müddət ayrılmaq nəticəsində, əsasən depressiv sindrom şəklində özünü göstərən reaktiv vəziyyət

Nostofobiya *(nostophobia)* – evə qayıtmaqdan patoloji qorxu

Nostomaniya (*nostomania***)** – vətənə dönməyə impulsiv canatmadan ibarət patoloji vəziyyət

Nostopatiya (*nostopathia***)** – *bax:* nostomaniya

No-şpa (*nospanum*) – spazmolitik təsirli antihipertenziv maddə

Notnagel iflici (K.W.H.Nothnagel, 1841-1905,alm. həkim) – qabıqaltı nüvələrin zədələnməsi zamanı affektiv mimiki hərəkətlər etdikdə burun-dodaq şırımının bərabərliyinin pozulması, ağız bucağının birtərəfli enməsi (iradi hərəkətlər zamanı bu dəyişikliklər qeyd olunmur)

Notnagelin mimiki iflici (K.W.H.Nothnagel) – *bax:* Notnagel iflici

Novarsenol *(novarsenolum)* – sifilis törədicisi əleyhinə təsir göstərən arsen preparatı

Novembixin *(novembichinum)* – beta xloretil tərkibli şiş əleyhinə təsir göstərən kimyəvi terapevtik dərman maddəsi

Novikov fiksatoru (*И.В.Новиков*, sov. cərrahı) – uzunborulu sümüklərin birləşməyən sınıqları və yalancı oynaqları zamanı tətbiq olunan çıxıntılı fiqurlu lövhə

Novikovun sümük tikişi (*И.В.Новиков*) – sümük daxilinə fraqmentləri fiksəedici vasitənin yeridilməsi

Novokain (*novocainum*) – yerli təsirli ağrıkəsici maddə

Novokain blokadası *(*sin. *Vişnevski blokadası)* – zədələnmiş nahiyəni innervasiya edən sinir nahiyəsindəki toxumalara çoxlu miqdarda novokain yeridilməsi ilə müalicə üsulu

Burundaxili novokain blokadası – novokain məhlulunun burun boşluğunun selikli qişasına və ya selikli qişaaltı nahiyəyə yeridilməsi ilə icra olunan novokain blokadası (Menyer xəstəliyi, vazomotor və atrofik rinitlər zamanı tətbiq olunur)

Futlyar novokain blokadası – *bax:* sirkulyar novokain blokadası

İntrameatal novokain blokadası – *bax:* qulaqdaxili novokain blokadası

Qısa novokain blokadası – novokain məhlulunun bilavasitə iltihab ocağı ətrafına yeridilməsi ilə icra olunan məhdud novokain blokadası

Qulaqdaxili novokain blokadası – novokain məhlulunun xarici qulaq keçəcəyinin arxa-yuxarı divarına yeridilməsi ilə icra olunan novokain blokadası (qulaqlarda küy zamanı tətbiq olunur)

Presakral novokain blokadası – novokain məhlulunun oma sümü-

yünün ön nahiyəsinə yeridilməsi ilə icra olunan novokain blokadası (proktit, paraproktit, düz bağırsağın çatları zamanı tətbiq olunur)

Retromammar novokain blokadası – novokain məhlulunun süd vəzinin arxasında yerləşən toxumaya yeridilməsi ilə icra olunan novokain blokadası (mastitlər zamanı tətbiq olunur)

Sirkulyar novokain blokadası – novokain məhlulunun müəyyən nahiyədə ətrafın dairəsi boyunca yerləşən toxumaarası nahiyəyə yeridilməsi ilə icra olunan novokain blokadası

Vaqosimpatik novokain blokadası – boyun fəqərələrinin ön yan səthinə novokain məh lulu yeridilməklə oyanıqlığın azan sinir və simpatik kötük vasitəsilə örtülməsinin qarşısının alınması (plevropulmonal şok zamanı tətbiq olunur)

Novokainamid (*novocainamidum*) – aritmiya əleyhinə təsir göstərən maddə

Novotelnov üsulu (С.А.Новотельнов,1883-1956, sov. cərahı) – paralitik at pəncəsi zamanı icra olunan plastik əməliyyat

Noyki refleksi (M.D.D. Noica, 1869-1937, rumın həkimi) – piramid yoların zədələnməsi zamanı qamış sümüyünün xarici qabarına perkusiya etdikdə ayağın yığılmasından ibarət patoloji refleks

Nozepam (*nozepamum*) – benzodiazepin törəməsi olan trakvilizator

Nozo (*yun. nosos*) – mürəkkəb sözlərin tərkibinə daxil olub, xəstəliyə aid olan mənasını verir

Nozoareal (*nosoarealis*) – yer kürəsində müəyyən yoluxucu xəstəliklərin olduğu coğrafi məkan

Faktiki nozoareal – ərazisində hal-hazırda müəyyən yoluxucu xəstəlik olan nozoareal

Xüsusi coğrafi nozoareal – nisbətən az sahəni tutan kompakt nozoareal

Qlobal nozoareal – yer kürəsində böyük bir hissə tutan nozoareal

Lentşəkilli nozoareal – uzanmış coğrafi məkan boyunca yayılan nozoareal (çay, dəniz sahili)

Optimal nozoareal – nozoarealın hər hansı infeksion xəstəliyinin törədicisinin mövcud olması üçün optimal əlverişli sahəsi

Parçalanmış nozoareal – bir-birindən coğrafi arakəsmələrlə ayrılmış hissələrdən ibarət nozoareal (səhra, dəniz)

Potensial nozoareal – ərazisində hər hansı yoluxucu xəstəliyin yayılmasına şərait və meyllilik olan nozoareal

Regional nozoareal – bir coğrafi regionla məhdudlaşan nozoareal

Tam nozoareal – bir-birindən coğrafi arakəsmələrlə ayrılmayan hissələrdən ibarət nozoareal

Zonal nozoareal – bir coğrafi məkanla məhdudlaşan nozoareal

Nozocoğrafi xəritə – yer kürəsində ayrı-ayrı xəstəliklərin yayılma xüsusiyyətlərini göstərən xəritə

Nozocoğrafiya – tibbi coğrafiyanın xəstəliklərin yayılmasının coğrafi qanunauyğunluqlarını öyrənən bölməsi

Nozofiliya (*nosophilia*) – özündə hər hansı bir xəstəliyin olmasına inam və özünü müalicəyə patoloji meyl

Nozofobiya (*nosophobia*) – xəstələnməkdən patoloji qorxu

Nozokomefobiya *(nosocomephobia)* – xəstəxanalardan patoloji qorxu

Nozokomial (*nosocominalum*) – xəstəxana və ya digər stasionar müalicə müəssisəsinə aid olan

Nozokompleks – müəyyən xəstəliyin meydana çıxması və coğrafi yayılmasına təsir edən, insan orqanizminə və ətraf mühitə aid olan faktorların cəmi

Nozologiya *(nozo* + yun. *logos* elm) – xəstəliklərin təsnifatı, xəstəlik formaları haqqında elm

Nozoloji forma – xəstəliklərin nomenklatura və klassifikasiya vahidi (etioloji, patogenetik və xarakter klinik-morfoloji şəklinə görə ayrılmış müəyyən xəstəlik)

Nozoloji profil – müəyyən ərazinin müəyyən zaman daxilində xəstələnmə və ya ölüm hallarının strukturu

Nozoloji vahid – *bax:* nozoloji forma

Növbələnən yuvenil sarılıq – *bax:* Jilber-Meylenqraxt sindromu

Növbətçi tibb bacısı – növbədə olan tibb bacısı

Nuklear (*nuclearis*) – nüvəyə aid olan

Nukleo (*nucleus*) – mürəkkəb sözlərin tərkibinə daxil olub, nüvəyə aid olan mənasını verir

Nukleoid (*nucleoidum*) – bakterial hüceyrədə nüvə maddəsinin toplanması

Nukleoqrafiya – *bax:* diskoqrafiya

Nukleomitufobiya *(nucleomituphobia)* – nüvə silahlarından patoloji qorxu

Numerofobiya *(numerophobia)* – rəqəmlərdən patoloji qorxu

Nunan sindromu (J.Noonan, uşaq kardioloqu) – boynun, döş qəfəsinin və göz qapaqlarının dismorfiyası, anadangəlmə ürək qüsurları ilə gedən sindrom

Nutrisiologiya *(*lat. *nutricum* qidalanma+ yun.*logos* elm*)* – canlıların qidalanması haqqında elm

Nüvə *(nucleus)* – 1) mərkəzi sinir sisteminin müəyyən nahiyələrində toplanmış və müəyyən funksiyaların icra olunmasını təmin edən boz maddə; 2) eukariotlarda hüceyrənin əsasən genetik informasiya daşıyıcısı olan, sitoplazmadan kariolemma ilə ayrılan hissəsi

Ayaqcıqlararası nüvə *(n. interpedincularis)* – böyük beyin ayaqcıqları arasında orta beyində yerləşən nüvə

Bakterial nüvə – *bax:* nucleoid

Bazal nüvə *(n. basales)* – böyük beyin yarımkürələrinin əsasında yerləşən nüvə

Beyincik çadırı nüvəsi – *bax:* çadır nüvəsi

Büllur nüvəsi *(n. lentis)* – büllurun daxil, daha bərk və sıx hissəsi

Çadır nüvəsi *(n. fastigii)* – IV mədəciyin damı üzərində beyincik soxulcanında yerləşən nüvə

Dişli nüvə *(n. dentatus)* – beyincik-qırmızı nüvə və beyincik-talamik yollara başlanğıc verən, yarımkürələrin ön içəri nahiyəsinin ağ maddəsində yerləşən ən iri beyincik nüvəsi

Döş nüvəsi *(n. thoracicus)* – onurğa beynin arxa sütununda VII boyun-III bel seqmentləri arasında yerləşən arxa onurğa beyni-beyincik yoluna aid olan nüvə

Embrional büllur nüvəsi – büllurun mərkəzində yerləşən 2 cərgə oval formalı sıxlaşmış büllur liflərindən ibarət olan hissəsi

Görməüstü nüvə *(n. supra opticus)* – hipotalamusun ön hissəsində görmə çarpazı üzərində yerləşən nüvə

İnterpeduneklear nüvə – *bax:* ayaqcıqlararası nüvə

Kalliker nüvəsi – *bax:* çadır nüvəsi

Klark nüvəsi – *bax:* döş nüvəsi
Klark-Ştillinq nüvəsi – *bax:* döş nüvəsi
Körpü nüvəsi *(n. pontis)* – beyin qabığını beyincik qabığı ilə birləşdirən yolun tərkibinə daxil olan körpünün ventral sahəsində yerləşən nüvələrin ümumi adı
Kürəyəbənzər nüvə *(n. globosus)* – beyinciyin ağ maddəsinin medial hissəsində yerləşən nüvə
Qabıqaltı nüvə – *bax:* bazal nüvə
Qıf nüvəsi *(n. infundibularis)* – hipotalamusda qıfın boz qabarla birləşdiyi nahiyədə, III mədəciyin ependiması altında yerləşən nüvə
Qırmızı nüvə (*n. ruber*) – ekstrapiramid sistemə aid olub, orta beyin qapağının ön nahiyəsində yerləşən qırmızımtıl-sarımtıl iri nüvə
Qocalıq büllur nüvəsi – *bax:* yetişmiş büllur nüvəsi
Quyruqlu nüvə *(n. caudatus)* – beynin yan mədəciyinə söykənən mərciyəbənzər nüvədən və talamusdan daxili kapsul ilə ayrılan bazal nüvə
Mərkəzi nüvə *(n. centralis)* – onurğa beyninin ön buynuzlarının mərkəzi hissəsində yerləşən, tərkibində yuxarı və aşağı ətraf əzələlərini innervasiya edən neyronlar olan nüvə
Tək yol nüvəsi *(n. tractus solitari)* – uzunsov beyində yerləşən üz, dil-udlaq və azan sinirlərin liflərinin bitdiyi nüvə
Tikiş nüvəsi *(n. raphes)* – uzunsov beyində orta xətt üzərində yerləşən nüvə
Yaşlı büllur nüvəsi – *bax:* yetişmiş büllur nüvəsi
Yetişmiş büllur nüvəsi – büllurun sıx liflərdən təşkil olunmuş, embrional bülluru əhatə edən 20 yaşdan sonra inkişaf etməyə başlayan daha sıx hissəsi
Zeytun nüvəsi *(n. olivaris)* – ekstrapiramid sistemə aid olan, uzunsov beyində yerləşən nüvə

Nüvə oftalmiyası *(ophthalmia nuchearis)* – nüvə partlayışı zamanı işıq şüasının təsirindən yaranan oftalmiya

Nüvə oftalmoplegiyası *(ophthalmoplegia nuclearis)* – gözün hərəki sinir nüvəsinin zədələnməsi nəticəsində meydana çıxan oftalmoplegiya

Nüvə partlayışına nəzarət – bütün mühitlərdə olmuş nüvə partlayışlarını aşkar etmək, eyniləşdirmək, ölçülərini təyin etmək məqsədilə keçirilən tədbirlər kompleksi

Nüvə silahı – atom nüvəsinin parçalanma reaksiyası nəticəsində nüvədaxili enerjinin (atom enerjisinin) bir hissəsinin ayrılması hesabına çox qüvvətli partlayış yaradan aviasiya bombası; nüvə reaksiyaları nəticəsində son dərəcə sürətlə və külli miqdarda ayrılan enerji nüvə partlayışı kimi meydana çıxır

Nüvə silahının sınağı – nüvə atımının elmi-tədqiqat və hərbi sınaq məqsədilə partladılması üçün nəzərdə tutulmuş əməliyyatlar kompleksi

Nüvə silahının zədələnmə amilləri – nüvə partlayışı zamanı əmələ gələn, onun zədələmə təsirini müəyyən edən fiziki proseslər (zərbə dalğası, işıq şüalanması, nüfuzedici radiasiya, radioaktiv zəhərlənmə, elektromaqnit impulsu)

Nüvəsiz zona – beynəlxalq miqyasda müəyyən edilmiş raket-nüvə silahının istehsalı və yerləşdirilməsindən azad olan zona

Nyuvera – *bax:* becel

O

Obezofobiya (*obesophobia*) – kökəlməkdən qorxma

Obleterasiyaedici periuretrit (*periureteritis obliterans*) – *bax:* Ormond xəstəliyi

Obliqat simptom – hər hansı bir xəstəlikdə mütləq mövcud olan əlamət

Obliterasiya (*obliteratio*; lat. *oblitteratio* yoxolma, hamarlanma) – hər hansı borulu orqanın və ya damarın mənfəzinin bitişməsi

Obliterasiyaedən (*obliterans*) – qapayan, tıxayan

Obliterasiyaedən arterioskleroz *(arteriosclerosis obliterans) – bax:* obliterasiyaedən ateroskleroz

Obliterasiyaedən ateroskleroz (*atherosclerosis obliterans*; sin. obliterasiyaedən arterioskleroz) – damar mənfəzinin kəskin daralması və ya tam tutulması ilə xarakterizə olunan ateroskleroz; əsasən aşağı ətrafların, ürəyin, böyrəklərin arteriyalarında müşahidə olunur

Obliterasiyaedən endarteriit (*endarteriitis obliterans*) – əsasən aşağı ətraflarda endarteriitlə xarakterizə olunan xəstəlik; periferik qan dövranının pozulması ilə təzahür edir

Obliterasiyaedən trombangioz (*thrombangiosis obliterans*) – *bax:* obliterasiyaedən endarteriit

Obliterasiyaedici trombangiit (*thrombangiitis obliterans*) – aşağı ətraf damarlarının mənfəzinin daralması və trombozu nəticəsində periferik qan dövranının işemik nekrozun inkişaf etməsinə qədər pozulması

Oblomov sindromu (rus yazıçısı İ.Qonçarovun 1859-cu ildə yazdığı eyniadlı romanının baş qəhrəmanı) – psixoloji xəstəlik olub, passivlik, tənbəllik, ruh düşkünlüyü, laqeydsizlik, dərdsizliklə təzahür edir

Obnubilyasiya (*obnubilatio*; lat. *ob* qabağında, önündə, nubes bulud) – nitqin ləngiməsi, diqqətin yayınması nəticəsində səhv cavabların verilməsi ilə təzahür edən düşüncənin kəmiyyətcə yüngül dərəcəli pozuntusu

Obraztsov auskultasiyası (V.P. Obraztsov, 1849-1920, rus terapevti) – ürəyin fəaliyyəti ilə bağlı bir sıra səs fenomenlərinin (ürəyin III tonu, çapma ritmi və s.) aşkar edilməsi üsulu, ürəyin bilavasitə qulaqla auskultasiyasına əsaslanır

Obraztsov əlaməti (V.P. Obraztsov) – kor bağırsağın palpasiyası zamanı şırıltı səsinin meydana gəlməsi; xroniki kolitin əlaməti

Obraztsov perkusiyası (V.P. Obraztsov) – birbaşa perkussiya üsulu: vuran şəhadət barmağı orta barmağın lateral səthindən sürüşür (çırtma şəklində)

Observasiya (lat. *observatio* müşahidə) – epidemiya ocağında yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınmasına yönəlmiş təcridetmə-məhdudlaşdırma, müalicəvi-profilaktik və əksepidemik tədbirlər sistemi; bura daxildir: giriş-çıxışların məhdudlaşdırılması, infeksion xəstələrin müəyyən edilməsi, təcrid edilməsi və hospitalizasiyası, əhalinin sanitar təmizlənməsi, təcili profilaktik tədbirlərin görülməsi, sanitar-gigiyenik və epidemiya əleyhinə tədbirlərin gücləndirilməsi

Obsessiv-kompulsiv pozuntu – xəstənin fikrini təkrar-təkrar cəlb edən

hadisə və ya hərəkətlərlə təzahür edən sindrom; təşviş yaradan sarışan fikirlərin meydana çıxması və həmin fikirlərin öz növbəsində müəyyən sarışan hərəkətləri (komplulsiyalar) təkrarlamağa vadar etməsi ilə xarakterizə olunur

Obsessiya (*obsessio*) – sarışan vəziyyət, sarışan fikir

Obstruktiv anuriya (sin. postrenal anuriya) – sidik axarları şişlə sıxışdırıldıqda, yaxud onlar iki tərəfdən daşla tutulduqda, qanaxma olduqda, prostatın böyüməsi nəticəsində sidik ifrazının olmaması

Obturasion sarılıq (*icterus obturativus*) – ödçıxarıcı yolların tıxanması nəticəsində yaranan sarılıq; qanda düz bilirubinin, xolesterinin, öd turşularının artması ilə müşahidə olunur

Obturator *(*lat. *obturo, obturatum* tıxamaq*)* – yumşaq və sərt damaq qüsurlarını bağlamaq üçün vasitə; üst çənə protezinin bir hissəsi ola bilər

Obuxovski xəstəxanası simptomu (1779-cu ildə Leninqrad (Sankt-Peterburq) şəhərində qurulmuş qədim xəstəxana) – S-əbənzər bağırsağın burulması zamanı düz bağırsağın barmaqla müayinəsində düz bağırsaq ampulasının ballonabənzər genişlənməsi

Obyektiv simptom – xəstənin müayinəsi zamanı aşkar olunan simptom (baxış, palpasiya, perkussiya, auskultasiya və s.)

Ocaqlı melanoz (*melanosis focalis*) – ayrı-ayrı orqan və toxumalarda və ya dəri örtüyünün məhdud sahələrində piqmentin yaranması ilə xarakterizə olunan melanoz

Ocaqlı trixoleksis *(trichorrhexis focalis) – bax:* idiopatik trixoklaziya

Oddi sfinkteri (*sphincter Oddi;* R. Oddi, 1864-1913, ital. cərrahı) – ümumi öd və mədəaltı vəzi axacağının birləşməsindən əmələ gəlmiş genişliyin (ampulun) çevrəsi boyunca onikibarmaq bağırsağın enən hissəsində böyük məməciyin (Fater məməciyinin) divarında, həlqəvi saya əzələ liflərindən əmələ gəlmiş törəmə

Oddit *(odditis)* – qaraciyər-mədəaltı vəzi axacağı ampulunun sfinkter nahiyəsinin (Oddi sfinkteri) iltihabı

Odi əməliyyatı (F. Ody, 1896-1957, isveçrəli neyrocərrah) – arxa kəllə çuxurunun açılması ilə icra olunan kəllənin dekompressiv trepanasiyası; məs., beyin əsasına qansızmalar zamanı icra olunur

Odinofagiya (*odynophagia*) – udqunma zamanı ağrı; qida parçaları iltihablı selikli qişaya toxunduqda yaranan ağrı; qida borusunun spazmı zamanı xəstə döş qəfəsinin mərkəzində küt ağrı hiss edir, o, bir neçə saniyədən bir neçə dəqiqəyə qədər davam edir

Odinofobiya (*odynophobia*) – ağrıdan qorxma

Odlu silah yaralanması – atıcı silah mərmisi təsirindən yaranan yaralanma

Odont- *(*odontos; yun. *odus, odontos* diş*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "dişə aid" mənasını verir

Odontalgiya *(odontalgia*; sin. diş ağrısı*)* – dişlərdə ağrı hissi

Odonterizm (*odont-* + yun. *erismos* döyüş) – yuxu zamanı da dişlərini qıçırdatmaq

Odontoblast *(odontoblastus)* – dentinin formalaşmasında və onun mü-

badilə proseslərində iştirak edən diş hüceyrə

Odontogen *(odontogenus*; yun. *blastos* zoğ*)* – dişin inkişafına aid olan, dişdən əmələ gələn

Odontoid (*odontos*- + yun. *eidos* oxşarlıq, bənzərlik) – dişəbənzər, dişə oxşayan

Odontoqlifika *(odontoglyphica*; *odonto*- + yun. *glypho* kəsmək, oymaq*)* – antropoloji odontologiyanın dişin çeynəmə səthinin naxış variasiyalarını öyrənən bölməsi

Odontologiya (*odonto*- + yun. *logos* elm) – stomatologiyanın diş və çənənin quruluşunu, variantlarını və təkamülünü, diş xəstəliklərini öyrənən bölməsi; odontologiya ağız boşluğunun və çeynəmə sisteminin anatomiya, fiziologiya, patologiya və xəstəlik profilaktikasını öyrənir

Odontoma *(odontoma)* – dişləri əmələ gətirən müxtəlif toxumalardan ibarət konqlomerat şəklində xoşxassəli şiş

Bərk odontoma (*o. compactum*) – əhəngləşmiş mina, dentin və sementdən ibarət olan odontoma

Mürəkkəb qarışıq odontoma (*o. compositum mixtum*) – mina, dentin və sement arasında pozulmuş topoqrafik nisbətlərin olduğu mürəkkəb odontoma

Mürəkkəb odontoma (*o. compositum*) – bir neçə diş rüşeymindən ibarət olan odontoma

Sadə odontoma (*o. simplex*) – bir diş rüşeymindən inkişaf edən odontoma

Yumşaq odontoma (*odontoma molle*) – dişin az diferensiasiya olunmuş toxuma rüşeymindən ibarət olan odontoma

Odontometriya (*odonto*- + yun. *metreo* ölçmək) – antropologiyada istifadə olunan diş sistemi elementlərinin ölçülmə üsulları

Odontonevralgiya (*odontoneuralgia*) – dişin kariyesi nəticəsində baş verən üzün nevralgiyası

Odontoparodontoqramma – *bax:* parodontoqramma

Odontoragiya (*odontorrhagia*) – diş çıxarıldıqdan sonra diş yuvasından qanaxma

Odontoskopiya (*odonto*- + yun. *ckopeo* tədqiq etmək) – antropologiyada istifadə olunan diş sisteminin quruluş və inkişafını təsvir edən üsulların məcmusu

Odori- – mürəkkəb sözlərin tərkib hissəsi olub "iyə, qoxuya aid" mənasını verir

Odorimetriya (lat. *odor* iy + yun. *metreo* ölçmək) – ətirli maddələrin minimal konsentrasiyasını müəyyən etməklə qoxu analizatorunun müayinə üsulu

Odorivektor (lat. *odor* iy + *vector* aparıcı, daşıyıcı) – qoxusu olan maddə, yəni qoxu analizatoruna spesifik təsir göstərmək xüsusiyyəti olan ətirli maddələr

Odorologiya (lat. *odor* iy + yun. *logos* elm) – iylər haqqında elm

Ofiaz (*ophiasis*; yun. *ophis* ilan) – *bax:* hüdudi ocaqlı alopesiya

Ofidiofobiya (*ophidiophobia*) – ilanlardan qorxmaq

Oftalmetron – refraksiyanı müayinə etmək üçün cihaz; kompyuter vasitəsilə idarə olunur, cihazı gözə yönəltdikdən sonra avtomatik olaraq bütün müridianlarda klinik refraksiya ölçülür və nəticələr qrafik və ya eynəklər üçün resept şəklində verilir

Oftalmiya *(ophthalmia)* – gözün bir sıra iltihabi zədələnmələrinin ümumi adı

Oftalmo- *(*yun. *ophthalmos* göz*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "görmə orqanına, görməyə aid" mənasını verir

Oftalmodinamometr – torlu qişanın mərkəzi arteriyasındakı təzyiqi ölçmək üçün cihaz

Oftalmodinamometriya – görmə siniri və tor qişanın qan təchizatının vəziyyətini öyrənmək üçün müayinə üsulu; göz almasına təzyiq etdikdə tor qişanın mərkızi arteriyasında nəbzin olması və itməsinin oftalmoskopik müşahidəsinə əsaslanır

Oftalmodoppleroqrafiya – göz qan dövranı və göz damarlarının qanla dolmasının müayinə edilməsi

Oftalmoxromoskop – göz dibini müayinə etmək üçün cihaz

Oftalmoxromoskopiya (*oftalmo-* + yun. *chroma* rəng + *skopeo* tədqiq etmək) – müxtəlif spektorlu işıqlarla göz dibinin müayinə üsulu; rəngli işıqda (qırmızı, sarı, göz, sarı-yaşıl, al-qırmızı) aparılan oftalmoskopiya, göz dibinin adı oftalmoskopiya zamanı görünməyən detallarını aşkar etməyə imkan verir

Oftalmokoaqulyasiya *(ophthalmocoagulatio)* – göz toxumalarının yüksək və ya aşağı temperaturun, yandırıcı maddələrin təsiri ilə koaqulyasiya edilməsi

Oftalmokoaqulyator – bəbəkdən intensiv lazer şüası, ksenon lampası ilə təsir etməklə, gözün daxili qişasında koaqulyasiya aparmaq üçün aparat

Kvant oftalmokoaqulyatoru – işıq mənbəyinin optik kvant generatoru (lazer) olan oftalmokoaqulyator

Lazer oftalmokoaqulyatoru – *bax:* kvant oftalmokoaqulyatoru

Oftalmoloji optika – optikanın, görmə pozğunluqlarının diaqnostika və müalicəsində istifadə olunan optik vasitələrin hazırlanması ilə məşğul olan bölməsi

Oftalmoloji yardım – gözün zədələnmələri və xəstəlikləri zamanı göstərilən ixtisaslaşdırılmış müalicə-profilaktik tədbirlər

Oftalmologiya *(ophthalmologia)* – tibbin göz xəstəliklərinin diaqnostika, müalicə və profilaktikası ilə məşğul olan sahəsi

Hərbi oftalmologiya (sin. hərbi-səhra oftalmologiyası) – oftalmologiyanın və hərbi tibbin döyüşdə alınan göz zədələnmələrinin patologiyasını və onların müalicə üsullarını öyrənən bölməsi

Uşaq oftalmologiyası – oftalmologiyanın uşaqlarda gözlərin quruluş və funksiyalarının yaş xüsusiyyətlərini, həmçinin göz xəstəliklərinin yaranma xüsusiyyətlərini öyrənən bölməsi

Oftalmometr – buynuz qişanın ön səthinin əyrilik radiusunu və sındırma gücünü ölçmək üçün optik cihaz

Oftalmometriya – buynuz qişanın ön səthinin əyrilik radiusunun və müxtəlif meridianlarda sındırma gücünün ölçülməsi

Oftalmomiaz *(ophthalmomyasis)* – törədicinin göz toxumalarına keçdiyi miaz (ağcaqanad sürfələrinin insanlarda yol açdığı xəstəlik)

Oftalmomikoz *(ophthalmomycosis)* – göz toxumasının patogen göbələklərlə zədələnməsi

Oftalmomikriya (*ophthaimomicria*; yun. *mikros* kiçik) – *bax:* mikroftalm

Oftalmoonkologiya – oftalmologiya və onkologiyanın göz alması, göz yuvası və görmə sinirinin törəmələrini öyrənən bölməsi

Oftalmoplegiya *(ophthalmoplegia*; *oftalmo-* + yun. *plege* zərbə, zədələnmə*)* – göz əzələlərinin iflici

Anadangəlmə oftalmoplegiya (*o. congenita*) – anadangəlmə travma və ya gözün hərəki sinirlərinin nüvələrinin aplaziyası nəticəsində baş verən oftalmoplegiya

Daxili oftalmoplegiya (*o. interna*) – bəbək və kirpikli cismin əzələlərini əhatə edən oftalmoplegiya; bəbəklərin tam hərəkətsizliyi və midriazla təzahür edir

Xarici oftalmoplegiya (*o. externa*) – gözün yalnız xarici əzələlərini əhatə edən oftalmoplegiya; göz almasının hərəkətsizliyi və ptozla təzahür edir

Tam oftalmoplegiya (*o. totalis*) – gözün bütün əzələlərini əhatə edən oftalmoplegiya

Oftalmoplegiya xroniki xarici proqressivləşən (*ophthalmoplegia progressiva externa chronica*; sin. Qrefe xəstəliyi) – gözün hərəki sinirlərlərinin nüvələrinin degenerativ dəyişikliyi ilə xarakterizə olunan, proqressivləşən ptoz və ikitərəfli xarici oftalmoplegiya ilə təzahür edən irsi xəstəlik

Oftalmopletizmoqrafiya (sin. oftalmosfiqmoqrafiya) – ürək sikli ərzində gözün qanla dolmasının dəyişikliklərinin müayinə üsulu; göz almasının həcmində baş verən dəyişikliklərin fasiləsiz qeydiyyatına əsaslanır

Oftalmoreoqrafiya – ürək sikli ərzində göz almasının elektrik müqavimətinin dəyişməsinin fasiləsiz qrafik qeydiyyatına əsaslanan gözün damarlı qişasının və kirpikli cismin hemodinamikasının öyrənilməsi üsulu

Oftalmorragiya (*ophthalmorrhagía*) – göz almasından qanaxma

Oftalmosfiqmoqrafiya – *bax:* oftalmopletizmoqrafiya

Oftalmoskop (*oftalmo-* + yun. *skopeo* tədqiq etmək) – göz dibini müayinə etmək üçün alət

Binokulyar oftalmoskop – binokulyar stereoskopik oftalmoskopiyanı əks şəkildə aparmağa imkan verən elektrik alın oftalmoskopu

Böyük oftalmoskop – *bax:* refleksiz oftalmoskop

Əl elektrik oftalmoskopu – işıqlandırma sistemi ilə təchiz olunmuş və göz dibinin düz və əks şəkildə, ağ işıqda refleksiz müayinə edilməsi, gözün refraksiyasını müəyyən etməyə, həmçinin gözün ön şöbəsini yarıq işıqlandırma zamanı müayinə etmək üçün nəzərdə tutulmuş oftalmoskop

Güzgülü oftalmoskop – ortasında dəlik olan yastı və çökük güzgülər, iki linza və tutacaqdan ibarət dəst şəklində olan oftalmoskop

Lazer oftalmoskopu – optik kvant generatoru ilə təchiz olunmuş, vizual nəzarət altında torlu qişanın fotokoaqulyasiyasını həyata keçirməyə imkan verən oftalmoskop

Refleksiz oftalmoskop (sin. böyük oftalmoskop) – kənar işıq reflekləri olmadan yüksək böyütmədə göz dibini müayinə etməya imkan verən oftalmoskop

Televiziya oftalmoskopu – göz dibinin təsvirini televiziya ekranında müşahidə etmək üçün qurğu ilə təchiz olunmuş oftalmoskop

Oftalmoskopiya (*oftalmo-* + yun. *skopeo* tədqiq etmək) – tor qişanın, gözün damar qişasının və görmə siniri diskinin göz dibinin müayinəsinə əsaslanaraq öyrənilməsi üsulu

Düz oftalmoskopiya – göz dibinin lupasız oftalmoskopla müayinəsi, göz dibinin orta hesabla 16-20 dəfə düz böyüdülməsini təmin edir

Əks oftalmoskopiya – yığıcı gücü 10, 13, 20 dptr olan lupa və oftalmoskopun köməyi ilə icra olunan oftalmoskopiya; göz dibinin ümumi müayinəsi üçün istifadə olunur

Qırmızı işıqsız oftalmoskopiya – damarlı qişanın ətraflı öyrənilməsi üçün istifadə olunan və qırmızı rəngin olmadığı işıqdan istifadə etməklə icra olunan oftalmoskopiya

Reflekssiz oftalmoskopiya – buynuz qişa və büllurun səthindən işıq reflekslərini maksimum dərəcədə kənar etməklə icra olunan oftalmoskopiya

Spektral oftalmoskopiya – *bax:* oftalmoxromoskopiya

Stereoskopik binokulyar oftalmoskopiya – eyni zamanda hər iki gözlə icra olunan oftalmoskopiya; bu müayinə göz dibinin relyef təsvirini əldə etməyə imkan verir

Oftalmotonometriya – gözdaxili təzyiqin ölçülməsi üsullarının ümumi adı

Ox silindri – *bax:* akson

Oxrodermatoz (*ochrodermatosis*; yun. *ochros* solğun sarı) – *bax:* dərinin aurantiazı

Oxronoz (*ochronosis*; yun. *ochros* бледно-желтый + nosos болезнь) – fenol zəhərlənmələri və alkaptonuriya zamanı müşahidə olunan birləşdirici toxumalarda (əsasən qığırdaqda, bağlarda, vətərlərdə) homogentizion turşusunun toplanması, nəticədə toxuma boz və ya açıq qəhvəyi rəngə boyanır

Oidiomikoz (*oidiomycosis*) – *bax:* kandidoz

Okklüzion effekt – normal eşidən insanda xarici qulaq keçəcəyinin bağlı olduğu halda sümük vasitəsilə səsin qəbul edilməsinin yaxşılaşması

Okklüziya *(occlusio*; lat. *occludo, occlusum* bağlamaq, qapamaq*)* – 1) morfologiyada: boşluqlu törəmələrin keçiriciliyinin pozulması; 2) stomatologiyada: alt çənənin müxtəlif hərəkətləri zamanı üst və alt diş sıralarının qapanması

Fizioloji okklüziya (*o. physiologia*) – diş-çənə aparatı normal işlədikdə meydana gələn okklüziya; dişlərin çoxsaylı təması və okklüziyanın bir növünün digərinə keçməsinə heç bir maneənin olmaması ilə xarakterizə olunur

Mərkəzi okklüziya (*o. centralis*; sin. vertikal okklüziya) – alt çənənin orta mövqedə, gicgah və çeynəmə əzələlərində bərabər gərginlik olduqda meydana çıxan okklüziya; mərkəzi okklüziya vəziyyətində çeynəmə dişlərinin yan səthləri arasında çoxsaylı kontakt nöqtələri əmələ gəlir

Ön okklüziya (*o. anterior*) – alt çənənin önə yerdəyişməsi zamanı meydana gələn okklüziya; kəsici dişlərin birləşməsi ilə xarakterizə olunur

Patoloji okklüziya (*o. pathologica*) – bu növ okklüziya zamanı diş-çənə aparatının funksiyalarının pozulması müşahidə olunur , məs., çeynəmənin və ya nitqin pozulması

Sagittal okklüziya (*o. Sagittalis*; sin. ön okklüziya) – *bax:* ön okklüziya

Transverzal okklüziya (*o. transversalis*) – *bax:* yan okklüziya

Travmatik okklüziya (*o. traumatica*) – parodonta ölçüsünə, istiqamətinə və ya davam etməsinə görə artıq çeynəmə təzyiqi düşdükdə meydana çıxan patoloji okklüziya

Vertikal okklüziya (*o. verticalis*) – *bax:* mərkəzi okklüziya

Yan okklüziya (*o. lateralis*; sin. transverzal okklüziya) – aşağı çənənin sağa və ya sola yerdəyişməsi zamanı baş verən okklüziya; yerdəyişmə tərəfində yan antaqonist dişlərin qapanması ilə xarakterizə olunur

Okklüziya əyrisi – dişlərin birləşmə nöqtəsindən keçən xətt

Sagittal okklüziya əyrisi – *bax:* ön okklüziya əyrisi

Ön okklüziya əyrisi (sin. sagittal okklüziya əyrisi) – eyni tərəfin köpək və azı dişlərinin çeynəmə səthlərindən keçən okklüziya əyrisi

Transverzal okklüziya əyrisi – *bax:* yan okklüziya əyrisi

Yan okklüziya əyrisi (sin. transverzal okklüziya əyrisi) – sağ və sol tərəflərin eyniadlı azı dişlərinin çeynəmə səthlərindən köndələn istiqamətdə keçən okklüziya əyrisi

Okklüziya sahəsi – alt çənənin müxtəlif hərəkətləri zamanı dişlərin təmasının baş verdiyi sahə; diş cərgələrinin funksional imkanlarını xarakterizə edir

Okklüziya səthi – alt çənənin birinci kəsici dişlərinin kənarından və üçüncü azı dişlərin (ağıl dişləri) qabarından keçən səth; üçüncü azı dişləri olmadıqda – ikinci azı dişlərin

Okklüziya sindromu *(syndromum occlusionis)* – beyin-onurğa beyni mayesinin sirkulyasiya yollarının okklüziyası nəticəsində meydana çıxan hipertenziv sindrom

Oksi – (oksigeno-; yun. *oxys* kəskin, turş; lat. *oxygenium* oksigen) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "oksigenə aid" mənasını verir

Oksiaminlər – *bax:* aminospirtlər

Oksibaroterapiya (*oxybarotherapia*) – *bax:* hiperbarik oksigenasiya

Oksibronxospiroqraf – xarici tənəffüsün parametrlərini, həmçinin sağ və sol ağciyərlərin ayrılıqda sərf etdiyi oksigenin həcmini ölçmək üçün cihaz

Oksidləşmə inhibitorları – *bax:* antioksidantlar

Oksifenilketonuriya (*oxyphenyiketonuria*) – *bax:* fenilketonuriya

Oksifiliya (*oksi-* + yun. *philia* sevgi, meyl) – *bax:* asidofiliya

Oksigen aclığı – *bax:* hipoksiya

Oksigen çatışmazlığı – *bax:* hipoksiya

Oftalmotonometr (*ophthalmotonometer*; yun. *ophthalmds* göz, *tomos* gərginlik) – gözdaxili təzyiqi ölçmək üçün cihaz

Oksigen inhalyatoru – tənəffüs yoluna təmiz oksigen və ya oksigenlə zəngin qaz qarışığı yeridilməsi üçün inhalyator

Oksigen zəhərlənməsi *(intoxicatio oxygenica)* – uzun müddət təmiz oksigenlə nəfəsalma nəticəsində meydana çıxan zəhərlənmə; atmosfer təzyiqinin qalxması şəraitində epilepsiya tutmaları, adi atmosfer təzyiqi zamanı isə bronxopnevmoniya və ağciyər ödemi şəklində təzahür edir

Oksigenator (lat. *oxygenium* oksigen) – qanın və ya hər hansı bir mayenin

oksigenlə ekstrakorporal zənginləşdirilməsi üçün cihaz; süni qan dövranı aparatların tərkibinə daxildir

Barabanlı oksigenator – mayenin oksigenlə zənginləşdirilməsi fırlanan barabanların səthini örtən nazik maye qatında baş verir

Membran oksigenatoru – mayenin oksigenlə zənginləşdirilməsi oksigenin yarımkeçirici membrandan diffuziyası yolu ilə baş verir; membran oksigenatorda qan ilə oksigen qazı arasında, qazı keçirən amma maye, bərk maddələri keçirməyən bir membran (pərdə) vardır; beləliklə, qan ilə qaz birbaşa təmas etmədən oksigen ilə karbon qazı mübadiləsi baş verir

Qabarcıqlı oksigenator – mayenin oksigenlə zənginləşdirilməsi dönən disklərin səthini örtən nazik maye qatında baş verir; içi müəyyən yerə qədər qanla dolu şüşə silindrin içində dönən disklərin səthlərinə incə bir təbəqə şəklində qan bulaşır, silindrin içərisinə oksigen qazı verildikdə qan oksigeni alır, tərkibindəki karbon qazının çox hissəsini verir; lakin bu oksigenatorlar uzun müddət istifadə etdikdə qanda köpüklənmə, xəstədə asidoz və hava emboliyası risklərini artırır.

Oksigenin kalorik ekvivalenti – orqanizm tərəfindən 1 litr oksigenin mənimsənilməsi zamanı ayrılan enerji miqdarı

Oksigenobaroterapiya (*oxygenobarotherapia*) – *bax:* hiperbarik oksigenasiya

Oksigenosuprarenoskopiya (anat. *glandula suprarenalis* böyrəküstü vəzi + yun. *skopeo* tədqiq etmək) – peritonarxası sahəyə oksigenin yeridilməsi ilə böyrəküstü vəzilərin rentgenoloji müayinəsi üsulu

Oksigenoterapiya (*oxygenotherapia*) – *bax:* oksigen terapiyası

Oksihemoqlobin (HbO_2) – hemoqlobinin oksigenlə birləşmiş forması; oksigenin qanla ağciyərlərdən toxumalara ötürülməsini təmin edir

Oksihemoqraf (*oksi-* + yun. *haima* qan + *grapho* yazmaq; sin. oksiqraf) – qanın oksigenlə doyma dərəcəsini toxumaların optik sıxlığının dəyişməsinə əsasən fasiləsiz qeydə alan cihaz

Oksihemoqrafiya (*oksi-* + yun. *haima* qan + *grapho* yazmaq) – qanın oksigenlə doyma dərəcəsini təyin edən müayinə üsulu; oksihemometriyanın nəticələri qrafik təsvir olunur

Oksihemoqramma – qanın oksigenlə doyma dərəcəsinin dəyişikliklərini əks etdirən əyri

Oksihemometr (sin. oksimetr) – qanın oksigenlə doyma dərəcəsini onun optik sıxlığına əsasən ölçən cihaz

Oksikobalamin *(oxycobalaminum)* – tərkibcə sianokobalaminə oxşar olan, lakin orqanizmdə daha tez aktiv kofermentə çevrilən və qan zülalları ilə daha davamlı birləşmə əmələ gətirən preparat

Oksiqraf (*oksi-* + yun. *grapho* yazmaq) – *bax:* oksihemoqraf

Oksiqrafiya – müəyyən mühitdə oksigenin miqdarını tədqiqetmə üsullarının ümumi adı, nəticələr qrafik şəkildə qeydə alınır

Oksiqramma (*oksi-* + yun. *gramma* yazı, təsvir) – müayinə olunan mühitdə oksigenin miqdarının dəyişməsini göstərən əyri

Oksimetr (*oksi-* + yun. *metreo* ölçmək) – *bax:* oksihemometr

Oksinervon – beynin ağ maddəsində olan serebrozid (nervonun törəməsi)

Oksiopiya (yun. *oxys* kəskin, *optein* görmək) – görmə itiliyinin artması; xəstə parlaq işıqdan fərqli olaraq, qaranlıqda və zəif işıqlanmada daha yaxşı görür

Oksipital *(occipitalis*; лат. *occiput, occipitis* ənsə*)* – ənsəyə, ənsə sümüyünə aid olan, ənsə nahiyəsində yerləşən

Oksipitotrigeminal simptom (anat. *nervus occipitalis* ənsə siniri + *nervus trigeminus* üçlü sinir) – ənsə və göz yuvasıüstü sinirlərin çıxış nöqtəsinin ağrılı olması; irinli epitimpanitin əlaməti

Oksisefaliya (*oxycephalia*; yun. *oxys* kəskin, sivriuclu + *kephale* baş, kəllə) – *bax:* akrosefaliya

Oksitenzioqrafiya – nəticələrin qrafik qeydiyyatı ilə aparılan oksitenziometriya

Oksitenziometriya – hər hansı bir mühitdə oksigenin parsial təzyiqinin ölçülməsi

Oksitiramin – *bax:* dopamin

Oksitosin (*oxytocinum*; yun. *oxys* kəskin + *tokos* doğuş) – hipofiz vəzinin hasil etdiyi hormon; uşaqlıq əzələsinin oksitosin vasitəsilə stimulyasiya edilən ritmik yığılmaları doğuşun normal keçməsini təmin edir, laktasiya dövründə - südün sekresiyasını stimulyasiya edir

Oksitosin sınağı – oksitosin yeridildikdən 1-3 dəqiqə sonra hamilə qadının uşaqlığının yığılma qabiliyyətinin təyin edilməsi üsulu

Oksiuroz – *bax:* enterobioz

Oksolin *(oxolinum)* – virusəleyhinə profilaktik təsir göstərən preparat

Oksprenolol (*oxprenololum*) – beta-adrenoblokator təsirli antiadrenergik maddə

Oktisil *(octicylum)* – göbələkəleyhinə təsir göstərən preparat

Oktofobiya (*Octophobia*) – səkkiz rəqəmindən qorxma

Okulo- (lat. *oculus* göz) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "gözə aid" mənasını verir

Okulodermal melanoz (*melanosis oculodermalis*) – sklera və dərinin üçlü sinirin şaxələnmə nahiyəsində bozumtul-göy rəngə boyanması şəklində olan anadangəlmə melanozu

Okuloexoqrafiya – gözün exoqrafiyası; torlu qişanın qopması, gözdaxili şişlər və gözün yad cisimlərinin diaqnostikası zamanı icra olunur

Okuloqlandulyar sindrom (*syndromum oculoglandulare*) – *bax:* Romana simptomu

Okulometriya – göz alması və onun ayrı-ayrı strukturlarının ölçülməsi üsullarının ümumi adı

Okulomiodinamometriya (*okulo-* + yun. *mys, myos* əzələ + *dinamometriya*) – göz almasının xarici əzələlərinin dinamometriyası

Okulosporidioz *(oculosporidiosis)* – rinosporidiozun patoloji prossesin konyunktiva və gözyaşı kisəsində lokallaşması ilə olan forması

Okulyar *(*lat. *ocularis* göz*)* – optik cihazın bir elementi (linza); okulyar mikroskopun əsas böyüdücü iki hissəsindən biri olub lupa funksiyasını yerinə yetirir, 2 linzadan və onları saxlayan çərçivədən ibarətdir; İnsan mikroskopda əşyanı izləyən zaman gözünü okulyara söykəyir və okulyar vasitəsilə insan mikroskopda alınan təsviri görür

Oqston əməliyyatı (A. Ogston, 1844-1929, ing. cərrahı) – cərrahi əməliyyat: yastıayaqlılıq zamanı aşıq sümüyünün pazvari rezeksiyası və ankilozun yaradılması

Oquti xəstəliyi (C. Oguchi, 1875-1945, yapon oftalmoloqu) – bir müddət qaranlıqda olduqdan sonra rəngli görmənin pozulması və normal rəngin müvəqqəti bərpa olunması ilə göz dibinin rəngsizləşməsi, hemeralopiya ilə təzahür edən irsi xəstəlik

Olazol *(olasolum)* – tərkibinə çaytikanı yağı, levomisetin, anestezin və bor turşusu daxil olan kombinə olunmuş preparat

Olbi spondilodezi (F.H. Albee, 1876-1945, amer. cərrah; sin. onurğanın Olbi üsulu ilə fiksasiyası) – fəqərə sütununun hər hansı bir nahiyəsində hərəkətsizliyi təmin etmək üçün icra olunan plastik sümük əməliyyatı; autotransplantat kimi qamış sümüyünün sümüküstlüyündən istifadə olunur

Olbi-Delbe osteosintezi (F.H. Albee, 1876-1945, amer. cərrah; P.L.E. Delbet, 1861-1925, frans. cərrahı) – cərrahi əməliyyat: bud sümüyü boynunun sınıqları və yalançı oynaqları zamanı sümük parçalarının sümük autotransplantatından olan ştift vasitəslə fiksasiyası

Olbi-Xaxutov üsulu (F.H. Albee, 1876-1945, amer. cərrah; M.D. Xaxutov, sov. cərrah-ortopedi) – *bax:* Olbinin sümük plastikası

Olbinin sümük plastikası (F.H. Albee, 1876-1945, amer. cərrah) – uzunborulu sümüklərin yalançı oynaqları zamanı icra olunan plastik əməliyyat

Olbraytın böyrək asidozu– *bax:* Olbrayt-Battler sindromu

Olbrayt-Battler sindromu (F. Albright, amer. həkim; sin. Olbraytın böyrək asidozu) – yumaqcıq kanalcıqlarının histal nahiyəsində kifayət qədər hidrogen ionlarının sekresiya olunmadığı irsi xəstəlik (Laytvud-Olbrayt sindromunun bir növü)

Oleandomisin fosfat *(oleandomycini phosphas)* – makrolidlər qrupundan olan genişspektrli antibiotik

Olekranon (*olecranon*) – dirsək çıxıntısı

Oleoqranuloma (*oleogranulom*) – *bax:* inyeksion lipoqranulema

Oleoma (*oleoma*) – *bax:* inyeksion lipoqranuloma

Oleoskleroma (*oleoscleroma*; *oleo-* + yun. *skleroma* bərkimə) – *bax:* inyeksion lipoqranulema

Oleoterapiya (*oleotherapia*) – yağın müalicə məqsədilə tətbiqi

Oleotoraks *(oleothorax*; *oleo-* + yun. *thorax* sinə, döş qəfəsi*)* – vərəm xəstəliyi zamanı müalicə məqsədilə yağın plevra boşluğuna yeridilməsi

Ekstraplevral oleotoraks *(o. extrapleuralis)* – yağın döşdaxili fassiya və parietal plevra arasına vurulması ilə aparılan oleotoraks

İntraplevral oleotoraks *(o. intrapleuralis)* – yağın plevra boşluğuna vurulması ilə aparılan oleotoraks

Oletetrin *(oletetrinum)* – makrolidlər qrupundan olan genişspektrli antibiotik

Olfakta (lat. *olfactus* iybilmə qabiliyyəti) – qoxunun ölçü vahidi

Olfakto- (*olfacto*) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "iyə, qoxuya aid" mənasını verir

Olfakto-etmoido-hipotalamik dizqrafiya – *bax:* Qutyer sindromu

Olfaktofobiya (*olfactophobia*) – qoxulardan qorxma

Olfaktologiya (*olfactology*) – iybilmə orqanları, qoxular haqqında elm

Olfaktometr (lat. *olfactus* iybilmə qabiliyyəti + yun. *metreo* ölçmək) – qoxu qabiliyyətini müəyyən edən cihaz; olfaktometriya zamanı iyli maddənin buxarlarının buruna yeridilməsi üçün cihaz

Olfaktometriya (*olfactometria*) – xüsusi iyli maddələr dəstini müəyyən etmə (tanıma) yolu ilə qoxu analizatorunun həssaslığının tədqiq edilməsi

Olfaktomotor reaksiya (lat. *olfactus* iybilmə + *motor* hərəkətə gətirən) – qoxu reseptorlarının qıcıqlandırılması zamanı meydana çıxan hərəki reaksiya

Oligemiya *(oligaemia*; sin. hipovolemiya*)* – qanın ümumi miqdarının azalması

Oliqositemik oligemiya (*o. oligocytaemica*) – qanın həcm vahidində formalı elementlərinin sayının azalması ilə gedən oligemiya

Polisitemik oligemiya (*o. polycytaemica*) – qanın həcm vahidində formalı elementlərinin sayının artması ilə gedən oligemiya

Sadə oligemiya (*o. simplex*) – qanın formalı elementləri ilə plazma arasındakı nisbətin normal olduğu oligemiya

Oliq- (oliqo-; yun. *oligos* kiçik, cüzi) – mürəkkəb sözlərin tərkib hissəsi olub, “kiçik”, “cüzi”, “kifayət etməyən”

Oliqodendroastrositoma (*oligodendroastrocytoma*) – mərkəzi sinir sisteminin astrosit və oliqodendroqliositlərdən inkişaf edən şişi

Oliqodendroqlioma *(oligodendroglioma*; sin. oliqodendrositoma*)* – oliqodendroqliya hüceyrələrindən inkişaf edən şiş; əsasən baş beyin yarımkürələrində yerləşir

Oliqodendroqliosit (*oligodendrogliocytus*) – neyroqliyanın ən çox yayılmış hüceyrələri olub, həm mərkəzi, həm də periferik sinir sistemində müşahidə edilir; onlar boz maddədə əsasən neyronun cismi ətrafında yerləşir, ağ maddədə və periferik sinirlərdə neyronun çıxıntılarını xaricdən əhatə edərək sinir liflərini əmələ gətirir və, nəhayət, qeyri-sərbəst sinir uclarının əmələ gəlməsində iştirak edirlər

Oliqodendrositoma (*oligodendrocytoma*) – *bax:* oliqodendroqlioma

Oliqodentiya *(oligodentia)* – dişlərin sayının normadan az olması

Oliqodipsiya (*oligodipsia*; *oliqo-* + yun. *dipsa* susuzluq) – orqanizmin mayeyə olan tələbatının azalması; hipotalamusun zədələnmə simptomu

Oliqofaziya *(oligophasia)* – nitqin pozuntusu; epilepsiya və bəzi ruhi xəstəliklər zamanı müşahidə olunur, sözlər çətin ifadə olunur

Oliqofreniya (*oligophrenia*; *oliqo-* + yun. *phren* əql) – anadangəlmə kəmağıllıq

Anadangəlmə sifilitik oliqofreniya (*o. syphilitica congenita*) – anadangəlmə sifilis nəticəsində astenik pozğunluqlar və epileptik sindromla birgə təsadüf edən oliqofreniya

Angiodistrofik oliqofreniya (*o. angiodystrophica*) – baş beynin damar sisteminin inkişafının pozulması ilə əlaqədar meydana çıxan oliqofreniya

Apatik oliqofreniya (*o. apathica*) – *bax:* torpit oliqofreniya

Asfiktik oliqofreniya (*o. asphyctica*) – dölün və ya yenidoğulmuşun asfiksiyası nəticəsində meydana çıxan oliqofreniya

Birincili mikrosefalik oliqofreniya (*o. microcephalica primaria*) – *bax:* həqiqi mikrosefalik oliqofreniya

Dismetabolik oliqofreniya (*o. dysmetabolica*) – inkişafın erkən dövründə maddələr mübadiləsinin pozulması nəticəsində meydana çıxan oliqofreniya

Eretik oliqofreniya (*o. eretica*) – hərəki narahatlığın və emosional oyanıqlığın üstünlüyü ilə gedən oliqofreniya

Hemolitik oliqofreniya (*o. haemolytica*) – yenidoğulmuşların hemolitik xəstəliyi nəticəsində meydana çıxan oliqofreniya

Həqiqi mikrosefalik oliqofreniya (*o. microcephalica vera*) – irsi mikrosefaliya zamanı rast gəlinən oliqofreniya

Hidrosefalik oliqofreniya (*o. hydrocephalica*) – hidrosefaliya zamanı baş beynin atrofiyası nəticəsində meydana çıxan oliqofreniya

İkincili mikrosefalik oliqofreniya (*o. microcephalica secundaria*) – *bax:* yalançı mikrosefalik oliqofreniya

Paranatal oliqofreniya (*o. paranatalis*) – doğuş zamanı baş beynin zədələnməsi nəticəsində meydana çıxan oliqofreniya

Perinatal oliqofreniya (*o. perinatalis*) – *bax:* paranatal oliqofreniya

Rubeolyar oliqofreniya (*o. rubeolaris*) – dölün qızılca virusu ilə yoluxması nəticəsində meydana çıxan oliqofreniya

Toksoplazmatik oliqofreniya (*o. toxoplazmatica*) – dölün və ya yenidoğulmuşun toksoplazması nəticəsində meydana çıxan oliqofreniya

Torpid oliqofreniya (*o. torpida*) – reaksiyaların və təfəkkürün ləngiməsi, passivlik və zəif oyanıqlıqla gedən oliqofreniya

Yalançı mikrosefalik oliqofreniya (*o. microcephalica falsa*) – baş beynin bətndaxili zədələnməsi nəticəsində meydana çıxan oliqofreniya

Oliqofrenopedaqogika (*oliqofreniya* + *pedaqogika*) – defektologiyanın zehni çatışmazlığı olan uşaqların təhsili və tərbiyəsi sahəsində tədqiqatlarla məşğul olan sahəsi

Oliqokineziya (*oligokinesia*; *oliqo-* + yun. *kinesis* hərəkət) – azhərəkətlilik və hərəkətlərdə sərbəstlikdən məhrumolma ilə xarakterizə olunan hərəki funksiyaların pozulması

Oliqolaktiya (yun. *oligos* az, kiçik) – hipoqalaktiya, laktasiya dövründə süd vəzilərinin sekretor fəaliyyətinin azalması; süd vəzilərindən az miqdarda südün gəlməsi

Oliqomenoriya (*oligomenorrhoea*) – menstrual (aybaşı) siklin azalması, bir neçə saatdan iki günə qədər davam edir; hipomenstrual sindromun komponenti

Oliqopnoe *(oligopnoe*; yun. pnoe nəfəs*)* – tənəffüsün çətinləşməsi; nadir səthi tənəffüs; tənəffüs mərkəzinin kəskin ləngiməsi, ağır obstruktiv və ya restriktiv tənəffüs çatışmazlığı zamanı müşahidə olunur

Oliqoptializm *(oligoptyalismus*; yun. *ptyalon* tüpürcək*) – bax:* hiposalivasiya

Oliqosialiya *(oligosialia*; yun. *sialon* tüpürcək*) – bax:* hiposalivasiya

Oliqositemiya (*oligocytaemia*; *oliqo-* + *cytus* hüceyrə + yun. *haima*

qanкровь) – qanda formalı elementlərin sayının azalması

Oliqospermiya (*oligospermia*) – eyakulyatın (sperma) miqdarının az olması (1.5 ml-dən az); oliqospermiyanın səbəbi köhnə iltihab, xayalığın travması, bəzi nadir hallarda hormonal problemlər ola bilər

Oliqotrixiya *(oligotrichia) – bax:* hipotrixoz

Oliqotrixoz *(oligotrichosis) – bax:* hipotrixoz

Oliqozoospermiya (*oligozocspermia*) – spermatozoidlərin miqdarının kifayət qədər olmaması (spermanın 1 ml-də spermatozoidlərin 20 milyondan az olması); səbəb - travmanın və iltihabın nəticəsində xaya toxumasının çapıqla əvəz olunması, nadir hallarda kişidə olan hormonal pozulmalar; oliqozoospermiya sonsuzluğa səbəb ola bilər

Oliquriya (*oliguria*) – sidik ifrazının azalması

Ekstrarenal oliquriya (*o. extrarenalis*) – böyrəyin patoloji dəyişiklikləri ilə əlaqəli olmayan oliquriya; məs., ürək, bağırsaq, qaraciyər xəstəlikləri, qızdırmalar zamanı müşahidə olunur

Emosional oliquriya (*o. emotionalis*) – mənfi emosiyalarla bağlı olan oliquriya

Ortostatik oliquriya (*o. orthostatica*) – xəstənin üfüqi vəziyyətdən vertikal vəziyyətə keçməsindən sonrakı ilk saatlarda təsadüf olunan oliquriya; məs., portal hipertenziyalar zamanı müşahidə olunur

Renal oliquriya (*o. renalis*) – böyrəyin patoloji dəyişiklikləri nəticəsində meydana çıxan oliquriya

Olivekruna əməliyyatı (H.A. Olivecrona, 1891-1980, İsveç neyrocərrahı) – cərrahi əməliyyat: eşitmə sinirinin nevrinomasının yumşaq toxumaların yarımoval kəsiyindən xaric edilməsi; bu zaman trepanasiya dəliyi məməyəoxşar çıxıntının hüceyrələrinə mümkün qədər yaxınlaşdırılır ki, bu da bəzi hallarda üz sinirinin funksiyasını qorumağa imkan verir

Olivekruna klipsləri (H.A. Olivecrona) – neyrocərrahi əməliyyatlar zamanı qanaxmanın dayandırılması üçün istifadə olunan qurğu; daxili səthində dişcikləri olur və «V» hərfi şəklində gümüş məftildən hazırlanır; xüsusi alətlər vasitəsilə qoyulurlar

Olivekruna mişarı (H.A. Olivecrona) – travmatoloji əməliyyatlar zamanı sümüklərin kəsilməsi üçün istifadə olunan mişar

Olivekruna trepanasiyası (H.A. Olivecrona) – ənsə nahiyəsində yumşaq toxumaların qövsşəkilli kəsiyindən arxa kəllə çuxurunun trepanasiyası

Oliver əməliyyatı (W.S. Oliver, 1836-1908, ing. həkimi) – cərrahi əməliyyat: çəngələbənzər vəzinin rezeksiyası

Oliver-Kardarelli simptomu (W.S. Oliver; A. Cardarelli, 1831-1926, ital. həkimi) – ürəyin hər sistolası zamanı qırtlağın aşağı yerdəyişməsi, xəstə başını arxaya əydikdə görsənir; aorta qövsü anevrizmasının əlaməti: qırtlağın mədəciklərin sistolası ilə birgə pulsasiyası

Olivinoz *(olivinosis)* – müntəzəm olaraq olivin mineralının tozu ilə nəfəsalma nəticəsində meydana çıxan pnevmokonioz

Olivomisin *(olivomycinum)* – şiş əleyhinə təsir göstərən preparat

Olkok kanalı (B. Alcock, 1801-?, irl. anatom) – *bax:* pudendal kanal

Ollye əməliyyatı (L. Oilier, 1830-1900, frans. cərrahı) – cərrahi əməliyyat: 1-ci ayaq darağı sümüyünün 1-ci barmaqla birgə kənar edilməsi

Ollye xəstəliyi (L. Oilier) – *bax:* sümüklərin xondromatozu

Ollye-Kasta disxondroplaziyası (L. Oilier, 1830-1900, frans. cərrahı; A. Kast, 1856-1903, alm. həkimi) – *bax:* Maffuççi sindromu

Ollye-Merfi-Lekser-Vreden müdaxiləsi (L. Oilier; J.B. Murphy, 1857-1916, amer. cərrah; E. Lexer, 1867-1938, alm. cərrahı; R.R. Vreden, 1867-1934, sov. cərrahı) – bud-çanaq oynağına cərrahi müdaxilə: yumşaq toxumalar yuxarı ön qalça sümüyündən, böyük burmanı aşağıdan keçməklə, arxa alt qalça sümüyünə qədər qövsşəkilli kəsilir, böyük burmanı (bud sümüyünün çanaq sümüyü çuxurunda fırlanan hissəsi) əsasında kəsirlər və ona yapışmış kiçik və orta sağrı əzələləri ilə birgə yuxarıya doğru yerini dəyişirlər

Ollyenin sümük plastikası (L. Oilier) – cərrahi əməliyyat: reparativ osteogenezi stimulə etmək məqsədilə sümük qüsuru nahiyəsinə sümüküstlüyü ilə birgə az miqdarda sümük toxumasının köçürülməsi

Ollye artrotomiyası (L. Oilier, 1830-1900, frans. cərrahı) – diz oynağının diz qapağının sagittal müstəvidə kəsilməsi ilə icra olunan ön orta artrotomiyası

Olofoniya – nitq aparatının anatomik qüsuru nəticəsində nitqin pozulması

Olport sindromu (A.C. Alport, ing. həkimi) – anadangəlmə inkişaf anomaliyası: ağır eşitmə və ya karlıq, daxili qulaq funksiyalarının pozulması; eritrosituriya, leykosituriya, albuminuriya; gğzlərdə baş verən anomaliyalar (anadangəlmə katarakta, sferofakiya); adətən yeniyetmə dövründə böyrək çatışmazlığı baş verir və ölümlə nəticələnir

Olson sindromu (L.Ohlsson, İsveç terapevti) – eşitmə və görmə orqanlarının, böyrəklərin irsi anomaliyaları: yaxından görmə, residivləşən otitlərə meyllilik, xroniki nefropatiyanın əlamətləri – proteinuriya, mikrohematuriya; sidikdə alanin, qlutamin turşusu və histidinin miqdarının artması; autosom-resessiv tip üzrə ötürülür

Olyenik sindromu (Oljenick) – birinci boyun fəqərəsinin oksipitalizasiyası, proqressivləşən beyincik ataksiyası və beyin-onurğa beyni mayesinin sirkulyasiyasında baş verən dəyişikliklərlə müşahidə olunur

Om simptomu (C. Ohm) – diafraqmanın iflici zamanı sağ orta körpücük xətti nahiyəsində qaraciyər kütlüyünün itməsi

Omaqra (yun. *omos* çiyin) – bazu oynağının podaqrası

Omalgiya (yun. *omos* çiyin, *algos* ağrı) – çiyində ağrı

Omartrit (*omarthritis*) – bazu oynağının iltihabı

Ombredann sindromu (L. Ombredanne, 1871-1956, frans. cərrahı) – körpə uşaqlarda cərrahi əməliyyatdan sonrakı dövrdə inkişaf edən və solğunluq, hərarətin 41^0C-yə qədər yüksəlməsi, nəbz və tənəffüsün tezləşməsi, qıcolmalarla müşahidə olunan hipertermik sindrom

Ombredann artrorizi (L. Ombredanne) – cərrahi əməliyyat: aşıq-baldır oynağının bağ aparatının zəifləməsi

və ya baldırın ön qrup əzələlərinin iflici zamanı hərəkətinin məhdudlaşdırılması; aşıq sümüyünün arxa hissəsinə sümük transplantatın yeridilməsindən ibarətdir

Ombredann əməliyyatı (L. Ombredanne) – cərrahi əməliyyat: hipospadiya zamanı kiçi cinsiyyət üzvünün başını örtən dəri qatından istifadə etməklə uretranın formalaşdırılması

Ombrofobiya *(ombrophobia*; yun. *ombros* yağış*)* – yağışdan qorxma

«Omeqa» fiquru – depressiv xəstələrdə üzün yuxarı hissəsində qaşları yaxınlaşdıran əzələlərin daimi gərginləşməsi nəticəsində yunan əlifbasının "omeqa" hərfini xatırladan boylama dəri büküşünün əmələ gəlməsi

Oment- *(*omento-; lat. *omentum* piylik*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "piyliyə aid" mənasını verir

Omentektomiya (*omentectomy*) – piyliyin tam və ya bir hissəsinin kənar edilməsi

Omentit *(omentitis)* – piyliyin iltihabı

Omentohepatofrenopeksiya (*omentohepatopexia*; *omento-* + yun. *hepar, hepatos* qaraciyər + *phren* diafraqma + *pexis* birləşdirmə) – cərrahi əməliyyat: piyliyin qaraciyərə və diafraqmaya tikilməsi; portal hipertensiyanın müalicəində tətbiq edilir

Omentohepatopeksiya *(omentohepatopexia*; *omento-* + yun. *hepar, hepatos* qaraciyər + *pexis* birləşdirmə*)* – cərrahi əməliyyat: piyliyin qaraciyərə tikilməsi; əsasən qaraciyərin partlaması zamanı yaranmış qüsurları bağlamaq (tamponada etmək) üçün tətbiq olunur

Omentokardiopeksiya *(omentocardiopexia*; *omento-* + yun. *kardia* ürək + *pexis* yapışdırma; sin. O'Şonessi omentokardiopeksiyası*)* – cərrahi əməliyyat: xroniki ürək çatışmazlığı zamanı miokardın revaskulyarizasiyası məqsədilə böyük piyliyin ürəyin sol mədəciyinə tikilməsi

Omentoqrafiya – qarın boşluğuna kontrast maddə yeridildikdən sonra böyük piyliyin rentgenoqrafik müayinəsi

Omentonefropeksiya *(omentonephropexia) – bax:* omentorenopeksiya

Omentoorqanoanastomoz (*omentoorganoanastomosis*) – cərrahi əməliyyat: hər hansı bir orqanın vaskulyarizasiyasını təmin etmək məqsədilə böyük piyliyin həmin orqana tikilməsi

Omentopeksiya *(omentopexia*; *omento-* + yun. *pexis* yapışdırma*)* – piyliyin hər hansı bir orqana tikilməsindən ibarət cərrahi əməliyyatların ümumi adı

Omentorenopeksiya *(omentorenopexia*; *omento-* + лат. ren почка + yun. *pexis* yapışdırma*)* – cərrahi əməliyyat: dekapsulyasiya olunmuş böyrəyin revaskulyarizasiyası və portokaval anastomozun yaradılması məqsədilə piyliyin böyrək səthinə tikilməsi

Omfal- *(*omfalo-; yun. *omphalos* göbək, göbək bağı*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "göbəyə aid", "göbək ciyəsinə aid" mənasını verir

Omfalektomiya *(omphalectomia)* – göbək yırtıqları zamanı göbəyin kəsilməsi

Omfalit (*omphalitis*) – göbək nahiyəsində dəri və dərialtı toxumanın iltihabı

İrinli omfalit (*o. purulenta*) – göbək nahiyəsində irinli ifrazatın olması ilə xarakterizə olunan omfalit

Kataral omfalit (*o. catarrhalis*) – göbək nahiyəsində seroz və ya seroz-hemorragik ifrazatın olması ilə xarakterizə olunan omfalit

Qanqrenoz omfalit (*o. gangraenosa*) – əsasən zəifləmiş və yarımçıq yenidoğulmuşlarda göbəkətrafı toxumanın nekrozu, çirkli-yaşıl dibi olan geniş yaranın əmələ gəlməsi ilə xarakterizə olunan omfalit

Omfalofleqmona *(omphalophlegmone)* – göbək nahiyəsində dərialtı fleqmona

Omfaloqrafiya – yenidoğulmuşlarda göbək venasına kontrast maddənin yeridilməsi ilə aparılan angioqrafiya

Omfalopaqlar (*omphalopagus*) – döş qəfəsinin aşağı hissəsində, göbək nahiyəsində bitişmiş əkizlər; əkizlərin qaraciyəri, həzm traktı, diafraqma və digər orqanları ümumidir, lakin ürəkləri ayrıdır

Omfaloragiya (*omphalorrhagia*) – göbək nahiyəsindən qanaxma

Omfalosele (*omphalocele*; *omfalo-* + yun. *kele* şişkinlik, yırtıq; sin. embrional yırtıq) – inkişaf anomaliyası olub, qarnın ön divarı defektlərindən biridir: göbək bağının elementləri ilə örtülmüş daxili orqanlar yırtıq kisəsində qarın boşluğunun hüdudlarına çıxır

Ommatofobiya (*ommatophobia*; sin. ommetafobiya) – gözdən, nəzərə gəlməkdən qorxmaq

Ommetafobiya (*ommetaphobia*) – *bax:* ommatofobiya

Omnopon (*omnoponum*) – narkotik təsirli analgetik

Omoblastoma (*ornoblastoma*) – *bax:* Yuinq şişi

Oneyro- *(*onir-; yun. *oneiros* yuxu, yuxugörmə*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "yuxugörməyə aid" mənasını verir

Oneyrofobiya (*oneirophobia*) – yuxulardan qorxma

Oneyrofreniya *(*köh., *oneirophrenia)* – oneyroid sindromun üstünlük təşkil etdiyi vaxtaşırı baş verən psixoz; hal-hazırda oneyrofreniya şizofreniyaya aid edilir

Oneyroid (*oneyro-* + yun. *eides* oxşar) – real olmayan fantastik həyatı və orada iştirak edən obrazları gözləri önünə gətirib həyəcanlanmaqdan ibarət düşüncənin məzmun pozuntusu

Oneyroid katatoniya – düşüncənin oneyroid tip pozuntusu zamanı katatonik əlamətlərin təzahür etməsi (hebefrenik oyanma, impulsiv hərəkətlər və s.)

Oneyroid sindrom (*syndromum oneiroideum*) – fantastik məzmunlu görmə və eşitmə hallüsinasiyaları ilə təzahür edir; xəstə özünü ya təmtəraqlı, musiqi və gözəlliklə zəngin bir şəraitdə, ya da cəhənnəmi xatırladan yad və iyrənc bir mühitdə, düşmənlərinin əhatəsində hiss edir; göstərilən bu illüzor şəraitin hansının cərəyan etməsindən asılı olaraq xəstənin əhval-ruhiyyəsi və davranışı bu, yaxud başqa formada ola bilir; şizofreniya, intoksikasion psixozlar zamanı müşahidə oluna bilər

Onxoserkoz (*onchocercosis*) – çay korluğu; *Onchocerca volvulus* tərəfindən törədilən helmintoz, dəri və gözlərin mikrofilyariyalarla zədələnməsi, həmçinin dərialtı

toxumada və əzələlərdə birləşdirici toxuma düyünlərinin əmələ gəlməsi ilə xarakterizə olunur; Afrika, Mərkəzi və Cənubi Amerikada yayılmışdır

Onixauksis *(onychauxis)* – dırnağın hipertrofiyası, dırnaq lövhəsinin şəffaflığını itirərək qaralması

Onixiya *(onychia*; yun. *onyx, onychos* dırnaq*)* – dırnaq zədələnmələrinin ümumi adı

Diabetik onixiya (*o. diabetica*) – şəkərli diabet zamanı dırnaq altına qansızmalar və dırnaqların hiperpiqmentasiyası ilə xarakterizə olunan onixiya

Distrofik onixiya (*o. dystrophica*) – dırnaqların trofikasının pozulması nəticəsində forma, struktur, rəng və möhkəmliyinin dəyişməsi; endokrin xəstəliklər, xroniki alkoqolizm, ateroskleroz zamanı müşahidə olunur

Göbələk mənşəli onixiya (*o. mycotica*) – *bax:* onixomikoz

Köndələn-şırımlı onixiya (*o. sulcata transversa*) – dırnaq lövhəciklərində köndələn şırımların olması ilə xarakterizə olunan onixiya; bəzi yoluxucu xəstəliklər, mübadilə pozğunluqları zamanı rast gəlinir

Quru sifilitik onixiya (*o. syphilitica sicca*) – dırnaq lövhələrinin qalınlaşması və kövrəkliyi ilə xarakterizə olunan sifilitik onixiya

Leproz onixiya (*o. leprosa*) – cüzam xəstəliyi zamanı dırnaq lövhəsinin trofikasının pozulması ilə xarakterizə olunan onixiya

Nöqtəvi onixiya (*o. punctata*) – dırnaq lövhələri üzərində nöqtəvi çökəkliklərin olması ilə xarakterizə olunan onixiya

Peşə onixiyası (*o. professionalis*) – peşə zərərlərinin təsiri nəticəsində yaranan onixiyaların ümumi adı

Piokokk onixiyası (*o. pyococcica*) – xroniki piodermiya zamanı inkişaf edən onixiyaların ümumi adı

Psoriatik onixiya (*onychia psoriatica*) – psoriaz zamanı dırnaq lövhəsində nöqtəşəkilli çökəklər və boylama şırımların olması

Sifilitik onixiya *(o. syphilitica)* – ikincili və üçüncülü sifilis zamanı meydana çıxan onixiya

Sifilitik piqmentli onixiya *(o. syphilitica pigmentosa)* – dırnaq lövhələrinin hiperpiqmentasiyası ilə xarakterizə olunan sifilitik onixiya

Onixofagiya *(onychophagia)* – dırnaqları dişləyərək udma; dırnaq yemək xəstəliyi

Onixoheterotopiya *(onychoheterotopia)* – inkişaf anomaliyası: dırnaq lövhəsinin qeyri-adi yerdə yerləşməsi, məs., barmağın yan səthində

Onixoklaziya (*onychoclasia*; *onixo-* + yun. *klasis* qırılma, dağılma) – dırnaq lövhəciklərinin kövrək olması

Onixoqrifoz *(onychogryphosis)* – dırnağın quş caynağına bənzəməsi: dırnaq lövhəsinin uzanması, qalınlaşması və caynağabənzər şəkildə əyilməsi

Onixolizis *(onycholysis*; *onixo-* + yun. *lysis* açılma, ayrılma*)* – dırnaq lövhəsinin dırnaq yatağından soyularaq qopması

Onixomadezis *(onychomadesis*; *onixo-* + yun *madesis* dazlaşma*)* – qazanılmış anonixiya (dırnaqların inkişaf etməməsi)

Onixomikoz *(onychomycosis)* – dırnaqların patoloji göbələklərlə zədələnməsi

Onixomikoz epidermofit *(onychomycosis epidermophytica)* – dırnaqların *epidermofitiya* göbələkləri ilə zədələnməsi

Onixomikoz trixofitik *(onychomycosis trichophitica)* – dırnaqların *trixofiton* göbələkləri ilə zədələnməsi, dırnaqlar deformasiyaya uğrayır, saralır, qalınlaşır və sonra ovulub tökülürlər

Onixoreksis *(onychorrhexis*; *fragilitas unguium)* – dırnaq lövhələrinin boylama laylara ayrılması şəklində özünü göstərən yüksəs kövrəkliyi

Onixoşizis *(onychoschisis*; *onixo-* + yun. *schisis* parçalanma*)* – dırnaq lövhələrinin laylara bölünməsi ilə xarakterizə olunan onixiya

Onixotillomaniya *(onychotillomania)* – öz dırnaqlarını hər hansı bir alətlə zədələmək, qopartmaq və yatağından çıxartmaq şəklində özünü göstərən dermatomaniya

Onixoz (*onychosis*) – *bax:* onixiya

Onikibarmaq bağırsağın böyük məməciyi *(papilla duodeni major*; sin. Fater məməciyi*)* – onikibarmaq bağırsağın enən hissəsinin arxa içəri hissəsində yerləşən hündürlük, üzərində mədəaltı vəzin və ümumi öd axacağının müştərək dəliyi yerləşir

Onikibarmaq bağırsağın ikiləşməsi (*duplicatio duodeni*) – inkişaf anomaliyası: onikibarmaq bağırsağın əsasən enən hissəsində divarının qabarması

Onikibarmaq bağırsaq güdülünün Sapojkov üsulu ilə tikilməsi (K.P. Sapojkov, 1874-1952, sov. cərrahı) – mədənin rezeksiyası əməliyyatı zamanı onikibarmaq bağırsaq güdülünün bağlanması üsulu: yara ətrafında selikli qişanın soyulması, kiset tikişi ilə bağırsaq mənfəzinə salınması və demukozasiya olunmuş divarların ikisıralı tikişlə tikilməsi

Onikibarmaq bağırsaq soğanağı *(bulbus duodeni)* – onikibarmaq bağırsağın yuxarı geniş hissəsi, rentgenoqramda əsası mədə çıxacağına doğru yönəlmiş üçbucaq şəklində qeyd olunur

Onirodiniya (*oneirodynia*; *onir-* + yun. *odyne* ağrı) – xoşagəlməz yuxuların ortaya çıxması ilə yuxunun pozulması

Onko- *(*yun. *onkos, onkoma)* – mürəkkəb sözlərin tərkib hissəsi olub "şişə aid olan", "kütləyə aid olan" mənasını verir

Onkogen maddələr – şişlərin inkişaf etməsinə səbəb olan maddələr

Onkogenetika – onkologiyanın genetik amillərin şişlərin etiologiyası və patogenezində rolunu öyrənən bölməsi

Onkogenez *(oncogenesis*; *onko-* + yun. *genesis* inkişaf*)* – şişin əmələgəlmə və inkişafetmə prosesi

Endokrin onkogenez (*o. endocrinica*) – orqanizmin endokrin tənziminin pozulması nəticəsində yaranan onkogenez

Kimyəvi onkogenez (*o. chemica*) – hər hansı bir onkogen maddənin təsirindən yaranan onkogenez

Polimer onkogenez – təcrübə heyvanında polimer materialın implantasiyası nəticəsində yaranan onkogenez

Şüa onkogenezi (*o. radialis*) – şüalanmanın təsirindən yaranan onkogenez

Transplasentar onkogenez (*o. transplacentalis*) – onkogen agentin anadan dölə cift vasitəsi ilə ötürül-

məsi nəticəsində yaranan onkogenez

Viruslu onkogenez (*o. viralis*) – virusların təsirindən yaranan onkogenez

Onkoqraf – daxili orqanların həcmində baş verən dəyişiklikləri qrafik qeyd etmək üçün cihaz

Onkoqrafiya (*onko-* + yun. *grapho* yazmaq) – orqan və toxumaların həcminin dəyişikliklərinin qrafik qeydiyyata alınması ilə müayinə üsulu

Onkoqram (*onko-* + yun. *gramma* yazı, qeyd) – orqan və ya toxumanın həcminin dəyişikliklərini göstərən əyri

Onkologiya (*onko-* + yun. *logos* elm) – tibbin şişlərin əmələ gəlməsi, inkişaf mexanizmi və klinik təzahürləri, onların diaqnozu və müalicəsi ilə məşğul olan bölməsi

Eksperimental onkologiya – onkologiyanın heyvanlar üzərində aparılan eksperimentdə şişlərin əmələ gəlməsi və inkişafı proseslərini öyrənən bölməsi

Onkoloji yardım – bədxassəli şişlərin vaxtında aşkar olunmasına, profilaktikasına, müayinəsinə və müalicəsinə yönəldilmiş elmi-tibbi tədbirlər

Onkoloji xəstə – tam müayinə olunmuş və morfoloji üsullarla bədxassəli şiş diaqnozu təsdiq edilmiş şəxs

Onkoloq – onkologiya ixtisası üzrə hazırlıq keçmiş həkim-mütəxəssis

Onkoloq-cərrah – onkoloji xəstəliklərin diaqnostikası və cərrahi müalicəsi üzrə hazırlıq keçmiş həkim-mütəxəssis (cərrah)

Onkoloq-ginekoloq – qadın cinsiyyət orqanlarının onkoloji xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə hazırlıq keçmiş həkim-mütəxəssis (mama-ginekoloq)

Onkoloq-otolarinqoloq – qulaq, burun, burunətrafı ciblər, udlaq və qırtlağın onkoloji xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə hazırlıq keçmiş həkim-mütəxəssis (otolarinqoloq)

Onkoloq-radioloq – bədxassəli şişlərin şüa terapiyası üzrə hazırlıq keçmiş həkim-mütəxəssis

Onkometriya (*onko-* + yun. *metreo* ölçmək) – orqan və ya toxumaların həcminin dəyişməsinin ölçülməsi; əsasən orqanın qanla dolmasını müəyyən etmək üçün istifadə olunur

Onkosit (*oncocytus*; hist. *cytus* hüceyrə) – mitoxondrilərlə zəngin iri eozinofil epitel hüceyrə, müxtəlif orqanlarda (məs., mədədə) vəzi hüceyrələri arasında rast gəlinir

Onkositoma (*oncocytoma*) – 1) onkositlərdən inkişaf edən şiş; 2) *bax:* adenolimfoma

Onkoz *(*köh.; *oncosis*; yun. *onkosis* kiçik şiş*)* – raxit zamanı osteositlərin şişməsi və lizisi

Onomatolaliya *(onomatolalia*; yun. *onoma, onomatos* ad, söz + *lalia* nitq, boş söhbət*)* – xəstə tərəfindən ayrı-ayrı sözlərin təkidlə təkrarlanması

Onomatomaniya (*onomatomania*; yun. *onoma, onomatos* ad) – adları, tarixləri, əşyaların adlarını, nadir sözləri başqa sözlər də birləşdirərək yadda saxlamaq tutqusu

Onomatopoez (*onomatopoiesis*) – mənasız sözlər düzəltməkdən ibarət sarışan cəhd; təsvir olunan əşyadan çıxan səsləri əks etdirən sözlərin uydurulması

Ontogenez (yun. *on, ontos* varlıq + *genez*) – orqanizmin inkişaf mərhələsi, yumurta hüceyrədən həyatın sonuna qədər olan inkişaf dövrü

Onurğa *(columna vertebralis)* – onurğalı heyvanlarda və insanda ox skeletinin əsas hissəsi; fəqərələrin birləşməsindən əmələ gələrək gövdənin istinadını təşkil edir, üzərində başın, gövdənin və yuxarı ətrafların ağırlığını daşıyır və onurğa beyninə məxsus kanal təşkil edir

Onurğa beyni keçiriciliyinin hissəvi pozulması sindromu – ətrafların hərəki funksiyası və hissiyyatın bəzi növləri saxlanılır, ancaq hərəki və hissi pozğunluq müşahidə olunur; onurğa beyni yaralanmalarında müşahidə olunur

Onurğa beyni keçiriciliyinin tam pozulması sindromu – hərəki və hissi funksiyalar tam itir; onurğa beyni yaralanmalarında müşahidə olunur

Onurğa beyni seqmenti *(segmentum medullae spinalis)* – onurğa beyninin bir cüt onurğa beyni sinirinə başlanğıc verən hissəsi; 31 ədəd onurğa beyni seqmenti var

Onurğa beyni zədələnməsi – beyin maddəsinin, seqment aparatı hüceyrələrinin və keçirici yolların morfoloji zədələnməsi

Onurğa beyninin arxa buynuz sindromu *(syndromum cornus posterioris medullae spinalis)* – onurğa beyninin arxa buynuzlarının zədələnmələri zamanı seqmentar olaraq ağrı və temperatur hissiyyatının pozulması; sirinqomieliya, hematomieliya, intramedulyar şişlər zamanı təsadüf olunur

Onurğa beyninin mərkəzi kanalı *(canalis centralis medullae spinalis)* – *bax:* mərkəzi kanal

Onurğa beyninin sıxılması – fəqərələrin yerdəyişməsi və ya sümük qırıqlarının onurğa kanalına yerdəyişməsi nəticəsində baş verir

Onurğa xətti *(linea vertebralis)* – döş və bel fəqərələrinin köndələn çıxıntılarının proyeksiyasından keçən şərti şaquli xətt; topoqrafik-anatomik oriyentir rolunu oynayır

Onurğa kanalı *(canalis vertebralis)* – fəqərə cisminin və qövslərinin yaratdığı dəliklərdən təşkil olunmuş kanal; böyük ənsə dəliyi vasitəsilə kəllə boşluğu ilə əlaqələnir, daxilində onurğa beyni, onun qişaları və venoz kələf yerləşir

Onurğa nahiyəsi *(regio vertebralis)* – sağ və sol onurğa xətləri ilə məhdudlaşan topoqrafik-anatomik nahiyə; onurğanın döş və boyun nahiyələrini, onları örtən toxumalarla birgə əhatə edir

Onurğa sütunu (*columna vertebralis*) – *bax:* onurğa

Onurğanın köndələn zədələnməsi sindromu – zədələnmiş seqmentdən aşağı nahiyədə keçiriciliyin pozulması nəticəsində ətrafların iflici, bütün növ hissiyyatın və çanaq orqanlarının funksiyasının pozulması

Onurğanın Olbi üsulu ilə fiksasiyası (F.H. Albee, 1876-1945, amer. cərrah) – *bax:* Olbi spondilodezi

Onurğanın osteoxondrozu (*osteochondrosis vertebralis*) – onurğanın fəqərəarası disklərin nazikləşməsi və distrofiyası ilə gedən xroniki xəstəliyi; fəqərə cismlərinin osteofitləri, fəqərələrarası oynaqların artrozu, yırtıqlarla xarakterizə olunur

Onurğayanı xətt *(linea paravertebralis*; sin. paravertebral xətt*)* – kürək

və onurğa xətləri arasında yerləşən şərti vertikal xətt

Ooforit (*oophoritis*; anat. *oophoron* yumurtalıq) – yumurtalıqların iltihabı

Ooforoma (*oophoroma*) – *bax:* Brenner şişi

Oositofobiya (*oocytophobia*) – yumurtalardan qorxma

Operativ epidemioloji təhlil – hissə və bölmələrdə epidemik qeyri-qənaətbəxşliyin erkən aşkar edilməsi məqsədilə şəxsi heyətin yoluxucu xəstəlikləri haqqında məlumatın fasiləsiz toplanması və öyrənilməsi

Operativ temperatur – ətraf mühit temperaturunun və havanın hərəkətinin insan orqanizminə kompleks təsirini xarakterizə edən göstərici

Operator (lat. *operator* işi yerinə yetirən, hərəkətdə olan) – tibdə: əməliyyat edən cərrah

Operkulyar sindrom *(syndromum operculare)* – əksər hallarda ümumi qıcolma tutmasından əvvəl baş verən çeynəmə və ya udma hərəkətlərinin tutmaları, dodaqları yalama, marçıldatma; baş beynin aşağı alın qırışığının qapaq hissəsinin zədələnməsi zamanı müşahidə olunur

Opiat – narkotik opium alkoloidi

Opiofagiya (*opiophagia*) – opiomaniyanın növü – narkotik daxilə toz, həblər, cövhər şəklində qəbul edilir

Opiofobiya (*opiophobia*) – müalicə olunmaqdan, həkimlərdən qorxma

Opiomaniya (*opiomania*) – narkomaniyanın növü – tiryək və ya onun preparatlarının qəbuluna aludə olmaq; opium narkomaniyası

Opistorxoz (*opisthorchosis*) – qaraciyərin, öd yollarının və mədəaltı vəzinin qurd xəstəliyi; pişiyin, tülkünün, itin, balığın və s. qara ciyərinin öd axarlarında, öd kisəsi və mədəaltı vəzində parazit halında yaşayan *Opisthorchis felineus* tərəfindən törədilir; erkən fazada xolangit, pankreatit və allergiya əlamətləri ilə təzahür edir

Opits sindromu (J. Opitz, amerikalı genetik) – anadangəlmə anomaliyaların çox nadir kompleksi; telekant, hipertelorizm, dodaq və damağın deformasiyası, həzm, sidik-cinsiyyət orqanlarının anomaliyaları, zehni gerilik, anadangəlmə ürək qüsurları ilə gedən sindrom; kişilərə nisbətən qadınlarda daha tez-tez baş verir (3:1)

Opits-Conson-Creadie-Smitz sindromu (Opitz-Johnson-McCreadie-Smith) – çoxsaylı irsi anomaliyalar: üzün anomaliyaları: çəpgözlük, alının hipertrixozu, qabarıq qaşarası, qulaq seyvanlarının displaziyası, yanağın daxili səthi ilə diş əti arasında çoxsaylı birləşmələr; skeletin anomaliyaları: boyun alçaq olması, sindaktiliya, braxidaktiliya, bud-çanaq oynağının, qabırğaların, döş sümüyünün displaziyası; digər anomaliyalar: anadangəlmə ürək qüsurları, kriptorxizm, daxili orqanların (böyrəklər, mədəaltı vəzi) displaziyası; körpə yaşlarında ölüm

Opits-Frias sindromu (sin. G sindromu, Opits sindromu) – *bax:* Opits sindromu

Oppengeym miatoniyası (H. Oppenheim, 1858-1919, alm. nevropatoloqu) – *bax:* miatoniya

Oppengeym sindromu (H. Oppenheim) – *bax:* hipofizar psevdotabes

Optiko – (opto-; yun. *optikos* görməyə aid, *optos* görünən) - mürəkkəb sözlərin tərkib hissəsi olub, "görmə orqanına aid" mənasını verir

Optik ataksiya (*ataxia optica*) – *bax:* Balint sindromu

Optik ox (*axis opticus*) – sındırıcı səthlərin hamısının mərkəzindən keçən düz xətt

Optikoensefalit (*opticoencephalitis*) – kəskin dağınıq ensefalomielitin forması, əsasən baş beyin və görmə sinirlərinin zədələnməsi ilə xarakterizə olunur

Optikoensefalomielit (*opticoencephalomieltis*) – kəskin dağınıq ensefalomielitin forması, baş və onurğa beynin, həmçinin görmə sinirlərinin zədələnməsi ilə xarakterizə olunur

Optikomielit – kəskin dağınıq ensefalomielitin forması, əsasən onurğa beyni və görmə sinirlərinin zədələnməsi ilə xarakterizə olunur

Optofobiya (*optophobia*) – gözləri açmaqdan qorxma; kor deyil, amma gözlərini açmır

Optokinetik sınaq (*opto-* + yun. *kinetikos* hərəkətə aid olan) – vestibulyar analizatorun, baxışın davamlı hərəkət edən obyekt üzərinə yönəlməsi nəticəsində baş verən nistaqmın öyrənilməsinə əsaslanan müayinə üsulu

Optometr (*opto-* + yun. *metreo* ölçmək) – aydın görmənin yaxın və uzaq nöqtələrinin vəziyyətini və gözün refraksiyasını müəyyən etmək üçün cihaz

Optometriya (*opto-* + yun. *metreo* ölçmək) – oftalmologiyanın optik vasitələrin köməyi ilə gözün refraksiya anomaliyalarını öyrənən bölməsi

Optotip – görmə itiliyini müəyyən etmək üçün istifadə olunan müxtəlif ölçülü eyni tipli işarələr (hərflər, həndəsi fiqurlar və s.)

Oral (*oralis*; lat. *os, oris* ağız) – ağıza aid, ağız boşluğunda yerləşən

Oral qıcolma (*s. oralis*) – ağızın dairəvi əzələlərini əhatə edən paroksizmal hiperkinez

Oral yol – dərmanların ağız vasitəsilə qəbulu

Oraza *(orazum) – Aspergillus oryzae* göbələklərindən alınan proteolitik və amilolitik kompleksli preparat

Orbita (*orbita*; lat. *orbis* dairə) – *bax:* göz yuvası

Orbitanın üst tərəf sindromu – göz yuvası yarığı və görmə dəliyindən keçən damar və sinirlərin, burunətrafı ciblərdəki patoloji proseslər nəticəsində zədələnməsi zamanı meydana çıxan ptoz, görmə qabiliyyətinin zəifləməsi və ağrı

Orbitanın zirvə sindromu *(syndromum apicis orbitae)* – göz yuvasının yuxarı yarığı sindromunun görmə sinirinin zədələnmə əlamətləri (görmə itiliyinin zəifləməsi, görmə siniri diskinin atrofiyası, görmə sahəsinin daralması) ilə birgə təsadüf edilməsi; iltihab prosesi və şiş göz yuvasının arxa hissəsində olduqda müşahidə olunur

Orbitoqrafiya (*orbita-* + yun. *grapho* yazmaq) – episkleral nahiyəyə kontrast maddə yeridildikdən sonra göz yuvasının rentgenoqrafiyası

Orbitotomiya (*orbitomia*) – cərrahi əməliyyat: göz yuvası (orbita) toxumalarının yarılması ilə retrobulbar sahənin açılması

Sadə orbitotomiya (*o. simplex*) – yalnız yumşaq toxumaların kəsilməsi ilə aparılan orbitotomiya

Sümük orbitotomiyası (*o. ossea*) – orbitanın sümük divarlarından birinin müvəqqəti rezeksiyası ilə aparılan orbitotomiya

Transkranial orbitotomiya (*o. transcranialis*) – kəllənin trepana-

siyasından sonra kəllə boşluğundan icra olunan orbitotomiya

Orbitotonometriya – göz almasına öndən təzyiq etdikdə onun göz yuvasının dərinliyinə doğru yerdəyişməsinin müayinə üsulu; məs., ekzoftalmın diferensial diaqnostikasında tətbiq olunur

Ordu kulinariyası – ordu üçün yemək hazırlamaq mədəniyyəti

Ordu mətbəxi – orduda yemək hazırlamaq üçün xüsusi təchiz olunmuş yer

Orduda tibbi baxış – hərbi qulluqçuların fiziki vəziyyətini öyrənən və müşayiət etmək məqsədilə aparılan tibbi baxış

Ordudankənar hazırlıq – əhalinin ordu hissələrindən kənar hərbi hazırlıq sistemi

Ordunun aviasiya hospitalı – müxtəlif ölkələrin ordusunun hərbi hava qüvvələrinin nəzdində yaradılmış hospital

Ordunun avto-cərrahi dəstəsi – təxliyyə mərhələsində cərrahi xidmət üçün təchiz olunmuş xüsusi avtomobil dəstəsi

Ordunun əksepidemik müdafiəsi – sülh və müharibə dövründə ordunun şəxsi heyətinin epidemik xəstəliklərdən müdafiəsi üçün təşkil olunmuş sanitar-gigiyenik və əksepidemik tədbirlər

Ordunun sanitar-epidemioloji dəstəsi – ordunun əksepidemik və sanitar-gigiyenik tədbirlərini laborator müayinələrlə birgə həyata keçirən dəstəsi

Ordunun sanitar-gigiyenik təminatı – ordunun şəxsi heyəti arasında xəstəliklərin yayılmasının qarşısını almaq və şəxsi heyətin sağlamlığını qorumaq üçün tədbirlər kompleksi

Ordunun tibb xidməti – hərbidə tibbi məsələləri həll etmək bütün qüvvə və vasitələri birləşdirmək üçün xüsusi xidmət

Orx- (orzi-, orxido-; yun. *orchis, orchidion* yumurtacıq, xaya) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "xayaya aid" mənasını verir

Orxialgiya *(orchialgia*; *orxi-* + yun. *algos* ağrı; sin. Kuper xəstəliyi*)* – iltihab və zədələnmə olmadan xaya nahiyəsində ağrı və gərginlik hissiyyatı

Orxidopeksiya *(orchidopexia) – bax:* orxipeksiya

Orxiektomiya *(orchiectomia)* – xayaların xaric edilməsi cərrahi əməliyyatı

Orxiepididimit *(orchiepididymitis)* – xaya və onun artımlarının birgə iltihabı

Orxipeksiya *(orchipexia*; sin. orxidopeksiya*)* – cərrahi əməliyyat: xayanın qonşu toxumalara tikişlər vasitəsilə təsbit edilməsi

Orxit *(orchitis)* – xayanın iltihabı; ağrı, yerli şişkinlik və temperaturun yüksəlməsi ilə müşayiət olunur

Orqan *(organum)* – bədənin müəyyən forması, quruluşu, yeri olan, bir və ya bir neçə funksiyanı yerinə yetirən hissəsi

Aksessor orqan (*o. accessorilim) – bax:* əlavə orqan

Daxili orqan (*o. interna*) – bədən boşluqlarında yerləşən orqan

Definitiv orqan (lat. *definitivus* son*)* – formalaşması bitmiş orqanizmin orqanı

Endokrin orqan (*o. endocrinicum)* – hormon hasil edən və qana hormon ifraz edən orqan

Əlavə orqan (*o. accessorium)* – müəyyən orqanın onunla eyni vaxt-

da və ondan kənarda yaranan toxuma toplantısı

Görmə orqanı (*o. visus)* – periferik görmə reseptoru – göz alması və onun əlavə aparatı, görmə yolları və baş beynin görmə mərkəzindən ibarətdir

Hemopoetik orqan (o. haemopoeticum) – *bax:* qanyaradıcı orqan

İnkretor orqan (o. *incretorium*) – *bax:* endokrin orqan

İzoləolunmuş orqan – orqanizmdən çıxarılmış, xüsusi mühitdə həyat fəaliyyəti qalmaqla saxlanılan orqan

Qalıq orqan – *bax:* rudiment orqan

Qanyaradıcı orqan (*o. haemopoeticum*) – qan hüceyrələri əmələ gələn orqan (məs., dalaq, sümük iliyi)

Parenximatoz orqan (*o. parenchymatosum*) – əsas kütləsini parenxima – məhz bu orqana məxsus hüceyrələr təşkil edən orqan

Provizor orqan – embrional inkişaf dövründə müvəqqəti olaraq fəaliyyət göstərən orqan (məs., birinci böyrək)

Rudiment orqan (*o. rudimentum)* – orqanizmin bütün həyatı boyu saxlanılan, lakin öz funksiyasını itirmiş və inkişaf etməmiş orqan

Orqanik demensiya (*dementia organica*) – baş beyin xəstəlikləri zamanı intellektual səviyyənin ciddi enməsi

Orqanik nevrasteniya – *bax:* orqanik asteniya

Orqanizm (*organismus*) – canlı orqanizm, canlı varlıq biologiya sahəsində heyvan, bitki, kif, mikrob kimi tək bir vücud əmələ gətirən yekdil sistemdir

Orqanizmin canlandırılması – *bax:* reanimasiya

Orqanizmin həddindən artıq soyuması – *bax:* hipotermiya

Orqanizmin reaktivliyi – ətraf mühitin fizioloji və xəstəlik törədici amillərinə qarşı orqanizmin reaksiya vermə xüsusiyyəti

Orqanizmin ümumi soyuması – *bax:* hipotermiya

Orqanoleptik analiz – hissiyyat orqanlarının köməyilə ərzaq və materialların (əsasən qida məhsulları və suyun) xüsusiyyətlərinin öyrənilməsi

Orqanoleptik xüsusiyyətlər (*orqano-* + yun. *leptikos* götürmə, qavrama bacarığı) – ətraf mühit obyektlərinin bilavasitə insanın hissiyyat orqanları tərəfindən qəbul edilən xüsusiyyətləri (rəng, qoxu və s.)

Orqanoleptik üsullar (*orqano-* + yun. *leptikos* götürmə, qavrama bacarığı) – ətraf mühit obyektlərinin keyfiyyətinin hissiyyat orqanları vasitəsilə (rəng, qoxu, konsinstensiya, görünüş və s.) tədqiqi və qiymətləndirilməsi üsulları

Orqanometriya – orqanların ölçü, kütlə, konsistensiya, rəng və sairə parametrlərinin kəmiyyət üsulları ilə qiymətləndirilməsi metodlarının məcmusu

Orqanopatologiya (*organopathologia*) – orqan və ya orqanlar sisteminlərinin xəstəlikləri haqqında elm

Orqanoskopiya (*organoscopia*) – *bax:* abdominoskopiya

Orqanoterapiya (yun. *organon* orqan + *therapeia* müalicə) – heyvan mənşəli dərman preparatları ilə müalicə növü; iri buynuzlu heyvanlardan və mayadan alınmış RNT-tərkibli preparatlarla müalicə

Orleanski mastoiditi (K.A. Орлеанский, sov. otorinolarinqoloqu) – irinin məməyəbənzər çıxıntısının xarici divarını keçərək ətraf toxumalara infiltrasiya edib, döş-körpücük-məməyəbənzər əzələyə keçməsi

Ormond xəstəliyi (J. K. Ormond, amer. uroloq) – peritonarxası sahənin qeyri-spesifik iltihabi prosesi və bərk fibroz toxumanın əmələ gəlməsi ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik; sidik axarlarının keçiriciliyinin pozulması ilə təzahür verir

Ornitofobiya (*ornithophobia*) – quşlardan qorxma

Ornitoz *(ornithosis*; yun. *ornithos* quş*)* – xlamidilərin səbəb olduğu, insanlara quşlardan (köçəri vəhşi quşlar, göyərçinlər, dekorativ ev quşları,ördəklər, hind quşları, toyuqlar) respirator yolla ötürülən kəskin infeksion xəstəlik; xırdaocaqlı və ya interstisial pnevmoniya ilə xarakterizə olunur

Orotasiduriya *(orotaciduria*; lat. *acidum oroticum* orot turşusu + yun. *uron* sidik*)* – orot turşusunu sitidil turşusuna çevirən fermentlərin çatışmazlığının səbəb olduğu irsi xəstəlik; ağır meqaloblastik anemiya və orqan və toxumalarda orot turşusu kristallarının toplanması ilə xarakterizə olunur; autosom-resessiv tip üzrə ötürülür

Orra üsulu (Th. G. Orr, amer. cərrahı) – cərrahi əməliyyat: qaraciyərin köndələn rezeksiyası, bu zaman qaraciyər iki sıra «П» şəkilli tikişlə, 1 sıra isə düyünlü tikişlə tikilir

Orşanski simptomu (İ.Q. Orşanski, 1851-ci ildə an. olub, sov. nevropatoloq və psixiatrı) – hemiplegiya tərəfdə diz oynağında ayağın daha passiv açılması; bu simptom komatoz vəziyyətdə olan xəstələrin müayinəsi zamanı böyük əhəmiyyət kəsb edir

Orta beyin sindromu *(syndromum mesencephali)* – orta beyin strukturlarının zədələnməsi sindromlarının ümumi adı, məs. Parino sindromu, Veber sindromu, qırmızı nüvə sindromu

Orta böyrək – *bax:* mezonefros

Orta burun keçəcəyi (*meatus nasalis medius*) – orta və aşağı burun balıqqulaqları arasında yerləşən burun keçəcəyi

Orta Exo – *bax:* M-exo

Orta kolporafiya – *bax:* Lefor-Neygebauer əməliyyatı

Orta körpücük xətti *(linea medioclavicularis)* – körpücük sümüyünün ortasından, süd vəzinin giləsindən keçməklə şərti çəkilən şaquli xətt; anatomo-topoqrafik oriyentirdir

Orta qulağın kəskin katarı – *bax:* kəskin orta kataral otit

Orta qulağın kəskin otiti (*otitis media acuta*) – orta qulağın selikli qişasının kəskin iltihabi prosesi

Orta qulaq (*auris media*) – qulağın təbil boşluğu, eşitmə borusu (Yevstax borusu) və məməyəbənzər çıxıntının cisimciklərindən ibarət hissəsi

Orta pay sindromu *(syndromum lobi medii pulmonis dextri)* – sağ ağciyərin orta pay bronxunun obstruksiyası nəticəsində meydana gələn və təkrarlanan lobar pnevmoniya; sağ ağciyərin orta payının rentgen kölgəsinin kiçilməsi və bərkiməsi; bu termin diaqnozun dəqiqləşdirilməsi tələb olunan hallarda işlədilir

Ortegi üsulu (P. del Rio Hortega, 1882-1945, argen. gistoloq) – qlial

və digər argirofil liflərin aşkar edilməsi üçün histoloji preparatların gümüşlə işlənməsi üsullarının ümumi adı

Ortner refleksi (N. Ortner, 1865-1935, avstr. həkim) – fizioloji refleks: ayaqüstü vəziyyətdə başı arxaya əydikdə nəbzin 1 dəqiqədə 4-8 dəfə az vurması

Ortner simptomu (N. Ortner) – sağ qabırğa qövsünün əlin daxili kənarı ilə döyəclənməsi zamanı ağrının meydana çıxması; qaraciyər və öd axarlarının xəstəlikləri zamanı müşahidə olunur

Ortner sindromu (N. Ortner) – kardioloji patologiyaya bağlı sol səs büküşü iflici; qayıdan sinirin böyümüş ürək və ya iri damarlar tərəfindən sıxılması nəticəsində meydana çıxan iflici zamanı fonasiyanın pozulması; məs., sol artrioventikulyar dəliyin stenozu zamanı

Ortodaktiliya *(orthodactylia*; *orto-* + yun. *daktylos* barmaq*)* – inkişaf anomaliyası: barmaq falanqalarının bitişməsi

Ortodentin *(orthodentinum*; *orto-* + lat. *dens, dentis* diş*)* – tərkibində hüceyrə və qan damarları olmayan dentin (dişin əsas hissəsini təşkil edən bərk, sümük tərkibli maddə); insan və əksər məməli heyvanların dişləri üçün səciyyəvidir

Ortodiaqraf (*orto-* + yun. *diagrapho* təsvir etmək) – ortodiaqrafiya üçün nəzərdə tutulmuş və rentgen aparatının ekranına əlavə olunan xüsusi vasitə

Ortodiaqrafiya (*orto-* + yun. *diagrapho* təsvir etmək; sin. ortorentgenoqrafiya) – rentgenoloji müayinə zamanı daxili orqanların (əsasən ürək və aortanın) xüsusi vasitələrin köməyi ilə konturlarını çəkməklə mövqe və ölçülərinin müəyyən edilməsi üsulu

Ortodontik qövs (ort- + yun. *odus, odontos* diş; sin. Enql qövsü) – dişçənə anomaliyalarının müalicəsində tətbiq olunan aparat; dayaq dişlərə bərkidilən və tənzimlənən əyriliyi olan elastik məftil qövsdür; diş cərgələrinin genişləndirilməsi və ya ayrı-ayrı dişlərin yerdəyişməsi üçün tətbiq edilir, müxtəlif əyriliklərin normal vəziyyətə gətirilməsinə imkan verir

Ortodontiya *(orthodontia)* – stomatologiyanın diş və diş sıralarının anomaliyalarının diaqnostikası, profilaktikası və müalicəsi ilə məşğul olan bölməsi

Ortoforiya *(orthophoria)* – gözün hərəki aparatının normal vəziyyəti; hər iki gözün bir-birinə parallel olması

Ortogeniya *(orthogenia*; *orto-* + yun. *genys* çənə*)* – yuxarı və aşağı ön dişlərinin eyni frontal müstəvidə olduğu dişləm

Ortokeratinizasiya *(orthokeratinisatio*; sin. ortokeratoz*)* – epidermis hüceyrələrinin təbii buynuzlaşması

Ortokeratoz *(orthokeratosis) – bax:* ortokeratinizasiya

Ortoklinostatik sınaq (*orto-* + yun. *klino* əymək + *states* dayanan) – ortostatik sınağın modifikasiyası: fizioloji parametrlərin təkrar müayinəsi aparılmaqla xəstəni şaquli vəziyyətdən yenidən üfüqi vəziyyətə keçirirlər

Ortopedik alətlər – ortopedik və travmatoloji praktikada əməliyyatların aparılması və digər müdaxilələr üçün lazım olan alətlər

Ortopedik aparat – ətrafların və fəqərə sütununun formasının bərpası və deformasiyasının qarşısını almaq üçün mexaniki vasitə

Ortopedik ayaqqabı – aşağı ətrafların patoloji dəyişikliyini korreksiya etmək üçün nəzərdə tutulmuş xüsusi konstruksiyalı ayaqqabı

Ortopedik stol – xəstəyə ortopedik (travmatoloji) əməliyyatların aparılması və gips sarğılarının qoyulması üçün tələb olunan vəziyyəti verən xüsusi stol

Ortopediya *(orthopaedia*; *orto-* + yun. *paideia* təlim, tərbiyə*)* – klinik təbabətin insanın dayaq-hərəkət aparatının, yuxarı və aşağı ətrafların, qabırğaların, döş sümüyünün, onurğa sütununun və çanağın deformasiyası və zədələnmlərinin diaqnostikası, müalicə və profilaktikası ilə məşğul olan sahəsi

Ortopnoe *(orthopnoe*; *orto-* + yun. pnoe nəfəs*)* – xəstənin təngnəfəslik vəziyyətində nəfəsalmanı yüngülləşdirmək üçün aldığı məcburi vəziyyət; gecələr ürək astması və öskürək tutmaları zamanı insanın uzandığı halda nəfəs alması çətinləşir, yerindən qalxıb oturduğu zaman nisbətən rahat nəfəs almağa başlayır

Ortoptika (*ort-* + yun. *optikos* görməyə aid) – çəpgözlük zamanı binokulyar görməni bərpa etmək üçün konservativ üsulların məcmusu

Ortorentgenoqrafiya – *bax:* ortodiaqrafiya

Ortorentgenometriya – müayinə olunan orqanın ölçülərinin ortodiaqrafiya üsulu ilə alınmış təsvirlərinin ölçülməsi yolu ilə təyin edilməsi

Ortoskopiya – *bax:* düz larinqoskopiya

Ortostatik albuminuriya (*albuminuria orthostatica*) – ayaq üstə çox dayanmağın nəticəsində sidikdə zülalın aşkar olunması

Ortostatik fenomen – xəstənin üfüqi vəziyyətdən şaquli vəziyyətə cəld keçməsi zamanı meydana çıxan başgicəllənmə, taxikardiya, koordinasiyanın pozulması və tər ifrazının atrması; vegetativ sinir sisteminin kəskin oyanıqlığı zamanı müşahidə olunur

Ortostatik sınaq – xəstənin üfüqi vəziyyətdən şaquli vəziyyətə keçməsindən əvvəl və sonra ürək-damar sisteminin funksional vəziyyətinin müayinəsi

Ortostatik sindrom *(syndromum orthostaticum)* – üfüqi vəziyyətdən şaqüli vəziyyətə cəld keçdikdə və ya uzun müddət ayaqüstə dayandıqda baş verən başgicəllənmə, ürək döyünməsi, bəzi hallarda isə bayılma ilə müşayiət olunan patoloji vəziyyət

Ortostatik stol – ortostatik sınaqların aparılması üçün nəzərdə tutulmuş, sarğı kəmərləri ilə təmin edilmiş və üfüqidən şaquliyə mövqeyini dəyişən masa

Ortostaz (*orto-* + yun. *stasis* durma) – bədənin şaquli vəziyyəti

Ortotropizm (yun. *orthós* düz, *trópos* istiqamət, dönmə) – 1) bitki orqanlarının qıcıqlandırma hərəkəti istiqamətinə paralel yönədilməsi: hərəkət amilinə tərəf (müsbət ortotropizm), onun əksinə (mənfi ortotropizm); 2) şaquli xətt üzrə boyatma

Osilloqraf (*oscillograph*) – elektrik rəqslərini yazmaq, yaxud müşahidə etmək üçün optik və ya elektron qurğu; tibb texnologiyasında geniş istifadə olunur

Osilloqrafiya – rəqsi (titrəyişli) proseslərin qrafik qeydiyyatına əsasən öyrənilməsi üsulu, məs., bioelektrik aktivliyin

Osipov simptomu (V.P. Osipov, 1871-1947, sov. psixiatrı) – endogen depressiyalar zamanı müşahidə olunan dodaqların, ağız boşluğu selikli qişasının quruluğu, çatların əmələ gəlməsi və dilin şişməsi

Osqut-Şlatter xəstəliyi (R.B. Osgood, 1873-1956, amer. cərrah-ortoped; C. Schlatter, 1864-1934, isveşrəli cərrah) – qamış sümüyünün burmasının aseptik nekrozu; əsasən 13-17 yaşlı oğlan uşaqlarında müşahidə olunur

Osler düyünləri (W. Osler, 1849-1919, ing. həkimi) – septik endokarditin gedişində xırda damarların zədələnməsi nəticəsində dəridə və dərialtı toxumada qırmızı rəngli ağrılı düyünlər

Osler xəstəliyi (W. Osler) – *bax:* Randyu-Veber-Osler xəstəliyi

Osler sindromu (W. Osler) – udlağın, qırtlağın, traxeyanın, qida borusunun çoxsaylı teleangiektaziyaları: dəfələrlə təkrarlanan burun qanaxmaları, qanlı-bəlğəmli öskürək, qanlı qusmalar; adətən ikincili posthemorragik anemiya inkişaf edir; çox vaxt hepatomeqaliya və qaraciyərin sirrozu ilə nəticələnir

Osler-Randyu sindromu (W. Osler, 1849-1919, ing. həkimi; H.J.L.M. Rendu, 1844-1902, frans. həkimi) – *bax:* Randyu-Veber-Osler xəstəliyi

Osmo- (yun. *osmos* təkan, təzyiq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "osmotik təzyiqə aid" mənasını verir

Osmofobiya (*osmophobia*) – bədən qoxularından qorxma

Osmometr (*osmo-* + yun. *metreo* ölçmək) – osmotik təzyiqin və ya osmotik aktiv maddələrin konsentrasiyasını ölçmək üçün cihaz; biofiziki və biokimyəvi tədqiqatlarda istifadə olunur

Osmometriya – osmotik təzyiqin ölçülməsində istifadə olunan texniki üsulların məcmusu; məs., su-duz mübadiləsini tədqiq etdikdə, biopolimerlərin molekulyar çəkisini təyin etmək üçün osmometriyadan istifadə olunur

Osmorequlyasiya – orqanizmin maye mühitlərinin osmotik təzyiqinin optimal səviyyədə saxlanəlmasını təmin edən mexanizmlərin məcmusu

Osmoreseptor – orqanizmin maye mühitlərində osmotik təzyiqin dəyişikliklərini qəbul edən sinir ucları və ya neyron

Osmoterapiya *(osmotherapia)* – hipertonik və yüksək molekulyar məhlulların venadaxili yeridilməsi yolu ilə orqanizmin osmotik təzyiqinin dəyişdirilməsinə əsaslanan müalicə üsulu

Osmotik demielinizasiya sindromu (ODS) – beyin körpüsü əsasında mielinin məhdud dağılması nəticəsində tetraplegiya, psevdobulbar iflic və qıcolma

Osna-Şkolnikov simptomu (A.İ. Osna, sov. neyrocərrahı; L.Q. Şkolnikov, sov. travmatoloq-ortopedi) – fəqərə sütununun bel nahiyəsinin osteoxondrozu zamanı IV bel fəqərəsinin proyeksiyası nahiyəsində qarın boşluğuna təzyiq etdikdə fəqərə sütununda ağrının meydana gəlməsi

Ospeosiofobiya (*ospeosiophobia*) – insan qoxusundan qorxma

Ossifikasiya *(ossificatio*; lat. *os, ossis* sümük + *facio* etmək; sin. sümükləşmə*)* – *bax:* sümükləşmə

Ossifikasiyaedən sindesmit *(syndesmitis ossificans*; yun. *syndesmos* bağ*)* – bağların kalsium duzlarının çökməsi və ya osteogenez ocaqlarının əmələ gəlməsi ilə gedən iltihabı

Ossifikasiyaedən sistemli periostoz (*periostosis systemica ossificans*) – *bax:* Bamberger-Mari periostozu

Ossikuloplastika – eşitmə sümükcükləri zəncirinin rekonstruksiyası; eşitmə sümükcük zəncirində olan qopuqluğun "sümük sementlə" bərpa edilməsi

Osten-Saken kontrakturası (E.Yu. Osten-Saken, sov. cərrah-travmatoloqu) – artroqripoz zamanı milbilək oynağının anadangəlmə kontrakturası

Osten-Saken üsulu (E.Yu. Osten-Saken) – autotransplantat vasitəsilə diz oynağının artrorizi; autotransplantat – qamış sümüyünün proksimal ucunun ön səthinin ondan tam ayrılmamış bir hissəsidir, hansı ki, sərbəst ucu ilə diz qapağının aşağı kənarına yeridilir

Osten-Saken-Canelidze əməliyyatı (E.Yu. Osten-Saken; Yu.Yu. Canelidze, 1883-1950, sov. cərrahı) – mil sinirinin zədələnməsi zamanı bilək və barmaqların aktiv açılmasını təmin etmək məqsədilə aparılan cərrahi əməliyyat; biləyin dirsək bükücü vətərinin biləyin uzun mil açıcı vətərinə və baş barmağı uzaqlaşdıran uzun əzələnin vətərinə, mil bükücü vətərinin isə – barmaqların açıcı vətərinə köçürülməsindən ibarətdir

Osteo – (ost-; yun. *osteon* sümük) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "sümüyə, sümük toxumasına aid" mənasını verir

Osteoartrit (*osteoarthritis*) – oynağı əmələ gətirən sümüklərin oynaq uclarının zədələnməsi ilə gedən artrit

Deformasiya edən osteoartrit (*o. deformans*) – sümüklərin oynaq uclarının deformasiyası ilə gedən osteoartrit

Osteoartropatiya *(osteoarthropathia)* – oynaqların və sümüklərin oynaq uclarının qeyri-iltihabi xroniki zədələnmələrinin ümumi adı

Diabetik osteoartropatiya (*o. diabetica*) – şəkərli diabet zamanı təsadüf olunan, əsasən ayaq sümüklərinin və oynaqların zədələnməsi ilə xarakterizə olunan osteoartropatiya

Hipertrofik osteoartropatiya – oynaqlarda və sümüklərdə müxtəlif intensivli ağrı, «baraban çubuğu», «saat şüşəsi», bilək və said sümüklərinin periostitləri, residivverən sinovitlərlə xarakterizə olunan xəstəlik

Nevrogen osteoartropatiya (*o. neurogena*) – sinir sisteminin zədələnməsi ilə əlaqədar meydana çıxan osteoartropatiya (məs., sirinqomieliya zamanı)

Osteoartroz (*osteoarthrosis*) – *bax:* artroz

Osteoblast (*osteoblastus*) – sümük toxumasının hüceyrəarası maddənin formalaşmasında iştirak edən və osteositə çevrilən hüceyrəsi

Osteoblastoklastoma *(osteoblastoclastoma*; sin. osteoklastoma*)* – çoxsaylı giqanthüceyrəli sümük şişi; əsasən sümüyün oynağa yaxın hissəsində müşahidə olunur, ən çox bud sümüyünün aşağı, qamış sümüyünün yuxarı hissəsindən inkişaf edir

Osteoblastoma (*osteoblastoma*; sin. giqant osteoid-osteoma) – xoşxassəli sümük törəməsi; bütün sümüklərdə müşahidə edilə bilər, ən çox onurğa sütununda rast gəlinir, bud, qamış, bazu sümüklərində də rastgəlmə tezliyi yüksəkdir

Osteoblastoma xondromatoz (*osteoblastoma chondromatosum*) – *bax:* xondroblastoma

Osteodentin *(osteodentinum)* – iltihab zamanı dişin pulpasında əmələ gələn və quruluşca sümük toxumasına oxşar toxuma

Osteodisplaziya *(osteodysplasia)* – sümük toxumasının inkişaf anomaliyalarının ümumi adı

Diafizar osteodisplaziya (*o. diaphysialis*) – uzunborulu sümüklərin diafizinin zədələnməsi ilə gedən fibroz osteodisplaziya

Metafizar osteodisplaziya *(o. metaphysialis)* – uzunborulu sümüklərin metafizinin zədələnməsi ilə gedən fibroz osteodisplaziya

Osteodistrofiya (*osteodystrophia*) – sümük toxumasının bərpa mexanizminin pozulması ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik; əsasən çanaq, onurğa, kəllə, yuxarı və aşağı ətrafların uzun borulu sümüklər zədələnir

Alimentar osteodistrofiya (o. alimentaria) – ac qalma nəticəsində inkişaf edən sistemli osteodistrofiya; əsasən fəqərələrdə və aşağı ətrafların uzun borulu sümüklərində kəskin ifadə olunan osteoporozla xarakterizə olunur

Azotemik (böyrək) osteodistrofiya – xroniki böyrək çatışmazlığında sümük toxumasının zədələnməsi; $1,25(OH)_2D$ (D vit. hormonal aktiv forması) səviyyəsinin azalması nəticəsində hipokalsiemiya və hiperfosfatemiya əmələ gəlir, bu da ikincili hiperparatireozun inkişafına səbəb olur

Bağırsaq osteodistrofiyası (o. intestinalis) – nazik bağırsağın xroniki xəstəlikləri zamanı inkişaf edən sistemli osteodistrofiya; osteoporoz, bud və çanaq sümüklərinin deformasiyası, qabırğa və borulu sümüklərin çoxsaylı sınıqları ilə xarakterizə olunur

Böyrək osteodistrofiyası (o. pulmonalis; sin. Mari-Bamberger sindromu) – uzun borulu sümüklərin qalınlaşması, dırnaq falanqalarının nağara çubukları şəklində qalınlaşması və sklerozun birgə təzahürü; daxili orqanların bir sıra xroniki xəstəlikləri (xərçəng, qaraciyər sirrozu, ürək çatışmazlığı və s.) zamanı müşahidə olunur

Endokrin osteodistrofiya (*o.endocrinica*) – endokrin xəstəliklər zamanı inkişaf edən sistemli osteodistrofiya

Qaraciyər osteodistrofiyası (o. hepatica) – qaraciyər və öd axarlarının xroniki xəstəlikləri zamanı inkişaf edən osteodistrofiya; tədricən artan osteoporozla xarakterizə olunur

Mədə osteodistrofiyası (o. gastrica; sin. mədə osteopatiyası) – ahıl və qoca yaşlarda mədə şirəsinin turşuluğunun azalması nəticəsində inkişaf edən osteodistrofiya

Pankreatik osteodistrofiya (o. pancreatica) – xroniki pankreatit və ya mədəaltı vəzinin xərçəngi zamanı inkişaf edən osteodistrofiya

Sistemli osteodistrofiya (o. *systemica*) – sümük sisteminin osteoporozla xarakterizə olunan osteodistrofiyası

Toksik osteodistrofiya (*o.toxica*) – intoksikasiyalar zamanı inkişaf edən osteodistrofiya; osteoporoz və osteofibrozla xarakterizə olunur

Osteofibroma (*osteofibroma*; *osteo-* + lat. *fibra* lif) – *bax:* fibroz osteodisplaziya

Osteofibroz *(osteofibrosis)* – fibroz osteogen toxumanın sümük iliyi boşluğunda inkişaf etməsi

Osteofit *(osteophytus; osteo-* + yun. *phyton* böyüyən bir şey*)* – sümük səthində inkişaf etmiş patoloji sümük çıxıntısı

Osteogen nefropatiya (*nephropathia osteogena*) – sümük toxumasının dağılması ilə müşayiət olunan xəstəliklər zamanı böyrəklərin zədələnməsi, əhəngli metastazlar və nefronların proksimal şöbələrinin epitelində baş verən distrofik dəyişikliklərlə xarakterizə olunur

Osteogenez (*osteogenesis*) – sümük toxumasının əmələ gəlməsi

Osteoxondrit *(osteochondritis*; *osteo-* + yun. *chondros* qığırdaq*)* – sümüyün qığırdağa birləşən hissəsinin və qığırdağa yayılan iltihabı; bu xəstəlik zamanı diz oynağında olan qığırdaq oynağın səthlərindən tədriclə qopur, qığırdaq oynaqdan tam ayrıldıqda diz oynağı artıq işləmir

Osteoxondrolipoma (*osteochondrolipoma*) – *bax:* sümüyün mezenximoması

Osteoxondroliz *(osteochondrolysis*; *osteo-* + yun. *chondros* qığırdaq + *lysis* dağılma, parçalanma*)* – sümük və qığırdaq toxumasının lokal sorulması ilə gedən destruksiyası

Osteoxondroma *(osteochondroma)* – *bax:* sümük-qığırdaq ekzostozu

Osteoxondropatik kifoz – *bax:* Şeyermann-Mau xəstəliyi

Osteoxondropatiya *(osteochondropathia*; *osteo-* + yun. *chondros* qığırdaq + *pathos* xəstəlik*)* – xırda sümüyün süngər toxumasında aseptik nekroz toxumalarının yaranması ilə gedən və oynaqlarda sümüyün üzərini örtən qığırdaqların patoloji dəyişiklikləri ilə xarakterizə olunan xəstəlik; oynaq funksiyasının pozulması və zədələnmiş sümüyün deformasiyası ilə təzahür edir

Osteoxondroz *(osteochondrosis)* – fəqərəarası disklərdə sümük və qığırdaq toxumasında distrofik proses

Osteoid-xondroma (*osteoid-chondroma*) – *bax:* sümük-qığırdaq ekzostozu

Osteoid-osteoma *(osteoid-osteoma*; sin. kortikal osteoid*)* – kortikal təbəqədə yaranan, nidus (yuva) adlandırılan və reaktiv sümük toxuması ilə əhatə olunmuş xoşxassəli sümük törəməsi; ən çox uşaqlarda, xüsusən yeniyetmələrdə, 10-35 yaş arasında rast gəlinir; xəstəlik əsasən ətrafların uzun borulu sümüklərində (bud sümüyü proksimalında, qamış sümüyü diafizində) rast gəlinir və şiş nahiyəsində şişkinlik, hərəkət məhdudluğu ilə təzahür edir

Osteoklastoma (*osteoclastoma*) – *bax:* osteoblastoklastoma

Osteoliz *(osteolysis)* – sümük toxumasının məhdud sahəsinin digər toxuma ilə əvəz olunmadan sorulması

Osteologiya (*osteologia*) – anatomiyanın sümüklərin quruluşunu öyrənən bölməsi

Osteomalyasiya (*osteomalacia*; *osteo-* + yun. *malakia* yumşaqlıq) – sümüklərin yumşalması ilə xarakterizə olunan xəstəlik; əsasən kalsium-fosfat mübadiləsinin po-

zulması nəticəsində müşahidə olunur

Aclıq osteomalyasiyası – *bax:* alimentar osteodistrofiya

Bağırsaq osteomalyasiyası (o. intestinalis) – *bax:* bağırsaq osteodistrofiyası

Gənclik osteomalyasiyası (*o. juvenilis*) – yetkinlik dövründə endokrin sistemin disfunksiyası nəticəsində yaranan osteomalyasiya

Qaraciyər osteomalyasiyası (*o. hepatica*) – *bax:* qaraciyər osteodistrofiyası

Qocalıq osteomalyasiyası (*o. senilis*) – yaşlı şəxslərdə endokrin sistemin disfunksiyası nəticəsində yaranan osteomalyasiya

Puerperal osteomalyasiya (*o. puerperalis*; lat. *puerperium* doğumdan sonrakı dövr) – hamilə və süd verən qadınlarda endokrin sistemin disfunksiyası nəticəsində yaranan osteomalyasiya

Osteomedulloqrafiya – *bax:* medulloqrafiya

Osteometriya (*osteo-* + yun. *metreo* ölçmək) – sümüklərin ölçülmə üsullarının məcmusu

Osteomielit (*osteomyelitis*; *osteo-* + yun. *myelos* sümük iliyi) – patogen mikroflora tərəfindən törədilən, sümük, sümük iliyi və onları əhatə edən yumşaq toxumada baş verən irinli-nekrotik proses; sümük iliyinin iltihabı

Albuminoz osteomielit (*o. albuminosa*) – albumin və ya musinlə zəngin selikli-hemorragik ekssudatın əmələ gəlməsi ilə xarakterizə olunan birincili xroniki osteomielit

Birincili xroniki osteomielit (*o. primaria chronica*) – hiperplastik və sklerotik proseslərin üstünlüyü ilə gedən, tədricən inkişaf edən və ləng gedişatla xarakterizə olunan osteomielit formalarının ümumi adı

Fibroz osteomielit (*o. fibrosa*) – sümük iliyində sümük iliyi kanalını obliterasiya edən birləşdirici toxumanın əmələ gəlməsi ilə gedən birincili xroniki osteomielit

Fleqmonoz osteomielit (*o. phlegmonosa*) – prosesin geniş yayılması və sümük iliyinin nekrozu ilə xarakterizə olunan odlu silah və ya kəskin hematogen osteomielit

Xroniki hematogen osteomielit (*o. haematogena chronica*) – kəskin hematogen osteomielitin nəticəsi olaraq inkişaf edən osteomielit, irin yumşaq toxumalardan keçdikdən sonra proses sümükdə məhdudlaşır; irinli fistullar və sekvestrlərin olması ilə təzahür edir

Kəskin hematogen osteomielit (*o. haematogena acuta*) – infeksiya törədicisinin qan dövranı ilə sümüyə keçməsi nəticəsində əsasən uzun borulu sümüklərin metafizində irinli iltihab ocağının inkişaf etməsi ilə meydana çıxan osteomielit

Leproz osteomielit (*o. leprosa*) – cüzamın qranulematoz və qarışıq formalarında ətrafların xırda sümüklərinin osteomieliti

Odlu silah osteomieliti (*o. sclopetaria*) – odlu silahla yaralanma zamanı yaranan sınıqların infeksion ağırlaşması kimi meydana çıxan irinli osteomielit

Odontogen osteomielit (*o. odontogena*) – diş toxumalarında və ya parodontda olan iltihab ocağından irinli iltihab törədicisinin çənəyə keçməsi nəticəsində meydana çıxan osteomielit

Posttravmatik osteomielit (*o. posttraumatica*) – hər hansı bir travma nəticəsində meydana çıxan osteomielit

Revmatik osteomielit (*o. rheumatica*) – revmatizm zamanı meydana çıxan, ətrafların xırda sümükləri və fəqərələrin destruksiyası ilə xarakterizə olunan osteomielit

Sifilitik diffuz osteomielit (*o. syphilitica diffusa*) – üçüncülü sifilis zamanı meydana çıxan, periostit, osteoperiostit, osteoxondrit əlamətləri ilə xarakterizə olunan osteomielit

Şişəbənzər osteomielit (*o. tumoroidea*) – zədələnmələri sümük yenitörəmələri ilə oxşar olan birincili xroniki osteomielit, irinlənmə və sekvestrasiya müşahidə olunmur

Osteomielofibroz *(osteomyelofibrosis)* – sümük iliyi boşluqlarında qanyaradıcı toxumanı əvəz edən birləşdirici və sümük toxumalarının inkişaf etməsi, dalağın mieloid metaplaziyası ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik

Osteomieloqrafiya (*osteo-* + yun. *myelos* sümük iliyi + *grapho* yazmaq) – *bax:* medulloqrafiya

Osteomieloskleroz (*osteomyeloscleroslis*) – *bax:* ostemielofibroz

Osteomikoz *(osteomycosis)* – sümük toxumasının destruktiv və proliferativ dəyişikliyi ilə gedən mikozu

Osteon *(osteonum*; yun. *osteon* sümük*)* – sümüyün struktur vahidi; osteon kanalının ətrafında yerləşmiş osteosit və sümük lövhəcikləri sistemi; adətən osteon 5-20 sümük lövhəciklərindən ibarətdir, diametri 0,3-0,4 mm-dir

Osteon kanalı *(canalis osteoni)* – osteonun mərkəzində yerləşən və konsentrik yerləşmiş sümük lövhəciklərindən təşkil olunmuş kanal; tərkibində qan damarları, sinir lifləri və boş birləşdirici toxuma mövcuddur

Osteonefropatiya (*osteonephropathia*) – *bax:* osteogen nefropatiya

Osteopatiya *(osteopathia)* – 1) əsasən distrofik və ya displastik xarakterli sümük xəstəliklərinin ümumi adı; 2) ağrısız və dərmansız müalicə üsulu; əllərin qoyulması ilə aparılan bu diaqnostika üsulu özündə bir çox, eyni zamanda manual terapiyanı birləşdirən geniş bir sahəni əhatə edir; xəstəliyin diaqnostikası və müalicə yalnız həkimin əlləri ilə həyata keçirilir

Osteopetroz *(osteopetrosis*; *osteo-* + yun. *petra* daş*)* – kompakt maddənin qatının artması hesabına sümüyün qalınlaşması (daşlaşması)

Osteoporoz (*osteoporosis*; *osteo-* + yun. *poros* dəlik) – sümük toxumasının distrofiyası; sümüklərin sərtliyinin azalıb daha zəif və qırıla bilən hala gəlməsi ilə ortaya çıxan xəstəlik

Bərabər osteoporoz (*o. diffusa*) – bir və ya bir neçə sümüyün osteoporozu, bu zaman prosesin ayrı-ayrı ocaqları seçilmir

Hormonal osteoporoz (*o. hormonalis*) – onurğa sütununun əsasən döş və ya bel nahiyələrinin klimaksla əlaqədar inkişaf edən osteoporozu

Qocalıq osteoporozu – *bax:* yaş osteoporozu

Posttravmatik osteoporoz (*o. posttraumatica*) – sümük-oynaq aparatının hər hansı bir hissəsinin zədələnməsindən 10-20 gün sonra meydana çıxan regionar osteoporoz

Regionar osteoporoz (*o. regionalis*) – müəyyən anatomik nahiyənin

(məs., hər hansı bir oynağı əmələ gətirən sümüklər) sümüklərinin osteoporozu

Sistemli osteoporoz (*o. systemica*; sin. ümumi osteoporoz) – skeletin bütün və ya əksər sümüklərinin osteoporozu

Yaş osteoporozu (sin. qocalıq osteoporozu) – adətən 50-60 yaşdan sonra inkişaf edən osteoporoz

Yayılmış osteoporoz – müəyyən ətrafın bütün sümüklərinin osteoporozu

Yerli osteoporoz (*o. localis*) – sümüyün məhdud hissəsinin osteoporozu

Osteopoykiliya *(osteopoikilia*; yun. *poikilia* ala-bəzəkli, xallı; sin. osteopoykiloz*)* – borulu sümüklərin inkişafının anadangəlmə pozulması; rentgenoloji olaraq epifizlərdə kiçik sümük adacıqlarının aşkar edilməsi

Osteopoykiloz (*osteopoikilosis*) – *bax:* osteopoykiliya

Osteosintez *(osteosynthesis*; *osteo* + yun. *synthesis* birləşmə*)* – sümük parçalarının cərrahi üsulla birləşdirilməsi və təsbitedici vasitələrin köməyilə onların hərəkətliliyinin aradan qaldırılması

Ocaqdankənar osteosintez (*o. extrafocalis*) – bu növ osteosintez zamanı təsbitedici vasitələrin bərkidilmə nöqtələri sümüyün zədələnmə yerindən kənarda yerləşir

Sümükdaxili osteosintez (*o. intraossea*) – təsbitedici material hər iki sümük parçalarının sümük iliyi boşluğuna yeridilməklə icra olunan osteosintez

Sümükdən keçən osteosintez (*o. perossea*) – sümük parçalarından keçirilmiş metal mil və ya mismar vasitəsilə onların bir-birinə sərt bağlanması və xüsusi aparatlar vasitəsilə təsbit edilməsi

Osteosintez üçün Sivaş dəsti (K.M. Sivaş, sov. cərrah-ortopedi) – sümüküstü osteosintez üçün alət və qurğular dəsti; dəstə daxildir: sümük parçalarının eyni anda sıxılmasını təmin etmək üçün iki ölçüdə olan sümük tutucusu, lövhəciklər, vintlər, matqab və digər əşyalar

Osteoskleroz *(osteosclerosis*; sin. sümüyün sklerozu*)* – subxondrial sümüklərin bərkiməsi; sümük arakəsmələrinin sayının artması, qalınlaşması, sümük iliyi boşluqlarının deformasiyası və azalması ilə xarakterizə olunan sümüyün strukturunda baş verən dəyişikliklər; rentgenoloji müayinədə aşkar edilir

Diffuz osteoskleroz (*o. diffusa*) – əsasən borulu sümüklərin diafizar hissəsinin bərabər inkişaf etmiş osteosklerozu; məs., xroniki osteomielitlər zamanı müşahidə olunur

Məhdud osteoskleroz (*o. localisata*; sin. ocaqlı osteoskleroz) – sümüyün nisbətən kiçik hissəsinin osteosklerozu; adətən sümük toxumasının iltihab ocağında regenerasiyasının nəticəsidir

Ocaqlı osteoskleroz (*o. focalis*) – *bax:* məhdud osteoskleroz

Sistemli osteosklerozu (*o. systemica*) – skeletin bütün sümüklərinin osteosklerozu; məs., mərmər xəstəliyi, leykoz zamanı təsadüf olunur

Yayılmış osteoskleroz – eyni zamanda bir neçə sümüyün və ya skeletin bütöv bir hissəsinin osteosklerozu

Osteotomiya *(osteotomia)* – cərrahi əməliyyat: sümüyün kəsilməsi

Açıq osteotomiya (*o. aperta*) – əməliyyat sahəsinin açılaraq görmə

nəzarəti altında icra olunan osteotomiya

Bardengeyer osteotomiyası (B. Bardenheuer, 1839-1913, alm. cərrahı) – dirsək sümüyünün distal ucundan "çəngəlin" formalaşdırılması və bilək sümüklərinin proksimal cərgəsindəki yarığa daxil edilməsi; mil-bilək oynaqlarındakı əyriliyin müalicəsində tətbiq edilir

Derotasion osteotomiya – sümük seqmentinin və ya ətrafın patoloji rotasiyasının düzəldilməsi məqsədilə icra olunan osteotomiya

Kondilusüstü osteotomiya (*o. epicondylaris*) – bud sümüyünün kondilusüstü hissəsində icra olunan osteotomiya

Köndələn osteotomiya (*o. transversa*) – sümüyün boylama oxuna perpendikulyar səthdə icra olunan osteotomiya

Qapalı osteotomiya (*o. clausa*) – dəri və yumşaq toxumaların kiçik xətti kəsiyindən daxil edilmiş osteotom vasitəsi ilə icra olunan osteotomiya

Olbi osteotomiyası – *bax:* Olbinin sümük plastikası

Pazşəkilli osteotomiya (*o. cuneiformis*) – bucaq altında yerləşən iki müstəvidə sümük pazının kənar edilməsi ilə icra olunan osteotomiya

Pertes osteotomiyası (G.C. Perthes, 1869-1927, alm. cərrahı) – baldırın varus əyriliyini düzəltmək məqsədilə icra olunan qamış sümüyünün şarnir osteotomiyası

Repke osteotomiyası (K. Ropke, 1873-1945, alm. cərrahı) – uzunborulu sümüklərin deformasiyaları zamanı tətbiq olunan və sümüyün bucaq əmələ gətirən iki müstəvidə kəsilməsi ilə aparılan osteotomiya

Seqmentar osteotomiya (*o. segmentalis*) – sümüyün bir neçə seqmentə bölünməsi və lazımlı vəziyyətdə tutuşdurularaq təsbit edilməsi

Sümük-plastik osteotomiyası (*o. osteoplastica*) – sümük transplantatının formalaşdırılması ilə aparılan osteotomiya; transplantat elə yerləşdirilir ki, seqmentləri birləşdirərək sümüyün kəsik xəttini örtsün

Şpringer osteotomiyası – əyilmiş ətrafların qüsurunun aradan qaldırılması üçün icra olunan cərrahi əməliyyat

Təshihedici osteotomiya (*o. corrigens*) – sümük deformasiyasını aradan qaldırmaq məqsədilə icra olunan osteotomiya

Topuqüstü osteotomiya (*o. surpamalleolaris*) – baldır sümüklərinin osteotomiyası, bilavasitə topuqlar üzərində icra olunur

Ostiofollikulit *(ostiofolliculitis*; lat. *ostium* giriş + *follikulit)* – tük follikulunun genişlənmiş səthi hissəsinin (qıf hissəsi) iltihabı ilə məhdudlaşan follikulit

Ostit *(ostitis)* – sümüyün kompakt maddəsinin iltihabı

Çoxsaylı ostit (*o. multiplex*) – *bax:* Morozov-Yunqlinq ostiti

Çoxsaylı tuberkuloid ostiti (*o. multiplex tuberculoidea*) – *bax:* Morozov-Yunqlinq ostiti

Deformasiya edən ostit (*o. deformans*) – *bax:* deformasiya edən ostoz

Kistoz ostit (*o. cystica*) – sümüklərdə bir və ya çoxsaylı sistlərin əmələ gəlməsi ilə xarakterizə olunan ostit

Qummoz ostit (*o. gummosa luetica*) – sifilisin III dövründə (üçüncülü sifilis) baş verən və qummaların

əmələ gəlməsi ilə xarakterizə olunan ostit

Lokal fibroz ostit (*o. fibrosa localis*) – *bax:* fibroz osteodisplaziya

Ossifikasiya edən ostit (*o. ossificans*) – sümük toxumasının qalınlaşması ilə xarakterizə olunan ostit

Rarefikasiyaedən ostit (*o. rareficiens*) – osteoporozla xarakterizə olunan ostit

Revmatik ostit (*o. rheumatica*) – revmatizm zamanı əsasən bilək və ayaq sümüklərində təsadüf olunan xırdaocaqlı ostit

Ostmanın piy cismcikləri (P.Ostmann, 1859-?, alm. otorinolarinqoloqu) – eşitmə borusu qığırdağını bərkidən vətər bağlarının, selikli qişanın və əzələ liflərinin arasında yerləşən boruya elastiklik verən anatomik cismciklər

Ostrakonofobiya (*ostraconophobia*) – molyusklardan qorxma

O'Şonessi omentokardiopeksiyası (L.O'Shaughnessy, 1900-1940, ing. cərrahı) – *bax:* omentokardiopeksiya

O-şəkilli ayaqlar – aşağı ətrafların *genu varum* (yayşəkilli ayaqlar) şəklində deformasiyası: bu cür ayaq əyriliyi olan uşaq ayaqlarını cüt tutaraq ayaq üstə durduqda, baldırlar və dizlər arasında "O" hərfini xatırladan məsafə diqqətə çarpır, bu, ayaqlardan birinin və ya hər ikisinin çölə doğru əyilməsi nəticəsində baş verir; bu tip ayaq əyriliyinin səbəbi Blount xəstəliyi və ya raxit xəstəliyidir

Otalgiya (*otalgia*) – qulaq seyvanı və xarici qulaq keçəcəyi nahiyəsində ağrı

Otan fenomeni (A. L. E. Hautant, 1877-1947; frans. həkimi) – xəstənin oturmuş və gözləri bağlı vəziyyətində önə uzanmış əllərinin vestibulyar analizatorun periferik hissəsinin zədələnmiş tərəfinə doğru əyilməsi

Otematoma *(othaematoma)* – qulaq seyvanının qığırdaq və qığırdaqüstlüyü arasında yerləşən hematoması

Othematoma (*othaematoma*) – *bax:* otematoma

Otit (*otitis*) – xarici, orta və daxili qulağın iltihabı

Adgeziv otit (o. adhaesiva) – təbil boşluğu və ilbizdə bitişmələrin əmələ gəlməsi ilə xarakterizə olunan otit

Daxili otit – *bax:* labirintit

Ekssudativ orta otit – təbil boşluğunda təzyiqin azalması nəticəsində seroz mayenin və ya seliyin toplanması ilə gedən orta otit

Xarici hemorragik otit *(o. externa haemorrhagica)* – xarici qulaq keçəcəyi divarında və təbil pərdəsində tərkibində qan olan qovuqcuğun əmələ gəlməsi ilə gedən xarici otit (əsasən qrip zamanı təsadüf edilir)

Xarici qranulyasiyaedən otit *(o. externa granulans)* – xarici qulaq keçəcəyi divarında, bəzi hallarda təbil pərdəsində qranulyasion toxumanın əmələ gəlməsi ilə gedən xarici otit

Xarici məhdud otit *(o. externa circumscripta)* – xarici qulaq keçəcəyinin qığırdaq-pərdə nahiyəsinin piy vəzilərinin və tük kisəciklərinin zədələnməsi ilə gedən xarici otit

Xarici otit *(o. externa)* – xarici qulaq keçəcəyi və qulaq seyvanının iltihabı

Xronik adgeziv orta otit (*o. media chronica adhaesiva*) – keçirilmiş

irinli otitin nəticəsi olaraq təbil boşluğunda çapıqların, bitişmələrin yaranması

Xroniki irinli orta otit (*o. media purulenta chronica*) – orta qulağın adekvat müalicə almamış kəskin iltihabından sonra meydana gələn xroniki irinli prosesi

Xroniki orta irinli otit (o. media purulenta chronica) – təbil pərdəsinin deşilməsi, qulaqdan daim irinin axması və eşitmənin zəifləməsi ilə xarakterizə olunan orta otit

Xroniki orta kataral otit *(o. media catarrhalis chronica)* – təbil boşluğunda birləşmələrin əmələ gəlməsi ilə xarakterizə olunan orta otit (burun və burun-udlağın xroniki xəstəlikləri zamanı Yevstax borusunun keçiriciliyinin pozulması nəticəsində baş verir)

Xroniki orta kataral otit (o. media catarrhalis chronica) – təbil boşluğunda bitişmələrin əmələ gəlməsi ilə xarakterizə olunan orta otit; burun və burun-udlağın xroniki xəstəlikləri (hipertrofik rinit, poliplər və s.) zamanı eşitmə (Yevstax) borusunun keçməməzliyi zamanı əmələ gəlir

Kəskin orta irinli otit *(o. media purulenta acuta)* – təbil boşluğunun selikli qişasının kəskin ödemi və irinli ekssudatı ilə xarakterizə olunan orta otit

Kəskin orta irinli otit (o. media purulenta acuta) – təbil boşluğunun selikli qişasının ödemi, infiltrasiyası və irinli ekssudatın əmələ gəlməsi ilə xarakterizə olunan orta otit

Kəskin orta kataral otit *(o. media catarrhalis acuta)* – təbil boşluğunda transsudatın əmələ gəlməsi ilə xarakterizə olunan orta otit (adətən prosesin burun boşluğu və burun udlaqdan keçməsi nəticəsində baş verir)

Kəskin orta kataral otit (o. media catarrhalis acuta) – təbil boşluğunda transsudatın əmələ gəlməsi ilə xarakterizə olunan orta otit; iltihab prosesinin burun boşluğundan və ya burun-udlaqdan yayılması nəticəsində baş verir

Kontuzion otit *(o. contusione)* – partlayış dalğasının təsirindən təbil pərdəsinin deşilməsi nəticəsində yaranan otit

Mukoz otit (köh. *Streptococcus mucosus*) – orta otitin selikli streptokokk tərəfindən törədilən, əsasən, yaşlılarda təsadüf edilən forması

Orta allergik otit *(o. media allergica)* – allergik reaksiyalar nəticəsində orta qulağın selikli qişasının residiv verən ödemi, eozinofil infiltrasiyası və çox miqdarda selikli ifrazatın olması ilə gedən orta otit

Orta meninqokokk otiti *(o. media meningococcica)* – meninqokokk infeksiyasının ilk günlərində təbil boşluğu divarı selikli qişasının nekrozu ilə nəticələnən kəskin kataral otit

Orta otit *(o. media)* – orta qulaq boşluğunun selikli qişasının zədələnməsi ilə gedən otit

Yapışan otit (o. *adhaesiva*) – *bax:* xroniki adgeziv orta otit

Yayılmış xarici otit *(o. externa diffusa)* – xarici qulaq keçəcəyinin bütün təbəqələrinin, əksər hallarda təbil pərdəsinin də zədələnməsi ilə gedən xarici otit

Oto – (ot-; yun. *otos* qulaq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "qulağa, eşitmə orqanına, eşitməyə aid" mənasını verir

Otoantrit (*otoantritis*) – *bax:* antrit

Otoaudion (tarixi; *oto-* + lat. *audio* eşitmək) – eşitmə itiliyini təyin etmək üçün cihaz; audiometrin sələfi

Otogen mənşəli başgicəllənmə – daxili qulaq patologiyası ilə bağlı başgicəllənmə

Otogen (*otogenus*) – qulaqla, qulaqda baş verən hər hansı bir proseslə əlaqəli

Otokalorimetr (*oto-* + lat. *calor* isti + yun. *metreo* ölçmək) – vestibulyar aparatın funksiyasını nistaqmın davametmə müddətinə görə müəyyən edən cihaz; xarici qulaq keçəcəyinə eyni miqdarda isti və ya soyuq suyun tökülməsi ilə müəyyən edilir

Otookulorenal sindrom – *bax:* Alport sindromu

Otolit – qulaq daşı

Otolit zarı – zarlı labirintdə ellipsəbənzər və sferik kisəcik ləkələrinin epitelini örtən, kalium karbonat kristalları və nazik liflərdən ibarət zar

Otomikoz – xarici qulaq keçəcəyi dərisinin göbələk xəstəliyi

Otonevrologiya *(otoneurologia)* – nevropatologiya və otorinolarinqologiyanın baş beyin xəstəlikləri və zədələnmələri zamanı vestibulyar, eşitmə və qoxu analizatorlarının zədələnmə əlamətlərinin, udlağın hərəki innervasiyasının pozğunluqlarının mərkəzi sinir sisteminin hansı səviyyədə zədələnməsinin nəticəsi olduğunu araşdıran bölməsi

Otoplastika *(otoplastica)* – qulaq seyvanının plastik əməliyyatı

Proskulyakov otoplastikası – qüsurlu qulaq seyvanının ayaqcıq üzərində dəri loskutu ilə bərpa edilməsi cərrahi əməliyyatı

Otoreya *(otorrhoea)* – təbil pərdəsinin perforasiyası zamanı qulaqdan ifrazatın axması (məs., irin və ya qan)

Otorinolarinqologiya *(otorhinolaryngologia)* – klinik təbabətin qulaq, burun, burunətrafı ciblər, udlaq və qırtlağın xəstəliklərinin etiologiyasını, patogenezini, diaqnostikasını, müalicəsini və profilaktikasını öyrənən bölməsi

Otorinolarinqoloji kreslo – otorinolarinqoloji müayinə və əməliyyat aparmaq məqsədilə xəstənin başını saxlamaq üçün lazım olan əlavə, dirsək altlıqları, ayaqaltı, qaldırıcı və çöndərici mexanizmlərlə təchiz olunmuş xüsusi kreslo

Otorinolarinqoloq – qulaq-burun-boğaz həkimi

Otorinolarinqonevrologiya – *bax:* otonevrologiya

Otosalpinqoskop – burun-udlağa yeridilməklə eşitmə borusu dəliyini müayinə etmək üçün tibbi endoskop

Otoskleroma *(otoscleroma)* – xarici qulaq keçəcəyində və təbil boşluğunda infiltratların əmələ gəlməsi ilə xarakterizə olunan skleroma

Otoskleroz (*otosclerosis*) – daxili qulağın labirint kapsulunun kövşək hissəsinin sümük toxumasının əvəz olunması

Otoskop – qulaq güzgülərinin ümumi adı

Otoskopiya – qulaq güzgüsü və işıqlandırıcının köməyi ilə xarici qulaq keçəcəyinin və təbil pərdəsinin (pərdənin deşilməsi zamanı isə təbil boşluğunun) müayinəsi

Otospongioz – *bax:* otoskleroz

Ototoksik maddə – eşitməyə təsir göstərən maddə

Ototopika – dinləməklə səsin istiqamətinin təyin edilməsi

Oturaq anticismlər – *bax:* sessil anticismlər

Oturaq vanna – xəstənin bədənini belə qədər əhatə edən vanna

Oval dəliyin açıq qalması (*difectus septi atriocum)* – qulaqcıqlar arasındakı dəliyin açıq qalması

Oval pəncərə – *bax:* dəhliz pəncərəsi

Ovarialgiya (*ovarialgia*) – yumurtalıqların nevralgiyası, yumurtalıq nahiyəsində ağrı

Ovariotomiya (*ovariotomia*; anat. *ovarium* yumurtalıq + yun. *tome* kəsik) – yumurtalığın kənar edilməsi

Ovalosit (*ovalocytus*; frans. *ovale* oval) – ovalşəkilli eritrosit

Ovren xəstəliyi (P.A. Owren, norveç hematoloqu; sin. hipoakselerinemiya) – hemorragik diatez qrupundan olan irsi xəstəlik, qanın laxtalanma sisteminin V faktorunun çatışmazlığı nəticəsində meydana çıxır; klinik təzahürləri hemofiliya xəstəliyi ilə analojidir

Ovren trombotesti (P.A. Owren) – kalsium xlorid məhlulunun təsirindən plazmada yaranan fibrin laxtasının həcminə görə plazmanın koaqulyasion qabiliyyətinin vizual təyin edilməsi üsulu

Ovuc fassiektomiyası – *bax:* Dyupyuitren əməliyyatı

Ovuc fassiti (*fascitis palmaris*) – Dyupyuitren kontrakturasına səbəb olan ovuc apanevrozunun zədələnməsi ilə ovuc fassiyasının iltihabı

Oyanma (*excitatio*) – psixiatriyada: psixi və hərəki aktivliyin kəskin artması ilə müşahidə olunan psixopatoloji halların ümumi adı

Amentiv oyanma (e. amentialis; lat. *amentio* dəlilik, ağılsızlıq) – düşüncə pozuntusu fonunda oyanma; xəstələr çaşqın halda olurlar, dedikləri söz həqiqətə uyğun olmur, hərəkətləri stereotip xarakter daşıyır

Epileptik formalı oyanma (e. epileptiformis) – affektiv oyanıqlıq və qəddarlıqla müşayiət olunan hərəki oyanma, düşüncənin kütləşməsi və disforiya ilə baş verən oyanma

İmpulsiv oyanma (e. impuisiva) – qəflətən baş verən katatonik oyanma nəticəsində xəstə özündən çıxaraq dağıdıcı, aqressiv durum yaradır

Katatonik oyanma (e. catatonica) – ədalı, qəribə, impulsiv, əlaqəsiz, bəzən ritmik hərəkətlərlə təzahür edən oyanma halıdır, xəstənin nitqi anlaşılmaz olur

Maniakal oyanma (e. maniacalis) – affektiv pozuntular zamanı meydana çıxan, ümumi fəallığın, o cümlədən intellektual fəallığın artması ilə xarakterizə olunan psixomotor oyanma

Oyadıcı mediator – postsinaptik membranda depolyarizasiya yaradan və oyadıcı postsinaptik potensialın əmələ gəlməsini təmin edən mediator

Oyanıqlıq – ixtisaslaşmış toxumanın oyadıcı qıcığa cavab reaksiyası (sinir, əzələ, vəz)

Oyanma ocağı – mərkəzi sinir sisteminin yaxın yerləşmiş və eyni zamanda fizioloji aktiv olan sinir elementləri

Oykofobiya (yun. *oikos* ev, *phobos* qorxu) – ev şəraitindən, evdən qorxma

Oynağın fleqmonası (*phlegmone articulationis*) – *bax:* panartrit

Oynaq *(articulatio)* – tərkibində sinovial maye olan, oynaq boşluğu ilə

əlaqələnən sümüklərin hərəkətli birləşməsi

Oynaq başı *(caput articulare)* – qabarıq oynaq səthi olan sümük hissəsi

Oynaq cismcikləri *(corpuscula articularia)* – oynaq kapsulunda yerləşən proprioreseptorlar

Oynaq diski *(discus articularis)* – bəzi oynaqların oynaq səthləri arasında yerləşən, amartizator rolunu oynayan qığırdaq törəmə

Oynaq dodağı *(labium articulare)* – oynaq çuxurunun kənarlarına bitişərək oynaq səthinin sahəsini artıran üzüyəbənzər qığırdaq törəmə

Oynaq xondromatozu *(chondromotosis articulationis)* – oynaq kapsulunun sinovial qatının xoşxassəli şişi

Oynaq kapsulu *(capsula articularis)* – oynaq səthlərinin kənarlarına bitişən, oynağı əmələ gətirən sümüklərin uclarını əhatə edən birləşdirici toxumadan təşkil olunmuş kapsul

Oynaq qığırdağı *(cartilago carticularis)* – sümüyün oynaq səthini daxildən örtən hialin və ya qığırdaq toxuması

Oynaq səthi *(facies articularis)* – oynağı əmələ gətirən sümüklərin oynaq qığırdağı ilə əhatə olunan hissəsi

Oynaq yarığı – rentgenoqrammada oynağı əmələ gətirən sümüklər arasında aşkar olunan şəffaf sahə

Oynaqların blokadası – kəskin başlayan və ağrı nəticəsində hərəkəti məhdudlaşdıran vəziyyət (zədələnmiş meniskin «boğulması» nəticəsində)

Oynaqların hidropsu – *bax:* hidrartroz

Oynofobiya (*oenophobia*) – günah işlətməkdən qorxma

Ozena (*ozena***)** – burun selikli qişasının quruluğu, tənəffüsün çətinləşməsi, qoxu qabiliyyətinin itirilməsi və üfunətli göyümtül sekresiyanın olması ilə gedən rinit

Ozena çöpləri (*Klebsiella ozaenae*) – kapsula ilə əhatə olunmuş hərəkətsiz qrammənfi çöplərdir, insanda ozena xəstəliyinin törədiciləri

Ozonator – havanı ozonla zənginləşdirən aparat; havanı zərərsizləşdirmək üçün tətbiq olunur

Ozostomiya – ağızdan pis qoxu gəlməsi

Ö

Öd *(bilis, fel)* – qaraciyərin vəzili hüceyrələrinin fasiləsiz olaraq hasil etdiyi sekretdir, tərkibində hemoqlobin və digər porfirinlərin (bilirubin), xolesterinin (öd turşuları) maddələr mübadiləsinin son məhsulları, həmçinin fizioloji aktiv maddələr (hormonlar, vitaminlər və s.) olur; bağırsaqda lipidlərin parçalanması və sorulmasında vacib rol oynayır

Öd axarları *(ductus biliferi)* – ödü qaraciyərdən və öd kisəsindən onikibarmaq bağırsağa aparan axacaqlar

Qaraciyərdaxili öd axarları – qaraciyər toxumasında yerləşirlər; öd kapilyarlarından başlayıb, pay axacaqlarına qədər olan yollardır, kapilyar, paycıq, seqment, sektor axacaqlarını əhatə edir

Qaraciyərxarici öd axarları – qaraciyərin xaricində yerləşirlər; sağ və sol qaraciyər axacaqları, haça, ümumi qaraciyər axacağı, ümumi öd axarı, kisə axarı və öd kisəsi, Oddi sfinkterini əhatə edir

Öd kapillyarı *(canaliculus bilicapillaris)* – hepatositlərin səthlərinin əmələ gətirdiyi hüceyrələrarası yarıq; öd kapillyarı ilə öd payarası öd axarına axır

Öd kisəsi *(vesica fellea)* – həzm sisteminin boşluqlu orqanı olub, qaraciyərin sağ payının visseral səthində yerləşir; üç hissədən ibarətdir: dibi, cismi, boynu; öd kisəsində öd toplanır, daha sonra ümumi öd axarına və onikibarmaq bağırsağa axır

Öd kisəsinin empieması (*empyema vesicae felleae*) – öd kisəsinə xeyli miqdarda irinin toplanması ilə müşayiət olunan kəskin irinli xolesistit; kəskin xolesistitin ağırlaşması

Öd kisəsinin xolesterozu *(cholesterosis vesicae felleae)* – orqanizmdə yağların mübadiləsinin pozulması nəticəsində öd kisəsinin divarında xolesterinin toplanması ilə xarakterizə olunan və onun yığılma qabiliyyətinin pozulması əlamətləri ilə təzahür edən xəstəlik; əsasən orta yaşlı qadınlarda ateroskleroz (arteriyaların xroniki xəstəliyi) fonunda rast gəlinir

Öd kolikası (*colica biliaris*) – sağ qabırğaaltı nahiyədə fasiləli, residivverən və heç bir müdaxilə olunmadan öz-özünə aradan qalxan ağrı; öddaşı xəstəliyinin əsas sindromudur, xolesistit zamanı da müşahidə olunur

Öd trombu *(thrombus biliaris)* – obturasion sarılıq zamanı qaraciyərdaxili öd axarının mənfəzində əmələ gələn öd laxtası

Öd yollarının diskeniziyası – öd yollarının tonus və motorikasının pozulması; öd axarlarının durğunluğu ödün qaraciyər və öd kisəsindən onikibarmaq bağırsağa axmasının pozulması ilə təzahür edir

Ödem mayesi (*liquor oedematicus*) – *bax:* transsudant

Ödem *(oedema)* – su mübadiləsinin pozulması nəticəsində bədən boşluqlarında və toxumalarda suyun toplanması

Allergik ödem *(o. allergicum)* – allergik maddələrin təsiri nəticəsində meydana çıxan ödem (məs., angionefrotik, həşərat dişləməsi zamanı)

Anafilaktoid ödem *(o. anaphylactoideum)* – anafilaktik reaksiyanın komponenti kimi meydana çıxan ödem

Böyrək ödemi *(o. renale)* – böyrək zədələnmələri zamanı suyun və natriumun bədəndə həddən artıq saxlanılması və zülal itkisi ilə əlaqədar meydana çıxan ödem

Bulyoz ödem *(o. bullosum)* – epidermisin altına maye yığılması nəticəsində qabarcıqların əmələ gəlməsi ilə gedən ödem (məs., ikinci dərəcəli yanıq və donmalarda)

Dərinin isterik ödemi *(o. cutis hystericum)* – isteriyalar zamanı dəridə meydana çıxan ağrılı ödem

Dərinin kompakt ödemi *(o. cutis compactum)* – dərinin bərkiməsi, solğun və parıltılı olması ilə xarakterizə olunan ödem (məs., sistem sklerodermiya zamanı)

Dərinin onkotik ödemi (*o. oncoticum cutis*) – hipoproteinemiya zamanı qanın onkotik təzyiqinin enməsi nəticəsində meydana çıxan ödem

Durğunluq ödemi *(o. congestivum)* – venoz qan və limfa axınının çətinləşməsi nəticəsində meydana çıxan ödem

Gizli ödem *(o. latens)* – gözlə görünməyən, yalnız xüsusi sınaqlar nəticəsində aşkar edilən ödem (məs., dəri altına fizioloji məhlulun köçürülməsi, bədən çəkisinin artması)

Hipotireoid ödemi *(o. hypothyreoideum)* – hipotireozlu xəstələrdə dəri altına tərkibində mussinəbənzər maddələr olan mayenin yığılması

İltihabi ödem *(o. inflammatorium)* – damar keçiriciliyinin artması nəticəsində iltihab ocağında inkişaf edən ödem

İndurativ ödem *(o. indurativum)* – venoz qan və limfa axınının pozulması nəticəsində bədənin bəzi nahiyələrinin bərk konsistensiya alması ilə nəticələnən ödem

İntermittəedici ödem *(o. intermittens)* – təkrar tutmalar şəklində təzahür edən ödem (məs., allergik ödem)

İnterstisial ödem *(o. interstitiale)* – intersistial toxumanın ödemi (məs., iltihab zamanı)

Kaxektik ödem *(o. cachecticum)* – orqanizmin üzülmə halında ürək fəaliyyətinin zəifləməsi, damar keçiriciliyinin pozulması nəticəsində inkişaf edən ödem

Kolloid-osmotik ödem *(o. colloido-osmoticum)* – *bax:* dərinin onkotik ödemi

Limfatik ödem *(o. lymphaticum)* – limfa damarlarının spazmı, tutulması, limfa əmələ gəlmənin surətlənməsi nəticəsində meydana çıxan limfa durğunluğu zamanı yaranan ödem

Marantik ödem *(o. maranticum)* – *bax:* kaxektik ödem

Mexaniki ödem *(o. mechanicum)* – limfa və qan axınına mane olan mexaniki faktorların təsirindən yaranan ödem

Membranogen ödem *(o. membranogenum)* – kapilyar keçiriciliyinin artması nəticəsində meydana gələn ödem

Nevrogen ödem *(o. neurogenum)* – sinir sisteminin funksional pozğunluğu nəticəsində meydana çıxan ödem

Onkotik ödem *(o. oncoticum)* – hipoproteinemiya zamanı qanın onkotik təzyiqinin aşağı düşməsi nəticəsində yaranan ödem

Osmotik ödem *(o. osmoticum)* – toxuma mayesində osmotik təzyiqin artması nəticəsində meydana çıxan ödem

Refrakter ödem – *bax:* gizli ödem

Toksik ödem *(o. toxicum)* – toksik maddələrin təsirindən damar keçiriciliyinin artması nəticəsində meydana çıxan ödem

Travmatik ödem *(o. traumaticum)* – toxumanın mexaniki zədələndiyi nahiyədə meydana çıxan ödem

Ödqovucu vasitələr – ödün əmələ gəlməsini sürətləndirən (xoleretiklər) və ya ödün onikibarmaq bağırsağa ifraz olunmasına kömək edən (xolekinetiklər) dərman maddələri

Ödlü qusma sindromu – *bax:* gətirici ilgək sindromu

Öküz soliteri – lentşəkilli qurdlar sinfinə aiddir, uzunluğu 4-10 m-dir; insanlarda teniarinxroz xəstəliyinin törədicisidir; yaxşı qaynadılıb bişirilməmiş və ya qızdırılmamış mal ətində olur

Öküz ürəyi *(cor bovinum)* – nəzərəçarpan dərəcədə kardiomeqaliya (ürəyin ölçülərinin həddindən artıq böyüməsi)

Ölü barmaqlar simptomu – *bax:* akroasfiksiya

Ölüm *(mors, letalis, exitus)* – canlı orqanizmin həyat fəaliyyətinin, yaşamaq qabiliyyətinin sona çatması

«Ölüm əlcəyi» – bir müddət suda qalmış meyitin bilək nahiyəsinin masserasiya olmuş dərisinin dırnaqlarla birgə lay-lay soyulması

Ölüm göstəricisi (*letalis*) – müəyyən zaman intervalında hər hansı bir xəstəlikdən ölmüş xəstələrin bu xəstəliyə tutulmuş xəstələrin sayına nisbətini göstərən statistik göstərici

Ölüm haqqında həkim şəhadətnaməsi – müalicə həkiminin və ya ölmün səbəbini müəyyənləşdirən həkim tərəfindən ölmün qeydə alınma və səbəbi haqqında tərtib etdiyi qeydiyyat sənədi

Ölümdən sonrakı zədələr *(laesio postmortales)* – məhkəmə-tibbi ekspertizası tərəfindən aşkar olunan, ölüm baş verdikdən sonra yetirilmiş zədələr

Ön atlas-ənsə membranı *(membrana atlanto occipitalis anterior)* – kəllənin böyük ənsə dəliyinin kənarlarından birinci boyun fəqərəsinin ön qövsünə gedən birləşdirici toxuma membranı

Ön boyun nahiyəsi (*regio cervicalis anterior*; sin. **ön boyun üçbucağı***)* – boyunun *ön* hissəsi, yuxarıdan aşağı çənə sümüyü, aşağıdan – döş sümüyünün dəstəyi, yanlardan – döş-körpücük-məməyəbənzər əzələnin ön kənarları ilə məhdudlaşır

Ön boyun üçbucağı (*trigonum cervicale anterius*) – *bax:* ön boyun nahiyəsi

Ön damaq qövsü (*arcus palatinus anterior*) – *bax:* damaq-dil qövsü

Ön embriotokson *(embryotoxon anterius)* – güzehli qişanın səthi və orta qatlarında yerləşən embriotokson

Ön xəlbir dəliyi (*foramen ethmoidale anterius*) – kəllə boşluğuna aparan göz yuvasının medial divarındakı kanal; ön xəlbir siniri və eyniadlı damarların keçdiyi yer

Ön qabırğa sindromu (sin. "sürüşən" qabırğa sindromu) – intensiv şiddətli ağrılar, X qabırğanın (bəzən VIII və IX qabırğaların) qabırğa qıığırdağının ön ucunun hiperhərəkətliliyi; travma nəticəsində təkrar burxulma ilə bağlıdır

Örtük simptomu – meningit zamanı xəstənin üstünü açmaq istədikdə qeyri-iradi olaraq örtüyü üzərində saxlamağa cəhd etməsi

Öskürək simptomu (sin. Kuşnirenko simptomu; В.И. Кушниренко) – öskürək zamanı xəstə ağrı olan nöqtəni göstərir; ağrı simptomlarının (apendisit, peritonit və s.) müəyyən edilməsi üçün istifadə olunan simptomlardan biri

Öskürək təkanı simptomu – qarın yırtıqları zamanı xəstə öskürərkən yırtıq qapısı nahiyəsində təkanın, qabarmanın ortaya çıxmasını, böyüməsini və ya hərəkətli strukturu görmə və ya palpator hiss etmə

Öskürək bayğınlığı – *bax:* bettolepsiya

Öskürək-beyin sindromu – *bax:* bettolepsiya

Öskürək-bayğınlıq sindromu – *bax:* bettolepsiya

Övrə *(urticaria)* – dərinin və selikli qişaların allergik xəstəliyi; qaşınma və dərinin ödemi nəticəsində köpüşüklü səpgilərin əmələ gəlməsi ilə xarakterizə olunur

Günəş övrəsi (*u. solaris*) – günəşin təsiri nəticəsində dəridə köpəşmə

Xolinergik övrə (*u. cholinergica*) – həddindən artıq yorulma, əsəbi gərginlik zamanı xolinergik mexanizmlərin aktivləşməsi ilə əlaqədar inkişaf edən övrə

Soyuq övrə (*u. e frigore*) – soyuğun təsiri nəticəsində əmələ gələn övrə

Özündəngetmə – *bax:* bayılma

Özünə təlqin etmə – şəxsin öz-özünə etdiyi təlqin vasitəsilə aparılan psixoterapevtik müalicə üsulu; hər hansı bir düşüncələrin, istəklərin, duyğuların, əhvalın öz-özünə təlqin etmə üsulu

Özünü günahlandırma – ruhi xəstələrdə əsassız olaraq özünü təqsirləndirmə, etdiyi hərəkətlərə görə cəzalandırmağa layiq olduğunu düşünmə

Özünütənqidin pozuntusu – hadisələri, yaranmış problemləri öz imkanı daxilində qiymətləndirə bilməmək

P

P vitamini *(vitaminum P)* – flavonoidlər adlanan, vitaminəbənzər bioloji aktiv maddələr qrupudur; damarların və kapilyarların keçiriciliyini azaldır, arterial təzyiqin və ürək ritminin normallaşmasına kömək edir, ödün əmələ gəlməsində iştirak edir, orqanizmin allergenlərə olan davamlılığını artırır, allergik xəstəliklərin (xüsusilə bronxial astmanın) gedişatını yüngülləşdirir

Paçi-Lorens üsulu (A. Paci, 1845-1902, ital. cərrahı; A. Lorenz, 1854-1946, avstr. cərrah) – anadangəlmə bud çıxığının müalicə üsulu: bud sümüyünün başı yerinə salındıqdan sonra 6-12 ay müddətinə gips sarğısı qoyulur, bu zaman ayaqlar maksimum aralanmış, bud-çanaq və diz oynaqları düz bucaq altında əyilmiş vəziyyətdədir

Padalka simptomu (Б.Я. Падалка, 1883-1964, sov. infeksionisti) – regionar limfatik düyünlərin iltihabı zamanı sağ qalça nahiyəsində (qarın yatalağı zamanı) və ya sol qalça nahiyəsində (dizenteriya zamanı) perkutor səsin qısalması

Pagenştexer əməliyyatı (A. Pagenstecher, 1828-1879, alm. oftalmoloqu) – cərrahi əməliyyat: yuxarı göz qapağına və qaşaltı nahiyəyə iki dəri-altı tikişin qoyulması yolu ilə ptozun aradan qaldırılması

Pagenştexerin qaşığı (A. Pagenstecher) – oftalmologiyada istifadə olunan və gümüşdən hazırlanan alət

Paxidermiya *(pachydermia*; yun. *pachys* bərk, qalın + *derma* dəri*)* – dərinin bütün qatlarının davamlı hipertrofiya və hiperplaziyası; əsasən xroniki iltihab və ya uzun müddət qıcıqlanmadan sonra dəri və ya selikli qişanın patoloji qalınlaşması

Paxidermiya büküşlü *(cutis verticis gyrata)* – başın tüklü hissəsinin paxidermiyası ilə səciyyələnən dermatoz, başın ənsə və əmgək nahiyəsində kobud, ağrılı dəri büküşlərinin əmələ gəlməsi

Paxidermoperiostoz *(pachydermoperiostosis*; yun. *pachys* bərk, qalın + *derma* dəri + anat. *periosteum* sümüküstlüyü*)* – üz dərisinin keratodermiya və paxidermiyası, piy vəzilərinin hiperplaziyası, ətraf sümüklərin hiperostozu ilə təzahür edən irsi xəstəlik

Paxigiriya *(pachygyria*; yun. *pachys* bərk, qalın + anat. *gyrus* qırış*)* – baş

beyin qırışlarının patoloji qalınlaşması və bərkiməsi

Paximeningit *(pachymeningitis)* – baş beyin və ya onurğa beyninin sərt qişasının iltihabı

Fibroz paximeningit *(p. fibrosa)* – sərt qişada fibroz toxumanın artması ilə səciyyələnən paximeningit

Hemorragik paximeningit *(p. haemorrhagica)* – beynin sərt qişasına qansızma nəticəsində meydana çıxan paximeningit; zədələnmələr, arterial hipertenziya və bəzi qan xəstəlikləri zamanı rast gəlinir

İrinli paximeningit *(p. purulenta)* – beynin sərt qişasının üzərində və ya daxilində abseslərin əmələ gəlməsi ilə xarakterizə olunan paximeningit; burunətrafı ciblərin, orta və daxili qulağın irinli iltihabı zamanı təsadüf olunur

Serebral paximeningit *(p. cerebralis)* – baş beynin sərt qişasında lokallaşan paximeningit

Sifilitik paximeningit *(p. syphilitica)* – əsasən onurğa beyninin boyun nahiyəsi səviyyəsində sifilitik qummaların əmələ gəlməsi ilə xarakterizə olunan fibroz paximeningit

Spinal paximeningit *(p. spinalis)* – onurğa beyninin sərt qişasında lokallaşan paximeningit

Vərəm paximeningiti *(p. tuberculosa)* – vərəm zamanı onurğa beyninin əsasən döş nahiyəsi səviyyəsində qranulemaların əmələ gəlməsi ilə xarakterizə olunan paximeningit

Paximeninks (*pachymeninx*; yun. *pachys* bərk, qalın + yun. *meninx, meningos* qişa, beyin qişası) – *bax:* beynin sərt qişası

Paxion dəliyi və ya çadır oyması (*apertura Pachioni seu incisura tentorii*; A. Pacchioni, 1665-1726, ital. anatom) – beyincik çadırının basıq və azad ön kənarı ilə əsas sümüyün türk yəhərinin arxası arasında yerləşir

Paxionixiya *(pachyonychia*; yun. *onyx, onychos* dırnaq*)* – dırnaq lövhəsi altında epidermisin keratoz şəklində qalınlaşması

Paxionixiya anadangəlmə (pa*chyonychia congenita*) – *bax:* Yadasson-Levandovski sindromu

Paxisefaliya *(pachycephalia)* – kəllə tikişlərinin vaxtından qabaq sümükləşməsi nəticəsində kəllənin patoloji dərəcədə qalınlaşması və qısalması

Paxisomiya (*pachysomia*) – bədənin yumşaq hissələrinin patoloji qalınlaşması

Palata tibb bacısı – təhkim olunduğu palatadakı xəstələrin həkim təyinatlarını yerinə yetirməyə və xəstələrə qulluq etməyə cavabdeh olan tibb bacısı

Palato- *(*palat-; lat. *palatum* damaq*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, «damağa aid» mənasını verir

Palatodiniya *(palatodynia)* – damaq nahiyəsində ağrı

Palatolaliya *(palatolalia)* – yumşaq damağın yarığı səbəbilə artikulyasiyanın pozulması

Palatoplastika (*palatoplastica*; sin. uranoplastika) – sərt damaq qüsurlarının aradan qaldırılması

Palatosxizis *(palatoschisis*; yun. *schisis* yarılma, parçalanma*)* – *bax:* damaq yarığı

Paleo histologiya – histologiyanın ölmüş orqanizmin toxumalarının quruluşundakı dəyişikliklərin tarixi ardıcıllığını öyrənən bölməsi

Paleonevrologiya – paleontologiya və nevrologiyanın mərkəzi sinir siste-

minin təkamülünü (inkişafını) öyrənən bölməsi; 2) paleontologiyanın baş beynin təkamülünü öyrənən bölməsi

Pali – (palin-; yun. *palin* təkrar, yenidən) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "hərəkətin təkrar olunması" mənasını verir

Palikineziya *(palikinesia)* – eyni hərəkətin və ya jestin (əl-qol hərəkətləri) çox sayda təkrarlanmasından ibarət hərəki pozğunluq

Paliqrafiya *(paligraphia)* – sözlərin və ya qısa cümlələrin dəfələrlə təkrar edilməsi şəklində yazı qabiliyyətinin pozulması

Palilaliya *(palilalia)* – eyni sözlərin, qısa cümlələrin və ya hecaların dəfələrlə təkrarlanması şəklində nitq pozğunluğu

Palimneziya *(palimnesia*; yun. *mnesis* yaddaş*)* – xəstənin yaddaşında amneziya dövründə unudulmuş hadisələrin bərpa edilməsi

Palinergiya *(palinergia*; *palin-* + yun. *ergon* iş, hərəkət; sin. paliprakssiya*)* – xəstənin hər hansı bir hərəkəti mənasız yerə dəfələrlə təkrarlamasından ibarət psixi pozğunluq

Palinka iynəsi (П.С. Палинка, sov. onkoloqu) – trepanobiopsiya zamanı istifadə olunan iynə

Palinopsiya *(palinopsia)* – obyektin görmə sahəsindən itməsindən sonra yenidən görünməsindən ibarət görmə pozğunluğu

Paliprakssiya *(paliprakssia)* – *bax:* palinergiya

Pallesteziya *(pallaesthesia*; yun. *pallo* titrəmək + *aisthesis* hiss*)* – vibrasiyanın təsiri altında eşitmə hissiyyatının meydana gəlməsi

Pallidar sindrom (anat. *globus pallidus* solğun kürə) – *bax:* akinetiko-rigid sindrom

Pallidoniqral sindrom (anat. *globus pallidus* solğun kürə + *substantia nigra* qara maddə) – *bax:* akinetiko-rigid sindrom

Pallidotomiya *(pallidotomia)* – cərrahi əməliyyat: stereotaksik metodla icra olunan solğun kürənin medial hissəsinin dağıdılması

Pallister-Holl sindromu – autosom-dominant xəstəlik olub, GLi3 genin mutasiyası nəticəsində inkişaf edir; əsas diaqnotik meyarları: hipotalamik hemartoma və mərkəzi polidaktiliya, həmçinin digər inkişaf qüsurları da rast gəlinir: ageneziya, displaziya və ya böyrəyin olmaması, dırnaqların displaziyası, ürəyin anadangəlmə qüsurları

Palm əməliyyatı (M. Palm, alm. cərrahı) – cərrahi əməliyyat: sağlam ətrafın böyük dərialtı venası ilə zədəli ətrafın bud venası arasında anastomozun qoyulması

Palmar *(palmaris*; lat. *palma* ovuc*)* – ovuca aid olan

Palmer sınağı (W.L. Palmer, 1896-cı ildə an. olub, amer. həkim) – mədə və onikibarmaq bağırsağın xora xəstəliyinin diaqnostikası üsulu; acqarına mədəyə zond vasitəsilə xlorid turşusu məhlulunun yeridilməsindən sonra epiqastral nahiyədə ağrının meydana gəlməsinə əsaslanır

Palpasiya *(palpatio*; lat. sığallama, əlləmə*)* – bədənin müəyyən nahiyəsinin əl ilə yoxlamaqla aparılan diaqnostik müayinə üsulu

Bimanual palpasiya *(p. bimanualis)* – hər iki əllə icra olunan palpasiya

Dərin palpasiya *(p. profunda)* – dərində yerləşmiş orqanları müayinə etmək məqsədilə bədənin həmin nahiyəsinə əl barmaqları ilə basmaqla icra olunan palpasiya

Metodik palpasiya – *bax:* Obrazsov-Strajesk palpasiyası

Nüfuzedici palpasiya *(p. penetrans)* – bir barmağın ucu ilə basmaqla icra olunan dərin palpasiya; ağrı nöqtələrini müəyyən etmək üçün icra olunur

Obrazsov-Strajesk palpasiyası (В.П. Образцов, 1849-1920, rus terapevti; Н.Д. Стражеско, 1876-1952, sov. terapevti) – qarnın dərin sürüşən palpasiyası: müayinənin effektivliyini artırmaq üçün müayinə olunan orqan arxa qarın divarına sıxılır

Palpator – palpasiyaya aid olan

Palpebral *(palpebralis*; lat. *palpebra* göz qapağı*)* – göz qapağına aid olan

Paltar bitləri (*pediculosis vestimenti*) – dermatozoonozların törədicisi olan qansoran parazit; paltar bükülərində yaşayır, onların sancması nəticəsində dəridə qaşınma, sıyrıntı, irinlik və s. əlamətlər əmələ gəlir; erkək paltar biti 32 gün, dişisi isə 46 gün yaşayır

Paltauf cırtdanboyluluğu (A. Paltauf, 1860-1893, çex həkimi; sin. primordial nanizm) – limfatik-hipoplastik diatezin və cırtdanboyluluğun (bədən mütənasibliyi saxlanılmaqla) simptomlarının birgə təzahürü ilə xarakterizə olunan anadangəlmə xəstəlik

Paltauf sindromu (A. Paltauf) – *bax:* Paltauf cırtdanboyluluğu

Paltauf-Şternberq xəstəliyi (R. Paltauf, 1858-1924, avstr. patoloqanatom; K. Sternberg, 1872-1935, alm. patoloqanatom) – *bax:* limfoqranulematoz

Pambıq respirator – pambıq tərkibli, ağzı və nəfəs borularını zəhərli qazlardan və tozdan qoruyan respirator

Pan – *(*panto-; yun. *pantos* hər şey*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "hər şeyi bütün əhatə edən" mənasını verir

Panafobiya (*panophobia*) – baş verə biləcək hər bir şeydən qorxma

Panalgiya *(panalgia)* – bütün bədəndə ağrı hissiyyatı

Panangin *(panangin)* – elektrolit balansının pozulması nəticəsində yaranan ürək aritmiyaları zamanı tətbiq olunan dərman vasitəsi

Panaortit *(panaortitis)* – aorta divarının bütün qatlarının iltihabı

Panaralle krioapplikatoru – torlu qişanın qopması zamanı icra olunan cərrahi əməliyyatlarda kriopeksiyanın icra olunması üçün istifadə olunan, düz bucaq altında əyilmiş metal ucluq

Panarteriit *(panarteriitis)* – arteriya divarının bütün qatlarının iltihabı

Panartrit *(panarthritis*) – oynağın bağ aparatının zədələnməsi və ətraf yumşaq toxumaların fleqmonası ilə gedən kəskin irinli artrit

Panaseya (yun. *panakeia* hər şeyə şəfa verən, ilahənin adı) – bütün xəstəliklərin dərmanı, hər şeyi müalicə edən universal vasitə

Panbronxit *(panbronchitis)* – bronx divarının bütün qatlarının iltihabı

Pançenko üsulu (Д.И. Панченко, 1906-..., sov. nevropatoloqu; sin. Budda fenomeni) – yuxarı ətrafların iflici və beyincik zədələnmələrinin diaqnostikası zamanı icra olunan sınaq (xəstə hər iki əlini başı üzərində qatlayır. Bu zaman ovuc yuxarıya

doğru baxır. Zədələnmə tərəfində 15-20 saniyədən sonra əlin vəziyyəti dəyişir)

Pançenkov üsulu (Т.П. Панченков) – eritrositlərin çökmə surətini təyin etmək üçün üsul

Pandaktilit *(pandactylitis)* – əl barmaqlarının bütün toxumalarının irinli iltihabı

Pandemiya (*pandemia*; yun. *pandemos* ümumi, ümumxalq) – yoluxucu xəstəliyin (məs., vəba, taun, qrip) bütün bir ölkəni, eyni zamanda onunla həmsərhəd ölkələri, bəzən bir çox ölkələri əhatə etməsi

Pandi reaksiyası (K. Pandy, 1868-1944, mac. nevropatoloq və psixiatrı) – beyin-onurğa beyni mayesində qlobulinlərin yüksək miqdarının təyin edilməsi üsulu, 10-12%-li karbol turşusu ilə qarışdırdıqda bulanıqlığın əmələ gəlməsinə əsaslanır

Panendoskop – sidik kisəsinin bütün daxili səthini müayinə etməyə imkan verən sistoskop

Panfleqmona *(panphlegmone)* – bədənin hər hansı bir hissəsinin bütün yumşaq toxumalarının kəskin irinli iltihabı

Panfobiya (*panphobia*; sin. pantofobiya) – ətrafdakı hər şeydən qorxma

«Panheksavit» həbləri (*tabulettae «panhexavitum» obductae*) – vitamin kompleks preparatı

Panhemositopeniya (*panhaemocytopenia*; *pan-* + yun. *haima* qan + hist. *cytus* hüceyrə + yun. *penia* azlıq, kasıblıq; sin. pansitopeniya) – qanın bütün formalı elementlərinin miqdarının az olması

Panhipopituitarizm (*panhypopituitarismus*; sin. hipofizar kaxeksiya) – əksər hipofiz hormonlarının sekresiyanın birincili çatışmazlığı səbəbi ilə inkişaf edən və periferik endokrin vəzilərin ikincili hipofunksiyası ilə səciyyələnən xəstəlik

Pankardit (*pancarditis*) – ürək divarının bütün qişalarının iltihabı

Qonokokk pankardit (p. gonococcica) – qonokokk septikopiemiyası zamanı inkişaf edən və əsasən miokardın zədələnməsi ilə gedən pankardit

Revmatik pankardit (*p. rheumatica*) – əsasən cavan şəxslərdə revmatizm zamanı meydana çıxan kəskin pankardit

Pankolit *(pancolitis)* – bütün yoğun bağırsağın iltihabı

Pankost xərçəngi (H. K. Pancoast, 1875-1939, amer. rentgenoloq) – ağciyərin yuxarı payının subplevral yerləşən xərçəngi; bazu nahiyəsinin sinir-damar kələfinə, boyun fəqərələrinin aşağı qövsünə və simpatik kötüyə doğru inkişaf edir

Pankost sindromu (H. K. Pancoast) – Pankost xərçəngi zamanı Qorner sindromunun, zədələnmiş nahiyənin yuxarı ətrafında və döş nahiyəsində kauzalgik ağrıların, bazu əzələlərinin iflici və atrofiyasının birgə təsadüf olunması

Pankost-Tobias sindromu (H. K. Pancoast, 1875-1939, amer. rentgenoloq; J.M. Tobias) – *bax:* Pankost sindromu

Pankov şini (A.K. Панков, sov. cərrahı) – aşağı ətraflar üçün nəzərdə tutulmuş nəqliyyat və müalicəvi şin; döş qəfəsi və hər iki ayağa fiksə edilən, karkaslı açılan konstruksiya şəklindədir

Pankreas (*pancreas*) – mədəaltı vəzi; qarın boşluğunun arxa divarında, mədənin arxasında, onikibarmaq bağırsaq ilə dalaq arasında yerləşir

Pankreas şirəsi (*succus pancreaticus*) – tərkibində həzm prosesində zülalları, yağ və karbohidratları parçalayan fermentlər olan mədəaltı vəzinin sekreti (məhsulu)

Pankreasdankənar diabet (*diabetes extrapancreaticus*) – digər orqanların patologiyası zamanı rast gəlinən şəkərli diabetlərin ümumi adı

Pankreatektomiya (*pancreatectomia*) – cərrahi əməliyyat: bədxassəli şiş, kəskin pankreatit zamanı mədəaltı vəzinin rezeksiyası, bir hissəsinin çıxarılması

Pankreatik adacıqlar *(insula pancreatica*; sin. Langerhans adacıqları*)* – mədəaltı vəzinin insulinositlər yığıntısı şəklində olan endokrin hissəsi

Pankreatik axar (*ductus pancreaticus*) – *bax:* mədəaltı vəz axarı

Pankreatik axiliya *(achylia pancreatica)* – mədəaltı vəzinin çatışmazlığı zamanı pankreas şirəsində fermentlərin olmaması

Pankreatik diabet (*diabetes pancreatikus*) – mədəaltı vəzin zədələnməsi ilə əlaqədar olan şəkərli diabet formalarının ümumi adı

Pankreatik peptid (PP) – mədəaltı vəzi hormonu; xolesistokininin antaqonisti olub, fermentlərin və mədəaltı vəzi hidrokarbonatlarının sekresiyasını ləngidir, nazik bağırsağın, mədəaltı vəzi və qaraciyərin selikli qişasının proliferasiyasını gücləndirir, mədə və nazik bağırsağın motorikasını gücləndirir

Pankreatiko-biliar sindrom (*syndromum pancreaticobiliare*) – *bax:* Bar-Pik sindromu

Pankreatin *(pancreatinum)* – həzm prosesini yaxşılaşdıran proteolitik ferment preparatı

Pankreatit (*pancreatitis*) – mədəaltı vəzinin iltihabı

Abseslaşan pankreatit (*p. abscedens*) – mədəaltı vəzidə çoxsaylı abseslərin əmələ gəlməsi ilə gedən irinli pankreatit

Apostematoz pankreatit (p. *apostematotica*) – *bax:* abseslaşan pankreatit

Diffuz pankreatit (*p. diffusa*) – iltihabi prosesin bütün mədəaltı vəzini əhatə etməsi ilə gedən pankreatit

Fleqmonoz pankreatit (*p. phlegmonosa*) – mədəaltı vəzi toxumalarının diffuz irinlə hopdurulması ilə xarakterizə olunan kəskin pankreatit

Hemorragik pankreatit (*p. Haemorrhagica*; sin. qanqrenoz pankreatit, kəskin aseptik pankreatit) – mədəaltı vəzi toxumalarının hemorragik dəyişikliyi və autolizi ilə gedən kəskin pankreatit; vəzi axarına ödün düşməsi zamanı müşahidə olunur

Xroniki pankreatit (p. chronica) – mədəaltı vəz parenximasının iltihabi-sklerotik proses nəticəsində fibroz çapıqlar, birləşdirici toxuma hesabına bərkiməsi və endo-ekzokrin funksiyasının zəifləməsi ilə gedən və uzun müddət davam edən pankreatit

Xroniki residiv verən pankreatit (*p. chronica residiva*) – vaxtaşırı kəskinləşmələrlə gedən xroniki pankreatit

İrinli pankreatit (*p. purulenta*) – mədəaltı vəzi toxumasının irinləməsi ilə gedən kəskin pankreatit

Kalkulyoz pankreatit (*p. calculosa*) – mədəaltı vəzidə konkrementlərin olması ilə gedən pankreatit

Kəskin aseptik pankreatit (p. *acuta aseptica*) – *bax:* hemorragik pankreatit

Kəskin pankreatit (p. acuta) – mədəaltı vəzin fermentativ autoliz nəticəsində meydana çıxan kəskin iltihabi-nekrotik zədələnməsi; intensiv ağrılar və kollapsın (kəskin damar çatışmazlığının) inkişaf etməsi ilə təzahür edir

Qanqrenoz pankreatit (*p. gangraenosa*) – *bax:* hemorragik pankreatit

Qarın yatalağı pankreatiti (*p. abdominotyphosa*) – qarın yatalağının ağırlaşması kimi öd yollarının zədələnməsindən sonra inkişaf edən pankreatit

Qummoz pankreatit (*p. gummosa*) – sifilisin üçüncü dövründə inkişaf edən və qummaların əmələ gəlməsi ilə gedən pankreatit

Parenximatoz pankreatit (*p. parenchymatosa*) – əsasən mədəaltı vəzinin parenximasının zədələnməsi ilə gedən pankreatit

Pankreatoduodenal *(pancreatoduodenalis*; anat. *duodenum* onikibarmaq bağırsaq*)* – mədəaltı vəziyə və onikibarmaq bağırsağa aid olan

Pankreatoduodenektomiya *(pancreatoduodenectomia)* – cərrahi əməliyyat: mədəaltı vəzinin və onikibarmaq bağırsağın xaric edilməsi; mədəaltı vəzinin bədxassəli şişləri zamanı icra olunur

Pankreatoqrafiya (*pankreato-* + yun. *grapho* yazmaq) – mədəaltı vəzinin kontrastlaşdırıldıqdan sonra rentgenoqrafiyası

Ekskretor pankreatoqrafiya – pnevmoretroperitoneum qoyulduqdan sonra venadaxilinə kontrast maddə və sekretinin (mədəaltı vəzinin sekretor funksiyasını stimulə edən toxuma hormonu) yeridilməsi ilə icra olunan pankreatoqrafiya

Əməliyyat pankreatoqrafiyası – cərrahi əməliyyat zamanı mədəaltı vəzinin axarlarına kontrast maddənin yeridilməsi ilə aparılan rentgenoqrafiya

Retroqrad pankreatoqrafiya – *bax:* retroqrad pankreatoxolangiorentgenoqrafiya

Sekretor pankreatoqrafiya – *bax:* ekskretor pankreatoqrafiya

Pankreatolitotomiya *(pancreatolithotomia)* – cərrahi əməliyyat: mədəaltı vəzin axarlarından konkrementlərin xaric edilməsi

Pankreatoskonoqrafiya – mədəaltı vəzinin radioizotop skanerlənməsi

Pankreatotomiya *(pancreatotomia)* – cərrahi əməliyyat: mədəaltı vəzi toxumasının kəsilməsi

Pankreatoyeyunal *(pancreatojejunalis*; *pankreato-* + lat. *intestinum jejunum* nazik bağırsaq*)* – mədəaltı vəzi və nazik bağırsağa aid olan

Pankreo- *(*pankreat-, pankreato-; yun. *pankreas, pankreatos* mədəaltı vəzi*)* – mürəkkəb sözlərin tərkib hssəsinə daxil olub, "mədəaltı vəziyə aid" mənasını verir

Pankreolitiaz *(pancreolithiasis)* – mədəaltı vəzi axarlarında konkrementlərin əmələ gəlməsi ilə səciyyələnən patoloji proses

Pankreozimin – *bax:* xolesistokinin

Pankreoskleroz *(pancreosclerosis)* – nekroz və ya iltihabın nəticəsi olaraq mədəaltı vəzidə birləşdirici toxumanın inkişaf etməsi

Panmieloftiz *(panmyelophthisis*; *pan-* + yun. *myelos* sümük iliyi + *phthisis* üzülmə, yoxolma*)* – sümük iliyinin qanyaradıcı toxumanın kəskin azalması və piy və ya lifli birləşdi-

rici toxuma ilə əvəz olunması ilə səciyyələnən vəziyyəti

Panmielopatiya (*panmyelopathia*) – sümük iliyində bütün hüceyrəvi elementlərin miqdarının azalması

Panner xəstəliyi (H.J. Panner, 1870-1930, danim. radioloq) – III aşıq sümüyü başının aseptik nekrozundan ibarət osteoxondropatiya

Pannevits simptomu – qida borusunun xərçəngi zamanı barium horrasının ləngiməsi ilə təzahür edən udlaq parezinin rentgenoloji əlaməti

Pannikulit *(panniculitis*; lat. *panniculus* parça*)* – dərialtı toxumanın fibroz iltihabı

Pannus *(pannus corneae)* – konyunktivadan iltihabi prosesin keçməsi nəticəsində buynuz qişanın səthi qatlarının diffuz bulanlıqlaşması, toxuma infiltrasiyası və qan damarlarının inkişaf etməsi

Çapıq pannusu (*p. cicatricalis*) – buynuz qişanın çapıq dəyişikliyi və az miqdarda damarların olması ilə xarakterizə olunan pannus

Damarlı pannus (*p. vasculosus*) – çoxlu miqdarda damarların olması ilə xarakterizə olunan traxomatoz pannus

Ətli pannus (*p. carnosus*) – buynuz qişanın nəzərəçarpan infiltrasiya və çoxsaylı damarların inkişafı nəticəsində qranulyasiya toxumasını xatırlatması

Qalın pannus (*p. crassus*) – *bax:* ətli pannus

Nazik pannus (*p. tenuis*) – buynuz qişanın az nəzərəçarpan bulanlıqlaşması və damarların zəif inkişafı ilə gedən pannusu

Retrokorneal pannus (*p. retrocornealis*) – buynuz qişanın arxa səthində inkişaf edən pannus

Sarkomatoz pannus (*p. sarcomatosus*) – buynuz qişanın papillomatoz birləşmələri ilə xarakterizə olunan traxomatoz pannusu

Total pannus (*p. totalis*) – bütün buynuz qişa səthinə yayılan pannus

Traxomatoz pannus (*p. trachomatosus*) – traxoma zamanı limbin yuxarı nahiyəsindən aşağıya doğru yayılmağa başlayan pannus

Travmatik pannus (*p. traumaticus*) – buynuz qişanın zədələnməsi nəticəsində meydana çıxan pannus

Panoftalmit (*panophthalmitis*; yun. *ophthalmos* göz) – göz almasının bütün toxumalarının kəskin irinli iltihabı

Panotit *(panotitis*; yun. *us, otos* qulaq*)* – orta və daxili qulağın eyni zamanda iltihabı

Pens sindromu (J.P. Panse, frans. həkimi) – ağıreşitmə, monqoloid sifəti qurluşu, oliqofreniya, piylənmə, xarici cinsiyyət üzvlərinin hipotrofiyası, piqment retiniti, sindaktiliya, oynaqların tez-tez burxulması ilə təzahür olunan inkişaf qüsuru

Pansdorf üsulu (H. Pansdorf, alm. rentgenoloqu, 20-ci əsr) – rentgenoloji müayinə üçün bağırsağın hər 10-15 dəqiqədən bir kiçik dozalarla kontrast maddənin peroral yeridilməsi ilə kontrastlaşdırılması üsulu

Panserozit *(panserositis*; *pan-* + anat. *tunica serosa* seroz qişa*)* – bütün seroz qişaların (perikard, plevra və peritonun) iltihabı; məs., vərəm və kollagenozlar zamanı müşahidə olunur

Pansinusit *(pansinusitis*; *pan-* + anat. *sinus* cib*)* – eyni zamanda bütün burunətrafı ciblərin selikli qişasının bir- və ya ikitərəfli iltihabı

Pansitopeniya *(pancytopenia*; *pan-* + hist. *cytus* hüceyrə + yun. *penia* çatışmazlıq*)* – qanda bütün formalı elementlərin miqdarının kəskin azalması; məs., hipo- və aplastik anemiyalar zamanı müşahidə olunur

Pantofagiya *(pantophagia*; yun. *phagein* yemək*)* – *bax:* evrifagiya

Pantofobiya (*pantophobia*; sin. panfobiya) – *bax:* panfobiya

Pantokrin (*pantocrinum***)** – yorğunluq, nevrasteniya, nevroz, infeksion xəstəliklər sonrakı astenik hal, hipotoniya və miakard əzələsinin zəifliyi zamanı istifadə olunan tonuslandırıcı dərman vasitəsi

Pantoqam *(pantogamum)* – mərkəzi sinir sisteminin maddələr mübadiləsini normallaşdıran, hipoksiyaya davamlığını artıran, qıcolma əlehhinə təsir göstərən nootrop dərman vasitəsi

Pantomimika – üzün, başın, ətraflar və gövdənin nitq və emosiyanı müşayiət edən hərəkətlərinin cəmi; ünsiyyətdə duruş və bədənin hərəkəti

Pantosid *(pantocidum)* – halloidlər qrupundan olan, antiseptik vasitə

Pantostat (yun. *states* dayanan, quraşdırılmış) – keçmişdə elektroterapiya və vibrasion masaj üçün istifadə olunan fizioterapevtik aparat

Pantripin *(pantrypinum)* – proteoliazanın ingibitoru

Panvaskulit *(panvasculitis)* – qan damarının bütün qatlarının iltihabı

Panzinorm forte *(panzynorm forte)* – tərkibində mədənin selikli qişasının, ödün ekstraktı və pankreatin, aminturşular olan fermentativ preparat

Papafobiya (*papaphobia*) – Roma papasından qorxmaq

Papanikolau üsulu (G.N. Papanicolau, 1883-1962, amer. anatom və həkim) – sidik yolları şişlərinin hematoksilin-eozinlə boyanmış sidik çöküntüsünün sitoloji müayinəsinə əsaslanan diaqnostika üsulu

Papaverin (*papaverinum*) – izoxinol törəməsi olan spazmolitik təsirli antihipertenziv maddə

Papill- (papillo-; lat. *papilla* **məməcik)** – **mürəkkəb sözlərin tərkib hissəsi olub, "məməciyə, məməyəoxşar törəməyə aid" mənasını verir**

Papillektomiya *(papillectomia)* – cərrahi əməliyyat: qaraciyər-mədəaltı vəz ampulunun xaric edilməsi

Papilliform *(papilliformis*; *papill-* + lat. *formis* oxşar) – məməciyə bənzər

Papillit *(papillitis)* – 1) görmə siniri diskinin iltihabı; 2) böyrək məməciklərinin iltihabı; 3) dişarası məməciyin iltihabı

Papillit anal – anal dəlik məməciklərinin iltihabı

Papillit nekrotik – *bax:* böyrəyin medulyar nekrozu

Papilloma (*papilloma*; lat. *papilla* məməcik + yun. *oma* şiş, törəmə) – dəri və selikli qişaların məməcik şəklində olan xoşxassəli şişi

Bazalhüceyrəli papilloma (köh.; *p. basocellulare*) – hüceyrədaxili epidermal buynuz sistləri və melanin əlavələri olan papilloma

Damar kələfinin papilloması – *bax:* xorioidpapilloma

Fibroepitelial papilloma (*p. fibroepitheliale*) – epidermisin və dermanın düyünlü əlavələri ilə xarakterizə olunan dəri papilloması

Papillomatoz *(papillomatosis)* – dəri və ya selikli qişanın hər hansı bir nahiyəsində çoxsaylı papillomala-

rın əmələ gəlməsi ilə xarakterizə olunan patoloji proses

Diffuz papillomatoz (*p. diffusa*) – zədələnmiş səthin tam olaraq papillomalarla örtülməsi

Dərinin karsinoid papillomatozu (p. *cutis carcinoidea*) – şiş toxumasında serotonin ifraz edən argentofil hüceyrələrin olması ilə xarakterizə olunan dəri papillomatozu

Papillotomiya *(papillotomia)* – cərrahi əməliyyat: ümumi öd axarından daşların çıxarılması və ödün axınını yaxşılaşdırmaq üçün qaraciyər-mədəaltı vəzi ampulunun kəsilməsi

Papilyar adenokarsinoma (*adenocarcinoma papillare*) – vəzi daxilinə və ya kistoz boşluğa doğru inkişaf edən papillyar çıxıntıları olan adenokarsinoma

Papirofobiya (*papirophobia*) – kağız qorxusu

Papiyon-Leaj-Psom sindromu (Papillon-Léage, Psaume Jean, frans. stomatoloqları) – irsi anomaliyalar kompleksi: burun qığırdaqlarının hipoplaziyası, dilaltı pərdənin qısalması, dovşandodaqlıq, psixi və fiziki inkişafdan geri qalma, uzun borulu sümüklərin qısalması və qalınlaşması, braxidaktiliya, polidaktiliya, alopesiya, poykilodermiya

Papiyon-Lefevr keratodermiyası (M.M. Papillon, frans. dermatoloqu; P. Lefevre, fransız dermatoloqu; sin. Papiyon-Lefevr sindromu) – ayaqaltı və ovuc dərisinin buynuzlaşması, prosesin əlin arxa səthinə, ayağa, Axilles vətərlərinə keçməsi və dişlərin tökülməsi (əvvəl süd dişlərinin, sonra isə daimi dişlərin laxlaması və tökülməsi) ilə gedən irsi xəstəlik

Papula *(papula)* – dərinin üzərində əmələ gələn boşluqsuz morfoloji element; epidermisin proliferasiyası və dermanın məməcikli qatınının infiltrasiyası, damarların genişlənməsi və məhdud ödemi nəticəsində meydana çıxır

Dermal papula (*p. dermalis*) – dermada infiltratın inkişaf etməsi zamanı əmələ gələn yarımkürə şəklində papula

Epidermal papula (*p. epidermalis*) – epidermisin hipertrofiya nahiyəsində yastı papula

Epidermo-dermal papula (*p. epidermodermalis*) – epidermisin, eyni zamanda dermanın patoloji dəyişikliyə uğramış nahiyəsində meydana çıxan yastı papula

Qəpiyə oxşar papula (*p. nummularis*) – diametri 15-20 mm olan dairəvi papula

Lentikulyar papula (*p. lenticularis*) – diametri 5 mm olan dairəvi papula

Miliar papula (*p. miliaris*) – diametri 1-2 mm olan xırda papula

Nummulyar papula (*p. nummularis*) – *bax:* qəpiyə oxşar papula

Poliqonal papula (*p. polygonalis*) – qeyri-düzgün formalı, çoxbucaqlı papula

Psevdosifilitik papula (*p. psevdosyphilitica*) – xarici cinsiyyət orqanlarında rast gəlinən, eroziyalaşan və papulyoz sifilidi xatırladan papula; psevdosifilis zamanı müşahidə olunur

Qarayara papulası (*p. anthracica*) – dəridən yoluxma zamanı qarayara törədicisinin yeridildiyi yerdə əmələ gələn tünd-qırmızı papula

Papulovezikula *(papulovesicula)* – səthində sudurucuq əmələ gəlmiş papula

Para – *(*par-; yun. *para)* – aşağıdakı mənaları verən önşəkilçi: 1) "nəyinsə yaxınlığında olmaq"; 2) "nədənsə geri şəkilmə", "bir şeyə yanlış oxşatmaq"

Paraallergen – paraallergiya törədən faktor

Paraallergiya (*paraallergia*) – spesifik sensiblizə olunmuş orqanizmin qeyri-spesifik qıcıqlandırıcıya cavab olaraq verdiyi allergik reaksiya; allergiyaya oxşayan, amma immunogen mərhələnin olmaması ilə fərqlənən reaksiya

Paraanesteziya *(paraanesthesia)* – *bax:* paranesteziya

Parabuliya *(parabulia*; yun. *bule* iradə*)* – başlanmış hərəkətlərin tamamlanmaması ilə təzahür edən iradə pozğunluğu

Paradentit (*paradentitis*; *para-* + lat. *dens, dentis* diş) – *bax:* parodontoz

Paradensium (*paradentium*) – *bax:* parodont

Paradentopatiya (*paradentopathia*; *para-* + lat. *dens, dentis* diş + yun. *pathos* əzab, xəstəlik) – *bax:* parodontopatiya

Paradiz-Qriv-Angeler-Benedetti xəstəliyi – eritromielozun hepatosplenomeqaliya, anemiya, leykopeniya ilə səciyyələnən növü

Paradoksal faza – qüvvəli qıcığın törətdiyi reaksiya zəif qıcığa qarşı alınan reaksiyadan da zəif olur

Paradoksal reaksiya – orqanizmin təsir edən qıcıqlandırıcıya əks reaksiyası

Parafaringeal sahə (*spatium parapharyngeale*; *para-* + yun. *pharynx, pharyngos* udlaq; sin. udlaqətrafı sahə) – udlağın arxasında və yan tərəflərində yerləşən cüt toxuma sahəsi

Parafaziya (*paraphasia*) – afaziya zamanı nitqin ayrı-ayrı elementlərinin təhrif olunması

Hərfi parafaziya (*p. litteralis*; lat. *litteralis* hərfi) – sözdə ayrı-ayrı səslərin buraxılması, əvəz edilməsi, təkrarlanması ilə xarakterizə olunan parafaziya

Verbal parafaziya (*p. verbalis*) – sözün tələffüz etibarilə ona yaxın olan sözlə əvəz olunması ilə təzahür edən parafaziya

Parafimoz (*paraphimosis*; *para-* + yun. *phimosis* dəliyin bağlanması, daralması, fimoz) – cinsiyyət üzvünün pülük həlqəsi ilə sıxılması və əzilməsi; fimozun ağırlaşması kimi inkişaf edir

Parafinoma *(parafinoma)* – dəri altına maye parafin yeridilmiş yerdə şişəbənzər törəmənin əmələ gəlməsi

Parafinoterapiya – tibbi parafindən müalicə məqsədilə istifadə edilməsi

Paraflebit *(paraphlebitis*; yun. *phleps, phlebos* vena*)* – venanı əhatə edən toxumaların iltihabı

Parafobiya (*paraphobia*) – seksual kobudluqdan qorxma

Parafraziya *(*köh.; *paraphrasia*; yun. *phrasis* nitq*)* – məna və qrammatik quruluşun itirilməsi, süni yaradılmış sözlərin istifadəsindən ibarət nitq pozğunluğu

Parafren sindrom (*syndromum paraphrenicum*; sin. parafreniya) – *bax:* parafreniya

Parafreniya *(paraphrenia*; sin. parafren sindrom*)* – sistemləşmiş, fantastic məzmunlu təqib və təsir sayıqlama ideyalarının, psevdohallüsinasiyaların və psixi avtomatizm əlamətlərinin birlikdə təsadüf olunması; xəstələr özünü qeyri-adi istedada, qüvvəyə malik şəxs he-

sab edirlər; şizofreniya xəstəliyinin müstəqil kliniki variantı, bəzən isə xəstəliyin inkişafının müəyyən mərhələsi kimi rast gəlinir, qocalıq psixozlarında da (beyin aterosklerozu) təsadüf olunur

Ekspansiv parafreniya (*p. expansiva*) – hipomaniakal və ya maniakal affektli fantastik sayıqlamanın üstünlük təşkil etdiyi parafreniya

Fantastik parafreniya (*p. phantastica*) – fantastik sayıqlamanın üstünlük təşkil etdiyi parafreniya

Gecikmiş parafreniya (*p. tarda*) – *bax:* involyusion parafreniya

Hallüsinator parafreniya (*p. hallucinatoria*) – fantastik məzmunlu çoxsaylı verbal hallüsinasiyaların və ya psixi avtomatizmin üstünlüyü ilə gedən parafreniya

İnvolyusion parafreniya (köh.; *p. Involutionalis*; sin. gecikmiş parafreniya) – 45-55 yaşlarında ilk dəfə meydana çıxan sayıqlama psixozlarının ümumi adı

İpoxondrik parafreniya (*p. hypochondriaca*) – ipoxondrik fantastik sayıqlamanın (orqanizmin və ya ayrı-ayrı orqanlarının hər hansı bir dəyişməsindən ibarət) və ya psixi avtomatizmin üstünlüyü ilə gedən parafreniya

Kəskin parafreniya (*p. acuta*) – keçici katatonik simptomlarla gedən parafreniya tipli şizofreniya tutması

Konfabulyator parafreniya (*p. confabulatoria*) – sayıqlama konfabulyasiyalarının üstünlüyü ilə gedən parafreniya, bu zaman psixi avtomatizm, verbal hallüsinasiyalar azdır vı ya heç yoxdur

Senil parafreniya (*p. senilis*) – qoca yaşlarda ağıl zəifliyi zamanı rast gəlinən parafreniya

Sistemləşdirilmiş parafreniya – sistemləşdirilmiş təqib və təsir sayıqlamaların üstünlük təşkil etdiyi parafreniya

Paragevziya (*parageusia*; *para-* + yun. *geusis* dadвкус) – dadbilmə hissiyyatının pozulması; mərkəzi sinir sistemi, endokrin sistemi və qastrointestinal traktın (mədə-bağırsaq yolunun) müxtəlif xəstəlikləri zamanı müşahidə olunan pozğunluq

Parahemofiliya (*parahaemophilia*) – *bax:* Ovren xəstəliyi

Paraxoliya *(*köh.; *paracholia*; yun. *chole* öd*)* – hepatositlərin zədələnməsi zamanı bilirubinin bilavasitə qana keçməsi nəticəsində yaranan sarılıq

Parakeratoz *(parakeratosis)* – buynuz qat hüceyrələrinin nüvə qalığı ilə buynuzlaşma prosesinin pozulması; səthi qatın hüceyrə protoplazmasında keratin əmələ gəlir, lakin nüvə hələ də qalır; epitel hüceyrələri keratogialin istehsal etmə qabiliyyətlərini itirir, ayrı-ayrı hüceyrələr arasındakı rabitə pozulur, buynuz təbəqəsinin histoloji olaraq kövşəkləşməsi, dənəvər qatın hissəvi və ya tam yoxa çıxması müəyyən edilir

Ocaqlı parakeratoz (*p. focalis*) – bu növ parakeratoza patoloji ocağın olması səciyyəvidir; patoloji proses selikli qişanın buynuzlaşmış hüceyrələr və ləkələr olan ayrı-ayrı hissələrini əhatə edir, digər hissəsi isə normal fəaliyyətini və vaziyyətini qoruyub saxlayır

Parakeratoz skutulyar (*parakeratosis syutularis*) – əsasən oynaq nahiyəsində parakeratozla xarakterizə olunan naməlum etiologiyalı dermatoz; həmin nahiyədə sarımtıl pulcuqlar təbəqəsi əmələ gəlir

Parakinez *(parakinesis*; sin. parakineziya*)* – baş beyin qabığının alın nahiyəsinin zədələnmələri zamanı müşahidə olunan və mürəkkəb qeyri-iradi koordinasion hərəkətlərlə xarakterizə olunan hiperkinez

Parakineziya – *bax:* parakinez

Parakoksidioidomikoz (*paracoccidioidomycosis*) – *bax:* parakoksidioidoz

Parakoksidioidoz *(paracoccidioidosis*; sin. parakoksidioidomikoz*)* – *Blastomyces braziliensis* göbələkləri tərəfindən törədilən, dərini, selikli qişaları və daxili orqanları qranulema və yara əmələ gətirməklə zədələyən dərin, əksər hallarda sistemli, xroniki mikoz

Parakolon *(paracolon)* – peritonarxası sahədə enən və qalxan çənbər bağırsağın arxasında yerləşən toxuma qatı

Parakonus *(paraconus)* – üst azı dişlərin tacının medial-vestibulyar hissəsindəki əsas qabarıq

Paraqanqlioma *(paraganglioma)* – paraqanqlionlardan inkişaf edən şiş

Xromaffinsiz paraqanqlioma – genetik və morfoloji olaraq xromofinəbənzər, lakin xrom duzları ilə müsbət reaksiya verməyən hüceyrələrdən ibarət paraqanqliom (asetilxolin ifraz edir)

Orta qulağın paraqanqlioması *(p. auris mediae*; sin. timpanoyuqulyar paraqanqlioma*)* – orta qulaq boşluğu ilə yanaşı yerləşən daxili vidaci venanın yuxarı soğanağı nahiyəsində inkişaf edən paraqanqlioma

Timpanoyuqulyar paraqanqlioma *(paraganglioma tympanocugulare)* – *bax:* orta qulağın paraqanqlioması

Paraqanqlion *(paraganglium)* – əsasən katexolaminlər ifraz edən və bədənin müxtəlif sahələrində yerləşən hormonal aktiv hüceyrələr

Paraqlioma *(paraglioma)* – ependima, baş beynin damar kələfinin epitelinin, əzgiləbənzər cismin (epifizin) yetişmiş qanqlioz hüceyrələrdən və ya neyroblastlardan ibarət şişlərinin ümumi adı

Paraqonimoz *(paragonimosis)* – Paraqonimosis vestermani *(Paragonimus westermanii)* qurdların törətdiyi, daxili orqanlarda, xüsusən ağciyərlərdə iltihab proseslərinin inkişaf etməsi ilə xarakterizə olunan helmintoz; yoluxma əsasən balıq, xərçəng, krevet (yengəc) yeyəndə, çay, göl, dəniz suyu udanda olur

Paraqrafiya *(paragraphia)* – hərflərin başqa hərflə əvəz edilməsi, ayrı-ayrı söz və hərflərin düzgün yazılmaması şəklində olan yazı pozğunluğu

Paraqrammatizm (*paragrammatismus*) – yazılı və ya şifahi nitqin qrammatik qaydaların düzgün tətbiq edilməməsi şəklində pozulması

Paraqranuloma *(paragranuloma*; sin. Hockin paraqranuloması*)* – limfoqranulematozun limfoid infiltrasiyanın üstünlüyü ilə gedən limfohistiositar forması

Paraqrip (*paragrippus*) – yuxarı tənəffüs yollarının, xüsusən burun, udlaq və qırtlağın selikli qişasını zədələyən və zəif intoksikasiya əlamətləri ilə müşayiət olunan kəskin virus infeksiyası; qripdən intoksikasiya simptomlarının yüngüllüyü və ölüm faizinin aşağı olması ilə fərqlənir

Paraleksiya *(paralexia*; yun. *lexis* söz, nitq*)* – oxunan söz və hərflərin təhrif olunması şəklində oxu pozğunluğu; beyin yarımkürələrinin əmgək

payının zədələnməsi zamanı sensor afaziyanın əlaməti

Paralgeziya – ağrı hissinin təhrif olunması

Paralipofobiya *(paralipophobia)* – öz vəzifə və ya borcunu yerinə yetirməmək qorxusu

Paralitik demensiya (*dementia paralytica*) – proqressiv iflic və mərkəzi sinir sisteminin digər üzvi xəstəlikləri zamanı yaddaşın və intellektin total pozuntusu

Paralitik xoreya (*chorea paralytica*) – *bax:* yüngül xoreya

Paralitik mioqlobinuriya *(myoglobinuria paralytica)* – miopatiya və geri dönən mioqlobinuriya sindromlarının birgə təzahür etməsi; əzələ zəifliyi və əzələ ağrılarından (əsasən aşağı ətraflarda) sonra sidikdə albuminin, leykositlərin, eritrositlərin olması ilə müşayiət olunan mioqlobinuriya baş verir; bu tutmalar spontan və ya uzun müddət davam edən əzələ gərginliyindən sonra baş verir

Paralitik triada – proqressivləşən iflic zamanı dizartriya, Arqayl Robertson sindromu və total kəmağıllığın birgə təzahür etməsi

Paralogik təfəkkür – real faktlara əsaslanmayan fikrin söylənməsi

Paralogiya *(paralogia*; yun. *paralogos* ağısız, ağıla zidd*)* – məntiqi ardıcıllığın itirilməsi ilə xarakterizə olunan düşüncə pozğunluğu, nəticədə xəstənin söylədiyi fikir anlaşılmır

Paramedikal elmlər – tibbə yaxın olan (fiziologiya, biokimya, genetika və s.)

Paramimiya *(paramimia*; yun. *mimia* təqlid etmə*)* – xəstənin mimikasının onun hərəkətləri, danışığı həyəcanları ilə uyğun olmaması

Paramneziya (*paramnesia*; *para-* + yun. *mnesis* yaddaş) – yaddaşın keyfiyyət pozuntusu; konfabulyasiya (yaddaşın yalanı) və kriptomneziyanın (xatirələrin təhrif edilməsi) ümumi adı

Paramneziya qoşalaşan (*paramnesia reduplicans*; lat. *reduplico* ikiqat artırmaq) – xəstənin həqiqətən mövcud olan bir əşya, şəxs və ya hadisə əvəzinə ikisinin olmasına inanması

Paramuziya *(paramusia*; yun. *paramusos* həmahəng olmayan*)* – xəstənin müəyyən musiqi tonlarının yüksəkliyini, onların arasındakı intervalı və ya ahəngdarlığın xarakterini müəyyən etmək qabiliyyətinin itirilməsi ilə xarakterizə olunan amuziya növü

Paranazal sinus (*sinus paranasales*) – burnun əlavə cibi

Paranefral blokada – *bax:* bel novokain blokadası

Paranefrit *(paranephritis)* – böyrək kapsulunun fibrozlu iltihabı

Arxa paranefrit (*p. posterior*) – böyrəyin arxa divarının piy hüceyrələrinin güclü inkişafı nəticəsində böyrəyin arxa səthində lokalizə olunan paranefrit

Aşağı paranefrit (*p. inferior*) – böyrəyin aşağı qütbündə lokalizə olunan paranefrit

Xroniki paranefrit (*p. chronica*) – çox vaxt tez-tez kəskinləşən xroniki kalkuyoz pielonefritin ağırlaşması və kəskin paranefritin nəticəsi kimi, böyrəkdə aparılan əməliyyatdan (sidik paranefral hüceyrəyə düşür), böyrəyin urohematoma nəticəsində xəsarət almasından sonra baş verir

İrinli paranefrit (*p. purulenta*) – adətən irinli pielonefritin ağırlaşması kimi meydana çıxan və irinli

infiltrasiya ilə xarakterizə olunan paranefrit

Kəskin paranefrit (*p. acuta*) – əvvəlcə ekssudativ iltihab mərhələsinə keçir, sonra inkişaf əks istiqamətdə gedir və ya irinli pilləyə keçə bilir, əgər paranefral hüceyrədə irinli proses yayılmağa meylli olarsa, irin qurşaq nahiyəsinin zəif yerlərinə doğru irəliləyir

Ön paranefrit (*p. anterior*) – böyrəyin ön səthində lokalizə olunan paranefrit

Sklerozlaşmış paranefrit (*p. sclerosans*) – böyrək kapsulunun qalınlaşaraq fibroz toxumaya keçməsi ilə xarakterizə olunan xroniki paranefrit

Total paranefrit (*p. totalis*) – bütün böyrəkətrafı toxuma zədələnməsi ilə gedən paranefrit

Yuxarı paranefrit (*p. superior*) – böyrəyin yuxarı qütbündə lokalizə olunan paranefrit

Paranefron (*paranephron*; *para-* + yun. *nephros* böyrək) – *bax:* böyrəyin piy kapsulu

Paranekroz *(paranecrosis)* – patogen qıcıqlandırıcılar tərəfindən törədilmiş funksiya və struktur dəyişikliyinin geri dönməsi

Paraneoplastik artropatiya – digər orqanların bədxassəli şişləri fonunda qeyd olunan, diaqnoz qoyulması çətin olan artropatiya

Paraneoplastik sindrom *(syndromum paraneoplasticum)* – şişin maddələr mübadiləsinə, orqanizmin requlyator sistemlərinin funksional aktivliyinə (məs., xroniki limfoleykoz zamanı autoimmun hemolitik anemiyanın inkişafı) vasitəli təsiri ilə bağlı sindromların ümumi adı

Paranesteziya *(paranaesthesia*; sin. paraanesteziya*)* – bədənin simmetrik nahiyələrində (əsasən hər iki əl və ya ayaqlarda) hissiyyatın olmaması

Paranoid *(paranoidum*; sin. paranoid sindromu*)* – birincili və ya obrazlı sayıqlama (əsasən təqib sayıqlaması), verbal hallüsinasiyalar, psevdohallüsinasiyalar, illüziyalar və psixi avtomatizm ilə təzahür edən psixoz

Alkoqol paranoidi (*p. alcoholicum*) – xroniki alkoqolizm zamanı inkişaf edən və təqib sayıqlaması, qorxu və həyəcan affekti, hərəki və impulsiv hərəkətlərlə xarakterizə olunan kəskin psixoz

Xarici mühit paranoidi (sin. şərait paranoidi) – orqanizmin üzülməsi və ya zəifləməsi fonunda qeyri-adi şəraitdə meydana çıxan, təqib sayıqlaması, qorxu, həyəcan, verbal illüziya və hərəki oyanıqlıq şəklində təzahür edən psixogen psixoz

İnvolüsion paranoid – gecikmiş paranoid, yaşlı şəxslərdə rast gəlinən sayıqlama ideyaları

Kəskin paranoid (*p. acutum*) – tranzitor sayıqlamanın üstünlüyü ilə gedən paranoid

Şərait paranoidi – *bax:* xarici mühit paranoid

Paranoid sindromu – *bax:* paranoid

Paranoid vəziyyət – *bax:* paranoid

Paranoik (yun. *paranoia* dəlilik, ağılsızlıq) – ətrafdakılara qarşı şübhə və inamsızlıq göstərən

Paranoyya (*paranoia*; *para-* + yun. *noeo* dərk etmək, düşünmək) – həddindən artıq narahatlıq və ya qorxu ilə xarakterizə olunan, tez-tez məntiqsiz şiddət bildirən bir narahatlıq, psixoloji pozğunluq

Alkoqol paranoyyası (p. alcoholica) – xronik sayıqlama psixozu olub, xroniki alkoqolizm zamanı inkişaf edir; alkoqollu xəstələrdə əsasən qısqanclıq zəminində yaranır

Xroniki paranoyya (*p. chronica*) – xroniki gedişə malik paranoyyaların ümumi adı

Involüsion paranoyya (köh.; *p. involutionalis*) – 45-60 yaşlarda yaranan və təqib sayıqlaması, eşitmə hallüsinasiyaları ilə gedən paranoyya

Senil paranoyya (köh.; *p.senilis*) – qocalıq yaşında inkişaf edən paranoyya

Paranuziya – musiqi tonlarının yüksəkliyinin və ya səslərin xarakterini müəyyən etmək qabiliyyətinin itirilməsi

Paraplegiya *(paraplegia)* – hər iki əlin və ya hər iki ayağın iflici

Aşağı paraplegiya (*p. inferior*) – hər iki aşağı ətrafın iflici

Yuxarı paraplegiya (*p. superior*) – hər iki yuxarı ətrafın iflici

Paraplevrit *(parapleuritis)* – parietal plevra və döş qəfəsi daxili fassiya arasında yerləşən toxumanın iltihabı

Parapraksiya *(parapraxia)* – hərəkətin icrası özü-özlüyündə düzgün olsa da, qarşıya qoyulan məqsədə çatmağa imkan verməməkdən ibarət hərəkətin təhrif olunması (məs., xəstə stəkanı ağzına yaxınlaşdırmaq əvəzinə, yanağına yaxınlaşdırır)

Paraproktit (*paraproctitis*; yun. *proktos* arxa keçid; sin. periproktit) – düz bağırsaq ətrafındakı toxumanın iltihabı

Bağırsaqdankənar paraproktit (*p. extrarectalis*) – furunkul, sıyrıntılar, masserasiya zamanı iltihabi prosesin dəridən yayılması nəticəsində meydana çıxan paraproktit

Çanaq-düz bağırsaq paraproktiti (*p. pelviorectalis*) – *bax:* pelviorektal paraproktit

Çürüntülü-nekrotik paraproktit (*p. putridonecrotica*) – çürüntülü infeksiya zamanı düz bağırsaq və anal dəlik ətrafındakı toxumaların dağılması ilə xarakterizə olunan paraproktit

Dərialtı paraproktit (*p. subcutanea*) – anal dəliyin ətrafında dəri altında lokalizə olunan paraproktit

Xroniki paraproktit – kəskin paraproktitin nəticəsi olub, epitelləşmiş fistula yolu, düz bağırsaq divarında perifokal iltihab və çapıqlaşma ilə xarakterizə olunan paraproktit

İşiorektal paraproktit (*p. Ischiorectalis*; sin. oturaq-düz bağırsaq paraproktiti) – aşağıdan aralığın dərialtı toxuması, içəridən və yuxarıdan – anusu qaldıran əzələ ilə, yandan – çanağın yan divarı ilə məhdudlaşan, qapayıcı əzələ və onun fassiyası ilə örtülü sahədə yerləşən paraproktit

Kəskin paraproktit – düz bağırsağın ətrafındakı toxumaların fistula ilə nəticələnən absesi

Nalabənzər paraproktit – düz bağırsağın hər iki tərəfində yerləşən və bağırsağın önündə və ya arxasında bir-birilə əlaqədə olan iki absesin əmələ gəlməsi ilə xarakterizə olunan paraproktit

Oturaq-düz bağırsaq paraproktiti (*p. ischiorectalis*) – *bax:* işiorektal paraproktit

Pelviorektal paraproktit (*p. Pelviorectalis*; sin. çanaq-düz bağırsaq paraproktiti) – çanaq diafraqması-

nın üzərindəki toxumada lokalizə olunan paraproktit

Paraproteinemiya *(paraproteinemia*; sin. patoproteinemiya*)* – qanda paraproteinlərin miqdarının çox olması

Paraproteinoz *(paraproteinosis)* – toxumalarda paraproteinlərin yığılması ilə gedən zülal mübadiləsinin pozulması ilə xarakterizə olunan patoloji proses

Paraproteinuriya *(paraproteinuria)* – sidiklə paraproteinlərin xaric olunması

Parapsoriaz (*parapsoriasis*) – qızartı, ləkə, düyüncüklər və kəpəklənmə ilə gedən uzun sürən xroniki dermatozların ümumi adı

Damcışəkilli parapsoriaz (*p. guttata*) – qəhvəyi ləkələrə çevrilən ağımtıl pulcuqlarla örtülü tünd-qırmızı dəyirmi papulalarla təzahür edən parapsoriaz; infeksion-toksiki vaskulit nəticəsində əmələ gəlir

Lixenoid parapsoriaz (*p. lichinoides*) – sancaq başından mərci böyüklüyünədək papulaların əmələ gəlməsi ilə gedən naməlum etiologiyalı parapsoriaz

Piləkli parapsoriaz (*p. placata*) – bədənin dərisində sarımtıl-qırmızı, zəif qabıqlanan piləklərin əmələ gəlməsi; həzm aparatı orqanlarının bir sıra xəstəlikləri zamanı yaranır

Pararektopnevmoqrafiya (*para-* + anat. *rectum* düz bağırsaq + yun. *pneuma* hava + *grapho* yazmaq) – düz bağırsaqətrafı nahiyənin punksiyası və düz bağırsağa barium sulfatın yeridilməsindən sonra düz bağırsaq və bağırsaqətrafı sahənin rentgenoloji müayinəsi

Parasentez *(paracentesis*; yun. *parakentesis* deşmə*)* – otorinolarinqologiyada: kəskin orta irinli otit zamanı irinin axıdılması məqsədilə təbil pərdəsinin kəsilməsi

Parasentez iynəsi – nizəyəbənzər, iti ucu olan dəstəkli, əyilmiş nazik millə birləşən, təbil pərdəsini kəsmək və ya deşmək üçün istifadə olunan iynə

Parasetamol (*parasetamolum*) – qeyri-narkotik təsirli analgetik-antipiretik

Parasiqmatizm *(parasigmatismus*; yun. hərfi *sigma, sigmatos*, "S" səsini bildirir*)* – «S» səsinin digər səslə əvəz olunmasından ibarət nitq qüsuru

Parasimpatik sinir sistemi – avtonom sinir sistemin bir hissəsidir; onun mərkəzləri orta beyində, uzunsov beyində və onurğa beynin oma nahiyəsində yerləşir, parasimpatik sinir lifləri də həmin yerlərdən çıxır; parasimpatik sinir sistemi qüzehli qişanı, göz yaşı vəzisini, çənəaltı və dilaltı vəzisini, qulaqətrafı vəzini, ağciyər və bronxları, ürəyi, qida borusunu, mədəni, yoğun və nazik bağırsağı innervasiya edir, ürəyi sakitlik vəziyyətinə gətirir, qan təzyiqini, qanda şəkərin miqdarını aşağı salır

Parasistit *(paracystitis)* – sidik kisəsi ətrafında yerləşən toxumanın iltihabı

Xroniki parasistit (*p. chronica*) – uzun sürən və residiv verən gedişatı ilə, dizuriya, subfebril temperatur, qasıqüstü nahiyənin ağrılı olması ilə xarakterizə olunan parasistit

Kəskin parasistit (*p. acuta*) – bədən temperaturunun yüksəlməsi, qasıqüstü nahiyədə ağrı, tez-tez və ağrılı sidik ifrazı ilə xarakterizə olunan, sürətlə inkişaf edən parasistit

Kisəarxası parasistit (*p. retrocystica*) – sidik kisəsinin arxasında yerləşən parasistit

Kisəönü parasistit (*p. praecystica*; sin. ön parasistit) – qasıq sümüyü arxasında yerləşən parasistit

Ön parasistit (p. *Anterior*) – *bax:* kisəönü parasistit

Parasomniya *(*köh.; *parasomnia*, lat. *somnus* yuxu*)* – yuxu pozulmalarının ümumi adı

Parasternal xətt (*para-* + anat. *sternum* döş sümüyü) – *bax:* döş sümüyüyanı xətt

Parastruma *(*köh.; *parastruma*; anat. *glandula parathyroidea* qalxanabənzərətraf vəzi*)* – qalxanabənzərətraf vəzinin gözlə görünən böyüməsi

Parathormon (*parathormonum*; sin. paratireoid hormon) – bioloji aktiv hormonal maddə olub, qalxanabənzərətraf vəzi tərəfindən sintez olunur; qanda kalsium və fosforun səviyyəsini tənzimləyir

Paratif *(paratyphus) – Salmonella* cinsindən olan bakteriyaların törətdiyi, alimentar yolla yoluxan, bakteriemiya, nazik bağırsağın limfatik sisteminin zədələnməsi, intoksikasiya və qarın yatalağının simptomlarına oxşar klinik təzahürlərlə xarakterizə olunan infeksion xəstəliklərin ümumi adı

Paratif A *(paratyphus A) – Salmonella paratyphi* tərəfindən törədilən, klinik olaraq qarın yatalağından kəskin başlanğıcı, nəzərəçarpan titrəmə və çoxlu səpgilərin olması ilə fərqlənən paratif

Paratif B *(paratyphus B) – Salmonella schotmuelleri* tərəfindən törədilən, digər paratiflərdən daha kəskin başlanğıcı və daha çox səpgilərin olması ilə klinik fərqlənən paratif

Paratif C *(paratyphus C) – Salmonella girschfeldii* tərəfindən törədilən, digər paratiflərdən septik tipli qızdırma, artrit, xolesistit və abseslərin olması ilə fərqlənən paratif

Paratiflit *(paratyphlitis*; yun. *typhlon* kor bağırsaq*)* – kor bağırsağın xarici qişasının irinli iltihabı, ona bitişik toxumanın irinli infiltrasiyası ilə müşayiət olunur; irinli apendisit, sifilis, kor bağırsağın aktinomikozu zamanı müşahidə olunur

Paratimiya (*parathymia*; *para-* + yun. *thymos* əhval, hiss) – heç bir səbəb olmadan yaranan affektiv durum, qeyri-adekvat reaksiyalar; məs., xəstə qəmgin hadisələrə gülür, şən hadisələrə isə qəmginləşir

Paratireoidektomiya *(parathyreoidectomia*; anat. *glandula parathyreoidea* qalxanabənzərətraf vəzi + *ektomiya)* – cərrahi əməliyyat: qalxanabənzərətraf vəzisinin kənar edilməsi

Paratonzillit (*paratonsillitis*) – kəskin angina zamanı iltihabi prosesin ətraf toxumalara yayılması nəticəsində badamcıqətrafı toxumanın kəskin iltihabı

Arxa paratonzillit (*p. posterior*) – badamcıq və damaq-udlaq qövsü arasında yerləşən paratonzillit

Aşağı paratonzillit (*p. inferior*) – badamcığın aşağı qütbündə yerləşən paratonzillit

Xarici paratonzillit (*p. externa*) – badamcıqlardan xaricə doğru lokalizə olunan paratonzillit

Ön-yuxarı paratonzillit (*p. anteriosuperior*) – *bax:* ön paratonzillit

Ön paratonzillit (*p. anterior*) – badamcığın yuxarı qütbü və da-

maq-dil qövsü arasında yerləşən paratonzillit

Paratraxoma (*paratrachoma*) – xlamidiyalar tərəfindən törədilən konyunktivanın iltihabı

Paraumblikal (*paraumbilicalis*) – göbəyin yaxınlığında yerləşən, göbəkətrafı

Paraureterit *(paraureteritis*; *para-* + yun. *ureter* sidik axarı*)* – sidik axarını əhatə edən toxumaların iltihabı

Parauretrit *(paraurethritis*; *para-* + yun. *urethra* sidik kanalı*)* – qeyri-normal inkişaf etmiş parauretral axarların iltihabı

Paravertebral xətt (*linea paravertebralis*) – *bax:* onurğayanı xətt

Paravertebral sinir kələfi – qarın və ya döş boşluğunda onurğanın ön səthində yerləşən sinir kələfi; məs., qarın kələfi

Paravezikulit *(paravesiculitis*; *para-* + anat. *vesicula seminalis* toxum qabarcığı*)* – toxum qabarcıqlarını əhatə edən hüceyrənin iltihabı

Parazit *(*yun. *parasites* özgə xərcinə dolanan*)* – başqa bir orqanizmin hesabına qidalanan və əksər hallarda ona ziyan vuran orqanizm (bit, birə, gənə, taxtabiti, ağcaqanad)

Daimi parazit – bütün həyat tsikli sahibinin orqanizminə bağlı olan parazit (məs., insan biti)

Fakultativ parazit – həm də sahibinin orqanizmindən kənarda fəaliyyət göstərə bilən parazit

Həqiqi parazit – *bax:* obliqat parazit

Hüceyrədaxili parazit – sahibinin hüceyrəsi daxilində yaşayan parazit (məs., plazmodi)

Qansoran parazit – sahibinin qanı ilə qidalanan parazit

Obliqat parazit – sahibinin orqanizmindən kənarda mövcud ola bilməyən parazit (məs., əksər helmintlər)

Parazit daşıyıcılığı – xəstəliyin nəzərəçarpan əlamətlərini büruzə vermədən insan orqanizmində patogen parazitlərin uzun müddət yaşaması

Pankreonekroz (*pancreonecrosis*; yun. *pankreas* mədəaltı vəzi + *nekroz*) – *bax:* hemorragik pankreatit

Parazitar axromiya (*achromia parasitaris*) – *bax:* sarı tropik dəmrov

Parazitar göbələklər *(fungi parasitici)* – canlılarda xəstəlik törədən göbələklərin ümumi adı

Parazitar indeks – *bax:* parazitar malyariya indeksi

Parazitemiya (*parazit* + yun. *haima* qan) – qanda parazitar xəstəlik törədicisinin olması, məs., malyariya, tripanosom plazmodiləri

Parazitizm *(*yun. *parasites* başqasının hesabına yaşayan*)* – bioloji növlər arasında qida əlaqə forması olub, partnyor orqanizm canlı sahibinin bədənindən həm qidalanma mənbəyi, həm də məskunlaşma (yaşama) yeri kimi istifadə edir və adətən ona zərər yetirir

Daimi parazitizm (sin. stasionar parazitizm) – parazitin həyatının bütün mərhələlərində mövcud olan parazitizm

Müvəqqəti parazitizm – parazitin yalnız qidalandığı zaman mövcud olan parazitizm, məs., qansoran ağcaqanadlarda

Vaxtaşırı parazitizm – parazitin inkişafının müəyyən mərhələlərində mövcud olan parazitizm

Stasionar parazitizm – *bax:* daimi parazitizm

Parazitofobiya *(parasitophobia)* – parazitlərlə yoluxmadan patoloji qorxma

Parazitologiya (*parazit* + yun. *logos* elm) – biologiyanın parazitləri, onlarla mübarizəni və parazitar xəstəlikləri öyrənən bölməsi

Parazitoloji şöbə – sanitar-epidemioloji stansiyanın parazitar xəstəliklərlə mübarizəni təşkil edən şöbəsi

Parazitosenoz (*parazit* + yun. *koinos* ümumi) – orqanizmdə məskunlaşmış bütün parazitlərin, o cümlədən sahib orqanizmdə eyni zamanda yaşayan mikroorqanizmlərin məcmusu

Parazona (köh.) – diş minasının dentinə bitişik olan hissəsi

Parç sistektomiyası (C. Partsch, 1855-1932, alm. cərrah-stomatoloqu) – cərrahi əməliyyat: əməliyyat yarasının tikilməsi ilə diş şisti qişasının soyulması

Parç sistotomiyası (C. Partsch) – cərrahi əməliyyat: boşluğunu tamponlamaqla diş sistinin xaric edilməsi

Parenxima *(parenchyma*; lat. *par* barabər, yun. *enchyma* doldurulmuş*)* – daxili orqanın birləşdirici toxuma kütləsi və kapsulla məhdudlaşmış əsas funksiya göstərən elementlərinin məcmusu (məs., qaraciyər, böyrək, ağciyər)

Parenximatoz *(parenchymatosis)* – parenximaya aid olan

Parenximatoz degenerasiya (*degeneratio parenchymatosis*) – epidermis hüceyrələrinin degenerasiyası, şəffaf olmayan ləkələrin meydana gəlməsi və görmə itiliyinin zəifləməsi ilə təzahür edən irsi xəstəlik

Parenteral hepatit (*hepatitis parenteralis*) – *bax:* zərdab hepatiti

Parenteral qidalanma – xəstəyə maye qida maddələrinin (zülal preparatları, qlükoza məhlulu və s.) birbaşa venaya və ya dərialtı (nadir hallarda əzələdaxili) yeridilməsi ilə aparılan süni qidalanma

Parenteral üsul *(parenteralis*; yun. *entera* bağırsaq*)* – maddələrin orqanizmə mədə-bağırsaq traktını yan keçməklə yeridilməsi üsullarının ümumi adı; parenteral yeridilmə termini ilə əsasən inyeksiyaların yeridilməsi nəzərdə tutulur

Paresteziya *(paraesthesia)* – xarici qıcıq olmadan spontan (özü-özünə) meydana çıxan keyləşmə, yanma, arabir sancma, iynələmə hissiyyatı; beyin və onurğa beyni hissi mərkəzlərinin zədələnməsindən əmələ gələ bilir

Berger paresteziyası (O. Berger, 1844-1885, alm. nevropatoloqu) – yerişin əvvəlində öncə bir ayaqda və ya eyni anda hər iki ayaqda başlayan və buddan barmaqlara qədər yayılan tutmaşəkilli paresteziya,

Hamilələrin paresteziyası (*p. gravidarum*) – əl və ayaqlarda hamiləlik toksikozunun təzahürü kimi yaranan və inkişaf edən paresteziya

Pareydoliya *(pareydolon)* – hər hansı səthdə müəyyən əşyanın görüntüsü effekti ilə bağlı illüziya, məs., xalçanın və ya divar kağızının şəkillərinin, tavan və ya divardakı çatların və ya ləkələrin yerində

Parez *(paresis*; yun. zəifləmə*)* – nevroloji sindrom olub, müvafiq əzələlərin innervasiyasının pozulması nəticəsində iradi hərəkətlərin gücünün və amplitudasının azalması ilə büruzə verir; natamam iflic, bədənin müəyyən vəzifə daşıyan hissəsinin zəifləməsi

Parxon sindromu (C. Parhon, 1874-1969, rumın alimi) – *bax:* hidropeksik sindrom

Parietal *(parietalis*; lat. *paries, parietis* divar; anat. *os parietale* əmgək sümüyü*)* – 1) boşluq və ya orqanın divarına aid olan; 2) əmgək sümüyünə aid olan

Parieto- (lat. *paries, parietis* divar) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "orqan və ya boşluğun divarına aid" mənasını verir

Parietoqrafiya (*parieto-* + yun. *grapho* yazmaq) – boşluqlu orqanın daxilinə və ətraf toxumalara qaz yeridildikdən sonra divarlarının rentgenoloji müayinəsi

Parietotomoqrafiya (*parieto-* + yun. *tomos* qat, lövhəcik + *grapho* yazmaq) – boşluqlu orqanın daxilinə və ətraf toxumalara qaz yeridildikdən sonra divarlarının tomoqrafik müayinəsi

Parin refleksi (В.В. Парин, 1903-1971, sov. fizioloqu) – ağciyər kötüyü baroreseptorlarının qıcıqlanması zamanı bradikardiya və dalağın həcminin böyüməsi

Parino konyunktiviti (H. Parinaud, 1844-1905, frans. oftalmoloq) – hərarətin yüksəlməsi, çənəaltı və qulaqətrafı limfa düyünlərinin böyüməsi ilə müşayiət olunan xoralı və düyünlü birtərəfli konyunktivit; tulyaremiya, listerioz, limfoqranulematoz və bəzi digər xəstəliklər zamanı rast gəlinir

Parino sindromu (H. Parinaud; sin. orta onurğa beyni sindromu; vertikal baxışın iflici) – baxışın yuxarıya iflici, konvergensiya pozulmaları və göz qapaqlarının ikitərəfli, hissəvi ptozu

Parlaq dırnaq (*unguis nitiduse rasione)* – lövhəsinin səthi cilalanmış görünən dırnaq; dərinin davamlı qaşınması nəticəsində müşahidə olunur

Perri-Romberq sindromu (C.H. Parry, 1755-1822, ing. həkimi; M.H. Romberg, 1795-1873, alm. terapevti) – üzün birtərəfli güclənən atrofiyası: üzün bir tərəfində dəri, dərialtı toxuma, muskulatura tədricən atrofiyalaşır; çox vaxt səs bağları, qırtlaq və dilin yarısı atrofiyalaşır; ağrıyan nahiyədə saşlar, kirpiklər və qaşlar tökülür

Parkinson əleyhinə vasitələr – *bax:* antiparkinson vasitələr

Parkinson xəstəliyi (*morbus Parkinsoni*; J. Parkinson, 1755-1824, ing. həkimi) – mərkəzi sinir sisteminin idiopatik, ləng irəliləyən degenerativ xəstəliyi; mərkəzi sinir sistemində dopamin neyronlarının dağılıb məhv olması ilə inkişaf edir; əlamətləri: bədəndə titrəmə, yavaş hərəkətetmə və tarazlığın pozulması halları

Parkinsonizm (*parkinsonismus*) – hipokineziya, əzələ rigidliyi, sakitlik halında tremor (əsmə), qamətin əyilməsi, bəzi hallarda psixi dəyişikliklərlə gedən nevroloji sindrom

Parks Veber sindromu (F. Parkes Weber, 1863-1962, ing. həkimi) – zədələnmiş ətrafın hipertrofiyası, dərialtı venaların varikoz genişlənməsi ilə müşayiət olunan, zədələnmiş ətrafda çoxsaylı arteriovenoz fistula və anevrizmaların olmasından ibarət inkişaf anomaliyası

Parmidin (*parmidinum)* – angioprotektor təsirli maddə

Parodont *(parodontium)* – diş kökünü əhatə edən anatomik törəmələrin cəmi

Parodontit – dişin dibini, sümük alveollarını və damağı əhatə edən toxumanın iltihabı

Parodontodinamometr (*parodont* + *dinamometr*) – parodontun müxtəlif istiqamətlərdən olan mexaniki yükə həssaslığını müəyyən edən cihaz

Parodontoklaziya *(parodontoclasia*; yun. *klasis* qırılma, dağılma*)* – *bax:* parodontoz

Parodontoqramma (*parodont* + yun. *gramma* yazı, qeyd) – parodontun funksional vəziyyətinin müayinəsi nəticələrinin cədvəl şəklində qeyd olunması; cədvəldə dişlərin rentgenoqrafiyasının, diş-diş əti ciblərinin dərinliyinin şərti vahidlərlə ifadə olunmuş ölçüləri göstərilir

Parodontolit (köh. *parodontolithus*; *parodont* + yun. *lithos* daş) – *bax:* diş daşı

Parodontoliz (sin. parodontun idiopatik xəstəliyi) – diş əti və sümük toxuması da daxil olmaqla, parodontun bütün toxumalarının lizisə (parçalanmaya) uğradığı ağır iltihabı-distrofik xəstəlik

Parodontoma *(parodontoma)* – parodontun şişi

Parodontopatiya *(parodontopathia*; sin. paradentopatiya*)* – parodontun xəstəliklərinin ümumi adı

Parodontoz (*parodontosis*; sin. amfodontoz, paradentit, parodontoklaziya, polialveoliz) – parodont (diş ətrafı) toxumalarında baş verən distrofik patologiya; diş ətinin iltihabı, dişlərin laxlaması ilə təzahür edir

Parodontun idiopatik xəstəliyi – *bax:* parodontoliz

Paroksizm *(paroxysmus*; yun. *paroxysmos* xəstəliyin kəskin tutması*)* – xəstəliyin qısa zaman fasilələrində qəflətən təkrarlanan və güclənən tutmaları

Paroksizmal iflic *(paralysis paroxysmalis)* – ətrafların tutmaşəkilli iflici, vətər reflekslərinin zəifləməsi, əzələlərin elektrik keçiriciliyinin itməsi, qanda kalium miqdarının aşağı enməsindən ibarət irsi xəstəlik

Paroksizmal mioqlobinuriyası *(myoglobinuria paroxysmalis)* – vaxtaşırı təzahür edən mioqlobinuriya və əzələ ağrıları ilə təzahür edən naməlum etiologiyalı irsi xəstəlik

Paroksizmal rikketsioz (*rickettsiosis paroxysmalis*) – *bax:* səngər qızdırması

Paroksizmal taxikardiya (*tachycardia paroxysmalis*) – heterotop avtomatizm ocağının aktivliyi və ya dalğaların miokarda patoloji sirkulyasiyası nəticəsində qəflətən başlayan və ya qəflətən sona çatan taxikardiya tutması

Düyünlü paroksizmal taxikardiya – *bax:* paroksizmal atrioventrikulyar taxikardiya

Mədəciküstü paroksizmal taxikardiya (*t. paroxysmalis supraventricularis*) – *bax:* supraventrikulyar paroksizmal taxikardiya

Paroksizmal atrioventrikulyar taxikardiya (*t. paroxysmalis atrioventricularis*) – qulaqcıq-mədəcik düyünü ətrafında patoloji dalğanın sirkulyasiyası nəticəsində meydana çıxan taxikardiya tutması

Paroksizmal mədə taxikardiyası (*t. paroxysmalis ventricularis*) – patoloji dalğanın mədəcik miokardında

sirkulyasiyası nəticəsində meydana çıxan taxikardiya tutması

Paroksizmal sinus taxikardiyası (*t. paroxysmalis sinuosa*) – sinus-qulaqcıq düyünü nahiyəsində oyanıqlığın təkrar girişi fenomeni ilə xarakterizə olunan paroksizmal taxikardiya

Paroksizmal supraventrikulyar taxikardiya (*t. paroxysmalis supraventricularis*) – ürəyin aparıcı ritminin heterotop avtomatizm ocağının qulaqcıq miokardında yerləşdiyi taxikardiya

Sağ mədəcik paroksizmal taxikardiyası (*t. paroxysmalis ventriculi dextri*) – ritmin aparıcısı sağ mədəcik miokardında və ya His dəstəsinin sağ ayaqcığında heterotop avtomatizm ocağı olan taxikardiya tutması

Sol mədəciyin paroksizmal taxikardiyası (*t. paroxysmalis ventriculi sinistri*) – ritmin aparıcısı sol mədəcik miokardında və ya His dəstəsinin sol ayaqcığında heterotop avtomatizm ocağı olan taxikardiya tutması

Parona əməliyyatı (F. Parona, ital. cərrahı, 19 əsr) – varikosele zamanı icra olunan əməliyyat: torbacıq yaratmaqla xayanın vaginal qişasının kəsilib çevrilməsi, bu torbaya toxum borucuğu yerləşdirlir; torbacığın kənarları qasıq kanalının səthi halqasının kənarlarına tikilir

Paronixiya *(paronychia*; *par-* + yun. *onyx, onychos* dırnaq; sin. perionixiya*)* – dırnaqətrafı toxumanın iltihabı

İrinli paronixiya (*p. supprativa*) – *bax:* piokokk paronixiyası

Kandidamikotik paronixiya (*p. Candidamycotica*; sin. kandidoz paronixiya, mikotik paronixiya) – Candida albicans parazit göbələkləri tərəfindən törədilən, dırnaq yastığının zəif irinləməsi ilə xarakterizə olunan paronixiya

Kandidoz paronixiya (*p. candidotica*) – *bax:* kandidamikotik paronixiya

Mikotik paronixiya (*p. mycotica*) – *bax:* kandidamikotik paronixiya

Piokokk paronixiyası (*p. Pyococcica*; sin. irinli paronixiya) – irinlədici kokklar tərəfindən törədilən və dırnaq yatağının kəskin irinli iltihabı ilə xarakterizə olunan paronixiya

Xoralı paronixiya (*p. ulcerosa*) – dırnaq yastığının xoralaşması ilə xarakterizə olunan paronixiya

Parona-Piraqov sahəsi (F. Parona, ital cərrahı, 19 əsr; Н. И. Пирогов, 1810-1881, rus cərrahı) – saidin aşağı 1/3-də öndən baş barmağı bükən uzun əzələ və barmaqları bükən dərin əzələ, arxadan kvadrat pronator və sümükarası arakəsmə ilə məhdudlaşan sahə

Paroreksiya (*parorexia*; yun. *orexis* iştaha) – təhrif olunmuş iştaha

Parosmiya (*parosmia*; yun. *osme* iybilmə, qoxu) – qoxu hissinin illüziyalar və ya hallüsinasiyalar şəklində təhrif olunması

Parostoz *(parostosis)* – yumşaq toxumanın sümükləşməsi (ocaqlı nekroz və toxumaların əhəngləşməsi ilə müşayiət olunur)

Parotid *(paroditis*; anat. *glandula parotis (parotidis)* qulaqyanı vəzi*)* – qulağa yaxın yerləşən, qulaqyanı vəziyə aid

Parotit *(parotitis)* – qulaqyanı vəzinin iltihabı

Epidemik parotit (*p. epidemica*) – *Paramyxoviridae* virusu tərəfindən törədilən, vəzili orqanların qeyri-il-

tihabi zədələnməsi və sinir sisteminin iltihabi prosesləri ilə gedən kəskin xoşxassəli yoluxucu xəstəlik

Xroniki interstisial parotit (*p. interstitialis chronica*) – vəzinin böyüməsi və qalınlaşması ilə təzahür edən və birləşdirici toxumasının zədələnməsi ilə gedən xroniki parotit

Xroniki parenximatoz parotit (*p. parenchymatosa chronica*) – vəzinin parenximasının zədələnməsi nəticəsində boşluqların yaranması ilə gedən xroniki parotit

Kəskin seroz parotit (*p. serosa acuta*) – vəzinin parenximasının ödemi və seroz ekssudatın əmələ gəlməsi ilə xarakterizə olunan kəskin parotit

Qanqrenoz parotit (*p. gangraenosa*) – bütün vəzinin nekrozu ilə səciyyələnən kəskin parotit

Yalançı parotit (*p. spuria*) – qulaqyanı limfa vəzilərinin parotiti xatırladan kəskin iltihabı

Parro atrofiyası (J.M.J. Parrot, 1829-1883, frans. həkimi) – dölün xondrodistrofiyası zamanı qeyri-proporsional cırtdanboyluq

Parro xəstəliyi (J.M.J. Parrot; sin. Parro psevdoiflici) – uşaqlarda anadangəlmə sifilis zamanı həyatın ilk aylarında ətraflarda aktiv hərəkətin olmaması, passiv hərəkətin ağrılı olması, uzun borulu sümüklərin epimetafizlərindən qummaların əmələ gəlməsi və sınmaya meylli olması

Parro psevdoiflici (J.M.J. Parrot) – *bax:* Parro xəstəliyi

Parro simptomu (J.M.J. Parrot) – boyun nahiyəsinin dərisini qıcıqlandırdıqda bəbəyin genişlənməsi; eningitin əlaməti

Parro-Marri xəstəliyi (J.M.J. Parrot; P. Marie, 1853-1940, frans. nevropatoloqu) – *bax:* xondrodistrofiya

Parsial cinsi abstinensiya – surroqant və ya qeyri-iradi cinsi məmnunluq şəraitində orqazmla nəticələnən cinsi abstinensiya

Parsial demensiya – intellektual qabiliyyətin enməsinin xüsusi forması

Partenofobiya (*parthenophobia*) – bakirə qızlardan qorxma

Partinqton sindromu – dərinin məməyəbənzər qatında amiloidin toplanması, hiperpiqmentasiya, daxili orqanların və mərkəzi sinir siteminin pozğunluqları

Partlayıcı civə – mexaniki zərbəyə çox həssaslığı ilə fərqlənən, alışma temperaturu 170^0 C, partlayış nəticəsində alınan istilik 350 kkal/kq, partlayış sürəti 5400m/san olan partlayıcı maddə

Partlayıcı maddələr – müəyyən xarici təsirlər nəticəsində istilik ayıran və bərk qızmış qazlar yaradan kimyəvi birləşmələr və ya onların qarışıqları

Partlayış dalğası – partlayış zamanı yüksək təzyiq nəticəsində əmələ gələn dalğanın hər hansı mühitdə və partlayış yerində sürətlə ətrafa yayılması

Partusisten (*partusisten*) – tokolitik təsirli maddə

Parulis (*parulis*) – *bax:* kəskin odontogen periostit

Parurez (ing. *paruresis*) – insanlar arasından qeyri-iradi işəmənin qorxusu

PAS reaksiyası (Periodic Acid Schiff reaction; sin. ŞİK-reaksiyası) – toxumalarda qlikogenin, neytral qliko-, mukoproteidlərin və qlikolipidlərin müəyyən edilməsini histokimyəvi üsulu; tədqiq olunan toxuma Şiff reaktivinin təsirinə

məruz qaldıqdan sonra yod turşusu ilə işlənir, reaksiya müsbət olduqda tədqiq olunan toxuma qırmızı rəngə boyanır

Pasiyent *(*lat. *patiens* əzab çəkən, *patior* sözündən – dözmək, əziyyət, əzab çəkmək*)* – tibbi yardım göstərilən şəxs

Passavan yastığı (Ph.G. Passavant, 1815-1893, alm. cərrahı) – udqunma zamanı udlağın burun hissəsini ağız hissəsindən ayıran, udlağın arxa divarının köndələn qabarması

Passiv alqolangiya *(algolagnia passiva) – bax:* mazoxizm

Passiv Artyus fenomeni (N.M. Arthus, 1862-1945, frans. fizioloqu) – aktiv sensibilizə olunmuş donordan alınmış allergen və anticismin eksperimental heyvana yeridilməsindən sonra yaranan Artyus fenomeni

Passov əməliyyatı (A. Passow, 1859-1926, alm. otorinolarinqoloqu) – cərrahi əməliyyat: qulaqda aparılmış radikal cərrahi əməliyyatdan sonra əmələ gələn dəliyin ikiqat yumuşaq toxuma ilə bağlanması

Passov-Knapp əməliyyatı (A. Passow; Knapp) – plastik əməliyyat: qulaq sırğalığının ölçüsünün kiçildilməsi və ikiləşməsinin aradan qaldırılması

Pasta *(*ital. *pasta* xəmir*)* – tərkibində tozabənzər maddənin 25%-dən yuxarı olduğu məlhəm (maz)

Paster sobası (L. Pasteur, 1822-1895, frans. mikrobioloq və kimyaçı) – quru havalı sterilizator

Pasterizasiya (L. Pasteur) – orqanik mayelərin (maye qida məhsulları, qidalı mühitlər və s.) 100^0 C-dən aşağı temperaturda qızdırmaqla mikroorqanizmlərin vegetativ formalarının məhv edilməsi yolu ilə zərərsizləşdirilməsi üsulu

Pasternatski simptomu (F.İ. Pasternatski, 1845-1902, sov. terapevti) – bel nahiyəsinə döyəclədikdə böyrəkdə ağrının meydana gəlməsi; məs., pielonefrit, böyrək daşı xəstəliyi, hidronefroz, paranefrit zamanı müsbət olur

Pastia simptomu (C. Pastia, rumın həkimi) – skarlatina zamanı səpgilərin aktiv dövründə dəri büküşlərinin tünd qırmızı rəngdə olması (məs., dirsək büküşündə)

Pastorova əməliyyatı (J. Pastorova, Çexoslovakiyalı cərrah) – düz bağırsağın sallanması zamanı icra olunan cərrahi əməliyyat, böyük sağrı əzələsindən istifadə edilərək xarici sfinktorun yaradılması

Pastoz (*pastosus*) – şişkin, xəmir kimi

Pastozluluq – zəif ödem şəraitində dəri və dərialtı toxumanın elastikliyinin azalması və rənginin solğunlaşması

Paşen cisimcikləri (E. Paschen, 1860-1936, bakterioloqu) – çiçək xəstələrində səpgi elementinin möhtəviyyatında tapılan virionlar

Paşev əməliyyatı (K. Пашев, bolqar oftalmoloqu) – göz yarığının xarici bucağı yaxınlığında yuxarı və aşağı göz qapaqları dərisinin üçbucaq hissələrinin kəsilməsi və tikişlərin qoyulması ilə aparılan blefarorafiya üsulu

Pat- *(*pato-; yun. *pathos* hiss, həyəcan, xəstəlik*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "patoloji vəziyyətə, xəstəliyə" aid mənasını verir

Patau sindromu (K. Patau, amer. pediatr və genetik) – *bax:* D trisomiyası

Patell *(*lat. *patella* diz qapağı*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "diz qapağına aid" mənasını verir

Patella xəstəliyi (V. Patella, 1856-1928, ital. həkimi) – mədə vərəmi zamanı mədə çıxacağının fibroz iltihabı nəticəsində daralması

Patellektomiya *(patellectomia)* – cərrahi əməliyyat: diz qapağının çıxarılması

Patellodez *(patellodesis)* – cərrahi əməliyyat: diz oynağında hərəkəti məhdudlaşdırmaq məqsədilə diz qapağı və bud sümüyünün ön səthi arasında sinostozun yaradılması

Patellopeksiya – diz qapağının cərrahi yolla budun aşağı ucuna təsbit edilməsi

Patelloplastika *(patelloplastica)* – cərrahi əməliyyat: zədələnmiş diz qapağının bərpa edilməsi

Patent (lat. *patere, patent* açıq qoymaq) – hər hansı ixtiraya verilən şəhadətnamə, sənəd

Patergiya (köh.; *pat-* + yun. *ergon* hərəkət) – orqanizmin hər hansı bir antigenə qarşı həssaslığının müxtəlif formalarının ümumi adı

Paterson-Kelli sindromu (D. R. Paterson, 1883-1939, ing. otorinolarinqoloqu; A. B. Kelly, 1865-1941, şotl. otorinolarinqoloqu)– *bax:* Plammer-Vinson sindromu

Patofiziologiya – *bax:* patoloji fiziologiya

Patofobiya (*pathophobia*; sin. nozofobiya) – xəstə olmaqdan qorxma

Patogenez *(pathogenesis)* – 1) xəstəliklərin inkişafı, gedişi və nəticələrinin ümumi qanunauyğunluqları barədə elm; 2) konkret xəstəliyin, patoloji prosesin inkişaf mexanizmi

Patogenlik – xəstəlik yaratma qabiliyyəti

Patoqnomonik (*pato-* + yun. *gnomonikos* bilən, bilikli, *gnome* əlamət) – məlum xəstəlik üçün səciyyəvi olan (əlamət barədə)

Patoqnomonik əlamət – *bax:* patoqnomik simptom

Patoqnomonik simptom *(*yun. *pathos* xəstəlik + *gnomonikos* bilən, bilikli*)* – yalnız müəyyən xəstəlik üçün səciyyəvi olan və son diaqnozu qoymağa əsas verən simptom

Patoloji affekt – stress nəticəsində qəflətən meydana çıxan qısamüddətli psixi pozuntu; dərin yuxu ilə nəticələnir, çox vaxt retroqrad amneziya müşahidə olunur

Patoloji anatomiya (*anatomia pathologica*) – meyitin yarılması və ya cərrahi əməliyyat olunmuş xəstələrdən götürülmüş materialın morfoloji müayinəsi ilə məşğul olan elm

Patoloji arteriovenoz çarpazlaşma fenomeni – *bax:* Saylus-Qunn simptomu

Patoloji buynuzlaşma *(keratosis pathologica)* – buynuzlaşma prosesinin zəifləməsi və ya normadan artıq olması, yaxud normal halda buynuzlaşmanın getmədiyi orqan və toxumada təsadüf edilməsi; məs., dil, orta qulaq, qida borusu, qırtlaq və s.

Patoloji fiziologiya – patoloji proseslərin və xəstəliklərin inkişafı, gedişatı və nəticələrinin ümumi qanunauyğunluqlarını öyrənən tibbi elm

Patoloji hal *(status pathologicus)* – orqanizm üçün bioloji baxımdan mənfi təsir edən normadan kənara çıxma

Patoloji proses – patogen amilin təsirindən sonra orqanizmdə yaranan zədələyici reaksiyaların ardıcıllığı

Patomorfologiya (sin. patoloji anatomiya) – *bax:* patoloji anatomiya

Patoplastika (*pato-* + yun. *plastike* formalaşma, əmələgəlmə) – əlavə amillərlə (konstitusion, yaş, psixogen, sosial və s.) xəstəliyin klinik mənzərəsinin formalaşması

Patopsixologiya – psixi və somatik xəstəliklərlə əlaqədar psixoloji durumun öyrənilməsi

Patronaj *(*frans. *patronage*; lat. *patronus* himayəçi*)* – insanların əmək və məişət şəraitinin yoxlanılması, evdə sağlamlaşdırıcı tədbirlərin aparılması, şəxsi gigiyena qaydalarının yeridilməsindən ibarət profilaktik iş forması

Patroyofobiya (*patroiophobia*) – irsi xəstəliklərdən qorxma

Patterson-Stivenson-Fonten sindromu – aşağı çənənin hipoplaziyası, barmaqların və damağın defekti, retroqnatiya

Paul borusu (T.Th. Paul, 1851-1941, ing. cərrahı) – dodağabənzər bağırsaq fistulunun obturasiyası üçün nəzərdə tutulan şüşə boru

Paul simptomu – zirvə vurğusunun ürəyin digər hissələrinin döyüntüsünə nisbətən zəifləməsi (ekssudativ perikardit üçün xas olan əlamət)

Paul sınağı (G. Paul, 1859-1935, avstr. həkim) – çiçək xəstəliyinin xəstənin qovuqcuğunun tərkibi ilə dovşanın buynuz qişası vasitəsilə yoluxdurulmasına əsaslanan diaqnostika üsulu

Pavlov simptomu (İ.P. Pavlov, 1849-1936, sov. fizioloqu) – katatoniya zamanı xəstələrin adi və ya yüksək səslə bildirilən müraciətə cavab verməməsi, pıçıltı ilə deyiləndə isə əməl etməsi

Pavlovski toru (E.H. Павловский, 1884-1965, sov. zooloq və parazitoloqu) – həşərat və birələrin dişləməsindən müdafiə vasitəsi, üz və boyunu örtən və baş geyiminə bərkidilən, repellent hopdurulmuş xırda deşikli tor şəklindədir

Pavlovun bağırsaq fistulu (İ.P. Pavlov, 1849-1936, sov. fizioloqu) – innervasiyası tam saxlanılmaqla, izolə olunmuş bağırsağa qoyulan fistul

Payl xəstəliyi (E. Pyle, amer. həkimi) – burun tənəffüsünün çətinləşməsi, eşitmənin zəifləməsi, geniş və yastı burun, uzun borulu sümüklərin qalınlaşması, diz oynaqlarının valqus deformasiyası, dirsək oynağının bükücü ankilozu, kəllə sümüyünün ölçülərinin böyüməsi və deformasiyası ilə gedən irsi xəstəlik

Payl sindromu (E. Pyle) – *bax:* Payl xəstəliyi

Paylı böyrək *(ren lobularis)* – paylı quruluşa malik böyrək, döl üçün normal, böyüklərdə isə inkişaf anomaliyası kimi hesab edilir

Paylı diz qapağı (*patella partita*) – inkişaf anomaliyası: iki və ya üç fraqmentdən təşkil olunmuş diz qapağı

Payns simptomu (B. Pines; sin. Pins simptomu) – arteriolaların reflektor spazmının səbəb olduğu miokard infarktı zamanı prekordial nahiyədə dərinin soyuması və avazıması

Payr əməliyyatı (E. Payr, 1871-1946, alm. cərrahı) – cərrahi əməliyyat: düz bağırsağın sallanması zamanı anal dəliyin daraldırlması məqsədilə budun enli fassiyasının bir hissəsinin anal dəlik ətrafındalı dərinin altına tikilməsi

Payr xəstəliyi (E. Payr) – *bax:* Payr sindromu

Payr limfodrenajı (E. Payr) – cərrahi əməliyyat: fil xəstəliyi zamanı limfanın əzələlərə axınını təmin etmək

məqsədilə budun enli fassiyasının bir hissəsinin kəsilməsi

Payr sıxacı (E. Payr) – mədə rezeksiyası əməliyyatlarında istifadə olunan cərrahi sıxac; dörd şarnirli kilidi, işçi dodaqlarının ucunda isə onları əyilməkdən qoruyan dəlik və fiksəedici ştift mövcuddur

Payr simptomu (E. Payr) – irinli artritlə zədələnmiş oynağın xarici qıcıqlandırıcılara reaksiyasının olmaması; oynağın ankilozlaşmasını göstərən əlamət

Payr sindromu (E. Payr; sin. Payr xəstəliyi) – həddindən artıq uzun bağırsağın dalaq bucağı nahiyəsində əyilməsi nəticəsində çənbər bağırsağın keçməməzliyi

Payr üsulu (E. Payr) – amputasiya olunmuş süd vəzinin yerində olan qüsuru aradan götürmək üçün əks tərəfdən sağlam süd vəzisinin köçürülməsi

Payrın damar tikişi (E. Payr) – silindrik maqnezium protezlərindən istifadə etməklə damarların uc-uca birləşdirilməsi üsulu

Pazini-Pyerini atrofodermiyası (A. Pasini, 1875-1944, ital. dermatoloq; L. Pierini, argen. dermatoloq, 20-ci əsr) – məhdud sklerodermiya zamanı göyümtül-bozumtul rəngli ləkəli çökəkliyin olması

Pean kəsiyi (J.E. Pean, 1830-1898, frans. cərrahı) – böyrəklərə peritondanxaric müdaxilə məqsədilə qarnın düz əzələsinin xarici kənarından onurğaya doğru aparılan köndələn kəsik

Pean sıxacı (J.E. Pean) – qanaxmanı dayandırmaq üçün istifadə olunan uzun dişsiz sıxac

Pecetoid epitelioma – *bax:* xoralaşmamış səthi yastı dəri bazalioması

Ped- (pedo-; yun. *pais, paidos, paidion* uşaq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "uşağa aid", "uşaq" mənasını verir

Pedaudiologiya – eşitmə qüsuru olan uşaqların təlim və tərbiyəsi üsullarının məcmusu

Pederastiya (yun. *paiderastia*; sin. uranizm) – kişi homoseksualizmi

Pediatr (*ped-* + yun. *iatros* həkim) – uşaq xəstəliklərinin diaqnostika, müalicə və profilaktikası, uşaq sağlamlığının qorunması məsələləri üzrə ixtisaslaşmış həkim-mütəxəssis

Pediatrik kömək – 16 yaşınadək uşaqlara göstərilən tibbi-profilaktik yardım

Pediatriya *(pediatria)* – klinik təbabətin uşağın inkişafını, uşaq yaşlarının fiziologiya və patologiyasını, uşaq xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasını öyrənən sahəsi

Pedikulofobiya *(pediculophobia*; sin. ftiriofobiya*)* – bitlə yoluxmadan qorxma

Pedikulyoz *(pediculosis)* – bitlərlə yoluxma

Pediofobiya *(paediophobia)* – gəlinciklərdən qorxma

Pedjett dermatomu (E.C. Padgett, 1893-1946, amer. cərrah) – dəri transplantatlarını kəsmək üçün aparat

Pedjet hüceyrələri (J. Paget, 1814-1899, ing. cərrah və patoloqu) – süd vəzisi axacaqlarının epitelində iri solğun nüvəli, açıq rəngli hüceyrələr; bu hüceyrələrin epidermisdə əmələ gəlməsi süd vəzisinin məməcik nahiyəsində birincili xərçəngin əlamətidir

Pedjet xəstəliyi – 1) *bax:* süd vəzisi giləsinin Pedjet xərçəngi; 2) bud

və qamış sümüklərinin, onurğanın, kəllə sümüyünün deformasiyası ilə gedən irsi xəstəlik

Pedjet-Şretter sindromu (J. Paget, 1814-1899, ing. cərrahı; L. Schroetter, 1837-1908, avstr. həkim) – körpücükaltı venaların əzələlər və vətərlərlə sıxılması nəticəsində yuxarı ətrafın venoz qan dövranının kəskin pozulması simptomokompleksi

Pedofiliya (*paedophilia*; yun. *paidos* uşaq, *philia* sevgi) – psixi pozğunluq: uşaqlara qarşı cinsi meyllilik

Pedofobiya *(paedophobia)* – 1) uşaqlardan qorxma; 2) ailədə uşağın doğulması qorxusu

Pedopsixiatriya – *bax:* uşaq psixiatriyası

Pedrozo xəstəliyi (Pedroso) – *bax:* xromomikoz

Pedunkulit *(pedunculitis)* – böyrək qapısı nahiyəsində böyrəyin magistral damarlarını əhatə edən piy toxumasının iltihabı

Pedunkulotomiya *(pedunculotomia)* – beyin ayaqcığının gətirici yollarının və nüvələrinin dağıdılması cərrahi əməliyyatı

Pektalgik sindrom (sin. döş qəfəsinin ön divarının sindromu) – miokard infarktının yaranmasından bir neçə həftədən sonra inkişaf edir, parasternal nahiyədə müxtəlif intensivli ağrılar meydana çıxmağa başlayır, palpasiya zamanı döş-qabırğa birləşmələri ağrılı olur, xəstə qollarını qaldırdıqda ağrılar baş verir

Pektorilokviya (lat. *pectus, pectoris* döş, sinə + *loqui* danışmaq) – kəskinləşmiş bronxofoniya; auskultasiya zamanı xəstənin tələffüz etdiyi sözlər aydın şəkildə başa düşülür; ağciyərdə yerləşən qalın divarlı periferik boşluq zamanı müşahidə olunur

Pelada (frans. *pelade* saçların tökülməsi, dazlaşma) – *bax:* alopesiya

Peladofobiya (*peladophobia*)– keçəllərdən və keçəlləşməkdən qorxma

Pelger-Xyuet anomaliyası (K. Pelger, 1885-1931, hol. həkim; G. T. Huet, hol. həkim) – *bax:* leykositlərin Pelger anomaliyası

Pellaqra *(pellagra)* – nikotin turşusu, triptofan və riboflavin çatışmazlığı zamanı dərinin zədələnməsi, həzm traktının və psixi sferanın pozğunluğu ilə gedən xəstəlik

Pellaqra yaxası – *bax:* Kasal boyunluğu

Pellegrini-Ştida xəstəliyi (A. Pellegrini, ital. cərrahı; A. Stieda, 1869-1945, alm. cərrahı) – *bax:* Pellegrini-Ştida sindromu

Pellegrini-Ştida kölgəsi (A. Pellegrini, A. Stieda) – rentgenoloji müayinədə Pellegrini-Ştid sindromu zamanı budun daxili burması nahiyəsində ayparaşəkilli kölgənin aşkar edilməsi

Pellegrini-Ştida sindromu (A. Pellegrini, A. Stieda) – zədələnmədən sonra bud sümüyünün daxili burması nahiyəsində yumşaq toxumaların əhəngləşməsi

Pellizi sindromu (G.B. Pellizzi, ital. həkimi) – hipofizin şişi zamanı meydana çıxan ağıreşitmə, ataksiya, göz əzələlərinin iflici, erkən cinsi yetişkənlik

Pelloidoterapiya – gilin müalicə məqsədilə istifadə edilməsi

Pelvi- *(*pelvio-; anat. *pelvis* çanaq sümüyü*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "çanaq, çanaq nahiyəsinə aid" mənasını verir

Pelviqrafiya (*pelvi-* + yun. *grapho* yazmaq) – çanaq sümüklərinin və orqanlarının kontrast maddələrdən istifadə etmədən rentgenoqrafiyası

Pelvimetriya (*pelvi-* + yun. *metreo* ölçmək) – qadınlarda çanağın ölçülərinin müəyyən edilməsi

Pelvioperitonit *(pelvioperitonitis)* – kiçik çanaq nahiyəsində lokallaşan peritonit

Pelviosellülit *(pelviocellulitis)* – kiçik çanaq toxumasının iltihabı

Pelviskopiya (*pelvi-* + yun. *skopeo* tədqiq etmək) – kiçik çanaq orqanlarının endoskopla müayinəsi

Pemfiqus (*pemphigus*) – dərinin və dərialtı selikli qişanın zədələnməsi ilə müşayiət olunan autoimmun xəstəlikdir, özünü dəridə qabarcıqların olması ilə büruzə verir

Eritematoz pemfiqus (*p. erythematosis*) – eritematoz – skvamoz səpgilərlə gedən pemfiqus

Xoşxassəli ailəvi xroniki pemfiqus *(p. chronicus benignus familiaris)* – irsi pemfiqusdur, yaraların kürək, boyun, qoltuqaltı çxurular və qasıq büküşlərində lokalizasiya olunması ilə səciyyələnir

Vegetasiya verən pemfiqus (*p. vegetanss*) – immun-bioloji müqavimətin zəifləməsi ilə gedən pemfiqus

Vulqar pemfiqus (*p. vulqaris*) – akuntolizis prosesi ilə gedən sudurlu dermatoz

Yarpaqşəkilli pemfiqus (*p. foliaceus*) – suluqları axıra qədər inkişaf etməyən nazik qatlı qartmaqla nəticələnən pemfiqus

Pendred sindromu (V. Pendred, 1869-1946, ing. həkimi) – tireoid hormonların biosintezinin pozulması nəticəsində anadangəlmə hipotireoz, düyünlü zob və karlıqla gedən irsi xəstəlik

Penfild sxemi (W.G. Penfield, 1891-1976, kanadalı neyrocərrah) – mərkəzi analizatorların baş beyin qabığında yerləşmə sxemi

Peniafobiya *(peniaphobia)* – dilənçi halına düşməkdən patoloji dərəcədə qorxma

Penisillinaza *(penicillinasum)* – *Penicillianaza* göbələkləri tərəfindən hasil edilən və pensillin qrupu preparatlarını inaktivləşdirmək qabiliyyətinə malik preparat

Penit – penisin (kişi cinsiyyət üzvünün) iltihabı

Pen-Şokeyr sindromu (S.D.J. Pena, M.N.K. Schokeir) – əsasən beynin, gözlərin, üz və skeletin zədələnməsi ilə səciyyələnən irsi xəstəlik: əzələ hipotoniyası, mikrosefaliya və hidrosefaliya, görmə sinirlərinin atrofiyası, katarakta, blefarofemoz (qısa və dar göz yarığı), əyri alın, yəhərəbənzər burun, nazik dodaqlar, iri və aşağıda yerləşən qulaq seyvanları, bud-çanaq oynaqlarının çıxığı, dar çanaq; fiziki və psixi inkişafdan geri qalma; autosom-resessiv tip üzrə ötürülür

Pentabismol *(pentabismolum)* – sifilis əleyhinə təsir göstərən bismut preparatı

Pentada – beş klinik əlamətin məcmusu

Pentaqastrin *(pentagastrinum)* – mədənin sekretor qabiliyyətini və turşu əmələ gətirmə funksiyasını əmələ gətirməklə təsir göstərən diaqnostik vasitə

Pentamin (*pentaminum*) – qanqlioblokadaedici maddə

Pentazosin (*pentazocinum*) – narkotik təsirli analgetik

Penterafobiya (*pentheraphobia*) – qayınanadan qorxu

Pentoksifillin (*pentoxyphillinum*) – purin törəməsi olan spazmolitik maddə

Pentoksil *(pentoxylum)* – pirimidin törəməsi olub, metabolik proseslərə stimuləedici təsir göstərir

«Pentovit» həbləri (*tabulettae «pentovitum» obductae*) – B_1, B_6, B_{12}, nikatinamid və fol turşusunun kompleks preparatı

Pentoza – molekulunda beş kabon atomu olan monosaxarid; bəzi pentozalar nuklein turşularının və nukleotidlərin tərkibinə daxil olurlar

Pentozuriya *(pentosuria)* – sidikdə pentozanın miqdarının artması

Alimentar pentozuriya (*p. alimentaria*) – tərkibində pentoza olan meyvələrlə qidalanan zaman meydana çıxan pentozuriya

Xoşxassəli essensial pentozuriya (*p. essentialis benigna*) – ksiloza mübadiləsinin irsi pozğunluğu nəticəsində meydana çıxan pentozuriya

Pepper xəstəliyi (W. Pepper, 1874-1947, amer. həkim) – *bax:* Pepper sindromu

Pepper sindromu (W. Pepper) – erkən uşaq yaşlarında təsadüf olunan böyrəküstü vəzin qabıq maddəsinin və simpatik kötüyün hormonal qeyri-aktiv bədxassəli şişi

Pepsidil *(pepsidilum)* – HCl-un tərkibində fermentativ preparat (donuzun mədəsinin selikli qişasının hidrolizi nəticəsində alınır)

Pepsin *(pepsinum)* – həzm prosesini yaxşılaşdıran proteolitik ferment preparatı

Perelman simptomu (И.М. Перельман, 1892-1954, sov. cərrahı) – diz oynağı meniskinin zədələnməsi zamanı pilləkən və ya hündürlükdən düşən zaman ağrının meydana çıxması və ya güclənməsi

Peres refleksi (J. Perez, isp. həkimi) – üç ayına qədər uşaqlarda dərinin boyundan büzdümə qədər qıcıqlandırılması zamanı ümumi narahatçılıq, başın qaldırılması və ətrafların yığılması

Peres simptomu (J. Perez) – aortanın anevrizması, mediastinit və ya şişlər zamanı divararalığının yerdəyişməsi nəticəsində meydana çıxan, xəstə əlini yuxarı qaldırıb aşağı endirdikdə döş qəfəsinin yuxarı 1/3-i üzərində eşidilən plevranın sürtünmə küyü

Perforasiya *(perforatio)* – 1) boşluqlu orqanın divarında qüsurun (deşiyin) əmələ gəlməsi; 2) orqan və ya toxumada, əsasən sümük toxumasında, cərrahi yolla dəliyin açılması

Dölün perforasiyası (*p. capitis fetus*) – kraniotomiya zamanı dəliyin yaradılması məqsədilə dölün başının perforasiyası, bu dəlik vasitəsilə beyin parçalanır və xaric edilir

Xoranın perforasiyası (*p. ulceris*) – mədə və ya onikibarmaq bağırsağın divarındakı xoranın deşilərək mədə möhdəviyatının qarın boşluğuna, peritonarxası sahəyə və kiçik piyliyə tökülməsi

Perforator *(*lat. *perforatum, perforare* deşmək, dəlmək*)* – toxumanın deşilməsi və ardınca kəsilməsi üçün istifadə olunan alət

Neyrocərrahi perforator – sümük kranioplastikası zamanı kəllə sümüyündə və sümük transplantatında deşiklərin açılması üçün perforator

Nizəşəkilli perforator (sin. Blo perforatoru) – dölparçalayıcı əməliy-

yatlar zamanı dölün başını deşmək üçün istifadə olunan perforator

Perfuzion kokteyl – qanın perfuziya məqsədilə müxtəlif dərman maddələri ilə qatışığının ümumi adı (reopoliqlükin, jelatinol, natrium hidrokarbonat, kalsium xlorid, vitamin kompleksləri və s.)

Perfuzion sınaq – qida borusuna zondla xörək duzunun izotonik məhlulu və duz turşusunun desinormal məhlulunun yeridilməsi ilə diaqnostika metodu (ezofagit zamanı ağrı meydana çıxır)

Perfuziya (lat. *perfusio* vurma, axıtma) – 1) mayenin (məs., qanın) müalicə məqsədilə qan damarlarına davamlı qovulması (köçürülməsi); 2) süni qan dövranı

Perfuziya aparatı – mayelərin boşluqlara və ya orqanların qan damarlarına buraxılması üçün xüsusi aparat

Peri – (yun. *peri-*) – "ətrafında, xaricində yerləşmə" mənasını bildirən önşəkilçi

Periadenit *(periadenitis)* – limfatik düyünü əhatə edən toxumaların iltihabı

Periadneksit *(periadnexitis)* – peritonun uşaqlıq artımlarını örtən hissəsinin iltihabı

Perianal nahiyə – anusətrafı nahiyə

Perianal nahiyənin itiuclu kandiloması – perianal nahiyədə virus etiologiyalı ziyilşəkilli törəmələr

Periapikal – zirvəətrafı

Periartrit (*periarthritis*) – oynağın fibroz kapsulunu əhatə edən yumşaq toxumaların iltihabı

Periarteriit *(periarteriitis)* – arteriyanın xarici qişasının iltihabı

Peribronxial – bronxətrafı toxumalar

Peribronxit *(peribronchitis)* – bronxətrafı toxumaların iltihabı, məs., qızılca, vərəm zamanı

Peridaktiliya *(peridactylia)* – I və V əl-ayaq barmaqlarının olmamasından ibarət inkişaf anomaliyası

Peridivertikulit *(peridiverticulitis)* – hər hansı bir boşluqlu orqanın divertikulunu əhatə edən toxumanın iltihabı

Periduodenit *(periduodenitis*; *peri-* + anat. *duodenum* onikibarmaq bağırsaq*)* – onikibarmaq bağırsağı örtən peritonun və bağırsağın arxa divarına bitişik toxumaların iltihabı

Birincili periduodenit (*p. primaria*) – iltihabi prosesin onikibarmaq bağırsaq divarından peritona keçməsi

Diffuz periduodenit (*p. diffusa*) – prosesin bərabər olaraq onikibarmaq bağırsağın xarici səthi ilə yayıldığı periduodenit

İkincili periduodenit (*p. secundaria*) – iltihabi prosesin onikibarmaq bağırsaqdan kənar nahiyələrdən peritona keçməsi nəticəsində inkişaf edən periduodenit

Müsariqəaltı periduodenit (*p. submesenterica*) – onikibarmaq bağırsağın proksimal nahiyəsində köndələn çənbər bağırsağın müsariqəsi ilə kəsişdiyi yerdən aşağıda lokalizasiya olunan periduodenit

Müsariqəüstü periduodenit (*p. supramesenterica*) – onikibarmaq bağırsağın proksimal nahiyəsində köndələn çənbər bağırsağın müsariqəsi ilə kəsişdiyi yerdən yuxarıda lokalizasiya olunan periduodenit

Periduodenit anadangəlmə (*periduodenitis congenita*) – peritonun onikibarmaq bağırsağı örtən hissəsinin çoxsaylı bitişmələrindən ibarət inkişaf anomaliyası

Periektomiya *(periectomia)* – pannus zamanı icra olunan buynuz qişanın limbi boyunca konyunktivanın zolaq şəklində kəsilməsi cərrahi əməliyyatı

Periferik xorioid *(chorioiditis peripherica)* – göz almasının periferik nahiyələrində lokalizasiya olan xorioidit

Periferik təsirli miorelaksantlar – *bax:* kurareyəbənzər maddələr

Periferik – kənari, hüdudi

Periflebit *(periphlebitis)* – venanın flebiti və trombozu ilə müşayiət olunan venaətrafı toxumaların iltihabı

Perifrenit *(periphrenitis)* – peritonun diafraqmanı örtən hissəsinin iltihabı

Perihepatit *(perihepatitis*; *peri-* + yun. *hepar, hepatos* qaraciyər*)* – qaraciyəri və onun fibroz qişasını örtən peritonun iltihabı

Xərçəng perihepatiti (*p. cancerosa*) – qaraciyərin və ya peritonun xərçəngi zamanı inkişaf edən perihepatit

Nodoz perihepatit (*p. nodosa*) – xırda fibrin düyünlərin əmələ gəlməsi ilə xarakterizə olunan perihepatit

Seroz perihepatit (*p. serosa*) – qaraciyərin fibroz qişasının qalınlaşması ilə gedən xroniki perihepatit (bu zaman fibroz və irinli ekssudasiya olmur)

Sklerozlaşan perihepatit (*p. sclerosans*) – qaraciyərin fibroz qişasının hialinozu və sklerozu ilə xarakterizə olunan xroniki perihepatit

Perixolangiolit *(pericholangiolitis)* – qaraciyərin xolangiolalar ətrafında paylararası birləşdirici toxumasının iltihabı (irinli xolangit zamanı təsadüf olunur)

Perixolangit *(pericholangitis)* – öd axarlarını əhatə edən toxumanın iltihabı

Perixondrit *(perichondritis)* – qığırdaqüstlüyünün və ya qığırdağı əhatə edən toxumaların iltihabı

Tifoz perixondrit *(p. typhosa)* – adətən qabırğa qığırdağının sümüklə birləşdiyi yerdə və qırtlaq qığırdağının ətrafında rast gəlinən qarın, səpgili və ya qayıdan yatalağın gecikmiş ağırlaşması

Şüa perixondriti *(p. radialis)* – ionlaşdırıcı şüaların təsirindən yaranan perixondrit

Perixondrium (*perichondrium*; *peri-* + yun. *chondros* qığırdaq) – qığırdaqüstlüyü

Perixorioidal sahə *(spatium perichorioideale)* – göz almasının damarlı qişası ilə sklera arasında olan ensiz yarıq

Perikard *(pericardium*; *peri-* + yun. *kardia* ürək*)* – ürəyi, aortanı, ağciyər kötüyünü, aşağı və yuxarı boş vena dəliklərini və ağciyər venalarını örtən toxuma örtüyü

Fibroz perikard *(p. fibrosum)* – perikardın xarici qatı

Seroz perikard *(p. serosum)* – perikardın daxili qatı

Perikard boşluğu *(cavum pericardii)* – seroz perikardın parietal və visseral qatları arasında yerləşən, içərisində seroz maye olan sahə

Perikard boşluğunun tamponadası – *bax:* ürəyin tamponadası

Perikardektomiya *(pericardectomia)* – cərrahi əməliyyat: perikardın xaric edilməsi

Hissəvi perikardektomiya (*p. paritalis*) – yalnız ürəyin ayrı-ayrı hissələrindən perikardın xaric edilməsi

Subtotal perikardektomiya (*p. subtotalis*) – perikardın yalnız ürəyin arxa divarına bitişən hissəsi saxlanılmaqla aparılan perikardektomiya

Perikardın Bezo üsulu ilə punksiyası (Baizeau, frans. cərrahı, 19 əsr.) – ekssudativ perikardit zamanı IV qabırğaarası sahədə döş sümüyü kənarından 2 sm məsafədə perikardın eksrtraplevral punksiyası

Perikardın çəp cibi *(sinus obliquus pericardii)* – sol qulaqcığın arxa divarı və perikardın arxa aşağı divarı arasında boşluq

Perikardın Marfan üsulu ilə punksiyası (B.J.A. Marfan, 1858-1942, frans. pediatrı) – ekssudativ perikardit zamanı, orta xətt boyunca xəncərəbənzər çıxıntının altından perikard boşluğunun punksiya edilməsi

Perikardın Piroqov-Karavayev üsulu ilə punksiyası (Н.И. Пироговъ, 1810-1881, rus cərrahı və anatomu; В.А. Караваевъ, 1811-1892, rus cərrahı) – perikardın, ekssudativ perikardit zamanı, sol IV qabırğaarası sahədə, döş sümüyündən 2 sm kənara doğru aparılan ekstraplevral punksiyası

Perikardial (*pericardialis)*– perikarda məxsus

Perikardial maye *(liquor pericardialis)* – perikard boşluğunda yerləşən seroz maye

Perikardioliz (köh.; *pericardiolysis*) – *bax:* kardioliz

Perikardiotomiya *(pericardiotomia)* – cərrahi əməliyyat: ürəyə müdaxilə məqsədilə perikardın kəsilməsi

Perikardit *(pericarditis)* – ürək kisəsinin – perikardın iltihabı

Adgeziv perikardit *(p. adhaesiva)* – perikard boşluğunda çox miqdarda fibrin ekssudatın və bitişmələrin olduğu perikardit Bitişməli perikardit *(p. adhaesiva) – bax* adgeziv perikardit

Çürüntülü perikardit *(p. putrida)* – perikard boşluğuna xoş olmayan iyli çirkli yaşımtıl ekssudatın toplanması ilə gedən perikardit

Ekssudativ perikardit *(p. exsudativa)* – perikard boşluğuna mayenin yığılması

Ekssudativ perikardit *(p. exsudativa)* – perikard boşluğuna ekssudatın toplanması ilə gedən perikardit

Fibrinoz perikardit *(p. fibrinosa)* – perikard boşluğuna seroz ekssudatın toplanması ilə gedən perikardit

Hemorragik perikardit *(p. haemorrhagica)* – perikard boşluğunda ekssudatın qan tərkibli olması ilə gedən perikardit (adətən karsinomatoz və vərəm mənşəli proseslər zamanı rast gəlinir)

Xolesterin perikarditi *(p. cholesterinica) – bax:* ksantomatoz perikardit

İxoroz perikardit *(p. ichorosa) – bax:* çürüntülü perikardit

İrinli perikardit (p. purulenta) – perikard boşluğundakı ekssudatın tərkibində irin olması ilə gedən perikardit

Karsinomatoz perikardit *(p. carcinomatosa)* – perikard boşluğunda xərçəng metastazlarının olması ilə xarakterizə olunan perikardit

Konstriktiv perikardit (*p. constrictiva*) – ürək kameralarını sıxan və diastolasını məhdudlaşdıran, perikard qişasının qalınlaşması və bitişmələrin əmələ gəlməsi ilə ilə xarakterizə olunan vəziyyət

Ksantamatoz perikardit *(p. xanthomatosa)* – perikard boşluğunda

xolesterinin toplanması nəticəsində ksantom hüceyrələrin əmələ gəlməsi ilə gedən perikardit

Quru perikardit *(pericarditis sicca)* – ürək qişasının fibrin çökməsi ilə yaranan iltihabı

Revmatik perikardit *(p. rheumatica)* – revmatizm zamanı perikard boşluğunda seroz və ya seroz-fibrinoz ekssudatın olması ilə gedən perikardit

Seroz perikardit *(p. serosa)* - perikard boşluğuna seroz ekssudatın toplanması ilə gedən perikardit

Sıxan perikardit *(p. constrictiva)* – *bax:* konstriktiv perikardit

Travmatik perikardit *(p. traumatica)* – döş qəfəsinin zədələnmələri zamanı meydana çıxan kəskin perikardit

Uremik perikardit *(p. uraemica)* – uremiya zamanı fibrinoz-hemorragik və ya seroz-fibrinoz ekssudatla xarakterizə olunan perikardit

Vərəm perikarditi *(p. tuberculosa)* – vərəm xəstəliyi zamanı perikardda qabarların əmələ gəlməsi, boşluğunda isə qanlı seroz-fibrinoz ekssudatın toplanması ilə gedən perikardit

Yapışan perikardit *(p. adhaesiva)* – *bax:* adgeziv perikardit

Perikarditik qaraciyər psevdosirrozu (*pseudocirrhosis hepatis pericarditica*; sin. Pikin qaraciyər psevdosirrozu) – *bax:* Pikin qaraciyər psevdosirrozu

Perikardoplevrostomiya *(pericardiopleurostomia)* – ekssudativ plevrit zamanı perikard və plevra boşluğu arasında əlaqə yaradılması cərrahi əməliyyatı

Perikardostomiya *(pericardiostomia)* – ekssudativ plevrit zamanı perikardla plevra boşluğu və ya qarın boşluğu arasında əlaqə yaradılması cərrahi əməliyyatı

Perikardotomiya *(pericardotomia)* – *bax:* perikardiotomiya

Perikolit *(pericolitis)* – peritonun çənbər bağırsağı örtən hissəsinin iltihabı

Perikorneal (*pericorneal*) – buynuz qişa ətrafında yerləşən

Perikoronit *(pericoronitis)* – daimi dişin natamam çıxması və ya çətinliklə çıxması zamanı onu əhatə edən yumşaq toxumaların iltihabı

Periqastrit (*perigastritis*) – peritonun mədəni örtən hissəsinin iltihabı

Əməliyyatdan sonrakı periqastrit (*p. postoperativa*) – mədə rezeksiyası və ya qarın boşluğunun digər əməliyyatlarından sonra inkişaf edən yapışan periqastrit

Sifilitik periqastrit (*p. syphilitica*) – sifilisin üçüncü dövründə qummaların əmələ gəlməsi ilə xarakterizə olunan periqastrit

Vərəm periqastriti (*p. tuberculosa*) – vərəm zamanı inkişaf edən yapışan periqastrit

Yapışan periqastrit (*p. adhaesiva*) – bitişmə prosesinin inkişaf etməsi nəticəsində deformasiya və motorikanın pozulması ilə gedən periqastrit

Perilimfa *(perilympha)* – sümük və ya zarlı labirinti arasında yerləşən maye

Perilimfangit *(perilymphangitis)* – limfa damarı ərafındakı toxumaların iltihabı

Perilimfatik kanal *(ductus perilymphaticus)* – perilimfatik sahənin baş beynin hörümçək toruna bənzər qişaaltı nahiyəsi ilə əlaqə yaradan kanal

Perilimfatik sahə *(spatium perilymphaticum)* – sümük və ya zarlı labirint arasında yerləşən sahə

Perimenopauzal dövr – qadın orqanizminin yaşla əlaqədar olaraq cinsiyyət sistemi orqanlarının funksiyasının təbii zəifləməsi dövrü

Perimetr *(*yun. *perimetron* çevrə*)* – oftalmologiyada: görmə sahəsinin sərhədlərini və onun qüsurlarını müəyyən edən cihaz

Perimetrit (*perimetritis*) – uşaqlığı örtən peritonun iltihabı

Perimetriya *(*yun. *perimetron* çevrə*)* – perimetr vasitəsi ilə görmə sahəsinin müayinəsi üsulu

Avtomatik perimetriya – perimetriyanın xüsusi proqramlaşmış partotiv kompüterlərlə müayinəsi

Kvantitativ perimetriya – bir neçə parlaq obyektin köməyi ilə həyata keçirilən perimetriya, bu da görmə sahəsinin müxtəlif şöbələrində cüzi dəyişiklikləri müəyyən etməyə imkan verir

Statik perimetriya – hərəkətsiz işıq sınama obyektlərindən istifadə etməklə yerinə yetirilən perimetriya

Perimizium *(perimysium*; yun. *mys* əzələ*)* – tərkibində qan damarları və sinirlər olan, əzələ və ya ayrı-ayrı əzələ liflərini əhatə edən birləşdirici toxumanın qatı

Daxili perimizium (*p. internum*) – skelet əzələsinin tərkibində ayrı-ayrı əzələ liflərini ayıran perimizium

Xarici perimizium (*p. externum*) – skelet əzələsini xaricdən örtən perimizium

Perinatal dövr *(perinatalis)* – bətndaxili inkişafın 28-ci həftəsindən yenidoğulmuşun 7-ci sutkasına qədər olan dövr

Perinatologiya (yun. *peri* ətrafında + lat. *natus* doğulma + *logos* elm) – perinatal (bətndaxili) dövrün patologiyasını öyrənən elm

Perinefrit *(perinephritis*; yun. *nephros* böyrək*)* – böyrək kapsulası və böyrəkətrafı piy toxumasının birgə iltihabı

Fibroz perinefrit (*p. fibrosa*) – böyrək kapsulu və onu əhatə edən toxumaların sklerozlaşması ilə səciyyələnən perinefrit

İrinli perinefrit (*p. purulenta*) – böyrək kapsulu və parenxima arasında çoxsaylı irinli abseslərin olması ilə gedən perinefrit

Seroz perinefrit (*p. serosa*) – böyrək kapsulu və onu əhatə edən toxumaların ödemi və infiltrasiyası ilə səciyyələnən perinefrit

Perineo – *(*yun. *perineos, perineon* aralıq*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "aralığa aid" mənasını verir

Perineoanal sindrom *(syndromum perineoanale)* – onurğa beyni at quyruğu nahiyəsinin zədələnmələri zamanı aralıq nahiyəsində ağrı, sidik ifrazı və defekasiya zamanı güclənən aşağı ətrafların periferik iflici, çanaq orqanları funksiyasının pozğunluğu

Perineoplastika *(perineoplastica)* – aralıq əzələlərinin və fassiyalarının tamlığının bərpa edilməsi plastik əməliyyatı

Perineorafiya *(perineorrhaphia)* – aralığın cırılması zamanı tikişlərin qoyulması ilə bərpa edilməsi əməliyyatı

Perineotomiya *(perineotomia)* – aralığın kəsilməsi cərrahi əməliyyatı

Perinevral sahə *(spatium perineuri)* – sinir kötüyü ətrafında yerləşən,

tərkibində perinevrium olan yarığabənzər sahə

Perinevral yataq – *bax:* perinevral sahə

Perinevrium *(perineurium)* – periferik sinrin ayrı-ayrı sinir liflərini əhatə edən birləşdirici toxuma qişası

Perinevroqrafiya (perinevrit + yun. *grapho* yazmaq) – perinevral sahəyə kontrast maddə yeridildikdən sonra sinir kötüklərinin rentgenoqrafiyası

Periodik hipokalemik iflic – hipokalemiya fonunda yaranan epizodik əzələ iflici

Periodik tibbi baxış – təyin olunmuş vaxtda plan üzrə müəyyən əhali qrupunun (sənaye müəssisələri işçiləri, qida sənayesi işçiləri, komunal və uşaq müəssisələrinin işçiləri, tələbə və şagirdlər və s.) arasında keçirilən tibbi baxış

Periodik yuxu sindromu – *bax:* latergik sindrom

Periodontal yarıq *(rima periodontalis)* – alveolun kompakt lövhəsi ilə diş kökünün sementi arasındakı yarıq

Periodont *(periodontium*; *peri* yanında + yun. *odus, odontos* diş*)* – periodontal yarıqda yerləşən birləşdirici toxuma; periodontda sinirlər, dişi qidalandıran qan və limfa damarları yerləşir

Periodontit *(periodontitis)* – periodontun iltihabı

Dərman periodontiti (*p. medicamentosa*) – diş kökü kanalı və ya diş-damaq cibindən düşmüş dərman vasitələrinin törətdiyi periodontit

Fibroz periodontit (*p. fibrosa*) – periodontun hüceyrə elementlərinin lifli strukturlarla əvəz olunması ilə səciyyələnən xroniki periodontit

İrinli-nekrotik periodontit (*p. purulenta necrotica*) – periodontun nekrozu və irinli əriməsi ilə müşayiət olunan kəskin periodontit

Qranulematoz periodontit (*p. granulomatosa*) – qranulyasion toxumanın və onu əhatə edən birləşdirici fibroz kapsulun əmələ gəlməsi ilə xarakterizə olunan periodontit

Qranulyasiya edən periodontit (*p. granulans*) – qranulyasion toxumanın (birləşdirici fibroz kapsulsuz) əmələ gəlməsi ilə xarakterizə olunan periodontit

Seroz periodontit (*p. serosa*) – perivaskulyar infiltrasiya, hiperemiya və ödemin üstünlüyü ilə gedən periodontit

Zirvə periodontiti (*p. apicalis*) – diş kökü zirvəsinin ətrafında lokalizə olunan periodontit

Periodontitli ovuc-ayaqaltı hiperkeratoz – *bax:* Papion-Lefevr keratodermiyası

Periodontoliz – *bax:* parodontoz

Periodontopatiya – *bax:* parodontopatiya

Periodontoz – *bax:* parodontoz

Perionixiya *(perionychia)* – *bax:* paronixiya

Perioral (*periorale*) – ağzı əhatə edən, ağızətrafında yerləşən

Periost (*periosteum*; *peri-* + yun. *osteon* sümük) – sümüküstlüyü

Periosteotomiya *(periosteotomia)* – *bax:* periostotomiya

Periostit *(periostitis)* – sümüküstlüyünün iltihabı

Bədxassəli periostit *(p. maligna)* – prosesin sürətli yayılması, ağırlığı və zədələnmə sahəsinin geniş olması ilə seçilən kəskin irinli periostit

Fibroz periostit *(p. fibrosa)* – sümüküstlüyünün sıx birləşdirici toxuma

hesabına qalınlaşması ilə xarakterizə olunan periostit

Generalizəolunmuş hiperplastik periostit – *bax* Bamberger-Mari periostozu

İrinli periostit (*p. purulenta*) – sümüküstlüyü altına irinin yığılması ilə xarakterizə olunan periosti

Qatlara ayrılan periostit – məhdud nahiyədə sümüküstlüyü altına qansızma və ya irinin toplanması nəticəsində sümüküstlüyünün sümükdən ayrılması ilə xarakterizə olunan periostit

Odontogen periostit *(p. odontogena)* – iltihab ocağının dişdən və ya paradontdan yayılması ilə gedən çənənin alveolyar çıxıntılarının irinli periostiti

Ossifikasiyaedən periostit (*p. ossificans*) – sümüyün qabıq qatının qalınlaşması, osteofitlərin və sinostozların əmələ gəlməsi ilə gedən xroniki periostit

Raxitik periostit (*p. rachitica*) – raxit zamanı meydana çıxan ossifikasiyaedən periostit

Sadə periostit *(p. simplex)* – sərbəst ekssudatın əmələ gəlməməsi şərti ilə sümüküstlüyünün hiperemiya, ödem və leykositar infiltrasiyası ilə xarakterizə olunan periostiti

Sifilitik periostit (*p. syphilitica*) – sifilis zamanı əsasən uzun borulu sümüklərin, kəllə sümüklərinin sümüküstlüyünün qummalar əmələ gəlməsi ilə zədələnən ossifikasiyaedən periostit

Vərəm periostit (*p. tuberculosa*) – vərəm zamanı əsasən qabırğa və üz sümüklərində kəsmikşəkilli nekrozun və irinli ərimənin olması ilə gedən qranulemalarla səciyyələnən periostit

Periostotomiya *(periostotomia)* – sümüküstlüyünün kəsilməsi cərrahi əməliyyatı (sümüküstlüyü altı irinliyin açılması və sümükdə aparılan cərrahi əməliyyatlar zamanı tətbiq olunur)

Periostoz *(periostosis)* – sümüküstlüyünün kirəcləşməyə məruz qalmış osteoid toxumasının qatlara ayrılması şəklində qeyri-iltihabi dəyişikliyi; tənəffüs və ürək-damar sisteminin xroniki xəstəlikləri, sümüklərdə gedən bir sıra distrofik proseslər zamanı müşahidə olunur

Periplevrit (*peripleuritis*) – *bax:* paraplevrit

Periporit (*periporitis*) – *bax:* psevdofrunkulyoz

Perirenal insufflyasiya – böyrəkətrafı sahəyə qaz yeridilməsi

Perisekal – kor bağırsağı əhatə edən

Perisellülyar maye *(liquor pericellularis)* – hüceyrələrarası sahədə toplanan maye

Perisiqmoidit *(perisigmoiditis)* – «S»-əbənzər bağırsağı əhatə edən peritonun iltihabı

Perisistit *(pericystitis)* – öd kisəsi və ya sidik kisəsini əhatə edən toxumaların iltihabı

Perisit *(pericytus)* – xaricdən kapilyar arteriola və ya venula divarına söykənən az differensə olunmuş birləşdirici toxuma

Perisitoma *(pericytoma)* – perisitlərdən inkişaf edən bədxassəli damar şişi

Perisplenit (*perisplenitis*) – dalaq kapsulunun iltihabı

Peristaltika *(peristaltica)* – boşluqlu orqanın proksimal ucundan distal ucuna doğru yayılan, içindəki möhtəviyyatı da bu istiqamətdə hərəkət etdirən dalğavari yığılması

Peristola *(*yun. *peristole* örtmə, bürümə*)* – mədənin bütün əzələlərinin tonik yığılması

Peritelioma (*perithelioma*) – *bax:* perisitoma

Peritendinum *(peritendineum)* – vətərin birləşdirici toxuma qişası

Peritenonum *(peritenonium)* – *bax:* peritendinum

Peritiflit *(perityphlitis*; *peri-* + yun. *typhlon* kor bağırsaq*)* – 1) kor bağırsağı örtən, infiltrat və bitişmələr əmələ gətirən periton nahiyəsinin iltihabı; 2) (köh.) – appendikulyar abseslə fəsadlaşmış kəskin apendisit

Peritomiya *(peritomia)* – buynuz qişa limbi boyunca göz alması konyunktivasının kəsilməsi cərrahi əməliyyatı

Peritonarxası sahə *(spatium retroperitoneale)* – qarın boşluğunun divarönü periton və qarındaxili fassia arasından yerləşən yuxarıdan diafraqma, aşağıdan kiçik çanaqla məhdudlaşan piy və boş birləşdirici toxuma ilə dolu olan və bu toxumaların içərisində orqan, damar, sinir və limfatik düyünlərdən ibarət sahəsi

Peritoneal irriqasiya (*irrigatio peritonaealis*) – *bax:* peritoneal dializ

Peritoneoqrafiya – qarın boşluğunun kontrast maddə yeridildikdən sonra çəkilən rentgenoqrafiyası

Peritoneoskopiya (sin. abdominoskopiya) – *bax:* abdominoskopiya

Peritonit *(peritonitis)* – peritonun (qarın boşluğunun) yerli və ümumi simptomlarla gedən iltihabı

Adgeziv peritonit (*p. adhaesiva*) – *bax* yapışan peritonit

Appendikulyar peritonit *(p. appendicularis)* – kəskin appendisitin ağırlaşması kimi meydana çıxan peritonit

Assit-peritonit (ascites peritonitis) – qarın boşluğunda assit olduğu zaman inkişaf edən peritonit

Bətndaxili peritonit *(p. intrauterina)* – *bax:* fetal peritonit

Biliar peritonit *(p. biliaris)* – *bax:* öd peritonitis

Çanaq peritoniti – *bax:* pelvioperitonit

Çürüntülü peritonit *(p. putrida)* – qarın boşluğuna çürüntülü ekssudatın toplanması nəticəsində yaranan peritonit

Diffuz peritonit *(p. diffusa)* – *bax:* ümumi peritonit

Dölün peritoniti *(p. fetalis)* – *bax:* fetal peritonit

Ekssudativ peritonit *(p. exsudativa)* – qarın boşluğuna ekssudatın yığılması ilə müşayiət olunan peritonit

Fetal peritonit *(p. fetalis)* – dölün bağırsağının və ya sidik kisəsinin deşilməsi, fetal sepsis zamanı inkişaf edən peritonit

Fibrinoz peritonit *(p. fibrinosa)* – peritona fibrinin çökməsi ilə gedən kəskin peritonit

Fibroz peritonit *(p. fibrosa)* – qarın boşluğunda çoxsaylı geniş fibroz bitişmələrin əmələ gəlməsi ilə gedən xroniki yapışan peritonit

Genital peritonit *(p. haemorrhagica)* – qadın cinsi orqanlarının iltihabi proseslərinin ağırlaşması nəticəsində inkişaf edən kəskin peritonit (məs. salpingit, ooforit və s.)

Hematogen peritonit *(p. haematogena)* – infeksiya törədicisinin peritona qan vasitəsi ilə digər orqanlardan gəlməsi nəticəsində yaranan peritonit

Hemorragik peritonit *(p. haemorrhagica)* – qarın boşluğuna hemorragik ekssudatın yığılması ilə gedən kəskin peritonit

Xroniki peritonit *(p. chronica)* – tədricən inkişafı və uzunmüddətli gedişi ilə xarakterizə olunan peritonit

İrinli peritonit *(p. purulenta)* – periton boşluğuna irinli ekssudatın toplanması ilə gedən peritonit

Kəskin peritonit (p. acuta) – qəfləti başlanğıc və prosesin sürətlə inkişafı ilə xarakterizə edilən peritonit

Qarın yatalağı peritoniti *(p.abdominotyphosa)* – qarın yatalağı zamanı, əsasən nazik bağırsaqda əmələ gəlmiş yaraların deşilməsi nəticəsində əmələ gələn kəskin peritonit

Qonokokk peritoniti – *Neisseria gonorrhoeae* tərəfindən törədilən, əsasən peritonun çanaq nahiyəsini əhatə edən iltihab

Mekonium peritoniti– bağırsaq divarının perforasiyası zamanı mekoniumun qarın boşluğuna tökülməsin nəticəsində yaranan fetal peritonit

Məhdud peritonit *(p. circumscripata)* – periton boşluğunun digər hissələrindən bitişmələrlə ayrılan ekssudativ yerli peritonit

Öd peritoniti *(p.biliaris)* – qarın boşluğuna ödün tökülməsi nəticəsində yaranan peritonit

Pankreatogen fermentativ peritonit – pankreas şirəsinin qarın boşluğuna tökülməsi nəticəsində (alhoqolizm, mədəaltı vəzin psevdosistləri və ya travmatik zədələnmələri zamanı) yaranan peritoni

Perforativ peritonit *(p. perforativa)* – boşluqlu orqanın deşilərək möhtəviyyatının qarın boşluğuna tökülməsi nəticəsində meydana çıxan peritonit

Posttravmatik peritonit – qarın boşluğu orqanlarının zədə və yaralanmaları zamanı peritonun infeksiyalaşması

Septiki peritonit *(p. septica)* – septikopiemiya zamanı inkişaf edən, peritonda irinli metastazların olması ilə xarakterizə olunan kəskin peritonit

Seroz peritonit *(p. serosa)* – periton boşluğunda seroz ekssudatın yığılması ilə gedən peritonit

Sifilitik peritonit *(p. syphilitica)* – sifilis zamanı periton boşluğunda qummaların əmələ gəlməsi ilə gedən peritonit

Ümumi peritonit *(p. generalisata)* – bütün periton boyunca yayılmış iltihabi proses

Vərəm peritoniti*(p. tuberculosa)* – *Mycobaciterium tuberculosis* tərəfindən törədilən, əsasən ekssudativ və ya yapışan xarakterli peritonit

Yapışan peritonit (*p. adhaesiva*) – peritonitin, peritonun qarın boşluğunda yerləşən orqan və ya onları əhatə edən toxumalarla bitişmələr əmələ gətirdiyi xroniki növü

Yayılmış peritonit *(p. generalisata)* – *bax:* ümumi peritonit

Yerli peritonit *(p. localis)* – qarın boşluğunun məhdud sahəsinin peritoniti

Peritonizasiya (anat. *peritoneum* periton, qarın boşluğunu örtət seroz qişa) – cərrahi əməliyyat və ya zədələnmələr zamanı visseral peritonda əmələ gəlmiş qüsurun sero-seroz tikişlərin qoyulması ilə ləğv edilməsi

Peritonizm *(peritonismus)* – peritonun iltihabla əlaqədar olmayan qıcıqlan-

ması (məs., qarın boşluğuna qansızma zamanı)

Peritonönü qasıq halqası – *bax:* dərin qasıq halqası

Peritonun psevdomiksoması – qarın boşluğu və kiçik çanaq üzvlərinin şişləri zamanı təsadüf olunan xoşxassəli proses

Peritonun yuyulması – *bax:* peritoneal dializ

Peritonzillit (*peritonsillitis*) – badamcıqətrafı sahənin iltihabı

Peritransverzit *(peritransversitis)* – peritonun köndələn çənbər bağırsağı örtən hissəsinin iltihabı

Peritromboflebit *(perithrombophlebitis)* – iltihabi prosesin ətraf toxumalardan vena divarına yayılması nəticəsində inkişaf edən tromboflebit

Periumblikal (*periumbilicalis*) – göbəkəftrafı

Periureterit *(periureteritis)* – sidik axarını əhatə edən toxumanın iltihabı

Periuretral (*periurethrale*) – sidik kanalını əhatə edən

Periuretral adenoma *(adenoma periurethrale) – bax:* prostat vəzinin adenoması

Periuretrit *(periurethritis)* – sidik kanalını əhatə edən boş birləşdirici toxumanın iltihabı

Perivaskulyar (*perivascularia*) – damar ətrafında yerləşən

Perivisserit *(perivisceritis)* – daxili orqanları əhatə edən toxumaların iltihabı

Perkussion çəkic testi – orta siniri zədələnmiş xəstənin perkussion çəkici baş və şəhadət barmaqları arasında tərpənməz vəziyyətdə saxlaya bilməməsi

Perkussiya *(*lat. *percussio,* tıqqıldatma*)* – daxili orqanların bədən səthinə tıqqıldatmaqla əmələ gələn səsin xarakterinə görə müayinəsi üsulu

Auskultator perkussiya (*p. auscultatoria*) – perkussiya zamanı əmələ gələn səsin fonedoskopla dinlənməsi üsulu

Müqayisəli perkussiya – bədən səthinin simmetrik nahiyələrinin və ya yaxınlıqda yerləşən orqanın perkussiya edilməklə müqayisəli müayinəsi

Topoqrafik perkussiya – orqanın sərhədlərini, formasını və ölçüsünü müəyyən etmək üçün icra olunan perkussiya

Vasitəli perkussiya – digər əlin barmağı və ya plessimetr üzərindən icra olunan perkussiya

Vasitəsiz perkussiya – bədən səthinə bir və ya bir neçə barmaqla bilavasitə icra olunan perkussiya

Perkutor səs – perkussiya zamanı əmələ gələn səs

«Perqament» ləkələri – meyitin qurumuş epidermisində sarımtıl-qəhvəyi rəngli bir qədər çökmüş sahələr

Perminov aparatı (А.Д. Перминов, sov. cərrahı) – said sümüklərinin fraqmentlərini yerinə qoymaq üçün aparat

Pernisioz anemiya (*anaemia perniciosa*; lat. *perniciosus* məhvedici, öldürücü; sin. bədxassəli anemiya, Addison-Birmer anemiyası) – sianokobalaminin (B_{12} vitamini) çatışmazlığı səbəbindən inkişaf edən xəstəlikdir, inkişafının səbəbi mədənin fundal parietal hüceyrələri tərəfindən qastromukoprotein maddəsinin sintez edilə bilinməməsidir; xəstələrin əksəriyyətində irsi çatışmazlıq nəticəsində mədənin parietal hüceyrələrinin zəifliyi və vaxtından

əvvəl involyusiyası meydana çıxır, bu hüceyrələrə qarşı autoantitellər yaranır, xəstələrdə xroniki atrofik A-qastrit, qlossit inkişaf edir

Peromeliya *(peromelia)* – bədənin normal ölçüsü zamanı ətrafların qısa olmasından ibarət inkişaf anomaliyası

Peron-Drok-Klon sindromu (Peron; Droquet; Coulon) – onurğa beyninin ağ maddəsinin arxa (dal) sütununun irsi zədələnmələri: oynaqlarda trofik xoralar, periartikulyar osteofitlər, dırnaq trofikasının pozulmaları, Axilles vətərlərində reflekslər yoxdur, astereoqnoz müşahidə olunur

Peroral *(peroralis)* – dərman və digər vasitələrin ağız vasitəsi ilə qəbulu

Persepsiya (*perceptio***)** – qəbul edilmə, qavranılma

Perseverasiya (lat. *persevere, perseveratum* inadla tutunmaq, təkrar olunmaq) – təsadüfi tələffüz olunmuş söz və ya hərəkətin şüursuz təkrar edilməsi

Persistensiya (lat. *persisto* daim olmaq, qalmaq) – embriogenez prosesində geriyə inkişafa məruz qalmalı olan, lakin geriyə inkişaf etmənin ləngiməsi ilə xarakterizə olunan inkişaf anomaliyası

Persistəedən ləkələr *(vernix caseosa persistens) – bax:* Meyerqorf ləkələri

Persistent apofiz (*apophysis persistens*) – adi yerində deyil, başqa yerdə yerləşən, sinostoz əmələ gətirməyən əlavə sümükləşmə nüvəsi

Perspirasiya (*perspiratio*; lat. tənəffüs, buxarlanma) – dəri vasitəsilə mayenin ifraz olunması; dəri səthindən və tənəffüs yollarının selikli qişasından mayenin buxarlanması

Pertes xəstəliyi (G. C. Perthes, 1869-1927, alm. cərrahı) – bud sümüyü başının irsi aseptik nekrozu, əsasən 6-10 yaşlı oğlan uşaqlarında əmələ gəlir; bud sümüyü başı və boynunun deformasiyası və koksartrozun inkişafına səbəb olur

Pertes sınağı (G. C. Perthes, 1869-1927, alm. cərrahı; sin.) – aşağı ətrafların varikoz genəlməsi zamanı tətbiq olunan funksional sınaq

Perturbasiya (lat. *perturbatio* pozulma) – ruhi həyəcan, ruhi pozulma

Peru ziyili (*verruca peruviana*) – *bax:* bartonellyoz

Perversiya (*perversio*; лат. *perverto, perversum* yoldan çıxartmaq, pis yola çəkmək) – cinsi təhrif, qeyri-təbii seksual münasibətlər

Həqiqi perversiya – cinsi əlaqə zamanı şəxsin öz tələbatını təmin etmək üçün müxtəlif ikrahedici üsullardan istifadə etməsi

Pesser kateteri (M. de Pezzer, frans. həkimi) – qasıqüstü fistuladan sidiyi uzun müddət xaric etmək üçün elastik kateter

Pestin *(yersina pestis)* – taun çöpünün vaksinindən alınmış orqanizmin ümumi sensibilizasiyasını aşkar etmək üçün aşkar olunan zülal-polisaxarid mənşəli allergen

Peşə angionevrozu (*angionevrosis professionalis*) – zərərli peşə faktorlarının təsiri zamanı, əsasən əl damarlarının spazmı nəticəsində meydana çıxan pozğunluqlar simptomokompleksi

Peşə dermatozu (*dermatosis professionalis*) – peşə ilə əlaqədar ekzogen amillərin törətdiyi dermatoz

Peşə melanozu (*melanosis professionalis*) – peşə ilə bağlı maddələrin təsirindən yaranan melanoz

Peşə tatuajı – peşə fəaliyyəti zamanı hər hansı bir rəngli maddənin dəriyə nüfuz etməsi nəticəsində meydana çıxan tatuaj

Peşə yastıayaqlılığı *(pes planus professionalis)* – peşə ilə əlaqədar olaraq uzun müddət fasiləsiz ayaqüstə qalma nəticəsində meydana çıxan yastıayaqlılıq

Peşə zəhərlənməsi *(intoxicatio professionalis)* – professional şəraitin təsirindən toksiki maddələrin törətdiyi zəhərlənmə

Petexiya *(petechia)* – dəri və ya selikli qişada 1-2 mm diametrli nöqtəvari qansızma

Peters sindromu (A. Peters, 1862-1938, alm. oftalmoloqu) – buynuz qişanın arxa səthinin, gözün ön kamerasının qalınlaşması ilə müşayiət olunan anadangəlmə inkişaf qüsuru

Peters-Xevels sindromu (A. Peters, alm. stomatoloqu; O. Hovels, alm. pediatrı) – *bax*: çənə-kəllə dizostozu

Petersen əməliyyatı – arxa mədə-nazik bağırsaq anastomozun qoyulması əməliyyatı

Petersen qastroenterostomiyası (C.F. Petersen, 1845-1935, alm. cərrahı) – gətirici ilgəyin mədənin kiçik əyriliyinə, aparıcı ilgəyin böyük əyriliyinə fiksə olunması ilə icra olunan arxa vertikal qastroenterostomiya

Petersen-Dyukreyin streptobasilləri (O.B. Петерсен, 1849-1919, rus dermatoveneroloqu; A. Ducrey, 1860-1940, ital. dermatoloqu) – *bax:* yumşaq şankr çöpləri

Peti üçbucağı (J.L. Petit, 1674-1750, frans. cərrah və anatomu) – *bax:* bel üçbucağı

Peti üçbucağı simptomu – xroniki appendisit zamanı sağ bel üçbucağı nahiyəsində qalça darağına təzyiq etdikdə ağrının olması

Petj-Klej xəstəliyi (G.M.G.A. Petges, 1872-1952, frans. dermatoloqu; C. Clejat, frans. dermatoloqu, 19-20 əsr) – *bax:* poykilodermatomiozit

Petj-Yakobi xəstəliyi (G.M.G.A. Petges; E. Jacobi, 1862-1915, avstr. dermatoloq) – *bax:* atrofik damar poykilodermiyası

Petraşevskayanın sümük tikişi (Г.Ф. Петрашевская, 1882-1965, sov. cərrahı) – sümük fraqmentlərinin fassia loskutlarından istifadə edilməklə birləşdirilməsi üsulu

Petri kasası (J.R. Petri, 1852-1921, alm. bakterioloqu) – mikroorqanizmləri bərk qidalı mühitlərdə kultivasiyası (becərilməsi) üçün nəzərdə tutulan iki silindrik yastı şüşə qab

Petrifikasiya *(petrificatio)* – yumşaq toxumanın distrofik və ya nekrotik dəyişikliyə uğramış nahiyəsinin kalsinozu

Petrifikasiya olunmuş tromb *(thrombus petrificatus)* – kalsium düzlarının çökməsi nəticəsində yaranmış bərk konsistensiyalı tromb

Petrifikat *(petrificatum)* – toxumanın kalsium çökmüş nekroz və ya distrofiya sahəsi

Petrov drenajı (H.H. Петров, 1876-1964, sov. cərrahı) – plevra boşluğunun qabırğanın arxa hissəsinin rezeksiya olunmuş nahiyəsindən plevra boşluğuna yeridilmiş boru vasitəsi ilə drenə edilməsi

Petrovski müdaxiləsi (Б.В. Петровский, sov. cərrahı) – körpücükaltı arteriyanı əldə etmək üçün körpücük nahiyəsində (sağda xaçvari, solda T-şəkilli kəsiklə) körpücük sümüyünün medial hissəsi-

nin rezeksiyası (bəzən döş sümüyü dəstəyini və I qabırğanı da rezeksiya etmək lazım gəlir)

Petrov-Xundadze üsulu (Б.А. Петров, 1898-1973, sov. cərrahı; Г.Р. Хундадзе, sov. cərrahı) – bağırsaq müsariqəsini mobilizasiya etməklə nazik bağırsaqdan süni qida borusu yaradılan zaman transplantatın hərəkətliyinin artırılması

Petrova-Rıssın sınaq **səhər yeməyi** (М.К. Петрова, 1874-1948, sov. fizioloqu; С.М. Рысс, 1896-1968, sov. terapevti) – qurudulmuş kələm həlimindən ibarət sınaq səhər yeməyi; mədə sekresiyasının müayinəsi üçün istifadə olunur

Petrov-Yasnov mismarı (Б.А. Петров, 1898-1973, sov. cərrahı; Е.Ф. Яснов, sov. cərrahı) – bud sümüyü boynunun fraqmentini bərkitmək üçün paslanmayan poladdan hazırlanmış vasitə

Petrozit *(petrositis)* – orta irinli otitin ağırlaşması zamanı gicgah sümüyü piramidasının iltihabı

Pettofobiya *(pettophobia)* – bağırsaq qazlarını kənar şəxslərin yanında saxlaya bilməməkdən patoloji qorxu

Pevzner pəhrizi (М.И. Певзнер, 1872-1952, sov. terapevti) – mədə və onikibarmaq bağırsaq xorası zamanı tətbiq olunan pəhriz; gün ərzində 5-6 dəfə qida qəbulu nəzərdə tutulmuşdur

Peyan üsulu (köh.; Payan) – ətraflarda venoz təzyiqin ölçülməsi üsulu

Peyan-Jiro üsulu (Payan; Giraud) – *bax:* Peyan üsulu

Peyc sindromu (J.H. Page, amer. həkim) – hipotalamusun zədələnməsi zamanı keçib gedən taxikardiya və dayanıqsız hipertenziyanın üz və boyun nahiyəsində periodik meydana çıxan qırmızı ləkələr və ləkə nahiyəsində az miqdarda hiperhidrozla birgə təsadüf etməsi

Peyperin göz fenomeni (A. Peiper, alm. pediatrı) – yenidoğulmuşun gözünü qəfil, kəskin işıqlandırdıqda başını arxaya atması və opistotonusun müşahidə edilməsi

Peyrafobiya *(peiraphobia)* – kütlə qarşısında çıxış etməkdən qorxma

Peyts-Turen sindromu (J.L.A. Peutz; A. Touraine, 1883-1961, frans. dermatoloqu) – *bax:* Peyts-Yegers sindromu

Peyts-Turen-Yegers sindromu (J.L.A. Peutz; A. Touraine; H. Jeghers) – *bax:* Peyts-Yegers sindromu

Peyts-Yegers sindromu (J.L.A. Peutz, hol. həkim; H. Jeghers, hol. həkim) – mədə-bağırsaq sisteminin irsi polipozu, yanaqların selikli qişasında, ağız ətrafında və ovuc dərisində xırda piqment ləkələrin olması

Peyzer sınağı (A. Peyser, alm. otorinolarinqoloqu) – eşitmə orqanına 3 dəqiqə ərzində 100 *db* intensivlikli səslə təsir etdikdən sonra, eşitmə qabiliyyətinin dəyişməsinin təyin edilməsinə əsasən, eşitmə orqanının səsin təsirinə davamlılığını müəyyən edən üsul

Pəhriz üzrə tibb bacısı – xəstəxana mətbəxinin və yeməkxanasının sanitar vəziyyətinə, qidanın işlənməsi və paylanmasına, menyunun müvafiq xəstəliyə uyğun olmasına cavabdeh olan tibb bacısı

Pələng böyrəyi – rentgenoloji müayinə zamanı parenximasının kirəcləşməsi nəticəsində zolaq və ləkələrdən ibarət böyrək kölgəsinin aşkar edilməsi; böyrək vərəminin rentgenoloji əlaməti

Pələng dili – ağ isitmə zamanı dilin üzərinin eninə və uzununa qara xətlərlə örtülməsi

Pələng ürəyi *(cor tigrinum)* – miokardın piy distrofiyaları zamanı kəsikdə endokardın altında, xüsusən məməyəbənzər əzələlərdə sarımtıl-ağımtıl nazik zolaqların olması

Pələngəbənzər maddə – *bax:* bazofil maddə

Pfannenştil kəsiyi (H.J. Pfannenstiel, 1862-1909, alm. ginekoloqu) – dəri, dərialtı təbəqə, qarnın düz əzələ yatağının ön səhifəsinin, köndələn parietal peritonun boylama kəsilməsi ilə qasıq nahiyəsində aparılan laparotomiya

Pfaundler-Hurler sindromu (M. Pfaundler, 1872-1947, alm. pediatrı; G. Hurler, alm. pediatrı) – *bax:* Hurler sindromu

Pfaundler-Hurler-Ellis xəstəliyi (M. Pfaundler, G. Hurler, R.W.B. Ellis, 1902-1966, ing. pediatrı) – *bax:* qarqoilizm

Pfeyffer xəstəliyi (E. Pfeiffer, 1846-1921, alm. həkimi) – *bax:* infeksion mononukleoz

Pfropfgebefreniya *(pfropfhebephrenia)* – *bax:* pfropşizofreniya

Pfropşizofreniya (*pfropfschizophrenia*; sin. oliqoşizofreniya) – oliqofrendə inkişaf edən şizofreniya

Pful simptomu (A. Pfuhl, 1842-1905, alm. həkimi) – diafraqmaaltı absesin punksiyası zamanı nəfəsalma aktında, pnevmotoraks zamanı isə nəfəsvermə aktında punksion iynədən irin ifrazının artması

Pıtel əməliyyatı (А.Я. Пытель, 1902-1982, sov. uroloqu) – nefroskleroz zamanı böyrəyin qan dövranını yaxşılaşdırmaq məqsədilə böyrəyi nazik bağırsaq seqmenti ilə əhatə edərək bürüməkdən ibarət cərrahi əməliyyat

Pıtel simptomu (Ю.А. Пытель, 1929-cu ildə an. olub, sov. uroloqu) – kəskin irinli pielonefrit olan tərəfdə, qarın divarı əzələsinin qabırğaaltı və bel nahiyəsində gərginliyi (xəstənin arxası üstə uzanmış və ya oturmuş vəziyyətdə eyni zamanda ikitərəfli palpasiyası zamanı aşkar edilir)

Pi- (pio-; yun. *pyon* irin) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "irinli", "tərkibində irin olan" mənasını verir

Piel *(*yun. *pyleos* ləyən*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "böyrək ləyəninə aid" mənasını verir

Pielektaziya (*pyelectasia*; *piel-* + yun. *ektasis* genişlənmə) – böyrək ləyənciklərinin genişlənməsi; hidronefrozun ilkin mərhələsi

Pielit *(pyelitis)* – böyrək ləyəninin iltihabı

Kalkulyoz pielit – böyrək ləyənin iltihabı və ləyəndə daşın olması

Pieloqrafiya – kontrast maddə yeridildikdən sonra böyrək kasası və ləyənlərinin rentgenoqrafiyası

Anteqrad pieloqrafiya – kontrast maddənin bilavasitə böyrək ləyəninə yeridilməsilə aparılan pieloqrafiya

Drenaj pieloqrafiyası – kontrast maddənin böyrək ləyəninə drenaj boru vasitəsi ilə yeridilərək aparılan anteqrad pieloqrafiya

İkili pieloqrafiya – eyni zamanda kontrast maddə və qazdan istifadə edilərək aparılan pieloqrafiya

İntraoperasion pieloqrafiya – əməliyyat zamanı icra olunan pieloqrafiya

Perkutaneum pieloqrafiya – kontrast maddənin dəridən edilən punk-

siya vasitəsi ilə böyrək ləyəninə yeridilməsi ilə aparılan pieloqrafiya
Retroqrad pieloqrafiya – kontrast maddənin kateter ilə sidik axarına yeridilməsi ilə aparılan pieloqrafiya

Pielolitotomiya *(pyelolithomia)* – daşların çıxarılması üçün böyrək ləyəninin açılması

Pielonefrit *(pyelonephritis)* – böyrək ləyəninin və parenximasının iltihabı
Emfizematoz pielonefrit (*p. emphysematosa*) – böyrək və onu əhatə edən toxumada qaz qabarcıqlarının yığılması ilə gedən kəskin irinli pielonefrit
Enən pielonefrit (*p. descendens*) – *bax:* hematogen pielonefrit
Hematogen pielonefrit (*p. haematogena*) – törədicinin hematogen yolla böyrəyə gətirilməsi nəticəsində yaranan pielonefrit
Xroniki pielonefrit (*p. chronica*) – uzun sürən latent və residivli dövrlərin bir-birini əvəzləməsi ilə gedən pielonefrit
İrinli pielonefrit (*p. purulenta*) – böyrək toxumasının irinli infiltrasiyası ilə xarakterizə olunan kəskin pielonefrit
Kalkulyoz pielonefrit (*p. calculosa*) – böyrək və sidik axarlarında konkrimentin olması ilə yanaşı gedən pielonefrit
Kəskin pielonefrit (*p. acuta*) – yüksək hərarət, ağrı, piuriya, böyrək funksiyasının pozulması ilə gedən böyrəyin kəskin ekssudativ pielonefriti
Ksantoqranulematoz pielonefrit (*p. xanthogranulomatosa*) – böyrəyin aralıq toxumasında qranulematoz əlavələrin olması ilə xarakterizə olunan xroniki kalkulyoz pielonefrit
Qalxan pielonefrit (*p. ascendens*) – yoluxucunun sidik yollarından yuxarıya doğru yayılması ilə xarakterizə olunan pielonefrit

Pielonefrostomiya (*pyelonephrostomia*; *pielo-* + yun. *nephros* böyrək + *stoma* dəlik) – *bax:* nefropielostomiya

Pieloplastika (*pyeloplasty*) – cərrahi əməliyyat: böyrək ləyəninin sidik axarına keçdiyi yerdə daralmanın aradan qaldırılması

Pielotomiya *(pyelotomia)* – böyrək ləyənciyinin açılması cərrahi əməliyyatı

Piemiya *(pyaemia)* – sepsisin mikroorqanizmlərin qanla müxtəlif orqan və toxumalara yayılmış forması

Pieri əməliyyatı (G. Pieri, ital. cərrah) – cərrahi əməliyyat: hipertoniya xəstəliyinin müalicəsi zamanı Th_4-L_3 simpatik qanqlionlarının diafraqmadan keçən kəsiklə xaric edilməsi

Pik eritromeliyası (Ph.J. Pick, 1834-1910, çex dermatoloqu) – *bax:* xroniki atrofik akrodermatit

Pik xəstəliyi (A. Pick) – sinir sisteminin total presenil ağıl kəmliyi və nitqin pozulması ilə gedən xəstəliyi

Pik illüziyası (A. Pick, 1851-1924, çex psixiatr və nevropatoloqu) – olduğu otağın divarlarının qeyri-düzgün formalı yerləşməsi, əyri olmasından ibarət görmə illuziyası (bəzən xəstəyə ele gəlir ki, insanlar divardan keçərək sərbəst hərəkət edə bilir)

Pik sindromu (A. Pick) – 1) *bax:* Pik xəstəliyi; 2) *bax:* Pikin qaraciyər psevdosirrozu; 3) *bax:* Bar-Pik sindromu

Pikasizm (lat. *pica* sağsağan) – *bax:* təhrifolunmuş iştaha

Pikin əməliyyatı (F. Pick, 1867-1926, çex həkimi) – «S»-əbənzər bağırsağın detorsiyasından sonra yenidən burulmasının qarşısını almaq məqsədilə peritonun altından qarnın ön-yan divarına təsbit edilməsi cərrahi əməliyyatı

Pikin qaraciyər psevdosirrozu (F. Pick) – konstruktiv perikardit nəticəsində aşağı boş venanın sıxılması ilə yaranan portal hipertenziya, qaraciyər venalarının genəlməsi, assit və qaraciyərin fibroz dəyişikliyindən ibarət simptomokompleks

Pikin qoşalaşan paramneziyası (A. Pick, 1851-1924, çex psixiatr və nevropatoloqu) – *bax:* paramneziya qoşalaşan

Pikkerinq sınağı (G. W. Pickering, ing. həkimi) – manjetlə bağlanmış, yuxarı qaldırılmış ətrafın 5 dəqiqədən sonra manjetdən azad edilərək barmaqlarda hiperemiyanın əmələ gəlməsinə əsasən obliterasiyaedən endarteriitin diaqnostika üsulu

Pikkvik sindromu (ing. *Pickwickian-syndrome*) – ağciyər hipoventilyasiyasının simptomlar kompleksi: boyun alçaq olması, piylənmə, tezləşmiş səthi tənəffüs, yuxululuq, arterial hipertenziya, təngnəfəslik

Piknolepsiya *(pyenolepsia)* – əsasən uşaqlarda rast gəlinən göz almasının, başın və bədənin arxaya hərəkəti ilə müşayiət olunan huşun qısamüddətli itməsi

Piknoz (*pyenosis*) – hüceyrə nüvəsinin və ya bütün hüceyrənin ölçülərinin kəskin azalması (büzüşməsi), məs., tələf olma prosesində

Pikrogevziya *(picrogeusia)* – müvafiq qıcıqlandırıcı olmadan acılıq hissinin yaranması

Piktoqram *(pictogramma)* – psixoloji-eksperimental müayinələr zamanı istifadə olunan, müəyyən sözün və ya anlayışın şəkillə ifadəsi

Piqmalionizm (yun. *Pygmalion,* yaratdığı qadın heykəlinə aşıq olan mifik heykəltəraş) – qadın heykəllərinə qarşı cinsi həvəs

Piqmenli kseroderma (*xeroderma piqmenosum*) – 1-3 yaşlarında uşaqlarda təsadüf olunan irsi dəri xəstəliyi

Piqment *(*lat. *pigmentum* boya, rəng*)* – biologiyada: müəyyən rəngə malik və mühiti (məs., orqanizmin hüceyrə və toxumalarını) rəngə boyayan maddə

Ekzogen piqment – orqanizmə xarici mühitdən düşən piqment

Endogen piqment – orqanizmdə maddələr mübadiləsi nəticəsində yaranan piqment

Qocalıq piqmenti – *bax:* lipofussin

Lipoid piqmenti – *bax:* lipofussin

Sarı piqment – *bax:* lipofussin

Piqment dermatozu (*dermatosis pigmentosa*) – *bax:* piqment saxlamama sindromu

Piqment dənəcikləri *(granula pigmentica)* – xromoproteid mübadiləsi pozğunluğu zamanı hüceyrə və hüceyrəarası sahədə lokalizasiya edən endogen piqment qranulası

Piqment saxlamama sindromu (*incontinentia pigmenti*) – bədənin yan səthlərində qəribə formalı piqment ləkələrin əmələ gəlməsi ilə xarakterizə olunan irsi dermatoz; dişlərin, saçın və gözlərin inkişaf anomaliyaları ilə birgə gedir və qız uşaqlarında müşahidə olunur

Piqmentasiya *(pigmentatio)* – endogen (melanin, hemosiderin) və

ya ekzogen piqmentin toxumalarda toplanması

Piqmentləşmiş bazalioma *(basalioma piqmentosum)* – *bax:* piqment bazalioması

Piqmentli övrə (*urticaria pigmentosa*) – *bax:* ləkəli mastositoz

Piqmentli papullyoz övrə (*urticaria pigmentosa papulosa*) – *bax:* papullyoz mastositoz

Piqopagiya *(pygopagi)* – oma nahiyəsində bitişmiş əkizlər

Pileflebit *(pylephlebitis)* – qapı venasının iltihabı

Pileflebosklerozz *(pylephlebosclerosis)* – adətən, qapı venasının tromboz və obliterasiyası ilə eyni zamanda təsadüf edilən qapı venasının sklerozu

Pilinq (ing. *peel* təmizləmək, qabığı şıxartmaq) – səthi, ölmüş hüceyrə qatının təmizlənmsi

Dərin pilinq – epidermis və məməyəbənzər qatı əhatə edən pilinq

Orta pilinq – bütün epidermisi əhatə edən pilinq

Səthi pilinq – yalnız buynuz qişa səviyyəsində aparılan pilinq

Pilləkən simptomu – *bax:* durma simptomu

Pilləli onurğa üçbucağı (*trigonum spatiu)scalenovertebrale*) – boynun döş-körpucuk-məməyəbənzər nahiyəsində ön pilləvari əzələ, boynun uzun əzələsi və plevra kümbəzi ilə məhdudlaşmış sahə

Pilo- (lat. *pilus* tük) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "saçlara aid" mənasını verir

Piloarreksiya *(piloarrectio*; sin. piloereksiya*)* – tükləri qaldıran əzələlərin yığılması nəticəsində «Qaz dərisinin» əmələ gəlməsi

Piloereksiya (*piloerectio*; *pilo-* + lat. *erigo, erectum* düzləşdirmək, qaldırmaq) – *bax:* piloarreksiya

Piloid (*piloideus*; *pilo-* + yun. *eides* oxşar) – saçı, tükü xatırladan

Pilokarpin (*pilocarpinum*) – xolinomimetik təsir göstərən maddə

Pilomikoz *(pilomycosis)* – saçların parazit göbələklər tərəfindən törədilən xəstəliklərinin ümumi adı

Pilomotor (*pilo-* + lat. *motor*) – tükləri qaldıran əzələləri oyadan, gücləndirən

Pilonidal sinus – *bax:* büzdümün epitelial yolu

Pilonidal sist (c*ysta pilonidalis*) – *bax:* büzdümün epitelial yolu

Pilorektomiya *(pylorectomia)* – mədənin yalnız çıxacaq hissəsinin xaric edilməsi ilə icra olunan rezeksiyası

Pilor- (piloro-; anat. *pylorus* mədə çıxacağı) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "mədə çıxacağına aid" mənasını verir

Pilorik kanal *(canalis pyloricus)* – mədənin onikibarmaq bağırsağa keçən hissəsi

Pilorik nahiyə *(pylorus)* – mədə çıxacağının onikibarmaq bağırsağa keçən daralmış hissəsi

Piloroduodenit *(pyloroduodenitis)* – mədə çıxacağı və onikibarmaq bağırsağın birgə iltihabı

Piloroobstruksiya – mədə çıxacağının bağlanması

Piloroplastika *(pyloroplastica)* – mədə çıxacağının daralması zamanı icra olunan cərrahi əməliyyat

Ekstramukoz piloroplastika – cərrahi əməliyyat: selikli qişa kəsilmədən mədə çıxacağının seroz-əzələ qatının boylama kəsilməsi; pilorostenozun müalicəsi üçün təklif olunur

Finney piloroplastikası (Y.M. T. Finney) – xora xəstəliyi zamanı qastroduodenostomiyanın piloroplastika ilə birgə tətbiqi

Mikuliç piloroplastikası (J. Mikulicz-Radecki, 1850-1905, alm. cərrahı) – cərrahi əməliyyat: selikli qişa açılmadan mədə çıxacağı sfinkterinin yarılması, seroz qişa kəsik xəttinə perpendikulyar istiqamətdə tikilir; mədə çıxacağının stenozu zamanı icra olunur

Pilorospazm *(pylorospasmus)* – mədə çıxacağı əzələsinin, mədə möhtəviyyatının onikibarmaq bağırsağa keçməsini çətinləşdirən spazmı

Pilorostenoz *(pylorostenosis)* – mədə çıxacağının, mədə möhtəviyyatının onikibarmaq bağırsağa keçməsini çətinləşdirən daralması

Pilorostomiya *(pylorostomia)* – mədə çıxacağı nahiyəsində fistulanın qoyulması cərrahi əməliyyyatı

Pilorotomiya *(pylorotomia)* – mədənin boylama kəsilməsi cərrahi əməliyyyatı (məs., yad cismin çıxarılması zamanı icra olunan cərrahi əməliyyat)

Pilotsuz hava hücumu vasitələri – yer və dəniz obyektlərinə zərbə endirmək üçün istifadə edilən ekipajsız (heyətsiz) uçan aparatlar

Pilosebosistomatoz (*pilose bocystomatosis*) – *bax:* steatosistomatoz

Pinealoma (*pinealoma*) – əzgilşəkilli cismin (epifizin) parenximatoz hüceyrələrindən (pinealositlərdən) inkişaf edən şiş, əsasən kiçik yaşlı uşaqlarda rast gəlinir

Pinel əlaməti (Ph. Pinel, 1745-1826, frans. həkimi) – aktiv ağciyər vərəmi zamanı boyun nahiyəsində azan sinirinin keçmə istiqaməti boyunca barmaqlarla təzyiq etdikdə qarnın yuxarı hissəsi və döş qəfəsində kəskin ağrının meydana çıxması

Pingvekula (*pinguecula*) – sklerada normal fonda ada şəklində qalınlaşmış sarı ləkələr

Pinkusun musinoz alopesiyası (H. Pinkus, amer. dermatoloq) – *bax:* dərinin follikulyar musinozu

Pins əlaməti (E. Pins, 1845-1913, avstr. həkim) – ekssudativ perikardit zamanı sol kürək sümüyünün aşağı qütbündə timpanik çalarlı kütləşmiş ağciyər səsinin eşidilməsi

Pins simptomu (Pines) – *bax:* Payns simptomu

Pinset (frans. *pincette*) – toxumanı, həmçinin müxtəlif əşyaları tutmaq və saxlamaq üçün istifadə olunan alət

Anatomik pinset – branşların işçi səthində köndələn kəsikləri olan pinset

Arruginin kapsulyar pinseti (H. Arruga, isp. oftalmoloqu) – əyilmiş branşları olan pinset; bülluru kapsulu ilə birgə xaric etmək üçün nəzərdə tutulmuşdur

Büllurun kapsulu üçün pinset – kataraktanın ekstrakapsulyar ekstraksiyası əməliyyatı zamanı büllurun ön kapsulunun bir hissəsini tutmaq və qopartmaq üçün istifadə olunan pinset

Cərrahi göz pinseti – ucunda köndələn kəsiklər və dişciklər olan ensiz dodaqlı pinset; oftalmoloji əməliyyatlarda istifadə olunur

Cərrahi pinset – toxumanı möhkəm tutmaq üçün istifadə olunan pinset, bir branşının ucunda iki dişcik, digərinin – bir dişcik mövcuddur

Dişli-pəncəli pinset (sin. Otta pinseti) – sərt beyin qişasını tutmaq üçün nəzərdə tutulmuş pinset; bran-

şlarının distal uclarında dəyirmi kasacıqları, onların kənarlarında isə dişciklər mövcuddur

Epilyasiya pinseti (sin. kirpikcikli pinset) – yastı kip birləşən ucları olan pinset, qeyri-düzgün bitən kirpiklərin və digər tüklərin çıxarılması üçün nəzərdə tutulur

Fiksə üçün pinset – branşlarının ucunda içəriyə doğru əyilmiş dişcikləri olan pinset; oftalmoloji əməliyyatlar zamanı göz almasını təsbit etmək üçün nəzərdə tutulmuşdur

Göz qapaqlarını təsbit etmək üçün pinset (sin. Qrefe pinseti) – oftalmoloji əməliyyatların icrası zamanı göz qapağını tutmaq və saxlamaq üçün istifadə olunan pinset, qıfılı yaylı dil tipi üzrə hazırlanmışdır

Göz pinseti – kiçik ölçüləri ilə seçilən anatomik pinset

Grefe pinseti – *bax:* Göz qapaqlarını təsbit etmək üçün pinset

Kirpikcikli pinset – *bax:* epilyasion pinset

Qansaxlayan pinset – branşları qapalı vəziyyətdə təsbit edən kremalyeri olan pinset; cərrahi əməliyyat zamanı xırda damarları ətraf toxumalarla birgə tutaraq qanaxmanı dayandırmaq üçün istifadə olunur

Nelsonun pinseti (Nelson) – üzərində çoxsaylı dişcikləri olan enli dodaqlara malik pinset, ağciyərləri tutmaq üçün istifadə olunur

Otta pinseti – *bax:* dişli-pəncəli pinset

Radioloji pinset – radionuklid tərkibli preparatlarla işləyən zaman təhlükəsizliyi təmin etmək üçün nəzərdə tutulmuş, əyilmiş branşları və rezin ucluqları olan pinset

Stomatoloji pinset – əyilmiş ensiz dodaqları olan pinset, ağız boşluğunda müxtəlif manipulyasiyalar aparmaq üçün istifadə olunur

Pinta (pinta; isp. ləkə) – *Treponema carateum* tərəfindən törədilən xroniki tropik infeksion xəstəlik, dəridə eritematoz ləkələrin əmələ gəlməsi, daha sonra disxromiya ilə xarakterizə olunur; əsasən Latın Amerikası ölkələrində yayılmışdır

Pinye indeksi (M.Ch. J. Pignet, frans. həkimi) – insanın boyu, çəkisi və döş qəfəsinin ölçülərini nəzərə almaqla fiziki inkişaf göstəricisi

Piodermatoz (*pyodermatosis*) – *bax:* piodermiya

Piodermit (*pyodermitis*) – *bax:* piodermiya

Piodermiya (*pyodermia*; sin. Piodermatoz, piodermit, pioz) – dərinin və dərialtı piy toxumasının iltihabi xəstəliyi olub, dəridə irinli-iltihablı proseslərlə özünü biruzə verir; streptokoklar, stafilokoklar və digər törədicilər tərəfindən törədilən dermatozların ümumi adı

Pioftalmiya (yun. *pyon* irin, *ophthalmos* göz) – göz almasının irinli iltihabı

Piogen membran (*membrana pyogena*) – *bax:* irinli qişa

Piogenik (*pyogenus*) – irinli, irin əmələ gətirən

Piometra (*pyometra;* yun. *pyon* irin + *metra* uşaqlıq) – uşaqlıq boşluğuna irinin toplanması; irinli endometrit zamanı uşaqlıq boynu kanalının kəskin daralması halında müşahidə olunur

Pionefroz *(pyonephrosis*; yun. *pyon* irin + *nephros* böyrək*)* – böyrəyin irinli iltihabı

Açıq pionefroz (*p. aperta*) – pionefrozun bu növündə sidiklə daim irin ifraz olunur

Kalkulyoz pionefroz (*p. calculosa*) – böyrək daşı xəstəliyinin səbəb olduğu pionefroz

Qapalı pionefroz (*p. clausa*) – ifraz olunan sidikdə irin olmur; böyrək ləyəni və ya sidik axarının obturasiyası zamanı müşahidə olunur

Qarın yatalağı pionefrozu (*p. abdominotyphosa*) – qarın yatalağından sonra hidronefroz nəticəsində və qarın yatalağı çöplərinin böyrək toxumasına nüfuz etməsi səbəbilə inkişaf edən pionefroz

Vərəm pionefrozu (*p. tuberculosa*) – böyrək parenximasında çoxsaylı kavernaların əmələ gəlməsi ilə xarakterizə olunan pionefroz

Pioperihepatit *(pyoperihepatitis)* – qaraciyərin fibroz qişasının və onu örtən peritonun irinli iltihabı

Pioperikard (*pyopericardium*) – ürək kisəsinin irinləməsi

Piopnevmoperihepatit *(pyopneumoperihepatitis)* – adətən mədə və onikibarmaq bağırsağın deşilməsi nəticəsində qarın boşluğuna irin və qazın yığılması ilə gedən pioperihepatit

Piopnevmoperikard *(pyopneumopericardium)* – çüründülü perikardit nəticəsində perikardial boşluğa irin və qazın yığılması ilə gedən patoloji proses

Piopnevmotoraks (*pyopneumothorax*) – plevra boşluğunda irinin və havanın olması

Piosalpinks (*pyosalpinx*; *pio-* + anat. *salpinx* uşaqlıq borusu) – salpingit zamanı uşaqlıq borusunda irinin toplanması

Piosele *(pyocele)* – burnun əlavə ciblərinə irinin toplanması nəticəsində sistəbənzər genəlmənin meydana gəlməsi

Piosianin (köh. *Bacillus pyocyaneus* göy irinli çöp) – göy irinli çöp tərəfindən ifraz olunan, bakterisid təsirə malik, suda həll olunan tünd-göy rəngli piqment

Piosinlər (köh. *Bacillus pyocyaneus* göy irinli çöp) – göy irinli çöpün bəzi ştamları tərəfindən ifraz olunan bakteriosinlər

Piosinus *(pyosinus)* – irinli proseslə zədələnmiş qonşu burnun əlavə cibindən, iltihablaşmamış burnun əlavə cibinə irinin toplanması

Piostatik maddə – irinin əmələ gəlməsinə mane olan maddə

Piotoraks *(pyothorax)* – plevra boşluğuna irinin toplanması (adətən irinli plevrit zamanı təsadüf olunur)

Pioureteronefroz *(pyoureteronephrosis)* – pionefrozun sidik axarının irinli iltihabı ilə birgə təsadüf olunması

Piovar (*pyovarium*; *pi-* + anat. *ovarium* yumurtalıq, sin. piovarium) – yumuralığın irinli iltihabı, yumurtalığın absesi; adətən irinli proses uşaqlıq borusundan yayıldığı zaman baş verir

Piovarium (*pyovarium*) – *bax:* piovar

Pioz (*pyosis*) – *bax:* piodermiya

Piperazin *(piperazinum)* – bağırsaq nematodozlarına təsir edən antihelmint preparat

Pipet (frans. *pipette*) – mayeni damcı-damcı tökmək üçün cihaz

Piramid sindrom *(syndromum pyramidale)* – piramid yolların zədələnməsi nəticəsində ətrafların mərkəzi iflici, əzələ tonusunun və vətər reflekslərinin yüksəlməsi və patoloji reflekslərin meydana gəlməsi

Piramida darağı şırımı (*sulcus cristae pyramidis*) – *bax:* yuxarı daşlıq siniri şırımı

Piramida yolu (*tractus pyramidales*) — özündə kortikospinal və kortikobulbar yolları birləşdirir; piramida yolunun belə adlandırılmasına səbəb yolların uzunsov beynin piramidasından keçməsidir

Piramidon sınağı – *bax:* amidopirin sınağı

Piramidotomiya *(pyramidotomia)* – piramid yolların kəsilməsi cərrahi əməliyyatı

Piranoqraf – ümumi (birbaşa və dağınıq) və ya dağınıq günəş radiasiyasını fasiləsiz qeydə almaq üçün cihaz

Piranometr – dağınıq (diffuz) radiasiyanı ölçmək üçün aktinometr

Pirantel *(pyrantelum)* – antihelmint preparat

Pirasetam *(pyracetamum)* – beyin qan dövranına və maddələr mübadiləsinə müsbət təsir göstərən qlükozanın beyin hüceyrələri tərəfindən mənimsənilməsini asanlaşdıran, yaddaş və zehni qabiliyyəti artıran nootrop dərman vasitəsi

Pirazinamid *(pirazinamidum)* – vərəm əleyhinə preparat

Pireksiya (*pyrexia*; qızdırma) – bədən temperaturunun normal temperaturla müqayisədə (37^0C) yüksəlməsi

Piretik maddə – temperaturu endirən dərman maddəsi

Piretik müalicə – xəstəliyin süni törədilən qızdırma ilə müalicəsi

Pirgeliometr (yun. *pyr* alov + *helios* günəş + *metreo* ölçmək) – günəş radiasiyasını ölçmək üçün meteoroloji cihaz

Piridoksalfosfat *(pyridoxalphosphatum)* – B_6 vitaminin kofermenti

Piridoksin *(pyridoxinum)* – B_6 vitamini

Pirilen (*pirilenum*) – qanqlioblokadaedici maddə

Pirke sınağı (C.P. Pirquet, 1874-1929, avstr. pediatr) – vərəmin diaqnostikasında tətbiq olunan və tuberkulinin yeridilməsi ilə aparılan allergik sınaq

Pirqosefaliya (*pyrgocephalia*; yun. *pyrgos* qüllə + *kephale* baş) – *bax:* akrosefaliya

Pirofobiya (*pyrophobia*) – alovdan, yanğından qorxma

Pirogen (*piro-* + yun. *genes* törədən) – tibdə: bədən temperaturunu yüksəldən

Pirogen maddələr (*pyrogena*) – temperaturun yüksəlməsinə səbəb olan bioloji aktiv maddələr (endogen, dərman və s.)

Pirogenal *(pyrogenalum)* – pirogen təsir göstərməklə immunostimulyator effektli maddə

Pirogen terapiya – orqanizmin hərarətini yüksəltməklə aparılan müalicə

Piroqov sahəsi (Н.И. Пирогов, 1810-1881, rus cərrah və anatomu) – *bax:* Paron-Piroqov sahəsi

Piroqov sarğısı (Н.И. Пирогов) – ətrafların sınıqları zamanı immobilizasiya məqsədilə işlənən gips sarğısı

Piroqov simptomu – atmosfer havasının dəyişikliyindən asılı olaraq əhval-ruhiyyənin pozulması

Piroqov tikişi (Н.И. Пирогов) – qurğuşun məftillə qoyulan ucları tənzif yastıqcıqla və ipək liqatura sapı ilə bərkidilən cərrahi tikiş

Piroqov üçbucağı *(trigonum linguale*; Н.И. Пирогов*)* – aşağıdan və arxadan ikibaşlı əzələnin vətəri, yuxarıdan dilaltı sinir və dil venası, öndən çənə-dilatı əzələsinin arxa kənarı ilə əhatə olunmuş, boynun yuxarı yan nahiyəsi

Piroqov-Lanqhans hüceyrələri (Н.И. Пирогов, 1810-1881, rus cərrah və anatomu; Th. Langhans, 1839-1915, alm. patoloqu) – vərəm və digər yoluxucu xəstəliklər zamanı rast gəlinən oval nüvələri periferik yerləşən, çoxnüvəli giqant hüceyrələr

Piroqov-Rozenmüller limfatik düyünü (Н.И. Пирогов; J.Ch. Rosenmuller, 1771-1820, alm. anatomu) – bud venası və lakunar bağın medial hissəsində yerləşən limfatik düyünlər

Piroqovun bağırsaq tikişi (Н.И. Пирогов) – bağırsaq yaralanmaları zamanı qoyulan bir cərgəli seroz-əzələ tikişi

Piroqovun birinci qanunu (Н.И. Пирогов) – bütün damar yataqları damarın yaxınlığında yerləşən əzələ yataqlarından təşkil olunub

Piroqovun ikinci qanunu (Н.И. Пирогов) – əgər əzələ yatağının lifləri dartılarsa arterial yataq prizmatik şəkil alır

Piroqovun üçüncü qanunu (Н.И. Пирогов) – damar yatağının zirvəsi yaxınlıqdakı sümük və ya oynaq kapsulu ilə birləşir

Piroqov-Valdeyerin limfatik həlqəsi (Н.И. Пирогов; H.W.G. Waldeyer, 1836-1921, alm. anatomu) – *bax:* limfatik udlaq həlqəsi

Piroqov-Vreden əməliyyatı (Н.И. Пирогов; P.P. Вреден, 1867-1934, sov. cərrah-ortopedi) – cərrahi əməliyyat: arterial anevrizmanın, anevrizma kisəsini açmadan, arteriyanın yuxarı və aşağı nahiyəsindən bağlanması

Piromaniya (*pyromania*) – yanğın törətməyə meyillilik

Piroterapiya *(pyrotherapia)* – bədən temperaturunu süni surətdə qaldırmaqla müalicə üsulu

Pirozis – mədədən boğaza doğru yüksələn və yeməkdən bir neçə saat sonra ortaya çıxan yüngül yanma hissi, qıcqırma

Pirroksan (*pyrroxanum*) – alfa-adrenoblokator təsirli antiadrenergik maddə

Pişik gözü sindromu (ing. Cat eye syndrome, CES) – bəbəyin vertikal forması, qulaq seyvanı ölçülərinin balaca olması, mikrooftalmiya, öd yollarının atreziyası, Mekkel divertikulu, anusun atreziyası, ürəyin anadangəlmə qüsurları ilə birgə təsadüf olunduğu genetik xəstəlik

Pişik səsi (mırıldaması) sindromu (sin. Lejen sindromu) – qırtlağın anomaliyası nəticəsində yeni doğulmuş dövründə səsin qeyri-adi yüksək tembri və müxtəlif inkişaf qüsurlarının birgə təsadüf olunması

Pitiriaz *(pityriasis*; yun. *pityron* kəpək*)* – dərinin kəpəyəbənzər qabıqlanması ilə təzahür edən dermatozların ümumi adı

Pitres testi (J.A. Pitres, 1848-1927, frans. həkimi) – dirsək sinirinin zədələnməsinin müayinə üsulu, bu zaman ovucu ilə bərk müstəvi üzərinə qoyulmuş biləkdə IV və V barmaqlarda hərəkətlərin icrasının məhdudlaşdığı aşkar edilir

Piuriya *(pyuria)* – sidikdə irinin olması, makroskopik və ya leykositlərin miqdarının artması ilə təyin edilir

Aseptik piuriya (*p. aseptica*) – sidikdə mikroorqanizmlər aşkar edilmir; sidik-cinsiyyət orqanlarının vərəmi zamanı müşahidə olunur

İnisial piuriya (*p. initialis*) – üç stəkan sınağı zamanı ifraz olunan

sidiyin yalnız ilk porsiyasında piuriyanın aşkar edilməsi; ön uretrit zamanı müşahidə olunur

Terminal piuriya (*p. terminalis*) – üç stəkan sınağı zamanı ifraz olunan sidiyin yalnız sonuncu porsiyasında aşkar edilən piuriya; prostat vəzin və toxum kisəciklərinin xəstəlikləri zamanı təsadüf edilir

Total piuriya (*p. totalis*) – üç stəkan sınağı zamanı sidiyin bütün porsiyalarında aşkar edilən piuriya

Pivə ürəyi – ürəyin bütün şöbələrinin dilatasiyası, ritm və keçiricilik pozğunluğu, ürək çatışmazlığı ilə gedən ağır alkoqol miokardiodistrofiyası

Piy qranuleması – *bax:* pannikulit

Piy toxumasının üzüyəbənzər atrofiyası *(atrophia textus adiposi anularis)* – saidi simmetrik olaraq əhatə edən, dərin üzüyəbənzər şırımlar şəklində təzahür edən, piy vəzinin dərialtı atrofiyası ilə xarakterizə olunan naməlum mənşəli xəstəlik

Piy vəzi axarı *(ductus glanduale sebaseae)* – piy vəzinin tük follikulunun qıfına və ya sərbəst olaraq dəri səthinə açılan axarı

Piylənmə (*adipositas*) – bədən çəkisinin orta normadan 20% artıq olması və orqanizmdə piyin həddindən artıq yığılması

Alimentar piylənmə (*a. alimentaria*) – qəbul olunan qidanın sərf olunan enerjiyə nisbətən artıq olması nəticəsində meydana çıxan piylənmə

Diensefal piylənmə (*a. diencephalica*; sin. hipotalamik piylənmə, serebral piylənmə) – hipotalamusun aşağı medial nüvəsinin zədələnməsi zamanı enerji mübadiləsinin tənzim olunmasının pozulması ilə əlaqədar olaraq meydana çıxan piylənmə

Hipotalamik piylənmə – *bax:* diensefal piylənmə

İnfiltrativ piylənmə – hüceyrələrdə əsasən neytral yağların toplanması

Serebral piylənmə (*a. cerebralis*) – *bax:* diensefal piylənmə

Piyli ürək *(cor adiposum)* – epikardın altına massiv piy toxuması yığılmış ürək (piy mübadiləsinin pozğunluqları zamanı rast gəlinir)

Piylik dəliyi *(foramen epiploicum)* – yuxarıdan qaraciyərin quyruqlu payı, öndən qaraciyər-onikibarmaq bağırsaq, arxadan qaraciyər-böyrək və aşağıdan böyrək-onikibarmaq bağırsaq bağları ilə məhdudlanan, piylik kisəsini qarın boşluğu ilə birləşdirən dəlik

Piylik kisəsi *(bursa omentalis)* – qarın boşluğunun, mədənin və kiçik piyliyin arxasında diafraqma və köndələn çənbər bağırsaq müsariqələri arasında yerləşən hissəsi

Plagiosefaliya *(plagiocephalia*; yun. *plagios* çəp + *kephale* baş*)* – tac tikişin vaxtından əvvəl sümüklənməsi nəticəsində kəllənin assimetriyası

Plakofobiya (*placophobia*) – qəbirdən, qəbir daşlarından qorxma

Plammer xəstəliyi (H.S. Plummer, 1874-1937, amer. terapevt) – *bax:* qalxanvari vəzin toksiki adenoması

Plammer-Vinson sindromu (H. S. Plummer, 1874-1937, amer. terapevt; P. P. Vinson, amer. həkim) – riboflavin və fol turşusu çatışmazlığı nəticəsində yaranan, disfagiya, həzm traktı selikli qişasının atrofiyası, hipoxrom anemiya, qanda dəmirin miqdarının azalması ilə xarakterizə olunan xəstəlikr

Plankton üsulu – *bax:* Diatom analizi

Plantoqrafiya (lat. *planta* ayağın altı, pəncə + yun. *grapho* yazmaq) –

yastıpəncəliliyi müəyyən etmək üçün istifadə olunan üsulların ümumi adı; ayaq altının müxtəlif rəngli maddələrlə izinin ölçülməsi

Plantoqramma – pəncənin alt səthinin izi ilə birlikdə vertikal proyeksiyasının konturu; yastıpəncəliliyin diaqnostikası zamanı istifadə olunur

Planuriya (yun. *planos* azan, *uron* sidik) – patoloji dəlikdən sidiyin xaricə və ya toxumalara ifraz olunması; sidiyin qeyri-təbii yolla ifraz olunması

Plasebo *(placebo)* – xarici görünüş və dadına görə müəyyən dərman maddələrini xatırladan farmakoloji indifferent maddə; dərman maddələrinin farmakoloji təsirinin tədqiqi zamanı istifadə olunur

Plasebo effekti – orqanizmin plasebonun qəbuluna reaksiyası; psixoloji təsir nəticəsində fizioloji dəyişmənin müsbət müalicəvi effekti

Plasentoma (köh.; *placentoma*) – *bax:* xoriokarsinoma

Platifilin (*platyphylinum*) – antixolinergik təsir göstərən maddə

Platifreniya *(platyphrenia)* – diafraqmanın qalınlaşması və aşağıda yerləşməsi

Platinektomiya *(platinectomia)* – otoskleroz zamanı üzənginin əsasının xaric edilməsindən ibarət cərrahi əməliyyat

Platiriniya *(platyrrhinia)* – enli və qısa burnun olmasından ibarət üzün qocalma növü

Platispondiliya *(platyspondylia*; *plati-* + yun. *sponaylos* fəqərə*)* – fəqərə cisminin genişlənməsi

Degenerativ platispondiliya *(p. degenerativa)* – endokrin pozğunluqlar zamanı fəqərə cisminin distrofik prosesi ilə əlaqədar olan platispondiliya

Kesson platispondiliya – Kesson xəstəliyi zamanı fəqərə cisminin aseptik nekrozu nəticəsində meydana çıxan platispondiliya

Platistafiliya *(platystaphylia)* – enli, yastı damağın olmasından ibarət inkişaf qüsuru

Platistensefaliya *(platystencephalia)* – baş beyin kürələrinin yastılaşmasından ibarət inkişaf qüsuru

Plaut hallüsinozu (F. Plaut, alm. həkimi) – baş beynin sifilisi olan xəstələrdə verbal hallüsinoz

Plazma akseleratoru – *bax:* faktor VIII

Plazma (*plasma sanguinis*) – qanın maye hissəsidir, tərkibində su, protein, həll olmuş halda duz, qlükoza, yağ və amin turşusu, karbondioksid, azotlu tullantı və hormonlar var

Plazmakinin – *bax:* faktor VIII

Plazmanın tromboplastik faktoru – *bax:* faktor VIII

Plazmanın tromboplastik komponenti – *bax:* faktor VIII

Plazmatik hopma *(impra egnatio plasmatica)* – qan damarı divarına plazma zülallarının hopması nəticəsində damar keçiriciliyinin pozulması (məs., hipertonik krizlər, kallogen xəstəlikləri, sepsis zamanı təsadüf edilir)

Plazmatizasiya – qanda çox sayda plazmatik elementlərin əmələ gəlməsi (məs., mielom xəstəliyində)

Plazminogen (sin. profibrinolizin) – bəzi faktorların təsiri altında plazminə çevrilən qan qlobulini

Plazmol *(plasmolum)* – qeyri-spesifik desensiblizasiyaedici və ağrıkəsici effektli biogen preparat

Plazmoptiz *(plasmoptisis)* – mikrob hüceyrəsinin hipertonik məhlulda şişməsi və qişasının dağılması

Plazmoragiya *(plasmorrhagia) – bax:* plazmatik hopma

Plazmoreksis (plasmorrhexis) – nekroz zamanı hüceyrə protoplazmasının dağılması

Plazmositoma *(plasmocytoma)* – mielom xəstəliyinin şişşəkilli lokal təzahürü

Pleks- *(*pleksus-; lat. *plexus* kələf*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "kələfə (sinir, damar) aid olan" mənasını verir

Pleksalgiya *(plexalgia)* – sinir kələfi nahiyəsində ağrı

Pleksit *(plexitis)* – onurğa beyni sinirlərinin ön şaxələrinin əmələ gətirdiyi sinir kələfinin hərəki, hissi və trofiki pozğunluqlar verən zədələnməsi (boyun, bazu, bel-oma kələfinin iltihabı zamanı)

Pleksuspapilloma (*plexuspapilloma*) – *bax:* xorioidpapilloma

Pleoptika (yun. *pleon* daha çox + *optikos* görməyə aid) – oftalmologiyanın ambliopiyanın müalicə üsullarını tərtib edən bölməsi

Pleoptofor – ambliopiyanın müalicəsi üçün optik cihaz

Pleositoz *(pleocytosis)* – onurğa beyni mayesinin tərkibində hüceyrə elementlərinin artması

Pleşin sınıq əlaməti (J. Plesch, 1878-1957, mac. terapevti) – sınıq nahiyəsindən proksimal istiqamətdə yerləşən epifizin üzərində perkussiya etdikdə auskultasiya zamanı perkutor səsin qısalması

Pletizmoqraf *(*yun. *plethysmos* doldurulma + *grapho* yazmaq*)* – insan bədəninin və ya onun hər hansı bir hissəsinin həcminin dəyişilməsini qeydə alan cihaz

Pletizmoqrafiya – insan bədəninin və ya onun hər hansı bir hissəsinin həcminin dəyişilməsi və ya müvafiq elektrik hadisələrin qrafik qeydiyyatına əsaslanan bədənin bir hissəsinin qanla dolmasının müayinə üsulu

Pletora *(plethora)* – dövr edən qanın həcminin artması

Həqiqi pletora *(p. vera)* – qan vahidində eritrositlərin sayının norma daxilində olması ilə xarakterizə olunan pletora; məs., polisitemiya zamanı müşahidə olunur

Hidremik pletora (*p. hydraemica)* – damarlarda suyun ləngiməsi nəticəsində qanın həcmi plazma hesabına artır; bu zaman qan vahidində eritrositlərin miqdarı azalır

Hiperkinetik pletora (*p. hyperkinetica)* – ürəyin güclənmiş işi zamanı qanın depolardan sürətlə çıxarılması nəticəsində meydana çıxan pletora

Qırmızı pletora (sin. polisitemik pletora) – qanda eritrositlərin miqdarının artması ilə xarakterizə olunan pletora

Oliqositemik pletora (*p. oligocytaemica) – bax:* hidremik pletora

Polisitemik pletora (*p. polycytaemica*) – *bax:* qırmızı pletora

Sadə pletora (*p. simplex) – bax:* həqiqi pletora

Seroz pletora (*p. serosa*) – *bax:* hidremik pletora

Plevralgiya (*pleuralgia*) – plevrada sinir uclarının patoloji qıcıqlanması səbəbilə döş nahiyəsində ağrının olması

Plevranın empieması (*empyema pleurae*) – plevra boşluğuna irinin yığılması

Plevranın əməliyyatdansonrakı empieması (*e. pleurae postoperativum*) – döş boşluğu orqanlarında və ya qarın boşluğunun yuxarı şöbəsində keçirilmiş cərrahi əməliyyatların ağırlaşması kimi meydana gələn plevranın empieması

Plevranın xroniki empieması (*e. pleurae chronicum*) – uzun müddət davam edən, adətən orqanik səbəbdən meydana gələn plevranın empieması

Plevranın kəskin empieması (*e. pleurae acutum*) – kəskin irinli plevrit zamanı inkişaf edən plevranın empieması

Plevranın metapnevmonik empieması (*e. pleurae metapneumonicum*) – pnevmoniya nəcitəsində inkişaf edən plevranın empieması

Plevranın məhdud empieması (*e. pleurae circumscriptum*) – plevral bitişmələrlə əhatə olunan plevra boşluğunun bir hissəsini əhatə edən empiema

Plevranın parapnevmonik empieması (*e. pleurae parapneumonicum*) – pnevmoniya ilə eyni zamanda inkişaf edən plevranın empieması

Plevranın postpnevmonik empieması (*e. pleurae postpneumonicum*) – *bax:* plevranın metapnevmonik empieması

Plevranın sinpnevmonik empieması (*e. pleurae synpneumonicum*) – *bax:* plevranın parapnevmonik empieması

Plevranın total empieması (*e. pleurae totale*) – bütün plevra boşluğunu əhatə edən empiema

Plevrektomiya *(pleurectomia)* – divarönü və ağciyər plevrasının xaric edilməsi cərrahi əməliyyatı (plevranın xroniki empieması zamanı icra edilir)

Plevrit *(pleuritis)* – plevranın iltihabi xəstəliyi, səthində və ya boşluqlarında fibroz təbəqənin əmələ gəlməsi ilə səciyyələnir

Adgeziv plevrit *(p. adhaesiva)* – *bax:* yapışan plevrit

Apikal plevrit *(p. apicalis)* – ağciyərlərin az hərəkətli olan zirvə nahiyəsini əhatə etdiyindən az simptom verən plevrit növü

Aseptik plevrit *(p. aseptica)* – plevra boşluğuna patogen mikroorqanizmin daxil olmadığı plevrit

Bazal plevrit *(p. basalis)* – plevrit simptomları ilə yanaşı diafraqmanın qıcıqlanması əlamətlərini verən, diafraqmal plevrada yerləşən fibrinozn və ya kisələnmiş plevrit (ağrılı hıçqırma, qusma, meteorizm, qarın əzələrinin gərginliyi, udmanın ağrılı olması simptomları ilə gedən xəstəlik)

Çüründülü plevrit *(p. putrida)* – çüründü törədən mikrofloranın yaratdığı üfunətli iyli plevrit (ağciyər qanqrenası zamanı inkişaf edir)

Durğunluq plevriti *(p. congestiva)* – sağ mədəcik çatışmazlığı zamanı plevranın ödemi və hiperemiyası nəticəsində inkişaf edən plevrit

Ekssudativ plevrit *(p. exsudativa)* – plevral boşluğa mayenin yığılması ilə müşayiət olunan plevranın iltihabı

Fibrinoz plevrit *(p. fibrinosa)* – az miqdar ekssudatın olması fonunda plevra səhifələrinə fibrinin çökməsi ilə xarakterizə olunan plevrit

Fibroz plevrit *(p. fibrosa) – bax:* yapışan plevrit
Hematogen plevrit *(p. haematogena)* – infeksiyanın plevraya qan dövranı ilə düşməsi nəticəsində meydana çıxan plevrit
Hemorragik plevrit *(p. haemorragica)* – ekssudatın tərkibində çox sayda eritrositin olduğu plevrit
Hipostatik plevrit *(p. hypostatica) – bax:* durğunluq plevriti
İxoroz plevrit *(p. ichorosa) – bax:* çüründülü plevrit
İnterlobal plevrit *(p. interlobaris) – bax:* paylararası plevrit
İrinli plevrit *(p. purulenta)* – irinli ekssudatın əmələ gəlməsi ilə xarakterizə olunan plevrit
Karsinomatoz plevrit *(p. carcinomatosa)* – plevranın xərçənglə yoluxması zamanı meydana çıxan hemorragik, ekssudativ plevrit
Kisələnmiş plevrit *(p. incapsulata)* – plevra boşluğunda toplanılmış ekssudatın plevra səhifələri arasında yaranmış bitişmələr hesabına məhdudlaşdığı plevrit
Kostal plevrit *(p. costalis)* – qabırğa plevrasının hər hansı bir sahəsi ilə məhdudlaşan plevrit
Quru plevrit *(p. sicca) – bax:* fibrinoz plevrit
Limfogen plevrit *(p. lymphogena)* – infeksiyanın plevraya limfa dövranı ilə düşməsi nəticəsində meydana çıxan plevrit
Mediastinal plevrit *(p. mediastinalis)* – ekssudatın mediastinal və ağciyər plevraları arasına toplandığı kisələnmiş plevrit
Metapnevmanik plevrit *(p. metapneumonica)* – pnevmoniyadan sonra rekonvalessensiya dövründə yaranan plevrit
Məhdud plevrit *(p. circunscrita)* – plevranın məhdud sahələrinin zədələndiyi plevrit
Pansir plevriti (pachpyleuritis) – plevrada sümükləşmə və kirəcləşmə ocaqlarının əmələ gəldiyi indurativ plevrit
Parakostal plevrit (*p. paracostalis) – bax:* kostal plevrit
Paramediastinal plevrit (*p. paramediastinalis*) – *bax:* mediastinal plevrit
Parapnevmonik plevrit (*p. parapneumonica)* – pnevmoniyanın inkişafı zamanı meydana çıxan plevrit
Paylararası plevrit (*p. interlobaris*) – paylararsı sahəni tutduğuna görə zəif simptomatika ilə gedən, əsasən rentgenoloji və KT müayinəsi zamanı diaqnozu dəqiqləşdirilə bilən plevrit növü
Produktiv plevrit (*p. productiva) – bax:* yapışan plevrit
Revmatik plevrit (*p. rheumatica*) – revmatizmin kəskinləşməsi zamanı poliserozitin bir təzahürü olaraq meydana çıxan ekssudativ plevrit
Seroz plevrit (*p. serosa*) – seroz ekssudatın toplanması ilə xarakterizə olunan plevrit
Seroz-hemorragik plevrit *(p. serosohaemorragica) – bax:* hemorragik plevrit
Sirkulyator plevrit (*p. circulatoria*) – *bax:* durğunluq plevriti
Teavmatik plevrit (*p. traumatica)* – döş qəfəsinin zədələnmələri zamanı meydana çıxan aseptik plevrit
Yapışan plevrit *(p. adhaesiva)* – plevra səhifələri arasında fibroz bitişmələrin əmələ gəldiyi plevrit
Zirvə plevriti *(p. apicalis) – bax:* apikal plevrit

Plevroaspirator – plevra boşluğuna yığılmış mayeni çəkmək üçün cihaz

Plevrodez *(pleurodesis)* – pnevmotoraks zamanı plevranın obliterasiyası məqsədilə icra olunan cərrahi əməliyyat

Plevrodiniya (*pleurodynia*; *plevra* + yun. *odyne* ağrı) – *bax:* plevralgiya

Plevrofistuloqrafiya – plevra boşluğuna kontrast maddə yeridildikdən sonra aparılan rentgenoloji müayinə

Plevroqrafiya – plevra boşluğuna kontrast maddə yeridildikdən sonra aparılan rentgen müayinə

Plevrolobektomiya *(pleurolobectomia)* – ağciyərin hər hansı bir payının divarönü plevra ilə birgə xaric edilməsi cərrahi əməliyyatı

Plevroparietopeksiya *(pleuroparietopexia)* – ağciyər plevrasının döş qəfəsinə tikilməsi cərrahi əməliyyatı

Plevroperikardit *(pleuropericarditis)* – plevra və perikardın birgə iltihabı

Plevropnevmonektomiya (*pleuropneumonectomia*) – cərrahi əməliyyat: ağciyərin divarönü plevra ilə birgə xaric edilməsi

Plevroseqmentektomiya *(pleurosegmentectomia)* – bronx-ağciyər seqmentinin divarönü plevranın ona bitişən hissəsi ilə birgə çıxarılması cərrahi əməliyyatı

Plevrosentez *(pleurocentesis)* – diaqnostik və ya müalicəvi məqsədlə plevra boşluğunun troakar və ya iynə ilə punksiya edilməsi

Plevroskopiya – *bax:* torakoskopiya

Plevrosoma *(pleurosoma)* – bu və ya digər dərəcədə eventrasiya ilə təzahür edən döş qəfəsi və qarın boşluğu divarının inkişaf anomaliyalarının ümumi adı

Plevrotomiya *(pleurotomia)* – yığılmış mayeni (irin, qan, ekssudat) və ya yad cismi xaric etmək üçün plevra boşluğunun məhdud sahədə açılması cərrahi əməliyyatı

Plevrotroakar – plevranı punksiya etmək üçün itiuclu alət

Pleyo – *(*yun. *pleion*, *pleon* daha çox*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "çox", "çoxlu", "böyüdülmə" mənasını verir

Pleyoxromiya (*pleyo-* + yun. *chroma* rəng; sin. polixromiya) – ödün tərkibində öd piqmentlərinin miqdarının artıq olması

Pleyotropiya (yun. *tropos* istiqamət) – bir genin bir neçə fenotipik əlamətə təsir etməsi

Plezioqrafiya (yun. *plesios* yaxın + *grapho* yazmaq) – kiçik obyektləri (barmaq falanqası, daban sümüyü, aşıq sümükləri, dişlər və s.) müayinə etmək üçün yaxın məsafə fokusundan çəkilən rentgenoqrafiya

Plezioterapiya *(plesiotherapia)* – şüalanma mənbəyinin 30-100 sm məsafədə yerləşdiyi qammaterapiya

Plomb *(plumbum)* – tibdə: çürük nəticəsində zərər görmüş olan dişin normal funksiyalarını və görünüşünü bərpa etmək məqsədilə dişin boşluğuna yeridilən bərkimiş maddə

Plomb materialı – dişin plomblaşdırılması üçün istifadə olunan materiallar (sementlər, amalqamlar və s.)

Ploskirev mühiti (Н.В. Плоскирев, sov. mikrobioloqu) – dizenteriya və salmonella törədicilərini aşkar etmək üçün öd tərkibli quru selektiv qidalı mühit

Plutofobiya – var-dövlət, varlı olmaq qorxusu

Plyuşkin sindromu (sindromun adı N.Qoqolun "Ölülər" əsərinin qəhrəmanının şərəfinə verilmişdir) – qocalıq ağıl zəifliyi zamanı lazım olmayan əşyaları, tullantıları yığıb saxlamaq

Pnevmartroz *(pneumarthrosis)* – oynaq boşluğunda qazın olması

Pnevmatik oftalmotonoqraf – göz almasına 0 qramdan 10 qramadək yük verməklə gözdaxili təzyiqin dəyişilməsini ölçən cihaz

Pnevmatik sınaq – vestibulyar aparatın müayinəsi üçün aparılan sınaq

Pnevmatosele *(pneumatocele)* – qazla dolmuş boşluqdan ibarət patoloji törəmə

Pnevmatoz *(pneumatosis)* – 1) orqan və toxumalara qazın dolması patoloji prosesi; 2) rentgenoloji müayinə zamanı bağırsaqlarda qazların artıq miqdarda olması

Pnevmaturiya *(pneumaturia)* – bağırsaq-sidik kisəsi fistulaları, sidik yollarının qaz əmələ gətirən mikroorqanizmlərlə yoluxması, sidik kisəsinə diaqnostik məqsədlə qazın yeridilməsindən sonra sidikdə qazın aşkar edilməsi

Pnevmektomiya (*pneumectomia*) – *bax:* pnevmonektomiya

Pnevmoaksiloqrafiya (yun. *pneuma* tənəffüs, hava + lat. *axilla* qoltuq + yun. *grapho* yazmaq) – böyümüş qoltuqaltı limfa düyünlərini aşkar etmək üçün dərialtı piy təbəqəsinə qazın yeridilməsindən sonra icra olunan rentgenoqrafiya

Pnevmodermatom – plastik cərrahi əməliyyatlar zamanı nazik dəri losqutu kəsmək üçün aparat

Pnevmoensefaloqrafiya – baş beyin mədəciklərinə, sistern və hörümçəyəbənzər qişaaltı nahiyəyə qaz yeridildikdən sonra çəkilən rentgenoqrafiya

Lyumbal pnevmoensefaloqrafiya – bu növ pnevmoensefaloqrafiyada kontrastlaşdırmaq üçün qaz bel punksiyası ilə yeridilir

Suboksipital pnevmoensefaloqrafiya – kontrastlaşdırmaq üçün qaz suboksipital punksiya vasitəsilə yeridilir

Pnevmofibroz (*pneumofibrosis*) – *bax:* pnevmoskleroz

Pnevmoxolesistit (*pneumocholecystitis*) – *bax:* qazlı xolesistit

Pnevmointubator – traxeyaya intubasiya borusunu və eyni zamanda tənəffüs yoluna oksigen yeritmək məqsədilə istifadə olunan alət

Pnevmokardioqrafiya – perikard boşluğuna qazın yeridilməsindən sonra ürək və perikardın rentgenoqrafiyası

Pnevmokokk (*Streptococcus pneumoniae*) – *Streptococcus* növündən olan bakteriya;0.5-1.25 mkm uzunluğunda hərəkətsiz qrammüsbət diplokokkdur, kapsul əmələ gətirir, insanda əsasən pnevmoniya, otit, osteomielit, güzehli qişanın xorasının törədicisidir

Pnevmokonioz *(pneumoconiosis*; yun. *pneuma* tənəffüs, hava + yun. *konia* toz*)* – tənəffüs orqanlarının sənaye tozlarının təsiri nəticəsində yaranan peşə xəstəliklərinin ümumi adı

Gecikmiş pnevmokonioz (*pneumoconiosis sera*) – istehsalat tozu ilə kontaktın kəsilməsindən sonra meydana çıxan pnevmokonioz

Revmatoidli pnevmokonioz (*pneumoconiosis rheumatoidea*) – pnevmokonioz və rematoidli artrit simptomlarının birgə təzahürü

Pnevmoqraf – tənəffüs hərəkətlərinin amplituda və tezliyini qeydə alan cihaz

Pnevmoqrafiya – 1) xarici tənəffüs funksiyasını öyrənmək üçün, tənəffüs hərəkətlərinin döş qəfəsi dairəsinin dəyişməsinə əsasən qrafik qeydə alınması; 2) orqan və ya toxumaların qazla kontrastlaşdırdıqdan sonra aparılan rentgenoqrafiyası

Süd vəzilərinin pnevmoqrafiyası – *bax:* pnevmomammoqrafiya

Retroperitoneal pnevmoqrafiya (lat. *retro* geridə + anat. *peritoneum* periton) – peritonarxası sahədə yerləşən orqanların pnevmoqrafiyası

Pnevmoliz *(pneumolysis)* – ağciyəri ətraf toxumalardan ayırmaqdan ibarət olan cərrahi əməliyyatların ümumi adı

Ekstraplevral pnevmoliz (*p. extrapleuralis*) – ağciyərin divarönü plevra ilə birgə döşdaxili fassiyadan ayrılması

Ekstramuskuloperiostal pnevmoliz (*p. extramusculoperiostalis*) – ağciyərin döş qəfəsi divarından döşdaxili fassia, qabırğaarası əzələlər, sinirlər, damarlar və sümüküstlüyünün daxili səthi ilə birgə ayrılması

İntraplevral pnevmoliz (*p. intrapleuralis*) – ağciyərin divarönü plevradan ayrılması

Pnevmolizin – pnevmokokklar tərəfindən ifraz olunan hemoliz törədən toksin

Pnevmomalyasiya *(pneumomalacia)* – qusuntu məhsullarının aspirasiyası nəticəsində ölmüş insan meyitinin ağciyərlərinin yumşalması

Pnevmomammoqrafiya *(pneumomammoqraphia)* – punksiya vasitəsi ilə toxumasına qaz yeridildikdən sonra süd vəzilərinin rentgenoqrafiyası

Pnevmomanometriya – nəfəsalma və nəfəsvermə zamanı tənəffüs yollarında havanın təzyiqinin dəyişməsinin ölçülməsi

Pnevmomassaj – *bax:* vakuum massajı

Pnevmomediastinoqrafiya – *bax:* qazlı mediastinoqrafiya

Pnevmomediastinum *(pneumomediastinum)* – divararalığında qazın və ya havanın olması

Pnevmomelanoz *(pneumomilanosis)* – kömür və ya başqa qara rəngli tozlarla nəfəsalma nəticəsində ağciyərin qara rəngə boyanması

Pnevmometr – 1) döş qəfəsinin tənəffüs hərəkətlərinin amplitudasını ölçən cihaz; 2) nəfəsalma və nəfəsvermə zamanı yuxarı tənəffüs yollarında havanın təzyiqini ölçmək üçün cihaz

Pnevmomieloqrafiya – lyumbal punksiya ilə hörümçəyəbənzər qişa altına qazın yeridilməsindən sonra onurğa beyni və onun qişalarının rentgenoqrafiyası

Pnevmomikoz *(pneumomycosis)* – patogen göbələklər tərəfindən törədilən ağciyər xəstəliklərinin ümumi adı

Pnevmonektomiya *(pneumonectomiya*; sin. pnevmektomiya*)* – cərrahi əməliyyat: ağciyərin tam xaric edilməsi

Geniş pnevmonektomiya (*p. dilatata*) – ağciyər xərçəngi zamanı icra olunan, divararalığı limfa düyünlərinin xaric edilməsi, plevrektomiya, traxeyanın rezeksiyası ilə birgə aparılan pnevmonektomiya

Pnevmonit *(pneumonitis)* – ağciyərdə inkişaf edən atipik iltihabi proseslərin ümumi adı; allergik alveolit

Aspirasion pnevmonit – mədənin tərkibinin aspirasiyasından sonra əmələ gələn kimyəvi zədə

Hiperhəssas pnevmonit – bitki və ya heyvani mənşəli tozlarla inhalyasiya nəticəsində allergik reaksiya və ağciyər toxumasının intersisteal qranulematoz iltihabı

Qurdeşənəyi pnevmoniti – *bax:* lupus-pnevmonit

Şüa pnevmoniti (*p. radialis*) – *bax:* şüa pnevmoniyası

Pnevmoniya *(pneumonia)* – ağciyər toxumasında sərbəst və ya hər hansı bir xəstəliyin təzahürü, yaxud ağırlaşması kimi meydana çıxan iltihabi proses

Abseslaşan pnevmoniya (*p. abscedens*) – ağciyər absesi ilə ağırlaşan pnevmoniya

Adenovirus pnevmoniyası (*p. adenoviralis*) – adətən parenximanın nekrozu, yaralı-nekrotik traxeitlə ağırlaşan, adenoviruslar tərəfindən törədilən interstisial pnevmoniya

Ağ pnevmoniya (*p. alba*) – anadangəlmə sifilis zamanı çox miqdarda leykositlərin və deskvamasiya olmuş alveolositlərin toplanması ilə xarakterizə olunan pnevmoniya

Aleykositar pnevmoniya (*p.aleucocytica*) – alveolyar ekssudatın tərkibində leykositlərin olmadığı pnevmoniya (məs. şüa xəstəliyi zamanı)

Anadangəlmə pnevmoniya (*p. congenita*) – *bax:* yenidoğulmuşların bətndaxili pnevmoniyası

Areaktiv pnevmoniya (*p. areactiva*) – reaktivliyi zəifləmiş orqanizmlərdə uzun müddətli , simptomatikası zəif nəzərəçarpan pnevmoniya

Asinoz pnevmoniya (*p. acinosa*) – asinusu əmələ gətirən bir qrup alveolu əhatə edən pnevmoniya

Asinoz-nodoz pnevmoniya *(p. asinonodosa)* – ayrı-ayrı asinusları və asinus qruplarını əhatə edən pnevmoniya

Atelektatik pnevmoniya (*p. atelectatica*) – ağciyər atelektazı nahiyəsinin yoluxması nəticəsində meydana çıxan pnevmoniya

Atipik pnevmoniya (*p. atypica*) – iltihab əlamətləri nəzərə az çarpan pnevmoniya

Bilioz pnevmoniya (*p. biliosa*) – yenidoğulmuşlarda öd qarışıq mədə şirəsinin aspirasiyası nəticəsində meydana çıxan pnevmoniya

Birincili atipik pnevmoniya (*p. atypica primaria*) – *bax:* mikoplazma pnevmoniyası

Birincili qripoz pnevmoniya *(p. gripposa primaria)*– qrip virusu tərəfindən törədilən ağır gedişli hemorragik pnevmoniya

Birincili meninqokokk pnevmoniyası (*p. meningococcica primaria*) – meninqokokklar tərəfindən törədilən, ağır gedişli, adətən plevrit və ya bronxiolitlə ağırlaşan ocaqlı və ya pay pnevmoniyası

Birincili travmatik pnevmoniya (*p. traumatica primaria*) – zədələnməyə məruz qalmış ağciyərdə inkişaf edən pnevmoniya

Bruselloz pnevmoniyası (*p. brucellosa*) – brusellozlu xəstələrdə bitişməyə meylli alveolitin, quru və ekssudativ plevritin və bronxadenitin əmələ gəlməsi ilə xarakterizə olunan pnevmoniya

Deskvamativ pnevmoniya (*p. desquamativa*) – alveolyar ekssudatında çox sayda qopmuş epitelial hüceyrələrin olması ilə xarakterizə olunan pnevmoniya

Durğunluq pnevmoniyası (*p. hypostatica*) – *bax:* hipostatik pnevmoniya

Giqanthüceyrəli pnevmoniya (*p. gigantocellularis*) – alveolyar ekssudatın tərkibində birnüvəli giqant hüceyrələr olan pnevmoniya (məs. virus xəstəlikləri zamanı təsadüf olunur)

Hamar pnevmoniya – *bax:* jelatinəbənzər pnevmoniya

Hemorragik pnevmoniya (*p. haemorrhagica*) – alveolyar ekssudatda və bəlğəmdə çox sayda eritrositin olduğu pnevmoniya (məs. qrip, taunun ağciyər formaları, qarayaranın septik forması zamanı təsadüf olunur)

Hemorragik-nekrotik pnevmoniya (*p. haemorrhagica necrotica*) – hemorragik alveolyar ekssudatla və ağciyər toxumasının nekrozu ilə gedən pnevmoniya (məs. qrip, taunun ağciyər formaları zamanı təsadüf olunur)

Hipostatik pnevmoniya (*p. hypostatica*) – ağciyərlərin venoz hiperemiyası nəticəsində meydana çıxan pnevmoniya (məs. uzun müddət kürəyi üstə uzanan şəxslərdə)

Hipostatik pnevmoniya (*p. hypostatica*) – ağciyərlərin venoz hiperemiyası fonunda inkişaf edən pnevmoniya

Hipoventilyasion pnevmoniya – havalılığı azalmış ağciyər toxumasının yoluxması nəticəsində inkişaf edən pnevmoniya (məs. ağciyərlərin tam olmayan atelektazı zamanı rast gəlinir)

Xroniki pnevmoniya (*p. chronica*) – ağciyərlərin periodik olaraq kəskinləşən xroniki iltihabı

İkincili travmatik pnevmoniya (*p. traumatica secundaria*) – zədələnmənin əks tərəfindəki ağciyərdə inkişaf edən pnevmoniya

Jelatinəbənzər pnevmoniya (*p. gelatinosa*) – vərəm zamanı ağciyər toxumasının kəsiyinin jelatin hopmuş kimi görsəndiyi, səthinin tam hamar olduğu pnevmoniya növü

Kataral pnevmoniya (*p. catarrhalis*) – alveolyar ekssudatda çox miqdarda seliyin olması ilə xarakterizə olunan pnevmoniya

Kataral-hemorragik pnevmoniya (*p. catarrhalis haemorrhagica*) – alveolyar ekssudatda çox sayda selik və eritrosit qarışığının olduğu pnevmoniya (məs. qrip zamanı təsadüf olunur)

Kazeoz pnevmoniya (*p. caseosa*) – yayılmış kəsmiyəbənzər nekroz toxumanın olması, iltihab ocaqlarının bitişməyə meylliliyi, parçalanması və prosesin bronxogen disseminasiyası ilə xarakterizə olunan pnevmoniya

Kəskin pnevmoniya – əsas etibarı ilə pnevmokokklar tərəfindən törədilən ağciyərlərin kəskin iltihabi xəstəliyi

Krupoz pnevmoniya *(p. croupo-sa)* – ağciyərin geniş sahəsini əhatə edən kəskin iltihabı

Qanqrenoz pnevmoniya (*p. gangraenosa*) – ağciyər qanqrenası ilə ağırlaşan pnevmoniya

Qarın yatalağı pnevmoniyası (*p. abdominotyphosa*) – qarın yatalağı olan xəstələrdə ağciyər toxumasında və regionar limfa düyünlərində qranulomaların əmələ gəlməsi ilə gedən pnevmoniya

Qızılca pnevmoniyası (*p. morbilica*) – qızılca zamanı destruktiv

bronxitlə müşayiət olunan xırda ocaqlı giqanthüceyrəli pnevmoniya

Qrippoz pnevmoniya *(p. gripposa)* – qripin ağırlaşması kimi meydana çıxan pnevmoniya

Lipoid pnevmoniyası (*p. lipoidea)* – bronxoqrafiya zamanı kontrast maddələrin yeridilməsindən, sümük və yumşaq toxumaların geniş zədələnmələri nəticəsində meydana çıxan piy emboliyasından sonra təzahür edən pnevmoniya

Lobar pnevmoniya (*p. lobaris*) – *bax* pay pnevmoniyası

Mərkəzi pnevmoniya (*p. centralis*) – iltihabi prosesin bronx kökü ətrafında lokallaşdığı pnevmoniya

Mikoplazma pnevmoniyası (*p. mycoplasmatica*) – Mycoplasma pneumoniae tərəfindən törədilən, paylı və ya ocaqlı pnevmoniya

Miliar pnevmoniya (*p.miliaris*) – 1-2 mm diametrli çoxsaylı iltihab ocaqlarının olması ilə xarakterizə olunan pnevmoniya

Ocaqlı pnevmoniya *(p. focalis)* - ağciyərlərin bir və ya bir neçə seqmenti ilə məhdudlaşan kəskin iltihabı

Osteoplastik pnevmoniya (*p. osteoplastica*) – əsasında sümükləşmiş ocaqların ətrafında perifokal iltihabın yaranmasının dayandığı naməlum mənşəli patoloji proses

Pay pnevmoniyası (*p. lobaris*) – ağciyərin bir payını əhatə edən pnevmoniya

Paylararası pnevmoniya (*p. interlobilaris*) – iltihabi prosesin əsasən, paylararası birləşdirici toxumalara yayıldığı intersistial pnevmoniya

Pnevmosist pnevmoniyası – *Pneumocystis* carinni tərəfindən törədilən aşağı tənəffüs yollarının iltihabi xəstəliyi

Posttravmatik pnevmoniya (*p. posttraumatica)* – *bax* travmatik pnevmoniya

Seroz pnevmoniya *(p. serosa*) – alveolyar ekssudatda və bəlğəmdə zülal və hüceyrə elementlərinin az olduğu pnevmoniya

Seroz-fibrinoz pnevmoniya *(p. serosa fibrinosa*) – tərkibində fibrinlərin olduğu seroz alveolyar eksudatlı pnevmoniya

Seroz-hemorragik pnevmoniya *(p. serosa haemorrahgica*) – çox sayda eritrositlərin olduğu seroz alveolyar eksudatlı pnevmoniya

Splenopnevmoniya – *bax* Deno pnevmoniyası

Şarko pnevmoniyası – plevritin ağırlaşması kimi meydana çıxan və ağciyər toxumasında produktiv dəyişikliklərin üstünlüyü ilə gedən pnevmoniya

Şüa pnevmoniyası (*p. radialis*) – ionlaşdırıcı şüaların orqanizmə ümumi və yerli təsiri nəticəsində meydana çıxan qansızmalı pnevmoniya

Toksik pnevmoniya (*p. toxica*) – zəhərləyici və ya qıcıqlandırıcı toksik maddələrin təsirindən yaranan pnevmoniya

Total pnevmoniya (*p. totalis*) – bütün ağciyəri əhatə edən pnevmoniya

Travmatik pnevmoniya (*p. traumatica*) – döş qəfəsinin zədələnməsindən sonra meydana çıxan pnevmoniya

Tromboembolik pnevmoniya (*p. thromboembolica*) – ağciyər arteriyasının və ya şaxələrinin infeksiyalaşmış trombla tutulması nəticəsində meydana çıxan pnevmoniya

Vaqus pnevmoniyası (*p. vagalis*) – divararalığının zədələnməsi zamanı

azan sinirin qıcıqlanması nəticəsində meydana çıxan ağır pnevmoniya
Yenidoğulmuşların bətndaxili pnevmoniyası (*p. neonatorum intrauterina*) – yenidoğulmuşun doğuş zamanı və ya dölün bətndaxili inkişafı dövründə meydana çıxan pnevmoniya
Zirvə pnevmoniyası (*p. apicalis*) – ağciyərlərin zirvə nahiyəsində yerləşən pnevmoniya

Pnevmonopeksiya *(pneumonopexia)* – *bax:* pnevmopeksiya

Pnevmopatiya *(pneumopathia)* – ağciyərlərdə gedən naməlum etiologiyalı xəstəliklərin ümumi adı

Pnevmopeksiya *(pneumopexia)* – ağciyərin döş qəfəsinə, mediastinal plevraya, diafraqmaya və ya digər ağciyərə tikilməsi cərrahi əməliyyatı

Pnevmoperiduroqrafiya (*pnevmo-* + yun. *peri* ətrafında + anat. *cavum epidurale* epidural sahə + yun. *grapho* yazmaq) – epidural sahəyə punksiya vasitəsi ilə qazın yeridilməsindən sonra onurğa beyninin rentgenoqrafiyası

Pnevmoperikard *(pneumopericardium)* – perikard boşluğunda qazın olması

Pnevmoperinefros (*pnevmo-* + yun. *peri* ətrafında + *nephros* böyrək) – *bax:* perirenal insufflyasiya

Pnevmoperisistoqrafiya – sidik kisəsiönü sahəyə punksiya vasitəsi ilə qazın yeridilməsindən sonra aparılan perisistoqrafiya

Pnevmoperitoneoqrafiya (*pnevmo-* + yun. *peritonaion* periton + *grapho* yazmaq) – qarın boşluğuna hava yeridildikdən sonra qarın boşluğu orqanlarının rentgenoqrafiyası

Pnevmoperitoneum *(pneumlperitoneum)* – periton boşluğunda qazın olması

Pnevmopieloqrafiya – böyrək ləyəninə və kasacıqlarına kateter vasitəsi ilə qaz yeridildikdən sonra çəkilən rentgenoqrafiya

Pnevmopieloureteroqrafiya – böyrək ləyəninə, kasacıqlarına və sidik axarına kateter vasitəsi ilə qaz yeridildikdən sonra çəkilən rentgenoqrafiya

Pnevmoplevrit (*pneumopleuritis*) – plevra boşluğuna ekssudatla yanaşı havanın da dolduğu ekssudativ plevrit

Pnevmopressiya (*pneumopressia*; *pnevmo-* + lat. *pressio* təzyiq) – *bax:* ağciyərlərin sıxılması

Pnevmoren (*pnevmo-* + lat. *ren* böyrək; sin. pnevmoperinefros) – 1) rentgenoloji müayinənin aparılması məqsədilə böyrəkətrafı sahəyə qazın yeridilməsi; 2) böyrəkətrafı sahədə qazın olması

Pnevmorentgenoqrafiya – *bax:* pnevmoqrafiya

Pnevmoretroperitoneal insufflyasiya – peritonarxası sahəyə qaz yeridilməsi

Pnevmoretroperitoneum (*pnevmo-* + lat. *retro* arxada + yun. *peritonaion* periton) – 1) periton arxasında yerləşən orqanların rentgenoloji müayinəsi məqsədilə peritonarxası sahəyə qazın yeridilməsi; 2) peritonarxası sahədə hava və ya qazın olması

Pnevmorikketsioz (*pneumorickettsiosis*) – *bax:* Ku qızdırması

Pnevmosefaliya *(pneumocephalia)* – kəllə boşluğunda havanın və ya qazın olması

Pnevmosinus *(pneumosinus)* – klapanlı mexanizmin yaranması nəticəsində alın cibinə havanın dolması nəticəsində ciblərin gərilməsi

Pnevmosistorentgenoqrafiya – *bax:* pnevmosistoqrafiya

Pnevmosinusit *(pneumosinusitis)* – hava ilə dolmuş və genişlənmiş burunətrafı ciblərin selikli qişasının iltihabı

Pnevmosirroz (*pneumocirrhosis*) – *bax:* ağciyər sirrozu

Pnevmosisternoqrafiya (*pnevmo-* + anat. *cisternae subarachnoidales* hörümçək toruna bənzər qişa altında yerləşən sisternlər + yun. *grapho* yazmaq) – baş beynin hörümçək torunabənzər qişa altına havanın yeridilməsindən sonra çəkilən rentgenoqrafiyası

Pnevmosistoqrafiya (sin. pnevmosistorentgenoqrafiya) – 1) sidik kisəsinə kateter vasitəsi ilə havanın yeridilməsindən sonra çəkilən rentgenoqrafiya

Pnevmoskleroz *(pneumosclerosis)* – ağciyər toxumasının müxtəlif patoloji proseslər nəticəsində birləşdirici toxuma ilə tutulması; müxtəlif ağciyər xəstəliklərinin son mərhələsi kimi təzahür edir (xroniki bronxit, ağciyər vərəmi və s.)

Antrakotik pnevmoskleroz (*p. anthracotica*) – sistematik olaraq daş kömür tozu ilə nəfəsalma nəticəsində inkişaf edən pnevmoskleroz

Bronxoektatik pnevmoskleroz (*p. bronchoectatica*) – bronxoektazların ətrafında inkişaf edən pnevmoskleroz

Diffuz pnevmoskleroz (*p. diffusa*) – hər iki ağciyərdə bərabər yayılmış pnevmoskleroz

Əzələ pnevmosklerozu (*p. muscularis*) – ağciyər toxumasında yalnız fibroz toxumanın deyil, həmçinin saya əzələnin də inkişaf etdiyi pnevmoskleroz

İnterstisial pnevmoskleroz (*p. interstitialis*) – əsasən, alveollararası arakəsməni, damar və bronxlar ətrafındakı toxumaları əhatə edən pnevmoskleroz

Kardiogen pnevmoskleroz (*p. cardiogena*) – kiçik qan dövranında durğunluğa səbəb olan ürək xəstəlikləri zamanı inkişaf edən pnevmoskleroz

Metatuberkulyoz pnevmoskleroz (*p. metatuberculosa*) – keçirilmiş ağciyər vərəmindən sonra inkişaf edən pnevmoskleroz

Ocaqlı pnevmoskleroz (*p. focalis*) – ağciyər toxumasının məhdud ocaqlı fibroz dəyişikliyi

Peribronxial pnevmoskleroz (*p. peribronchialis*) – bronxların ətrafında inkişaf edən pnevmoskleroz

Perilobulyar pnevmoskleroz (*p. perilobularis*) – payarası arakəsmələrin ətrafında inkişaf edən pnevmoskleroz

Perivaskulyar pnevmoskleroz (*p. perivascularis*) – qan damarlarının ətrafında inkişaf edən pnevmoskleroz

Plevrogen pnevmoskleroz (*p. pleurogena*) – ağciyərlərin periferik nahiyəsində yerləşən, iltihabi prosesin plevradan yayılması nəticəsində inkişaf edən pnevmoskleroz

Seqmentar pnevmoskleroz (*p. segmentalis*) – ağciyərin bir seqmentində inkişaf edən pnevmoskleroz

Silikotik pnevmoskleroz (*p. silicotica*) – tərkibində silisium olan tozla sistematik nəfəsalma nəticəsində

meydana çıxan pnevmoskleroz (məs., kvars tozları ilə nəfəsalma zamanı)

Şüa pnevmosklerozu (*p. radialis*) – ionlaşdırıcı şüaların təsirindən yaranan distrofik proseslə əlaqəli pnevmoskleroz

Toksik pnevmoskleroz (*p. toxica*) – ağciyərlərə və tənəffüs yollarına qıcıqlandırıcı təsir göstərən maddələrin zədələyici təsiri nəticəsində inkişaf edən pnevmoskleroz

Toksik-kimyəvi pnevmoskleroz – *bax:* toksik pnevmoskleroz

Toz pnevmosklerozu (*p. pulverea*) – sistematik olaraq tozla nəfəsalma nəticəsində inkişaf edən pnevmoskleroz

Tütün pnevmosklerozu – siqaret çəkən insanlarda inkişaf edən diffuz pnevmoskleroz

Pnevmosubmandibuloqrafiya (*pnevmo-* + anat. *glandula submandibularis* çənəaltı vəzi + yun. *grapho* yazmaq) – ətraf toxumalara qazın yeridilməsindən sonra çənəaltı vəzilərin iki perpendikulyar proyeksiyada rentgenoqramma və tomoqrammalarının əldə olunması ilə aparılan rentgenoqrafiyası

Pnevmotaxoqraf (*pnevmo-* + yun. *tachos* sürət + *grapho* yazmaq) – nəfəsalma və nəfəsvermə zamanı hava axınının həcmi sürətinin qrafik qeydə alınması üçün cihaz

Pnevmotaxoqrafiya (*pnevmo-* + yun. *tachos* sürət + *grapho* yazmaq) – ağciyərlərin nəfəsalma və nəfəsvermə zamanı hava axınının həcmi sürətinin fasiləsiz qrafik qeydə alınmasına əsaslanan funksional müayinəsi üsulu

Pnevmotaxoqramma – nəfəsalma və nəfəsvermə zamanı hava axınının həcmi sürətinin dəyişikliklərini əks etdirən əyri

Pnevmotif *(pneumotyph)* – *bax:* qarın yatalağı pnevmoniyası

Pnevmotireoidoqrafiya (*pnevmo-* + anat. *glandula thyreoidea* qalxanvarı vəz + yun. *grapho* yazmaq, təsvir etmək) – qazla kontrastlaşdırdıqdan sonra qalxanvari vəzin rentgenoqrafiyası

Dolayı pnevmotireoidoqrafiya – qazın döş qəfəsi arxası sahəyə vurulmasından sonra icra olunan pnevmotireoidoqrafiya

Düz pnevmotireoidoqrafiya – qazın bilavasitə qalxanvari vəzi əhatə edən toxumaya yeridilməsindən sonra icra olunan pnevmotireoidoqrafiya

Pnevmotireoqrafiya – *bax:* pnevmotireoidoqrafiya

Pnevmotomiya *(pneumotomia)* – cərrahi əməliyyat: ağciyər toxumasının kəsilməsi, məs., absesin açılması, exinokokk sistinin xaric edilməsi məqsədilə

Pean-Ru pnevmotomiyası (J.E. Pean, 1830-1898, frans. cərrahı; C.A. Roux, 1857-1934, İsveçrəli cərrah) – absesin açılması və ya exinokokkektomiya zamanı icra olunan cərrahi əməliyyat: visseral plevra parietal plevraya ketqut tikişləri ilə tikildikdən sonra ağciyərdə aparılan kəsik

Pnevmotoraks *(pneumothorax*; yun. *pneuma* hava + *thorax* döş qəfəsi*)* – plevra boşluğunda hava və ya qazın olması

Açıq pnevmotoraks (*p. apertus*) – havanın plevra boşluğuna nəfəsalma zamanı daxil olması və nəfəsvermə zamanı xaric olması ilə xarakterizə olunan pnevmotoraks

Cərrahi pnevmotoraks (*p. chirurgicus*) – plevra boşluğunun cərrahi əməliyyatın gedişində açılması nəticəsində yaranan pnevmotoraks

Daxili pnevmotoraks (*p. internus*) – plevra boşluğunun atmosferlə ağciyər toxumasında, traxeya və bronxlarda olan qüsur vasitəsi ilə əlaqəli olması

Əməliyyat pnevmotoraksı (*p. chirurgicus*) – *bax:* cərrahi pnevmotoraks

Xarici pnevmotoraks (*p. externus*) – plevra boşluğunun atmosferlə döş qəfəsində olan qüsur vasitəsi ilə əlaqələndiyi pnevmotoraks

Klapanlı pnevmotoraks (*p. vulvularis*) – plevrada olan dəliyin nəfəsvermə zamanı bağlandığı üçün nəfəsalma zamanı daxil olmuş havanın xaric ola bilmədiyi pnevmotoraks

Qapalı pnevmotoraks (*p. clausus*) – plevra boşluğunun atmosferlə əlaqəsi olmadan yaranan pnevmotoraks

Spontan pnevmotoraks (*p. spontaneus)* – ağciyər toxumasında inkişaf edən hər hansı bir patoloji prosesin nəticəsində yaranan daxili pnevmotoraks

Süni pnevmotoraks (*p. artificialis*) – müalicə və ya diaqnostika məqsədilə yaradılmış pnevmotoraks

Pnevmotoraks ekstraplevral (*pneumothorax extrapleuralis*) – havanın divarönü plevra və divardaxili fassia arasına qovulması ilə yaradılan kollapsoterapiya

Pnevmotoraks müalicəvi (*pneumothorax therapeuticus*) – ağciyər vərəminin kollapsoterapiya üsulu ilə müalicəsi məqsədilə yaradılan süni pnevmotoraks

Pniqofobiya (*pnigophobia*) – boğulmaqdan qorxma

«Poçt markası» üsulu – qranulyasiya olunmuş yara səthinin poçt markası ölçüsündə, bir-birindən müəyyən məsafədən yerləşən düzbucaqlı və ya üçbucaqlı dəri transplantantı ilə plastika edilməsi

Podaqra *(podagra*) – oynaq və oynaqətrafı toxumalara urat duzlarının çökməsi, hiperurekemiya ilə gedən purin mübadiləsi pozğunluğu

Podaqra nefropatiyası – podaqra zamanı böyrək konkrementlərinin əmələ gəlməsi nəticəsində böyrəyin interstisial zədələnməsi

Podaqrik düyün (*tophus podagricus, tophus uricus*) – podaqra zamanı əmələ gələn dərialtı toxumanın fibroz ocaqları

Podalgiya *(podalgia)* – əsasən yastıayaqlılıq zamanı təsadüf olunan pəncədə (ayaqaltı nahiyədə) fiziki gərginlikdən sonra meydana çıxan ağrı

Podensefaliya *(podencephalia)* – baş beynin böyük hissəsinin kəllə boşluğundan kənarda yerləşməsi və onunla ayaqcıqlarla birləşməsindən ibarət inkişaf anomaliyası

Podofillin *(podophyllinum)* – bitki mənşəli alkaloid tərkibli sitostatik preparat

Podometr *(podometros)* – yastıayaqlığın diaqnostikası və antropometrik müayinələr üçün istifadə olunan cihaz

Podometriya (yun. *pus, podos* ayaq, pəncə + *metreo* ölçmək) – yastıpəncəliyin diaqnostikası zamanı pəncənin uzunluğunun, eninin, hündürlüyünün ölçülməsi

Podrez-Vişnevski əməliyyatı (А.Г. Подрез, 1852-1900, rus cərrahı; А.В. Вишневский, 1874-1948,

sov. cərrahı) – cərrahi əməliyyat: kişilərdə sidik kanalının daralmış hissəsinin yarılması və kanal boşluğuna rezin kateterin yeridilməsi ilə keçiriciliyinin bərpa edilməsi

Pofikin bıçağı (L.G.M.Ph. Paufique, frans. oftalmoloqu) – keratoplastika zamanı gözün buynuz qişasını laylara ayırmaq üçün istifadə olunan əyilmiş, ucu iti və girdə olan yastı bıçaq

Pokafobiya – gözə toxunmaqdan, gözə nə isə qoymaqdan qorxma

Pokotilo üsulu (köh.; В.Л. Покотило, 1880-1931, sov. cərrahı) – əməliyyatdab əvvəl cərrahın əllərinin işlənməsi üsulu: əllər fırçanın köməyi ilə sabunla yuyulduqdan sonra 2 dəqiqə ərzində taninin 5%-li sulu məhlulu ilə işlənməsi

Poqonofobiya (*pogonophobia*) – saqqaldan, saqqallı insanlardan qorxma

Polenov plastikası (А.Л. Поленов, 1871-1947, sov. cərrahı) – cərrahi əməliyyat: kəllə sümüyü qüsurunun alın və ya təpə qabarından götürülmüş sümük lövhəcik şəklində autotransplantantla bağlanması

Poli – (yun. *poly-, polys* bir çox) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "çox", "çoxlu" mənasını verir

Poliadenit *(polyadenitis)* – bir neçə limfatik düyün qrupunun birgə iltihabı

Poliakuziya *(polyacusia)* – səsin qəbul edilməsinin pozulması (bir səs qısa fasilələrlə dəfələrlə təkrar olunan səs kimi qəbul olunur)

Polialveoliz (*polyalveolysis*) – *bax:* parodontoz

Poliamin *(polyaminum)* – parenteral qidalandırma zamanı tətbiq olunan dərman vasitəsi

Poliartralgiya *(polyarthralgia)* – bir neçə oynaqda ağrının olması

Poliartrit *(polyarthritis*; sin. çoxsaylı artrit*)* – bir neçə oynağın iltihabı

Allergik poliartrit (*p. allergic*) – ümumi allergik reaksiyanın təzahürü kimi meydana çıxan, kəskin və yarımkəskin poliartrit

Anginoz poliartrit (*p. anginosa*) – anginanın ağırlaşması kimi meydana çıxan infeksion-allergik poliartrit

Brusellyoz poliartriti (*p. brucellosa*) – brusellyoz zamanı inkişaf edən xoşxassəli seroz sinovitlər və ya dayanıqlı deformasiya verən osteoartritlər şəklində təzahür edən toksiko-allergik poliartrit

İnfeksion poliartrit (*p. infectiosa*) – yoluxucu xəstəliklərin törədiciləri tərəfindən törənən poliartritlərin ümumi adı

İnfeksion-allergik poliartrit (*p. infectiosa allergica*) – əsasən, burun-udlağın xroniki infeksiyaları nəticəsində inkişaf edən xoşxassəli poliartrit

Qonoreya poliartriti (*p. gonorrhoica*) – kəskin və ya xroniki qonoreyanın təzahürü kimi meydana çıxan poliartrit

Qurdeşənəyi poliartriti – *bax:* lupus-artrit

Ponse poliartriti (A. Poncet, 1849-1913, frans. cərrahı) – vərəm zamanı ətrafların kiçik oynaqlarının sinoviti ilə gedən poliartrit

Psoriatik poliartrit (*p. psoriatica*) – psoriazlı xəstələrdə falanqalararası oynaqların deformasiyası, destruksiyası və ankilozlaşması ilə gedən xroniki poliartrit

Revmatik poliartrit (*p. rheumatica*) – revmatizmin kəskinləşməsi zamanı əsasən, iri və orta oynaqların pe-

riartikulyar toxumalarının iltihabı, ekssudativ sinovitlə təzahür edən kəskin və ya yarımkəskin poliartrit

Revmatoidli poliartrit (*p. rheumatoidea*) – *bax:* revmatoidli artrit

Sifilitik poliartrit (*p. syphilitica*) – gecikmiş üçüncülü sifilisdə ekssudativ sinovit və ya osteoxondritlə təzahür edən poliartrit

Spesifik infeksion poliartrit (*p. infectiosa spesifica*) – *bax:* infeksion poliartrit

Poliartroz (*polyarthrosis*) – *bax:* generalizə olunmuş artroz

Poliautovaksin – bir neçə mikroorqanizm növündən hazırlanmış, müalicə məqsədilə istifadə olunan autovaksin

Polidaktiliya *(polydactylia*; *poli-* + yun. *daktylos* barmaq*)* – inkişaf anomaliyası: əl və ya ayaqda 6 və daha artıq barmağın olması

Polidez *(polydesum)* – peritonit, bağırsaq keçməməzliyi, pankreatit, qaraciyər zədələnmələri, septiki vəziyyətlər və yanıq toksemiyaları zamanı tətbiq olunan dezintoksikasiyaedici vasitə

Polidimensional diaqnoz – *bax:* Kreçmerin çoxölçülü diaqnozu

Polidinamometr – insanın müxtəlif qrup əzələlərinin gücünü ölçmək üçün cihaz

Polidipsiya *(polydipsia*; *poli-* + yun. *dipsa* susuzluq, yanğı*)* – həddindən artıq susuzluq, çox su içmə

Birincili polidipsiya (*p. primaria*) – baş beynin üzvi zədələnməsi nəticəsində meydana çıxan polidipsiya

İkincili polidipsiya (*p. secundaria*) – orqanizmin həddindən artıq su itirməsi nəticəsində meydana çıxan polidipsiya

Psixogen polidipsiya – psixikanın pozulması nəticəsində meydana çıxan polidipsiya

Poliesteziya *(polyaesthesia)* – bir nöqtədən olan qıcıqlanmanın çoxsaylı nöqtədən olan qıcıqlanma kimi qəbul edilməsindən ibarət hissiyyat pozğunluğu

Poliestradiol fosfat *(polyestradiol phosphate)* – şiş əleyhinə təsir göstərən hormonal preparat

Polietiologiya (*poli* + *etiologiya*) – eyni xəstəliyin müxtəlif səbəblərdən törənə bilməsi

Polifagiya *(polyphagia*; yun. *phagein* yemək*)* – 1) həddindən artıq çox yemək; 2) heyvanın bitki və heyvan mənşəli müxtəlif qidalarla qidalanma qabiliyyəti

Polifalangiya *(polyphalangia)* – əl və ayaq barmaqlarında falanqaların sayının artmasından ibarət inkişaf anomaliyası

Polifekaliya *(polyfaecalia)* – ifraz olunan nəcisin miqdarının artması (məs., xroniki pankreatit zamanı)

Polifobiya (*polyphobia*) – bir çox əşya və ya hadisələrdən qorxma

Polixromaziya *(polychromatosia)* – qanda həm əsas, həm də turş boyayıcı maddələrlə boyanan formalı elementlərin çoxluğu

Polixromiya (*polychromia*; *poli-* + yun. *chroma* rəng) – *bax:* pleyoxromiya

Polikardioqrafiya – yuxu arteriyasının sfiqmoqramması, elektrokardioqramma və fonokardioqrammanın sinxron qrafik qeydiyyatı

Polikarpov şprisi (С.Н. Поликарпов, sov. cərrahı) – əsasən yerli anesteziyanın aparılması üçün istifadə olunan, xüsusi klapan və porşenlə təchiz olunmuş şpris

Polikistoz *(polycystosis*; *poli-* + yun. *kystis* kisə*)* – inkişaf anomaliyası: parenximatoz orqanlarda (əsasən böyrəklərdə) şəffaf maye ilə dolu çoxsaylı sistlərin olması

Böyrəyin polikistozu (*p. renis*) – bətndaxili inkişaf anomaliyası olub, hər iki böyrəyin parenximasında müxəlif ölçülü sistlərin olması ilə xarakterizə olunur

Yumurtalığın polikistozu – xroniki oliqoovulyasiya və ya anovulyasiya nəticəsində oliqomenoreya və ya amenoreya, hipertrixoz, sonsuzluq və piylənmə verən yumurtalığın çoxsaylı sistləri

Poliklinika *(*alm. *poliklinik*; yun. *polis* şəhər + *klinike (techne)* müalicə etmə sənəti*)* – gələn xəstələrə və ya çağırış əsasında evlərdə xidmət göstərən, çoxprofilli və ya ixtisaslaşmış tibbi-profilaktik müalicə müəssisəsi

Baza poliklinikası – hərbi-tibbi xidmətin tərkibinə daxil olan, hərbi qulluqçulara bütün əsas ixtisaslar üzrə ambulator və konsultativ yardım göstərən poliklinika

Fizioterapevtik poliklinika – xəstələrin müxtəlif fizioterapevtik üsullarla müalicəsini təmin edən poliklinika

Heriatrik poliklinika – qoca və yaşlı şəxslərə xidmət göstərmək üçün ixtisaslaşmış poliklinika

Hərbi Hospital Poliklinika şöbəsi – hərbi qulluqçulara ambulator və polilinik tibbi yardım göstərən müəssisə

Kurort poliklinikası – xəstələrə kurort müalicəsi zamanı xidmət göstərən poliklinika

Qarnizon poliklinikası – hərbi-tibbi xidmətin tərkibinə daxil olan ərazisində yerləşdiyi qarnizonun hərbi qulluqçularına bütün əsas ixtisaslar üzrə ambulator və konsultativ yardım göstərən poliklinika

Müəssisə poliklinikası – hər hansı bir müəssisənin nəzdində fəaliyyət göstərən və onun işçilərinə tibbi xidmət göstərən poliklinika

Stomatoloji poliklinika – əhaliyə ixtisaslaşmış stomatoloji yardım göstərən poliklinika

Şəhər poliklinikası – şəhər əhalisinə ərazi bölgüsü prinsipi üzrə xidmət göstərən poliklinika; xəstəxananın nəzdində və ya sərbəst fəaliyyət göstərə bilər

Uşaq stomatoloji poliklinikası – 14 yaşınadək uşaqlara ixtisaslaşmış stomatoloji yardım göstərən poliklinika

Uşaq şəhər poliklinikası – şəhər əhalisinə ərazi bölgüsü prinsipi üzrə 14 yaşınadək uşaqlara xidmət göstərən poliklinika; xəstəxananın nəzdində və ya sərbəst fəaliyyət göstərə bilər

Polikoriya *(polycoria)* – bir neçə bəbəyin olmasından ibarət qüsur

Poliqanqlionevrit *(polyganglioneuritis)* – çoxsaylı sinir qanqlionlarının və onlarla əlaqəli olan sinirlərin iltihabı

Poliqanqlionit *(polyganglionitis)* – çoxsaylı sinir qanqlionlarının iltihabı

Poliqlandulyar sindrom *(syndromum polyglandulare)* – bir neçə endokrin vəzin eyni zamanda zədələnmələrinin ümumi adı

Poliqlükin *(polyglucinum)* – plazmanı əvəz edən, şok əleyhinə təsir göstərən, arterial təzyiqi tez və uzun müddətli qaldıran dərman preparatı

Poliqnatiya *(polygnathia)* – çənənin alveolyar çıxıntılarının ikiləşməsindən ibarət inkişaf anomaliyası

Poliqon (yun. *poly* çox + *angle* bucaq; *polygonum* çoxbucaqlı) – 1) hərbi təlim və müxtəlif silahların sınaqdan keçirilməsi üçün ayrılmış sahə; 2) çoxbucaqlı şəklində qala istehkamı

Artilleriya poliqonu – artilleriya atəşi üçün sahə

Nüvə poliqonu – nüvə silahını sınaqdan keçirmək üçün ərazi

Ümumqoşun poliqonu – hərbi təlimlərin aparılması və ya hərbi texnikanı sınaqdan keçirmək üçün ərazi (obyekt)

Poliqramma – orqan və ya bədənin bir hissəsinin eyni rentgen plyonkasına dəfələrlə çəkilmiş rentgenoqrafiyasından əldə olunan rentgenoqramma

Polilaliya (*poli-* + yun. *lalia* nitq, danışıq) – öz sözlərini anlamsız şəkildə təkrarlamaq

Polimastiya *(polymastia*; sin. hipermastiya*)* – inkişaf anomaliyası: əlavə süd vəzilərinin olması

Polimiksin M(B) sulfat *(polymyxini M(B) sulfas)* – əsasən, *qram* «-» mikroorqanizmlərə və göy-yaşıl irin çörlərinə, təsir edən antibiotik

Polinarkomaniya (*polynarcomania*) – iki və daha çox narkotik maddələrdən istifadə etmeklə meydana çıxan narkomaniya

Polinevrit *(polyneuritis)* – bir çox periferik sinirlərin iltihabı

Alkoqol polinevriti (*p. alkoqolica*) – xroniki alkoqolizm zamanı meydana çıxan vegetativ polinevrit

Allergik polinevrit (*p. allergica*) – allergik reaksiyanın təzahürü kimi meydana çıxan polinevrit (məs., postvaksinal, dərman və s.)

Arsen polinevriti (*p. arsenicalis*) – arsenlə xroniki zəhərlənmə zamanı hissiyyatın hiperesteziya və hiperpatiya tipli pozulması ilə gedən polinevrit

Benzol polinevriti (*p. benzolica*) – benzolla zəhərlənmə nəticəsində meydana çıxan əsasən, trofik və damar-vegetativ pozğunluqlarla təzahür edən polinevrit

Civə polinevriti (*p. mercurialis*) – civə ilə xroniki zəhərlənmə zamanı əsasən, dirsək sinirinin zədələnməsi ilə gedən polinevrit

Dizenteriya polinevriti (*p. dysenterica*) – dizenteriyanın son mərhələsində və ya əsas simptomları bitdikdən sonra meydana çıxan aşağı ətrafların distal nahiyələrinin hərəki pozğunluqları ilə gedən polinevrit

Hamiləlik polinevriti (*p. gravidarum*) – hamiləlik toksikozu zamanı meydana çıxan polinevrit

İnfeksion polinevrit (p. *infectiosa*) – hər hansı bir yoluxucu xəstəliyin törədiciləri tərəfindən törədilən və adətən onun ağırlaşması olan polinevrit

Pellagra polinevriti (*p. pellagrica*) – nikotin turşusunun çatışmazlığı nəticəsində meydana çıxan, sinir boyunca ağrı, aşağı ətraflarda hissiyyat pozğunluğu və dəri trofikasının pozulması ilə gedən polinevrit

Qurğuşun polinevriti (*p. saturnina*) – qurğuşunla xroniki zəhərlənmə zamanı meydana çıxan, bilək və barmaqları açan sinirlərin polinevriti (Remak sindromu)

Vegetativ polinevrit (*p. vegetativa*) – vegetativ sinir liflərinin zədələnməsi zamanı meydana çıxan, ətraf-

ların distal nahiyəsində kauzalgiya, paresteziya, trofiki və damar-vegetativ pozğunluqlarla təzahür edən polinevrit

Polinevropatiya *(polyneuropathia)* – çoxsaylı zədələnmələrlə xarakterizə olunan nevropatiya

Poliodontiya *(polyodontia*; *poli-* + yun. *odus, odontos* diş*)* – inkişaf anomaliyası: dişlərin sayının normadan artıq olması

Həqiqi poliodontiya – daimi dişlərin normadan artıq çıxması ilə əlaqədar olan poliodontiya

Yalançı poliodontiya – süd dişlərinin düşməsinin ləngiməsi ilə əlaqədar olan poliodontiya

Polioensefalomielit *(polioencephalomyelitis)* – polioensefalit və poliomielit simptomları ilə təzahür edən baş və onurğa beyninin boz maddəsinin birgə iltihabı

Polioftalmoskop – eyni zamanda bir neçə şəxs tərəfindən göz dibinin müşahidə edilməsinə imkan verən təlim oftalmoskopu

Polioma *(polyoma)* – müxtəlif histoloji quruluşlu şişlər yaratmaq qabiliyyətinə malik viruslar tərəfindən eksperimental şəraitdə törədilmiş şiş

Poliomielit *(poliomyelitis*; *polio-* + yun. *myelos* onurğa beyni*)* – *Picornaviridae Enterovirus* tərəfindən törədilən, onurğa beyninin motoneyronlarını və kəllə siniri nüvələrini zədələyən və periferik ifliclə nəticələnən kəskin infeksion xəstəlik

Kəskin epidemik poliomielit – *bax:* poliomielit

Qeyri-paralitik poliomielit (*p. non paralytica*) – kəskin seroz meningit formasında gedən poliomielit

Paralitik poliomielit (*p. paralytica*) - əsasən baş və onurğa beyni motoneyronlarının zədələnməsi səciyyələnən və periferik ifliclərin inkişaf etməsi ilə təzahür edən poliomielit növü

Poliopiya *(polyopia)* – bir şeyin gözə çox görünməsi (məs., büllurun zədələnməsi, torlu qişanın hissəvi qopması zamanı rast gəlinir)

Poliopsiya *(polyopsia)* – *bax:* poliopiya

Poliorxizm – inkişaf anomaliyası: üç və ya daha artıq xayanın olması

Poliorrgimenit *(polyorrhymenitis)* – *bax:* poliserozit

Poliozofobiya (*poliosophobia*) – poliomielitdən qorxma

Polip *(polypus*; *poli-* + yun. *pus* ayaq*)* – orqanın səthindən inkişaf edib, onunla ayaqcıq və ya öz əsası ilə bağlı olan patoloji törəmə; xoşxassəli şiş

Adenomatoz polip (*p. adenomatosus*) – vəzili toxumanın inkişaf etməsi nəticəsində meydana gəlmiş polip

Angiomatoz polip (*p. angiomatosus*) – tərkibində çox miqdarda damarlar olan polip

Damarlı polip (*p. vascularis*) – *bax:* angiomatoz polip

Fibroz polip (*p. fibrosus*) – orta burun yolunun və ya yuxarı əng cibinin selikli qişasının hiperplaziyası

Xoanal poliplər – *bax:* retronazal polip

Xovlu polip – *bax:* xovlu şişlər

Kistoz polip (*p. cystosus*) – bir neçə vəzi genişlənərək sekresiya məhlulu ilə dolan adenomatoz polip

Qranulyasion polip (*p. granulatiosus*) – artıq miqdarda qranulyasiya toxumasının inkişaf etdiyi polip

Məməyəbənzər polip – *bax:* papillomatoz polip

Miksomatoz polip (*p. myxomatosus*) – tərkibində çox miqdarda selik olan yumşaq, yarımşəffaf polip

Papillomatoz polip (*p. papillomatosus*) – selikli qişaların quruluşca papillomaya oxşar polipləri

Papillyar polip (*p. papillaris*) – burun boşluğunun üzəri slindrik epitellə örtülmüş qanamaya meylli polipləri

Retronazal polip (*p. retronasalis*) – burnun selikli qişasının burun-udlağa doğru inkişaf edən polipləri

Sadə selikli polip (*p. mucosus simplex*) – selikli qişaların üzəri həmin nahiyəyə uyğun vəzi epiteli ilə örtülmüş polipi

Sistəbənzər polip (*p. cystoideus*) – *bax:* kistoz polip

Tüklü polip (*p. villosus*) – *bax:* xovlu şişlər

Vəzili polip (*p. adenomatosus*) – *bax:* adenomatoz polip

Polip ilgəyi – müxtəlif lokalizasiyalı poliplərin məftil ilgəklə tutulub kəsilərək xaric edilməsi üçün istifadə olunan alətlərin ümumi adı

Polipnoe *(polypnoe*; sin. taxipnoe*)* – tezləşmiş səthi tənəffüs

Polipoz *(polyposis)* – bir neçə polipin olması

Ailəvi anadangəlmə polipoz (*polyposis congenita famillaris*) – periodik bağırsaq qanaxmaları verən yoğun bağırsağın və ya bütün bağırsaqların irsi polipoz xəstəliyi

Piqment ləkəli polipoz (*polyposis pigmentomaculosa*) – *bax:* Peyts-Yegers sindromu

Polipraqmaziya *(polypragmasia)* – eyni zamanda çoxsaylı dərman maddələrinin və ya müalicəvi prosedurların təyin edilməsi

Polir – diş plomblarını hamarlamaq üçün dəyirmi başcığı olan alət, bormaşınla idarə olunur

Poliradikulonevrit *(polyradiculoneuritis)* – onurğa beyni sinir köklərinin və periferik sinirlərin müştərək iltihabı

Polirezistent – bir çox preparatlara qarşı davamlı, məs., iki və daha çox vərəm əleyhinə preparatlara qarşı davamlı olan polirezistent vərəm mikobakteriyası

Poliserozit (*polyserositis*) – bir neçə seroz qişanın eyni vaxtda iltihabı (məs., kollagenozlar və vərəm zamanı təsadüf olunur)

Politano-Lidbetter əməliyyatı (V.A. Politano; G.W. Leadbetter, 1893-1945, amer. cərrah) – cərrahi əməliyyat: sidik axarının sidik kisəsinə reimplantasiyası, sidik axarının distal ucu sidik kisəsinin selikli qişası altında əvvəlcədən formalaşdırılmış keçidə aparılır; sidik kisəsi-sidik axarı reflyuksu zamanı tətbiq olunur

Politeliya *(polytheliae)* – süd vəzində əlavə gilələrin olmasından ibarət inkişaf anomaliyası

Politikofobiya (*politicophobia*) – siyasətçilərdən qorxma

Politromboflebit (*polythrombophlebitis*) – *bax:* miqrasiyaedən tromboflebit

Politser balonu (A. Politzer, 1835-1920, avstr. otorinolarinqoloq) – eşitmə borusunun keçiriciliyini müayinə etmək üçün üfürmə aparatı, ucunda boru olan rezin balondan ibarətdir

Poliuriya *(polyuria)* – sidik ifrazının artması

Ekstrarenal poliuriya (*p. extrarenalis*) – böyrəklərin zədələnməsi

olmadan baş verən poliuriya, məs., şəkərli diabet zamanı

Gecə poliuriyası (*p. nocturna*) – *bax:* nikturiya

Məcburi poliuriya (*p. obligata*) – məhdud miqdarda maye qəbulu zamanı da azalmayan poliuriya

Psixogen poliuriya (*p. psychogena*) – emosional stressin səbəb olduğu və antidiuretik hormonun ifrazının azalması nəticəsində baş verən poliuriya

Renal poliuriya (*p. renalis*) – böyrəklərin zədələnməsi nəticəsində baş verən poliuriya

Pollakiuriya (*pollakiuria*; yun. *pollakis* tez-tez, dəfələrlə + *uron* sidik; sin. pollakuriya) – sidik ifrazının tezləşməsi (gün ərzində 6 dəfədən çox)

Pollinoz *(pollinosis*; lat. *pollen, pollinis* toz*)* – tənəffüs yollarına və gözün konyunktiva qişasına bitki tozcuqlarının düşməsi ilə əlaqədar olan xəstəlik

Pollusiya (*pollutio*, lat. *polluo, pollutum* çirkləndirmək, ləkələmək) – yuxuda qeyri-iradi toxum (sperma) axması

Polyak zondu (Б.Л. Поляк, 1899-1971, sov. oftalmoloqu) – göz qapağının medial hissələrinin zədələnmələri zamanı göz yaşı kanalının keçiriciliyini bərpa etmək üçün alət

Polyantsev kəsiyi (A.A. Полянцев, sov. cərrahı; sin. Polyansev-Şrayer kəsiyi) – göbəkdən 5-6 sm yuxarı sol qabırğa qövsünə doğru IX qabırğaarası məsafəyə qədər aparılan kəsik; torakoabdominal müdaxilə zamanı mədənin kardial hissəsinə müdaxilə zamanı tətbiq olunur

Polyantsevin damar tikişi (A.A. Полянцев) – Karreli üsulu ilə damar tikişinin modifikasiyası: bu zaman düyünlü deyil, П-şəklində tikişlər istifadə olunur

Polyantsev-Şrayer kəsiyi (A.A. Полянцев, sov. cərrahı, А.И. Шраер, sov. cərrahı) – *bax:* Polyansev kəsiyi

Pomerantsev-Foleyin kateter-balonu (A.A. Померанцев, 1894-1964, sov. cərrahı; F.E.B. Foley, amer. uroloq; sin. Foley kateter-balonu) – adenomektomiyadan sonra qanaxmanı dayandırmaq üçün alət: rezin balon şəklindədir, prostat vəzinin yatağına yeridilir və ətraf toxumalara sıx toxunana qədər hava ilə doldurulur

Pompe xəstəliyi (J.C. Pompe, 20 əsr, hol. həkimi) – *bax:* II tip qlikogenoz

Ponofobiya (*ponophobia*) – həddindən artıq yorulmaqdan, halsızlıqdan qorxma

Ponse əməliyyatı (A. Poncet, 1849-1913, frans. cərrahı) – cərrahi əməliyyat: «at pəncəsi» zamanı Axilles (daban) vətərinin uzadılması

Popov fenomeni (В.О. Попов, rus həkimi) – diş cərgəsinin ikincili deformasiyası: dişlərin olmayan antaqonist dişlər istiqamətində uzanması

Popov simptomu – baxışın yuxarıdan aşağıya doğru hərəkət edən əşya üzərində fiksə olunması zamanı yuxarı göz qapağının aşağıya doğru atılması; hipertireoz zamanə müşahidə olunur

Popper sıxacı (H. Popper) – öd kisəsində aparılan cərrahi əməliyyatlar zamanı istifadə olunan uzun, düz cərrahi sıxac

Popper sınağı (H. Popper) – bilirubini aşkar etmək üçün sidiyin yodla oksidləşdirilməsi zamanı yaşıl rəngin

əmələ gəlməsindən ibarət diaqnostik sınaq

Porensefaliya *(porencephalia)* – baş beyin yarımkürələrində yan mədəciklərlə əlaqələnən sistlərin olması

Porfirin *(yun. porphyreos)* – hemoqlobinin, xlorofilin tərkibinə daxil olan, əsasını porfin həlqəsi təşkil edən piqment

Porfirinuriya *(porphyrinuria)* – sidikdə porfirinlərin aşkar edilməsi

Porfiriya *(porphyria*; yun. *porphyreos* al-qırmızı, qıpqırmızı*)* – orqanizmdə porfin mübadiləsinin və hemin (hemoqlobin molekulunun qeyri-zülal hissəsi) sintezinin pozulmasının səbəb olduğu irsi xəstəliklərin ümumi adı

Anadangəlmə porfiriya (*p. congenita*) – anadangəlmə porfin mübadiləsinin, hemin sintezinin pozulması və ya mübadilə nəticəsində yaranan qalıq maddələri neytrallaşdıran fermentlərin çatışmazlığı

Dəri porfiriyası (*p. putanea*) – porfirin mübadiləsinin pozulması nəticəsində əmələ gələn dəri xəstəliyi

Dərinin gecikmiş porfiriyası (*p. cutanea tarda*) – bədənin açıq nahiyələrində eritematoz və bulyoz səpgilərlə gedən, özündən sonra tünd qırmızı rəngli piqment və atrofik ləkələr qoyan porfiriya

Qaraciyər porfiriyası (p. *hepatica*) – qaraciyərdə porfirinlərin sintezinin pozulması nəticəsində əmələ gələn porfiriya

Porfirofobiya (*porphyrophobia*) – al-qırmızı rəngdən qorxma

Porges simptomu (O. Porges, 1879-1967, amer. terapevt) – plevrit zamanı döş qəfəsinin yuxarı nahiyəsinə yüngül təzyiq etdikdə ağrının əmələ gəlməsi

Porgesin qastroileal refleksi (O. Porges) – mədənin selikli qişasının qida ilə qıcıqlanması nəticəsində qalça bağırsağın möhtəviyyatının kor bağırsağa sürətlə keçməsindən ibarət fizioloji refleks

Poriomaniya (*poriomania*; yun. *poreia* səyahət + maniya; sin. dromomaniya) – yer dəyişdirməyə impulsiv meyillilik

Porion *(porion)* – xarici qulaq keçəcəyinin yuxarı kənarının mərkəzində olan antropometrik nöqtə

Porokeratoz *(porokeratosis)* – tər vəzilərinin axarlarının çıxacaq nahiyəsində epidermisin zədələnməsi ilə gedən irsi keratoz; autosom-dominant tip üzrə ötürülür

Poroskopiya (yun. *poros* dəlik + *skopeo* baxmaq, tədqiq etmək) – dəri məsamələrinin sayına, ölçüsünə və yerləşməsinə görə şəxsin identifikasiyası üsulu

Porropsiya (*porropsia*; yun. *porro* uzaq + *opsis* görmə) – metamorfopsiya forması olub, əşyaların olduğundan yaxın və ya uzaq məsafədə görünməsindən ibarətdir

«Porşenin hərəkəti» simptomu – bud sümüyü başının anadangəlmə çıxığı zamanı rast gəlinən simptom

Portağal qabığı simptomu – süd vəzi xərçəngi zamanı dərinin aldığı xarakter forma – portağal qabığı kimi görünməsi

Portal *(portalis*; anat. *vena portae* qapı venası*)* – qapı venasına aid olan

Portal hipertenziya – qaraciyərin qapı venasında təzyiqin 7 mm c.süt.-dan yuxarı yüksəlməsi; çox vaxt qaraciyər sirrozu, şistosomiaz və ya qaraciyərdənxaric (ekstrahepatik) portal venaların trombozu hallarında inkişaf edir, varikoz qanaxma

və assit kimi ağırlaşmalara gətirib çıxara bilər

Portativ (*portabilis*) – daşınıla bilən, səyyar

Portmann əməliyyatı (G. Portmann, frans. otorinolarinqoloqu) – cərrahi əməliyyat: otoskleroz zamanı üzəngi əsasının və ön ayaqcığının xaric edilməsi, dəhliz pəncərəsinin bağlanması, üzəngi ayaqcığının transplantatla zindanın lentikulyar çıxıntısı arasında yerləşdirilməsi

Portmann-Depon larinqektomiyası (G. Portmann; F. Despons, frans. cərrahı) – qırtlağın total kənar edilməsi əməliyyatının modifikasiyası olub, farinqostomanın yaradılması ilə farinqotomiyanın icra olunması, son mərhələdə isə farinqostomanın plastik əməliyyatla ləğv edilməsindən ibarətdir

Portoqrafiya (anat. *vena portae* qapı venası + yun. *grapho* yazmaq, təsvir etmək) – kontrast maddə yeridildikdən sonra qapı venası sisteminin rentgenoloji müayinəsi

Dolayı portoqrafiya – kontrast maddənin qarın boşluğu arteriyalarından birinə yeridilməsi ilə aparılan portoqrafiya

Düz portoqrafiya – kontrast maddənin bilavasitə qapı venasına və ya onun şaxələrinə yeridilməsi ilə aparılan portoqrafiya

Pospelov fenomeni (А.И. Поспелов, 1846-1916, rus dermatovenerologu) – dərinin nazik büküşlərini sıxarkən kəskin ağrının olması, qalın büküşlərini sıxarkən isə ağrının olmaması; xroniki atrofik akrodermatit zamanı müşahidə olunur

Pospelovun zond sınağı (А.И. Поспелов) – adi qurdeşənəyinin düyməli zondla diaqnostikası üsulu; lyupomanın kazeoz nekrozu nəticəsində düyməli zondun lyupoma toxumasına həmin nahiyəyə batması

Postxolesistektomik sindrom *(syndromum postcholecystectomicum)* – xolesistektomiyadan sonra meydana çıxan gecikmiş ağırlaşmaların ümumi adı (ümumi öd axarının daralması, öd yollarının diskeniziyası və s.)

Postkardiotom sindrom *(syndromum postcardiotomicum)* – ürək əməliyyatlarından sonra inkişaf edən aseptik fibrinoz poliserozitlərin ümumi adı

Postkastrasion sindrom (*syndromum postcastracionicum*) – kişilərdə xayanın, qadınlarda yumurtalığın endokrin funksiyanın fəaliyyətinin dayanmasından sonrakı dövürdə qeydə olunan simptomakompleks (kişilərdə – cinsi həvəsin olmaması, demaskulinizasiya fenotipi, piylənmə, osteoporoz, arterial hipertenziya, qadınlarda – piylənmə, ateroskleroz, hiperxolesterenimiya, osteoporoz, sinir-psixi və damar-vegetativ pozğunluqları)

Postqastektomik sindrom*(syndromum postgastrectomicum)* – qastrektomiyadan sonra qidanın qida borusundan bilavasitə bağırsağa keçməsi nəticəsində baş verən ishal, ödem, anemiya, hipoproteinemiya, kəskin arıqlama kimi gecikmiş ağırlaşmalar

Postqastroenterostomik sindrom (*syndromum postgastroenterostomicum*) – *bax:* Pribram xəstəliyi

Postqastrorezeksion sindrom *(syndromum postgastroresectionale)* – mədə rezeksiyasından sonra mədədə həzmin və qidanın evakuasi-

yasının pozulması ilə əlaqədar olan gecikmiş ağırlaşmalar

Postmenopauzal dövr – qadın orqanizminin menopauzadan ömrünün sonunadək davam edən dövrü

Postnatal (*postnatalis*; lat. *post* sonra + *natus* anadan olmuş) – doğuşdan sonrakı inkişaf dövrü

Postnistaqm (*postnystagmus*) – *bax:* fırlanmadan sonrakı nistaqm

Postradiasion effekt – orqanizmə ionlaşdırıcı şüaların təsirindən sonra yaranan morfoloji və funksional dəyişikliklər

Posttaxikardik sindrom (lat. *post* sonra + *taxikardiya*) – uzun sürən taxikardiya paroksizmi və ya səyirici taxiaritmiyalardan sonra ürək nahiyəsində diskomfort və ümumi zəiflik

Posttransfuzion ağırlaşma – qanköçürmə zamanı qan qrupu uyğunsuzluğu, köçürülən qanın keyfiyyətinin aşağı olması, köçürülən qanda yoluxucu xəstəliklərin törədicilərinin olması və ya texniki səhv nəticəsində meydana çıxan patoloji proses

Posttransfuzion hepatit (*hepatitis posttransfusionem*) – *bax:* zərdab hepatiti

Posttransfuzion reaksiya – resıpiyentin orqanizmində qan və onun komponentləri köçürüldükdən sonra meydana çıxan qısamüddətli funksional dəyişikliklər (məs., hərarətin yüksəlməsi, titrəmə və s.)

Posttravmatik artrit (*arthritis posttraumatica*) – oynaq kapsulunun, qığırdağının, menisklərinin, bağ aparatının və periartikulyar toxumaların mexaniki zədələnməsi nəticəsində inkişaf edən və distrofik dəyişikliklərlə xarakterizə olunan oynaq xəstəliyi

Posttrepanasion sindrom (lat. *post* sonra + *trepanasiya*) – kəllə sümüyünün trepanasiyasından sonra atmosfer təzyiqinin dəyişmələri zamanı baş ağrılarının meydana çıxması

Posttromboflebitik sindrom *(syndromum postthrombophlebiticum)* – aşağı ətrafın dərin venalarının tromboflebitlə zədələnmələrindən sonra meydana çıxan xroniki funksional venoz çatışmazlıq əlamətləri

Postvaqotomik sindrom *(syndromum postvagotomicum)* – vaqotomiyanın gecikmiş ağırlaşmaları (mədə, qaraciyər və bağırsaq funksiyalarının pozulması)

Potamofobiya (*potamophobia*) – axar sulardan, çaydan qorxma

Potaş – 1) kalium-karbonat (K_2CO_3); 2) kənd təsərrüfatında gübrə istehsalında istifadə olunan bütün kalium duzlarını əhatə edir

Potator *(potator)* – alkoqolizmdən əziyyət çəkən şəxs

Poten aparatı (P. Ch. E. Potain) – bədən boşluqlarından mayeni çəkmək, həmçinin dərialtına, venaya yeritmək üçün aparat

Poten simptomu (P. Ch. E. Potain, 1825-1901, frans. terapevti) – 1) ekssudativ perikardit zamanı ürəyin mütləq kütlüyünün artması, nisbi kütlüyünün azalması; 2) aortanın genişlənməsi, ateroskleroz və ya kalsinozu zamanı auskultasiyada ikinci tonun metallik çalarlı olması

Potriye-Vorenje sindromu (L. M. Pautrier, 1876-1959, frans. dermatoloqu; F. Woringer, frans. dermatoloqu) – dermatozlar (məs., diffuz neyrodermit, eritrodermiya, ekzema) zamanı limfatik düyünlərin

hiperplaziya nəticəsində lokal və ya diffuz böyüməsi

Pott xəstəliyi (P. Pott, 1714-1788, ing. cərrahı) – *bax:* vərəm spondiliti

Pott sınığı (P. Pott) – onurğanın vərəmi zamanı əsasən döş və ya bel nahiyəsində bir neçə fəqərənin patoloji sınığı

Pottencer simptomu (F.M. Pottenger, 1869-1961, amer. həkim) – pnevmoniya və plevrit zamanı pilləvari və döş-körpücük-məməyəbənzər əzələnin palpasiyası zamanı gərginlik və ağrı hissiyyatı

Potter üsulu (C.A. Potter, 1886-1933, amer. cərrah) – nazik bağırsağın boruyabənzər ağırlaşmamış fistullarının konservativ müalicə üsulu

Potts anastomozu (W. J. Potts, amer. cərrah) – Fallo tetradası zamanı ağciyər qan dövranı həcmini artırmaq məqsədilə enən aorta və sol ağciyər arteriyası arasında yan-yana anastomozun qoyulması cərrahi əməliyyatı

Pottsun pəncərəli sıxacı (W. J. Potts, amer. cərrahı) – yan tikişlərin və ya anastomozun qoyulması zamanı iri damarları qismən sıxmaq üçün cərrahi sıxac; əyilmiş dodaqları birləşdikdə damarı əhatə edən və pəncərəsi olan qapalı kontur əmələ gətirirlər, həmin pəncərədən kəsik və tikişlərin qoyulması icra olunur

Poykilo- *(*yun. *poikilos* ala-bəzək, xallı, müxtəlif*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "xallı, ala-bəzək, müxtəlif" mənasını verir

Poykilodermatomiozit (*poikilodermatomyositis*; sin. Petj-Klej xəstəliyi) – dərinin poykilodermiya tipi üzrə dəyişikliklərlə müşayiət olunan dermatomiozit

Poykilodermiya *(poikilodermia)* – dərinin eritema zolaqları, teleangiektoziya, torlu hiperpiqmentasiya sahələri, depiqmentasiya ləkələri şəklində distrofik dəyişikliyi (məs., mikozlarda, psoriazda təsadüf olunur)

Poykilosit *(poikilocytus)* – öz normal formasında deyil, fərqli quruluşda olan eritrositlərin ümumi adı

Poykilositoz *(poikilocytosis)* – periferik qanda poykilositlərin olması

Pozner-Şlossman sindromu (A. Posner, amer. oftalmoloq; A. Schlossmann, 1867-1932, alm. pediatr və biokimyaçı) – birtərəfli gözdaxili təzyiqin artması şəklində təkrarlanan tutmalarla təzahür edən xəstəlik, allergik mənşəli də ola bilər

Pozologiya (*pozology*; yun. *posos* nə qədər + *logos* elm; sin. doziologiya) – müxtəlif dərman preparatlarının istifadə dozalarını öyrənən elm

Pörtdənmiş dəri sindromu – *bax:* epidermal toksik nekrolis

Prader-Villi sindromu (A. Prader, isveçrəli pediatr və endokrinoloq; H. Willi, isveçrəli pediatr) – şəkərli diabet, ağıl zəifliyi, əzələ hipotoniyası, piylənmə, cinsi orqanların inkişafdan qalması ilə nəticələnən irsi mübadilə pozğunluğu

Praksis *(*yun. *praxis* hərəkət*)* – məqsədyönlü hərəki aktları icra edə bilmə qabiliyyəti

Praktik korluq – görmə qabiliyyətinin əksər professional fəaliyyətin həyata keçirilməsinə imkan vermədiyi və özünə qulluğu məhdudlaşdırdığı formasında pozğunluğu

Praqmatamneziya (*pragmatamnesia*) – əşyanın xarici görünüşü haqda biliklərin itməsindən ibarət amneziya

Prastatoreya *(prastatorrhoea)* – sidik ifrazı və defekasiyanın sonunda prostat vəzi şirəsinin ifraz olunması

Pre- (lat. *prae-*) – "bir şeyin önündə yerləşən", "bir şeydən əvvəl baş verən" mənasını verən önşəkilçi

Preaqonal vəziyyət *(status praeagonalis)* – mərkəzi sinir sisteminin yuxarı şöbələrində tormozlama proseslərinin inkişaf etməsi ilə xarakterizə olunan, aqoniyadan əvvəlki terminal vəziyyət

Preaqoniya (*praeagonia*) – *bax:* preaqonal vəziyyət

Predastma – orqanizmin allergik rinit, rinosinusopatiya, bronxit və ya pnevmoniya, allergik rinit fonunda yaranan, tutmaşəkilli öskürəklə təzahür edən bronxial astmanın yaranmasından əvvəlki vəziyyəti

Preeklampsiya (*praeeclampsia*) – hamiləliyin 20-ci həftəsindən sonra baş verən və adətən, qan təzyiqinin qalxması (hipertoniya) və sidikdə zülalın olması (proteinuriya) ilə müşayiət olunan vəziyyət

Prekapillyar nəbz *(pulsus praecapillaris)* – dırnaq yatağının proksimal hissəsinin rənginin arterial nəbzlə sinxron ritmik dəyişməsi (aorta qapağının çatışmazlığı simptomu)

Premedikasiya (*praemedicatio*; *pre-* + lat. *medicatio* müalicə, dərmanların təyin edilməsi) – xəstənin qabaqcadan anesteziyaya dərman preparatları vasitəsi ilə hazırlanması; xəstənin əməliyyat öncəsi həyəcanını aradan qaldırmaq, anestetik preparatların təsirindən yarana biləcək ağırlaşmaların profilaktikası məqsədini daşıyır

Premorbid vəziyyət (*pre-* + lat. *morbus* xəstəlik) – orqanizmin xəstəliklə sağlamlıq arasında olan vəziyyəti; bu vəziyyət ya xəstəliyin əlamətlərinin təzahür etməsi, ya da orqanizmin funksiyalarının bərpa olunması ilə nəticələnə bilər

Preparat (lat. *praeparo, praeparatum* hazırlamaq) – farmakologiyada: istifadə üçün hazır şəkildə olan dərman vasitəsi

Prepubertat bazofilizm *(basophiismus praepubertalis)* – *bax:* gənclik bazofilizmi

Prerektal (*prerectal*) – düz bağırsaqdan öndə yerləşən

Preretinal ödem (*oedema praeretinale*) – *bax:* mərkəzi seroz retinopatiya

Presakral insufflyasiya (*insufflatio praesacralis*) – *bax:* pnevmoretroperitoneal insufflyasiya

Presbi- *(*yun. *presbys* yaşlı, qoca*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "qoca", "yaşlı", "qocalıq yaşına xas olan" mənalarını verir

Presbiakuzis *(presbyacusis)* – yaşlı şəxslərdə korti orqanının və ilbizin spiral qanqlionlarının atrofik, degenerativ dəyişikliyi nəticəsində səs qəbul etmənin pozulması

Presbiofreniya *(presbyophrenia)* – qocalıq ağıl kəmliyinin yadda saxlamanın kəskin pozulması, konfabulyasiya, nitq aktivliyi və eyforiya şəklində təzahür etməsi

Presbiopiya *(presbyopia)* – büllurun elastikliyinin yaşla əlaqədar dəyişikliyi nəticəsində akkomodasiyanın zəifləməsi

Presenil bədxassəli melanxoliya (*melancholia praesenilis maligna*) – yaşlı şəxslərdə mənasız danışıq, çaşqınlıq, şüurun oneyroid pozğunluğu və kaxeksiyanın inkişafı ilə təzahür edən davamlı narahatlıq şəklində olan psixoz

Presenil dövr (*praesenilis*) – qocalıqönü dövr; qocalıqdan əvvəlki yaşın fizioloji və ya psixi əlamətlərinə malikdir

Presipitinlər – *bax:* presipitasiyaedici anticism

Pressoreseptorlar (lat. *pressus* təzyiq + *reseptor*) – *bax:* baroreseptorlar

Preventiv *(praeventivus)* – profilaktik, qoruyucu, qarşısını alan

Prevo simptomu (J.L. Prevost, 1838-1927, isveçrəli həkim) – baş beynin alın payının zədələnmələri zamanı başın və göz almasının zədələnmə ocağına tərəf meyl etməsi

Priapizm (*priapismus*) – cinsiyyət üzvünün uzun sürən ağrılı ereksiyası; mərkəzi sinir siteminin bir sıra zədələnmələri, yerli patoloji proseslər zamanı baş verir, cinsi həvəslə bağlı deyil

Pribram xəstəliyi (B.O. Pribram, alm. cərrahı) – qastroenterostomiya əməliyyatından sonrakı dövrlərdə mədə funksiyasının pozulması ilə səciyyələnən patoloji vəziyyət

Primaxin *(primachinum)* – malyariyaəleyhinə təsir göstərən maddə

Primeyzodofobiya (*primeisodophobia*) – bakirəliyini itirməkdən qorxma

Primordial *(primordialis)* – birincili, başlanğıc

Primordial nanizm (*nanismus primordialis*; lat. *primordialis* əvvəlki, ilk) – *bax:* Paltauf cırtdanboyluluğu

Priolo-Vulpius axillotomiyası (Prioleau; O. Vulpius, alm. cərrah-ortopedi) – plastik əməliyyat: Axilles (daban) vətərinin frontal səthdə Z-şəkilli kəsilməsi və uclarının tikilməsi ilə uzadılması

Professional allerqologiya – allerqologiyanın peşə-allergik xəstəliklərini öyrənən bölməsi

Professional korluq (*caecitas professionalis*) – əvvəllər icra etdiyi professional vərdişləri icra edə bilməyəcək dərəcədə görmə funksiyasının zəifləməsi

Profibrinolizin – *bax:* plazminogen

Profilaktik pasta – *bax:* mühafizəedici pasta

Profilaktik tibbi baxış – *bax:* tibbi baxış

Profilaktika *(yun. prophylaktikos* qoruyucu*)* – tibdə: sağlamlığın möhkəmləndirilməsi və xəstəliklərin qarşısının alınmasına yönəlmiş tədbirlər

Antidot profilaktikası (yun. *antidotos* nəyəsə qarşı vasitə) – orqanizmin zəhərlənmələri zamanı zəhərə məxsus antidot vasitəsi ilə ağırlaşmaların qarşısının alınması

Antimikrob profilaktika – infeksion prosesin klinik əlamətləri olmadan, lakin yaranan risk yüksək olan hallarda antibakterial maddələrin təyini

İctimai profilaktika – hər hansı bir kollektivin və ya bütünlükdə cəmiyyətin sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönələn profilaktika

Sosial profilaktika – *bax:* ictimai profilaktika

Spesifik profilaktika – yoluxucu xəstəliklərin qarşısını almaq üçün konkret xəstəlik törədicisinə qarşı aktiv və passiv immunizasiya, bakteriofaqların tətbiq edilməsi

Yod profilaktikası – endemik zonalarda zob xəstəliyinin qarşısını almaq üçün kalium yodla zənginləşdirilmiş qidadan istifadə olunması

Profilaktori (yun. *prophylaktikos* qoruyucu) – müalicə-profilaktika müəssisəsi

Profişe sindromu (G.Ch. Profichet, frans. həkimi) – *bax:* məhdud kalsinoz

Profuz *(*lat. *profundo, profusum* axıtmaq*)* – güclü, çox miqdarda (məs., qanaxma, ishal)

Profuz lentiqo (*lentigo profusa*) – *bax:* lentiginoz

Progeniya *(progenia*; *pro-* + yun. *genys* alt çənə*)* – inkişaf anomaliyası: alt çənənin daha artıq inkişaf edərək üst çənədən qabağa çıxması

Progeriya (yun. *progeros* vaxtından əvvəl qocalmış) – orqanizmin vaxtından əvvəl qocalması

Progesteron (*progesteronum*) – sarı cismin hormonu olub, başqa follikul hüceyrələrinin yetişmiş yumurta hüceyrələrlə ovulyasiyasına maneçilik törədir, uşaqlığın mayalanmış yumurta hüceyrəsinin implantasiyası zamanı selikli qişanın daha çox genişlənməsinə səbəb olur; hamiləlik hormonu

Prokonvertin – *bax:* faktor VII

Prokt- *(*prokto-; yun. *proktos* arxa keçid, anal dəlik*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "düz bağırsağa və ya anal dəliyə aid" mənasını verir

Proktalgiya (*proctalgie*; sin. rektalgiya, proktodiniya) – düz bağırsaqda ağrı

Proktektomiya *(proctectomia)* – cərrahi əməliyyat: düz bağırsağın xaric edilməsi

Proktit *(proctitis)* – düz bağırsağın iltihabı

Alimentar proktit (*p. alimentaria*) – həddindən artıq kəskin qidalardan, alkoqollu içkilərdən istifadə və qidanın miqdarının artıq olması səbəbindən yaranan alimentar proktit

Durğunluq proktiti (*p. congestiva*) – xroniki qəbizlikdən əziyyət çəkən xəstələrdə venoz durğunluq və düz bağırsaq selikli qişasının daimi travmatizasiyası nəticəsində əmələ gələn proktit

Xoralı proktit (*p. ulcerosa*) – kiçik yaraların əmələ gəlməsi ilə gedən proktit

Qonokokk proktiti (*p. gonococcica*) – daha çox irinli vaginal sekretin və ya infeksiyalaşmış spermanın düz bağırsağa düşməsi səbəbindən baş verir, gizli keçir və ya da düz bağırsaqda qaşınma və defekasiyanın ağrılı olması ilə müşayiət olunur

Parazitar proktit (*p. parasitaria*) – parazitar mikroorqanizmlər tərəfindən törədilən proktit

Süzənək proktiti (*p. gonorrhoica*) – qadınlarda qonoreya xəstəliyi zamanı uşaqlıq yolu ifrazatı ilə düz bağırsağın təması nəticəsində yaranan proktit

Şüa proktiti (*p. radialis*) – çanaq orqanlarının bədxassəli şişləri zamanı aparılmış şüa terapiyasından sonra meydana çıxan proktit

Proktodiniya *(proctodynia)* – düz bağırsağın ağrılı spazmları (məs., düz bağırsağın çatları zamanı olan ağrılar)

Proktofobiya (*proctophobia*) – proktoloji xəstəlikdən, əsas etibarilə babasil xəstəliyindən qorxma

Proktokolektomiya *(proctocolectomia)* – çənbər və düz bağırsaqların xaric edilməsi cərrahi əməliyyatı

Proktologiya (*proctologia*) – abdominal cərrahiyyə və qastroenterologiyanın düz bağırsağın xəstəliklərini öyrənən, onların diaqnostikası,

müalicə və profilaktikası üsullarını tərtib edən bölməsi

Proktoloq – düz bağırsaq və anus xəstəlikləri (babasil, qəbizlik, ishal, kolit, paraproktit, düz bağırsağı polipləri, meqakolon və s.) üzrə mütəxəssis

Proktomiksoreya *(proctomyxorrhoea)* – düz bağırsaqdan qeyri-iradi tutmaşəkilli seliyin xaric olması

Proktopeksiya *(proctopexia)* – düz bağırsağın sallanması zamanı onun fiksə edilməsi cərrahi əməliyyatı

Proktoperineorafiya *(proctoperineorrhaphia)* – aralığın və düz bağırsağın cırılmaları zamanı tikişlərin qoyulması

Proktoplastika *(proctoplastica)* – düz bağırsağın amputasiyasından sonra və ya anadangəlmə olmaması zamanı plastik əməliyyatı

Proktorragiya *(proctorrhagia)* – düz bağırsaqdan selik və qan qarışıqlı ifrazatın olması

Proktosele (*proctocele*; *prokto-* + yun. *kele* yırtıq) – *bax:* rektosele

Proktosiqmoidit *(proctosigmoiditis*; *prokto-* + anat. *colon sigmoideum* siqmoid bağırsaq*)* – düz bağırsaq və S-əbənzər bağırsağın selikli qişasının birgə iltihabı

Eroziv proktosiqmoidit (*p. erosiva*) – bağırsaqların selikli qişasının eroziyaları ilə gedən proktosiqmoidit

Hipertrofik proktosiqmoidit (*p. hypertrophica*) – bağırsaqların selikli qişasının hipertrofiyası ilə gedən proktosiqmoidit

Kataral-hemorragik proktosiqmoidit (*p. catarrrhalis haemorrhagica*) – bağırsaqların selikli qişasının hiperemiyası və nöqtəşəkilli qansızması ilə gedən proktosiqmoidit

Kataral-irinli proktosiqmoidit (*p. catarrhalis purulenta*) – bağırsaqların selikli qişasının hiperemiyası və irinli dəyişikliyi ilə gedən proktosiqmoidit

Kataral-selikli proktosiqmoidit (*p. catarrhalis mucosa*) – bağırsaqların selikli qişasının hiperemiyası və səthinin çox miqdarda seliklə örtülməsi ilə gedən proktosiqmoidit

Polipoz proktosiqmoidit (*p. polypos*) – bağırsaqların selikli qişasında poliplərin əmələ gəlməsi ilə gedən proktosiqmoidit

Yaralı proktosiqmoidit (*p. ulcerosa*) – bağırsaqların selikli qişasının yaraları ilə gedən proktosiqmoidit

Proktosiqmoidoskopiya *(proctosigmoidoscopia)* – düz və S-əbənzər bağırsaqların endoskopik müayinəsi

Proktoskopiya *(proctoscopia)* – *bax:* rektoskopiya

Proktospazm *(proctospasmus)* – düz bağırsaq əzələlərinin spazmı

Proktostaz *(prctostasis)* – nəcisin düz bağırsaqda ləngiməsi

Proktostomiya *(proctostomia)* – düz bağırsaq selikli qişasının anal dəlik yaxınlığında aralıq nahiyəsində xaricə çıxarılaraq fistulanın yaradılması cərrahi əməliyyatı (məs., düz bağırsağın atreziyası, çapıq daralmaları zamanı təsadüf olunur)

Proktotomiya *(proctotomia*; *prokto-* + yun. *tome* yarılma*)* – cərrahi əməliyyat: düz bağırsağın kəsilməsi

Proqnatiya (*prognathia*; *pro-* + yun. *gnathos* çənə) – inkişaf anomaliyası: üst çənənin alt çənə ilə müqayisədə həddən artıq inkişaf etməsi nəticəsində xeyli önə çıxması

Proqressiv iflic *(paralysis progressiva)* – sifilitik meninqoensefalit

zamanı şəxsiyyətin və psixi fəaliyyətin surətlə enməsi, affektiv və sayıqlama pozğunluqları, neyrosifilisin nevroloji əlamətləri ilə gedən iflic

Proqressiv relaksasiya üsulu – *bax:* autogen məşq

Proqressivləşən akromelanoz (*acromelanosis progressiva*) – barmaqların xarici səthində proqressivləşən hiperpiqmentasiya ilə xarakterizə olunan dermatoz

Proqressivləşən apopleksiya (*apoplexia pregressiva*) – *bax:* Brodbent xəstəliyi

Proqressivləşən deformasiyaedən artrit – *bax:* revmatoidli artrit

Proqressivləşən əzələ sümükləşməsi – *bax:* Myunxmeyer xəstəliyi

Proqressivləşən xora *(ulcus progrediens) – bax:* fagedenik xora

Prolaktin (PRL) *(prolactinum)* – laktasiya prosesini tənzim edən qadın cinsiyyət hormonudur, hipofizin ön payında sintez edilir

Promedol (*promedolum***)** – narkotik təsirli analgetik

Pronator *(pronator)* – yığılması pronasiya-önə doğru istiqamətlənmə hərəkətinə səbəb olan əzələlər

Propanidid *(propanidium)* – qısa müddətli venadaxili narkoz zamanı istifadə edilən dərman vasitəsi

Propazin (*propazinum***)** – fenotiazin törəməsi olan neyroleptik dərman vasitəsi

Propedevtika *(*yun. *propaideuo* əvvəlcədən öyrətmək*)* – klinik fənnin giriş kursudur, xəstənin klinik müayinə üsulları, xəstəliklərin semiotikasının tədrisini nəzərdə tutan və həkim deontonlogiyasından bəhs edir

Propilyodon *(propyliodonum)* – diaqnostika məqsədilə istifadə olunan rentgenokontrast maddə

Propiomelanokortin (POMK) – hipofizin ön payının kortikotrop hüceyrələri və orta payının melanotrop hüceyrələri tərəfindən sintez edilən, 241 amin turşusundan ibarət olan polipeptid

Propolis *(propolis)* – arının həyat fəaliyyətinin məhsulu olan biostimulyator

Proprioreseptor (lat. *proprius* xüsusi + *reseptor*) – əzələ və oynaq aparatının toxumalarında yerləşən gərilmə və yığılmaları qəbul edən mexaniki reseptorlar

Proprioseptik sinir ucluğu – *bax:* proprioreseptor

Proprioseptor (lat. *proprius* xüsusi, *capio, cepi* qəbul etmək, mənimsəmək) – *bax:* proprioreseptor

Proptoz *(proptosis)* – orqan və ya onun hissəsinin önə doğru patoloji yerdəyişməsi; bu termin əsasən göz almasına aid olaraq işlədilir

Propulsiya *(propulsio)* – parkinsonizm zamanı gəzən xəstənin önə doğru surətlənmiş hərəkəti

Prosedura – tibdə: müalicənin hər hansı bir prosesi, məs.: vanna, kompres və s.

Proskineziya *(yun. proskinesia)* – xəstənin gördüyü hərəkəti qeyri-iradi təkrar etməsi

Proskulyakov rinoplastikası – qüsurlu xarici burnun ayaqcıq üzərində dəri loskutu ilə bərpa edilməsi cərrahi əməliyyatı

Prosofobiya (*prosophobia*) – inkişafdan, tərəqqidən qorxma

Prostat vəzinin adenoması (*adenoma prostatae*) – hormonal dəyişiklik nəticəsində prostat vəzi toxuması-

nın böyüməsi və orada inkişaf edən xoşxassəli şiş; əsasən 40-50 yaşdan yuxarı kişilərdə rast gəlinir

Prostatektomiya *(prostatectomia)* – prostat vəzinin xaric edilməsi cərrahi əməliyyatı

Genişlənmiş prostatektomiya – *bax:* total prostatektomiya

Qasıqarxası prostatektomiya (*p. retropubica*) – *bax:* Lidsk-Millian adenomektomiyası

Perineal prostatektomiya (*p. perinealis*) – aralıq nahiyəsində aparılmış qövsşəkilli kəsik vasitəsi ilə icra edilən prostatektomiya

Radikal prostatektomiya (*p. radicalis*) – *bax:* total prostatektomiya

Total prostatektomiya (*p. totalis*) – prostat vəzinin kapsulu və toxum kisəcikləri ilə birgə xaric edilməsi

Transvezikal prostatektomiya (*p. transvesicalis*) – qasıqüstü kəsiklə sidik kisəsindən keçməklə icra olunan prostatektomiya

Prostatit *(prostatitis)* – prostat vəzinin iltihabı

Abseslənən prostatit (*p. abscedens*) – prostat vəzinin parenximasında çoxsaylı irinliklərin olması ilə gedən kəskin prostatit

Durğun prostatit (*p. congestiva*) – durğunluq zamanı vəzin follikullarında ifrazatın parçalanması nəticəsində meydana çıxan xroniki prostatit

Fleqmonoz prostatit (*p. phlegmonosa*) – çoxsaylı abseslərin vəz daxilində bir kapsulla əhatə olunması ilə gedən abseslənən parenximatoz prostatit

Follikulyar prostatit (*p. follicularis*) – vəz daxilində pay axarlarının irinli infiltrasiyası və tıxacları ilə gedən kəskin prostatit

Kataral prostatit (*p. catarrhalis*) – vəzin parenximasının ödemi və çıxarıcı axarların leykositar infiltrasiyası ilə gedən kəskin prostatit

Parenximatoz prostatit (*p. parenchymatosa*) – bütün vəzi toxumasının irinli infiltrasiyası və ödemi ilə gedən kəskin prostatit

Prostatizm *(prostatismus)* – prostat vəzinin xəstəlikləri zamanı sidik ifrazının pozulması sindromu

Prostatoqrafiya – vəzi əhatə edən orqan və toxumaları kontrastlaşdırdıqdan sonra aparılan prostat vəzinin rentgenoqrafiyası

Prostatovezikulektomiya – *bax:* total prostatektomiya

Protarqol *(protargoium)* – gümüş tərkibli antiseptik maddə

Proteinoxoliya *(proteinocholia)* – öddə zülalın miqdarının artıq olması (məs., qaraciyərin ağır zədələnmələri zamanı müşahidə olunur)

Proteinoterapiya *(proteinotherapia)* – zülalların parenteral yolla daxil edilməsi ilə aparılan immunoterapiya növü

Proteinuriya *(proteinuria)* – sidikdə zülalın olması, sutka ərzində sidiklə ifraz olunan zülalın miqdarından asılı olaraq təsnif olunur

Addımlama proteinuriyası – uzunmüddətli gəzinti, marafon, futbol, qaçışdan sonra yaranan proteinuriya

Alimentar proteinuriya (*p. alimentaris*) – çoxlu miqdarda zülal tərkibli qida (xüsusən ət) qəbulundan sonra yaranan proteinuriya

Böyrək proteinuriyası (*p. renalis*) – nefronların, əsasən yumaqcıqların, az hallarda kanalcıqların zədələnməsi ilə əlaqədar olan proteinuriya

Durğun proteinuriya (*p. congestiva*) – qan dövranı çatışmazlığı zamanı yaranan proteinuriya
Funksional proteinuriya (*p. functionalis*) – *bax:* tranzitor proteinuriya
Gərginlik proteinuriyası – fiziki gərginlikdən sonra yaranan proteinuriya
Həqiqi proteinuriya (*p. vera*) – böyrəyin filtrasion qabiliyyətinin pozulması nəticəsində meydana çıxan proteinuriya
Qeyri-renal proteinuriya (*p. non renalis*) – böyrəklə əlaqəsi olmayan proteinuriya
Qızdırma proteinuriyası – yüksək hərarət zamanı yaranan proteinuriya
Lordotik proteinuriya (*p. lordotica*) – onurğanın lordozu nəticəsində böyrəklərdə durğunluq yaradan ortostatik proteinuriya
Massiv proteinuriya – sutkada sidiklə zülalın itirilməsinin 3-3,5 q/l çox olması
Minimal proteinuriya – sidikdə zülalın miqdarının 0,033-1 q/l olması
Nefrotik proteinuriya – *bax:* massiv proteinuriya
Ortostatik proteinuriya (*p. orthostatica*) – yalnız bədənin şaquli vəziyyətində üzə çıxan proteinuriya
Palpator proteinuriya (*p. palpatoria*) – böyrəyin dərin və energetik palpasiyasından yaranan proteinuriya
Paroksizmal proteinuriya (*p. paroxysmalis*) – hipertonik, vegetativ krizlərdən, epileptik tutmalardan sonra meydana çıxan qasımüddətli proteinuriya
Patoloji proteinuriya – böyrək və sidik axarlarının xəsəlikləri zamanı qeyd olunan proteinuriya
Postrenal proteinuriya (*p. postrenalis*) – sidik axarlarının iltihabı nəticəsində rast gəlinən proteinuriya
Prerenal proteinuriya (*p. prerenalis*) – qanda zülalın konsentrasiyasının dəyişməsinə səbəb olan xəstəliklər zamanı rast gəlinən proteinuriya
Renal proteinuriya (*p. renalis*) – *bax:* böyrək proteinuriyası
Sentrogen proteinuriya – epilepsiya tutması və ya beyin silkələnməsindən sonra yaranan proteinuriya
Tranzitor proteinuriya (*p. transitoria*) – sağlam insanlarda əzələ gərginliyi və ya qida ilə artıq miqdarda zülal qəbud etdikdə yaranan proteniuriya
Tsiklik proteinuriya (*p. cyclica*) – *bax:* ortostatik proteinuriya
Ürək proteinuriyası (*p. carjialis*) – *bax:* durğun proteinuriya
Yalançı proteinuriya (*p. spuria*) – sidik yollarının iltihabı və degenerativ dəyişiklikləri zamanı zülalın sidiyə keçməsi nəticəsində rast gəlinən proteinuriya
Zərdab proteinuriyası (*p. serosa*) – *bax:* həqiqi proteinuriya

Proteoliz *(proteolysis)* – zülalların peptit və aminturşulara qədər fermentativ parçalanma prosesi

Proteotoksikoz *(proteotoxicosis)* – xaricdən daxil olan və ya orqanizmin öz məhsullarının parçalanması nəticəsində əmələ gələn zülal təbiətli məhsullarla zəhərlənmə

Protes metodikası – haymoritin müalicəsində dərman maddəsinin haymor boşluğuna yeridilməsi üsulu

Proteus sindromu – həddindən artıq böyümə, dəri və dərialtı toxuma, skelet sistemini öz təsiri altına alan nadir xəstəlik; bilək və ayağın

giqantizmi, sindaktiliya, piqment pozğunluğu, daxili orqanların inkişaf qüsurları, limfangiomalarla təzahür edir

Protez *(*frans. *prothese*, yun. *prosthesis* birləşdirmə, bərkitmə*)* – bədənin və ya orqanın çatışmayan hissəsini əvəz etmək üçün onun formasında düzəldilmiş süni aparat və ya vasitə

Bud-çanaq oynağının Mura-Sito protezi (A.T. Moore, amer. cərrah; MTOİ (ЦИТО) – Mərkəzi Travmatologiya və Ortopediya İnstitutu) – bud-çanaq oynağının bərpa edilməsi üçün bud sümüyü başının titandan hazırlanmış endoprotezi

Çıxarılan diş protezi – pasiyentin çıxarıb yenidən yerinə qoya bildiyi diş protezi

Çıxarılmayan diş protezi – xəstənin özü tərəfindən çıxarılıb yenidən yerinə qoyulması mümkün olmayan protezlər (məs., körpüyəbənzər, köynək və s.)

Diş protezi – bütün diş cərgəsini, hissələrini və ya ayrı-ayrı dişləri əvəz etmək üçün funksional protez

Eşitmə protezi – *bax:* eşitmə cihazı

Funksional protez – bədən hissəsinin və ya orqanın funksiyalarını tam və ya hissəvi icra edən vasitə

Kosmetik protez (yun. *kosmetikos* bəzək verən) – yalnız protezləşdirdiyi orqanın xarici görnüşünü əvəz edən, lakin funksional vəzifələrini icra etməyən protezlər

Körpüyəbənzər diş protezi – təbii dişlərə bərkidilmiş çıxarılmayan diş protezi

Professional diş protezi – professional vərdişləri icra etmək üçün xüsusi konstruksiyalı diş protezi (məs., bəzi nəfəsli musiqi alətlərinin ucluqlarını tutub saxlamaq üçün tətbiq olunan xüsusi protezlər)

Yarımbioloji damar protezi – kollagen və ya heparin məhlulu hopdurulmuş sintetik materialdan hazırlanmış damar protezi

Protezləmə – protezlərin köməyi ilə zədələnmiş orqan və ya bədən hissələrinin funksiyalarının bərpası və ya kosmetik qüsurların aradn qaldırılması

Anatomik protezləmə – yalnız formaca orqan və ya bədən hissəsini əvəz edən protezləmə

Atipik protezləmə – standart protezləmə sxemlərinin tətbiqi mümkün olmadığı halda, problemə uyğun fərdi protezləmə

Funksional protezləmə – orqanın funksiyalarını bərpa etmək məqsədilə icra olunan protezləmə

Kosmetik protezləmə – *bax:* anatomik protezləmə

Müalicəvi protezləmə – *bax:* funksional protezləmə

Protionamid *(protionamidum)* – tioamid turşusunun törəməsi olan, vərəm əleyhinə preparat

Protodiastolik – ürək diastolasının əvvəlinə aid olan

Protomin sulfat *(protamini sulfas)* – heyvani mənşəli hemostatik və antihemorragik vasitə

Proton – orqanın rüşeym mayası

Protopopov sindromu (В.П. Протопопов, 1880-1957, sov. psixiatrı; sin. Protopopov triadası) – depressiyalar zamanı taxikardiya, midriaz və spastik qəbizliyin birgə təzahür etməsi

Protopopov triadası – *bax:* Protopopov sindromu

Protozoologiya (lat. *Protozoa* ibtidailər + yun. *logos* elm; sin. protis-

tologiya) – zoologiyanın ibtidailəri öyrənən bölməsi

Protrombin akseleratoru – *bax:* faktor V

Protrombin (*prothrombinum*) – *bax:* faktor II

Protrombinaza – *bax:* faktor V

Protrombinin çevrilməsinin plazma faktoru – *bax:* faktor V

Protrombinogen – *bax:* faktor VII

Protrombokinaza – *bax:* faktor VIII

Provitamin *(provitamin)* – orqanizmə qida ilə daxil olan və hər hansı bir vitaminin əmələ gəlməsinə başlanğıc verən maddə

Prozerin (*proserinum*) – geri dönən antixolinesteraz təsir göstərən maddə

Prozop- *(*prozopo-; yun. *prosopon* sifət, üz*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "üzə aid olan" mənasını verir

Prozopaqnoziya (*prosopagnosia*) – yaxşı tanıdığı şəxsi tanımamaqdan ibarət aqnoziya

Prozopoplegiya (*prozopo-* + yun. *plege* zərbə, zədələmə; sin. Bell iflici) – üz sinirinin zədələnməsi nəticəsində mimiki əzələlərin iflici

Prozopospazm *(prosopospasmus)* – üz əzələlərinin spazmı

Pruriqo (lat. *prurigo* qaşınma, dəri xəstəliyi) – *bax:* qaşınma xəstəliyi

Prusak simptomu (Prusak) – ətrafları bayıra və ya içəriyə döndərdikdə onurğada ağrının baş verməsi; onurğa beyninin kompressiyası zamanı təsadüf olunur

Prussaka cibi (А.Ф. Пруссак, 1839-1897, rus otorinolarinqoloqu) – *bax:* təbil pərdəsinin yuxarı cibi

Pryuvo əməliyyatı (M. Pruvot) – otosklerozun cərrahi müalicəsi zamanı üzəngi əsasının ön qütbünə alətlə (zondla) basmaqla üzənginin mobilizasiyası üsulu

Psamm- *(*psammo-; yun. *psammos* qum*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "quma aid", "quma oxşar" mənasını verir

Psammoma *(psammoma)* – toxumalarında psammoz cismciklər aşkar olunan şişlərin ümumi adı; qumlu şiş

Psammoterapiya – qum vannalarının istifadəsinə əsaslanan müalicə üsulu

Psammoz cismciklər *(corpora psammosa)* – zülal-lipid substansiyala toxumalara kalsium duzlarının çökməsi nəticəsində əmələ gələn mikroskopik, kürəyəbənzər, qatlı törəmələr; beynin qişalarının birləşdirici toxumalarında, damar kələflərində, həmçinin bəzi şişlərdə təsadüf olunur

Psevdo- *(*yun. *pseudes* yanlış*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, «yalançı», «saxta» mənasını verir

Psevdoabdominal sindrom *(syndromum pseudoabdominale)* – patoloji prosesin qarın boşluğunda yerləşmədiyi halda qarın boşluğu orqanlarının kəskin xəstəlikləri zamanı meydana çıxma əlamətləri ilə təzahür edən sindrom (məs., miokard infarktı, pnevmoniya və s. zamanı)

Psevdoabses *(pseudoabscessus)* – absesi xatırladan, lakin irinli iltihab deyil, zədələnmə, şiş və ya allergik ödem nəticəsində yaranan toxumanın boşluqşəkilli patoloji dəyişikliyi

Psevdoadisson sindromu – *bax:* duz itkili adrenogenital sindrom

Psevdoaffektiv reaksiya – adətən, səbəb olmadan meydana çıxan, emosional halın qəflətən, qısa müddətli təlatümlü mərhələsi

Psevdoaktinomikoz (*pseudoactinomycosis*) – *bax:* aktinobasillyoz

Psevdoaldosteronizm – *bax:* Lidl sindromu

Psevdoallergiya – orqanizmin həssaslığının immunokompetent sistemlə əlaqədar olmadan yüksəldiyi hallar; yalan allergiya

Psevdoanemiya *(pseudoanaemia)* – qanda hemoqlobinin normal olması şəraitində dəri və selikli qişanın solğun rəngi (məs., angiospazm zamanı təsadüf olunur)

Psevdobulbar iflic *(paralysis pseudobulbaris)* – yarımkürələrdə və ya baş beyin kötüyündə qabıq-nüvə liflərinin ikitərəfli zədələnməsi nəticəsində kəllənin hərəki sinirləri ilə inervasiya olunan əzələlərin iflici (dizartriya, disfoniya, bəzi reflekslərin yüksəlməsi, oral avtomatizmin meydana gəlməsi, məcburi gülüş və ya ağlama vəziyyəti)

Psevdodemensiya (*pseudodementia*) – isterik psixozlar zamanı rast gəlinən yalançı ağıl zəifiyi

Psevdodiabet (*pseudodiabetes*) – *bax:* yenidoğulmuşların tranzitor şəkərli diabeti

Psevdoeksfoliativ sindrom (*syndromum pseudoexfoliativum;* yun. *pseudes* uydurma, saxta) – *bax:* ekstrapiramid sindrom

Psevdoeksfoliasiya (*pseudoexfoliatio*) – *bax:* psevdokapsulyar eksfoliyasiya

Psevdoelefantiaz *(pseudoelephantiasis)* – *bax:* neyrofibromatoz fil ayaqlılıq

Psevdofrunkulyoz *(pseudofrunculosis)* – südəmər uşaqlarda tər vəzilərinin çoxsaylı irinli iltihabı

Psevdohallüsinasiyalar (*pseudohallucinationes*) – yalançı hallüsinasiyalar, bu zaman hallüsinator obyekt orqanizmin özündə yerləşir, məs., xəstə səsin beyninin içindən və ya mədəsindən gəldiyini söyləyir

Psevdohemofiliya *(pseudohaemophilia)* – qanda antihemofil faktorların normal olması şəraitində klinik şəkli hemofiliyanı xatırladan hemorragik diatezlərin ümumi adı

Damar psevdohemofiliyası – *bax:* angiohemofiliya

İrsi psevdohemofiliya *(p. hereditaria)* – autosom-dominant yolla ötürülən, hər iki cinsin nümayəndələrində rast gəlinən psevdohemofiliya

Qaraciyər psevdohemofiliyası (*p. hepatica*) – qaraciyər sirrozu zamanı qanda protrombinin miqdarının azalması ilə baş verən psevdohemofiliya

Psevdohidratroz *(pseudohydrarthrosis)* – oynaq kapsulunun qalınlaşması nəticəsində oynağın böyüməsi

Psevdohipoaldosteronizm *(pseudohypertrophia)* – irsi olaraq böyrək kanalcıqlarının aldosterona qarşı həssaslığının aşağı olması nəticəsində südəmər dövürdə su və duzların artıq miqdarda itirilməsi

Psevdohipoparatireoid sindromu (*syndromum pseudohypoparathyreoideum*) – *bax:* Martin-Olbrayt sindromu

Psevdohipoparatireoz *(pseudohypoparathyreosis)* – klinik olaraq hipoparatireozla oxşar olan, lakin parat hormonun daxil edilməsi ilə hiperfosfatemiya və hipofosfaturiyanın tənzimlənmədiyi patoloji vəziyyət

Psevdoxolera (köh.; *pseudocholera*) – *bax:* melioidoz

Psevdoxoliolitiaz *(pseudocholelithiasis)* – öd kisəsi və öd yollarında daş əmələ gəlmə ilə əlaqədar olmayan

sağ qabırğaaltı nahiyədə tutmaşəkilli ağrı (məs., hemolitik sarılıq, Adisson-Birmer xəstəliyi, kəskin hepatit, qaraciyər sirrozu zamanı rast gəlinir)

Psevdoiflic (*pseudoparalysis*) – *bax:* psevdoparalitik sindrom

Psevdointima (*psevdo-* + lat. *intimus* ən daxili) – *bax:* neointima

Psevdoipostasofobiya – maskalardan qorxma

Psevdoişias *(pseudoischiasis)* – işiasa xarakter olan ağrı simptomları ilə gedən, lakin hərəki, hissi, reflektori və trofik dəyişikliklərin olmadığı ağrı simptomokompleksi

Psevdokapsulyar eksfoliyasiya – büllurun ön kapsulunda, kirpikli cismdə, şüşəyəbənzər cismin hüdudi membranında, qüzehli qişanın bəbək kənarında pambıqşəkilli bozumtul rəngli qabıqlanma

Psevdokaverna (*pseudocaverna*) – əsasən ağciyərlərdə rast gəlinən qeyri-vərəm mənşəli destruktiv proses nəticəsində yaranan boşluq

Psevdokoksalgiya (*pseudocoxalgia*) – *bax:* Pertes xəstəliyi

Psevdokrup – yalançı inağ

Psevdoqlaukoma *(pseudoglaucoma)* – göz daxili təzyiqin normal vəziyyətində göz dibinin müayinəsi zamanı qlaukomayabənzər dəyişikliklərin aşkar edilməsi (məs., görmə sinirinin sadə atrofiyası zamanı rast gəlinir)

Psevdoleykoderma *(pseudoleucoderma)* – müalicə olunmuş səpgilərin yerində qalan hipoxrom ləkələr şəkilli depiqmentasiya (məs., psoriaz, kəpəklənən dəmrov və s. zamanı)

Psevdologiya (*pseudologia*) – əsasən isterik tutmalar zamanı rast gəlinən patoloji uydurma (yalançı)

Psevdomelanoz *(pseudomelanosis)* – 1) dəridə və daxili orqanlarda melanin piqmentinin toplanmasına oxşar vəziyyət; 2) hemosiderinin parçalanması nəticəsində meyitin bağırsağının qara rəngə boyanması

Psevdomeliya *(pseudomelia)* – beyin yarımkürələrinin zədələnmələri zamanı əks tərəfdə əlavə ətrafın olmasından ibarət yalançı hissiyyat

Psevdomeliya parestetik (*pseudomelia paraesthetica*) – iflicli ətrafın hərəkət etməsindən ibarət aldadıcı hissiyyat

Psevdometaplaziya (*pseudometaplasia*) – *bax:* histoloji akkomodasiya

Psevdomikoz (*pseudomycosis*) – *bax:* pustulyoz bakterid

Psevdomiksedema lixenoidli (*pseudomyxoedema lichenoideum*) – *bax:* dərinin papulyoz musinozu

Psevdomiksoma *(pseudomyxoma)* – seliyin epitellə örtülmüş kisələşmiş boşluqlarda toplanması (bəzən səhv olaraq şiş və ya infiltrat kimi qəbul oluna bilər)

Psevdomilium *(pseudomilium)* – anadangəlmə bulyoz epidermoliz zamanı dermanın səthində epidermal sistlər

Psevdomneziya (*psevdo-* + yun. *mnesis* yaddaş) – *bax:* paramneziya

Psevdomusin (sin. mukoid maddə) – 1) həqiqi selikdən fərqli olaraq sirkə turşusu məhlulu və ya spirt ilə qarşılıqlı təsiri zamanı incə lif torunun düşməsi baş verməyən seliyəbənzər maddə; 2) epiteli selik ifraz edən şişlərin ümumi adı

Psevdonevrastenik sindrom *(syndromum pseudoneurasthenicum)* – baş beynin üzvi zədələnmələri və ya ağır xəstəlikdən üzülmüş xəstələrdə nevrasteniyaya xas əlamətlərin

(oyanıqlığın artması, üzülmə, yuxunun pozulması, iş qabiliyyətinin aşağı düşməsi və s.) və üzvi psixosindromların (yaddaşın zəifləməsi, zehni qabiliyyətin enməsi və s.) birgə təsadüf olunması

Psevdonevrasteniya – *bax:* orqanik asteniya

Psevdootoskleroz – *bax:* timpanoskleroz

Psevdopannus – *bax:* degenerativ pannus

Psevdoparalitik sindrom *(syndromum pseudoparalyticum)* – mərkəzi sinir sisteminin digər xəstəlikləri zamanı rast gəlinən proqressivləşən iflicə xas psixi və nevroloji pozğunluqlar

Psevdoparazitizm – *bax:* yalançı parazitizm

Psevdopelada *(pseudopelade)* – başın tüklü hissəsinin allopesiyası, qeyri-düzgün formalı dəri atrofiyası

Psevdoperversiya (*pseudoperversiones*) – normal seksuallıqla yanaşı patoloji seksuallığa meyililik

Psevdopilorostenoz – *bax:* duz itkili adrenogenital sindrom

Psevdopodaqra (*pseudopodagra*) – sinovial mayedən kalsium pirofosfat kristallarının çökməsi sonrasında sinovit, xondrokalsinoz və artrozun inkişaf etməsi nəticəsində meydana çıxan və aşağı ətrafların əsasən iri və orta oynaqlarını zədələyən kəskin mono- və ya oliqoartrit; oynaqda kəskin ağrı, şişkinlik, qızartı və oynaq üzərində yumşaq toxumaların hərarətinin yüksəlməsi ilə təzahür edir

Psevdopolimeliya *(pseudopolymelia)* – bir neçə əlavə ətrafın olmasından ibarət yalançı hissiyyat

Psevdopolip (*pseudopolypus*) – bağırsaq selikli qişasının xora və ya çapıq ətrafında polipi xatırladan qalınlaşmasışxassəli şiş

Psevdoporensefaliya *(pseudoporencephalia)* – beyin yarımkürələri qabığında qansızmadan, infarkt və ya ocaqlı iltihab prosesindən sonra meydana çıxan klinik gedişi ilə porensefaliyanı xatırladan sistlərin əmələ gəlməsi

Psevdopsevdohipoparatireoz *(pseudopseudohypoparathyreosis)* – klinik gedişi ilə hipoparatireozu xatırladan (tetaniya, sinir-psixi pozğunluq, skeletin deformasiyası və s.), lakin hipokalsemiya və hiperfosfatemiyasız keçən naməlum etiologiyalı endokrin xəstəlik

Psevdoptoz *(pseudoptosis)* – ptozu xatırladan, lakin əzələlərin zədələnməsi nəticəsində deyil, yuxarı göz qapağı dərisinin qalınlaşması və ya sallanması nəticəsində meydana çıxan patoloji vəziyyət

Traxomatoz psevdoptoz (*p. trachomatosa*; sin. traxomatoz ptoz) – traxomanın ilkin mərhələsində yuxarı göz qapağı toxumalarının iltihabi infiltrasiyası nəticəsində meydana çıxan psevdoptoz

Psevdoreminissensiya (*psevdo-* + lat. *reminiscentia* xatirə, yada salma) – həqiqətən baş verən bir faktın təhrif olunması, yalançı yaddaş

Psevdosap (köh.) – *bax:* melioidoz

Psevdosəs – qida borusunun daralmış girişindən qida borusu və mədədə toplanmış havanın xaric olması nəticəsində artikulyasion aparat vasitəsi ilə nitq kimi nodulyasiya edilən səs

Psevdostenoz *(pseudostenosis)* – sinir tənziminin pozulması nəticəsində qida kütləsinin evakuasiyasının

həzm traktının hər hansı bir nahiyəsində keçib gedən pozulması

Psevdotabes *(pseudotabes) – tabes dorsalisə* klinik oxşar olan, lakin sinir sisteminin qeyri-sifilitik zədələnməsi nəticəsində meydana çıxan sindrom

Diabetik psevdotabes (*p. diabetica)* – şəkərli diabet zamanı bəbək refleslərinin zəifləməsi, tabetik yeriş, dərin hissiyyatın pozulması, diz və Axilles reflekslərinin itməsi ilə xarakterizə olunan vəziyyət

Hipofizar psevdotabes (*p. hypophysialis*) – hipofizar nahiyənin patoloji dəyişikliyi nəticəsində meydana çıxan görmə sinirlərinin atrofiyası və vətər reflekslərinin olmaması ilə xarakterizə olunan patoloji vəziyyət

Pupillotonik psevdotabes (*p. pupillotonica*) – *bax:* Eydi sindromu

Psix- *(*yun. *psyche* ruh, şüur*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "psixikaya aid" mənasını verir

Psixalgiya *(psychalgia)* – psixi travma nəticəsində meydana çıxan, qorxu və həyəcan hissi ilə müşayiət olunan ağrı

Psixi avtomatizm – xəstənin öz psixi pozğunluqlarını (sensor, motor, düşüncə) kənar təsirlər kimi qəbul etməsi

Psixi disharmoniya *(dysharmonia psychica)* – şəxsiyyətin hər hansı bir keyfiyyətinin inkişaf etməməsi və (və ya) digər keyfiyyətlərinin artıq inkişaf etməsi

Psixi ekvivalent – bəzi keyfiyyətlərinə görə cəngolma tutmalarına oxşayan, epilepsiyada psixi halların epizodik pozuntusu

Psixi halsızlıq – enerjinin zəifləməsi nəticəsində orqanizmin yorğunluğu, zəifliyi və halsızlığı

Psixi induksiya – hər hansı bir şəxsin öz baxışlarını, dünya görüşünü digərinə təlqin etməsi (normal və ya patoloji)

Psixi infantillik sindromu – şəxsiyyətin inkişafının zəifliyi, intellektual yetkinliyin olmaması

Psixi qabiliyyət – *bax:* zehni qabiliyyət

Psixi qüsur – psixi xəstəlik nəticəsində şəxsiyyətin dəyişməsi, fərdi xüsusiyyətlərin enməsi

Psixi rigidlik – hərəkətlərin ləngiməsi, psixi proseslərin dəyişməsi və tempinin itməsi ilə xarakterizə olunan psixopatoloji vəziyyət

Psixi şok – həyat üçün təhlükə yaradan vəziyyətlərdə meydana çıxan kəskin qorxu affekti şəklində təzahür edən reaktiv psixoz

Psixiatr (*psix-* + yun. *iatros* həkim) – ruhi xəstəliklərin diaqnostikası, müalicəsi, profilaktikası və ekspertizası üzrə ixtisaslaşmış mütəxəssis

Psixiatrik ekspertiza – hər hansı bir şəxsin psixi sağlamlığı, əmək qabiliyyəti, hərbi xidmətə yararlılığı, məhkəmə qarşısında cavabdehlik və öz vətəndaşlıq hüqüqlarından istifadə qaydalarının təyin edilməsi

Psixiatriya (*psix-* + yun. *iatreia* müalicə, müalicə etmə) – kliniki təbabətin ruhi xəstəliklərin öyrənilməsi və müalicəsi ilə məşğul olan bölməsi

Bərpa psixiatriyası – *bax:* reabilitasion psixiatriya

Eksperimental psixiatriya – psixiatriyanın nəzəri və praktik məsələlərini həll etmək üçün eksperimentdə psixopatoloji vəziyyətlərinin modellərinin yaradılması və öyrənilməsi ilə məşğul olan bölməsi

Endokrinoloji psixiatriya – psixiatriyanın endokrin sistem pozğun-

luqları nəticəsində meydana çıxan psixiatrik xəstəlikləri öyrənən bölməsi

Xüsusi psixiatriya – psixiatriyanın ayrı-ayrı xəstəlikləri, onların etiologiya, patogenez, klinika, inkişaf qanunauyğunluqları, müalicə üsulları və əmək qabiliyyətinin bərpa edilməsini öyrənən bölməsi

Reabilitasion psixiatriya – psixiatriyanın psixi xəstələrin aktiv müalicədən sonra ətraf mühitə və əmək proseslərinə uyğunlaşdırma metodlarını öyrənən bölməsi

Uşaq psixiatriyası – psixiatriyanın uşaq yaşlarında psixi xəstəliklərin xüsusiyyətlərini öyrənən bölməsi

Ümumi psixiatriya – psixiatriyanın psixi xəstəlikləri, psixopatoloji prosesləri və vəziyyətləri, inkişaf qununauyğunluqlarını öyrənən bölməsi

Yaş psixiatriyası – psixiatriyanın psixi xəstələrin yaş xüsusiyyətlərinə görə xəstəliklərinin gedişatı, müalicəsi və reabilitasiyasını öyrənən bölməsi

Psixiatr-narkoloq – narkomaniyalı xəstələri aşkar etmək, müalicə və reabilitasiyası üzrə ixtisaslaşmış həkim-mütəxəssis (psixiatr)

Psixika (yun. *psychikos* ruha, ruhi xüsusiyyətlərə aid olan) – ən yüksək quruluş olan baş beynin qabıq hissəsinin funksiyası, insana məxsus olan əqli proses

Psixoaktiv maddə – asılılıq yaradan dərmanlar qrupu

Psixoaktivatorlar – *bax:* psixostimuləedici vasitələr

Psixoanaleptiklər (*psychoanaleptica*) – *bax:* psixostimuləedici vasitələr

Psixoanaliz – şüuraltı təbəqədə məskunlaşan mənfi meyilləri aşkar etmək və neytrallaşdırmağa əsaslanan psixoterapiya üsulu

Psixofobiya – ruhi xəstələrdən, psixi xəstəliyə tutulmaqdan qorxma

Psixogen – ruhi mənşəli, psixi əlamətlərin təsirindən törənən

Psixogen ağrı – ruhi xəstəliklər zamanı üzvi xəstəliyin olmaması, ağrının xaraketri və intensivliyinin izah edilə bilmədiyi hallarda qeyd olunan ağrı

Psixogen amil – psixi travma yaradan amil

Psixogen anorqazm – psixi amillərlə əlaqədar olaraq intim münasibət zamanı orqazmın baş verməməsi

Psixogen korluq (*caecitas psychogena*) – *bax:* isterik ambliopiya

Psixogen torakalgiya – *bax:* psixogen kardialgiya

Psixogigiyena – ümumi gigiyenanın sağlam adamın psixikasına mənfi təsir edən amilləri öyrənən bölməsi

Psixoleptiklər – *bax:* trankvilizatorlar

Psixologiya (*psixo-* + yun. *logos* elm) – insanın normal əqli fəaliyyətini öyrənən elm sahəsi; psixika haqqında elm

Psixoloji travma – əsəb sarsıntısı

Psixomotor pozuntu – orqanizmin ayrı-ayrı hissələrinin, o cümlədən mimikasının psixi pozuntu nəticəsində meydana çıxan vəziyyət

Psixonevroloq – sinir və ruhi xəstəliklər üzrə mütəxəssis

Psixopatiya *(psychopathia)* – əsasında psixi proseslərin dayanıqsızlığı və qeyri-stabilliyi, disharmoniya dayanan şəxsiyyətin anadangəlmə fərdi dayanıqlı xüsusiyyətlərinin məcmusu; xasiyyətin anomliyası və ya şəxsiyyətin patologiyası

Astenik psixopatiya (p. asthenica) – emosional və ümumi zəiflik, ney-

rovegetativ dəyişkənliyə meyillilik, hissiyyata qapılmaqla səciyyələnən psixopatiya

Distimik psixopatiya (p. dysthymica) – emosional sahədə və temperamentdə sapmaların üstünlüyü ilə gedən psixopatiya; belə şəxslərin əhvali-ruhiyyəsi daima aşağı olub hər an, nə isə pis hadisənin olacağını gözləyirlər, onları heç nə ruhlandırmır, həyatlarında baş verən müsbət hadisələrə, qazandıqları müvəffəqiyyətlərə görə sevinmirlər

İsterik psixopatiya (p. hysterica) – öz fəaliyyəti ilə hamının diqqətini cəlb etməyə çalışmaq, hadisələrin gedişində aparıcı rol oynamağa can atmaq, başqalarının iztirabına biganə qalmaqla təzahür edən psixopatiya

Paranoyal (paranoid) psixopatiya (p. paranoialis) – etimadsızlıq, öz şəxsi keyfiyyətlərini, bilik və bacarıqlarını həmişə nümayiş etdirməyə səy göstərmək, inadkarlıq, eqoistlik və başqalarının fikri ilə razılaşmamaqla səciyyələnən psixopatiya

Şizoid psixopatiya (p. schizoidea) – bu tip psixopatların əsas cəhəti autistik təfəkkürə malik olmaları, cəmiyyətdə özlərini aparmaları, geyimləri, mimikaları, jestləri ilə fərqlənirnirlər

Psixopatizasiya – hər hansı psixi və ya somatik xəstəlik nəticəsində meydana çıxan müxtəlif psixi hallar

Psixopatologiya – ruhi-əsəb xəstəliklərinin meydana çıxmasının ümumi qanunauyğunluqlarını öyrənən sahə

Psixoprofilaktika – ümumi profilaktikanın ali sinir sisteminin psixi pozuntularının qarşısının alınması ilə məşğul olan hissəsi

Psixorefleks – emosional halla müşayiət olunan vegetativ reflekslərin ümumi adı (məs., tər ifrazının artması, ürək-damar fəaliyyətinin dəyişikliyi və s.)

Psixosensor pozuntu – ətrafda yerləşən əşyaların və bədən hissələrinin forma və ölçülərinin yanlış qavranılması

Psixosomatika (*psixo-* + yun. *soma, somatos* bədən) – tibbin psixi faktorların somatik xəstəliklərin meydana gəlməsinə və inkişafına təsirini öyrənən istiqaməti

Psixostimulyatorlar – *bax:* psixostimulyəedici vasitələr

Psixostimulyəedici vasitələr *(psychostimulantia)* – psixi fəaliyyətə, əmək qabiliyyətinin yüksəlməsinə, yorğunluq və yuxululuq hissiyyatının azalmasına, əhval-ruhiyyənin yüksəldilməsinə seçici təsir göstərən dərman vasitələri

Psixoterapiya – xəstənin müalicəsi və ya davranışının korreksiyası məqsədilə göstərilən psixoloji təsirli müalicə üsulu

Emosional psixoterapiya – xəstə ilə simpatiya və etibar əsasında qurulan münasibətə əsaslanan psixoterapiya

Fərdi psixoterapiya – ayrı-ayrı xəstələrin fərdi xüsusiyyətlərinə və xəstəliyinin təzahürlərinə əsaslanan psixoterapiya

İnstitusion psixoterapiya – xəstələrin sosial və əmək adaptasiyasını təmin etməyə yönəlmiş psixoterapiya

Kiçik psixoterapiya – xəstəliyin bəzi təzahürlərini aradan qaldırmağa yönələn psixoterapiya

Kollektiv psixoterapiyası (sin. qrup psixoterapiyası) – *bax:* qrup psixoterapiyası

Qrup psixoterapiyası – eyni tip xəstəlikdən əziyyət çəkən xəstələrə qrup şəklində aparılan təlqin, psixoloji təsir

Rasional psixoterapiya – xəstəyə, xəstəliklə mübarizədə potensial imkanlarını mobilizə etmək üçün, xəstəliyinin ayrı-ayrı simptomlarının mahiyyətinin və bu xəstəliyin həyat üçün ciddi təhlükə törətmədiyinin izah olunması ilə aparılan psixoterapiya

Suqqestiv psixoterapiya – təlqinlə aparılan psixoterapiya

Yayındırıcı psixoterapiya – xəstəni ağrıdan və həyəcandan yayındırmaq məqsədilə diqqətinin yeni maraqlara, yaşamaq tərzinə və fəaliyyət növlərinə yönəldilməsinə istiqamətlənən psixoterapiya

Psixotik debüt – psixi xəstəliyin başlanğıc dövrü

Psixotik depressiya sindromu – *bax:* melanxoliya

Psixotomimetik maddələr – *bax:* psixotomimetik təsirli zəhərləyici maddələr

Psixotoniklər – *bax:* psixostimulyəedici vasitələr

Psixotrop vasitələr – orqanizmin psixi hallarının sağalmasına yönələn psixofarmakoloji maddələr

Psixoz (*psychosis*) – psixi funksiyaların ciddi formada pozuntuları ilə təzahür edən patoloji vəziyyət; düşüncə və duyğunun ağır formada pozulması

Affektiv psixoz (p. affectiva) – təzahürləti affektiv pozğunluqlardan (depressiya və ya maniakal vəziyyət) ibarət olan psixoz

Akrixin psixoz – malyariyanın müalicəsində tətbiq olunan akrixionun təsirindən yaranan psixozlar

Alkoqol psixozu (p. alcoholica) – xroniki alkoqolizmin II və III mərhələlərində yaranan psixoz; onlara aiddir – alkoqol delirium, hallüsinoz, sayıqlama psixozu və s.

Gecikmiş sifilitik psixoz – *bax:* proqressivləşən iflic

İnduksiya olunmuş (p. inducta) – uzun müddət ruhi xəstə ilə ünsiyyətdə olan insanda yaranan psixoz

İnfeksion psixoz – baş beyinə infeksion proseslərin təsiri nəticəsində inkişaf edən simptomatik psixoz

İntoksikasion psixozlar – intoksikasiya nəticəsində əmələ gələn psixozlar

İnvolyusion psixoz – klimakterik dövrün psixozu

İsterik psixoz (p. hysterica) – psevdodemensiya, puerilizm, stupor, şüurun pozulması ilə gedən reaktiv psixoz

Kəskin psixoz (p. acuta) – ani yaranan və şüurun pozulması, sayıqlama, hallüsinasiyalar və psixomotor oyanma şəklində sürətlə inkişaf edən psixoz

Korsakov psixozu (С.С. Корсаков, 1854-1900, rus psixiatrı) – kəskin alkoqol ensefalopatik pozuntunun bir növü olub, atipik alkoqol delirisindən sonra polinevrit, anteroretroqrad, retroqrad və fiksasion amneziya, dezorientasiya, psevdoreminissensiya və konfabulyasiya əlamətləri ilə təzahür edən vəziyyət

Qocalıq psixozu – *bax:* qocalıq ağıl kəmliyi

Polinevritik psixoz (p. *polyneuritica*) – *bax:* Korsakov psixozu

Psixogen psixoz (p. psychogena) – *bax:* reaktiv psixoz

Reaktiv psixoz – psixososial stresslərin təsiri nəticəsində meydana çıxan psixi pozğunluq

Senil psixoz (*p. senilis*) – *bax:* qocalıq ağıl kəmliyi

Psixro – (yun. *psychros* soyuq) – mürəkkəb sözlərin tərkib hissəsi olub, "soyuq" mənasını verir

Psixrofillər – *bax:* psixrofil bakteriyalar

Psixrofor (*psixro-* + yun. *phoros* daşıyıcı, aparıcı) – babasil, prostat vəzi xəstəlikləri və toxum qovuqcuqlarının isti və ya soyuğun təsiri ilə müalicəsi üçün qurğu; düz bağırsağa yeridilən zəif əyilmiş metal silindr şəklindədir və içərisində soyudulmuş və ya isidilmiş su surkulyasiya edir

Psixrometr – quru termometr

Psillizm *(psillismus)* – samit səslərin qeyri-dəqiq tələffüz edilməsi və ya digər samitlə əvəz olunmasından ibarət nitq pozğunluğu

Psittakoz – *bax:* ornitoz

Psoriatik döyənək *(clavus psoriaticus)* – psoriazın ovuc-ayaqaltı forması

Psoriatik örtük fenomeni – psoriaz zamanı papulaları qaşıdıqda çəhrayı rəngli səthin əmələ gəlməsi

Psoriatik triada *(trias psoriaticus)* – stearin ləkəsi, psoriatik örtük fenomeni və nöqtəvi qanaxma fenomeni

Psoriaz *(psoriasis vulgaris*; yun. *psoriasis* qaşınma, qotur*)* – naməlum etiologiyalı residiv verəb xroniki dermatoz; sürətli dərəcədə artımı nəticəsində dəridə qırmızı, pulcuqlu ləkələr əmələ gəlməsi ilə müşahidə olunur

Artropatik psoriaz (*p. arthropathica*) – çoxsaylı simmetrik oynaqların zədələnməsi ilə gedən psoriaz

Bulyoz psoriaz (*p. bullosa*) – lövhəciklərin üzərində qabarcıq və vezikulların olması ilə gedən ekssudativ psoriaz

Büküşlərin psoriazı (*p. pilicarum*) – qoltuqaltı, qasıq və digər dəri büküşlərinin pulcuqlarla deyil, kəskin iltihab əlamətləri olan qartmaqlarla örtüldüyü ekssudativ psoriaz

Dırnaqların psoriazı (p. *unguium*) – *bax:* psoriatik onixiya

Diskəbənzər psoriaz (*p. discoidea*) – lövhəcikləri 6 sm diametrə qədər olan psoriaz

Ekssudativ psoriaz (*p. exsudativa*) – çox miqdarda ekssudasiya nəticəsində səpgi səthində bozumtul sarı boş qartmaqların olması ilə xarakterizə olunan psoriaz

Follikulyar psoriaz (*p. follicularis*) – tük follikullarının ətrafında meydana gələn, mərkəzi qıfabənzər batıq olan miliar papulalarla gedən psoriaz

Hiperkeratozlu psoriaz (*p. hyperkeratotica*) – *bax:* ziyilşəkilli psoriaz

Papillomatoz psoriaz (*p. papillomatosa*) – *bax:* ziyilşəkilli psoriaz

Pustulyoz psoriaz (*p. pustulosa*) – tipik lövhəciklərin səthində və ətrafında steril pustulaların olması ilə xarakterizə olunan psoriaz

Vezikulyar psoriaz (*p. vesiculosa*) – *bax:* bulyoz psoriaz

Ziyilşəkilli psoriaz (*p. verrucosa*) – lövhəciklərin üzərində ziyilşəkilli törəmələrin olması ilə gedən psoriaz

Pterigium sindromu – bəzi irsi xəstəliklər zamanı məməyəbənzər çıxıntıdan başlayaraq boyun dərisində büküşlərin olması

Pteriqum (*pterigium*) – daxili göz yarığı nahiyəsində sklera konyunktivasının vaskulyarizasiya olunmuş üçbucaq şəkilli büküşü

Pterion *(pterion)* – alın, təpə, gicgah və əsas sümüyün böyük qanadlarının qovuşma nöqtəsi (kəllənin atropometrik nöqtələrindən biri)

Pteronofobiya – quş lələklərindən patoloji qorxu

Pti sindromu – boyun nahiyəsinin simpatik liflərinin qıcıqlanması zamanı birtərəfli olaraq meydana çıxan ekzoftalm, midriaz, göz yarığının genəlməsi

Pti üçbucağı – *bax:* bel üçbucağı

Ptializm *(ptyalismus) – bax:* hipersalivasiya

Ptiloz *(ptilosis)* – blefarit nəticəsində kirpiklərin tökülməsi

Ptoz *(ptosis*, yun. *ptosis* yıxılma, düşmə*)* – yuxarı göz qapağının düşməsi və ya sallanması, onu qaldıran əzələnin funksiya pzğunluğu ilə bağlıdır

Qocalıq ptozu (*p. senilis*) – yaşla əlaqədar göz qapağını qaldıran əzələlərin atrofiyası nəticəsində meydana çıxan ptoz

Miogen ptoz (*p. myogena*) – əzələlərin sistem zədələnməsi nəticəsində meydana çıxan ptoz (məs., miasteniya zamanı)

Paralitik ptoz (*p. paralytica*) – yuxarı göz qapağını qaldıran əzələnin iflici nəticəsində meydana çıxan birtərəfli ptoz

Simpatik ptoz (*p. sympathica*) – gözün simpatik inervasiyasının pozulması nəticəsində meydana çıxan birtərəfli ptoz

Ptoz traxomatoz (*ptosis trachomatosa*) – *bax:* traxomatoz psevdopatoz

Ptoz yalançı (*ptosis spuria*) – *bax:* psevdoptoz

Pubertant ginekomastiyası – *bax:* yeniyetməlik mastiti

Pubertat dispituitarizmi – *bax:* gənclik bazofilizmi

Pudendal kanal *(canalis pudendalis)* – daxili qapayıcı əzələ fassiyasının lövhələri arasında qalan sahə

Pueritizm (*puerilismus*; лат. puerilis детский) – psixi travma nəticəsində xəstənin uşaq dili ilə danışması, kəkələməsi, uşaq oyuncaqları ilə oynamağa meyilliliklə xarakterizə olunan psixotik vəziyyət

Pulcuqlu alveolositlər – *bax:* tənəffüs alveolositləri

Pulfrix stereoeffekti – görmə sahəsinə müxtəlif rəngli işıq filtrləri yerləşdirdikdə hərəkət edən kəfkirin bir müstəvidə elips formasında qəbul edilməsindən ibarət görmə illuziyası

Pulfrixinstereoeffekti – göz önündə müxtəlif işıq filtrləri (və ya bir göz önündə neytral işıq filtri) yerləşdirdikdə filtrin kəfkirinin hərəkətinin elips formasında qəbul olunduğu görmə illüziyası

Pullu dəmrov (*psoriazis*) – asanlıqla qoparılan gümüşü qabıqlarla örtülmüş dermaepidermal papulaların olması ilə gedən residivli xroniki dəri xəstəliyi

Pulmektomiya (*pulmectomia*) – *bax:* pnevmonektomiya

Pulmonektomiya (*pulmonectomia*) – *bax:* pnevmonektomiya

Pulmonit *(pulmonitis) – bax:* travmatik pnevmoniya

Pulmonologiya – tibbin ağciyər xəstəliklərindən bəhs edən bölməsi

Pulpit *(pulpitis)* – diş pulpasının iltihabı

Açıq pulpit (*pulpitis aperta*) – diş boşluğunun ağız boşluğu ilə əlaqələndiyi pulpit

Fibroz pulpit (*pulpitis fibrosa*) – pulpada hüceyrə elementlərinin azalması, lifli qurluşlu elementləri çoxalması ilə gedən xroniki pulpit

Hipertrofik pulpit (*pulpitis hypertrophica*) – karioz boşluğu dolduran qranulyasion toxumanın əmələ gəlməsi ilə gedən pulpit

İrinli pulpit (*pulpitis suppurativa*) – pulpada irinli infiltratın əmələ gəlməsi ilə gedən pulpit

Kök pulpiti (*pulpitis radicalis*) – diş kökündə yerləşən pulpit

Qalxan pulpit (*pulpitis ascendens*) – infeksiyanın diş kanalının zirvə dəliyindən pulpaya doğru yayılması nəticəsində meydana çıxan pulpit

Qapalı pulpit (*pulpitis obturata*) – diş boşluğunun ağız boşluğu ilə əlaqələnmədiyi pulpit

Yaralı pulpit (*pulpitis ulcerosa*) – pulpa səthində dentin örtüyündən qismən məhrum olunmuş sahələrin olması ilə gedən xroniki irinli pulpit

Pulsasion qaraciyər nəbzi – *bax:* yalançı qaraciyər pulsasiyası

Pulsasiya *(pulsatio)* – ürək, damar və ya onlarla əlaqəli olan toxumaların ritmik hərəkəti

Döş sümüyüarxası pulsasiya (*p. retrosternalis*) – döş sümüyünün vidaci çuxuru nahiyəsini palpasiya etdikdə aorta pulsasiyasının hiss edilməsi; aortanın uzanması və ya genişlənməsi əlaməti

Qaraciyərin həqiqi pulsasiyası (*p. hepatis vera*) – qanın bir hissəsinin ürəyin sağ mədəciyindən boş venaya qayıtması və ya boş venadan axına əngəl törədən səbəbin olması zamanı qaraciyər nahiyəsində qeyd olunan pulsasiya; üçtaylı qapağın qüsurları zamanı təsadüf olunur

Qarınüstü pulsasiya (*p. epigastrica*) – qarın divarının xəncərəbənzər çıxıntı nahiyədə pulsasiyasının aşkar edilməsi; diafraqmanın aşağı yerləşməsi, sağ mədəciyin genişlənməsi və ya hipertrofiyası zamanı təsadüf edilir

Qaraciyərin ötürücü pulsasiyası – *bax:* qaraciyərin yalançı pulsasiyası

Paradoksal pulsasiya (*p. paradoxalis*) – normal istiqamətin əksinə vəziyyətdə qeyd olunan pulsasiya (məs., adgeziv perikardit zamanı içəriyə doğru batmış zirvə nahiyəsində aşkar edilir)

Prekardial pulsasiya (*p. praecardialis*) – *bax:* ürəkönü pulsasiya

Retrosternal pulsasiya (*p. retrosternalis*) – *bax:* döş sümüyüarxası pulsasiya

Ürəkönü pulsasiya (*p. praecardialis*) – ürəyin anevrizması zamanı ürək proyeksiyasına uyğun nahiyədə palpator olaraq pulsasiyanın təyin edilməsi

Qaraciyərin venoz pulsasiyası (p. hepatis venosa) – *bax:* qaraciyərin həqiqi pulsasiyası

Qaraciyərin yalançı pulsasiyası (*p. hepatis spuria*) – həddindən artıq hipertrofiya olunmuş ürəyin və ya aorta pulsasiyasının qaraciyər nahiyəsinə yayılması

Pulsotaxometr – nəbz tezliyini fasiləsiz olaraq qeydə alan cihaz

Pulverizasiya – xırdalayıb toza çevirmə

Pulverizator – püskürdücü, tozlandırıcı cihaz

Punksiya *(punctio*; lat. iynə vurma*)* – diaqnostik və ya müalicə məqsədilə

orqanın divarına və ya orqanizmin boşluğuna iynə girişimi

Abdominal punksiya (*p. abdominalis*) – diaqnostika və müalicə məqsədilə qarın boşluğunun deşilməsi

Bel punksiyası (*p. lumbalis*) – onurğa beyninin hörümçəyəbənzər qişaaltı nahiyəsinin II-IV bel fəqərələri səviyyəsində punksiyası

Dəridən keçən punksiya (*p. percutanea*) – dəri və altında yerləşən yumşaq toxumalardan keçərək icra olunan punksiya

Əsas cibin punksiyası – əsas cibin ön divardan icra olunan punksiyası

Haymor cibinin punksiyası – medial divardan aşağı burun balıqqulağının altından 14 mm arxaya əng cibinin punksiyası

Xəlbir labirintinin punksiyası – xəlbir cibinin medial və ya aşağı divardan icra olunan punksiyası

Kardial punksiya – ürəyin punksiyası, ürəyə iynə vurulması

Kor punksiya (*p. caeca*) – iynənin hərəkəti zamanı anatomik törəmələrin orientir seçilərək icra olunan punksiya

Qasıqüstü kapillyar punksiya – iynə ilə icra olunan qasıqüstü punksiya

Qasıqüstü punksiya (*p. suprapubica*) – sidiyin xaric edilməsi üçün orta xətt boyunca qasıqüstü nahiyənin punksiyası

Qasıqüstü troakar punksiyası – troakardan drenaj borunun keçirilməsi ilə icra olunan qasıqüstü punksiya

Lyumbal punksiya (*p. lumbalis*) – *bax:* bel punksiyası

Nişanə punksiyası – iynə və ya troakarın hərəkətinin görmənin nəzarəti altında olması şəraitində icra edilən punksiya

Onurğa beyni punksiyası (*p. spinalis*) – onurğa beyni mayesini çıxarmaq və ya onurğa beyni kanalına dərman maddələrini yeritmək üçün aparılan əməliyyat

Onurğa beyninin mərtəbəli punksiyası – patoloji prosesin təxmin olunan lokalizasiyasından yuxarı və aşağı nahiyələrdə icra olunan punksiya

Plevral punksiya – *bax:* plevrosentez

Sidik kisəsi punksiyası (*p. cyctis*) – *bax:* qasıqüstü punksiya

Sınaq punksiyası (*p. exploratoria*) – boşluqlu orqanın, bədən boşluğunun və ya patoloji törəmənin möhtəviyyatı haqqında məlumat almaq məqsədilə icra olunan punksiya

Sisternal punksiya (*p. cisternalis*) – baş və ya onurğa beyninin hörümçək torunabənzər qişaaltı sisternlərinin punksiyası

Sternal punksiya (*p. sternalis*) – döş qəfəsinin ön divarından döş sümüyü dəstəyinin və ya III-IV qabırğaarası sahənin orta xətt nahiyəsində icra olunan sümük iliyi punksiyası

Suboksipital punksiya (*p. suboccipitalis*) – böyük ənsə dəliyinin arxa kənarı və atlasın arxa qövsü arasından beyincik-beyin sisternlərinin punksiyası

Sümük iliyi punksiyası (*p. medullaris*) – süngəri sümüklərin histoloji müayinə məqsədilə sümük iliyi götürülməsi üçün icra olunan punksiyası

Ventrikulyar punksiya (*p. ventricularis*) – beyin mədəciklərinin punksiyası.

Punksiya iynəsi – orqan və boşluqlardan mayenin çəkilməsi zamanı istifadə olunur

Punktant ***(punctatum)*** – əsasən diaqnostik, bəzən isə müalicə məqsədilə punksiya vasitəsi ilə götürülmüş toxuma və ya maye

Pupillo- *(*lat. *pupilla* göz bəbəyi*)* – mürəkkəb sözlərin tərkib hissəsi olub, "bəbəyə aid olan" mənasını verir

Pupilloqrafiya – bəbək reaksiyasının, bəbəyin ölçüsünün dəyişməsinə əsasən foto və rentgen çəkilişi ilə müayinə edilməsi

Pupillometr – bəbəyin diametrini ölçmək üçün cihaz

Pupillometriya – bəbəyin ölçülməsi

Pupilloskopiya – oftalmoskop vasitəsi ilə bəbəkdən göz dibinin müayinə edilməsi

Purçer xəstəliyi (O. Purtscher, 1852-1927, avstr. oftalmoloq) – *bax:* travmatik retinopatiya

Purkinye fenomeni (J.E. Purkinje, 1787-1869, çex fizioloqu) – gündüz işıqlanmasından alaqaranlıq işıqlanmaya keçən zaman işığa həssaslığın daha qısa spektorlu dalğalara doğru maksimum dəyişməsi nəticəsində torlu qişanın sarı-qırmızı rəngə nisbətən göy-bənövşəyi rəngin daha aydın qəbul etməsi

Purkinye simptomu (J.E. Purkinje) – afakiya zamanı gözdə obyektin üç normal əksinin əvəzinə buynuz qişanın ön səthində bir əksin olması

Purkinye-Samson simptomu (J.E. Purkinje, 1787-1869, çex fizioloqu; L.J. Sanson, 1790-1841, frans. həkimi) – *bax:* Purkinye simptomu

Purpura *(purpura)* – dəri və ya selikli qişalara çoxsaylı xırda qansızmalar

Atrombopenik purpura – *bax:* angiohemofiliya

Atrombositopenik purpura – *bax:* angiohemofiliya

Beyin purpurası (*purpura cerebralis*) – baş beynin çoxsaylı xırda qansızmaları (məs., pnevmoniya, malyariya, beynin sərt qişa ciblərinin trombozu və intoksikasiyalar)

Dərman purpurası (*purpura medicamentosa*) – hər hansı bir dərman preparatının qəbulundan sonra meydana çıxan purpura

Düyünlü hemorragik purpura – *bax:* Fabri xəstəliyi

Hemorragik purpura (*purpura haemorragica*) – *bax:* trombositopenik purpura

İldırım sürətli purpura (*purpura fulminans*) – qanın damardaxili intensiv laxtalanması nəticəsində bir neçə saat ərzində dərinin böyük nahiyəsində çoxsaylı ekximozların meydana çıxması ilə təzahür edən hemorrogik vaskulit

Qanqrenoz purpura (*purpura gangraenosa*) – dəri nekrozu və çoxsaylı qansızmaların birgə təzahür etməsi (məs., meninqokokemiya zamanı)

Qaşınan purpura (*purpura pruriginosa*) – əsasən aşağı ətraflarda meydana çıxan intensiv qaşınma, purpura, qabıqlanan eritema və piqmentasiya ilə təzahür edən hemosideroz növü

Leventalın qaşınan purpurası – *bax:* qaşınan purpura

Sadə purpura (*purpura simplex*) – əsasən, ətrafların açıcı səthlərində və oynaq ətrafında rast gəlinən simmetrik petexiyalarla təzahür edən hemorragik vaskulitin dəri forması

Simptomatik purpura (*purpura symptomatica*) – hər hansı bir xəstəliyin təzahürü kimi meydana çıxan purpura (məs., skarlatina, vərəm, visseral leyşmaniyoz)

Trombositopenik purpura (*purpura thrombocytopenica*) – trombositopeniya və hemorragik sindromla xarakterizə olunan xəstəliklərin ümumi adı (məs., Verlqof xəstəliyi)

Trombositopenik trombohemolitik purpura – *bax:* Moşkoviç xəstəliyi

Trombotik purpura – *bax:* Moşkoviç xəstəliyi

Purpuroz piqment angiodermatiti *(angiodermatitis pigmentosa purpurosa)* – venaların varikoz genəlməsi zamanı dərinin 0,5 sm-ə qədər ölçülü piqment ləkələri şəklində təzahür edən dermatiti

Pustula *(pustula)* – dəri səpgisinin içərisi irinlə dolu olan qabarcıqlar şəklində morfoloji elementi

Pustulyoz bakterid *(bacteridum pustulosum)* – streptokokk və stafilokokk infeksiyaları zamanı təsadüf edilən, əsasən əl və ayaqlarda yerləşən pustulalar formasında dəri səpgisi

Putrid fleqmoası (çürümə) – toxumaların çürüməsi və ölməsi ilə nəticələnən ağırlaşma

Putti artrodezi (V. Putti, 1880-1940, ital. cərrahı) – bud-çanaq oynağının qalça sümüyündən götürülmüş sərbəst autotransplantatla hazırlanmış oynaq artrodezi

Püskürtmə üsulu – *bax:* insufflyasiya

Pyer-Roben sindromu (P. Robin, 1867-1950, frans. pediatrı) – qlossoptoz, mikroqnatiya, damağın anomaliyası, respirator distress sindromu; alt çənənin anadangəlmə hipoplaziyasının dilin inkişafdan qalması və damaq yarığı ilə birgə təsadüf etməsi, bu da udma və nəfəs almaqda çətinlik törədir

Pyetrantoni sindromu (L. Pietrantoni, ital. otorinolarinqoloqu) – yuxarı əng cibi və ya xəlbir sümüyün şişlərinin üçlü siniri sıxması nəticəsində üz dərisinin və ağız boşluğu selikli qişasının hissiyyatının itirilməsinin üçlü sinirin nevralgiyası ilə birgə təsadüf edilməsi

R

Rabdomioliz *(rhabdomyolysis,* yun. *rhabdos* çubuq + *mys, myos* əzələ*)* – eninəzolaqlı əzələnin zədələnməsi nəicəsində qanda sərbəst mioqlobinin və kreatinkinazanın artması, ağır miopatiya ilə müşahidə olan sindrom

Rad *(radiation absorbed dose)* – ionlaşdırıcı şüalanmanın udulmuş dozasının vahidi

Rad sindromu – ixtioz ilə müşahidə olan oliqofreniya, autosom resesiv tipli genetik anomaliya

Radektomiya *(radektomia, sin. apiekoektomiya)* – diş kökü zirvəsinin rezeksiyası

Radiasion biogeosenologiya *(radiation biogeocenology) – bax:* radiasion ekologiya

Radiasion kombinəolunmuş zədələnmə *(combined radiation injury)* – ionlaşdırıcı şüaların orqanizmin xaricinə və eyni zamanda daxilinə düşməsi nəticəsində meydana çıxan radiasion zədələnmə

Radiasion nefrit *(radiation nephritis)* – *bax:* şüa nefriti

Radiasion temperatur *(radiation temperature)* – insan bədəninin ətraf